AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

# AZƏRBAYCAN

# TARİXİ

ən qədimdən
bizim eranın III əsri

**YEDDİ CİLDDƏ**
**I CİLD**

BAKI – 2007



downloaded from KitabYurdu.az

Bu kitab "Azərbaycan tarixi. Yeddi cilddə. I cild" (Bakı, Elm, 1998)
nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Məsul redaktor: **Iqrar Əliyev**
Akademik

**ISBN 978-9952-448-36-8**

**947. 5402-dc22**
Tarix – Azərbaycan

**Azərbaycan tarixi.** Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri).
Bakı. "Elm". 2007. 520 səh. + 40 səh. illüstrasiya.

Azərbaycan dünyanın ən qədim insan məskənlərinden və sivilizasiya mərkəzlərindən biridir. Yeddicildlik "Azərbaycan tarixi"nin I cildi Azərbaycan tarixinin ən qədim zamanlardan başlayaraq eramızın III əsrinin birinci rübü ilə başa çatan böyük bir dövrünü əhatə edir.

Kitabda arxeoloji mənbələr və yazılı abidələr əsasında ölkəmizdə ibtidai insan cəmiyyətinin mərhələləri, mənəvi həyatı, onun dağılması, ilkin sinifli cəmiyyətin və dövlətlərin meydana gəlməsi, onların taleyi, şəhər həyatı, mədəniyyəti, xalqın yadelli işğalçılarla mübarizəsi, etnik məsələlər və s. açıqlanır.

"Elm" nəşriyyatı, 2007



downloaded from KitabYurdu.az

## İNSTİTUTDAN

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun kollektivi ötən əsrin 70-ci illərindən başlayaraq Elmlər Akademiyası Rəyasət Heyətinin təsdiq etdiyi Baş Redaksiya Şurasının rəhbərliyi altında yeddicildlik "Azərbaycan tarixi" üzərində işləməyə başladı. Artıq 1990-cı ildə iki cildi istisna olmaqla, bütün cildlərin yazılması başa çatdırılmış, I, IV, V və VI cildlər Baş Redaksiya Şurası tərəfindən nəşr olunmağa tövsiyə edilmişdi. Lakin bu cildlər öz dövrünün siyasi konyunkturasından azad deyildi. Azərbaycan tarixinin bir sıra dövr və aspektləri hakim ideologiyanın təsiri altında birtərəfli işıqlandırılır, faktlar və hadisələr siyasiləşdirilir, bir sıra görkəmli tarixi şəxsiyyətlərin fəaliyyəti təhrif edilir, ya da tamamilə unudulurdu.

Tarixçi alimlər özlərinin professional səviyyəsini saxlamaqla Azərbaycan tarixinin obyektiv, həqiqi mənzərəsini bərpa etməlidirlər. Azərbaycan tarixinin müasir tələblər səviyyəsində akademik nəşrini hazırlamaq üçün sənəd və mənbələrin araşdırılması, eləcə də zəngin çoxcəhətli faktik materialların tam dərk edilməsi sahəsində böyük işlər görülməlidir.

Geniş ictimaiyyətin tarixi biliklərə, xüsusilə Ana vətənin tarixinə daim artmaqda olan marağını nəzərə alaraq, Elmlər Akademiyasının Rəyasət Heyəti 1997-ci il sentyabr ayının 24-də çoxcildli "Azərbaycan tarixi"nin hazırlanıb nəşr edilməsini qərara aldı.

Oxuculara təqdim edilən, əhəmiyyətli dərəcədə yenidən işlənib təkmilləşdirilmiş bu nəşr tarixçi alimlərimizin həmin qərara cavabıdır.

Biz əminik ki, oxucu kütləsinin mühakiməsinə verilən bu kitabların "Azərbaycan tarixi"nin çoxcildli akademik nəşri üçün böyük faydası olacaqdır.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun rəhbərliyi, müəllif kollektivi oxucuların qeyd, təklif və arzularını minnətdarlıqla qəbul edəcəkdir.



downloaded from KitabYurdu.az

# G İ R İ Ş

Azərbaycan yer üzünün ən qədim mədəniyyət mərkəzlərindən biridir. Onun ərazisinin sakinləri minilliklər ərzində yaratdıqları zəngin mədəni irs qoyub getmişlər. Bu irs müxtəlif tarixi qaynaqlar – maddi və yazılı abidələr əsasında öyrənilir.

Maddi abidələrin öyrənilməsi ilə arxeologiya məşğul olur. Torpaq özündə bu abidələrin tükənməz "arxivi"ni - əmək alətləri, məişət və bəzək əşyaları, silah, məskən qalıqları, qəbirlər, qədim mədən və metaləritmə yerləri, həmçinin başqa şeylər saxlayır.

Ona görə də ayrı-ayrı elmlərin qovuşuğunda dayanan arxeologiyanın əhəmiyyəti son dərəcə böyükdür. Müxtəlif elmlərin nümayəndələri, ilk növbədə, arxeoloq, tarixçi və filoloq, fizik və kimyaçı, etnoqraf və antropoloq, geoloq və paleontoloq, botanik, zooloq və başqaları öz biliklərini "arxeologiya mehrabı"na gətirirlər.

Axtarış zamanı aşkara çıxarılan arxeoloji abidələr qədim dövrlərdən başlamış son orta əsrlərədək Azərbaycan tarixini daha əsaslı şəkildə və daha dərindən işıqlandırmaq imkanı verir. Şübhə yoxdur ki, azərbaycanşünaslığın bir çox mühüm problemlərinin həlli birbaş arxeoloji axtarışlarla bağlıdır.

Arxeologiya təkcə öyrənilən ölkənin ilk sakinlərinin maddi və mənəvi mədəniyyət səviyyəsi haqqında mühakimə yürütməyə deyil, həm də məhsuldar qüvvələr tarixi, sinfi cəmiyyətin yaranması və inkişafı, miqrasiya, etnogenez və bir çox başqa problemlərlə bağlı olan mühüm məsələlərin bu və ya digər dərəcədə həll olunmasına imkan verir.

Arxeologiya diyar tarixinin məkan üfüqlərini, onun çərçivələrini genişləndirmiş, bizim nəsil şəcərəmizin minilliklərin dərinliklərinə gedən köklərini izləməyə imkan vermişdir.

Lakin təkcə arxeologiyanın köməyi ilə sosioloji nəticələr çıxarmaq, yazılı qaynaqlar olmayan dövrlərin, o cümlədən ibtidai icma cəmiyyətinin, necə deyərlər, canlı tarixini vermək, xüsusən də ibtidai icma dövründə sosial münasibətlərin, insanın mənəvi aləminin mənzərəsinin yaratmaq və s. qeyri-mümkündür. Maddi abidələri "canlandırmaq", onları izah etmək üçün əlavə məlumatlar, ilk növbədə, primatoloji müşahidələr, paleoantropoloji tədqiqatlar və əlbəttə ki, etnoqrafik materialların cəlb olunması zəruridir.

Arxeoloji materiallar, şübhəsiz ki, etnoqrafik şərh tələb edir, əks halda bölgənin ibtidai icma cəmiyyəti tarixinin dolğun mənzərəsini bərpa etmək çətindir.

Bizə məlum olan antropoloji material çox az olsa da, onun böyük əhəmiyyəti var.



downloaded from KitabYurdu.az

Bölgənin qədim onomastikası (etnotoponimika və antroponimikası) ən qədim tarixi problemlər dairəsinin ayrı-ayrı tərəflərini başa düşmək üçün müəyyən informasiya verə bilər. Lakin bizdə bu istiqamətdə tədqiqatlar aparılmamışdır.

Son zamanlar Azərbaycan ərazisində aşkara çıxarılmış və artıq elmi dövriyyəyə daxil edilmiş numizmatik materiallar da tariximizin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Onlar bölgənin iqtisadi inkişafı, siyasi tarixinin bəzi hadisələri, müəyyən dərəcədə həm də mədəni səviyyəsi haqqında mühakimə yürütməyə imkan verir.

Yazılı qaynaqların da çox böyük əhəmiyyəti var. Azərbaycan tarixi üzrə yazılı qaynaqları iki qrupa bölmək olar: sənədli və nəqli xarakterli qaynaqlar.

Cənubi Azərbaycan və həmsərhəd ərazilərin tayfaları haqqında məlumatlar verən, ən, qədim qaynaqlar Şumer-Akkad mətnləridir. Şumer və qədim Akkad dillərində tərtib olunmuş bütün bu kitabələr e.ə. III minilliyə və II minilliyin başlanğıcına aiddir. Bu mətnlərin meydana çıxması əsasən Şumer və Akkad çarlarının Zaqros dağları zonasına yürüşlərinə, habelə kuti hakimlərinin Cənubi Beynənnəhreyndəki birəsrlik hökmranlığına borcludur. Ən ilkin, yazılı qaynaqlar sırasında lullubi hökmdarlarının bir neçə qısa yerli kitabələrini də xatırlamaq lazımdır.

Şumer-Akkad qaynaqları içərisindən kuti hakimlərinin siyahısını, Omina (əlamətlər, nişanələr) adlanan bəzi mətnləri, o cümlədən kuti və lullubilərin xatırlandıqları, Şumer hakimi Utuxeqalın Mesopotamiyadakı sonuncu kuti hökmdarı Tirikanla müharibəsinin təsviri verilmiş mətnləri, Zaqros bölgəsinə yürüşlər etmiş Şumer-Akkad hökmdarlarının kitabələrini və başqalarını sadalamaq lazımdır.

E.ə. II minilliyin Elam və Aşşur qaynaqları çox kasıbdır və Zaqros zonası tayfaları haqqında, demək olar ki, heç bir məlumat vermir. Aşşur qaynaqları içərisində bizim üçün ən vacibləri II Adadnerari, II Tukulti-Ninurta, II Aşşurnasirapal, III Salmanasar, V Şamşi-Adad, III Adadnerari, III Tiqlatpalasar, II Sarqon, Sinaxxerib, Asarxaddon və Aşşurbanipalın kitabələridir.

Aşşur çarlarının kitabələrində çoxsaylı yürüşlərin, Azərbaycan vilayətləri və qonşu vilayətlərdə məskunlaşmış tayfaların xarici, müəyyən dərəcədə isə daxili siyasi və iqtisadi həyatının gedişini izləməyə imkan verən təsvirlər verilmişdir. Onlarda, deyilənlərdən əlavə, dağlıq rayonların mürəkkəb etnik-dil mənzərəsindən baş çıxarmağa kömək edən xeyli onomastik material vardır.

Aşşur qaynaqlarının Cənubi Azərbaycan vilayətləri haqqında məlumatları xeyli dərəcədə Urartu kitabələrində mövcud olan məlumatlarla zənginləşir.

Urmiyayanı hövzə vilayətlərinə Urartu müdaxiləsi haqqında e.ə. IX əsrin sonuna aid olan ən ilkin məlumatlarda Minua, I Arkişti, II Sarduri, II Argişti bu rayonlara öz yürüşləri barəsində xəbər verirlər.



downloaded from KitabYurdu.az

Cənubi Azərbaycan ərazisində aşkara çıxarılmış Urartu kitabələri xüsusən Urmiyanın hövzə vilayətlərinin yaşayış məntəqələrinin yerini müəyyənləşdirmək üçün mühüm əhəmiyyətə malikdir.

Babil qaynaqları içərisində e.ə. VII əsrin son rübünün hadisələrini işıqlandırmağa imkan verən məşhur "Kedd xronikası"nın adını çəkmək lazımdır.

Cənubi Azərbaycan haqqında bəzi məlumatları "Bibliya"dan da almaq olar.

"Avesta" mühüm mənbələrdən biridir. Zərdüştlük və onunla bağlı olan dini fəlsəfi sistemlər Cənubi Azərbaycan ərazisində min ildən xeyli artıq olan uzun bir dövr ərzində yayılmışdı. Bizim "Avesta"ya diqqətimiz də bununla izah olunur. "Avesta"nın kanonlaşdırılmalarından biri, şübhəsiz ki, Atropatenada bu məmləkətin Sasani səltənətinin dövlət ziyarətgahı olduğu dövrdə baş vermişdir.

Çar I Daranın Həmədan rayonunda sıldırım qaya üzərində üç dildə yazılmış Bisütun kitabəsi də bizə bəzi məlumatlar verir.

Antik yazıçılar - Miletli Hekatey, Lampsaklı Xaron, Lidiyalı Ksanf, Hellanik və b. əsərlərində də Azərbaycan tarixi üzrə müəyyən məlumatlar var. E.ə. VI-V əsrlərin yunan yazıçısı, ən qədim coğrafi xəritə əlavə olunmuş məşhur "Yerin təsviri" əsərinin müəllifi Miletli Hekatey Cənubi Azərbaycanda məskunlaşmış matienlər tayfasının, Arazboyu müklərin, Kaspi dənizi sahilində yaşayan hansısa katannların adlarını çəkir.

Şərq haqqında yazılmış ilk yunan müəllifləri içərisində əsas yer, şübhəsiz ki, "tarixin atası" Herodota (e.ə. V əsr) - qədim dövrün böyük tarixçisinə mənsubdur. Herodotun madahlar (midiyalılar) və Mada (Midiya), skiflər və onların Asiya vilayətlərinə yürüşləri, Azərbaycan tayfaları - müklər, utilər, saqartilər, matienlər, kaspilər, ortokoribantlar haqqında məlumatları bizim üçün vacibdir.

Herodotun özünün bilavasitə şahidi olduğu hadisələr, habelə sorğu yolu ilə aldığı məlumatlar onun "Tarix"nin əsas mənbələridir. İran şahları arxivlərinin rəsmi sənədlərinə yol Herodot üçün ilk növbədə ona görə bağlı olmuşdur ki, o, yunan dilindən başqa heç bir dil bilmirdi. Lakin bəzən onun əsərlərində, nəticə etibarilə bu rəsmi sənədlərlə bağlı olan məlumatlara rast gəlinir. Şübhəsiz ki, Herodot onlardan üçüncü əldən götürməklə istifadə etmişdir. Onun bəzi şeyləri öz sələfi Hekateydən götürdüyü müəyyənləşdirilmişdir. Bəzi səhv və xətalara baxmayaraq, Herodotun müstəsna dərəcədə düzlüyünə və vicdanlılığına şübhə etmək üçün əsas yoxdur. Onun əsəri bütövlükdə indinin özünədək tariximizin bir sıra məsələləri üzrə ən mühüm qaynaqlardan biri olaraq qalır.

İyirmi ilə qədər İran sarayında yaşamış, Əhəmənilərin (Haxamanişilərin) saray həkimi olmuş, e.ə. V əsr müəllifi Knidli Ktesinin "Persika" əsərinin qorunub saxlanılmış azsaylı parçalarından isə çox şey əldə etmək mümkün deyil.

Ktesi ayrı-ayrı hallarda ola bilsin ki, Əhəməni şah arxivinin rəsmi sənədlərindən istifadə etmişdir. Onun əsərinin müəyyən məşhurluğuna baxmayaraq, hələ qədim oxucular orada həqiqətə uyğun olmayan çoxlu məlumat görə bilmişdilər. Ktesi tarixçi



downloaded from KitabYurdu.az

olmadığından xalq ənənələrindən istifadə edərək, tarixi əsasən bu ənənələrin işığında göründüyü şəkildə söyləyirdi. "Persika"da döyüşkən Cənubi Azərbaycan tayfası kadusilər haqqında ən qədim məlumat vardır. Ola bilsin ki, əsərdə Kaspiananın da adı çəkilirmiş.

E.ə. V-IV əsrlər müəllifi Ksenofontda da bəzi tarixi məlumatlar vardır. Onların bir hissəsinin kökü Herodota və Ktesiyə gedib çıxır.

Ktesinin bizi maraqlandıran məsələlər üzrə bəzi məlumatları yunanca yazıb-yaratmış e.ə. I əsr müəllifi Siciliyalı Diodorun "Tarixi kitabxana"sında qorunub saxlanılmışdır. O, kadusi və tapürlərin torpaqlarının, Kaspiana, Kaspi dənizi və skiflərin adlarını çəkir, yunan-Makedoniya istilaları dövrünün hadisələrini və s. xatırlayır.

Makedoniyalı İskəndərin müasiri və bematisti (addımölçəni) Amintanın, Babil kahini Berosun (e.ə. IV-III əsrlər), e.ə. III əsr müəllifi Hermippin, e.ə. II əsrin məşhur tarixçisi, əsəri məlumatlarının xüsusi dəqiqliyi ilə seçilən, qırxkitablıq "Tarix"in müəllifi Polibinin və başqalarının əsərlərində bəzi mühüm məlumatlar qorunub saxlanılmışdır. Polibinin Atropatena barəsində məlumatları xüsusilə əhəmiyyətlidir.

Amasiyalı Strabonun (e.ə. 63-cü il - b.e. 23-cü ili) yunan dilində yazılmış və "Coğrafiya" adlanan sanballı əsəri bizim üçün əvəzolunmaz qaynaqdır. Strabon öz dövrünə görə yaxşı təhsil almış, çoxlu səyahət etmiş, müstəsna müşahidəçiliyi və dərin zəkası ilə fərqlənmişdir. Amasiyalı müəllifin əsərində Makedoniyalı İskəndərin müasirlərinin və hətta daha əvvəlki müəlliflərin əsərlərindən başlamış Strabonun öz müasirlərinin əsərlərinədək saysız-hesabsız müxtəlif qaynaqlardan istifadə olunmuşdur.

Strabon Aristobulun, Patroklun, Eratosfenin, Skepsili Metrodorun, Hipsikratın, Dellinin əsərləri, Roma sərkərdəsi Pompeyin e.ə. 66-65-ci illərdə Zaqafqaziya səfərində onun yol yoldaşı Mitilenli Feofanın qeydləri və bir sıra digər müəlliflərin işləri ilə tanışdır və öz "Coğrafiya"sında bu əsərlərdən bol-bol parçalar gətirir.

Qafqazın, ayrı-ayrı hallarda isə bəzi digər qonşu ölkələrin Strabon "Coğrafiya"sındakı təsviri, ətraflılığına görə bu ölkələrin tarixi, coğrafiyası və etnoqrafiyası üzrə yeganə qaynaqdır.

Yazıları dövrümüzə qədər gəlib çatmış antik müəlliflərin heç birində albanlar haqqında "Coğrafiya"da verilənlər yoxdur. Strabonun Atropat Madası və ya Atropatenanın Böyük Madanın bir hissəsi olması, bu ölkənin öz adını Atropatın adından alması və s. kimi məlumatları müstəsna qiymətə malikdir.

Lakin "Coğrafiya"nın albanlar haqqında danışılan yerlərində xeyli ziddiyyətlərə də rast gəlinir ki, bu da, görünür, Albaniyanın müxtəlif vilayətlərinə aid olan və heç də bütövlükdə ölkə və onun əhalisini səciyyələndirməyən müxtəlif dövrlü fakt, olay və hadisələrin ümumiləşdirilməsinin nəticəsidir.

Məşhur Roma tarixçisi, 35 kitabı və itib-batmış cildlərinin bir qədər fraqmentləri qorunub saxlanılmış "Roma tarixi" əsərinin müəllifi Tit Livi (e.ə. 59-cu il - e. 1-ci ili)



downloaded from KitabYurdu.az

Roma müdaxiləsi dövrü albanları haqqında bəzi məlumatlar verir, madalılar və kadusilərin adlarını çəkir.

Tit Livinin müasiri latın müəllifi Pompey Troqun əsəri "Filippin tarixi" bizim dövrümüzə qısa şərh şəklində - II və ya III əsrdə yaşamış Yustinin epitoması vasitəsilə gəlib çatmışdır. Pompey Troq əksər hissəsi bizə gəlib çatmamış xeyli miqdarda qaynaqlardan istifadə etmiş və bütövlükdə hellinist dünyasının tarixi üzrə çox qiymətli əsər yaratmışdır. Pompey Troq hellinist tarixşünaslığında üstün yer tutmuş meylin - yunan-Roma mifologiyası və toponimiyası ilə bir sıra Şərq ölkələrinin coğrafiyası və tarixinin əlaqələri haqqındakı meylin tərəfdarı idi. Məsələn, romalı müəllif Qafqaz albanları haqqında məlumat verərkən onları Heraklın işləri ilə bağlayır və onların kökünü İtaliyaya, Alban dağına aparıb çıxarır. Pompey Troqanın əsərlərində skiflər və onların Asiyadakı hökmranlığı, parfiyalılar, madalılar, kadusilər və b. haqqında xeyli maraqlı məlumatlar var.

Müəllifi Kvint Kursi Ruf olan "Böyük Aleksandrın tarixi" bizim mövzu üçün müəyyən maraq kəsb edir. Bu müəllif öz əsərini e.ə. I əsrin sonu ilə e. I əsrinin ortaları arasında yazmışdır. Bu əsər kompilyasiya olsa da, bizim üçün mühüm əhəmiyyəti var. Belə ki, burada əsərləri itmiş müəlliflərin məlumatları qorunub saxlanmışdır.

Pomponi Melanın I əsrin ortalarında yazılmış "Yerin təsviri" adlı həcmcə kiçik (bütöv halda bizə gəlib çatmış cəmi üç kitab) əsərində bizim bölgənin coğrafiyası, burada məskunlaşmış tayfalar haqqında müxtəlif, bir hissəsi çox qiymətli məlumatlar var. Mela həm qədim müəlliflərin, həm də öz müasirlərinin əsərlərindən istifadə etmişdir. Bu da ona Roma ədəbiyyatında coğrafiya üzrə bir növ bitkin bir dərslik yaratmaq imkanı vermişdir. Mela Kaspi dənizi, kaspilər, skiflər, albanlar, amardlar, kadusilər və başqaları haqqında danışır.

Böyük Plininin (23/24-79-cu illər) "Təbii tarix"i bizim üçün mühüm əhəmiyyətə malikdir. Demək olar ki, 350 yunan və 150-dək Roma müəllifinin əksəriyyəti bizə gəlib çatmamış bir çox əsərindən istifadə edilərək yazılmış bu ensiklopedik xarakterli əsərdə Azərbaycanın təbiəti, əhalisi, burada məskunlaşmış tayfaların məişəti haqqında bir sıra çox qiymətli məlumatlar var.

Albaniyanın paytaxtı Qəbələnin adının ən ilkin xatırlanması Plininin hesabına bizə gəlib çatmışdır (Plinidə: Kabalaka). O, bu ada, çox güman ki, e.ə. II-I əsrlərdə yaşamış romalı müəllif Varronun əsərlərində rast gəlmişdir.

Plininin qaynaqlarından danışarkən qeyd etmək lazımdır ki, bir çox hallarda o özü bu qaynaqların adlarını çəkir və bununla da onun bu və ya digər məlumatının xarakteri və dolğunluq dərəcəsini müəyyənləşdirmək sahəsində tədqiqatçının işini yüngülləşdirir. Plininin istifadə olunan qaynaqlara müəyyən qeyri-tənqidi yanaşmasını və "Təbii tarix"in mətninin pis qorunub saxlanmasını da göstərmək lazımdır.

Albaniya və Atropatena, habelə onlarla həmsərhəd bölgələrdə baş vermiş bəzi siyasi hadisələr yunan dilində yazıb-yaradan yəhudi müəllifi İosif Flavinin iki əsərində -



downloaded from KitabYurdu.az

"Yəhudi müharibəsi haqqında" və "Yəhudi asari-ətiqələri" əsərlərində öz əksini tapmışdır. Təxminən 37-ci ildə doğulmuş və təxminən 95-ci ildə vəfat etmiş Flavi məşhur kahin nəslinə mənsub olmuş, 63-cü ildən Romada yaşamışdır. Flavinin əsəri orijinal deyildir, onun məlumatlarının çoxu Bibliya və yunan müəlliflərindən götürülmüşdür.

Roma dövrü tarixçilərinin hamısından çox tanınanı və məşhuru yunanca yazan Plutarx (46-127-ci illər) olmuşdur. O, çox səyahət etmiş, məhsuldar yazıçı olmuşdur. Məşhur "Müqayisəli tərcümeyi-hallar" əsəri Plutarxa şöhrət gətirmişdir. Aleksandrın, Sullanın, Lukullun, Antoninin və b. tərcümeyi-halları xüsusən qiymətlidir.

Plutarxın "İsida və Osiris haqqında" əsəri də bizim üçün mühüm əhəmiyyətə malikdir. Müəllif bu əsərində e.ə. IV əsrdə yaşamış, Makedoniyalı Aleksandrın tapşırığı ilə zərdüştiliyin müqəddəs kitablarını öyrənən Feopompun ardınca gedərək maqların təlimi və i.a. haqqında maraqlı məlumatlar verir.

İçərisində "Annallar" ("Salnamələr") və "Tarixlər" kimi xüsusilə seçilən çoxlu əsərin müəllifi, məşhur romalı tarixçi Korneli Tasit (təxminən 55-117-ci illər) də bizə bir sıra qiymətli məlumat çatdırmışdır. Onun əsərlərinin Romanın Qafqaz ölkələri, o cümlədən Albaniya, habelə Parfiya ilə münasibətlərindən bəhs edilən səhifələri müstəsna dərəcədə mühüm qaynaqdır.

Eramızın II əsrində (95-175-ci illər) yaşamış, Vifiniyanın Nikomediya şəhərində doğulmuş, parlaq təhsil almış Flavi Arrianın yunanca yazılmış "Anabazis" ("Aleksandrın yürüşü") əsərində albanlar və Atropatena tarixi barəsində nadir məlumatlar qorunub saxlanılmışdır. Yeddi kitabdan ibarət olan "Anabazis"də xeyli miqdarda müxtəlif növlü qaynaqlardan, o cümlədən rəsmi sənədlərdən (Makedoniyalı Aleksandrın silahdaşı Nearxın məlumatlarından, "Saray jurnalı"ndan və s.) istifadə edilmişdir.

"Anabazis"ə əsaslanaraq albanların e.ə. IV əsrin son otuzilliyində tarix səhnəsinə çıxdıqlarını müəyyənləşdirmək və onlar haqqında məlumatı Əhəməni dövləti və Makedoniyalı Aleksandr arasında müharibə ilə əlaqələndirmək mümkün olur. Arrianda Atropatena tarixi üzrə də bir sıra maraqlı məlumatlar var.

Albanlar haqqında maraqlı məlumatlara II əsr müəllifi Appianın "Mitridatın müharibələri" adlı məşhur əsərində də rast gəlmək mümkündür.

II əsr müəllifi Klavdi Ptolemeyin "Coğrafiya dərsliyi"ndə Azərbaycanın coğrafiyası haqqında xeyli material var. Ptolemey bir çox vilayətlərin, dağların, çayların, keçidlərin, şəhər, iri yaşayış məskənlərinin və xalqların adlarını çəkir. Lakin onun xəritəsində xeyli miqdarda təhrif və uyğunsuzluqlar vardır.

Dion Kassi Kokkeianın (təxminən 150-235-ci illər) "Roma tarixi"ndə Atropatena və Albaniya haqqında məlumatlar var. Yunan dilində yazılmış bu əsərin səksən kitabından bütöv şəkildə ancaq iyirmi beşi (XXXVI-LX kitablar) və müəyyən miqdarda fraqmentlər qorunub saxlanılmışdır. Dion Kassinin albanlar və



downloaded from KitabYurdu.az

atropatenalıların Roma müdaxiləsinə qarşı mübarizəsini işıqlandıran məlumatları bizim üçün xüsusilə maraqlıdır.

II-V əsrlər müəllifləri Eli Qordian, Flor, Dionisi Perieget, Yuli Solin, Elian, Ammian Marsellin, Eli Spartian, Orozi, Bizanslı Stefan və b. əsərlərində Atropatena və Albaniya haqqında bir sıra mühüm məlumatlar var.

Antik qaynaqların müstəsna əhəmiyyətinə baxmayaraq, onlara ehtiyatla yanaşmaq lazımdır, çünki antik müəlliflərin məlumatları tez-tez təsadüfi, çox vaxt isə ziddiyyətli xarakter daşımış və heç də həmişə dəqiqliyi ilə fərqlənməmişdir.

Qədim Suriya, erməni və gürcü qaynaqlarının da müəyyən əhəmiyyəti vardır.

Sovet hakimiyyətinin qurulmasından əvvəl Azərbaycanın qədim tarixi məsələləri ilə tək-tək həvəskarlar məşğul olmuşdular. Rus elmində bu tarixə maraq ancaq Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra meydana çıxır.

XIX əsrin birinci yarısı Azərbaycan tarixşünaslığının ən parlaq siması və əslində ilk Azərbaycan tarixçisi, "Gülüstani-İrəm"in müəllifi, antik, Şərq, Qərbi Avropa və rus qaynaqları və ədəbiyyatı əsasında ən qədim dövrlərdən əsrin əvvəllərinədək Azərbaycan tarixinin xülasəsini verməyə cəhd göstərmiş A.Bakıxanov olmuşdur.

Qafqaz Albaniyasına həsr olunmuş ilk məqalələrdən biri Derpt Universitetinin professoru F.Kruzenin 1835-ci ildə "Xalq Maarifi Nazirliyinin jurnalı"nda çap olunmuşdur. Müəllif öyrənilən diyarın keçmişini dərk etmək üçün arxeoloji tədqiqatların əhəmiyyətini qeyd edərək, ölkənin zənginliklərini canlı boyalarla işıqlandırır, onun Rusiya üçün iqtisadi əhəmiyyətindən və s. danışır.

"Ensiklopediya leksikonu"nun (1835-ci il) birinci cildində "Qədim Asiya Albaniyası" adlı qısa qeyd çap olunmuşdur.

Qədim Qafqaz Albaniyasına həsr edilən öz dövrü üçün ilk ciddi tədqiqat rus alimi A.Yanovskinin 1846-cı ildə "Xalq Maarifi Nazirliyinin jurnalı"nda dərc edilmiş "Qədim Qafqaz Albaniyası haqqında" əsəri olmuşdur. Burada antik və ilk orta əsrlər müəlliflərinin Albaniya haqqında məlumatları toplanılmış və təhlil edilmiş, ölkənin qədim toponimlərinin müəllif üçün müasir olan coğrafi adlarla tutuşdurulmasına və s. cəhd göstərilmişdir. A.Yanovskidə xeyli maraqlı fikirlər var, lakin onun müddəa və nəticələri heç də həmişə danışıqsız qəbul edilə bilməz.

Akademik B.A.Dornun 1875-ci ildə dərc edilmiş "Kaspi. Qədim rusların Təbəristana yürüşləri haqqında" adlı sanballı əsərinə daxil edilmiş "Qədim Albaniya Ptolemeyə görə" məqaləsi polemik ruhda yazılmışdır.

İ.Şopenin "Qafqazın qədim tarixlərinə dair yeni qeydlər" kitabındakı (SPb, 1866) "Aqvaniya, Albaniya və Çoğa" bölməsi buradakı baxışların səthiliyi üzündən zəifdir. Müəllif öz mülahizələrində mövzuya əsil elmi yanaşmadan uzaqdır.



downloaded from KitabYurdu.az

XIX əsrin son otuzilliyindən başlayaraq Şimali Azərbaycan ərazisində ilk epizodik arxeoloji qazıntılar aparılmağa başlanmışdır. Onlar E.A.Ressler tərəfindən başlanmış, sonralar J. de Morqan, Q.O.Rozendor, V.A.Skinder və b. tərəfindən davam etdirilmişdir.

Azərbaycanın, o cümlədən Qafqaz Albaniyasının qədim tarixinin öyrənilməsinə Qərbi Avropa alimləri K.İ.Noyman, A.Herrman, V.Tomaşek, Y.Markvart, Q.Hübşman, T.Nöldeke və b. müəyyən töhfə vermişlər.

Xüsusi olaraq Manna tarixinə həsr edilmiş ilk tədqiqat K.Belkin 1884-cü ildə çapdan çıxmış məqaləsi olmuşdur. Qədim İran tarixinə həsr olunmuş ümumi əsərlərdə, yaylanın etnik tarixinin bu və ya digər aspektini, qədim dillərini, burada mövcud olmuş dinləri nəzərdən keçirən xüsusi tədqiqatlarda Cənubi Azərbaycanın tarixi coğrafiyası, etnik və dil mənzərəsi, ümumiyyətlə, qədim tarixi problemlərinin aydınlaşdırılması üçün az iş görülməmişdi. Bunlar F.Şpigel, H.Ravlinson, F.Yusti, H.Vinkler, Y.Praşek, E.Meyer, Q.Hüzinq, M.Ştrek, Y.Markvart, F.Türo-Danjen və b.-nın əsərləridir.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra qədim tarix üzrə elmi tədqiqatlar aparılmağa başlandı. 1920-ci ildə Azərbaycan Dövlət Muzeyi yaradıldı. Respublika hökumətinin vəsatəti nəticəsində Tbilisi, Moskva və Leninqrad muzeylərində saxlanılan Azərbaycan tarixinə aid qiymətli eksponatlar 1924-cü ildə bu muzeyə verildi.

1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradıldı. Elə həmin ildə onun tarix-etnoqrafiya bölməsi üzvlərinin təşəbbüsü ilə sonralar (1927-ci ildə) "Azərbaycan asari-ətiqələri, incəsənət və təbiət abidələrinin mühafizəsi komitəsi" (Azkomstaris) adlandırılmış Arxeologiya Komitəsi təşkil olunur.

Qısa müddət ərzində Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti respublikanın arxeoloji-etnoqrafik tədqiqi, onun qədim tarixinin öyrənilməsi üzrə geniş və məqsədyönlü fəaliyyətə başlayaraq, əslində iri elmi mərkəzə çevrilən Azərbaycan Dövlət Muzeyinin "Materialları"nda, Azkomstarisin "Xəbərlər"ində, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin "Xəbərlər"i və "Əsərlər"ində ilk ciddi tədqiqatlar, o cümlədən diyarın qədim tarixi üzrə də xeyli materiallar dərc olundu.

İyirminci illərdə respublikada artıq müntəzəm arxeoloji qazıntılar aparılırdı.

Azərbaycanın qədim tarixinin öyrənilməsinin formalaşması və inkişafı rus elminin nümayəndələri - Azərbaycanın, ilk qədim dövr tarixçilərinin müəllimləri ilə sıx əməkdaşlıq şəraitində gedirdi. Akademiklər N.Y.Marr, V.V.Bartold və İ.İ.Meşşaninovun, habelə T.S.Passek, B.A.Latının, A.A.Miller, B.V.Miller, A.A.İessen, Y.A.Paxomov, V.M.Sısoyev və b.-nın xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Elə bu illərdə elmə milli kadrlar - R.İsmayılov, D.M.Şərifov, A.K.Ələkbərov, İ.İ.Əzimbəyov, İ.M.Cəfərzadə, S.M.Qazıyev və b. gəlir.



downloaded from KitabYurdu.az

Azərbaycan tarixi sahəsində tədqiqat işi lap əvvəldən özünün fərqli xüsusiyyətlərinə malik idi. Uzaq keçmiş və ilkin orta əsrlərin yerli yazılı qaynaqlarının demək olar ki, olmaması üzündən bu başlanğıc dövründə Azərbaycanın qədim tarixi sahəsində bütün axtarışlar sırf arxeoloji istiqamət daşıyırdı. Artıq ilk böyük arxeoloji ekspedisiyalar Dağlıq Qarabağ və Naxçıvan zonalarında, Gəncə zolağında, Mil düzündə, Lənkəranda, Yaloylutəpədə, Nuxa qəzası, Qəbələ və b. rayonlarda xeyli gözlənilməz və maraqlı əşyalar aşkara çıxarmış, elm qarşısında hələ tam həll olunmamış bir sıra yeni, mühüm problemlər qoymuşdu.

O dövrdə mixi yazılar və digər qaynaqlardakı, habelə antik müəlliflərin əsərlərindəki məlumatlara lazımi diqqət yetirilmirdi. Hər halda bu qaynaqlar, xüsusən də Şərq qaynaqları, məhz, Azərbaycan tarixinin öyrənilməsi baxımından hələlik xüsusi tədqiqat obyektinə çevrilməmişdi. Bu baxımdan Y.İ.Meşşaninov və I.A.Paxomovun əsərləri müəyyən istisnalıq təşkil edir.

Azərbaycanın qədim tarixinin öyrənilməsinin bu mərhələsini bütövlükdə səciyyələndirərkən məlum olur ki, alimlər demək olar ki, boş yerdə işə başlamalı olurdular. Lakin məhz bu illərdə sonralar elmdə Azərbaycanın qədim tarixi kimi bölməni fərqləndirməyə imkan verən tədqiqatlar və elmi istiqamətlərin bünövrəsi qoyulmuşdur. Bu, Azərbaycanın qədim tarixi səhifələrinin canlandırılmasına imkan yaradan faktların sistemləşdirilməsinin, yeni faktların əldə olunması və "oxunması"nın (əsasən arxeoloji qazıntıların köməyi ilə) intensiv bir dövrü idi. Respublikanın qədim tarixinə ilk dəfə bütün qədim tarixin geniş fonunda, qonşu və uzaq ölkələrin tarixi ilə az və ya çox sıx əlaqəli şəkildə baxılmağa başlanır. Beləliklə, 20-ci illər alimlər nəslinin əməyi sayəsində bərpa edilən qədim Azərbaycan tarixi tədricən Ön Asiyanın Qədim Şərq ölkələri tarixi aləminə daxil olmağa başlayır.

Azərbaycan arxeologiyasının banilərindən biri İ.İ.Meşşaninov 20-30-cu illərdə diyarın arxeologiyası və qədim tarixi üzrə bir sıra tədqiqatlar, habelə işin nəzəri vəzifələrinə və perspektivlərinə, metodoloji səhvlərinə və nailiyyətlərinə həsr olunmuş məqalələr nəşr etdirmişdir. Alim arxeoloji axtarışlarda etnoqrafik materialdan istifadə edilməsinə xüsusi məqalə həsr etmişdir. Milli kadrların hazırlanması işində də İ.İ.Meşşaninovun xidmətləri böyükdür.

20-ci illərdə Azərbaycanda ümumiləşdirici əsərlər - Azərbaycan tarixi üzrə ümumi kurslar nəşr edilmişdir. Bu "kurslar" və "oçerklər"də qədim tarixə də nəzərə çarpacaq dərəcədə yer ayrılırdı. Bunlar Y.A.Paxomovun "Azərbaycan tarixinin qısa kursu", R.İsmayılovun "Azərbaycan tarixi", V.M.Sısoyevin "Azərbaycan (Şimali) tarixinin qısa oçerki" və "Azərbaycan (Şimali) tarixinin ilkin oçerki" əsərlərindən ibarətdir. T.S.Passekin və B.A.Latıninin qələminin məhsulu olan, arxeoloji materiallarla zəngin "Şimali Azərbaycanın tarixə qədərki dövrü oçerki"ni də bu əsərlər seriyasına aid etmək mümkündür.



downloaded from KitabYurdu.az

1929-cu ilin sonunda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazasında Azərbaycan MİK yanında Azərbaycan Dövlət Elmi-Tədqiqat institutu (ADETİ) yaradıldı. V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov, M.N.Pokrovski, A.N.Samoyloviç, A.O.Makovelski, A.R.Zifeld, A.Saar və b. görkəmli rus alimlərinin əməyi ADETİ-nin Tarix şöbəsinin işinə müsbət təsir göstərmişdir. Ə.S.Qubaydulin, V.Xuluflu, B.Çobanzadə, Ə.Haqverdiyev, M.Quliyev, Q.Cəbiyev, M.Şahbazov və C.Nağıyevin fəaliyyəti də səmərəli olmuşdur.

20-ci illərin sonu və 30-cu illərdə həm rus (N.Y.Marr, S.V.Yuşkov, A.Y.Krımski, N.İ.Anserov və b.), həm də Zaqafqaziya respublikalarından olan alimlər (A.Q.Şanidze və b.) Azərbaycanın tarixi, etnoqrafiyası, arxeologiyası və antropologiyasının öyrənilməsi sahəsində böyük iş aparırdılar.

Bu illərdə N.İ.Anserovun Azərbaycan əhalisinin antropoloji cəhətdən öyrənilməsinə həsr olunmuş məqalələri, akademik A.Y.Krımskinin Qafqaz Albaniyasının tarixinə dair əsərləri nəşr edilir. S.V.Yuşkov Qədim Albaniyanın sərhədləri məsələsinin tədqiqi ilə məşğul olur. Akademik A.Q.Şanidze Qafqaz albanlarının yeni kəşf edilmiş əlifbası barəsində çox qiymətli - əsil epoxal əsər nəşr etdirir. Albaniyanın qədim tarixi problemlərinin dərk olunması üçün Y.İ.Krupnovun Qayakənddəki son tunc dövr qəbir abidəsinə həsr olunmuş məqaləsi də mühüm əhəmiyyətə malik idi.

SSRİ EA Zaqafqaziya filialının nəzdində yaradılmış SSRİ EA Azərbaycan filialının tərkibində 1936-cı ildə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu təşkil olundu. İnstitut elmi axtarışları Azərbaycan xalqının tarixi, onun maddi mədəniyyətinin problemləri üzərində cəmləşdirdi. Y.A.Paxomovun tərtib etdiyi, tərkibinə Azərbaycan tarixi üzrə mixi yazılı, antik və Bizans qaynaqları daxil edilən "Azərbaycan tarixi üzrə mənbələrin icmalı" çox mühüm işlərdəndir.

Bu illərdə xaricdə X.S.Nüberq, E.Hersfeld, A.T.Olmsted, C.Kemeron və b.-nın məzmunlu əsərləri çapdan çıxmışdır. Bu alimlər həmin əsərlərində diyarımızın qədim tarixinin ayrı-ayrı məsələlərinə toxunurdular. Almaniyada nəşr olunan məşhur "Arshaeologische Mitteilungen aus Iran" seriyasından çoxlu maraqlı məlumatlar aşkara çıxarmaq mümkündür.

1941-ci ildə Vətən müharibəsi ərəfəsində elmi-kütləvi "Azərbaycan tarixi (qısa oçerk)" nəşr edilmişdi.

Böyük Vətən müharibəsindən sonra diyarın qədim tarixi məsələlərinə maraq daha da artmış, tədqiqat işi xeyli genişlənmişdi. Lakin müharibədən sonrakı ilk illər ərzində bu istiqamətdə əsas yeri hələ də arxeoloji axtarışlar tuturdu.

Cənubi Azərbaycan ərazisində yaxın vaxtlaradək arxeoloji qazıntılar, demək olar ki, aparılmırdı. J. de Morqanın İran Talışına ekspedisiyasından sonra Cənubi Azərbaycanın cənub vilayətlərində arxeoloji kəşfiyyat işlərini 1936-cı ildə A.S.Steyn aparmışdı. 1940-cı ildə E.F.Şmidt qədim məskənlərin aerofotosunun çəkilişini



downloaded from KitabYurdu.az

aparmış, elə həmin ildə İran Arxeologiya İdarəsi xırda qazıntılar aparmağa cəhd göstərmişdi.

Diyarın qədim tarixinin öyrənilməsi üçün Aşşur (Assuriya) kitabələrinin 1926-1927-ci illərdə amerikalı D.D.Lakenbill tərəfindən toplu nəşri və Urartu kitabələrinin 1956-1957-ci illərdə Avstriya alimi F.Köniq tərəfindən hazırlanmış nəşri mühüm əhəmiyyətə malikdir. Urartu kitabələrinin tam külliyyatı, onların rus dilinə tərcüməsi və izahatları Q.A.Melikişvili tərəfindən nəşr etdirilmişdir ["Urartu mixi kitabələri", M., 1960].

1955-ci ildən "Ümumdünya tarixi"nin cildləri çapdan çıxmağa başladı. SSRİ Elmlər Akademiyası tərəfindən nəşr edilən bu sanballı əsər "marksist tarix ədəbiyyatında bəşəriyyətin ən qədim zamanlardan müasir dövrümüzədək keçdiyi yolu işıqlandıran ümumi əsər" [I c, s. 5] kimi nəzərdə tutulmuşdu.

1955-1956-cı illərdə çapdan çıxmış I və II cildlər ibtidai icma cəmiyyəti və qədim dünya tarixinə həsr edilmişdir.

Təəssüf ki, konkret materialların çatışmaması üzündən Azərbaycanın ən qədim tarixi I cilddə özünün əsil dərin elmi əksini tapmamışdır. Eneolit dövrü və Tunc əsri çox səthi verilmişdir. Bu nəşrdə Manna tarixi özünə layiq yer tapa bilməmişdi,

II cilddə Qafqaz Albaniyasının da bəxti gətirməmişdir. Onun tarixinin xəsiscəsinə işıqlandırılması zamanı bir sıra səhv müddəalar da irəli sürülmüşdür; məsələn, iddia olunur ki, antik dövr Albaniyasında təsərrüfatın üstün forması köçəri maldarlıq idi. E.ə. I əsrin ortalarına yaxın Albaniyanın müasir Kaxetiyanın bir hissəsini tutması barəsindəki iddia da düzgün deyil. Bu ərazi alban tayfalarının yayıldığı zona olmuşdur. Albaniyada məbəd "knyazlığı"ndan da çətin danışmaq olar.

1946-1953-cu illərdə S.M.Qazıyevin rəhbərliyi altında Mingəçevir SES-in tikintisi rayonunda aparılan, öz miqyasına görə çox böyük, çoxillik arxeoloji qazıntılar bizim üçün olduqca əhəmiyyətlidir. Ekspedisiya ilk tunc dövründən tutmuş orta əsrlərədək olan dövrə aid zəngin material aşkar etmişdir. Bu materialların içərisində son tunc və ilk dəmir dövrünün çoxlu abidəsi, skif qəbirləri, iki yüzdən artıq katakomba, çoxlu küp qəbirləri vardır. Habelə alban kitabələrinin fraqmentleri, xeyli paleoantropoloji material və s. var. Bu materialların bir hissəsi Albaniyanın Ön Asiya ölkələri ilə əlaqələri barəsində danışmağa imkan verir.

40-cı illərin sonlarından Qobustan qayaüstü rəsmlərinin öyrənilməsinə başlanılmış, burada imperator Domisian dövrünün latın kitabəsi də aşkar edilmişdir. Qobustanın ilk tədqiqatçısı İ.M.Cəfərzadə olmuşdur. Onun işini C.Rüstəmov və F.Muradova davam etdirirlər.

1949-cu ildə B.B.Piotrovskinin mühüm əhəmiyyətə malik olan "Zaqafqaziya arxeologiyası" əsəri nəşr olunmuşdur. Bu əsərdə Cənubi Qafqazın ibtidai icma dövrü abidələrinin şərhi verilmiş, geniş ümumiləşdirmələr aparılmışdır.



downloaded from KitabYurdu.az

Respublikada arxeoloji tədqiqatların genişləndirilməsi ilə əlaqədar 50-ci illərin əvvəllərində görkəmli rus alimləri A.A.İessen, S.N.Zamyatnin, V.V.Bunak və b. Bakıya dəvət olunurlar. Onlar yerli kadrlar sırasından mütəxəssislər hazırlanması işinin təşkilində səmərəli fəaliyyət göstərdilər. Respublikanın arxeoloji cəhətdən öyrənilməsi işində SSRİ EA Arxeologiya İnstitutu və Azərbaycan EA Tarix İnstitutunun 1953-cü ildə A.A.İessenin rəhbərliyi altında təşkil edilmiş birgə ekspedisiyası mühüm əhəmiyyətə malik olmuşdur.

İngilis alimi T.Berton Braunun 1948-ci ildə Göytəpədə (Urmiya gölündən qərbdə) apardığı qazıntılar çox qiymətli material verdi. Aşkara çıxarılmış təbəqələrdən ən qədimləri, görünür, e.ə. IV minilliyə aiddir. Bu təbəqələrdə gil evlərin qalıqları, çoxlu alət və keramika, müəyyən qədər silah və i.a. tapılmışdır. E.ə. III minilliyə aid olan "K" təbəqəsində çoxlu keramika olmuş, mis məmulatlar geniş yayılmışdır. Kutilərə mənsub olması şübhə doğurmayan Göytəpə mədəniyyəti İran yaylasının digər mədəniyyətlərindən fərqlənir və Zaqafqaziyanın eneolit və ilk tunc dövrü abidələrinə yaxındır.

40-cı illərin sonunda Mannanın ərazisində aşkara çıxarılan, elmdə "Saqqız" və ya "Zivyə" dəfinəsi kimi məşhur olan, şərhinə R.Qirşman, A.Qodar, R.Barnet, B.B.Piotrovski, S.İ.Rudenko, V.Q.Lukonin və b. əsərləri həsr edilmiş zəngin xəzinə xüsusi maraq doğurur. E.ə. IX-VII əsrlərə aid olunan bu dəfinə, görünür, "qarışıq dövrü" - bir tərəfdən Mannanın köhnə düşmənlərinin müdaxiləsinin gücləndiyi, digər tərəfdən isə buraya köçəri qrupların soxulmağa başladığı dövrü əks etdirir. Bəzi müəlliflərin fikrincə, dəfinənin materialları məşhur skif "vəhşi" üslubunun, dəst-xəttinin məhz Manna ərazisində meydana çıxdığını, sonradan Ön Asiya və Cənubi Rusiyaya yayıldığını güman etməyə imkan verir.

50-ci illərin əvvəllərində S.M.Zamyatninin rəhbərliyi altında respublika ərazisində daş dövrünün öyrənilməsinə başlanmış, bu iş M. M.Hüseynov tərəfindən müvəffəqiyyətlə davam etdirilmişdir. Aveydağdakı mağaranın, qaya sığınacağının tədqiqi ilk inandırıcı paleolit materiallarını - Mustye dövrü və son paleolitə aid olan məlumatları aşkara çıxardı. Daşsalahlı və Tağlar mağaralarında da paleolit materialları aşkar edildi. M.M.Hüseynov tərəfindən kəşf edilmiş paleolit abidələri içərisində öyrənilməsinə 1960-cı ildə başlanmış Azıx mağarası xüsusi yer tutur. Mağaralarla yanaşı, bir sıra məntəqələrdə açıqtipli düşərgə yerləri tapıldı.

Tədqiqatlar nəticəsində mühüm paleolit abidələri - Kiçik Qafqazın, demək olar ki, bütün şərq dağətəyi rayonunda, Kür vadisində yayılmış mağara düşərgələri müəyyənləşdirildi.

Son otuz ildə aşkara çıxarılmış paleolit materiallarının öyrənilməsi belə bir iddiaya imkan verir ki, Azərbaycan ərazisində hələ ən azı 1,5 mln il, bəlkə ondan da əvvəl insan yaşamışdır. Bu materiallar bir sıra digər məlumatlarla birlikdə belə güman



downloaded from KitabYurdu.az

etməyə əsas verir ki, Azərbaycan, ola bilsin ki, bəşəriyyətin ən qədim, ilk vətəninin hüdudları daxilində olmuşdur.

Bir sıra səmərəli materiallar seriyası ilə zəngin olan Tağlar kompleksi arxeoloqlarımıza yerli Mustye mədəniyyəti (Orta Paleolit) inkişafının lokal xüsusiyyətlərini aşkara çıxarmaq və uzun bir dövr ərzində bu mədəniyyətin təkamül mərhələlərini izləmək imkanı vermişdir. Bu kompleks ilk dəfə olaraq Qafqazın Ön Asiya vilayətləri ilə qədim mədəni əlaqələrini müəyyənləşdirmək üçün etibarlı faktik material vermişdir. Qeyd edək ki, Orta Paleolit dövrü Ə.Cəfərov tərəfindən müvəffəqiyyətlə tədqiq edilir.

Azərbaycan ərazisində Üst Paleolit xeyli zəif öyrənilmişdir. Bu dövrə aid olan materiallar Damcılı və Tağlar mağarasında, habelə Qazax rayonundakı açıqtipli Yataqyeri düşərgəsində tapılmışdır.

Azərbaycan arxeoloqları mezolit və neolit dövrünün bəzi abidələrini Qazax rayonunda, Qobustan zonasında, Gəncə yaxınlığında (ancaq neolit) aşkara çıxarmağa nail olmuşlar. Mezolit ve neolit bəşər tarixinin mühüm mərhələləridir. Bu mərhələlərin abidələrinin tədqiqi Azərbaycanda və bütövlükdə Zaqafqaziyada istehsal xarakterli təsərrüfatın - əkinçilik və maldarlığın başlanğıc mənbəyini əsil mənada öyrənməyə imkan verəcəkdir.

Bizim arxeoloqlarımız tərəfindən eneolit dövrünün qədim əkinçi-maldar tayfalarına aid olan bir sıra abidələri aşkara çıxarılmışdır. Bu işin ilkin mərhələsi O.A.Həbibullayevin adı ilə bağlıdır. Naxçıvan şəhəri yaxınlığındakı I Kültəpə məskəninin aşağı təbəqəsindəki qazıntı Qafqaz arxeologiyasında yeni səhifə açmış, Zaqafqaziya eneoliti və ilkin əkinçilik mədəniyyətinin öyrənilməsinin əsasını qoymuşdur.

Kültəpə qazıntıları, habelə Azərbaycanın digər rayonlarında, Gürcüstan, Ermənistan və Dağıstanda aşkara çıxarılan bir sıra ən qədim oturaq əkinçiliyə aid abidələr e.ə. VI-III minilliklərdə Zaqafqaziyada mədəni-tarixi proses barəsində bizim təsəvvürlərimizi xeyli dəyişir. Bu qazıntılar nəticəsində keçmiş SSRİ-nin cənubunda Orta Asiya və Şimali Qara dəniz sahili mərkəzləri ilə yanaşı, daha bir qədim ilkin əkinçilik mədəniyyəti mərkəzini - Qafqaz mərkəzini müəyyənləşdirmək mümkün oldu.

Hazırda Azərbaycan Respublikası ərazisində yüzdən çox ilkin əkinçilik abidələri aşkara çıxarılmışdır. Onlar Kür hövzəsi, Mil-Qarabağ düzü, Muğan və Araz zonasında qeydə alınmış və xeyli dərəcədə öyrənilmişdir. Onların tədqiqində başlıca rol İ.H.Nərimanova məxsusdur. Cənubi Azərbaycanda da çox maraqlı ilkin əkinçilik kompleksləri qrupu məlumdur.

Naxçıvan MR və Kiçik Qafqazın cənub-şərq ətəklərində -Qaraköpəktəpə, Günəştəpə, Leylatəpəsi, Ovçulartəpəsi və b. yerlərdəki qazıntılar tuncdan istifadənin başlanğıcında Azərbaycan ərazisindəki qədim tayfaların mədəni-tarixi inkişafının



downloaded from KitabYurdu.az

düzgün mənzərəsini təsəvvür etməyə, Şərqi Zaqafqaziya sakinlərinin Şimali Qafqaz tayfaları ilə, Zaqafqaziya və Qədim Şərqin həmsərhəd ölkələri ilə əlaqələrini aşkara çıxarmağa imkan yaradan çox zəngin materiallar vermişdir.

Üzərliktəpədə, Qaraköpəktəpədə, Qobustanda, Şəki rayonunun kurqanlarında və b. yerlərdə aşkara çıxarılmış orta tunc dövrü materialları maraqlıdır. Azərbaycanın orta tunc dövrünü V.H.Əliyev tədqiq edir.

Son tunc və ilkin dəmir dövrləri mədəniyyətini səciyyələndirən materiallar da çoxdur.

Skif və Əhəməni dövrlərinin və b. materialların öyrənilməsi üçün də az iş görülməmişdir.

50-ci illərdən başlayaraq antik Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsi sahəsində intensiv iş aparılır. Bu zaman qədim şəhər yerləri və qəbir abidələrinin tədqiqinə xüsusi diqqət yetirilir. Qazax, Xınıslı (Şamaxı yaxınlığında), antik Qafqaz Albaniyasının baş şəhəri olan Qəbələ (Qəbələ rayonunda) zonalarında və i.a. yerlərdə qazıntılar aparılmış və əldə edilən materiallar öyrənilmişdir. Arxeoloji ekspedisiyalar tərəfindən xüsusi və xülasə xarakterli əsərlərdə nəşr olunmuş xeyli material toplanılmışdır. Bu sahədə İ.Əliyev, S.M.Qazıyev, Ö.T.İsmizadə, Q.M.Aslanov, İ.A.Babayev, C.A.Xəlilov, F.A.Osmanov, F.Z.Qədirov və b. böyük xidməti var. Lakin əldə olunmuş materialın xeyli hissəsi hələ də tarixi şərhini gözləyir.

Qəbələ qazıntıları, habelə digər qədim şəhər yerlərində aparılan kəşfiyyat işləri nəticəsində antik Albaniyadakı urbanizasiya prosesinin ümumi cizgiləri müəyyənləşməyə başlayır. Müəyyən edilmişdir ki, bəzi məskənlər məhz ilkin hellinizm dövründə Alban dövlətinin meydana çıxması zamanı şəhərlərə çevrilmişdir. Bu şəhərlər ölkənin siyasi-iqtisadi və mədəni mərkəzləri olmuşlar.

50-ci illərdən etibarən respublikada Azərbaycanın qədim tarixinin öyrənilməsi sahəsində elmi tədqiqatların problematikası xeyli genişlənir. Mixi yazılı abidələrin, Avestanın, antik müəlliflərin və digər yazılı qaynaqların tədqiqinə maraq artır. Azərbaycanın qədim tarixinin tədqiqindəki uğurlara görə biz akademik V.V.Struveyə borcluyuq. Azərbaycan tarix elmində elə ilk addımlarından respublikanın aparıcı elm və mədəniyyət xadimləri tərəfindən müdafiə olunan bu yeni istiqamətin meydana çıxmasının özü ilk növbədə Azərbaycan ərazisində sinfi cəmiyyətlər və dövlətlərin meydana çıxması və inkişafı ilə, Azərbaycan xalqının etnogenezi, etnik tarixi və qədim mədəniyyətinin məsələləri ilə bağlı olan köklü, ümumi və xüsusi problemlərini aydınlaşdırmaq məqsədi daşıyırdı. Azərbaycan ərazisində və onunla həmhüdud rayonlarda ilk dövlət qurumları olmuş Madanın (Midiya), bir qədər sonra isə Albaniya və Manna tarixinin tədqiqinə başlanıldı.

Sovet elmində Azərbaycan xalqının tarixi ilə sıx surətdə bağlı olan müstəqil mövzu kimi Mada (Midiya) tarixi ilə ilk dəfə İ.H.Əliyev məşğul olmuşdur. O, 1951-ci ildə "Mada tarixinin qısa oçerki"ni Azərbaycan dilində nəşr etdirmişdir. Burada



downloaded from KitabYurdu.az

Mada cəmiyyəti tarixinin ilkin konsepsiyasının verilməsinə, Mada dövlətinin yarandığı dövrdəki tarixi şəraitin göstərilməsinə cəhd edilmişdir. Müəllif ictimai münasibətlərə xüsusi diqqət yetirir, sülalə tarixini bərpa etməyə cəhd göstərir, madalıların Aşşur (Assuriya) dövləti ilə mübarizəsinə böyük yer verir, madalıların mədəniyyət tarixi məsələlərini nəzərdən keçirir. 1956-cı ildə "Azərbaycanın qədim tarixi üzrə oçerklər" nəşr edilmişdir ki, burada İ.Əliyev madalıların tarixəqədərki və tarixi məsələlərinə, onların etnogenezinə, İran yaylasının qərb vilayətlərinin ən qədim sakinlərinin dillərinə, Manna tarixinə xüsusi diqqət yetirir.

50-ci illərin tarix elmində Mada problematikası ilə yanaşı, "Avesta"nın öyrənilməsinə də müəyyən diqqət yetirilirdi.

50-ci illərin başlanğıcı və ortalarında Azərbaycanın qədim tarixi sahəsində aparılan tədqiqat işlərinə ümumi qiymət verərkən qeyd etməmək olmaz ki, bu iş müəyyən dərəcədə birtərəfli aparılırdı; burada Mada tarixi problemlərinə maraq açıq-aşkar hər şeyi üstələyir ki, bu da Manna, Atropatena və Albaniya tarixi ilə bağlı olan mövzuları arxa plana çəkmişdi. Tədqiqatçılar Azərbaycanda məskunlaşmış qədim tayfaların sosial-iqtisadi problemlərini əslində kölgədə qoyaraq, əsasən siyasi tarixlə məşğul olurdular. Göstərilən dövrün əsərlərində Azərbaycanın qədim sakinlərinin etnik tarixinin ayrı-ayrı məsələləri hərtərəfli işıqlandırılmamışdır. Eyni zamanda 50-ci illərin başlanğıcı və ortaları tədqiqat işlərinin yüksək gərginliyi, axtarışlara böyük həvəslə əlamətdardır. Bu, bizim tarix elmimizin daha da inkişaf etdiyi dövrdür. Bir çox tarixçi və arxeoloqlarımızın səyi sayəsində Azərbaycanın qədim tarixi Qədim Şərq ölkələri tarixi çərçivəsinə daxil edilir.

Xarici ölkə alimlərinin tədqiqatları da əhəmiyyətlidir. Arazdan o yandakı ərazilərdə aparılan qazıntılar rəngarəng və qiymətli materiallar verdi. Burada İran, ABŞ, İngiltərə, AFR, Yaponiya, Belçika və başqa ölkələrin institutları, arxeoloji missiyaları tədqiqatlar aparır və öz qazıntılarının materiallarını müntəzəm olaraq çap etdirirlər.

Yanıqtəpə, Pişdəlitəpə, Dingətəpə, Dəlmətəpə, Dəyləmən, Marlik, Kaluraz, Həsənlitəpə və b. obyektlərdə aparılmış qazıntılar böyük əhəmiyyət kəsb edir. Bu qazıntıların materialları C.Barney, M. Van Lun, Y.V.Klays, O.Muskarella, R.Girşman, L.Vanden Berge, S.Fukay, S.Masuda, T.Sono və b. tərəfindən dərc edilmişdir.

Mədəni layları e.ə. IV minillikdən islamaqədərki dövrü əhatə edən Həsənlidəki qazıntılar böyük maraq doğurur. Burada qazıntılar 1956-ci ildən R.Daysonun rəhbərliyi altında Pensilvaniya Universiteti və İran Arxeologiya İdarəsinin birgə ekspedisiyası tərəfindən aparılmağa başlanmışdır.

Həsənlinin arxeoloji materialı Cənubi Azərbaycanın qədim tarixinin öyrənilməsi üçün çox böyük əhəmiyyətə malikdir. Bu qazıntılar bizə təpə sakinlərinin təsərrüfat həyatının müxtəlif sahələri, sənətkarlıq istehsalı, şəhərsalma, incəsənəti və



downloaded from KitabYurdu.az

s. haqqında mühakimə yürütmək imkanı verir. Həsənlidə üzərində mifoloji təsvirlər olan, barəsində çox yazılmış məşhur cam da tapılmışdır.

Marlik və Kalurazdakı qazıntılar, habelə Amlaşdakı təsadüfi tapıntılar maraqlı materiallar vermişdir.

Marlikdəki qədim qəbiristanlıq 1961-1962-ci illərdə E.O.Negahbanın rəhbərliyi altında Tehran Universiteti və İran Arxeologiya Xidmətinin ekspedisiyası tərəfindən qazılmışdır. E.O.Negahban ancaq ilkin hesabat və bir neçə məqalə dərc etdirmişdir. Materialın məhdudluğuna, habelə mühüm metodik qüsurlara və s. baxmayaraq, Marlik haqqında indi ümumi təsəvvür əldə etmək mümkündür. Güman edirlər ki, bu, "Marlik şahlığı"nın şah qəbiristanlığıdır. Nekropolun səciyyəvi xüsusiyyəti çox zəngin dəfn avadanlığı və basdırılmış atlardan ibarətdir. Qəbiristan e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərinə aid edilir. Luristan, Türkmənistanın cənub-qərb vilayətləri və Talış, habelə Şərqi və Mərkəzi Zaqafqaziyada Marlik materialına oxşar materiallar vardır.

60-cı illərin əvvəllərində Cənubi Azərbaycan ərazisində geniş kəşfiyyat işləri aparılmağa başlandı. K.Şippmann və V.Klays bu kəşfiyyat işlərinin daimi iştirakçıları olmuşlar.

Əli Hakiminin rəhbərliyi altında İran Arxeologiya Cəmiyyəti tərəfindən 1967-ci ildən başlayaraq Kalurazda aşkara çıxarılmış e.ə. II minilliyin sonu - I minilliyin əvvəllərinə aid olan abidələr antik müəlliflərə görə, Səfidrud çayı vadisində məskunlaşmış mardlarla bağlıdır. Marlikdə olduğu kimi, burada da basdırılmış at skeletləri tapılmışdır.

Yapon arxeoloqlarının Deyləməndəki qazıntıları maraqlı material vermişdir. O cümlədən Şimali Qafqaz və Mingəçevir zonasının alan katakombaları ilə əlaqələndirilən bir sıra maddi mədəniyyət abidələri olan katakomba qəbirləri aşkara çıxarılmışdır. Yeri gəlmişkən, alanların Atropatenaya yazılı qaynaqlarda xatırlanan basqınları zamanına görə N.Eqami və b. tərəfindən dərc olunmuş Deyləmən katakomba qəbirləri ilə sinxrondur.

Yazılı qaynaqlarda nisbətən yaxşı əks olunmuş Cənubi Azərbaycan vilayətlərinə Urartu müdaxiləsi son illərdə arxeoloji cəhətdən də qədim qalalar və digər obyektlərin qazıntıları ilə təsdiq olunmuşdur. Lakin elə həmin qazıntılardan məlum olur ki, urartuluların Urmiyayanı və qonşu rayonlara soxulması müvəqqəti olmuşdur. Bu materialların xeyli hissəsi "Arshaeologische Mitteilungen aus Iran"ın müxtəlif cildlərində nəşr olunmuşdur.

Cənubi Azərbaycanın qərb rayonlarının qədim maddi mədəniyyət abidələrinin geniş xülasəsi V.Klays tərəfindən verilmişdir.

V.B.Henninq, J.Dümezil, H.V.Beyli, İ.Gerşeviç, M.Mayrhofer, R.Şmit, M.Boys, A.Videnqren, A.Kammenhuber, J.Düşen-Giyemin, R.Fray, V.İ.Abayev, M.M.Dyakonov, İ.M.Dyakonov, M.A.Dandamayev, V.Q.Lukonin, E.A.Qrantovski,



downloaded from KitabYurdu.az

İ.H.Əliyev və b. son iyirmi-otuz ildə nəşr olunmuş tədqiqatları bizim mövzunun ayrı-ayrı aspektləri üçün müstəsna əhəmiyyətə malikdir.

Görkəmli rus iranşünası M.M.Dyakonovun qələminə məxsus olan "Qədim İran tarixinin oçerki"ndə bizi maraqlandıran süjetlər üzrə qiymətli məlumatlar səpələnmişdir.

1970-ci ildə E.A.Qrantovskinin bizim mövzu ilə birbaşa əlaqəsi olan "Ön Asiyanın İran tayfalarının ilkin tarixi" adlı monoqrafiyası çapdan çıxmışdır. E.A.Qrantovskinin tədqiqatı bizə Vətənimizin qədim tarixinin bir sıra əsaslı məsələlərinə yeni nəzərlərlə baxmaq imkanı verir. Müəllifin Şimal-Qərbi İran vilayətlərində irandilli tayfaların əvvəllərdə düşünüldüyündən daha qabaq meydana çıxdığını iddia etməyə imkan verən əsaslandırılmış fikri çox böyük əhəmiyyətə malikdir.

Moskva Universiteti nəşriyyatı tərəfindən 1977-ci ildə buraxılmış "İran tarixi" qabaqkı əsərlərdən fərqlənir. Kitabda son arxeoloji qazıntıların verdiyi məlumatlardan istifadə olunmaqla, bölgənin ilkin qədim tarixinin yığcam, məzmunca zəngin oçerki verilmişdir. Bizi maraqlandıran bir çox məsələlərin, o cümlədən Manna şahlığının tarixinin, köçəri maldarlığın meydana çıxması və yaylanın dağ rayonlarına köçəri tayfaların yayılmasının, bölgədə irandilli tayfaların məskunlaşmasının və i.a. nəzərdən keçirildiyi II fəsildə köhnə problemlərə yeni şəkildə baxılmasına imkan verən xeyli maraqlı və mühüm fikirlər irəli sürülmüşdür. Bu, xüsusən irandilli tayfaların mənşəyi, onların İran yaylası ərazisində, o cümlədən Urmiyayanı rayonda məskunlaşması, Cənub vilayətləri və onlarla həmsərhəd ərazilərdə köçəri maldarlığın və köçəriliyin yayılması məsələlərinə aiddir.

V.Q.Lukoninin "Qədim İran incəsənəti" kitabında Manna, ilkin İran və skif incəsənətinin mürəkkəb problemlərinin nəzərdən keçirilməsinə xeyli yer ayrılmışdır. Müəllif bir sıra digər məsələlərə də toxunur.

M.A.Dandamayev və V.Q.Lukoninin 1980-ci ildə çapdan çıxmış "Qədim İran mədəniyyəti və iqtisadiyyatı" əsəri müstəsna dərəcədə qiymətlidir. Müəlliflər öz qarşılarına ən yeni arxeoloji materiallar və yazılı qaynaqların məlumatları əsasında e.ə. II minilliyin sonundan bizim e.ə. IV əsrinədək olan dövrdə bölgənin mədəniyyət və iqtisadiyyat problemlərini təhlil etmək məqsədini qoymuşlar. Xeyli miqdarda yeni arxeoloji materialdan istifadə olunduğu, bir çox məsələlərin yeni şəkildə qoyulduğu "Ön Asiyanın İran tayfalarının ilkin tarixi və mədəniyyəti" adlı I fəsil bizim üçün xüsusən maraqlıdır.

Bir neçə il əvvəl Moskvada üççildlik "Qədim dünya tarixi" [1982] nəşr olunmuşdur. Müəlliflərin "Giriş"də yazdıqları kimi, bu əsər "bütün qədim dünyanın bizim müasir biliklərimizə uyğun olan tarixinin yaradılması təcrübəsidir".



downloaded from KitabYurdu.az

Təəssüf ki, bu çox maraqlı, qiymətli və yeni fikirlərlə dolu olan, ən görkəmli alimlər tərəfindən yaradılmış əsaslı tədqiqat əsərində Manna şahlığının tarixi üçün yer tapılmamışdır. Hərçənd ki, Urartuya kifayət olduğundan da artıq yer verilmişdir.

"Xüsusi olaraq Albaniya şahlığına ayrılmış yarım səhifə təəssüf doğurur.

Azərbaycanın ən qədim tarixi problemlərinə az-çox yer verilmiş sanballı əsərlər sırasında Kembricdə buraxılmış "İran tarixi"nin adını çəkmək lazımdır. Bizi maraqlandıran material II və III cildlərdə yerləşdirilmişdir, lakin bu material, təbii ki, İran tarixi baxımından verilmişdir.

Son zamanlar bir sıra alimlər irandilli miqrantların Zaqros zonasında, o cümlədən Cənubi Azərbaycan ərazisində məskunlaşmasının arxeoloji cəhətdən əsaslandırılmasına böyük diqqət yetirir. Alimlərin əksəriyyəti göstərilən ərazidə saxsı ənənələrinin dəyişməsini, boyalı keramikanın monoxrom, başlıca olaraq, boz saxsı ilə əvəz olunmasını buraya irandilli əhali qruplarının gəlməsi ilə bağlayır. Bu nöqteyi-nəzərin daha geniş əsaslandırılması öz tədqiqatlarının əsasına Həsənli, Göytəpə, Təpəgiyan, Xurvin, Sialk və s. keramika materiallarını qoymuş T.Kayler Yanğın əsərlərində verilmişdir. Lakin Yanğın bir sıra müddəaları, məsələn, onun monoxrom (birrəngli) keramikanın meydana çıxdığı zamandan etibarən bütün bölgənin mədəni birliyi (bu da, müəllifin fikrincə, bu yeni mədəniyyətin ümumi mənşəyə malik olduğunu göstərir) iddiası ilə razılaşmaq çətindir. Həmçinin Yanğın belə bir müddəası ilə də razılaşmaq çətindir ki, Şimal-Şərqi İran, o cümlədən III Hissar tipli abidələr birrəngli boz keramikanın yarandığı yerdir və s.

R.Girşman, L.Vanden Berqe və b. əsərləri də irandilli tayfaların İran yaylasının şimal-qərb və digər vilayətlərində məskunlaşmasının arxeoloji cəhətdən əsaslandırılması probleminə həsr olunmuşdur. Göstərilən aspektdə M.N.Poqrebovanın tədqiqatlarında ciddi addımlar atılmışdır.

E.A.Qrantovski öz əsərlərində, xüsusən də "Ön Asiyanın İran tayfalarının ilkin tarixi" adlı tədqiqatında müxtəlif növlü çoxlu qaynaqlara istinad etməklə, irandilli tayfaların Ön Asiya ərazisinə, o cümlədən Cənubi Azərbaycan ərazisinə soxulması ilə bağlı olan məsələlərin tədqiqi sahəsində əhəmiyyətli iş görmüşdür.

İranda qədim tarix, arxeologiya və dilçilik üzrə xeyli əsər nəşr edilmişdir. Onların müəllifləri bizi maraqlandıran məsələlər dairəsinin bu və ya digər cəhətlərinə toxunurlar. Xüsusi olaraq qədim Azərbaycanın tarixinə, dillərinə həsr olunmuş monoqrafiyalar da nəşr edilmişdir.

Qədim Azərbaycan tarixi problemlərinə bu və ya digər dərəcədə toxunmuş nüfuzlu İran tarixçiləri arasında Seyid Həmzə Kəsrəvinin, Həsən Pirniyanın, Məhəmməd Muinin, İbrahim Purdavudun, Cəmaləddin Faqihin, Məhəmmədcavad Məşkurun, Şəfəq Rzazadənin, Rza İnayətullanın və b. adlarını çəkmək olar.

Bu müəlliflərdən bəzisinin əsərlərində xeyli maraqlı məlumatlar var. Onlarda əsaslandırılmış mühüm müddəalara, məsələn, Mada etnik elementlərinin Atropatena tarixindəki mühüm rolu və s. haqqında iddialara rast gəlmək olur. Lakin bəzi əsərlər üçün



downloaded from KitabYurdu.az

ibtidai təsvirçilik və faktlara aludəçilik xasdır. Ədalət naminə qeyd etməmək olmaz ki, artıq 50-60-cı illərin əsərləri daha çox tədqiqat xarakteri daşıyır və tənqidi təhlildən uzaq deyildir.

İran müəlliflərinin əsərlərinin böyük bir hissəsinin ən mühüm nöqsanı onların paniranist xarakter daşımasıdır. Bu əsərlərin müəlliflərindən çoxu üçün "Azərbaycan tarixi" məfhumu yoxdur, bütün müddəalar bir dominant -"İran tarixi" nöqteyi-nəzərindən verilir. Adları çəkilən müəlliflərin çoxu üçün azərbaycanlılar sonradan türk dilinə keçmiş farslardır (məhz farslardır!). Aşkar görünənin əksinə olaraq iddia edilir ki, Azərbaycanın qədim əhalisinin dili fars dili və ya "fars dilinin xüsusi ləhcəsi" olmuşdur və i.a. Bəzi İran müəllifləri tez-tez birbaşa Azərbaycan tarixi və mədəniyyətinin saxtalaşdırılmasına da əl atırlar.

50-ci illərin ikinci yarısı - 60-cı illərdə respublikada tədqiqat işi xeyli genişləndi. Çox güman ki, yeni mərhələnin başlanğıcı İ.M.Dyakonovun "Midiya tarixi" ilə qoyuldu. Bütövlükdə şərqşünaslıq elminə və qismən də vətən tarixşünaslığına çox qiymətli töhfə olan bu sanballı əsər bütün məlum mixi yazılı materialının, Avesta və antik qaynaq məlumatlarının diqqətlə öyrənilməsinə əsaslanır. Faktiki materialın zənginliyi, çoxsaylı haşiyələr, xeyli yeni, maraqlı müşahidə və nəticələrlə zəngin olan bu əsər Azərbaycan tarixini öyrənənlər üçün mühüm əhəmiyyət kəsb edir. İ.M.Dyakonov Mada dövlətçiliyinin bitkin tarixini vermiş, etnik xüsusiyyətlərə toxunmuş, Mada dövlətinin ideologiya və mədəniyyət məsələlərini, Mada tarixinin bir çox digər problemlərini nəzərdən keçirmişdir. İ.M.Dyakonovun Azərbaycan elmi qarşısında xidməti böyükdür.

1957-ci ildə Azərbaycan EA Tarix İnstitutunda Azərbaycanın qədim tarixi şöbəsinin yaradılması nəticəsində tədqiqat işləri bir sıra konkret istiqamətlər (Mada, Manna tarixi, albanşünaslıq, Azərbaycanın qədim sakinlərinin etnik tərkibi və etnogenezi problemləri, maddi mədəniyyət, digər bölgələrin qədim tarixi və s.) kəsb etdi. 1959-cu ildə İ.Əliyevin "Azərbaycan ərazisində ilk tayfa ittifaqları haqqında" əsəri işıq üzü gördü. Bu əsərdə e.ə. III-I minilliklərdə Cənubi Azərbaycan ərazisində etnik mənzərə nəzərdən keçirilir.

Mingəçevir zonasında aparılan geniş miqyaslı qazıntılar albanşünaslıqda böyük bir hadisəyə çevrildi.

SSRİ EA müxbir üzvü K.V.Trever 1959-cu ildə Qafqaz Albaniyasının tarixi və mədəniyyəti üzrə monoqrafiya çap etdirdi. İndiyə qədər öz əhəmiyyətini itirməmiş bu sanballı əsərdə qədim və ilkin orta əsrlər Qafqaz Albaniyası tarixinin və mədəniyyətinin, demək olar ki, bütün cəhətləri öz əksini tapmış, qədim Qafqaz Albaniyası üzrə bütün yazılı qaynaqlardan və xeyli miqdarda maddi mədəniyyət abidələrindən istifadə olunmuşdur. 1962-ci ildə Bakıda nəşr edilmiş "Qafqaz Albaniyası tarixi məsələləri" toplusu da albanşünaslıq problemlərinə marağın əlamətidir.



downloaded from KitabYurdu.az

Albanşünaslıq problemlərinin öyrənilməsi ilə Z.İ.Yampolski məşğul olurdu. Hazırda K.H.Əliyev bu işi müvəffəqiyyətlə davam etdirir.

Z.İ.Yampolski "Qədim Albaniya" monoqrafiyasında məbəd təsərrüfatına, hierodullara (məbəd qullarına), habelə Albaniya və Atropatenanın siyasi tarixinə, etnogenez problemlərinə və s. diqqət yetirmişdir. K.H.Əliyev 1974-cü ildə "Qafqaz Albaniyası" monoqrafiyasını çap etdirmişdir. Burada antik dövr Albaniyasının sərhədləri, əhalisi, təsərrüfatı, ticarəti, məbəd torpaqları və dini haqqında məsələlər öz əksini tapmışdır. K.H.Əliyev habelə albanşünaslığın ayrı-ayrı problemlərinə, etnik tarixi məsələlərinə həsr olunmuş məqalələr çap etmişdir.

Üçcildli "Azərbaycan tarixi"nin I cildinin nəşri 50-ci illərin sonunda Azərbaycanın qədim tarixi üzrə tədqiqat işində mühüm nailiyyət idi. Burada Azərbaycanın qədim və orta əsrlər tarixinin ümumiləşdirilmiş və bitkin şərhi verilmişdir. Birinci cildin nəşri Azərbaycan tarixinin bəzi prinsipial və mübahisə doğuran məsələlərinin həllinə sanballı töhfə verdi. Ayrı-ayrı fəsillərdə ibtidai icma quruluşu dövrünün, Mannanın, Mada dövləti, Atropatena və Albaniyanın sosial-iqtisadi, siyasi və mədəni tarixinin sistemləşdirilmiş şərhi verilir. Burada həmçinin Azərbaycan xalqının etnik tarixi məsələləri də nəzərdən keçirilmişdir. Mövcud cilddə, dünya şərqşünaslığının nailiyyətlərinə uyğun olaraq, Atropatena xalqının yaranmasından danışılır, türkdilli tayfaların Azərbaycanda qərarlaşması və orta əsrlər dövründə burada türk dilinin qələbəsinə diqqət yetirilir; eyni zamanda göstərilir ki, dillərin dəyişməsi heç də yerli əhalinin sıxışdırılıb aradan çıxarılması demək deyildir.

Mada tarixi sahəsində tədqiqatlar davam etdirilir. 1960-cı ildə İ. Əliyevin fundamental "Mada tarixi" monoqrafiyası işıq üzü gördü. Müəllif burada özünün çoxillik tədqiqatlarına yekun vurmuş, əvvəlki nəticələrinə düzəlişlər vermiş və əlavələr etmiş, əvvəllər irəli sürdüyü ayrı-ayrı müddəaları geniş şəkildə əsaslandırmışdır.

60-cı illərin ortalarından etibarən müstəqil mövzu kimi Manna şahlığının tarixi ilə S.M.Qaşqay məşğul olmağa başlamışdır; mətbuatda onun Manna şəhərləri və qalaları haqqında məqalələri dərc olunmuş, "Manna şahlığının tarixindən" monoqrafiyası və s. əsərləri çapdan çıxmışdır.

Tarixşünaslıq problemləri üzrə A.H.Fazilinin bir neçə əsəri nəşr olunmuşdur.

50-60-cı illərdə bizim elmimizdə Azərbaycanın ən qədim əhalisinin - kutilərin, lullubilərin, hurrilərin və b. tayfaların etnogenezi ilə bağlı problemlərə canlı maraq göstərilmiş, madalıların etnik mənşəyi, Albaniyanın etnik mənzərəsi tədqiq olunmuşdur. 1964-cü ildə respublika EA Tarix İnstitutunda fəaliyyətə başlamış "Azərbaycan xalqının formalaşması və mənşəyi üzrə seminar" bu məsələlərin həllində mühüm rol oynadı. Seminarın işləri sırasından İ.M.Dyakonovun 1966-cı ildə oxuduğu "E.ə. III-I minilliklərdə Şərqi Qafqaz və Zaqafqaziya əhalisinin qədim Şərqlə əlaqələri probleminə dair bəzi linqvistik məlumatlar" adlı məruzəsini qeyd etmək lazımdır.



downloaded from KitabYurdu.az

Xalqın etnogenezi, onun mənşəyi müasir tarix elmində həqiqətən də mürəkkəb, çətin həll edilən problemlərdəndir.

Lakin qeyd etməliyik ki, bir sıra qeyri-müəyyənliklərə, çətinliklərə baxmayaraq, Azərbaycan xalqının etnogenezi konsepsiyası müəyyən dərəcədə, ümumi şəkildə tarix elmimizdə işlənmiş və özünün inikasını sanballı "Azərbaycan tarixi"nin I cildində [Bakı, 1958], "Sovet Tarix Ensiklopediyası"nda [I, M., 1961], "Böyük Sovet ensiklopediyası"nda [üçüncü nəşr, I, M., 1969], "Qafqaz xalqları" [II, M., 1961], "Dünya xalqları" [M., 1968], on iki cildlik "Ümumdünya tarixi" [M., 1955-1979] kitablarında və bir sıra digər əsərlərdə tapmışdır.

Bu konsepsiyaya görə, Azərbaycan xalqının təşəkkülündə Manna, Atropatena və Qafqaz Albaniyasında məskunlaşmış müxtəlif, o cümlədən Qafqaz və İran dillərində danışan qədim dövr və orta əsrlərin tayfa və xalqları - mannalılar, kaspilər, Atropatena madalıları, albanlar, azərilər və bir sıra digərləri əsas rol oynamışlar.

Əsrlər boyu Azərbaycana gəlmiş müxtəlif dilli tayfa və xalqlar (skiflər, saklar, alanlar, hunlar, sabirlər, xəzərlər, oğuzlar və b.) da Azərbaycan xalqının etnogenezində böyük rol oynamışlar. Azərbaycan xalqının, dilinin formalaşması etnogezin son mərhələlərində - orta əsrlərdə baş vermişdir.

60-80-ci illərdə Azərbaycanın ən qədim və qədim tarixi sahəsində tədqiqat işlərinə ümumi səciyyə verərkən qeyd etmək lazımdır ki, bu dövrdə bizim elmimiz yeni qüvvələr axını ilə, arxeologiya və Qədim Şərq filologiyası sahəsində yaxşı məktəb keçmiş gənc alimlər hesabına zənginləşir. Bu, irəliyə mühüm addım atmağa, tədqiqatların mövzusunu xeyli genişləndirməyə və dərinləşdirməyə, yeni və az tədqiq olunmuş problemlərin həllinə başlamağa imkan vermişdir.

Arxeoloqlar paleolitin, mezolitin, xüsusən də eneolitin, tunc və dəmir dövrlərinin, antik dövrün öyrənilməsi üzrə geniş miqyaslı iş aparırlar. Respublikanın, demək olar ki, bütün ərazisi qazıntılarla əhatə olunur. Arxeoloji tapıntılar sübut edir ki, antik dövrdə Albaniya həmsərhəd Zaqafqaziya ölkələri ilə təxminən eyni sosial-iqtisadi və mədəni inkişaf səviyyəsində olmuşdur. Qonşu vilayətlərdə olduğu kimi, o dövrün Albaniyasında da kifayət qədər inkişaf etmiş oturaq əkinçi-maldar təsərrüfatı mövcud olmuş, sənətkarlıq yüksək səviyyəyə çatmış, inkişaf etmiş həyata, ticarətə malik şəhərlər meydana çıxmışdır və i.a. Bütün bunlar alban tayfalarının geriliyi barəsində xüsusi və ümumi ədəbiyyatda kök salmış fikri aydın şəkildə təkzib edir.

Tarixçilər öz tədqiqatlarında yazılı qaynaqların - mixi yazıların, Avesta və antik müəlliflərin məlumatlarının təhlilinə və onların arxeoloji axtarışlarından əldə edilmiş məlumatlar ilə müqayisəsinə böyük diqqət verirlər. Azərbaycan ərazisində ilk böyük dövlət birləşməsi kimi qiymətləndirilən Manna şahlığına mühüm yer verilir.

Bizim albanşünaslığımız da müəyyən uğurlar əldə etmişdir. Albaniya tarixi və mədəniyyəti problemləri həm yazılı qaynaqların, həm də arxeoloji məlumatların əsasında öyrənilirdi.



downloaded from KitabYurdu.az

Mada tarixinin sosial-iqtisadi, siyasi, mədəni və etnik problemləri Madanın Azərbaycan tarixində rolu və əhəmiyyəti ətraflı surətdə nəzərdən keçirilir. 1989-cu ildə İ.Əliyevin "Atropatena tarixinin oçerki" çap olunur.

Arxeoloqlarımız və qədim tarixçilərimizin əvvəlki illərdə qazandıqları uğurlar bütün nəzərdə tutulmuş istiqamətlər üzrə tədqiqatların daha da genişləndirilməsi üçün möhkəm bünövrə rolunu oynadı. Alimlərimiz Manna, Atropatena və Albaniya tarixinin aktual məsələləri, antik arxeologiya, etnik problemlər və s. üzrə tədqiqatlarının nəticələrini nəşr etdirirlər. Bu tədqiqatların bəzilərində köhnə baxışlar yenidən nəzərdən keçirilir, bəzilərində bölgə sakinlərinin etnik, iqtisadi, siyasi və mədəni həyatının köklü məsələiəri üzrə yeni müddəalar irəli sürülür, Azərbaycan ərazisindəki ayrı-ayrı arxeoloji mədəniyyətlərin etnik atribusiyası verilir.

1995-ci ildə İ.Əliyevin redaktəsilə nəşr olunmuş "Azərbaycan tarixi" (rus dilində) kitabında xalqımızın qədim tarixinə çox geniş yer verilmişdir.

Qədim dünya tarixi elminin inkişafi bizim qarşımıza yeni vəzifələr və yeni problemlər qoyur. Azərbaycanın qədim əhalisinin etnik tarixi məsələsinin dərindən tədqiqi, arxeologiya və qədim Azərbaycan sakinlərinin mədəniyyəti üzrə ümumiləşdirici əsərlərin yaradılması təkidlə tələb olunur. Respublikanın şimal-şərq və cənub-şərq rayonları arxeoloji cəhətdən xüsusi olaraq öyrənilməlidir. Uzaq keçmişlərdə bu bölgənin öz sakinlərinin və Cənubi rus çölləri tayfalarının Ön Asiya aləmi ilə əlaqələri bu ərazilər vasitəsi ilə həyata keçirilmişdir.

Azərbaycan alimləri, şübhəsiz ki, bu və başqa məsələlərin tədqiqi işinə əllərindən gələn töhfəni verəcəklər.

Təqdim edilən işdə Azərbaycan tarixinin ən Qədim zamanlardan başlayan və e. III əsrinin birinci rübü ilə başa çatan böyük bir dövrü işıqlandırılır. Qeyd etmək zəruridir ki, yeni tarixi tədqiqatlar sayəsində Azərbaycan tarixinin xronoloji çərçivəsi kəskin surətdə genişlənmişdir. Əgər yarım əsr bundan əvvəl diyarın tarixi əslində ancaq 3-4 minillik ərzində xülasə oluna bilərdisə, bu ərazidə paleolitin mövcudluğu lap 50-ci illərin başlanğıcınadək problematik olaraq qalırdısa, indi mühüm arxeoloji kəşflər, ilk növbədə isə, elmimizdə yeni səhifə olan Azıx mağarası kimi nadir abidənin tədqiq olunması sayəsində biz haqlı olaraq tariximizi ən uzaq dövrdən başlayırıq.

İndi bizim tariximizin yaşı təxminən bir milyon yarım ildir. Son 17 yüzillik istisna edilməklə, demək olar ki, bütün bu dövr bu kitabda işıqlandırılır. Bu vaxt ərzində qədim Azərbaycan ərazisində kortəbii qüvvələrlə mübarizədə maddi və mənəvi mədəniyyət yaratmağa başlamış ilk insanlar meydana çıxmış, ibtidai icma quruluşu təşəkkül tapmış, yüz min illər boyu mövcud olmuş və sonralar süqut etmiş ilk dövlət qurumları meydana çıxmış, inkişaf edərək məhv olmuşdur.

Sonuncu tədqiqatların işığında Azərbaycan insanların ən qədim yayılma rayonlarından biri kimi tanınır. Zaqafqaziyanın bəşəriyyətin ilk, ulu vətəni hüdudları daxilində olması şübhəsizdir. Artıq o dövrdə Azərbaycan ərazisi çoxsaylı fəaliyyət



downloaded from KitabYurdu.az

izləri qoyub getmiş uzaq əcdadlarımız tərəfindən tədricən mənimsənilirdi. İnkişaf mərhələləri təxminən 1,5 milyon il bundan əvvəl başlanmış Quruçay çaydaşı mədəniyyətinin meydana gəlməsi bunu sübut edən dəlillərdən biridir.

Arxeoloqlarımızın axtarışları, Azərbaycan ərazisində aşkara çıxarılmış müxtəlif maddi abidələrin müqayisəli şəkildə öyrənilməsi, paleobioloqların, paleobotaniklərin, paleomaqnitçilərin tədqiqatları, odun meydana çıxması, ilk daş konstruksiyalar və bir çox başqa fenomenlər Zaqafqaziyanın ilkin paleolit dövrü sakinlərinin həyatı, zəka qabiliyyəti haqqında bizim təsəvvürlərimizi əhəmiyyətli dərəcədə dəyişmişdir. O zaman insan öz varlığı uğrunda təbiətin amansız qüvvələri ilə gərgin mübarizə aparırdı. O, bu çox ağır, uzun mübarizə prosesində fasiləsiz və inadlı yaradıcı əməyi ilə dünyanı dəyişirdi. Təbii ki, insan özü də təkmilləşirdi.

Azərbaycan tarixinin ən qədim dövrlərinin öyrənilməsində alimlərimizin böyük müvəffəqiyyətlərinə baxmayaraq, hələ də xeyli aydın olmayan, mübahisəli məsələlər qalır. Nəzəri xarakterli problemlər mövcuddur. Bütün bunlar predmetin özünün ümumi mürəkkəbliyi ilə yanaşı, elmi-idraki, həm də ideya-nəzəri dünyagörüşü əhəmiyyətli olan ibtidai icma tarixinin ümumi çətinlikləri ilə izah olunur.

Kitabın müəllifləri konkret arxeoloji material əsasında Azərbaycan ərazisində ən qədim dövrün mənzərəsini yaratmağa çalışmışlar.

B i r i n c i bölmə - "Daş dövrü. İbtidai icma quruluşu" - Azərbaycan ərazisində yaşamış insan kollektivləri tarixinin ilkin mərhələlərinə həsr olunmuşdur. Bu, çaydaşı mədəniyyəti adlanan mədəniyyətin və paleolitin sonrakı mərhələlərinin - ilkin və Orta Aşel, final Aşel, Mustye mərhələlərinin inkişafı zamanıdır. Bu dövrdə insan cəmiyyətinin təşəkkülü baş verir, ovçuluq və yığıcılıq inkişaf edir, müasir tipli insan - Homo Sapiens formalaşır. Cəmiyyətin tərəqqisinə baxmayaraq, insan bütün paleolit dövrü ərzində istehlakçı olaraq qalır, yüzminilliklər boyunca onun təsərrüfatı mənimsəmə xarakteri daşıyırdı.

Yalnız mezolit-neolit dövründə istehsal edən təsərrüfatın, yaranması prosesi başlayır - əkinçilik və maldarlıq meydana çıxır ki, bu da son mərhələsi çox vaxt "neolit inqilabı" adlanan möhtəşəm bir çevriliş idi. Mezolit-neolit dövründə Azərbaycanda baş vermiş dəyişikliklər bir sıra çox mühüm hadisələr üçün stimul olur. Müntəzəm izafi məhsulun meydana çıxması elə yolun başlanğıcı oldu ki, həmin yol bir neçə minillikdən sonra bölgədə ibtidai icma quruluşunun süqutuna gətirib çıxartdı.

Mezolit dövrü kollektivlərin miqrasiyası (mədəni yeniliklərin sürətlə müxtəlif zonalara yayılması bununla bağlıdır), habelə, ehtimal ki, etnik qovuşmalar dövrüdür.

Neolit dövrü təsərrüfatın yeni növlərinin - əkinçilik və maldarlığın xeyli möhkəmləndiyi, arxaik keramikanın, orada-burada isə gil divarlı komaların meydana çıxdığı dövrdür. E.ə. VIII-VI minillikləri əhatə edir.



downloaded from KitabYurdu.az

Açıq səma altında özünəməxsus şəkil qalereyası olan Qobustan qayaüstü təsvirləri kompleksi mezolit, neolit və sonrakı dövrlər incəsənətinin görkəmli abidəsidir. Qobustan zonasında aparılan qazıntılar bölgədə mezolit-neolit dövrünü daha yaxşı təsəvvür etməyə imkan verir.

E.ə. VI minilliyin ortalarına yaxın Azərbaycan və bütün Zaqafqaziya ərazisində tədricən Ön Asiya tipli oturaq əkinçilik mədəniyyəti formalaşır - insanın artıq təbii misdən istifadə edib ondan alət, silah və bəzək hazırladığı eneolit dövrü başlanır.

Bütün Azərbaycan ərazisinə səpələnmiş "yaşayış təpələri" tipli onlarla eneolit məskənləri bizdə qonşu vilayətlərlə sıx surətdə əlaqədar olan sakinlərin təsərrüfatı, mədəniyyəti və müəyyən dərəcədə ictimai münasibətləri haqqında kifayət qədər aydın təsəvvür yaradır.

Eneolit məskənlərinin materialları o dövrdə Azərbaycan ərazisində yaşamış əhalinin böyük tərəqqiyə nail olduğuna dəlalət edir. Eneolit dövrü ilə cildin birinci bölməsi sona çatır.

İ k i n c i bölmə- "Azərbaycan ərazisində tunc dövrü. İbtidai icma quruluşunun dağılması" - təxminən iki minillik bir dövrü (e.ə. IV minilliyin ikinci yarısı - II minilliyin sonu) əhatə edir.

Tunc dövrünün arxeoloji materialları zəngin və misilsiz möhtəşəmliyi ilə fərqlənən, əkinçilik və maldarlığın, habelə dulusçuluq və metal emalının coşqun inkişafı əsasında məhsuldar qüvvələrin səviyyəsinin xeyli yüksəldiyinə dəlalət edən qədim mədəniyyətləri bizə çatdırmışdır. Əhalinin xeyli artması, ilk böyük tayfa ittifaqlarının meydana çıxması kəskin surətdə nəzərə çarpır; hərbi toqquşmalar daha tez-tez baş verir, yaşayış məskənlərinin, möhkəm qalaların sayı artır.

O dövrün iqtisadiyyatında aparıcı rol əkinçiliyə məxsus idi.

Təsərrüfat həyatının yüksəlişi öz növbəsində xammal ehtiyatlarının daha intensiv surətdə istismarını stimullaşdırdı. Dağ-mədən işi, metal emalı, saxsı istehsalı, toxuculuq və bir çox başqa sənətkarlıq sahələri coşqun surətdə inkişaf edir.

Tunc dövrü özü ilə birlikdə çoxlu mühüm dəyişikliklər gətirmişdir. Bu dövrdə maldarlığın xeyli inkişaf etməsi və dağ-mədən sərvətlərinin istismarı hesabına ayrı-ayrı şəxslərin və ailələrin əlində böyük sərvət toplanır ki, bu da sosial və əmlak təbəqələşməsinin dərinləşməsinə gətirib çıxarır. Bu dövrdə müharibə maldarlıq və əkinçiliklə yanaşı, Azərbaycan tayfalarının başlıca məşğuliyyətlərinin birinə çevrilir.

Tunc dövründən etibarən Azərbaycan ərazisinin bir hissəsi öz əhalisi - kutilər, lullubilər, hurrilər və b. ilə birlikdə Şumer-Akkad yazılı qaynaqları orbitinə düşür.

Kifayət qədər çoxlu arxeoloji materiallar orta və son tunc dövründə Azərbaycan ərazisində təbəqələşmənin kəskin surətdə dərinləşdiyinə, ibtidai icma quruluşunun tənəzzülə uğradığına və dağıldığına dəlalət edir.

Bu bölmənin sonunda Azərbaycan əhalisinin etnik tərkibi nəzərdən keçirilir.



downloaded from KitabYurdu.az

Ü ç ü n c ü bölmə - "Azərbaycan ərazisində ilk dövlətlər" adlanır. Burada müxtəlif yazılı qaynaqlardan istifadə edilmişdir. Bu dövr tarixinin öyrənilməsində mühüm rol həm də arxeoloji materiallara məxsusdur.

Bölmədə ilkin siyasi birləşmələrin taleyi nəzərdən keçirilir. Bütöv bir fəsil bu bölgədə ilk böyük dövlətin - Manna dövlətinin tarixinə, Mannanın şəhərlərinə və şəhər məişətinə, mədəniyyətinə həsr edilmişdir. E.ə. VIII əsrin sonu - VII əsrin əvvəllərində Manna bu dövrün ən qüdrətli dövlətlərindən birinə çevrilir.

Yadelli qəsbkarlara qarşı mübarizəyə bölmədə xeyli yer verilir.

Mannanın madalılar tərəfindən qəsb edilməsi ilə əlaqədar məsələlər nəzərdən keçirilir. Bu dövrdən etibarən bir sıra əsrlər ərzində Mada etnik elementi bölgədə mühüm rol oynamış, yerli tayfalar tədricən qəsbkarlarla qovuşmağa başlamış, bununla da bu ərazidə yeni etnik birliyin - atropatenalıların əsası qoyulmuşdur.

Bölmə İran Əhəməni dövlətinin tərkibinə daxil olmuş o dövr Azərbaycan tarixinin işıqlandırılması ilə başa çatır.

D ö r d ü n c ü bölmə - "Hellinizm dövründə Azərbaycan ərazisində dövlət qurumları" adlanır.

Bölmənin iki fəsli Mada Atropatenasına, onun etnik, təsərrüfat, siyasi, mədəni tarixinə, habelə dininə həsr edilmişdir. Qeyd olunur ki, e.ə. IV əsrin son rübünün başlanğıcında keçmiş fars canişini Atropat, - öz mənşəyinə görə onun madalı olduğunu güman etməyə əsas var - əsasən Cənubi Azərbaycan, İran Kürdüstanı və qismən də müasir Azərbaycan Respublikası ərazisində yerləşmiş yeni dövlətin - Kiçik Madanın müstəqil hökmdarına çevrilir. Sonralar bu şahlıq tez-tez öz banisinin adı ilə Atropatena adlandırılırdı.

"Azərbaycan" məfhumunun özü də məhz Aropatena// At$^{a}/_{u}$rpatakanla əlaqədardır. "Azərbaycan" adı öz kökü ilə bu dövrə gedib çıxır və qədim At$^{a}/_{u}$rpatakanın qanunauyğun dəyişmiş formasıdır.

Sonuncu üç fəsil antik Qafqaz Albaniyasının ərazi hüdudlarının və əhalisinin nəzərdən keçirilməsinə, onun təsərrüfat həyatına, sosial münasibətlərinə, siyasi tarixinə və mədəniyyətinə həsr olunub.

Alban dövlətinin meydana çıxmasına, Albaniyadakı şəhərlərə, ticarət, pul dövriyyəsinə, mədəniyyətə, albanların qonşularına, Parfiya və Romaya qarşı mübarizəyə xeyli yer verilmişdir.

Bizi maraqlandıran ərazi sakinlərinin inkişaf prosesi minilliklər boyu qonşu, bəzən isə uzaq ərazilərdə yaşayan əhalinin tarixi ilə sıx əlaqədar getmişdir. Azərbaycanın ən qədim və qədim tarixi Zaqafqaziyanın digər rayonları, Qafqaz, Kiçik Asiya, Mesopotamiya, İran, Orta Asiya və Cənubi rus çölləri sakinlərinin tarixi ilə qırılmaz surətdə bağlıdır. Ona görə də diyarımızın tarixini şərh edərkən bu ərazilərdə məskunlaşmış tayfa və xalqların da tarixinə toxunmalı olmuşuq.



downloaded from KitabYurdu.az

İnstitutun böyük bir qrup tarixçi və arxeoloqlarının vətənimizin ən qədim tarixi məsələləri üzrə kollektiv tədqiqatının nəticəsi olan bu cild metodoloji cəhətdən elm klassiklərinin əsərlərinə, konkret-tarixi cəhətdən isə arxeoloji və müxtəlif dilli yazılı qaynaqlara əsaslanır.

Kitabın hazırlanması Azərbaycanın ən qədim və qədim tarixi üzrə Azərbaycan EA Tarix İnstitutunda həyata keçirilmiş, çətin və çox zəhmət tələb edən tədqiqat işlərinin aparılmasından sonra mümkün olmuşdur.



downloaded from KitabYurdu.az

**FƏSİL VƏ PARAQRAFLAR AŞAĞIDAKI MÜƏLLİFLƏR TƏRƏFİNDƏN YAZILMIŞDIR**

Giriş - *İqrar Əliyev*
Azərbaycanın təbii-coğrafi şəraiti - *B.Ə.Budaqov*

*I BÖLMƏ*

**DAŞ DÖVRÜ. İBTİDAİ İCMA QURULUŞU**

I FƏSİL. **PALEOLİT DÖVRÜ. İBTİDAİ OVÇULAR – YIĞICILAR**

Daş dövründə Azərbaycanın təbii şəraiti - *Ə. V.Məmmədov*
İnsan cəmiyyətinin ən qədim inkişaf mərhələləri - *M.M.Hüseynov, Ə. Q. Cəfərov*
Azərbaycanın paleolit dövrü sakininin mənəvi aləmi haqqında - *İqrar Əliyev*

II FƏSİL. **MEZOLİT VƏ NEOLİT DÖVRÜ. AZƏRBAYCAN SAKİNLƏRİ İSTEHSALEDİCİ TƏSƏRRÜFATIN MEYDANA ÇIXMASI DÖVRÜNDƏ**

Giriş qeydləri - *İqrar Əliyev*
Mezolit abidələri. Əmək alətləri. Ox və yay. Ovçuluq. Yığıcılıq. Balıqçılıq - *C.N.Rüstəmov*
Neolit dövrünün əkinçi-maldar qəbilələri. Əmək alətləri. Keramika - *C.N.Rüstəmov*
İctimai quruluş - *C.N.Rüstəmov*
Mənəvi mədəniyyət - *C.N.Rüstəmov*

III FƏSİL. **AZƏRBAYCANDA ENEOLİT DÖVRÜNÜN ƏKİNÇİ-MALDAR TAYFALARI**

Abidələrin icmalı - *İ.H.Nərimanov*

*II BOLMƏ*

**AZƏRBAYCAN ƏRAZİSİNDƏ TUNC DÖVRÜ.**



downloaded from KitabYurdu.az

## **İBTİDAİ-İCMA QURULUŞUNUN DAĞILMASI**

IV FƏSİL. **İLK TUNC DÖVRÜ. KÜR-ARAZ MƏDƏNİYYƏTİ**
- *İ.H.Nərimanov*

V FƏSİL. **ORTA TUNC DÖVRÜ** - *İqrar Əliyev, İ.H.Nərimanov*

### VI FƏSİL. **SON TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ. İBTİDAİ-İCMA QURULUŞUNUN DAĞILMASI. ERKƏN SİNİFLİ CƏMİYYƏT ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN TAYFALARI**

Tayfalar və tayfa qrupları - *İqrar Əliyev*
Abidələrin icmalı - *İ.H.Nərimanov*
Yaşayış yerləri və qalaçalar - *İ.H.Nərimanov*
Təsərrüfat – *İ.H.Nərimanov*
Sənətkarlıq – *İ.H.Nərimanov*
İctimai və mülki bərabərsizliyin güclənməsi. İbtidai icma quruluşunun dağılması - *İ.H.Nərimanov*
Qəbilələrarası mübadilə. Xarici əlaqələr - *İ.H.Nərimanov*
Mənəvi mədəniyyət və ideologiya – *İ.H.Nərimanov*
Aşşurluların və elamlıların Zaqros vilayətlərinə yürüşləri - *İqrar Əlivev*

### VII FƏSİL. **E.ə. II MİNİLLİYİN SONU - I MİNİLLİYİN BAŞLANĞICINDA AZƏRBAYCAN ƏRAZİSİNDƏ ƏHALİNİN TƏRKİBİ**
- *İqrar Əliyev*



downloaded from KitabYurdu.az

*III BÖLMƏ*

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLK DÖVLƏTLƏR

## VIII FƏSİL. **AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLKİN SİYASİ QURUMLAR. MANNA DÖVLƏTİ**

Urmiya gölü hövzəsində ilk siyasi qurumlar - *İqrar Əliyev, S.M.Qaşqay*
Manna çarlığının meydana gəlməsi. Aşşurlulara və urartululara qarşı mübarizə - *İqrar Əliyev, S.M.Qaşqay*
Mannanın təsərrüfat həyatı: əkinçilik, maldarlıq, sənətkarlıq - *S.M.Qaşqay*
Mannanın şəhərləri və şəhər həyatı - *S.M.Qaşqay*
Mannanın dövlət quruluşu - *S.M.Qaşqay*
Manna çarlığının qüvvətlənməsi və genişlənməsi - *İqrar Əliyev, S.M.Qaşqay*
Mənəvi mədəniyyət və dini etiqadlar - *S.M.Qaşqay*

## IX FƏSİL. **KİMMER VƏ SKİF (ŞKUDA) TAYFALARININ AZƏRBAYCAN VƏ ÖN ASİYA ƏRAZİSİNƏ BASQINLARI. MİDİYA (MADA) VƏ SKİF ÇARLIQLARININ YARANMASI**

- *İqrar Əliyev*

## X FƏSİL. **CƏNUBİ AZƏRBAYCANIN MİDİYALILAR (MADALILAR) TƏRƏFİNDƏN İŞĞALI. MANNA ÇARLIĞININ SÜQUTU**

- *İqrar Əliyev*

## XI FƏSİL. **AZƏRBAYCAN TORPAQLARI FARS ƏHƏMƏNİ (NAXAMANİŞİLƏR) DÖVLƏTİNİN TƏRKİBİNDƏ**

- *İqrar Əliyev*



downloaded from KitabYurdu.az

IV BÖLMƏ

# HELLİNİZM DÖVRÜNDƏ AZƏRBAYCAN ƏRAZİSİNDƏ DÖVLƏT QURUMLARI

XII FƏSİL. **MADA-ATROPATENA (*At$^{a}$/$_{u}$rpatakan) DÖVLƏTİ**
- *İqrar Əliyev*

Madanın satrapı Atropat. Azərbaycan ərazisində müstəqil Mada-Atropatena - Kiçik Mada dövlətinin yaradılması - *İqrar Əliyev*
Atropatenanın etnik mənzərəsi. Mada-Atropatena etnosunun təşəkkül tapması - *İqrar Əliyev*
Təsərrüfat həyatı - *K.H.Əliyev*
Atropatena hellinizm dövlətləri sistemində - *İqrar Əliyev*
Atropatena eramızın ərəfəsində. Yadelli istilaçılara qarşı mübarizə
*İqrar Əliyev*

XIII FƏSİL. **ATROPATENANIN MADDİ MƏDƏNİYYƏTİ VƏ DİNİ**
- *İqrar Əliyev*

XIV FƏSİL. **ANTİK ALBANİYANIN ƏRAZİSİ VƏ ƏHALİSİ, TƏSƏRRÜFAT HƏYATI. İCTİMAİ MÜNASİBƏTLƏR VƏ SİYASİ QURULUŞ**

Qədim Albaniyanın ərazisi və əhalisi - *İqrar Əliyev*
Əkinçilik. Bağçılıq. Üzümçülük - *K.H.Əliyev*
Maldarlıq, balıqçılıq. - *K.H.Əliyev*
Sənətkarlıq - *K.H.Əliyev*
Ticarət. Ticarət yolları - *K.H.Əliyev*
Pul tədavülü - *İ.Ə.Babayev*
Şəhərlər və başqa məskənlər - *İqrar Əliyev* [Bu paraqrafda F.L.Osmanovun təqdim etdiyi bir sıra materiallardan istifadə edilmişdir]
Sosial münasibətlər - *K.H. Əliyev*
Qoşun və hərbi iş - *K.H.Əliyev*

XV FƏSİL. **ANTİK ALBANİYANIN SİYASİ HƏYATI**

Eramızdan əvvəl IV-II əsrlərdə Albaniyanın siyasi həyatı. Albaniya dövlətinin meydana gəlməsi - *İqrar Əliyev*



downloaded from KitabYurdu.az

Albaniya eramızın hüdudlarında və ilk əsrlərində. Parfiya və Romaya qarşı mübarizə - *K.H.Əliyev*
Eramızın hüdudunda və ilk əsrlərində şimaldan Albaniyanın və bitişik vilayətlərin ərazisinə köçərilərin girməsi – *İqrar Əliyev*

XVI FƏSİL. **ANTİK ALBANİYANIN MƏDƏNİYYƏTİ**

Albaniyanın maddi mədəniyyət abidələri - *F.L.Osmanov*
Antik Albaniyanın incəsənəti - *F.L.Osmanov*
Din - *K.H.Əliyev*
XRONOLOGİYA GÖSTƏRİCİSİ - *S.M.Qaşqay*
ƏDƏBİYYAT - *İqrar Əliyev, R.S.Məlikov*



downloaded from KitabYurdu.az

## AZƏRBAYCANIN TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ

Azərbaycanın tarixi ərazisi Şərqi Zaqafqaziya və İranın şimal-qərb hissəsində yerləşir. Sahəsi 221,6 min $km^2$, əhalisinin sayı isə 30 mln nəfərdən artıqdır.

Hazırda bu tarixi ərazinin bir hissəsini tutan Azərbaycan Respublikasının sahəsi 86,6 min $km^2$, əhalisi 8,5 mln nəfərdir (2006-cı il), Cənubi Azərbaycanın ərazisi 135 min $km^2$, əhalisi 25 mln nəfərə qədərdir.

Azərbaycan ərazisi düzənlik və dağlıq relyefə malik olub, mütləq yüksəkliyi 28 m-dən (Xəzərsahili düzənlik) 4821 m-ə (Savalan dağı) qədərdir.

Azərbaycan Respublikasının ovalıq və düzənlik relyefi Gəncə, Qazax, Qarabağ, Mil, Muğan, Şirvan, Salyan, Lənkəran, Samur-Dəvəçi, Arazyanı və Şərurdan ibarətdir.

Azərbaycan Respublikasının ərazisi beş coğrafi vilayətə bölünür: onlardan dördü (Böyük Qafqaz, Kiçik Qafqaz, Naxçıvan MR, Lənkəran) dağlıq, biri isə (Kür-Araz və ya Mərkəzi Aran) ovalıqdır.

Böyük Qafqazın Azərbaycan hissəsi hüdudunda iki əsas dağ silsiləsi-Baş Qafqaz (Bazardüzü dağı - 4466 m) və Yan silsilə (Şahdağ - 4243 m) uzanır. Dağlıq Şirvan, Qobustan və Abşeron yarımadası Cənub-şərqi Qafqazda yerləşir.

Baş Qafqaz dağ silsiləsinin cənub yamacı ətəyi boyunca Qanıx-Əyriçay dağarası çökəkliyi, ondan cənuba isə geniş Ceyrançöl və Acınohur öndağlığı uzanır.

Baş Qafqaz silsiləsi Bazardüzü dağından şərqə Azərbaycan ərazisi daxilində şimal-qərbdən (Tinovroso dağı) cənub-şərqə doğru uzanmaqla 4000 metrdən 1026 metrə qədər (Kəmçi dağı) alçalır. Azərbaycan və Dağıstan xalqları arasında tarixən gediş-gəliş, o cümlədən də ticarət əlaqələri Baş Qafqaz silsiləsinin Tinovroso (2800 m), Maçxalroso (2900 m), Malarasa (2865 m), Qudurdağ (2500 m), Dindidağ (2992 m), Attaqay (2657 m), Ağbulaq (3200 m), Qərbi Salavat (2832 m), Nohurlar (3250 m), Qdım (2906 m), Fiy (3104 m) və bir çox başqa aşırımlar vasitəsilə saxlanılmışdır.

Kiçik Qafqazın Azərbaycan hissəsində Şahdağ (Qara-arxac -2901 m, Hinaldağ - 3367 m), Murovdağ (Gamışdağ - 3724 m), Qarabağ (Böyük Kirs - 2725 m) sıra dağları və Qarabağ vulkanik yaylası (Böyük İşıqlı - 3552 m, Dəlidağ - 3616 m) relyefdə üstünlük təşkil edir.

Naxçıvan MR ərazisində Dərələyəz (Kükürdağ - 3120 m) və Zəngəzur sıra dağları (Qapıcıq dağı - 3904 m) uzanır. Hər iki sıra dağların qovuşağında Biçənək aşırımı (2346 m) yerləşir.

Lənkəran ovalığı cənub-qərbdə Talış sıra dağları ilə (Gömürgöy - 2493 m) sərhədlənir. Bu dağların ön hissəsi boyu Burovar silsiləsi (914 m), mərkəz hissəsi boyu isə Peştəsər (2200 m) sıra dağları uzanır.

Cənubi Azərbaycanın relyefi bir neçə dağ silsilələrindən və dağarası çökəkliklərdən ibarətdir.



downloaded from KitabYurdu.az

Cənubi Azərbaycanın şimal hissəsində əsasən intruziv süxurlardan təşkil olunmuş Qaradağ silsiləsi əyməvari şəkildə qərbdən şərqə doğru uzanır. Araz çayının sağ sahilindən başlanan bu silsilənin mütləq yüksəkliyi 3000 metrə qədər çatır. Qaradağ silsiləsinin şimal yamacı 50 kilometr məsafədə 3000 metrdən 200 metrə qədər, cənub yamacı isə 25 kilometr məsafədə 3000 metrdən 1000 metrə qədər enir. Onun şimal yamacına kəsilmiş dərələrin dərinliyi 1000 metrdən artıqdır.

Kiəmki-Qaraca silsiləsi Qaradağın cənub, cənub-qərbinə yaxın olmaqla 110 kilometr məsafədə uzanır. Onun Kiəmki zirvəsi 3358 metrə, ən uca zirvəsi isə 3975 metrə qədər ucalır. Silsilənin maksimal enliyi 30 kilometrə qədərdir. Bu silsilə cənub-şərqdə Qaraca dağı (2875 m) vasitəsilə Savalan silsiləsilə birləşir. Bu silsilə qərbdən şərqə doğru 130 kilometr uzanmaqla 4821 metrə qədər (Savalan dağı) ucalır. Cavan (pleystosen) vulkan lavalarından, vulkan küllərindən, tuflarından yaranmış Savalan silsiləsinin yamacları Acıçay, Balıqçay, Qarasuçay çayları vasitəsilə parçalanmışdır. Bozquş silsiləsi Acıdərə çayının yuxarı və orta axınından cənub-qərbdən şimal-şərqə doğru 125 kilometr məsafədə uzanır. Onun mütləq yüksəkliyi 3299 metrə, maksimal enliyi isə 20 kilometrə çatır. Bozquş silsiləsi şimaldan Acıçay, Balıqçay, cənub-şərqdən isə Qızılüzən çayının sol qolları vasitəsilə parçalanmışdır.

Acıdərə çökəkliyindən cənub-qərbə vulkan mənşəli Səhənd (Haramdağ) dağının (3710 m) konusu ucalır. Ətrafdakı dağarası çökəklik və düzənliklərdən 2500 metrdən artıq ucalan Səhənd dağı və Savalan dağı relyefdə öz vulkan konusu ilə çox qabarıq şəkildə görünür. Zirvədən radial şəkildə ətraf yamacların ətəklərinə doğru istiqamətlənən kiçik çay dərələri dağa xüsusi görkəm verir.

Mişudağ silsiləsi Urmiya gölünün şimal-şərq qurtaracağında yerləşməklə 60 kilometr məsafədə uzanır. Onun maksimal yüksəkliyi 3132 metr (Ələmdar dağı), eni isə 30 kilometrdir. Mişudağın yamaclarında da ariddenudasiya prosesləri gedir.

Cənubi Azərbaycanın qərb qurtaracağında İranla Türkiyə sərhədi boyu 110 kilometr məsafədə uzanan Qotur silsiləsinin şərq yamacı Sarısu, Qızılçay, Ələnd, Qotur çayları ilə kəskin parçalanmışdır. Qotur silsiləsinin ən uca zirvələrindən Heravil (3676 m), Avrin (3623 m) və Moğancıq (3676 m) dağlarıdır. Aşırımlara Bəzərgan, Qaratəpə və başqalarını misal çəkmək olar.

Qotur silsiləsindən cənuba, Urmiya gölündən qərbə Moğancıq-Musalan silsiləsi ayrı-ayrı dağ tirələrindən ibarət olmaqla, onların mütləq yüksəkliyi 2000 metrlə 3000 metr arasında dəyişir. Silsilələrin ən uca zirvəsi 3601 metrdir. Mezozoyun çökmə süxurlarından yaranan bu silsilənin şərq yamacları Urmiya gölünə doğru istiqamətlənən bir çox çay dərələri vasitəsilə parçalanmışdır.

Dağ silsilələri arasında Ərdəbil, Acıdərə, Sərab və Mianə adlı iri dağarası çökəkliklər uzanır. Urmiya dağarası çökəkliyi Xoy şəhəri ilə Miandabad şəhəri arasında 230 km, Təbriz-Quşçu istiqamətində isə (qərbdən şərqə) 125 km məsafədə uzanır. Çökəklikdə pleystosenin kontinental və göl çöküntüləri yayılmışdır.



downloaded from KitabYurdu.az

Acıçay (Acıdərə) çökəkliyi qərbdən şərqə doğru (Təbriz-Kəhriz istiqamətində) 125 km məsafədə uzanır. Onun dibində çay terraslarından ibarət düzənliklər, ətraf hissələrdə isə gətirmə konusları vardır.

Ərdəbil çökəkliyi Balıqlıçay, Quruçay və Qarasu çaylarının qovuşduğu yerdə vulkanogen, allüvial-prolüvial çöküntülərindən təşkil olunmuş düzənlikdən ibarətdir. Onun sahəsi 1000 kvadrat kilometrə qədərdir.

Mianə çökəkliyi Qızılüzən çayının orta axınında yerləşməklə, qərbdən şərqə 25-30 kilometr məsafədə uzanır.

Muğan düzünün bir hissəsi Cənubi Azərbaycan ərazisinə daxil olmaqla, qərbə doğru 200 metrə qədər yüksəlir.

Cənubi Azərbaycan relyefində təbiətin yaratdığı əvəzsiz abidələrdən biri də vulkan mənşəli Savalan dağıdır.

Azərbaycan ərazisində dağlıq relyef şəraitində geniş yayılmış sürüşmələr, uçqunlar, sellər və vaxtaşırı baş verən zəlzələlər yaşayış məntəqələrini dağıdır, təsərrüfata ciddi ziyan vurur və insan tələfatına səbəb olur.

Azərbaycan ərazisi mezo-kaynozoyun çökmə, vulkanogen və intruziv süxurlarından yaranmışdır. Azərbaycan ərazisi Alp qırışıqlıq zonasına aid olub, tektonik cəhətdən olduqca fəaldır. Bu, özünü ilk növbədə güclü zəlzələlərdə (9 bal) büruzə verir.

Azərbaycan ərazisi yeraltı faydalı qazıntılarla zəngindir. Bu torpaq ən qədim zamanlardan özünün faydalı qazıntıları ilə, ilk növbədə, nefti və qazı ilə şöhrət tapmışdır. Dəmir, maqnezium, titan (maqnetitli qumdaşı), xrom, mis, polimetallar, kobalt, mərgmüş, molibden, İslandiya şpatı, dağ bülluru, kvars, kükürd kolçedanı, kükürd, barit, alunit, andaluzit, bitum, daş duz və s. kimi filiz və qeyri-filiz faydalı qazıntılar bu torpağın sərvətidir. Tikinti üçün yararlı, odadavamlı, abraziv və digər təbii sərvətlər Azərbaycan ərazisində geniş yayılıb.

Azərbaycanda olan mineral bulaqlar öz kimyəvi tərkibinə görə on bir tipə bölünür. Buraya hidrokarbonatlı, hidrokarbonatlı-xloridli, hidrokarbonatlı-xloridli-sulfatlı, hidrokarbonatlı-sulfatlı, xloridli, sulfatlı-xloridli və başqa kimyəvi tərkibli mineral bulaqlar daxildir. Azərbaycanın coğrafi yeri, onun dağlıq və düzənlik relyefinin atmosfer proseslərilə qarşılıqlı əlaqə və təsiri nəticəsində bir neçə iqlim tipləri yaranmışdır.

Azərbaycan Respublikasının iqlimi Kür-Araz ovalığının mərkəz və şərq hissələrində, Qobustanda, Abşeron yarımadasında və Samur-Dəvəçi ovalığında yayı quraq keçən mülayim-isti yarımsəhra və quruçöl (bozqır və ya step) iqliminə malikdir. Eyni iqlim tipi Talış silsiləsinin şimal yamacı boyu da müşahidə edilir.

Qışı quraq keçən mülayim iqlim yarımsəhra və quru çöl iqlimi Kür-Araz ovalığının Ağdaş-Qarqarçayın aşağı axını istiqamətindən qərbə uzanan Qarabağ



downloaded from KitabYurdu.az

düzünün bir qismini, Gəncə-Qazax düzünü, Boz dağı, Ceyrançölü və Acınohur öndağlığın cənub-qərbdəki ucqar hissəsini əhatə edir.

Yuxarıda adları çəkilən hər iki iqlim daxilində qarlı günlərin sayı 20 günə qədər olduğundan və həmin müddətdə qarın qalınlığı 10 santimetrdən artıq olmadığından bu ərazilər yüksək məhsuldarlığa malik olan qış otlaqlarıdır.

Bu ərazidə iyulun orta aylıq temperaturu 27°C-dən yüksək olduğundan pambıqçılıq, bağçılıq, üzümçülük, taxılçılıq geniş yer tutur. Kiçik Qafqazın dağətəyi və qismən orta dağlıq hissəsində, eləcə də Acınohur öndağlığında və Qanıx-Əyriçay çökəkliyi daxilində qışı quraq keçən mülayim isti iqlim mövcuddur. Kiçik Qafqazın və eləcə də cənub-şərqi Qafqazın şimal yamacının orta dağlıq ərazisində qışı quraq keçən soyuq iqlim hökm sürür. Böyük Qafqazın cənub yamacının alçaq hissəsi üçün yağıntısı demək olar ki, bərabər paylanmış mülayim-isti, orta dağlıq ərazi üçün isə qışı rütubətli keçən soyuq iqlim mövcuddur.

Talış dağlarında və Lənkəran ovalığında əsasən yayı quraq keçən mülayim-isti iqlim vardır.

Azərbaycanda rütubətli subtropik bitkilər (çay, limon, portağal, feyxoa və s.) bu iqlim tipinin əhatə etdiyi Lənkəran ovalığı və ona qovuşan alçaq dağlıq ərazinin şərq yamacında geniş yayılmışdır. Talış dağlarının alçaq dağlığı ilə orta dağlığın qovuşduğu dar bir zolaqda yağıntısı demək olar ki, bərabər paylanmış mülayim-isti iqlim yaranmışdır.

Naxçıvan MR-in və Cənubi Azərbaycanın dağarası çökəkliklərində yayı quraq keçən soyuq yarımsəhra və quruçöl iqlimi hakimdir. Kontinental iqlimə malik olan bu iqlim tipi daxilində illik mütləq minimum temperatur -32°C, illik mütləq maksimum temperatur isə +43°C olur. Hər iki ərazinin orta və yüksək dağlıq hissəsində yayı quraq keçən soyuq iqlim tipi mövcuddur. Bu iqlim şəraitində istər Naxçıvan MR, istərsə də Cənubi Azərbaycan ərazisində meşə örtüyü çox məhdud yaranmış və əsasən yox dərəcəsindədir. Dağ yamaclarının meşədən məhrum olması ariddenudasiya proseslərinin güclənməsinə, eroziyanın intensiv getməsinə, sellərin tez-tez baş verməsinə səbəb olur. Bu iqlim tipinə daxil olan ərazilərdə yay otlaqları az məhsuldardır.

Azərbaycanın mütləq yüksəkliyi 2600-2800 metrdən artıq olan yüksək dağlıq əraziləri üçün soyuq və tundra tipli iqlim xasdır. Belə iqlimi olan ərazilərdə qismən daimi buzlaqlar və yayda ərimməyən qar talaları müşahidə edilir.

Azərbaycanın ən iri çayları Kür və Arazdır. Ümumiyyətlə, Azərbaycan çayları dağ çaylarıdır. Onlar əsasən ilin soyuq yarısı çoxsulu, isti yarısı isə azsulu olur. Bu da qismən quraq iqlimə malik olan dağarası çökəkliklərdə, dağ ətəklərində, düzənlik və ovalıqlarda suvarma əkinçiliyi üçün ciddi maneə törədir. Buna görə də tarixən ən intensiv əkinçilik və bağçılıq çay dərələri, çay yataqları boyu və çayların dağlıq ərazilərdən düzənliyə qovuşduğu zolaqlarda yaranmışdı.



downloaded from KitabYurdu.az

Atmosfer yağıntılarının miqdarının paylanma dərəcəsindən və səthə çıxan yeraltı suların həcmindən asılı olaraq Azərbaycanda axımın paylanması müxtəlifdir.

Azərbaycan Respublikasının orta və yüksək dağlıq hissələri axın zonasına (35 l/*san/kv.km*) aiddir. Cənubi Azərbaycanın eyni yüksəkliyi olan dağlarının ərazisi isə orta axın zonasına (25-5 l/*san./kv.km*) daxildir. Alçaq dağlıq, düzənlik və dağlararası çökəkliklərdə isə zəif axım (5-1 l/*san./kv.km*) bəzən ondan da az üstünlük təşkil edir.

Atmosfer yağıntıları ərazi üzrə bərabər paylanmamışdır. Əgər Azərbaycan Respublikasının Astara rayonunda illik yağıntının miqdarı 1800 *mm*-dən artıqdırsa[1], Qobustanın cənub-şərq hissəsində illik yağıntıların miqdarı 150 *mm*-dir.

Mülayim iqlim qurşağın orta illik yağıntılarının miqdarı 200 *mm*-dən az olan ərazilərində tipik səhra, 200-400 *mm* olan ərazilərində tipik yarımsəhra, 400-500 *mm* olan ərazilərində isə rütubətli dağ çölləri və alçaq dağlıq arid meşələri inkişaf etmişdir. İllik yağıntının 600-1400 *mm*-ə çatdığı ərazilərdə meşə örtüyü vardır. Yüksək dağlıq çəmənliklərində orta illik yağıntıların miqdarı 600 *mm*-dən 900 *mm*-ə qədərdir.

Əlverişli relyef şəraiti olan dağlıq ərazilərdə yağan şıdırğı yağış güclü sellərin yaranmasına səbəb olur. Azərbaycan ərazisində ilin isti yarısında düşən dolu, əsən isti-quru küləklər (qara yel ve ağ yel), quraqlıq təsərrüfata böyük ziyan vurur.

Azərbaycan Respublikasının ən iri çayları Kür, Araz, Samur, Tərtər, Naxçıvançay və başqalarıdır. Cənubi Azərbaycanda Qarasu, Hacılar, Sərdərirud, Qazançay (Ağçay), Zərrinərud, Zulaçay, Nazlıçay və başqa çaylar vardır.

Azərbaycanın çayları ilin soyuq aylarında əsasən yağış və qrunt suları, ilin isti vaxtlarında isə qrunt, yağış və qar suları ilə qidalanır.

Urmiya gölünün sahəsi 5900 kvadrat kilometr, onun sutoplayıcı hövzəsinin ümumi sahəsi isə 50 min kvadrat kilometrdir. Gölün səviyyəsi 125 m mütləq yüksəklikdədir. Onun uzunluğu 140 km, maksimal eni 40 kilometrdir. Gölün dərinliyi şimal hissədə 6 m-ə, cənubda isə 15 m-ə çatır. Payız və yaz fəsillərində yağışların yağması ilə əlaqədar olaraq onun səviyyəsi qalxır, yayda isə əksinə, su səthindən intensiv buxarlanmanın getməsi sayəsində kəskin enir.

Hövzə yüksək minerallaşmaya (220 $^{0}/_{00}$) malikdir. Lakin göldə xərçəngəbənzər canlılar vardır.

Yüksək dağlıq ərazilərdə dağ-çəmən torpaqları inkişaf etmişdir. Dağlıq tundra iqlimi şəraitində (5000 m-dən yüksəklikdə) dağ-çəmən torflu torpaqlar formalaşır. Sıra dağların suayırıcı sahəsi boyunca yay otlaqları kimi istifadə edilən dağ çəmənlikləri geniş sahəni tutur.

---

[1] 1959-cu ildə Astara rayonunun Gəgiran məntəqəsində yağıntının miqdarı 2767 *mm*-ə çatmışdı.



downloaded from KitabYurdu.az

Azərbaycanın dağ meşələri altında dağ-meşə torpaqları, yüksək qələvili torpaq tipləri inkişaf etmişdir. Lənkəran dağlarının Xəzər dənizinə doğru istiqamətlənmiş cənub-şərq yamaclarında dağ-sarı, yuxa və podzollu torpaqlar geniş sahə tutur.

Cənubi Azərbaycanın torpaq örtüyü arid iqlim və kəskin parçalanmış relyef şəraitində formalaşmışdır. Alçaq dağlıq ərazilərdə tipik və açıq-sarı, əksər hallarda skeletli torpaqlar əmələ gəlmişdir. Tipik boz torpaqlar yüksək dağarası çökəkliklərin allüvial-prolüvial mənşəli çöküntüləri üzərində yayılmışdır.

Cənubi Azərbaycanda qəhvəyi torpaqlar geniş ərazini örtür. Maqmatik vulkanların püskürməsi nəticəsində yaranan effuziv və intruziv süxurlar üzərində əmələ gəlmiş torpaqlar mikroelementlərlə zəngin olduqlarından onların məhsuldarlığı yüksək olur. Qarabağ vulkanik yaylasını, Savalan və Səhənd dağlarının yamaclarını buna misal çəkmək olar.

İqlim şəraitinin kontinentalvarı və quraq keçməsilə əlaqədar Cənubi Azərbaycandakı dağ yamaclarında seyrək kserofit kolluqları və yarımkol friqonoid bitkiləri geniş sahə tutur. Dağarası Çökəkliklərdə və maili düzənliklərdə quru çöl və yarımsəhra bitkiləri inkişaf etmişdir. Qotur-Musalan dağ silsiləsinin şərq yamaclarında enliyarpaqlı meşələr, bozqır və friqonoid bitkilərindən ibarət kolluqlar yayılmışdır. Xəzər dənizinin sahili boyu Üçüncü dövrün dəmirağacı, şabalıdyarpaq palıd, dzelkva və bu kimi relikt bitkilərindən ibarət subtropik meşələr inkişaf etmişdir.

Yüksək dağlığın qayalıq hissələrində bezoar keçiləri, muflonlar məskunlaşıb. Dağ-meşə qurşağında daşlıq dələsi, meşə dələsi, ayı, vaşaq, meşə pişiyi, bəzən bəbir, muflon (dağ qoyunu), cüyür, çöl donuzu (qaban), tetra quşu, göyərçin, ular və b. vardır. Yarımsəhra şəraitində qırmızıquyruq siçan, oxlu kirpi, nutriya, gürzə, turac, kəklik, köçəri quşlar və bir çox başqa heyvanlar yaşayır.

Azərbaycanın daimi və müvəqqəti qoruqlarında nadir heyvan növləri (ceyran, bezoar keçisi, muflon, cüyür (əlik), xallı maral, sayqak, maral, kövkər və b.), relikt və endemik meşə bitkiləri, eləcə də landşaft kompleksləri mühafizə olunur. Bu qoruqlara Qızılağac, Zaqatala, Göygöl, Bəsitçay, Şirvan, Qarayazı, Pirqulu, Turyançay, Hirkan və başqa qoruqlar aiddir.

Azərbaycan ərazisində müxtəlif yüksəklik diapazonlarında yaranmış mürəkkəb təbii şərait, ayrı-ayrı təbii coğrafi komponentlər arasında baş verən qarşılıqlı əlaqə və təsir nəticəsində on bir landşaft tipi və yarımtipi yaranmışdır.

Dağlıq ərazilərdə şiddətli parçalanmış yüksək dağlığın subnival, qismən nival-buzlaq, yüksək dağlığın çəmənlik landşaftı vardır. Orta dağlığın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-çöl, orta dağlığın dağ kserofit (friqonoid) landşaftları mövcuddur. Dağ ətəklərinin enliyarpaqlı meşə, alçaq dağlığın kserofit, quru çöl və arid meşə, çöl və yarımsəhra landşaftları geniş sahəni əhatə edir.

Düzənlik ərazilərdə ovalıq və düzənliklərin meşə-çəmən, quru-çöl və yarımsəhra landşaftları inkişaf etmişdir.



downloaded from KitabYurdu.az

# BİRİNCİ BÖLMƏ

## DAŞ DÖVRÜ.
## İBTİDAİ İCMA QURULUŞU

I FƏSİL

## PALEOLİT DÖVRÜ.
## İBTİDAİ OVÇULAR – YIĞICILAR

**Daş dövründə Azərbaycanın təbii şəraiti.** İnsanın və cəmiyyətin formalaşması və inkişafı təbii mühitin inkişafı ilə yanaşı və sıx əlaqədə getmişdir.

Külli miqdarda paleolit abidələrinin tədqiqi nəticəsində təbiətin, insanın və onun maddi mədəniyyətinin inkişafında müşahidə olunan əsas hadisələr arasında sıx qarşılıqlı əlaqələrin mövcud olması müəyyən edilmişdir. Təbiət ibtidai insanlann məskəni və qida mənbəyi olmaqla bərabər onların demək olar ki, bütün həyat sahələrinə, hətta antropogenez prosesinə, yayılmasına, təsərrüfat xüsusiyyətlərinə, məişətinə, geyimlərinə belə ciddi təsir göstərmişdir. Antropogenezdə təbiətin rolu əsasən hominidlərin bioloji potensialına stimulvermə və seleksiyaetmə təsirindən ibarət olmuşdur. Xüsusən cəmiyyət tarixinin başlanğıc mərhələsində təbii amillərin insanlara təsiri daha güclü olmuşdur. Təbiətlə insan arasındakı qarşılıqlı münasibətlərin inkişafı təbiətin cəmiyyətin inkişafına təsirinin tədricən zəifləməsi istiqamətində getmişdir. Sosial tərəqqi nəticəsində insanın təcavüzü getdikcə artmış, mütərəqqi hal almış və mürəkkəbləşmişdir.

Yer kürəsinin digər bölgələrində olduğu kimi, Azərbaycan ərazisində də təbii şərait sabit qalmamışdır. Xüsusən ibtidai insanların yaşadığı daş dövründə təbiət dəyişilmələri daha kəskin xarakter almışdır.

Qərbi Azərbaycanda üst miosen-erkən pliosen yaşlı çöküntü qatlarında tapılan fauna və flora qalıqları göstərir ki, həmin geoloji dövrlərdə (7 mln il bundan əvvəldən 3,2 mln il əvvələdək) ərazidə isti iqlim şəraiti hökm sürmüşdür. Burada savanna tipli meşə-çöl landşaftı olmuşdur. Böyük və Kiçik Qafqaz dağlarının yamacları həmişəyaşıl ağaclarla, zəngin enliyarpaqlı meşələrlə örtülü olmuşdur. Heyvanat aləmi də olduqca zəngin idi. Dağətəyi və düzənlik ərazilərdə insanabənzər meymun, kərgədan, zürafə, dəvəquşu və digər tropik və subtropik iqlim şəraitinə xas olan heyvan sürüləri mövcud olmuşdur. Meşələrdə müasir dövrdə yaşayan ağac növlərilə



downloaded from KitabYurdu.az

yanaşı həmişəyaşıl ağaclar, o cümlədən palma, dəfnə, maqnoliya, həmişəyaşıl palıd, azat, darçın ağacı, nissa, araliya və s. geniş yayılmışdır. Bu da həmin dövrlərdə iqlimin kifayət dərəcədə isti və rütubətli olduğunu göstərir. Hesablamalara əsasən dağətəyi və düzənliklərdə orta illik temperatur 17-19°C, yanvar ayının temperaturu 6-8°C, iyul ayınınkı 26-27°C, yağıntının miqdarı isə 1100-1200 *mm* təşkil etmişdir.

3,2 mln il bundan əvvəldən 0,7 mln il əvvələdək olan dövrə aid təbəqələrdə tapılmış heyvan və bitki qalıqları bu dövrdə Azərbaycanda və qonşu ərazilərdə iqlimin xeyli soyuqlaşmasını və quraqlaşmasını göstərir. Düzən və dağətəyi ərazilərdə meşə sahələri xeyli azalır, həmişəyaşıl bitkilərin bir çoxu məhv olur, açıq sahələr genişlənir. Heyvanat aləminin növ tərkibi kasıblaşır, hipparion fauna üstünlük təşkil edir. Bununla belə, bitki tərkibində rütubətli subtropik şəraitdə yaşayan həmişəyaşıl və yayda yaşıl bitki növlərinin (gərməşov, çiyələk ağacı, darçın ağacı, həmişəyaşıl palıd və s.), heyvanlardan isə dəvəquşu, kərgədan və fillərin saxlanılması göstərir ki, iqlim sərt olmamışdır. Belə vəziyyət Azərbaycan ərazisində insanın meydana gəlməsi və yaşaması üçün çox əlverişli şərait yaradırdı.

Azərbaycan ərazisində bütün dördüncü dövrü əhatə edən və bəşəriyyətin bütün əsas inkişaf mərhələlərini səciyyələndirən maddi mədəniyyət qalıqları aşkar edilmişdir.

Ümumi qəbul olunmuş geoxronoloji bölgüyə əsasən dördüncü dövr üç epoxaya - eopleystosen, pleystosen və holosen epoxalarına bölünür.

Azərbaycan ərazisində eopleystosen epoxası 1,8 mln il bundan əvvəl başlanan Abşeron əsrinə müvafiq gəlir. Təxminən 700 min il evvəl eopleystosen epoxası başa çatır, onu pleystosen epoxası əvəz edir. Pleystosen epoxası üç yerə bölünür: erkən, orta və üst. Azərbaycanda erkən pleystosenə Bakı əsri (700-400 min il əvvəl), orta pleystosenə alt Xəzər əsri (400-130 min il əvvəl), üst pleystosenə üst Xəzər və erkən Xvalın əsrləri müvafiq gəlir. Holosen son 10 min ili əhatə edir.

Azərbaycan ərazisində paleolitin ömrü 1 mln ildən artıq olub, üst eopleystosendən holosenədək davam edən dövrü əhatə edir.

Çaydaşı mədəniyyətinin sahibləri olan ən qədim insanlar Azərbaycanda üst eopleystosendə (Abşeron əsrində), erkən Aşel mədəniyyətinin sahibləri erkən şteystosendə (Bakı əsrində), Orta Aşel mədəniyyətini yaradanlar isə orta pleystosendə (alt Xəzər əsri) və üst pleystosenin əvvəllərində yaşamışlar.

Mustye və son paleolit mədəniyyətlərinin sahibləri Azərbaycan ərazisində pleystosen epoxasının axırlarında məskunlaşmışlar. Azərbaycanın ona qonşu olan Qafqaz və Yaxın Şərq regionlarının paleolit düşərgələrindən və dördüncü dövrün çöküntü qatlarından toplanmış bitki və heyvan qalıqlarının öyrənilməsi bu ərazilərin ibtidai insanlar yaşadığı dövrlərdə mövcud olmuş təbii şəraitini bərpa etməyə imkan verir.



downloaded from KitabYurdu.az

Eopleystosen epoxası - çaydaşı mədəniyyəti dövrü iqlimdə soyuqlaşma və quraqlaşma prosesinin güclənməsi, vulkanların fəallaşması, dağların hündürlüyünün artması, dəniz örtən sahələrin azalması, fauna və flora örtüyünün kasıblaşması, meşə sahələrinin azalması, açıq çöl sahələrinin genişlənməsi və ilk dağ-dərə buzlaqlarının yaranması kimi hadisələrlə səciyyələnir.

Çaydaşı mədəniyyəti dövrünün birinci yarısında Azərbaycan ərazisinin əksər düzənlik hissəsi hələ Xəzər dənizi suları altında idi. Ərazidə Böyük və Kiçik Qafqaz, Talış, Savalan və b. dağların zirvələri yüksəlirdi. Onlardan ən hündürlərinin yüksəkliyi 2000-3000 *m*-ə çatırdı. Dağ massivləri vadilər, dərələr və qobularla parçalanmışdı.

Dövrün iqlimi indikindən isti və rütubətli idi. Heyvanat aləmi cənub filindən, kərgədandan, yabanı atdan, dəvədən, cüyürdən, maraldan, öküzdən, qılıncdişli pələngdən, dəvəquşundan və s. ibarət olmuşdur. Onların içərisində savanna nümayəndələri üstünlük təşkil edirdi. Bitki aləmi çox zəngin tərkibə malik idi. Alçaq dağlıq və dağönü rayonlarda orta illik temperatur 13-15°C, yanvarın orta temperaturu 5-6°C, iyul ayınınkı isə 22-23°C-yə çatırdı.

Çaydaşı mədəniyyəti dövrünün ikinci yarısında təbii şərait ciddi şəkildə dəyişir. Böyük və Kiçik Qafqaz dağlarının qalxması sürətlənir. Qarabağ yaylasında və qonşu ərazilərdə (İran, Türkiyə, Ermənistan yaylası) vulkanlar canlanır, Xəzərin Kür körfəzi xeyli kiçilir, dağönü sahələrdə və Kür çökəkliyində düzənliklər xeyli genişlənir, çay vadiləri dərinləşir və uzanır.

Dağların qalxması iqlimdə ümumi qlobal soyuqlaşma ilə yanaşı gedir, bu da Böyük və Kiçik Qafqazın yüksək dağlıq zonalarında buzlaqların yaranmasına səbəb olur.

İqlimin soyuqlaşması və atmosferin quraqlaşması isti və rütubətsevər heyvanların və bitkilərin məhv olmasına və yerini dəyişməsinə səbəb olur. Dağətəyi və düzənlik sahələrdə meşələrin ərazisi xeyli azalır, seyrək arid meşələr, çöl və yarımsəhra landşaftlarının sahəsi genişlənir. Aşağı dağlıq qurşaqda enliyarpaq, əsasən palıd və vələs ağaclarından ibarət işıqlı meşələr; orta dağlıq qurşaqda isə enliyarpaq, əsasən palıd, vələs, fıstıq ağaclarından ibarət qarışıq meşələr üstünlük təşkil edir. Yuxarı meşə qurşağını iynəyarpaqlı meşələr, daha yüksəklikləri isə seyrək tozağacı meşələri, subalp çəmənlikləri tutmuşdur.

Orta və yüksək dağ yamaclarında müvafiq olaraq qara külgün və seyrək tozağacı meşələri, Quruçay vadisində isə qoz, yalanqoz və digər isti və rütubətsevən bitkilər üstünlük təşkil etmişdir. Dağətəyi sahələrdə seyrək arid meşələr yayılmışdır. Düzənliklərdə onları tuqay meşələri, çöl və yarımçöl landşaftları əvəz etmişdir. Belə vəziyyət ibtidai insanlara müxtəlif heyvanları ovlamağa və yem bitkiləri toplamağa əlverişli imkan yaradırdı. O dövrdə Azıx düşərgəsi yerləşən rayonda iqlim indikindən isti və rütubətli idi. Yanvarın orta temperaturu 4-6°C, iyulun 25-28°C, illik yağıntının miqdarı isə 1000-1800 mm-ə çatırdı.



downloaded from KitabYurdu.az

Çaydaşı mədəniyyəti dövründən erkən aşel mədəniyyətinə keçid ərəfəsində landşaftın regional xüsusiyyətləri saxlanmaqla yanaşı, qurunun və dənizin yerləşməsində və iqlimdə bəzi dəyişikliklər getmişdir. Kür körfəzi geri - cənub-şərqi Şirvanadək çəkilir, bütün Kür-Araz ovalığı Şirvandan qərbə dəniz sularından azad olur və düzənliyə çevrilir, iqlim quru və soyuq olur. İqlimin soyuqlaşması və yüksək dağlıq zonalarda buzlaqların əmələ gəlməsi nəticəsində meşələrin sürətlə dağ ətəklərinə doğru enməsi baş verir. Əvvəllər orta və yüksək dağlıq qurşaqları tutan meşələr indi 1000-1200 m-ə qədər enir və Azıx mağarasını əhatəyə alır.

Aşel, Mustye və Üst Paleolit dövrlərini əhatə edən pleystosen epoxası Yer kürəsi tarixində buzlaşma dövrü kimi məlumdur. Bu dövrdə Qafqaz və digər Avroasiya dağlarında üç dəfə buzlaşma gedir. Çaydaşı mədəniyyətinin sonunda formalaşan təbii şərait hələ pleystosenin başlanğıcında aşel mədəniyyəti dövründə saxlanmaqda davam edirdi.

Erkən aşel mədəniyyəti dövründə (600-400 min il bundan əvvəl) iqlimin istiləşməsi, Şərqi Avropa düzənliyi və Qafqaz buzlaqlarının əriməsi nəticəsində Xəzər dənizinin səviyyəsi qalxır və yenidən Kür-Araz çökəkliyi Gəncəyədək su altında qalır. Çaydaşı mədəniyyətinin isti dövründə olduğu kimi, landşaft qurşaqları öz əvvəlki vəziyyətlərini bərpa edir. Dağ ətəklərində və sahilyanı düzənliklərdə yenidən çöl və yarımsəhra landşaftları hakim olur. Düzənliklərin çaykənarı sahələrində tuqay tipli meşələr yerləşir. Aşağı və orta dağlıq qurşaqlarda enliyarpaqlı və iynəyarpaqlı meşələr üstün mövqe tutur. Bu dövrdə Azıx düşərgəsi enliyarpaqlı meşələrin əhatəsində yerləşmişdi. Yanvarda hərarət 4-7°C, iyulda 22-25°C, illik yağıntı 1200-1600 *mm* olmuşdur.

Erkən aşeldən Orta Aşelə keçid dövründə iqlim yenidən soyuqlaşır. Talış, Böyük və Kiçik Qafqaz dağ massivlərində qalxma sürətlənir. Onların ən yüksək silsilələri buzlaşmaya məruz qalır. Xəzər dənizinin səviyyəsi xeyli aşağı düşür və sahəsi kiçilir. Kür-Araz ovalığı yenidən quruya, hamar düzənliyə çevrilir. İqlimin soyuması dağlarda meşələrin yuxarı sərhədlərinin aşağı düşməsi ilə müşayiət olunur. Azıx yerləşən ərazidə meşə qurşağının yuxarı sərhədi 1000-1200 m aşağı enir, bu da orta illik temperaturun 5-6°C aşağı düşməsinə dəlalət edir. Göstərmək lazımdır ki, Azıx mağarasında oddan istifadə olunmasını sübut edən əşyayi-dəlillərə (kömür, yanmış sümük, ocaq yerləri) erkən aşel qatının üst təbəqələrində rast gəlinir. Oddan istifadə, şübhəsiz, iqlimin soyuqlaşması ilə əlaqədardır. Osteoloji materiallara görə, Azıx düşərgəsi ərazisində o vaxt meşə heyvanlarından ayı, Qafqaz bəbiri, maral, qaban, xallı maral, vaşaq, çöl və meşə-çöl heyvanlarından at, uzunqulaq, kərgədan, uzunbuynuzlu öküz və s. yaşayırdı.

Orta Aşel mədəniyyəti dövrünün əvvəllərində (erkən Xəzər əsrinin birinci yarısında) iqlimdə yenidən istiləşmə gedir. Materik və dağ buzlaqlarının əriməsi nəticəsində Xəzər dənizinin səviyyəsi yenidən qalxır və dəniz indiki Mingəçevir şəhərinə qədər bütün Kür-Araz ovalığını basır. Arazsahili zonada və Mil düzündə yarım səhra landşaftı, dağətəyi sahələrdə çöl və seyrək meşələr, aşağı və orta dağlıq qurşaqlarda



downloaded from KitabYurdu.az

palıd, vələs, fıstıq və digər enliyarpaqlı ağaclardan ibarət meşələr üstün yer tuturdu, yüksək dağlıq isə alp və subalp çəmənlikləri ilə örtülü idi. Azıx mağarasının Orta Aşel mədəni təbəqəsindən əldə edilən zəngin osteoloji materialın öyrənilməsi ətraf ərazidə müxtəlif növ heyvanların, o cümlədən cüyürün, xallı maralın, nəhəng maralın, qabanın, vaşaqın, ayının, qamışlıq pişiyinin, kərgədanın, qozbel öküzün, atın, uzunqulağın və s. yaşadığını göstərir. Bitki qalıqlarına əsasən aparılmış hesablamalar dövrün iqliminə aid aşağıdakı göstəriciləri verir: yanvarın orta temperaturu 4-6°C, iyulun 20-23°C, yağıntının miqdarı 1000-1200 *mm*-dir.

Son aşel mədəniyyəti dövrünün (orta pleystosenin ikinci yarısı) əvvəlində iqlim yenidən soyuqlaşır. Belə vəziyyət Azıx sakinlərinin mağaranı müvəqqəti tərk etməsinə səbəb olur.

Sonra gələn erkən Mustye dövrü (üst Xəzər əsri) iqlimin xeyli istiləşməsi ilə səciyyələnir.

Bu dövrdə Azıx düşərgəsi yuxarı sərhədi 2200-2300 m mütləq yüksəklikdə yerləşən meşə qurşağının ətəyində yerləşmişdi. Bu meşə qurşağı zəngin heyvanat aləminə (cüyür, maral, dağ keçisi, mağara ayısı, qonur ayı və s.) malik idi.

Mustye dövrünün (erkən Xvalın əsri) ikinci yarısında qlobal miqyasda soyuqlaşma (vyurm buzlaşma dövrü) ilə əlaqədar Azərbaycan ərazisində, o cümlədən dağlıq əyalətlərdə iqlim sərtləşir, əvvəlki dövrə nisbətən kəskin soyuq və quru iqlim vəziyyəti yaranır. Bu dövrün təbii şəraiti son aşel dövründəkindən fərqlənmirdi. Lakin iqlimin arid olması ilə əlaqədar buzlaqların ölçüsü orta pleystosenin axırlarındakı səviyyəyə çatmır. Əgər dağətəyində və düzənlərdə çöl və yarımsəhra landşaftlarının sahəsinin xeyli genişlənməsini nəzərə almasaq, bütövlükdə landşaft qurşaqlarının və zonalarının yayılması son aşeldə olan vəziyyəti təkrar edir. Bu dövrün ən əlamətdar hadisəsi insanın Azıx mağarasından 150-160 metr aşağıda və bir neçə kilometr aralıda bilavasitə Quruçay sahilində yerləşən Tağlar mağarasına keçməsidir. İnsan burada Mustye mədəniyyəti dövründə (100 min ildən 40-35 min il bundan əvvələdək) yaşayıb. Qazıntı bitki qalıqlarına görə, bu dövrdə düşərgə ətrafındakı dağ yamacları palıddan, vələsdən və cökədən ibarət meşələrlə örtülü olmuşdur. Meşə qurşağının yuxarı hissəsində qara külgün və seyrək tozağacı meşələri mövcud olmuşdur. Bu dövrdə meşə qurşağının yuxarı sərhəddi indikinə nisbətən 700-800 m aşağıda yerləşirdi. Tağlarda insanın yaşadığı dövr ərzində üç nisbi istiləşmə fazası qeyd olunur. Onlardan biri 64-62 min il, ikincisi 58-56 min il, üçüncüsü isə 52-48 min il əvvəl olmuşdur. Bu qısamüddətli istiləşmədən sonra iqlimin yeni qlobal soyuqlaşması dövrü (son vyurm və ya son valday buzlaşma dövrü) başlayır. Şaquli iqlim və landşaft zonalarının enməsi baş verir. Bu onunla sübuta yetirilir ki, yüksək dağ qurşaqlarına xas olan bitki və heyvanların qalıqları Azərbaycanda, Ermənistanda, Gürcüstanda və başqa regionlarda dağ ətəklərində yerləşən Üst Paleolit düşərgələrində tapılır.



downloaded from KitabYurdu.az

Mezolit və sonrakı dövrləri əhatə edən holosen epoxası Yer kürəsində iqlimin ümumi qlobal istiləşməsi, dağ və qitə buzlaqlarının tənəzzülə uğraması ilə səciyyələnir. Bu istiləşmə Azərbaycan ərazisində dağ buzlaqlarının tam əriməsi, qar xəttinin və landşaft qurşaqlarının yuxarı qalxması ilə müşayiət olunur. Palinoloji dəlillərə görə, bu dövrdə meşə qurşağının yuxarı sərhədi 2400-2500 m yüksəkliyə qalxır, seyrək arid meşələr isə dağətəyi düzənlikləri basır və Cənub-Şərqi Qafqazda Xəzər dənizi sahillərinə yaxınlaşır. Bu dövrdə, yəni 8-5 min il əvvəl Xəzərin səviyyəsi indikindən 6-7 m yuxarıda idi. Bütün Kür-Araz ovalığı yarımsəhra və səhra landşaftlarına malik düzənlik olmuşdur. Şimaldan və cənubdan ovalığı geniş çöllər əhatə edirdi. Açıq sahələrin genişlənməsi ilə əlaqədar çöl və yarımsəhra heyvanlarının - at, dəvə, öküz, qulan, ceyran, sayqak və başqa iri məməlilərin sayı artır. Ümumiyyətlə, holosen dövrünün təbii-iqlim şəraiti indikindən az fərqlənirdi.

**İnsan cəmiyyətinin ən qədim inkişaf mərhələləri. Alt paleolit - Quruçay mədəniyyəti (olduvay) və aşel.** İbtidai icma cəmiyyətinin, qədim insanların, onların inkişaf xüsusiyyətlərinin meydana çıxması, formalaşması və ayrı-ayrı inkişaf mərhələləri paleolit düşərgələrində aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi
mədəniyyət qalıqları vasitəsi ilə tədqiq olunur.

**Alt paleolit. Çoxtəbəqəli Azıx mağara düşərgəsi.** Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində 30-dan artıq paleolit abidəsi müəyyən olunmuşdur. Azərbaycanın ən ibtidai sakinləri haqqında biliklər mağara düşərgələrində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmişdir.

Alt paleolit abidələrində aparılan tədqiqatlar zamanı 4 arxeoloji mədəniyyət - olduvay (ən qədim), qədim aşel, aşel və Mustye mədəniyyətləri müəyyən olunmuşdur.

Azərbaycanın qədim daş dövrü tarixi üçün ən mühüm arxeoloji tapıntılar Azıx, Tağlar, Daşsalahlı, Qazma və Buzeyir mağara düşərgələrində aparılan arxeoloji qazıntılar zamanı əldə olunmuşdur. Bu abidələrin çöküntülərində çaydaşı, aşel və Mustye dövrlərinin mədəni təbəqələri qeydə alınmışdır. Bu mağaralarda aparılan elmi tədqiqatlar nəticəsində, keçmiş SSRİ ərazisində ilk dəfə olaraq, çaydaşı alətləri mədəniyyəti müəyyən olunmuşdur. Bu baxımdan çoxtəbəqəli Azıx mağara düşərgəsində aparılan tədqiqatların xüsusi elmi əhəmiyyəti vardır.

Azıx mağara düşərgəsi Azərbaycan Respublikasının Qarabağ bölgəsinin cənub-şərq yamaclarının ucqar nöqtəsində yerləşir. Abidə Quruçayın sol sahilində olub, dəniz səviyyəsindən 900 metr yüksəklikdə yerləşir. Öz böyüklüyünə görə Azıx mağarası Zaqafqaziya karst boşluqları arasında ən möhtəşəmidir. Əlavə mikroyollarla birlikdə mağaranın ümumi uzunluğu 200 metrdən artıq olub, ümumi sahəsi isə 1250 kv.m-dən bir qədər çoxdur. Azıx mağarası karst mənşəli olub, əsasən, son ağcagil - Abşeron dövrləri ərzində əmələ gəlmişdir. Quruçayın yatağı mağaranın giriş yolunu



downloaded from KitabYurdu.az

kəsib aşağı enmiş, burada terras əmələ gəlmiş, mağara subasma təhlükəsindən xilas olmuş və ibtidai insanın mağarada yaşamasına şərait yaranmışdır.

Quruçay dərəsi, Azıx mağarası yerləşdiyi ərazi ilə birlikdə, istehsal alətləri hazırlamaq üçün zəngin xammal mənbəyi olmuşdur. Burada kvars, kvarsit, bazalt, felzit, çaxmaqdaşı, yaşma və s. mineral daşlar vardır.

Azıx mağarası dünya arxeologiyasında xüsusi yer tutaraq, özünün maddi mədəniyyət qalıqlarına görə keçmiş SSRİ ərazisində yeganə abidədir. Burada kompleks şəkildə arxeoloji tədqiqatlar aparılmışdır. Abidənin tədqiq olunmasında arxeoloqlarla yanaşı, paleozooloqlar, paleogeoloqlar, paleogeomorfoloqlar, paleontoloqlar və başqa elmi sahələrin mütəxəssisləri yaxından iştirak etmişlər. Çoxtəbəqəli Azıx mağara düşərgəsinin cənub giriş yolunda arxeoloji qazıntılar zamanı 10 arxeoloji təbəqə qeydə alınmışdır. Çöküntünün ümumi qalınlığı 13,5 metrə bərabərdir. Düşərgənin çöküntülərində qədim paleolitin bütün dövrlərini ardıcıl əks etdirən bütün təbəqələr qeydə alınmışdır. Mağara düşərgələri arasında stratiqrafik cəhətdən belə ardıcıllıq hələlik dünyanın heç bir guşəsində qeydə alınmamışdır.

**Quruçay mədəniyyəti.** Tarixi dövrlə bağlı ən qədim arxeoloji tapıntılar Azıx mağara düşərgəsinin VII-X təbəqələrindən aşkar olunmuşdur. Bu təbəqələrdən 300-dən artıq daş məmulatı əldə edilmişdir. Əmək alətləri içərisində əsas yeri kobud çapma alətləri tutur. Daş məmulatı arasında kobud çapacaqlar, kubvari alətlər, kobud qaşovlar, vurma səthi yaxşı saxlanmış qəlpələr və s. qeydə alınmışdır. Maraqlıdır ki, stratiqrafik səviyyədən asılı olmayaraq ən aşağı təbəqələrin daş məmulatı arxeoloji cəhətdən eyni texniki üsulla hazırlanmışdır. Bu xüsusiyyətlər əmək alətlərinin ümumi görünüşündə, çənglə örtülməsindən asılı olaraq saxlanılma dərəcəsində, texniki və tipoloji əlamətlərində də özünü göstərir.

Aşağı təbəqələrin daş alətləri əsasən kənarlarından mərkəzə doğru vurub qoparma üsulu ilə çox kobud formada hazırlanmışdır. Belə üsulla hazırlanmış daş alətlər daş məmulatı içərisində çoxluq təşkil edir. Təsvir olunan əmək alətlərini uzunsov çaydaşılarının bir ucu və ya onun uzununa bir kənarını qoparma yolu ilə hazırlamışlar. Göstərilən tip əmək alətlərinin meydana gəlməsi bir daha sübut edir ki, bu cür daş məmulatı iki yuxarı üzü işlənilmiş protoçoppinqlərin ilk istehsal pilləsini təşkil edir. VII-X təbəqələrin daş məmulatı arasında qəlpələrdən hazırlanmış əmək alətləri də vardır. Belə alətlər içərisində əsas yeri qaşov tipli alətlər tutur.

Azıx düşərgəsinin aşağı təbəqələrinin daş məmulatı arasında 4-5 kq ağırlığında olan nəhəng çoppervari alətlər diqqəti daha çox cəlb edir. Hələlik keçmiş SSRİ-də olan paleolit abidələrindən belə alətlər qeydə alınmamışdır. Bu cür alətlər şərti olaraq giqantolit adlandırılır. Ancaq təsvir olunan belə alətləri Azıx tipli kobud çapma alətləri adlandırmaq daha münasib olar.

VII-X təbəqələrdən aşkar olunmuş arxeoloji materialların olduqca mühüm elmi əhəmiyyəti vardır. Bu materiallar mağarada qədim insanların ilk



downloaded from KitabYurdu.az

məskunlaşmasından xəbər verir. İbtidai insanların həyatında mağaranın yaxınlığından axan Quruçayın mühüm rolu olmuşdur. Qədim insanlar əmək alətləri hazırlamaq üçün daşları məhz Quruçaydan toplayıb mağaraya gətirmişlər. Eyni zamanda Azıx sakinləri Quruçay dərəsində ovçuluqla da məşğul olmuşlar. Quruçay vadisi ibtidai insanların yaşaması üçün zəruri olan bütün nemətlərə malik olmuşdur. Ona görə də Azıx mağarasının VII-X təbəqələrdən aşkar olunmuş yeni arxeoloji mədəniyyətin maddi mədəniyyət qalıqlarına Quruçayın adı verilmişdir. Aparılmış kompleks tədqiqatlar zamanı Quruçay mədəniyyətinin bir neçə inkişaf mərhələsi müəyyən olunmuşdur. Mədəniyyətin ilkin mərhələsində əmək alətləri olduqca bəsit hazırlandığı halda, sonrakı mərhələlərdə onların hazırlanma texnikası təkmilləşmiş və yeni-yeni əmək alətləri yaranmağa başlamışdır.

Azıx qədim insan düşərgəsinin VII-X təbəqələrindən aşkar olunmuş əmək alətlərinin əksəriyyəti mağaradan kənarda hazırlanmış və sonradan düşərgəyə gətirilmişdir. Çünki buradan əsasən hazır əmək alətləri tapılmışdır. İstehsal tullantıları isə qeydə alınmamışdır. Deməli, qədim Azıx sakinləri mağarada yaşamamışdan əvvəl, Quruçay dərəsinin kənarlarında yaşayıb fəaliyyət göstərmişlər. Əmək alətlərini də məhz burada hazırlamışlar.

Azıx qədim insan düşərgəsinin VII-X təbəqələrindən aşkar olunmuş Quruçay mədəniyyətinin əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Lakin əməki alətlərinin tipologiyasında fərqli cəhətlər də vardır ki, bu da Azıxın aşağı təbəqə materialları əsasında yeni arxeoloji mədəniyyətin aşkar olunmasına səbəb olmuşdur. Aparılan kompleks elmi tədqiqatlar nəticəsində Quruçay mədəniyyətinin Azıxda 1,2 milyon il bundan əvvəl başlayıb və 700 min il əvvəl sona çatması müəyyən olunmuşdur.

Hazırda keçmiş SSRİ ərazisində Quruçay mədəniyyəti ən qədim arxeoloji mədəniyyət hesab olunur. Məhz bu mədəniyyətin maddi mədəniyyət qalıqları əsasında ölkəmizin ərazisində ibtidai insanların 1,2 milyon il bundan əvvəl yaşamağa başlaması və daşdan əmək alətləri hazırlaması elmi əsaslarla sübuta yetirilmişdir.

Aparılan arxeoloji tədqiqatlar nəticəsində Quruçay mədəniyyəti dövründə qədim insanların əsasən ovçuluq və yığıcılıqla məşğul olmaları müəyyən edilmişdir. Həmçinin bəşər tarixinin Azərbaycan ərazisində Quruçay mədəniyyəti dövründən başlaması sübuta yetirilmişdir.

**Qədim aşel.** Azıx mağarasında Quruçay mədəniyyəti dövrü özünün uzunmüddətli inkişafından sonra qədim aşel ilə əvəz olunmuşdur. Azıxda qədim aşel düşergənin VI təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı qeydə alınmışdır. Buradan 2 mindən artıq daş məmulatı və çoxlu ovlanmış heyvan sümükləri tapılmışdır. Azıx mağarasında qədim Aşel dövrü VI təbəqənin materialları ilə meydana çıxmaqla yanaşı, yerli çaydaşı alətləri Quruçay mədəniyyəti əsası üzərində inkişafa başlamışdır. Bəşəriyyət tarixində qədim və Orta Aşel mədəniyyətləri ilk dəfə



downloaded from KitabYurdu.az

olaraq Fransanın Sent-Aşel düşərgəsində müəyyən olunmuş və ona görə də tapıldığı yerin adı ilə aşel mədəniyyəti adlandırılmışdır.

Azıxın VI təbəqəsinin daş məmulatı bəsit formada hazırlanmış əl çapacaqları, kobud çapma alətləri, qalın qəlpələr üzərində hazırlanmış əmək alətləri və diskşəkilli nukleuslarla (nüvələr) xarakterizə olunur. VI təbəqədən həmçinin ilk dəfə olaraq əl çapacaqları tapılmışdır. Əl çapacaqlarının meydana çıxması ibtidai insanların həyatında mühüm rol oynamışdır. Bununla əlaqədar olaraq ovçuluq təsərrüfatını daha da inkişaf etdirməyə başlamışlar.

Qədim aşel təbəqəsindən tapılmış əmək alətləri içərisində əsas yeri çapma alətləri, əl çapacaqları və qaşov tipli alətlər tutur. Təbəqədən əmək alətləri ilə birlikdə istehsal tullantılarının aşkar olunması qədim aşel dövründə düşərgədə ibtidai insanların əmək alətləri hazırladıqlarını göstərir. Məhz VI təbəqədən tapılmış əmək alətlərinin texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların qədim aşel dövründə hazırlandıqlarını söyləmək olur.

Aparılan arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, bəşəriyyət tarixində qədim aşel mədəniyyəti 700-500 min illər arasında mövcud olmuş və 200 min ildən bir qədər artıq davam etmişdir. Bu dövrdən əmək alətlərinin təkmilləşməsi və yeni-yeni əmək alətlərinin meydana çıxması başlanır. Azıx düşərgəsinin VI təbəqəsindən aşkar olunmuş əmək alətlərinin zənginliyi dediklərimizi bir daha təsdiq edir.

VI təbəqədən ocaq yerinin qeydə alınması qədim Azıx sakinlərinin süni odla tanış olduqlarını göstərir.

Azıx mağarasının qədim aşel təbəqəsindən tapılmış heyvanat aləminin növləri göstərir ki, bu dövrdə Azərbaycan ərazisində soyuqlaşmaya doğru dəyişikliklər baş vermişdir. Fauna qalıqları içərisində ayrı-ayrı çənələr, kəllə sümükləri çoxluq təşkil edir. Sümük məmulatının təyinatı əsasında demək olar ki, qədim aşel adamlarının ovçuluq fəaliyyətində əsas yeri mağara ayıları və nəhəng marallar tutur. Qədim aşel təbəqəsindən tiraspol kompleksi nümayəndələrindən Şotenzak bizonu, Merka kərgədanı və s. fauna qalıqlarının aşkar olunması təbəqənin Bakı dövrünə (mindeldən əvvəlki dövrə) aid olduğunu göstərir.

**Orta Aşel.** Azıx mağarasında qədim aşel özünün uzunmüddətli inkişafından sonra Orta Aşellə əvəz olunmuşdur. Orta Aşel mədəniyyəti düşərgənin V təbəqə materiallarında öz əksini tapmışdır. Arxeoloji qazıntılar vasitəsilə V təbəqədən tapılmış daş alətlərin əsasını kobud çapma alətləri və əl çapacaqları təşkil edir. Bu təbəqədən cəmi 289 ədəd daş məmulatı qeydə alınmışdır. Daş məmulatı arasında müxtəlif klekton tipli alətlər də qeydə alınmışdır.

V təbəqənin daş məmulatı texniki-tipoloji xüsusiyyətlərinə görə özündən aşağıda yerləşən VI təbəqənin materialları ilə yaxınlıq təşkil edir. Eyni zamanda V



downloaded from KitabYurdu.az

təbəqənin əmək alətləri qədim aşel dövrü daş məmulatının bəzi oxşar xüsusiyyətlərini özündə birləşdirir.

Arxeoloji tədqiqatlar zamanı V təbəqədən daş məmulatı ilə birlikdə minlərlə ovlanmış heyvan sümükləri aşkar olunmuşdur. Bu tapıntılar sübut edir ki, Orta Aşel dövründə Azıx düşərgəsində yaşayan sakinlərin məşğuliyyətində əsas yeri ovçuluq tutmuşdur.

V təbəqənin maddi mədəniyyət qalıqlarının elmi tədqiqi göstərir ki, Azıx düşərgəsində Orta Aşel dövründə əsasən ovçu sakinlər yaşamışlar.

**Qədim Azıx adamı - azıxantrop.** 1968-ci ilin iyul ayında Azıx düşərgəsinin Orta Aşel təbəqəsində aparılan arxeoloji qazıntılar zamanı əmək alətləri ilə birlikdə qədim insanın çənə parçası aşkar olunmuşdur. Alt çənə üzərində bir neçə diş qalmışdır. Dişlərdən yalnız üçüncü azı diş bütöv qalmış, ikinci azı diş isə ortadan sınmışdır. Birinci azı isə tamamilə yoxdur, lakin onun diş yuvaqları olduqca yaxşı nəzərə çarpır. Çənənin iri olması açıq nəzərə çarpır və onun gövdəsi nisbətən qalındır. Azıx çənəsi avstralopiteklərdən fərqlənir və müəyyən cəhətlərinə görə arxantropların arasında özünə yer tutur. Çənənin quruluşundakı spesifik cəhətlərə əsasən, bir tərəfdən pitekantroplara, xüsusilə mauer adamı çənəsinə yaxınlıq təşkil etməklə yanaşı, digər tərəfdən də, bir çox proqressiv cəhətlərinə görə Fransanın Araqo mağarasının aşel təbəqələrindən tapılmış preneandertallara daha yaxındır. Azıxın Orta Aşel təbəqəsindən tapılmış çənə fraqmentinin sahibinə azıxantrop (yəni Azıx adamı) adı verilmişdir.

D.Hacıyev çənə üzərində apardığı elmi tədqiqat zamanı müəyyən etmişdir ki, bu, keçmiş SSRİ ərazisində ən qədim insan çənəsi olub, 18-22 yaşlı qadına məxsusdur. Bu qadın 350 min il bundan əvvəl Azərbaycan ərazisində yaşamışdır.

V təbəqədən çənə ilə birlikdə daş alətlər və heyvan sümükləri də tapılmışdır. Bu təbəqədən eyni zamanda çoxlu mətbəx tullantıları, ocaq yerləri, xəlvət yer, qaya daşlarından düzülmüş ibtidai tikinti hissəsi və s. aşkar olunmuşdur.

Azıx sakinləri Orta Aşel dövründə ovçuluqla daha yaxşı məşğul olmuşlar. Qədim Aşel dövründə 11 növ iri heyvan ovlandığı halda, Orta Aşel dövründə 45 növ heyvan və quş ovlanmışdır. Ovçuluq aşel adamlarını nəinki yeməklə, eyni zamanda geyimlə təmin edərək, onlara yaşayış yerləri tikililərini hazırlamağa da imkan vermişdir.

Böyük maraq doğuran cəhətlərdən biri də, dövründən asılı olmayaraq, Orta Aşeldə öyrənilmiş ocaqların mağaranın eyni sahəsində qeydə alınmasıdır. Bu, burada yaşayanların qohumluq ənənələrini davam etdirməsini göstərir. Ocaqla eyni sahədə, qaya divarları arasında xəlvəti yer qeydə alınmışdır. Həmin yerdə mağara ayılarının kəllələri gizlədilmişdi. Ayı kəllələrinin belə xəlvəti yerdə gizlədilməsi, yəqin ki, o dövrdə ilk dini təsəvvürlərin yarandığını göstərir.



downloaded from KitabYurdu.az

Azıxın IV təbəqəsindən maddi mədəniyyət qalıqları tapılmamışdır. Bu, qədim Azıx sakinlərinin düşərgəni müvəqqəti tərk etdiklərini göstərir. Lakin insanlar düşərgəyə yenidən Mustye dövrünün əvvəllərində gəlib burada yaşamağa başlamışlar.

**Orta Paleolit-Mustye mədəniyyəti (100-35 min il əvvəl).** Aparılan arxeoloji tədqiqatlar göstərir ki, 100 min il bundan əvvəl Son Aşel dövrü Mustye mədəniyyəti ilə əvəz olunmuşdur. Bu dövr ilk dəfə Fransanın Le-Mustye düşərgəsində müəyyən olunduğuna görə, tapıldığı yerin adı ilə Mustye mədəniyyəti adlandırılmışdır. Mustye dövrü insanlarının həyatında mühüm dəyişikliklər baş vermişdir. Məhz bu dövrdən başlayaraq qədim insanlar yeni tipli əmək alətləri hazırlamağa başlamışlar. Bu, onların inkişafı ilə əlaqədar olaraq meydana çıxmışdır. Artıq əvvəlki dövrlərdə hazırlanmış əmək alətləri - kobud çapma alətləri, əl çapacaqları insanların yeni tələbatını ödəyə bilmir və daha mükəmməl universal əmək alətlərinin hazırlanması əsas məsələ kimi qarşıda dururdu. İlk dəfə olaraq levallua və Mustye itiuclularının hazırlanması qədim insanların həyatında mühüm rol oynadı.

Mustye mədəniyyəti dövründə qədim insanların bədən quruluşunda, istehsal texnikasında, təsərrüfatında və həyat tərzində böyük dəyişikliklər baş vermişdir.

Mustye dövrünün sakinləri neandertal tipli insanlar olmuşlar. Onlar yaşamaq üçün özlərinə mağaralarda, açıq yaşayış yerlərində və komalarda yer hazırlayırdılar. Neandertal tipli insanlar yaşayış tikililərini əsasən nəhəng heyvan sümüklərindən və iri qaya daşlarından düzəldirdilər.

Mustye dövründə də qədim adamların əsas məşğuliyyəti ovçuluq olmuşdur. Lakin onlar təbiətin hazır nemətlərindən də istifadə etmişlər.

Arxeoloji qazıntılar zamanı Mustye dövründə neandertal tipli insanların qəbirləri aşkar olunmuşdur. Deməli, Mustye dövründə neandertal tipli adamların həyatında dəfn mərasimi olmuş və artıq onlarda bəzi dini görüşlər formalaşmağa başlamışdır.

Azərbaycanda aparılan arxeoloji tədqiqatlar zamanı Mustye mədəniyyətinə aid Azıx (III təbəqə), Tağlar, Daşsalahlı, Qazma və Buzeyir düşərgələri aşkar olunmuşdur.

Azıx mağarasının III təbəqəsində tədqiqatlar zamanı 3 mindən çox daş məmulatı və 6 mindən artıq ovlanmış heyvan sümükləri tapılmışdır. Düşərgənin III təbəqəsindən aşkar olunmuş daş məmulatının əksəriyyəti çaxmaq və şist daşlarından hazırlanmışdır. Daş məmulatı arasında dəvəgözü daşından hazırlanmış əmək alətləri də qeydə alınmışdır. Bu göstərir ki, Azıx düşərgəsində Mustye dövrü adamları əmək alətləri hazırlamaqda üstünlüyü çaxmaq və şist daşlarına vermişlər. Bu, heç də təsadüfi deyil. Qədim adamlar təcrübədə görmüşlər ki, çaxmaq daşından istənilən formada əmək alətləri hazırlamaq olur və onlardan müxtəlif məqsədlər üçün istifadə etmək əlverişlidir. Azıx Mustye düşərgəsi daş məmulatının elmi təhlili göstərir ki, mağara sakinləri əmək alətlərinin bir hissəsini mağaranın özündə, digər hissəsini isə



downloaded from KitabYurdu.az

kənarda hazırlamışlar. Mustye mədəniyyəti dövründə neandertal tipli insanlar Azıx mağarasında daim yaşamışlar.

Arxeoloji qazıntılar zamanı Azıx düşərgəsinin III təbəqəsindən ovlanmış heyvan sümükləri tapılmışdır. Sümüklər içərisində çoxlu at, ibtidai öküz, vəhşi qulan, Qafqaz maralı, qaban, mağara ayısı, kərgədan və s. heyvanların sümükləri qeydə alınmışdır. Sümüklərin bəziləri daşlaşmışdır. Tapılmış sümük məmulatının əksəriyyəti ocaqda yandırılmışdır. Bu da Azıx sakinlərinin həyatında Mustye mədəniyyəti dövründə odun əsas yer tutduğunu göstərir.

Azərbaycan ərazisində Mustye mədəniyyətinə aid ən möhtəşəm abidə Tağlar düşərgəsidir. Tağlar Mustye düşərgəsi özünün maddi mədəniyyət qalıqlarına, stratiqrafiyasına və yaşayışın uzunmüddətli olmasına görə keçmiş SSRİ və Yaxın Şərq abidələri içərisində mühüm yer tutur. Mağara Qarabağ ərazisində olub, Quruçayın sol sahilində yerləşir.

1963-cu ildən Tağlar Mustye düşərgəsində arxeoloji qazıntı işləri aparılır. Arxeoloji tədqiqat işləri nəticəsində düşərgədən 7 mindən artıq daş məmulatı və qədim insanların ovladıqları 20 mindən çox heyvan sümükləri aşkar olunmuşdur.

Tağlar düşərgəsinin çöküntülərində altı mədəni təbəqə qeydə alınmışdır. I təbəqədən orta əsrlər, tunc və eneolit dövrlərinə aid gil qab qırıqları tapılmışdır. II-VI təbəqələrdən Mustye mədəniyyətinə aid maddi mədəniyyət nümunələri aşkar olunmuşdur.

Daş məmulatı içərisində əmək alətləri, istehsal tullantıları və nukleus əsas yer tutur. Daş məmulatının elmi tədqiqi göstərir ki, Tağlar mağarasının qədim sakinləri əmək alətlərini əsasən düşərgədə hazırlamışlar. Əmək alətləri içərisində əsas yeri levallua, Mustye itiuclular və qaşov tipli alətlər tutur. Əmək alətlərinin əksəriyyəti çaxmaq daşından hazırlanmışdır. Daş alətlər içərisində tək-tək bıçaq, dişli və gəzli alətlər də qeydə alınmışdır.

Bütün Zaqafqaziya və Yaxın Şərq abidələri içərisində Tağlar Mustye düşərgəsi yeganə abidədir ki, burada yaşayış uzunmüddətli olmuşdur və tapılan əmək alətləri zəngin tarixə malikdir.

Tağlar Mustye düşərgəsi daş məmulatının texniki və tipoloji tədqiqi zamanı Paleolit dövrü üçün yeni əmək alətləri qeydə alınmış və onlara Tağlar tipli əmək alətləri adı verilmişdir. Həmin alətlər olduqca zərif hazırlanmış və bir neçə işlək ağıza malikdir.

Tağlar mağarasının mədəni təbəqələrindən çoxlu ovlanmış heyvan sümükləri də aşkar olunmuşdur. Bu göstərir ki, Mustye mədəniyyəti dövründə Tağlar mağarasında yaşayan qədim insanların əsas fəaliyyəti ovçuluqdan ibarət olmuşdur. Sümüklər həddən artıq çapıldığından əksəriyyətinin hansı heyvan növünə aid olmasını təyin etmək qeyri-mümkündür. Təyin olunanlar isə ancaq ayrı-ayrı çənə və dişlərdən



downloaded from KitabYurdu.az

ibarətdir. Sümüklər arasında maral, mağara ayısı, ibtidai at sümüklərinin qırıntıları çoxdur.

Tağlar düşərgəsinin çöküntülərində çoxlu ocaq layları aşkar olunmuşdur. Bu göstərir ki, qədim insanların həyatında ocaq mühüm yer tutmuşdur. Sümük məmulatının əksəriyyəti ocaqda yandırılmışdır.

Tağlar düşərgəsinin maddi mədəniyyət qalıqları əsasında əmək alətlərinin uzunmüddətli inkişafını və yeni-yeni əmək alətlərinin meydana gəlməsi xüsusiyyətlərini öyrənmək olur. Aydındır ki, əmək alətlərinin inkişafı insanların təkamülünün təzahürü idi. Məhz ona görə də əmək alətlərinin inkişafı tarixi insan cəmiyyətinin, insanın özünün inkişaf tarixi deməkdir.

Tağlar mağarasında kompleks şəkildə elmi-tədqiqat işləri aparılmışdır. Burada arxeoloqlarla yanaşı, paleontoloqlar, paleogeoloqlar, paleocoğraflar, paleobotaniklər və başqa elm sahələrinin mütəxəssisləri işləmişlər. Bu tədqiqatlar nəticəsində düşərgənin arxeoloji tədqiqi ilə yanaşı düşərgə ətrafının və qonşu ərazilərin erkən xvalın əsrindəki təbii iqlim şəraiti bərpa edilmişdir. Məlum olmuşdur ki, həmin dövrdə Kiçik Qafqazın cənub-şərq hissəsində bütün müasir landşaft qurşaqları mövcud olmuşdur.

Arxeoloji tədqiqatlar nəticəsində Tağlar Mustye düşərgəsində qədim insanların 90 min il bundan əvvəldən 35 min il əvvələ qədər yaşadıqları müəyyən olunmuşdur. Eyni zamanda bütün Yaxın Şərq ərazisində Tağlar düşərgəsinin əsas mədəniyyət mərkəzi olması və Tağlarda hazırlanmış əmək alətlərinin hələ Mustye mədəniyyəti dövründə Yaxın Şərq ölkələri ərazisində yayılması aydın olmuşdur.

**Daşsalahlı mağarası.** Mağara Qazax rayonu ərazisində Daşsalahlı kəndi yaxınlığında yerləşir. Burada 1958-1959-cu illərdə arxeoloji qazıntı aparılmışdır. Arxeoloji tədqiqatlar zamanı düşərgənin çöküntülərindən 300-dən artıq daş məmulatı və ovlanmış heyvan sümükləri aşkar olunmuşdur. Daş məmulatı içərisində əsas yeri nüvələr, qaşov tipli alətlər, levallua və Mustye itiucluları tutur.

Düşərgədə fauna qalıqlarının tapılması qədim insanların burada ovçuluqla məşğul olmasını göstərir. Maraqlıdır ki, mağarada ocaq yeri qeydə alınmışdır.

Dassalahlı düşərgəsindən tapılmış daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən burada Mustye mədəniyyəti dövründə qədim insanların yaşadığını söyləmək olur.

**Qazma mağarası.** Mağara Şərur rayonu ərazisində olub, Tənənəm kəndi yaxınlığında yerləşir. Mağara Qazma dərəsində olduğuna görə, ona Qazma adı verilmişdir. Burada arxeoloji qazıntılar aparılmış və altı mədəni təbəqə qeydə alınmışdır. I və II təbəqələrdən orta əsrlər, tunc və eneolit dövrlərinə aid maddi mədəniyyət qalıqları tapılmışdır. Düşərgənin aşağı təbəqələrindən isə daş dövrünə aid əmək alətləri və 10 mindən artıq ovlanmış heyvan sümükləri aşkar olunmuşdur.



downloaded from KitabYurdu.az

Qazma düşərgəsindən tapılmış daş məmulatı çaxmaq və dəvəgözü daşlarından hazırlanmışdır. Əmək alətləri əsasən qaşov tipli alətlərdən və itiuclulardan ibarətdir. Alətlər itiləyici dişəklə dişəklənmişlər. Daş məmulatı içərisində istehsal tullantılarının qeydə alınması göstərir ki, qədim insanlar əmək alətlərinin bir qismini düşərgədə hazırlamışlar. Qazma mağarasında aşkar olunmuş daş alətlərin hazırlanma texnikası və tipologiyası əsasında burada qədim insanların Mustye mədəniyyəti dövründə yaşadıqlarını söyləmək mümkün olmuşdur.

Qazma düşərgəsindən çoxlu sümük məmulatının tapılması göstərir ki, Mustye mədəniyyəti dövründə Qazma sakinlərinin həyatında ovçuluq xüsusi yer tutmuşdur.

**Buzeyir mağarası.** Mağara Lerik rayonu ərazisində Zuvand çayının sol sahilində, Buzeyir kəndinin şərqində yerləşir. Mağara kəndin yaxınlığında olduğu üçün ona Buzeyir adı verilmişdir. Buzeyir kəndi dağın döşündə, mağara isə Talış dağlarının ən yüksək zirvəsində olub, dəniz səviyyəsindən 1640 metr yüksəklikdə yerləşir.

Buzeyir mağarasında aparılan arxeoloji qazıntılar zamanı beş təbəqə qeydə alınmışdır. Üst təbəqələrdən orta əsrlər və tunc dövrlərinə aid maddi mədəniyyət qalıqları tapılmışdır. Aşağı təbəqələrdən isə daş məmulatı və ovlanmış heyvan sümükləri aşkar olunmuşdur. Daş məmulatının əsas hissəsini qaşov tipli alətlər və itiuclular təşkil edir.

Buzeyir qədim insan düşərgəsindən aşkar olunmuş daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə əsasən onların Mustye-Son Aşel dövrlərində hazırlanmasını söyləmək olur.

Buzeyir mağarası Lənkəran zonasında paleolit dövrünə aid tapılmış ilk qədim insan düşərgəsidir. Əgər indiyə kimi bu ərazidə insanların yaşaması 10-15 min il bundan əvvələ aid edilirdisə, yeni tapıntı paleolit dövrü adamlarının hələ 80-90 min il bundan əvvəl burada yaşadıqlarını göstərir.

**Üst paleolit.** Uzun müddət davam etmiş Mustye mədəniyyətini Azərbaycanda 35-33 min il bundan əvvəl üst "paleolit" əvəz etmişdir. Arxeoloji tədqiqatlar zamanı məlum olmuşdur ki, Azərbaycanda Üst Paleolit mədəniyyəti 35-12 minilliklər arasında mövcud olmuşdur. Üst paleolitə keçid qədim insanların həyatında, təsərrüfatında, həyat tərzində, ideologiyasında və əmək alətləri hazırlanmasında mühüm dəyişikliklərə səbəb olmuşdur. Bu dövrdə daşdan və sümükdən daha nəcib və universal əmək alətləri hazırlanmışdır. Artıq bu dövrdən daş və sümüklər üzərində işlənmiş incəsənət nümunələri meydana gəlməyə başlamışdır.

Üst paleolit dövründə prizmaşəkilli nukleuslardan, yeni texniki üsullarla qoparılmış uzunsov bıçaqşəkilli çaxmaqdaşı lövhələrindən qaşov, qaşovcuq, tiyə, biz, ucluq və s. kimi daş alətlər hazırlanırdı. Bu alətlərin çoxu sümük və ya ağac dəstəkli (saplaqlı) olurdu. Daş alətlərlə yanaşı, sümükdən hazırlanmış biz, bıçaq, qarmaq,



downloaded from KitabYurdu.az

süngü, iynə və s. alətlərdən də istifadə olunurdu. Son paleolit dövrü adamları əsasən mağaralarda, qazmalarda və yerüstü daxmalarda yaşayırdılar.

Üst paleolit dövrü incəsənəti xüsusilə diqqəti cəlb edir. Matriarxat dövründə qadına sitayişlə əlaqədar rəmzi mənada çoxlu qadın təsvirləri yaradılmışdır.

Son paleolit dövründə zəngin qəbir avadanlığına malik müxtəlif dəfn adətləri olmuşdur. Bu dövrün adamları fiziki cəhətdən müasir insan formasında (neantrop, kromanyon və s.) olmuşlar.

Respublikamızın ərazisində Üst Paleolit dövrünə aid maddi mədəniyyət nümunələri Damcılı mağarasından, Yataq yeri və Zar açıq yaşayış yerindən aşkar olunmuşdur. Damcılı mağarasının daş məmulatı içərisində Üst Paleolit dövrünə aid qaşovcuqlar, kəsici alətlər, bizlər və bıçaq tipli alətlər qeydə alınmışdır. Alətlərin əksəriyyəti çaxmaq və dəvəgözü daşlarından hazırlanmışdır. Damcılı düşərgəsinin maddi mədəniyyət nümunələri qarışıq haldadır. Ona görə də ancaq tipoloji metod əsasında əmək alətləri tədqiq olunmuşdur.

Ümumiyyətlə, Azərbaycanda hələlik Üst Paleolit mədəniyyəti olduqca zəif öyrənilmişdir. Ona görə də respublikamızın ərazisində bu mədəniyyətin xarakterik xüsusiyyətlərini geniş tədqiq etmək üçün arxeoloji material olduqca azdır.

**Azərbaycanın Paleolit dövrü sakininin mənəvi aləmi haqqında.** Erkən tarixi dövrlərdə, xüsusilə ibtidai insan sürüsü mərhələsində Azərbaycan sakinlərinin mənəvi aləmi haqqında bizim biliklərimiz çox azdır. Güman etmək olar ki, ibtidai insan sürüsü mərhələsi qədim paleolit (çaydaşı və yaxud Olduvay mədəniyyətinə; Azərbaycan ərazisində isə Quruçay mədəniyyətinə) və yaxud erkən (qədim) aşel (abbevil) dövrünə təsadüf etmişdir.

Lakin həmin dövr Azərbaycan sakinlərinin məhz əmək alətlərinin nisbətən mürəkkəb məcmusuna arxalanaraq təbiətdən fəal surətdə istifadə etmələri ilə heyvanlardan xeyli dərəcədə fərqlənməsi şübhə doğurmur. Onlar məhv olmamaq, açıq tipli məskənlərdə və mağaralarda həyatı davam etdirmək üçün ətraf mühitə yaxşıca uyğunlaşmalı idilər. Şübhə yoxdur ki, onlar güclü idilər, yaxşı silahlanmışdılar və əqli cəhətdən kifayət dərəcədə inkişaf etmişdilər.

Güman etmək olar ki, artıq erkən aşel dövründə (bu tarixi dövr güns-mindellə və mindelin birinci yarısı ilə üst-üstə düşür, təxminən 700-400 min il bundan əvvələ təsadüf edir) insan ilk universal əmək alətini - əl çapacağını yaratmışdır. Bu, eyni tip əsasında və eyni üsullarla hazırlanmış ilk "standartlaşdırılmış əmək aləti" idi.

"Standartlaşdırılmış əmək aləti öz-özlüyündə qazıntı halında tapılmış konsepsiyadır" [Q.Çayld], yəni mücərrədləşdirmənin heyvan üçün mümkün olmayan yüksək səviyyəsini tələb edir, bu əmək alətini yalnız "tanıma", "təkrarlama" və digər hərəkətlər əsasında əldə etmək mümkün deyildir.

Belə nəticə hasil olunur ki, "standartlaşdırılmış əmək aləti"ni hazırlamış fərddə həmin alət haqqında mücərrəd təsəvvür vardı. Bu aləti hazırlayan insanın beynində



downloaded from KitabYurdu.az

alətin hazırlanmasından əvvəl onun forması, nümunəsi mövcud idi. "Nümunənin təsəvvürə gətirilməsi onun haqqında biliyin olması deməkdir, bu bilik isə cəmiyyət tərəfindən mühafizə olunur və ötürülür" [Q. Ç a y l d ]. Əvvəllər bu "hal yox idi və ola da bilməzdi. Bundan başqa, Qədim Aşel dövrünə aid olan əl çapacağının ritm hissinin mövcud olduğunu təsdiqləyən səliqəli simmetriyaya malik olması təsdiq etməyə imkan verir ki, həmin zamanın insanlarında artıq bəsit olsa da, ilk estetik vərdişlər təşəkkül tapmış, sadəcə olaraq zəruri, faydalı əşyaların deyil, eyni zamanda gözəl əşyaların hazırlanmasına tələbat yaranmışdı. Beləliklə, işlək əllər ritmi dəqiqliyin, həmahəngliyin və gözəlliyin ilk nümunələrini yaradırdı. Deməli, əmək prosesinin özündə artıq emosional məqam vardı və sonralar incəsənətin rüşeymləri həmin məqamdan başlanğıc aldı. Tədqiqatçılar belə hesab edirlər ki, əmək ritminin ardınca rəqsin (bəlkə də mahnının), ritmik rəqslərin ardınca ornamentlərdə və sadə rəsmlərdə xətlərin ritmik sıralanmasının meydana çıxması şübhəsizdir.

Aşağı Paleolit dövründə yaşamış insan artıq mağaralardan daimi yaşayış yeri kimi istifadə etməyə başladı. Azıx mağarası bunun parlaq nümunəsidir. Yarandıqdan sonra başlanğıc dövründə həmin mağarada zaman-zaman yaxın bölgələrin sakinləri qərarlaşırdılar. Bu bölgələrdə onların dayanacaqları, ya da yurd yerləri mövcud idi, həmin insanlar burada qərarlaşmış, müəyyən müddət ərzində mağarada yaşamış, sonra isə güns-mindel dövründən başlayaraq yeni yaşayış yerində intensiv surətdə məskunlaşmağa başlamışdır.

Azıx sakinləri ən böyük təbii qüvvə olan oda çox erkən yiyələnmiş, onu uzun müddət ərzində mühafizə etməyi bacarmışlar. Mağarada aşkar olunmuş ocaq qalıqları bunu təsdiq edir. Bu mağarada od bir neçə yüz min il bundan əvvəl alovlanmağa başlamışdı.

F.Engels göstərirdi ki, odun mühafizə olunması məharəti "nəhəng, öz əhəmiyyətinə görə demək olar ki, ölçüyə gəlməz kəşfdir". Od insanın nəinki həyatını, habelə şüurunu da dəyişdirdi. Od nəhəng texniki və ictimai qüvvə olduğu üçün bu, təəccüblü deyildir. Od insanın iqlimdən asılılığını aradan qaldırdı, insanın soyuqdan və vəhşi heyvanlardan daimi olaraq, etibarlı şəkildə qorunması vasitəsinə çevrildi, onun qidalanma mənbələrini genişləndirdi, əmək alətlərinin hazırlanmasında, ov üsullarının inkişafında və s. mühüm rol oynadı. F.Engelsin ifadəsincə deyilsə, "odun dərk olunması insanın təbiət üzərindəki ilk böyük qələbəsi idi".

Bütün digər cəhətlərdən başqa odun kəşfi, mühafizəsi və istifadəsi insanların həyatında tamamilə yeni hadisə olan kəmiyyət-məkan münasibətlərinin dərk edilməsində də bilavasitə özünü göstərdi. İnsan odu daim mühafizə etmək üçün onu fasiləsiz surətdə müəyyən "paylarla" yanacaq ilə "qidalandırmalı", mövcud olan "qidanı" günün tələblərilə uzlaşdırmalı, beləliklə, hesablamalar aparmalı idi... Və ola bilər ki, heç də təsadüfi deyil ki, qədim əfsanələrdə göstərildiyi kimi, Prometey insanlara odu bəxş edərkən onlara hesablamalar aparmağı öyrətmişdi. Tədqiqatçılar



downloaded from KitabYurdu.az

belə hesab edirlər ki, artıq indi bu süjetin pitekantrop dövrünə gedib çıxa bilməsi haqqında iddia həddindən artıq cəsarətli fikir kimi nəzərə çarpmır.

Qeyd etmək olar ki, artıq uzaq erkən Aşel dövründə "ibtidai insanların şüurunda forma (Qədim Aşel dövrünə aid olan əl çapacağını xatırlayaq, çapacağın hazırlanması üçün insan onun haqqında, ilk növbədə, onun forması haqqında mücərrəd təsəvvürə malik olmalı idi - məsul red.), ölçü (odun yanma müddətinə və yanacağın miqdarına dair situasiyanı xatırlayaq. - məsul red.) haqqında ən sadə təsəvvür meydana gəldi və şüur say haqqında təsəvvürün ərəfəsində dayanmışdı" [F.A.Frolov].

Pitekantroplar erkən aşel mədəniyyətinin yaradıcıları idilər. Onlar təşəkkül tapmaqda olan insanlar sırasında ən qədimlərindən olmuş və elmi ədəbiyyatda "arxantroplar" kimi qeyd edilirlər. Bu mərhələ insanın idrak fəaliyyətinin inkişafında yeni, əvvəlki dövrlə müqayisədə nəzərə çarpacaq dərəcədə yüksək səviyyə idi. Şübhə ola bilməz ki, Azıxın erkən aşel mədəniyyətinin yaradıcıları da artıq təfəkkürə və təşəkkül tapmaqda olan nitqə, habelə mənəvi mədəniyyətin müəyyən elementlərinə malik idilər.

İnsanın və onun mədəniyyətinin inkişafındakı bu tərəqqi cəmiyyətin, xüsusilə əməyin uzunmüddətli inkişafının nəticəsi idi. Əmək prosesində insanın özünün mahiyyətində, onun hissiyyat orqanlarında, qabiliyyətində, təfəkküründə, nitqində, aləmi dərk etməsində və s. mütərəqqi dəyişiklik baş verirdi. Bu dəyişiklik artıq insanın və insan cəmiyyətinin inkişafının erkən mərhələlərində - erkən aşel mərhələsində baş verməkdə idi.

Orta Aşel mərhələsindən başlayaraq (mindelin sonu və mindel-rissin birinci yarısı - təxminən 400 min il əvvəl) son aşel mərhələsinədək (rissin sonu və riss-vyurmun başlanğıcı - təxminən 100 min əvvəl) olan zaman Azərbaycan sakinlərinin həyatında müqayisə olunmayacaq dərəcədə daha yüksək mərhələ olmuşdur.

Azıx mağarasının Orta Aşel mərhələsinə aid olan təbəqəsi yalnız əmək alətləri ilə deyil, həm də Azıx insanının mənəvi inkişafı haqqında danışmaq imkanı yaradan materiallarla kifayət qədər zəngindir. İlk növbədə qeyd etmək lazımdır ki, artıq Orta Aşel mərhələsinin başlanğıcında Azərbaycanda arxantroplardan paleoantroplara keçid təşkil etmiş insan yaşamışdır. Bu insan arxantroplara nisbətən daha sapiental idi və preneandertallara və yaxud, bizim elmi ədəbiyyatda qəbul edildiyi kimi, azıxantroplara aid oluna bilər. Azıxantrop təxminən 400 min il bundan əvvəl yaşamışdır.

Güman etmək olar ki, insanın fiziki tipində həmin zaman nəzərə çarpan dəyişikliklər onun təkamülündə təxminən 200 min il bundan əvvəl mühüm dönüş - paleoantropların, xüsusilə neandertalların meydana gəlməsi ilə başa çatmış prosesin başlanğıc mərhələləri idi. Əgər bu zamanadək insanın təkamülü ləng gedirdisə, bu dövrdən etibarən həmin proses əhəmiyyətli dərəcədə sürətləndi və böyük irəliləyiş



downloaded from KitabYurdu.az

üçün zəmin hazırladı: 30-35 min il bundan əvvəl müasir fiziki tipə malik olan insan meydana gəldi. Beləliklə, aşel mərhələsinin ikinci yarısının materialı Azıx sakinlərinin mənəvi həyatındakı əhəmiyyətli uğurlardan danışmaq imkanı yaradır.

Ayı kəllələrinin yığıldığı xəlvətxana - gizli yer (kəllələrdən birinin üzərində xüsusi çərtmələr vardır), qədim yaşayış yeri və ocaq Aşel dövrünün ikinci yarısına aid olan təbəqədə aşkar edilmiş, hələ xeyli müddət ərzində müxtəlif fərziyyələrin irəli sürülməsinə imkan verəcək ən mühüm kəşflərdir.

Azıx mağarasının nəzərdən keçirilən dövrə aid olan təbəqəsində müxtəlif quruluşlu ocaqların bir çox qalıqları aşkar edilmişdir. Bu tapıntılar qəti şəkildə təsdiq edir ki, od azıxantropun həyatına qəti surətdə daxil olmuşdur.

Mağara ayılarından birinin Azıx mağarasının xüsusi, gizli bir guşəsində mühafizə olunmuş kəlləsi təsdiq edir ki, 300 min il bundan öncə say və hesablama azıxantropa məlum idi. Bu kəllə üzərində mişarabənzər, daş əşya ilə xüsusi olaraq bir sırada paralel şəkildə 7, yuxarıda isə çəpəki şəkildə 1 çərtmə edilmişdir. Bu halda hesablamanın vahidləri bizim qarşımızdadır. Yeri gəlmişkən, oykumenanın bir sıra bölgələrindən aşkar edilmiş qrafikada əks olunmuş nişanlı qurmaların bizə məlum olan on erkən nümunələri məhz aşel dövrünün ikinci yarısına - təxminən 300 min il bundan əvvələ aiddir. Fransanın cənubundakı II Peş de l'Aze (Dordon) adlı yaşayış yerindən tapılmış öküz qabırğasının fraqmenti və Türingiyanın Biltsinisleben adlı yerindən aşkar edilmiş 2 böyük olmayan sümük bu cür nümunələrdir.

Tədqiqatçıların böyük əksəriyyəti bu cür çərtmələri insanın öz fikirlərini təsvir etməyinin və qeydə almağının ilkin cəhdlərinin, xüsusilə əvvəllər məlum olmayan ünsiyyət üsulu kimi ilkin qrafikanın yaranmasının təsdiqi kimi qəbul edir. Bu prosesdə informasiya bu və ya digər cisimlər üzərində qeydə alınmağa başlanmışdı. Lakin güman etmək olar ki, bu işarələr yalnız hesablama vahidləri deyildilər. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, burada təşəkkül tapmaqda olan nitqin qrafik cəhətdən qeydə alınmasının, yazıdan əvvəlki tarixi mərhələ ilə müəyyən əlaqəsi olan ilkin təcrübələrinin göz qarşısında olduğuna yəqinlik hasil etmək olar.

Bu barədə danışarkən K.Marksın mühüm nəzəri nəticələrini xatırlamaq lazımdır: "Məlumdur ki, hissiyyatla təfəkkür arasında tərəddüd edən əqlin ilk nəzəri fəaliyyəti hesablama idi". K.Marks hesab edirdi ki, "hesablamaq üçün yalnız hesablanacaq əşyalara malik olmaq deyil, bu əşyaların nəzərdən keçirilməsi zamanı artıq onların sayından başqa bütün digər keyfiyyətlərini sərf-nəzər etmək qabiliyyətinə də malik olmaq lazım idi, bu qabiliyyət isə təcrübəyə əsaslanan, uzunmüddətli tarixi inkişafın nəticəsidir".

Azıx mağarasında aşkar olunmuş ayı kəlləsinin üzərində bir neçə çərtmə edilmişdir. Həmin çərtmələrdən 7-si paralel şəkildədir. Bir çox tayfalarda və xalqlarda 7 rəqəmi məşhurdur, "ecazkar"dır... Daha erkən tarixi dövrlərdən Qədim Şərqə, antik dünyaya və hətta orta əsrlərədək 7 rəqəmi insanların fikrində Zaman, Məkan, Kosmos



downloaded from KitabYurdu.az

haqqındakı təsəvvürlərlə əlaqədar olaraq xüsusi yer tutmuşdur. Biz bununla bağlı olaraq şumerlərin məşhur "yeddiliyini" yada sala bilərik. Şumerlər 7 rəqəmi ilə Kainat haqqında ideyanı da ifadə edirdilər. Məşhur Şumer zikkuratının 7 pilləsi, 7 "planetə", həftənin 7 gününə, 7 böyük tanrıya, 7 küləyə, yeraltı səltənətin 7 darvazasına və s. uyğun gəlirdi. Deyilənlərlə bağlı olaraq hindlilərdə Kainatın 7 sferini, insanda mövcud olan 7 fəal başlanğıcı, Ruhun və Materiyanın 7 qütbünü və s. xatırlamaq olar. Dünyanın Allah tərəfindən 7 gün ərzində yaradılması, Bibliyadakı 7 günlük umumdünya subasmaları, bir çox tayfaların və xalqların miflərində, əfsanələrində, nağıllarında, astroloqların, kimyagərlərin əsərlərində xatırlanan məşhur "yeddiliklər" və s. də bu qəbildəndir.

"Yeddiliyin" ecazkar xarakteri insan psixikasının fundamental sabitliyi ilə, əməli yaddaşın, diqqətin, mütləqqiyyətlərin həcminin hədli mənaları ilə bağlıdır. İnsan haqqındakı müxtəlif elmlərin bir çox məlumatları təsdiq edir ki, insan psixikasının "buraxıcılıq qabiliyyəti" 7 birölçülü vahidlə məhdudlaşmışdır.

Bu yaxınlarda Ayın müşahidəsi, onun fazalarından birindən zamanın (7 günün) ayrılması əsasında paleolit dövründə "7 ritmi"-nin, sonra isə "ecazkar yeddiliyin" yaranması haqqında fərziyyə irəli sürülmüşdür.

Ay gözlə yaxşı müşahidə olunan, Yerə ən yaxın səma cismidir. O, Yer ətrafında dövri surətdə təkrar olunan hərəkəti zamanı görünüşü etibarilə mühüm dəyişikliklərə məruz qalır. Ayın görünüşünün dəyişməsinin sərhədləri yaxşı nəzərə çarpır və düşünən varlığın diqqətini özünə cəlb etməli idi. Yeni Ayın çıxmasından sonra Ayın birinci dörddə biri təxminən 7 gündən sonra aşkara çıxır, onun ikinci dörddə biri isə təxminən 14 gündən sonra zahirə çıxır və s.

Ayının kəlləsində çərtilmiş yeddilik azıxantropun bir çox yüzminilliklər bundan öncə qədim kosmologiyanın beşiyi başında durduğunu təsdiq etmirmi?!

Lakin şübhəsizdir ki, ayı kəlləsi üzərində olan, ritm hissini nəzərə çatdıran çərtmələr həm də Azıx insanının təsviri incəsənət fəaliyyətinin nümunələrindən biridir. Bu çərtmələr Aşağı Paleolit dövrünün insanında nəinki ilkin hesablama əməliyyatlarının, habelə incəsənətin başlanğıcının meydana gəldiyini təsdiq edir. Qeyd-şərtsiz təsdiq etmək olar ki, bu, incəsənətin yaranmasına və mücərrəd təsəvvürlərin məntiqinə doğru həlledici addım idi.

Beləliklə, Aşağı Paleolit dövründə hesablama haqqında məsələ incəsənətin yaranması və ilkin məzmunu problemləri ilə bilavasitə əlaqədardır: bu, halda söhbət ilk rəssamların şüurunun mücərrədləşdirmə fəaliyyətinin səviyyəsi haqqında gedir.

Hazırda artıq Aşağı Paleolit dövründə bədii yaradıcılığın yetişməkdə olduğu haqqında fikir şübhə doğurmur. Azıxda aşkar edilmiş material bunun daha bir təsdiqidir.

Azıx mağarasında 4 ayı kəlləsinin saxlandığı xüsusi, gizli guşənin olması faktı fövqəladə dərəcədə maraqlıdır. Müxtəlif heyvan kəllələrinin xüsusi şəkildə qoyulduğu



downloaded from KitabYurdu.az

gizli guşələr dünyanın bir çox bölgələrində də tapılmışdır. Draxenlox (İsveçrə), Zaltsofen (Avstriya), Klyuni, Le Furten, Reqardu, Lazaret (Fransa), Petersxel (AFR) Kudaro (Şimali Qafqaz) və başqa yerlərdə bu cür nümunələr aşkar olunmuşdur. Azıxda aşkar edilmiş, heyvan kəllələrinin saxlandığı gizli yer bu cür sitayiş obyektləri içərisində ən qədimrindən biridir. Azıxda tapılmış ayı kəllələrinin heç birində çənə hissəsi yoxdur. Gizli yerlə tanışlıq həyata keçirilmiş əməl arxasındakı təsəvvürlər aləmini bizim qarşımızda canlandırır. Qeyd-şərtsiz demək olar ki, bu, məqsədyönlü, şüurlu və əlbəttə, qeyri-utilitar insan fəaliyyətinin nəticəsidir.

Azıxda təsdiqlənmiş "kəlləyə sitayiş" faktı Cənubi Qafqaz sakinlərində ətraf mühitin hadisələri haqqında ən erkən, başlanğıc səciyyəvi təsəvvürlərin yarandığını göstərir. Sonralar həmin təsəvvürlər zəminində dinin ünsürləri, din meydana gəldi. Kəllə "yığınları" (və ümumiyyətlə heyvan sümükləri) totemizmin, hər halda onun rüşeymlərinin meydana gəldiyini göstərir.

Bütün bu göstərilənlər, Aşağı Paleolit dövründə Azərbaycan sakininin təfəkküründə, baxışlarında, zövqündə və həyat fəaliyyətində köklü irəliləyiş demək idi.

Aşel dövrünün ikinci yarısında mağarada möhkəm məskən salmış azıxantroplar orada süni mühit yaradırlar. Azıx mağarasının aşel təbəqəsində ocaqlardan birinin yanında süni hasarın - dairəvi daş tikilinin qalıqları aşkar edilmişdir. Beləliklə, 300 min il bundan əvvəldən də öncə azıxantrop özü üçün yaşayış yeri qururdu. Son zamanlar oykumenanın müxtəlif bölgələrində, xüsusilə Fransada süni yaşayış yerlərinin bir çox qalıqları (onların arasında Aşel dövrünə aid olanları da vardır) tapılmışdır.

Aşeldən sonrakı Mustye dövrü adətən oykumena miqyasında keyfiyyətcə yeni, qədim insanların həyatında əvvəlki zamanla müqayisədə daha yüksək mərhələ kimi səciyyəvidir. Məhz bu səciyyəvilik bir çox tədqiqatçılara həmin tarixi mərhələni xüsusi dövr - Orta Paleolit dövrü kimi (əhəmiyyətinə görə son paleolitə bərabər olan dövr) ayırmaq hüququnu verir. Digər tədqiqatçılar bu cür yanaşmaya etiraz edərək hesab edirlər ki, Son Aşel dövrü ilə ilk Mustye arasındakı fərq mərhələ səciyyəsi daşımır. Lakin ikinci baxışın tərəfdarlarının müddəalarına baxmayaraq, bütövlükdə insanların neandertal növü (ilkin neandertallar istisna olunmaqla) Mustye dövrünə təsadüf etmişdir. Artıq Mustye dövründə sürü münasibətləri arxada qalmış, ibtidai icma quruluşu (nəsli cəmiyyət) təşəkkül tapmış, kommunalistik münasibətlər qərarlaşmışdır. İndiyədək tədqiqatçıları məşğul edən neandertal qəbirləri həmin dövrdə ümumilik münasibətlərinin qərarlaşmasını təsdiq edən faktlardır.

Neandertal qəbirləri ilk növbədə neandertalların kollektiv birliyi, qarşılıqlı sosial əlaqəni dərk etdiklərini təsdiq edir. Bu, qarşılıqlı yardım institutunun yarandığını, icma üzvlərinin bir-birinə qayğısını göstərir. Bu, "neandertalların ibtidai icmasını möhkəmləndirən əlaqələrin sabitliyini və gücünü təsdiq edən" [A.P.Okladnikov] parlaq göstəricidir. Güman etmək olar ki, Mustye dövrü yeni ictimai təşkilatın - tayfanın yaranması zamanı olmuşdur. Hər halda həmin dövrdə



downloaded from KitabYurdu.az

bir növ "tayfa ərəfəsi" birləşmənin mövcudluğu şübhəsizdir. Bu birliyin əsas tərkib hissəsini böyük kollektiv təşkil edirdi. Güman etmək olar ki, bu kollektiv bir neçə nəsli icmanı, birgə əməyə əsaslanan bir neçə düşərgəni özündə ehtiva edirdi.

Bundan başqa, neandertal qəbirləri müəyyən, sırf insan hisslərindən, bəşəriyyət tarixində ilk dəfə olaraq öz yaxınlarını dəfn etmiş insanların baxışlarından xəbər verir. Nəhayət, bu qəbirlərdən aydın olur ki, insanlar artıq meyitdən törəyə biləcək konkret təhlükəni əməli surətdə dərk etmişdilər.

Mustye haqqında yuxarıda deyilmiş fikirlər oykumenanın müxtəlif bölgələrindən əldə olunmuş materiallara əsaslanan ümumi səciyyəli məlumatlardır. Təəssüf ki, Azərbaycan materialı bu baxımdan bizə çox az məlumat verir. Lakin insan cəmiyyətinin inkişafının başlıca qanunlarının ümumiliyini, qlobal xarakterini, sosiogenezin ümumi istiqamətini, insan həyatı modelinin universallığını, bu və ya digər mərhələ üçün səciyyəvi olan, insan yaşayışının müxtəlif bölgələrində mövcud olmuş səciyyəvi cəhətlərin bir çoxunun Azıx mağarasında təsdiqlənməsi kimi mühüm bir halı nəzərə alaraq neandertalın mənəvi aləminin mənzərəsini Azərbaycana da aid etmək mümkündür.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda Mustye dövrü Azıx, Tağlar, Daşsalahlı, Damcılı və Qazma mağaralarında nisbətən yaxşı təmsil olunmuşdur. Bu dövr təxminən 100-80 min il bundan əvvəl başlanmışdır.

Levallua texnikası müxtəlif daş əmək alətləri ilə zəngin olmuş Mustye dövrünün ən böyük texniki nailiyyətidir. Bu nailiyyət daşın emalı üsullarında əsil inqilab idi. Texnikanın inkişafı daşın istifadəsinin və emalının çox yüksək səviyyəsinə (levallua texnikasına) getirib çıxarmışdı.

Mustye dövründə nizə və cidaların daşdan hazırlanmış ucluqları meydana gəldi. Ovçuluq təsərrüfatı xeyli mürəkkəbləşdi və yüksək inkişaf səviyyəsinə çatdı. İnsan kollektivlərinin qida ilə təminatı ölçüyəgəlməz dərəcədə artdı.

Nəinki yaxın bölgələrin, habelə bir-birindən kifayət qədər uzaq olan ərazilərin sakinləri arasında əlaqələrin genişlənməsi, həmin qarşılıqlı əlaqələrin tədricən fəallaşması Mustye dövrünün mühüm xüsusiyyətidir. Məsələn, Tağlar mağarasının materialı bunu göstərir. Həmin material onun həmin "Şərq düşərgə"ləri ilə bənzəyişi, habelə Araz çayından cənubda yerləşən, Zaqros zonasını da özündə ehtiva edən ərazilərin Mustye mədəniyyətləri ilə qeyd-şərtsiz əlaqələri barədə də danışmağa imkan verir.

Cənubi Qafqazın və Şərqi Avropa düzənliyinin cənub hissəsinin, habelə Qədim Şərq bölgələri sakinlərinin arasında son paleolit dövründə müəyyən əlaqələr olduğunu bu uzaq məskənlərdə Qafqaz obsidianının tapılması təsdiqləyir. Cənubi Qafqazın qədim yaşayış yerlərində Qırmızı dəniz mənşəli balıqqulağıların və s. aşkar olunması faktı da bunu sübut edir. Yalnız zəngin mənəvi aləmə malik olmuş insan uzunmüddətli miqrasiyalar edə bilərdi.



downloaded from KitabYurdu.az

Qeyd etmək lazımdır ki, artıq çox qədim zamanlarda Qafqaz bərzəxi insanların tropik iqlimə malik olan ilkin vətəndən -Afrikadan Avropanın mülayim iqlim qurşağına hərəkət etməsi üçün şərait yaratmış körpülərdən biri idi. Daha sonrakı zamanlarda da xeyli insan kütləsinin dəfələrlə bu ərazi ilə hərəkəti baş vermişdir.

Ali heyvanların və insanın genetikası və psixofiziologiyası sahəsindəki ən yeni kəşflər miqrasiya kimi fövqəladə dərəcədə maraqlı olan halın anlaşılmasına açar ola biləcəkdir. Tədqiqatlar göstərmişdir ki, digər ali məməlilər kimi insanlığın ayrı-ayrı nümayəndələrinə də yeniyə, tanış olmayana meyil xasdır. Mütəxəssislər bu hadisəni "azadlıq refleksi" adlandırırlar. Bu, məchulun mahiyyətinə varmaq üçün qarşısıalınmaz meylə tələbatdır. Bu fenomenin irsən ötürülməsi artıq çox qədim zamanlarda məchula doğru bu cür anadangəlmə meylə malik olan xeyli insan qruplarının meydana gəlməsinə gətirib çıxara bilərdi. Ola bilər ki, artıq ən qədim zamanlarda Azərbaycan ərazisində ən azı iki başlıca avropoid antropoloji tipinin yaşaması, yazılı mənbələrdən adları bəlli olan bir neçə dildə danışan tayfaların mövcud olması səbəbini məhz deyilənlərdə axtarmaq lazımdır.

Şübhəsizdir ki, bir çox nəsillərin "azadlıq refleksi"ni, yenilik zövqünü toplaması onların mədəniyyətinə xüsusi dinamiklik və çeviklik gətirirdi. Ən erkən tarixi mərhələlərdən başlayaraq antik dövrədək Azərbaycanda mövcud olmuş bir çox parlaq mədəniyyətlər bunu aydın şəkildə təsdiq edir.

Azərbaycanda yuxarı paleolitin yaxşı öyrənilməməsinə baxmayaraq, göstərmək lazımdır ki, Mustye ilə son paleolit arasındakı hədd xüsusilə vacib və mühüm hədd kimi qiymətləndirilməlidir. Bu zaman, təxminən 30-35 min il bundan əvvəl müasir tipli insan - Nomo Sapiens ("dərrakəli insan") meydana gəlmişdir. "Dərrakəli insan"ı neoantrop (yeni insan) da adlandırırlar.

Bu zamandan etibarən təbii seçmə özünün forma əmələgətirici rolunu qəti surətdə itirdi (bunun nəticəsində insanın fiziki tipinin dəyişməsi prosesi dayandı), təbii seçmənin yerini isə ictimai qanunauyğunluqlar tutdu.

Beləliklə, hər bir yeni mərhələdə mənəvi aləmi zənginləşən qədim Azərbaycan sakinləri Paleolit dövrü ərzində təbiəti öz məqsədlərinə xidmət etməyə vadar edir, tədricən təbiət üzərində hökmranlıq etməyi öyrənirdilər.



downloaded from KitabYurdu.az

## II FƏSİL

# MEZOLİT VƏ NEOLİT DÖVRÜ.
# AZƏRBAYCAN SAKİNLƏRİ İSTEHSALEDİCİ TƏSƏRRÜFATIN MEYDANA ÇIXMASI DÖVRÜNDƏ

**Giriş qeydləri.** Bütün Paleolit dövrü ərzində əhəmiyyətli nailiyyətlərə və cəmiyyətin çox böyük inkişafına baxmayaraq, insanlar istehlakçı olaraq qalır, onların təsərrüfatı sırf mənimsəmə xüsusiyyəti daşıyırdı. İstehsal bazasının məhdudluğu, ovçuluq fəaliyyətinin ekoloji mühitdən bilavasitə asılılığı, təbii şəraitin dəyişməsi cəmiyyətin inkişafını həddindən artıq ləngidirdi.

Paleolitdən yeni daş dövrünə (neolitə) keçid mərhələsi insan həyatında mühüm dəyişikliklər dövrü idi. Mezolit (yunanca *mesos* - orta, *lithos* - daş) adlanan bu mərhələnin başlanğıcı təxminən son buzlaşma dövrünün qurtarmasına və müasir geoloji mərhələnin-holosenin (yunanca *holos* - bütün, *kainos* - yeni) bərqərar olması ilə uyğun gəlir, bu dövrdə müasir ekoloji şərait yaranır.

Mezolit dövrü təxminən e.ə. XIII-IX minillikləri əhatə edir. Bəşər tarixində, onun bütün sonrakı inkişafını müəyyən edən bu mühüm mərhələ mənimsəmə təsərrüfat formasından (ovçuluq-balıqçılıq-yığıcılıq) istehsaledici təsərrüfata keçid olmuşdur. Bu dövrdə bütün müasir mədəni inkişafa zəmin yaranır, cəmiyyətdə və insan həyatında dönüş ərəfəsi başlanır, istehsaledici təsərrüfatın əsas sahələri - əkinçilik və maldarlıq meydana gəlir. İnsanlar ovçuluq və yığıcılıqla yanaşı, əkinçilik və maldarlıq vasitəsilə ərzaq istehsalına başlayır. Demək olar ki, bu dövrdən başlayaraq bəşəriyyətin əsas inkişaf xəttini təbiətin hazır nemətlərini mənimsəmək yox, ərzaq istehsal etmək yolu müəyyən edir. Dünyanın bir çox rayonlarında, o cümlədən Zaqafqaziyada neolit dövründə erkən əkinçi-maldar mədəniyyəti əsasında yeni təsərrüfat forması meydana gəlir və inkişaf edir. Bu, əslində son mərhələsi bir çox hallarda "neolit inqilabı" kimi ifadə edilən nəhəng çevriliş idi.

Mezolit dövründə baş verən dəyişiklikləri çox vaxt Üst Paleolitdə ovçuluq təsərrüfatında baş vermiş böhranla bağlayırlar. Güman edirlər ki, mezolit dövrünə qədər iqlim və landşaft kompleksində baş verən dəyişikliklər, bununla əlaqədar insan faktoru təsirinin güclənməsi nəticəsində təsərrüfatın bu növündə potensial imkan artıq tükənmişdi.

Biz həqiqətən görürük ki, mezolit dövründə dünyanın müxtəlif yerlərində yeni təsərrüfat formalarının axtarışı başlanır. Açıq sahələr əvəzinə insanlar daha çox meşədə ov etməyə başlayırlar. Heyvan sürüsündə tərkibin dəyişməsi, heyvanların sayının xeyli azalması, həm də ox və yayın icad edilməsi kollektiv ovdan meşələrdə fərdi ova keçmək üçün geniş imkanlar yaradır. Ox və yayın, həm də müxtəlif düzmə dişli alətlərin meydana gəlməsi mikrolitik texnikanın güclü inkişafına təkan verir.



downloaded from KitabYurdu.az

İqtisadiyyatın müstəqil sahəsi kimi formalaşan balıqçılığın dənizdə və ya quruda aparılan ov və akvafaunadan maksimum istifadə ilə intensivləşməsi uzlaşır. Yığıcılığın intensivləşməsi öz növbəsində dənli bitkilərin becərilməsinə gətirib çıxarır və s. Bütün bunlar istehsaledici təsərrüfat formasına keçid üçün imkanlar yaradır.

Mezolit dövründə bir çox yerlərdə, o cümlədən Azərbaycanda balıqçılıqda qayıqlardan istifadə olunmağa başlanır. Qobustan qaya rəsmlərindəki çoxlu qayıq şəkilləri bunu aydın göstərir.

Mezolit dövrü insan kollektivlərinin miqrasiyası dövrüdür. Bu köçmə ilə əlaqədar mədəni yeniliklər tezliklə oykumenanın müxtəlif ərazilərinə yayılır.

Tamamilə şübhəsizdir ki, bütün regionlarda istehsaledici təsərrüfatın yaranması və inkişafı eyni cür olmamışdır. Bəzi yerlərdə əkinçilik, digərlərində maldarlıq və maldarlıq məhsullarının istehsalı üstün olmuş, üçüncülərdə isə bu iki təsərrüfat sahəsi bərabər inkişaf etmişdir. Yəqinliklə demək olar ki, istehsaledici iqtisadiyyatın mənşəyi əkinçilik və maldarlıqdan əvvəl mövcud olmuş təsərrüfatın kompleks xarakteri ilə əlaqədar olmuşdur. Həmin vaxt ibtidai kollektivin ərzaqla təchizatı ovçuluq və xüsusən yığıcılıqdan əldə edilən məhsulla təmin olunurdu. Beləliklə, istehsaledici iqtisadiyyatın mənbəyi mənimsəmə təsərrüfatından başlanır.

İnsan kollektivləri minilliklər ərzində bitki və heyvanat aləmi haqqında müntəzəm olaraq bilik toplamış, bitki və heyvanların həyat tsikli ilə tanış olmuş, orada gedən prosesləri müşahidə etmişdi. Bütün bunlar əkinçilik və maldarlığın yaranmasında lazımi hazırlığı təmin etmişdir.

Zaqros ərazisində, Kaspinin cənubunda Azərbaycana qovuşan qurşaqda, eləcə də Qobustanda yabanı bitkilər, o cümlədən buğda arpa bitirdi, ev heyvanlarının əcdadları otlayırdı. Belə şərait isə yeni təsərrüfat formasına keçmə prosesini sürətləndirirdi.

XI-X minilliklərdə artıq mezolit dövrü adamları yabanı bitkilərin dənindən qida kimi istifadə edir, xırdabuynuzlu heyvanları - keçi və qoyunu əhliləşdirməyə, dənli bitkiləri becərməyə başlayır. Əldə edilən daş alətlər - biçin bıçaqları və sürtgəclər bu barədə müəyyən məlumat verir. Bu dövrdən Azərbaycanda istehsaledici təsərrüfatın bünövrəsi qoyulur, Kaspi sahilində Qobustan sakinləri dənizdə balıq tutur, suiti vurur və ceyran ovlayırdılar. Onlar ox və yaydan istifadə edirdilər və artıq iti əhliləşdirmişdilər. Bu rayonda "ceyran mezoliti" deyilən dövrdən mənimsəmə təsərrüfatının son mərhələsi, eramızdan əvvəlki VIII minillikdən isə istehsaledici təsərrüfat yaranmağa başlayır.

Eramızdan əvvəl VIII-VII minilliklərdə Zaqros ərazisində əkinçi maldar təsərrüfatı artıq üstün yer tutmuşdur.

Qobustan ərazisində istehsaledici təsərrüfatın elementləri mezolitin sonu - neolitin əvvəlindən yaranır.



downloaded from KitabYurdu.az

**Mezolit abidələri. Əmək alətləri. Ox və yay. Ovçuluq. Yığıcılıq. Balıqçılıq.** Azərbaycanda mezolit və neolit mədəniyyətlərinin izlərinə ilk dəfə Qazax rayonunda Avey dağında Damcılı mağarasında təsadüf olunmuşdur. Burada Üst Paleolitə aid əsas materialdan əlavə Mezolit və Neolit dövrlərinə aid daş məmulatına da rast gəlinmişdir. Mezolit dövrünə aid zəngin material Qobustanda Böyükdaş və Kiçikdaş dağları ərazisindəki düşərgələrdən əldə edilmişdir. Mezolit və Neolit dövrünə aid Damcılı mağarasından tapılmış karandaşvari nüvələr, kiçikölçülü bıçaqvari lövhələr, xırda qaşovlar, kəsici və deşici alətlər Mezolit dövrünə, arxaik formalı dəstəkli ox ucları və cilalı daş əşya neolitə aid edilmişdir. Bütün daş məmulatı çaxmaq və dəvəgözü daşından hazırlanmışdır.

Qobustanın Mezolit düşərgələri (Anazağa, Kənizə, Öküzlər, Firuz, Ceyranlar, Qayaarası) qayaaltı sığınacaqlarda aşkar olunmuşdur. İri qaya parçalarının arasında yaranmış bu mağara-sığınacaqlar uzun müddət mənzil kimi istifadə olunmuşdur. Kənizə sığınacağında qayalararası keçidlər yonulmamış daş parçaları ilə hörülmüşdür. Sığınacaqların qalınlığı bəzən 1 m-ə çatan mədəni təbəqələrində çoxlu miqdarda daş məmulatı və ətrafında heyvan sümükləri atılmış ocaq qalıqlarına rast gəlinmişdir. Sığınacağın qaya divarlarında və mədəni təbəqədən olan hörgü və bəzi adi daşlarda insan və heyvan rəsmlərinə təsadüf olunur. Qobustanın mezolit və neolit düşərgələrində alət və silahın hazırlanmasında keyfiyyətli çaxmaq daşından, eləcə də sümükdən, çaydaşından və qismən əhəngdaşından istifadə olunmuşdur. Qobustanda və ona yaxın rayonlarda çaxmaqdaşı yatağı məlum deyil. Ola bilsin ki, Qobustanın qədim sakinləri çaxmaqdaşını konqlomerat çıxıntıları, çay və dəniz daşlara arasından və ya palçıq vulkanları tullantıları içərisindən seçir, bəlkə də qonşu vilayətlərdən gətirirdilər.

Mezolitə keçid dövründə Qafqaz və Ön Asiyanın bir çox Mezolit dövrü abidələrində olduğu kimi, Qobustan düşərgələrinin daş alətləri də mikrolitik səciyyə daşıyır. Bu, başlıca olaraq həmin dövrdə ox və yayın geniş yayılması ilə əlaqədardır. İti ucluq, deşici, müxtəlif tipli qaşovlar, kəsər və kəsərciklər bu dövrdə hazırlanan səciyyəvi alətlərdir. Mikrolitlər əsasən dişli yığma alətlərin, ox, mizraq, nizətipli silahların və biçin bıçaqlarının hazırlanmasında istifadə olunurdu.

Qobustan mezoliti üçün iynəvari xırda iti ucluqlar səciyyəvidir. Kiçik qaşovlar çox müxtəlifdir. Qaşovların bir qismi yığma alət dişi kimi də istifadə olunurdu. Əldə edilən uclu və yanlı qaşovlar gön işləmədə, ağac və sümük alətlərin və s. hazırlanmasında istifadə olunmuş universal alətlərdir. Xırda kəsici alətlər sümük və ağac üzərində aparılan zərif işlərdə istifadə olunurdu. Əmək alətləri arasında oxun çubuğunu hamarlayıcı əşyalar da diqqəti cəlb edir. Onlara Qobustanın bütün mezolit və neolit düşərgələrində rast gəlinmişdir. Hamarlayıcı alətlər üzərində diametri 1 sm olan gəz açılmış yastı oval qarğaduzu daşından hazırlanmışdır. Bəzi hamarlayıcılarda gəzlərin kənarı çərtmələr, ziqzaq xətlər və sünbülvari naxışla bəzədilmişdir.



downloaded from KitabYurdu.az

Anazağadan əldə edilən oxun çubuğunu hamarlayıcı alət qırığı üzərində heyvan (keçi və ceyran) təsviri vardır. Bu tip alətlər başqa ərazilərin mezolit və neolit düşərgələrindən də məlumdur.

Qobustanın çaxmaq daşı qəlpələrindən hazırlanmış Mezolit dövrü ox ucları səlis formaya malik deyillər.

Mezolit və Neolit dövründə çaydaşılarından əsasən zərb alətləri, sürtgəclər, tor üçün pərsəng daşı, dişəkləyicilər, kərkivari alətlər hazırlanırdı. Qobustanda çaydaşından alətlər ağac, doğmada və ağac işləmədə, ilik çıxarmaq üçün sümük sındırmada, qayalarda şəkil döymədə və s. işlənirdi. Yabanı bitki dənləri və yeməli kökləri əzmək üçün daş sürtgəclərdən istifadə edilirdi. İlkin qəlpələr bıçaq, xırda çaylaq daşları isə dişəkləyici alət kimi işlədilmişdir.

Qobustanın Mezolit dövrü ovçularının əsas silahı yay və ox idi. Öz dövrünə görə bu mürəkkəb silah ət məhsulu əldə etməyə imkan yaradırdı. Bununla əlaqədar xüsusi ilə qeyd etmək lazımdır ki, Qobustanda ən qədim rəsmlər yay və oxla silahlanmış, təbii böyüklükdə, siluetşəkilli adam təsviridir. Çoxlu kişi və tək-tək qadın təsvirlərinin yay-oxla silahlı verilməsi, kompozisiyasının sabitliyi Mezolit dövründə bu tip alətlərdən Qobustanda geniş istifadə olunduğunu göstərir. Qobustanda oxlar əsasən yığma idi, yəni oxun ağac hissəsinin ucuna çaxmaq daşından iti ucluq bərkidilirdi. Kəsiyi dairəvi şişuclu sümük ox uclarından da istifadə edilirdi. Böyükdaş dağı zirvəsinin cənub-qərb hissəsində saxlanmış daş hasar qalığı Mezolit dövründə Qobustanda təbii və süni tələ və sürək üsulu ilə də ov edildiyini göstərir. Kiçikdaş dağında 58 №-li qaya üzərindəki şəkil isə ovçuluqda tələdən də istifadə olunduğuna şahidlik edir.

Qobustanda əsas ov obyekti qulan və ceyran olmuşdur. Mezolit dövrü təsərrüfatının əsas sahələrindən birini balıqçılıq təşkil edirdi. Bu dövrdə balıqçı toru və balıqtutan qarmaqlar meydana gəlir, ağacdan qayıq və qayıq kürəkləri hazırlanır. Qobustan qayalarında içərisində adam, bəzən də burun hissəsində günəş şəkli çəkilmiş qayıq təsvirlərinə rast gəlmək olur. Üzərində qayıq rəsmi çəkilmiş daşlar qazıntılar zamanı, o cümlədən Firuz düşərgəsinin mədəni təbəqəsindən də tapılmışdır. Qayalarda balıq və balıq toru təsvirləri, qazıntılardan tor üçün ağırlıq daşı, balıq və suiti sümüklərinin tapılması Qobustanda bu dövrdə balıqçılığın inkişafını aydın əks etdirir. Qobustan düşərgələrinin sakinləri tordan və mizraqdan istifadə edərək, balıq, hətta nərə balığı ovlayırdı.

Qobustanın Mezolit dövrü sakinlərinin təsərrüfatında ovçuluq və balıqçılıqla yanaşı, yığıcılıq az əhəmiyyət daşımırdı. Onlar ərazidə bitən göy-göyərti, göbələk, yer fındığı, yabanı bitkiləri yığırdılar. Bitki kökləri ağac və daşdan olan yerqazan alətlər vasitəsilə çıxarılır, dənli bitkilər isə yığma bıçaqlarla yığılırdı.

Beləliklə, aydın olur ki, Mezolit dövründə qədim qobustanlılar ovçuluq, balıqçılıq və yığıcılıqla məşğul olurdu.



downloaded from KitabYurdu.az

Hələlik Qobustanda və bütün Azərbaycanda Mezolit dövrü üçün istehsaledici təsərrüfatın (əkinçilik və maldarlıq) elementlərinin inkişafını göstərən inandırıcı dəlil əldə edilməmişdir. Ancaq ola bilsin ki, Qobustanda mezolitin sonundan bəzi heyvan növləri əhliləşməyə və dənli bitkilər mədəniləşməyə başlamışdır.

Eramızdan əvvəl XIII-X minilliklərdə, yəni Mezolit dövründə Zaqafqaziya ilə yanaşı, Zaqros ərazisində artıq ev şəraitinə uyğunlaşdırılmış heyvanların olduğu və dənli taxıl bitkilərinin mədəniləşdirilməyə başlandığı məlumdur. Ovçuluğun inkişafında uzaqvuran silahların tətbiqi əhalinin ət ərzağı ilə təminatında mühüm rol oynayırdı. Qəbilənin təsərrüfat həyatında və icmanın sosial quruluşunda başlanan dəyişikliklər heyvanların əhliləşdirilməsinə də təkan verir, təsərrüfatçılığın ayrı-ayrı sahələrinin əsası qoyulurdu.

Firuz düşərgəsində son mezolit təbəqəsində kütləvi dəfnlə əlaqədar on böyük və bir uşaq skeletinin qalıqlarının aşkarı böyük əhəmiyyətə malikdir. Buradan külli miqdarda qəbir avadanlığı, əsasən bəzək əşyaları və müxtəlif alətlər əldə edilmişdir. Tapılan alətlər ölənlərin məşğuliyyəti ilə əlaqədardır. Bütün ölənlərin bəzəklərində daş muncuqlar olduğu halda, bəzi skeletlərin yanında xüsusi bəzək əşyaları - çöl donuzunun qılınc dişindən asmalar, orjinal formalı kiçik çaydaşından amuletlər, sümükdən balıqçılıq toru toxumaq və balıq vurmaq üçün alətlər, mərmərləşmiş daşdan deşikli zərb alətləri də tapılmışdır. Ölülərin dolixokran və braxikran antropoloji tipə mənsub olduğu müəyyən edilmişdir.

**Neolit dövrünün əkinçi-maldar qəbilələri. Əmək alətləri. Keramika.** Eramızdan əvvəl VIII minilliyin sonundan mezoliti əvəz edən Neolit dövrü Zaqafqaziyada VI minilliyin ortalarına qədər davam edir. Bəşər tarixində istehsaledici, əkinçi-maldar təsərrüfatına keçidin başa çatması ilə nəticələnən bu dönüş mərhələsi "neolit inqilabı" adı altında məlumdur. Neolit dövründə keramika icad olunur, möhrə evlər bina edilir, ilkin əkinçi məskənləri meydana gəlir.

İqtisadiyyatın yeni forması olan əkinçilik və maldarlıq bir tərəfdən, istehsaledici təsərrüfata yiyələnmiş qəbilələrin geri qalmış qəbilələrə təsiri, digər tərəfdən isə əkinçi qəbilələrinin özlərinin yeni ərazilərə köçməsi yolu ilə yayılırdı.

O vaxtlardan Ön Asiyanın bir çox vilayət və rayonları, o cümlədən Cənubi Azərbaycanda tamam məskunlaşma başlayır. Məhz bu dövrdən (VII-VI minilliklərdən gec olmayaraq) burada anbarı, ocağı, həyət sahəsi və möhrədən birotaqlı evləri olan yaşayış yerləri yaranır. İlk əkinçi məskənlərinin qalıqları Cənubi Azərbaycanda Urmiya gölü hövzəsində Həsənli, Hacı Firuz, Yanıqtəpə və s. kimi qədim yaşayış yerləri və qonşu Zaqros ərazisində məlumdur.

Şimali Azərbaycanda Neolit dövrü qalıqları Qobustandakı Anazağa, Kənizə və Ovçularzağası düşərgələrindən məlumdur. Onların mədəni təbəqələrindən çaxmaq və çaydaşından hazırlanmış, erkən neolit dövrünə aid gəzli lövhələr, həndəsi formalı alətlər, hamarlayıcılar, zərb alətləri və toxavari alətlər əldə edilmişdir.



downloaded from KitabYurdu.az

Qobustanın neolit dövrü daş məmulatı mezolit materialı ilə bir qəbildən olub onun davamıdır. Burada da çaxmaq daşından nüvələr və xırda itiuclular çoxdur. Qəlpələrdən hazırlanmış qaşovların sayı azalır. Toxavari alətlər az olsa da, əvvəlki dövrə nisbətən iri və yöndəmlidir. Kiçik ölçülü sürtgəclər, dənəzən daşlar, daş qablar, ağzı cilalı alətlər və s. meydana gəlir.

Mezolit və Neolit dövrlərinin əsas daş məmulatının oxşarlığı tez gözə çarpır və Qobustanda əhalinin tarixi-mədəni inkişaf ənənələrindəki varisliyə və min illərlə burada yaşayan qəbilələrin eyni etnik qrupa daxil olduğuna şahidlik edir.

Qobustanda daş toxaların, sürtgəclərin, dənəzən daşların, bıçaqvari lövhədən biçin bıçağı tipli alət nümunələrinin tapılması hələ əkinçiliyin yaranmasını deyil, onun yaranacağını xəbər verən əlamətlərdir. Bu alətlər yabanı dənli bitkilərin biçilməsi, döyülməsi, əzilməsində istifadə olunurdu. Burada bəzi heyvanların əhliləşdirilməsinə doğru addımlar atılır. Qobustan təsvirlərinin ilk tədqiqatçısı İ.M.Cəfərzadə hesab edir ki, burada heyvanların əhliləşməsi öküzdən başlayıb. Bu baxımdan Qobustanda 45 nömrəli daşın cənub üzündə boynuna ip bağlanmış öküz təsviri böyük maraq doğurur. Ancaq bu daşın arxa üzündə təsviri eyni texniki üslubda işlənmiş öküz ovlanma səhnəsində təsvir olunmuşdur. Bir qrup ovçu öküzlərə ox atır. Neolit dövründə Qobustanda ovçuluq, balıqçılıq və yığıcılıq böyük rol oynayır və əsas təsərrüfat sahələri olaraq qalırdı.



downloaded from KitabYurdu.az

O dövrdə Qobustan əlverişli təbii şəraitə malik idi. Burada yerli əhalinin ov etməsi üçün çoxlu öküz, bezoar keçisi, ceyran və gur sürüləri dolaşırdı.

Qobustanda Anazağa və Kənizə düşərgələri ətrafında və onların içərisində çoxlu kasavari yalaqlara rast gəlinmişdir. Onlar əsil tərpənməz qablardır. Bu konusvari yalaqlar yağış sularının, qurban qanının yığılması və şübhəsiz, duru xörəklərin hazırlanması üçün istifadə edilirdi. Bunun üçün ocaqda qızarıncaya qədər qızdırılmış çay daşları yalağa atılır və oradakı mayeni bişirirdi. Düşərgələrdə odda yanıb qızarmış çaydaşı qırıqlarının ocaq və yalaqlar ətraflarında tapılması belə fikri təsdiq edir.

Bəlkə də təsadüfi deyil ki, Qobustanda Anazağa Neolit dövrü təbəqəsindən tapılan gil qab formaca yalağı xatırladır. Qabın oturacağı yalaq kimi konusvari sivri, boğazı yüngülcə yığıq, gövdəsi yuvarlaq, üzəri otla hamarlanıbdır.

Bu qab üzərinin naxışlarına görə Qərbi Zaqafqaziyanın qədim gil qablarına, ümumi görünüşcə isə Xəzərin o tayındakı (Qobustanla üzbəüzdə) Cebel mağarasından tapılmış sivri oturacaqlı gil qaba oxşayır. Neolit dövrü adamının təbiəti dərk etməsi və onun ehtiyat mənbələrinə yiyələnməsi yolunda gil qabların ixtirası əhəmiyyətli addım idi. VII minillikdə Zaqros zonasında dulusçuluq mərkəzləri yaranır. Urmiya gölü ətrafı neolit abidələrindən də orijinal gil qab nümunələri tapılmışdır.

Azərbaycanda neolit dövrünün əkinçi-maldar əhalisinin yaşayış yerləri hələlik az öyrənilmişdir. Bu dövr və onun eneolit dövrünə keçid mərhələsinə aid materiallar Ağstafa rayonunda Töyrətəpə, Qarğalar təpəsi və Şomutəpə, Qazax rayonunda Qiyaməttəpə, Naxçıvanda Kültəpə yaşayış yerlərinin alt təbəqələrindən aşkar edilmişdir. Onlar çaxmaq və dəvəgözü daşından çoxlu qəlpələr, bıçaqvari lövhələr, qaşovlar, dən daşları, dəstəklər, yığma oraq dişləri, maral buynuzu və iri heyvanların kürək və lülə sümüklərindən hazırlanmış toxalar və s.-dən ibarətdir. Bəzi daş alətlərin tiyəsi artıq cilalanmış, bəziləri dəstək üçün deşilmişdir.

**İctimai quruluş.** Mezolitdən neolitə keçidlə insan həyatında inqilabi səciyyə daşıyan və cəmiyyətdə dərin ictimai nəticələrə gətirib çıxaran köklü dəyişikliklər baş verir.

Bu dövrdə insanların imkanları ölçülməz dərəcədə artır, onların fəaliyyət dairəsi genişlənir, yerli ehtiyat mənbələrinin istismarı güclənir və təbii sərvətlərin istifadə üsulları formalaşır; canlı aləmin və insanın özünün dəyişilmə prosesi sürətlənir. Qəbilələrarası əlaqələr güclənir, mübadilə fəallaşır, müxtəlif mədəni və başqa nailiyyətlərin uzaq məsafələrə aparılması və yayılması genişlənir. Dövrün yaranmağa başlayan erkən əkinçi məskənlərinin xarakteri və miqyası əhali artımını aydın əks etdirir. İstehsaledici təsərrüfatın tətbiqi ilə insanların sərbəst vaxtları artır. Bu vaxtlar mənəvi aləmin və idrakın inkişafına, əqlə müvafiq biliklərin əldə edilməsinə sərf olunur və bu, həm əmək fəaliyyətində, həm də incəsənətdə müşahidə olunur.



downloaded from KitabYurdu.az

İstehsaledici təsərrüfata keçid ənənəvi ovçu-yığıcı kollektivləri cəmiyyətində müəyyən yenilik yaradır və əməyin təşkilində prinsipial dəyişikliklərə səbəb olur. Təsərrüfatın yeni formaları (əkinçilik və maldarlıq) mənimsənilir, yeni istehlak predmetlərinin tətbiqi ilə əlaqədar prinsipcə tamam başqa olan əmək təşkili şəraitinə əsaslanan yeni istehsal növləri (toxuculuq, dulusçuluq, yundan və bitki lifindən məmulat hazırlama və s.) meydana gəlir.

"Neolit inqilabı"nın mahiyyəti, əlbəttə, təkcə yeni təsərrüfat formalarının və yeni iş növlərinin sadəcə yaranmasında yox, istehsalatın təşkili, tərkibi və quruluşunda prinsipial dəyişikliklərdə və ictimai əməyin məğzindədir. Bu dövrdə istehsalın tarixən daha mütərəqqi təşkili yaranır.

Bütün bunlar, əlbəttə, ictimai münasibətlərdə öz əksini tapmaya bilməzdi. Mezolit-neolit cəmiyyətinin dərinliklərində baş verən əkinçilik və maldarlığa keçid prosesi hazır izafi məhsulu yaratdı ki, bu da bəşəriyyət qarşısında ibtidai icma quruluşunun məhvinə yol açdı. Ancaq Qobustan düşərgələrində və Cənubi Azərbaycanın neolit məskənlərində yaşayan kiçik və yaxud cüt nikah ailələrindən ibarət nəsli icmaların sosial quruluşu, çox güman ki, hələ ibtidai icma münasibətlərinə tamamilə müvafiq idi. Evlərin, qəbirlərin, avadanlığın yeknəsəqliyi ailələr arasında təsərrüfat və mülki fərqlərin hələ olmadığını göstərir. Düzdür, Qobustanda Son Neolit dövrünə aid qəbirdən daş toppuz tapılmışdır. Bu, çox güman ki, ibtidai icma quruluşu şəraitində icma başçılarının meydana çıxmasını göstərən amildən başqa bir şey deyildir.

Qobustanda mezolit və neolit düşərgələri uzunmüddətli idi. Onlar sahəcə kiçikdir və bir-birinə yaxın məsafədə yerləşirlər. Görünür, bu düşərgələrdə aralarında sıx istehsal və sair əlaqələr olan qohum qəbilələrin kiçik qrupları yaşayırmış.

Ehtimal etmək olar ki, Qobustan düşərgələrində yaşayan sakinlər vahid (nəsli) icmalardan ibarət idi. Arazın o tayındakı ayrı-ayrı yaşayış yerlərinin sakinləri haqqında da eyni sözü demək olar. O dövrdə cəmiyyətin əsas özəyini kollektiv təsərrüfat aparan nəsli icmalar təşkil edirdi.

Nəslin davam etdiricisi ananın qabaqkı bütün dövrlər ərzində olduğu kimi mövqeyi olduqca böyük idi. Bu, təkcə qadının bir çox hallarda kişi ilə birlikdə ov edən (bu, bir çox qəbilə və xalqlarda, həm də Qobustanda müşahidə olunmuşdur) bərabər hüquqa malik icma üzvü olması ilə yox, onun icmanın ən dayanıqlı özəyi, ənənələri qoruyan, evi quran və ev peşəkarlığında məşğuliyyəti ilə izah olunur. Azərbaycanda Mezolit-Neolit dövründə qadına pərəstişin mövcud olduğunu Qobustan petroqlifləri və oradan tapılan qadın fiqurları sübuta yetirir.

Lakin qadının yüksək mövqeyi, ona pərəstiş, matrilokal, ana xətti ilə münasibətlər və s. heç də qadın hökmranlığının - gineykokratiyanın və yaxud matriarxatın mövcud olmasını sübut etmir.



downloaded from KitabYurdu.az

Qadının cəmiyyətdə yüksək mövqeyi Mezolit-Neolit dövrünün qurtarması ilə tədricən zəifləyir. Ana nəsli tezliklə ata nəsli ilə əvəz olunur, yeni dövr başlanır.

Beləliklə, istehsaledici təsərrüfat dövründə insanın həyatının bütün sahələrini əhatə edən xeyli əhəmiyyətli yeniliklərə və dəyişikliklərə baxmayaraq, ibtidai icma quruluşu dövrünün kollektiv münasibətləri hələ də davam edirdi.

**Mənəvi mədəniyyət.** Mezolit dövründə, bəlkə daha da əvvəllərdə Azərbaycanda yaşayan insanlar fiziki tipinə görə müasir əhaliyə qohum olmuşdur. Şübhə yoxdur ki, Qobustanda Mezolit-Neolit mədəniyyətinin yaradıcıları Azərbaycanın yerli qəbilə və qəbilə qrupları olmuşdur.

Əldə edilən çoxlu faktik dəlillər göstərir ki, o dövrün insanları yaşayır, yaradır, o cümlədən bəzəyə, incəsənətə və s. az vaxt sərf etmirdilər.

Azərbaycanın Mezolit-Neolit dövrü əhalisinin mənəvi aləmi haqqında dəfn abidələri, bəzi incəsənət nümunələri, qayaüstü təsvirlər və s. müəyyən təsəvvürlər yaradır. Qobustan düşərgələrində iki dəfn aşkar olunmuşdur. Onlardan biri Firuz, o biri isə Kənizə düşərgəsindədir. Firuz düşərgəsində mezolitin sonuna aid qəbirdə on iri adam və bir uşaq dəfn olunmuşdur. Skeletlər pis vəziyyətdə saxlanmışlar, ölülər qəbrə eyni vaxtda, bükülü vəziyyətdə qoyulmuşdur.

Qəbirdə dəfn olunanların ancaq yoluxma, zəhərlənmə və düşmən əlindən öldüyünü güman etmək olar.

Bu qəbir düşərgənin mədəni təbəqəsində aşkar olunmuşdur. Hələ Paleolit dövründən başlayaraq geniş ərazilərdə müşahidə olunan düşərgədə dəfnolunma ölənlərin diri qohumları, doğma ocaq və s. ilə əlaqədar olması haqqında icma üzvlərinin təsəvvürlərindən xəbər verir. Bütün ölülər daş muncuqlardan boyunbağına malik idilər. Muncuqlar arasında sümükdən düzəldilmiş amulet, iri və xırda heyvan dişindən, donuzun qılınc dişindən, molyusk mərcanqulplarından asmalara da təsadüf olunmuşdur. Bəzək əşyaları içərisində xırda çaydaşından trapesiya, dördbucaqlı və insan ayağı formada üç ədəd amulet də var idi. Bəzək əşyalarından əlavə qəbirdən maral buynuzundan iri yerqazan alət və ya nizə, balıq toru toxumaq üçün sümük alətlər, ucundan deşilmiş daş pərsənglər (yaxud atma silah), balıq vurmaq üçün zərif iynəvari sümük alətlər, asmaq üçün deşiyi olan sümük xəncər tapılmışdır.

Kənizə düşərgəsində aşkar olunan qəbir Neolit dövrünün sonuna aiddir. İki kişi və bir qadın dəfn olunmuş bu qəbirdə yuvarlaq formalı daş toppuz, ağzı cilalanmış daş balta, sümük bizlər, qum daşından seqmentşəkilli iri alət və s. predmetlər var idi.

Məlum olmuş faktlar Azərbaycanın Mezolit və Neolit dövrləri əhalisinin müəyyən dini etiqadlarla əlaqədar əcdadlara sitayişin formalaşdığını göstərir. Qəbirlərdə tapılan əşyalar insanların axirət dünyasına inamı haqqında məlumat verir.

Bu baxımdan Qobustanda qazıntı zamanı üzərində təsvirlər olan bəzi daş məmulatı da maraq doğurur. Çaydaşından hazırlanmış bir sürtgəc şaquli xətlər və xətlər arasında nöqtələrdən ibarət cərgələrlə bəzədilmişdir. Digər sürtgəcdə bəzək



downloaded from KitabYurdu.az

köndələn döymə xətlərdən ibarətdir. Oxun çubuğunu hamarlayıcı alətin biri üzərində heyvan təsviri çəkilmiş və o çoxlu çərtmələrlə naxışlanmışdır. Bəzi qadın və öküz rəsmləri tatuirovka ilə bəzədilmişdir. Rəsmlərin bir qismi qayalara boya ilə çəkilmişdir. Bütün bunlar Qobustanın qayaüstü rəsmləri kolleksiyasında qədim Qobustan sakinlərinin yüksək estetik duyğularını əks etdirən ibtidai incəsənət abidələridir. Rəsmlərdə nəinki təsərrüfat fəaliyyəti, həm də qədim Azərbaycan əhalisinin mənəvi aləmi sahəsində maraq doğuran çoxlu səhnələr təmsil olunmuşdur.

İndiyədək Qobustanda Böyükdaş, Kiçikdaş, Şıxqaya və Şopqar dağları sahəsində və Cingirdağda, Yazılıtəpədə, eləcə də qədim düşərgə, yaşayış yerləri, kurqan və digər abidələrdə qazıntı zamanı qaya və ayrı-ayrı daşlar üzərində altı mindən artıq erkən mezolitdən orta əsrlərin sonunadək geniş tarixi dövrə aid qədim rəsmlər aşkar edilmişdir.

Qobustanın qayaüstü təsvirlərindən beli kəmərçinli, hündür qamətli, aralı qoyulmuş güclü baldırlara malik kişi, iri döşlü, incə belli, iri ombalı, yoğun qıçlı və bəzən bədəni tatuirovka edilmiş qadın təsvirləri, real və mütənasib verilmiş öküz, ceyran və gur rəsmləri, kollektiv rəqs, kollektiv əmək, balıq ovu səhnəsi və gəmi təsvirlərinin bəziləri Mezolit və Neolit dövrlərinə aid edilir.

Kişilərin öndən verilmiş, qadınların oturmuş və yarımoturmuş olmaqla yandan verilmiş siluet təsvirləri Qobustanda ən qədim rəsmlərdir. Qobustanın bəzi insan təsvirləri Qərbi və Şərqi Avropanın paleolit dövrü heykəl və rəsmlərinə yaxındır.

Qobustan qayalarındakı kişi təsvirləri icmanın hörmətli üzvlərinin, cəsur ovçuların və yaxud icma başçılarının şəkilləridir. Qadın rəsmləri, görünür, "nənə"ni, "ana"nı, "qız"ı əks etdirir.

Kişi və qadınlar əsasən düşərgələrdə təsvir olunurdular. O dövrün təsəvvüründə hesab edilirdi ki, guya adam öləndən sonra da ruhən öz tayfası içərisində yaşamaqda davam edir. Ölülərin düşərgələrdə dəfn edilməsi də yəqin ki, bu məqsədi güdür.

Qobustan qayaüstü təsvirləri ayrı-ayrı cadugərlik elementlərinə baxmayaraq, cadugərlik kimi izah edilə bilməz. O dövr adamlarının dünyagörüşləri, birinci növbədə dini təsəvvürləri haqqında Kənizə düşərgəsindən tapılmış iki qadın heykəlciyi qırığı məlumat verir. Onlar əhəngdaşından səliqə ilə hazırlanmışdır. Forma və quruluşuna görə bu fiqurlar Qobustan qayalarındakı qadın təsvirlərini təkrar edirlər. Maral düşərgəsindən tapılmış eyni formalı və ölçülü qadın fiqurunun beldən aşağı hissəsi qırmızı rənglə boyanmışdır.

Fiqurların ikisi yarıoturmuş vəziyyətdədir. Qobustan Mezolit dövrü qaya rəsmləri içərisində belə görkəmdə qadın təsvirləri geniş yayılmışdır.

Məhsuldarlıq təcəssümünü ulu ana obrazında ifadə edən bu qadın fiqurları, şübhəsiz, pərəstiş obyekti rolunu oynamışdır.



downloaded from KitabYurdu.az

Qeyd etmək lazımdır ki, Qobustan incəsənətində qadın təsvirlərinin görkəmində və işlənmə üslubundakı ənənəvi cəhət çox qədimdir. Külli miqdarda analoji materiallar əsasında ehtimal etmək olar ki, heykəlciklər və bu qəbildə işlənmiş qadın rəsmləri ana ilə qohum kollektivin eyniləşdirilməsi haqqında təsəvvürləri əks etdirir. Qadın nəsli davam etdirir, ana kimi əmin-amanlıq yaradır və kollektivi yedizdirir. Bu surət kollektivin qırılmaz əlaqələri, onun daim təkrar istehsalı, fəallığının əsas istiqamətlərini və geniş xarici aləmlə əlaqələrinin səbəblərini qavramaq və izah etmək labüdlüyündən doğmuşdur.

Qədim Azərbaycan əhalisinin dünyagörüşündən danışarkən Qobustan qaya rəsmlərindəki səhnələrə xüsusi diqqət vermək lazımdır. Gec dövr "Yallı" rəqsi səhnəsini özündən yuxarıda verilən qədim qadın təsvirlərinə ilahi qüvvəyə - ana əcdadına sitayiş kimi qəbul etmək lazımdır.

Qobustanın VII-VI minilliklərinə aid qaya rəsmlərində iri döşlü, bütün bədəni tatuirovka ilə örtülmüş qadın təsvirlərinə də rast gəlinir. Bu qadın təsvirlərini məhsuldarlıq rəmzi saymaq olar.

Beləliklə, Azərbaycanda minilliklər ərzində qadına - ulu anaya pərəstiş çox inkişaf etmişdir. Təbii qüvvələrə sitayişi burnunda günəş olan gəmi rəsmləri və astral işarələrdə görmək olar. Öküz və maral təsvirlərinin çoxlu miqdarda olmasına baxmayaraq, öküz sümükləri olduqca az miqdarda tapılmış, ovlanmış maral sümüyünə isə rast gəlmirik. Ceyran və gur sümükləri isə düşərgələrdən əldə edilən osteoloji materialın 70 faizini təşkil etsə də, onların təsvirlərinə nadir hallarda təsadüf olunur. Bu faktların bir qismini qədim Qobustan əhalisinin pərəstiş və totemik görüşləri ilə izah etmək olar. Material göstərir ki, Mezolit-Neolit dövründə formalaşan zəngin maddi və mənəvi mədəniyyət əsasında Azərbaycan əhalisinin yeni, yəni metal dövrünə keçməsinə şərait yaranır.



downloaded from KitabYurdu.az

III FƏSİL

## AZƏRBAYCANDA ENEOLİT DÖVRÜNÜN ƏKİNÇİ-MALDAR TAYFALARI

**Abidələrin icmalı.** Eneolit sözü latınca aenus (mis) və yunanca litos (daş) sözlərinin birləşməsindən ibarətdir. Cəmiyyətin tarixi inkişafının ən mühüm mərhələlərindən birində - Eneolit dövründə insanlar mis külçəsinin döyülmə xassəsini icad edərək ondan əşyalar hazırlamağa başladılar. Mis-daş dövrü daşdan tunca keçid mərhələsi idi. Bəzi ölkələrdə bu mərhələ nisbətən tez, digərlərində isə gec başlanmışdır. Birinci dəfə mis əşyalar Qədim Şərq ölkələrində meydana gəlir. Azərbaycan və bütün Cənubi Qafqaz misişləmə peşəsinə çox erkən yiyələnmiş ölkələr sırasına daxildir. Azərbaycanda Eneolit dövrü eramızdan əvvəl VI minillikdən başlanır və IV minilliyin ortalarına qədər davam edir. Eneolit dövründə iqtisadiyyat və mədəniyyətdə ümumi yüksəliş müşahidə olunur, əkinçilik və maldarlıq təsərrüfatın əsas sahələri olur, əhalinin sayı xeyli artır, əkinçi-maldar qəbilələri geniş ərazilərdə yayılır, qəbilələrarası əlaqələr güclənir. Bu dövrdə Qədim Şərqin bəzi rayonlarında siniflərin və dövlətin meydana gəlməsi üçün zəmin yaranır.

Eneolit dövründə Azərbaycanda oturaq həyat sürən qəbilələr məskən salmışdılar. Əkinçilik mədəniyyəti onlara yaxşı məlum idi. Onlar müxtəlif taxıl növləri becərir, əkin-biçin alətləri hazırlayır, məhsulu yığır, döyür və istifadə edirdilər. Onların sürülərində, demək olar ki, bütün əsas ev heyvanları var idi. Əkinçilik və maldarlıq məhsulları Azərbaycanın Eneolit dövrü qəbilələrinin başlıca ərzaq mənbəyini təşkil edirdi.

Zaqafqaziyada eneolitin öyrənilməsi 50-ci illərdə Naxçıvan şəhəri yaxınlığındakı I Kültəpə yaşayış yerinin qazıntılarından başlandı. Həmin illərdə Mil düzündə aparılan arxeoloji tədqiqat işləri böyük marağa səbəb oldu. Burada aşkar edilən yaşayış yerlərində I Kültəpənin qədim mədəni təbəqəsi üçün səciyyəvi olan saxsı məmulatının varlığı müəyyən edildi. Abidələrdən əldə edilən material Eneolit dövrü mədəniyyətinin Şimali Azərbaycanda böyük ərazidə yayılması və onun Ön Asiya aləmi ilə əlaqəli inkişafını söyləməyə əsas verdi.

60-cı illərdən başlayaraq Mil-Qarabağ düzənliyində Qarqar çayından şimalda yerləşən abidələrin öyrənilməsi göstərdi ki, buradakı erkən əkinçilik mədəniyyətini əks etdirən çoxsaylı yaşayış məskənlərinə Azərbaycanın və bütün Zaqafqaziyanın digər vilayətlərində rast gəlinməmişdir. Zaqafqaziyada eneolit mədəniyyətinin lokal xüsusiyyətlərinin, əlaqələrinin və qarşılıqlı təsirlərin, xronoloji məsələlərin öyrənilməsində Ağdam rayonunda Çalağantəpə, İlanlıtəpə və Leylatəpə qazıntılarından əldə edilən məlumatlar mühüm əhəmiyyət kəsb edir.



downloaded from KitabYurdu.az

Eneolit yaşayış yerlərinin bir qrupu da Muğanda Cəlilabad rayonu ərazisində aşkar edildi və 1971-ci ildən Əliköməktəpə yaşayış yerində qazıntı işləri aparıldı.

Cənubi Azərbaycanda, xüsusi ilə Urmiya gölü rayonunda bir neçə erkən əkinçilik mədəniyyəti abidələri öyrənildi. Həsənli, Hacı Firuz, Dəlmətəpə və s. abidələrdə erkən əkinçi mədəniyyəti qalıqları aşkar olundu. 1948-ci ildə Urmiya gölünün qərb sahilində Göytəpə yaşayış yerində İlk Tunc dövrü təbəqəsindən altda eneolit və daha qədimə aid mədəni təbəqənin varlığı müəyyən edildi.

Sonralar eyni vəziyyətə Urmiya gölünün şərqində Yanıqtəpə yaşayış yerində rast gəlindi. Ancaq Cənubi Azərbaycanın həmin bölgələrdəki abidələri öz xüsusiyyətlərinə görə fərqlənirlər, bu isə eramızdan əvvəl VI-IV minilliklərdə burada bir neçə lokal əkinçi mədəniyyətlərini ayırmağa əsas verdi.

Azərbaycan və bütün Cənubi Qafqaz ərazisində Kür çayının orta axarında aşkar edilən eneolit yaşayış yerlərinin çox böyük əhəmiyyəti oldu. Ötən əsrin 50-70-ci illərində Şəmkir və Qazax rayonlarında çox maraqlı eneolit abidələri tədqiq edilib öyrənildi. Bunlardan birinci növbədə Şomutəpə, Töyrətəpə, Babadərviş, Qarğalartəpəsi, Rustəpəsi, Keçili və s. yaşayış yerlərini göstərmək olar.

Topoqrafik, memarlıq və mədəni qalıqların xarakterinə görə eyni tipli yaşayış yerləri Gürcüstanın Azərbaycanla qonşu rayonlarında da, xüsusən, Marneuli düzənliyində tapılmış, ilk dəfə Şomutəpə mədəniyyəti altında qeyd olunan bu yaşayış məskənləri çox güman ki, Ön Asiya - Qafqaz aləminin şimal həndəvərində yayılmış ən qədim əkinçi qəbilələrin vahid etno-mədəni mənsubiyyətini əks etdirir.

Cənubda, xüsusən Naxçıvan ərazisində, Mil, Qarabağ və Muğan düzlərində yayılmış abidələr I Kültəpə tipli mədəniyyəti əks etdirir və görünür, eneolit dövrünün başqa etno-mədəni şaxəsini təşkil edir.

80-ci illərdə Ağdam rayonundakı Leylatəpə yaşayış yerində aparılan tədqiqatlar göstərdi ki, eramızdan əvvəl IV minilliyin başlanğıcında Azərbaycanın Qarabağ düzənliyinə Mesopotamiyanın Obeyd mədəniyyəti ilə oxşar mədəniyyətə malik qəbilələr köçmüşlər. Onlar Zaqafqaziyaya bir sıra mədəni və texniki yeniliklər, o cümlədən metaləritmə istehsal üsulunu gətirmişlər.

Beləliklə, XX əsrin ikinci yarısında aparılan arxeoloji tədqiqatlar Azərbaycan ərazisində istehsal təsərrüfatının inkişaf mərhələsini əks etdirən Eneolit dövrünün varlığını və bu dövrün Azərbaycan tarixində fərziyyə olması fikrinin əsassız olduğunu sübuta yetirdi.

**Eneolit yaşayış yerləri.** Zaqafqaziyada 150-dən artıq Eneolit dövrü yaşayış yeri müəyyən edilmişdir. Onların əksər hissəsi Azərbaycan ərazisindədir. Tədqiqatlar Eneolit dövründə oturaq qəbilələrin çox geniş əraziyə yayılmasını göstərsə də, Zaqafqaziyada qədim yaşayış yerləri müəyyən rayonlarda, başlıca olaraq Kür çayından cənubda məhsuldar düzənlərdə yerləşir.



downloaded from KitabYurdu.az

Azərbaycanın erkən əkinçiləri adətən su hövzələri kənarlarında məskən salırdılar. Mil-Qarabağ düzənliyində, xüsusən Qarqar və Xaçın çayları arasında çoxsaylı qədim yaşayış yerləri cəmləşir. Burada yerdənçıxan suların ətrafında salınmış yaşayış yerləri az deyil. Çox güman ki, Mil düzü Eneolit dövründə indiki kimi susuz ərazi deyildi, insanların yaşaması üçün orada şərait daha əlverişli olmuşdur. Daimi axar sular, münbit torpaq və başqa amillər ərazinin mənimsənilməsinə və burada ilk əkinçi mədəniyyətinin inkişafına imkan vermişdir.

Muğanda eneolit yaşayış məskənləri bilavasitə kiçik çayların (İncəçay, Mişarçay), qədimdə axar sulu dayaz dərələrin, bəzən də bulaqların kənarlarında cəmlənmişdir. Cənubdan Kiçik Qafqaz dağları, şimaldan Kür çayı ilə araya alınmış Gəncə-Qazax düzənliyində eneolit yaşayış yerləri əksər halda düzənliyin orta hissəsində, hazırda qurumuş çay yataqları kənarlarında yerləşirlər.

Əkinçi-maldar qəbilələrin tutduğu ərazilər sonralar müəyyən vaxt ərzində boş qalmış və ya az məskunlaşmışdır. Bu rayonlarda eneolit dövrünün sonlarında yaşayışın kəsilməsi, ehtimal ki, quraqlıq dövrünün başlanması və axar suların quruması ilə bağlı idi.

Azərbaycanın eneolit yaşayış yerləri adətən kiçik olub, orta hesabla 0,5 ha sahəni tutur, ancaq nisbətən iri (2-4 ha) sahəli abidələr də vardır. Ən qalın mədəni təbəqəyə malik yaşayış yerlərinin hündürlüyü 10 metrdən artıq deyil. Bir qayda olaraq bütün yaşayış yerlərində tikintilər çox sıxdır. Qarqartəpəsi yaşayış yerində tikintilərin birinin divarları ağardılmışdır. Gəncə-Qazax və Qarabağ düzlərinin yaşayış yerlərindən fərqli olaraq Naxçıvanda Kültəpə yaşayış yerinin eneolit dövrü təbəqəsində möhrə divarlar gil palçıqla bərkidilmiş daş bünövrə üzərində hörülmüşdür. Urmiya gölü sahilində Göytəpə eneolit yaşayış yerində kərpic divarlar daş bünövrə üzərində qurulmuşdur. Urmiya gölü rayonunda çiy kərpic memarlığında Zaqafqaziyadan fərqli başqa tikinti ənənəsi yayılmışdır. Burada bütün tikililər düzbucaqlı formadadır. Belə tikililər Muğanda Əliköməktəpə yaşayış yerində çoxdur və Azərbaycanın Uımiyaətrafı rayonunun memarlığına yaxındır. Məsələn, Əliköməktəpə yaşayış yerində evlər düzbucaqlı formada, iki-üç otaqdan ibarətdir, evlərə adətən kiçikhəcmli dördkünc kameralar birləşir. Belə tikintilər vahid təsərrüfat-məişət kompleksi təşkil edirdi. Evlərin divarları iki cərgə kərpicdən hörülürdü. Bu yaşayış yerinin yalnız tək-tək tikintiləri dairəvi plana malik idi. Burada həm də bir dairəvi planlı qazma otaq var idi. Onun ağardılmış divarında boya ilə çəkilmiş həndəsi nəqşin izləri qalmışdır.

Naxçıvan ərazisində Kültəpə yaşayış yerinin eneolit təbəqəsinin alt qatlarında düzplanlı, orta qatda dairəvi və düzplanlı, son mərhələdə üst qatlarda isə yalnız düzplanlı tikinti qalıqlarına rast gəlinmişdir. Son dövrdə böyük ölçüdə inşa edilən tikinti divarlarının qalınlığı 1 m-ə çatırdı.



downloaded from KitabYurdu.az

Qarabağ düzənliyində Çalağantəpə və İlanlıtəpə yaşayış yerləri məsafəcə yaxın və oxşar mədəniyyətə mənsub olsalar da, memarlıq xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Çalağantəpədə bütün tikintilər dairəvi planda bir cərgə kərpicdən hörülmüş, bəzən də daxildən ağardılmış və boya ilə naxışlanmışdır. İlanlıtəpədə tikintilər əsasən düzplanlı olsa da, orada dairəvi və yarımdairəvi planlı tikililər də olmuşdur. Tikililərin döşəmələrinə bəzən boya qatılmış gil suvaq çəkilmiş, divarlarda boya ilə naxış vurulması qeydə alınmışdır. Orada gipslə suvanmış sahələrə də rast gəlinmişdir. Ağdam rayonunda Xındırıstan kəndi yaxınlığında Leylatəpə yaşayış yerinin sakinləri çiy kərpicdən yalnız düzplanlı evlər və təsərrüfat binaları tikirdilər.

Qərbi Azərbaycanın və onunla qonşu Gürcüstan rayonlarının erkən əkinçi yaşayış yerlərində bir cərgə kərpicdən hörülmüş dairəvi planlı tikililər əsas yer tuturdu.

Beləliklə, Eneolit dövründə Azərbaycan ərazisində həm dairəvi və həm də düzplanlı yaşayış evləri və təsərrüfat tikililəri inşa edilirdi. Əgər bəzi rayonlarda dairəvi planlı, başqalarında düzplanlı tikililər üstünlük təşkil edirdisə, üçüncülərdə hər iki tikinti forması eyni vaxtda mövcud olmuşdur. Mərkəzi Zaqafqaziyada dairəvi planlı memarlıq Kür çayından Araza qədər geniş yayıldığı halda, Muğan və Urmiya vilayətlərində əsasən düzplanlı evlər inşa olunmuşdur.

**Təsərrüfat.** Azərbaycanın əlverişli təbii şəraiti istehsal təsərrüfatına yiyələnmiş düzən rayonların sakinlərinə davamlı oturaq həyat tərzi keçirməyə imkan verirdi. Eneolit yaşayış yerlərində əkinçilik təsərrüfatı ilə əlaqədar materiallar əldə edilmişdir. Buraya, hər şeydən əvvəl, torpağın becərilməsi, taxılın biçilməsi və dənin döyülməsində istifadə edilən alətlər və həm də kömürləşmiş taxıl dənləri daxildir. Əkinçilik məhsulları saxlanılan xüsusi tikililər də aşkar edilmişdir. Çalağantəpədə kərpicdən hörülmüş anbarlardan birində çoxlu miqdarda yanıb kömürləşmiş buğda və arpa tapılmışdır. Azərbaycan sakinləri yumşaq və bərk buğda, mədəni ikicərgəli və çoxcərgəli arpa, həm də iki cərgəli yabanı arpa becərirdilər. Tək-tək çovdar dəninə də rast gəlinmişdir. Şomutəpə yaşayış yerindən Azərbaycanda ən qədim üzüm çəyirdəyi tapılmışdır. Eneolit dövründə iqlim dəmyə əkinçiliyi üçün indikindən daha yararlı idi. Bununla belə düzən ərazisində oturaq həyat tərzi başlanan dövrdən oranın əhalisi su arxları çəkmək və tarlaları suvarmaq üsuluna bələd idilər. Qədim əkinçilərin yerqazma, şumlama aləti toxa olmuşdur. Toxalar maral buynuzundan, iribuynuzlu heyvanların qıç və kürək sümüyündən düzəldilirdi. Şərqi Zaqafqaziyanın, xüsusən Gəncə-Qazax düzənliyinin erkən əkinçilik məskənlərindən çoxlu miqdarda toxanın tapılması eneolit dövründə toxa əkinçiliyi mədəniyyətinin çiçəklənməsini sübut edir. O vaxt xış hələ məlum deyildi. Ön Asiya ölkələrində, o cümlədən Mesopotamiyada da eramızdan əvvəl IV minilliyə qədər xışdan istifadə olunmurdu. Öyrəndiyimiz dövrün biçin alətləri yaxşı məlumdur. Onlar başlıca olaraq yığma oraqlardan ibarət idi. Oraqların dəstəyi və işlək hissəsi bütöv bir ağac qələmindən düzəldilirdi. Onun bir



downloaded from KitabYurdu.az

ucunda əl yeri qoymaqla qalan hissədə novçavari yarıq açaraq oraya çaxmaq və ya dəvəgözü daşından lövhə dişlər düzülürdü. Dişlər ağac oraqlara qətran vasitəsilə bərkidilirdi. Başqa cür oraqlar da məlumdur. Məsələn, Şomutəpədə öküzün çənə sümüyündən, Naxçıvan Kültəpəsində isə buynuzdan düzəldilmiş oraq tapılmışdır. Məlum olan ən qədim biçin alətləri içərisində Muğanda Əliköməktəpə yaşayış yerində öküzün kürək sümüyündən düzəldilmiş oraqlar da vardır. Onların mişarvari düzəldilmiş ağız hissəsində biçin prosesində əmələ gəlmiş parıltı aydın bilinir.

Eneolit dövrü yaşayış yerlərində əkinçilik təsərrüfatı ilə bağlı olan xeyli daş həvəng, daş dəstək, dən daşları və sürtgəclərə təsadüf olunur. Taxılı iri küplərdə, həm də evlərin yaxınlığında kərpicdən hörülmüş anbarlarda saxlayırdılar.

Eneolit dövründə əhalinin təsərrüfatında əkinçiliklə bərabər heyvandarlığın da böyük rolu olmuşdur. Yaşayış yerlərində bəzən topa şəklində çoxlu heyvan sümüklərinə təsadüf edilmişdir. Əliköməktəpə yaşayış yerində bir sümük topasında öküz və ata aid qırx kürək sümüyü, dörd at, beş öküz kəlləsi və ev heyvanlarının xeyli başqa sümükləri var idi.

Həmin dövrdə yerli əhalinin heyvan sürülərində müxtəlif cins öküz və qoyunun varlığı maldarlığın artıq yüksək inkişaf səviyyəsinə çatdığını sübuta yetirir. Ev heyvanları içərisində donuz da var idi. Bəzi yaşayış yerlərinin, məsələn, Çalağantəpənin osteoloji materiallarına görə o, heyvandarlıqda hətta əsas yerlərdən birini tuturdu. Yalnız Muğanda Əliköməktəpə yaşayış yerində ev atının sümükləri tapılmışdır. Bu, nəinki Qafqazda, hətta bütün Avrasiyada ev atı haqqında ən qədim məlumatdır. Muğan düzü dünyada ev atının istifadə edildiyi ən qədim yaşayış yerlərindən biri olmuşdur.

Eneolit dövründə ev heyvanlarını başlıca olaraq ət məhsulu əldə etmək üçün saxlayırdılar. Ətraf mühitdən əlavə qida məhsulları almaq bu dövrdən insanların yardımçı peşələrindən birinə çevrilir. Bu məqsədlə əhali ceyran, quş, balıq və su quşları ovlayırdı.

Azərbaycanın eneolit qəbilələrinin süd məhsulları, o cümlədən yağ hazırlamasını göstərən birbaşa dəlillər olmasa da, onların bəzi süd məhsulları istehsalından xəbərdar olmasını güman etmək olar.

Beləliklə, qeyd olunan dəlillər göstərir ki, Azərbaycan ərazisində Eneolit dövrü qəbilələrinin təsərrüfatının əsasını artıq inkişaf etmiş əkinçilik və maldarlıq təşkil edirdi.

**Ev sənətkarlığı.** Eneolit dövründə sənət sahələri daha çoxcəhətli olur. Daş və sümük əşyaları hazırlama, dəriişləmə kimi ənənəvi peşələrlə yanaşı, yeni istehsal sahələri inkişaf edir. Burma və cilalanma texnikası tətbiq olunur. Ağacişləmə sənətinin inkişafı ilə əlaqədar daş baltaların cilalanması və itilənməsi geniş yayılır. Daş baltalar vasitəsilə toxa və bir çox başqa alətlərə sap hazırlanırdı. Daş toppuzların cilalanması və onlarda dəstək yerinin deşilməsi təcrübə və ustalıq vərdişi tələb edirdi.



downloaded from KitabYurdu.az

Ağstafanın Aşağı Göycəli kəndində Töyrətəpə eneolit yaşayış yerində bir otaqda döşəmə üzərində nəhəng daş həvəng, zərbə daşı, parçalanmış daşlar, çoxlu sümük, o cümlədən yarımçıq qalmış sümük-məmulat, həm də alətlər üçün tədarük materialı tapılmışdır. Oradaca doqquz sümük toxa, maral buynuzundan ikideşikli boru, sümük qaşıq, beşdişli oraq, iki dən daşı və qaşıqvari sümük əşya var idi. Bu otaq, çox güman ki, sümük və başqa məmulat hazırlanan emalatxana olmuşdur. Dəri işləmə və dəri məmulatı hazırlama peşəsi də inkişaf etməkdə idi. Bir qayda olaraq dövrün yaşayış yerlərində külli miqdarda sümük bizlər tapılır. Bunlar isə dəridən paltar, ayaqqabı və başqa əşyaların geniş istehsalını sübut edir. Əliköməktəpədən tapılan boğazlı çəkmə formasında gil qab dəridən ayaqqabı hazırlanması ehtimalını yəqinliklə söyləməyə imkan verir.

Eneolit dövrünün son mərhələsinə aid bəzi abidələrdə Azərbaycanda toxuculuq peşəsinə aid daşdan, sümükdən və gildən iy başlıqlarına və çox zərif parça izlərinə rast gəlinmişdir.

Eneolit dövrü əhalisi daha çox qamışdan həsir, səbət və başqa məmulat hazırlayırdı. Evlərin döşəmələrində tez-tez həsir qalıqlarına rast gəlinir. Bəzən ölülərin də həsirə bükülməsi halları müşahidə olunmuşdur. Oturacaqlarında toxuma izləri qalmış gil qablara Azərbaycanın bir sıra rayonlarında rast gəlinmişdir.

İstehsaledici təsərrüfatın yaranma və inkişafı dövründə ev sənətkarlığında dulusçuluq xüsusi yer tuturdu. Əhalinin artmaqda olan tələbatı gil qab istehsalını çoxaltmaq zərurətini doğururdu, bu isə təbii olaraq xüsusi dulus kürələrinin hazırlanmasına səbəb olurdu. Belə kürələrin qalıqları I Kültəpədə, Şomutəpədə, İlanlıtəpədə, Əliköməktəpədə, Çalağantəpədə aşkar olunmuşdur. İkiyaruslu kürələrin varlığı da müəyyən edilmişdir. Aşağı yarus kamerasında yanacaq yığılır, üst yarusda isə gil qablar qoyulurdu. Yanacaq kamerasının külfələri və damındakı gözlər vasitəsilə alov gil qablar düzülmüş üst kameraya daxil olur. Belə kürələrdə qab-qacaq, həm də, yəqin ki, iri təsərrüfat küpləri bişirilirdi.

Qablar əldə hazırlanırdı, formaca onlar məhdud, əsasən, qalındivarlı, kobud işlənmiş və bişmə keyfiyyətləri də çox yüksək deyildir. Bəzi iri təsərrüfat küplərində qulpu əvəz edən qulaqcıqlar (çıxıntılar) vardır. Yalnız Əliköməktəpə yaşayış yerində adi qulpları olan kuzələr əldə edilmişdir.

Şərqi Zaqafqaziya dulusçuluq sənətində iki müstəqil zonaya ayrılır. Onlardan biri Kür vadisini, onun orta axınını, o biri isə cənub düzən rayonlarını əhatə edir.

Kür vadisinin qabları bir qayda olaraq qısa dabanlı, rəngləri tutqun, qonur, üzərləri yüngülcə sığallı və yapma konusvari, qabarıq yapma xətlər və fiqurlarla bəzədilmişdir. Gilin tərkibinə qum, daş və saxsı xəkəsi qatılmışdır. Zaqafqaziyanın cənub rayonlarının saxsı məmulatı isə geniş oturacaqlı, açıq qırmızı rəngli, gilində bitki qatışığı, üzərinə şirə (anqob) çəkilmiş və cilalıdır. Naxış boya ilə vurulub, bəzən yapma bəzəklərə rast gəlinir.



downloaded from KitabYurdu.az

Azərbaycanın Urmiya gölü ətrafı vilayətlərinin saxsı məmulatı bir qədər müxtəlifliyi və texniki mükəmməlliyi ilə seçilir. Orada Dəlmətəpə yaşayış yerinin dulusçuları yüksək ustalığa nail olub, gözəl boyalı qablar hazırlayırdılar. Boyalı qabların ən qədim nümunələri e.ə. VI minillikdə Hacı Firuz yaşayış yerindən əldə edilmişdir.

Eramızdan əvvəl IV minilliyin birinci yarısında gil qabların hazırlanmasında fırlanan primitiv dəzgahdan istifadə olunması Azərbaycanın dulusçu sənətkarlığında tamamilə yeni mərhələ idi. Qablar yüksək keyfiyyəti, çox müxtəlifliyi ilə seçilir. Ağdam rayonunda Leylatəpə yaşayış yerindən alınan məlumata görə, bu dövrün qabları dairəvi planlı ikiyaruslu dulus kürələrində bişirilirdi. Eneolit dövrünün daha qədim yaşayış yerlərinin dulus kürələri isə uzunsov oval formada olmuşdur.

Zaqafqaziyanın Eneolit dövrü əhalisinin metalla tanışlığı barədə tapılmış mis əşyalara görə mühakimə yürütmək olar.

Qazax rayonunun Qarğalartəpəsi yaşayış yerindən mis lövhədən hazırlanmış muncuq, Əliköməktəpədən iki mis muncuq və biz, Urmiya rayonunda Göytəpədən isə üç mis əşya qırığı tapılmışdır. Göytəpə tapıntılarından biri bıçaq tiyəsinin hissəsidir.

Nisbətən çox metal, o cümlədən üç mis - mərgmüş qatışıqlı əşya I Kültəpənin ən qədim mədəni təbəqəsindən məlumdur. Buradan dördtilli biz, rombvari lövhə, iki muncuq və üç naməlum əşya qırığı əldə edilmişdir. Leylatəpə yaşayış yerindən isə daha çox metal, o cümlədən mismərgmüşnikel qatışıqlı əşya, ən başlıcası isə, Qafqazda metal əritməyə aid ən qədim maddi qalıqlar tapılmışdır.

**Əlaqələr.** Azərbaycanın erkən əkinçi mədəniyyətinin inkişafı Qafqazın və Ön Asiyanın qonşu rayonları ilə təmasda və qarşılıqlı əlaqədə keçmişdir. Mərkəzi Zaqafqaziyanın ən qədim yaşayış yerlərində dairəvi planlı kərpic tikililər inşaatda ənənəvi formanı təşkil edir. Eyni vaxtda belə tikililər Şimali Mesopotamiyada geniş, yayılmışdır. Dairəvi planlı çiy kərpic memarlığını Yaxın Şərqdə yayan Xalaf mədəniyyəti qəbilələri olmuşdur.

Xalaf qəbilələrinin tarix səhnəsinə çıxması ilə Ön Asiyada əlaqələr, etno-mədəni proseslər nəzərə çarpacaq dərəcədə genişlənir.

Zaqafqaziyanın, o cümlədən Azərbaycanın eneolit qəbilələrinin dairəvi planlı tikililəri ilə Xalaf qəbilələri tikililəri arasındakı münasibəti konkret izah etmək çətindir. Ancaq güman etmək olar ki, həmin regionların inşaatında yeni formalı tikililərin geniş yayılması müəyyən qarşılıqlı əlaqələrin nəticəsində mümkün olmuşdur.

Arxeoloji materiallar göstərir ki, Azərbaycan qəbilələri ilə Mesopotamiya qəbilələri arasında əlaqələr bütün Eneolit dövrü ərzində olmuşdur. Belə ki, Naxçıvanın Kültəpə yaşayış yerinin qədim mədəni təbəqəsindən Cənubi Qafqazın Xalaf mədəniyyəti sakinləri ilə əlaqələrin ilkin çağlarını əks etdirən boyalı Xalaf çölməkləri tapılmayıbdır.



downloaded from KitabYurdu.az

Azərbaycanın Mesopotamiya ilə sonrakı (V minilliyin sonu, IV minilliyin əvvəli) əlaqələri Obeyd mədəniyyəti materiallarında öz əksini tapmışdır. Obeyd boyalı qab nümunələri Cənubi Azərbaycanda Urmiya gölünün hövzəsində, həm də Qafqaz yaşayış yerlərindən tapılmışdır. Uzunmüddətli əlaqələr və təmas nəticəsində Azərbaycan Obeyd qəbilələri üçün tanınan bir ölkə olmuş və yəqin ki, onların diqqətini cəlb etmişdir. Qarabağ düzənliyində Xındırıstan kəndi yaxınlığındakı Leylatəpədə memarlıq formaları, dulusçuluq kürələri, dulus məmulatı bu ərazidə əsrlərlə davam edən yerli mədəniyyətdən tamamilə fərqlənir. Bir sıra faktik dəlillər (iki boğazlı qablar, boğazlarında üfüqi gözlər olan küpələr və s.) Şimali Mesopotamiyanın, məsələn, 3-cü Yarımtəpə Obeyd yaşayış yerində eyni ilə təkrar olunur. Belə vəziyyət isə eramızdan əvvəl IV minilliyin birinci yarısında Qarabağ düzənliyində bina salmış qəbilələrin Mesopotamiyadan köçməsinə şübhə yeri qoymur.

Eneolit dövründə əlaqələrin istiqaməti tək Mesopotamiya ilə bitmirdi.

Arxeoloji materiallar Azərbaycanın şərq və cənub vilayətlərlə əlaqələrini müəyyənləşdirməyə imkan verir. Bu cəhətdən bəzək əşyalarının xüsusi əhəmiyyəti vardır. Kültəpə və Çalağantəpə qəbirlərində bəzi daş növlərindən hazırlanmış muncuqlar, şəksiz, buraya gətirilmədir. Firuzə daşından muncuqlar bu qəbildəndir. Firuzə daşı qədimdə Əfqanıstan və Şərqi İrandan Ön Asiyanın bir çox rayonlarına yayılırdı.

Kültəpə, Çalağantəpə və başqa yaşayış yerlərinin sakinləri sümükdən və daşdan bəzək hazırlama məharətinə malik idilər. Ancaq bəzi qəbirlərdən mindən artıq muncuğun tapılması onların qonşu ölkələrdən mübadilə məqsədi üçün gətirilməsini söyləməyə əsas verir. Çalağantəpədə bir uşaq qəbrindən tapılan iki mindən artıq muncuğun 1580 ədədi sədəfdən düzəldilmişdir. Başqa qəbirlərdə də belə, həm də qara, boz rəngli bərk daşdan çox zərif işlənmiş cilalı muncuqlara rast gəlinmişdir. Görünür, harada isə cənubda, dənizsahili rayonlarda mübadilə üçün sədəfdən külli miqdarda muncuq hazırlanırmış.

Eneolitin son dövründə Azərbaycan qəbilələri Ön Asiyanın qonşu rayonlarının əhalisi ilə nisbətən intensiv əlaqələrdə olmuşdur. Mövcud əlaqələr bəzən Mesopotamiyadan Azərbaycana ayrı-ayrı qəbilə qruplarının köçməsinə gətirib çıxarırdı.

**İctimai münasibətlər.** İbtidai icma quruluşunun, o cümlədən erkən əkinçilik dövrünün əsasını istehsal vasitələri üzərində ictimai mülkiyyət təşkil edirdi. Azərbaycanda erkən əkinçi cəmiyyətinin quruluşunu aydınlaşdırmaq üçün əsasən arxeoloji dəlillərə, o cümlədən məişət və dəfn abidələrinə müraciət edilir. Dövrün yaşayış məskənləri təsərrüfat-məişət komplekslərindən ibarət tikililərin sıxlığı ilə səciyyələnir. Yaşayış otağı, ərzaq anbarı və həyətyanı sahələrdən ibarət belə komplekslər arakəsmə, kərpic divarlarla bir-birindən ayrılır. Bu komplekslər sosial-



downloaded from KitabYurdu.az

iqtisadi inkişafın müəyyən mərhələsində yaranır. Görünür, onlar cüt nikah əsasında qurulmuş ailə ilə bağlıdır. Belə ailə özünün mənzil, anbar və həyətyanı sahəsini ayırmaq labüdlüyünü doğurur. Belə cüt nikah ailələr həmin dövrün cəmiyyətinin ictimai əsasını təşkil edirdi. Bir neçə ailə təsərrüfatla birgə məşğul olur: taxıl tarlaları, mal-qara və otlaqlar icmanın himayəsində idi. Birgə görülən iş və birgə istifadə olunan hər şey ümumi mülkiyyəti təşkil edirdi. Lakin kollektiv təsərrüfatın məhsulu beş-yeddi üzvdən ibarət ailələr arasında illik pay kimi bölünürdü. Ailədə kişi rəhbərliyi özünə mövqe qazanır. Bununla belə, erkən əkinçilik cəmiyyətində qadının hörməti və xüsusi mövqeyi var idi. Zaqafqaziyanın eneolit məskənlərindən yalnız bəziləri nisbətən böyük sahəyə malikdir. Onlarda sayca çox olan kollektiv yaşayırdı. Görünür, belə kollektivləri başında ağsaqqallar şurası duran icma təşkilatı idarə edirdi. Onun təsir dairəsində məhdud ərazidə iri məskənlər ətrafında yerləşən bir neçə əkinçi məntəqəsinin daxil olması ehtimalını söyləmək olar.

Erkən əkinçilərin dəfn abidələri sosial ayrılmaların zəif mərhələsini əks etdirir. Ancaq ərazisi Kültəpə və Çalağantəpə yaşayış yerlərində tədqiq olunan bəzi qəbirlərdə nisbətən zəngin materiallara rast gəlinmişdir. Erkən əkinçilik mədəniyyətinin inkişafı dövründə daş toppuzların yayılması diqqəti cəlb edir. Zaqafqaziyada onlar həm yaşayış yerlərinin materialı içərisində, həm də tək-tək qəbirlərdə tapılmışdır. Xüsusi daş növlərindən hazırlanmış və səylə cilalanmış bu əşyalar hakimiyyət rəmzi kimi görünür, ağsaqqal və ya nəsil başçılarına mənsub olmuşdur.

Yerli cəmiyyətin ictimai həyatında nəzərə çarpan mürəkkəbləşmə sonrakı, İlk Tunc dövründə baş verir - patriarxal münasibətlər möhkəmlənir, hakimiyyət qəbilə başçılarının əlində cəmləşir.

**Ayinlər, etiqad.** Dəfn adətləri, heyvanların əhliləşdirilməsi, dənli bitkilərin becərilməsi və müxtəlif ev sənətkarlığının inkişafı sayəsində bu dövrdə ibtidai insanın dərketmə qabiliyyəti xeyli artır – və yeni ayinlər yaranır, dil zənginləşir, insanların təsəvvürləri xeyli mürəkkəbləşir.

Dini adətdə, əvvəllər olduğu kimi, əcdadlara pərəstiş mühüm yer tuturdu. Erkən əkinçi qəbilələrin çoxunda, o cümlədən Azərbaycanda ölünü bilavasitə yaşayış yerləri ərazisində dəfnetmə adəti yayılmışdı. Tədqiqatçılar adətən onu yenidən doğulma, həyata qayıtma ideyası, son nəticədə məhsuldarlıq, ailə və nəsil artımı ilə səsləşən ideya ilə bağlayırlar. Ola bilsin ki, bu ideya zəminində ölülərin üzərinə qırmızı boya tozu (oxra) səpmək adəti meydana gəlmişdi. Yaşayış yerlərində ölülər basdırılarkən həsirə bükülür, qəbir çuxuruna gil suvaq çəkilirdi. Yaşayarkən malik olduqları bəzək əşyalarına toxunulmur, qəbirə qoyulurdu. Axirət dünyasına inamla əlaqədar olaraq qəbirə gil qablar, əmək alətləri və başqa əşyalar da qoyulurdu. Ölülər tək, bükülü vəziyyətdə, bəzən isə bir neçəsi birlikdə dəfn olunurdu.



downloaded from KitabYurdu.az

Azərbaycanın erkən əkinçiləri adət və ayinlə əlaqədar olaraq əsasən yaşayış məskənlərində xüsusi ibadət yerlərində müxtəlif mərasimlər keçirirdilər. Təbiətin dərkolunmaz hadisələrini aydınlaşdırmaq cəhdi, onlar qarşısında qorxu və acizlik, insanlarda magik vasitələrə (lənət və s.), müxtəlif dini aktlara (yalvarma, dua) müraciət etmək tələbatını doğururdu. Əliköməktəpə yaşayış yerində divarı gillə suvanmış və ağardılmış tikilini ibadətgah hesab etmək olar. Ağardılmış divara boya ilə naxış vurulmuşdur. Divarı ağardılmış və boya ilə naxış vurulmuş bina Çalağantəpə yaşayış yerində də aşkar olunmuşdur.

Azərbaycanın yaşayış məskənlərində təsadüf olunan qaralmış hisli daşların magiya ilə əlaqəsi olduğunu güman etmək olar. Qarğalartəpəsi yaşayış yerində belə daşlara təklikdə və koma halında rast gəlinmişdir. Burada gildən xüsusi düzəldilmiş, diametri 0,7 m olan təknəvari bir çuxurda 250 ədəd hisli daş qalağı aşkar olunmuşdur. Çuxura ot yığıb yandırdıqdan sonra daşlar qəsdən oraya atılmışdır. Çuxurun dibi yanıq qatla örtülü idi. Burada quraqlığa qarşı, onu mülayimləşdirmək niyyətini güdən və yağışı çağıran ayinlə əlaqədar aparılmış mərasimin qalıqlarını görürük.

Azərbaycanın yaşayış yerlərində insan surətini əks etdiren fiqurlar erkən əkinçilərin ideoloji təsəvvürləri haqqında müəyyən məlumat verir. Yanıqtəpədə daşdan düzəldilmiş insan fiqurunun rənglənmiş baş hissəsi tapılmışdır. Onun gözü qara rənglə göstərilmişdir. Hacı Firuzdan gil qadın fiquru və başqa insan fiquru hissələri əldə edilmişdir. Demək olar ki, məlum olan bütün antropomorf fiqurlar qadına aid olub məhsuldarlıq ideyasını təcəssüm etdirirlər. Çalağantəpədən tapılan fiqurlar çox təmtəraqlı bəzədilmişdir. Onlarda boyunbağı, qurşaq kəmərləri, saç hörüklər fiqurların qadına mənsub olduğunu söyləməyə əsas verir. Fiqurlar yarımboydur, qol və qıçları verilməmişdir.

Qarğalartəpəsi fiqurunda yuxarıdan aşağı qadın hörüklərini əks etdirən dalğavari xətlər uzanır. Belə xətlər üfüqi istiqamətdə qıçlar üzərində çəkilmişdir. Etnoqrafiyadan məlumdur ki, qadınlar məhsulu təbii fəlakətdən xilas etmək niyyəti ilə saçlarını tökərək cadugərlik vasitələrinə əl atırlar; görünür, burada yağış çağırmaq əqidəsi özünü göstərir.

Örnəklərin məhdudluğuna baxmayaraq, onlar Azərbaycanın qədim əkinçi-maldar əhalisinin ideoloji təsəvvürlərinin müxtəlifliyi haqqında mülahizə yaradır.



downloaded from KitabYurdu.az

# İKİNCİ BÖLMƏ

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ TUNC DÖVRÜ. İBTİDAİ-İCMA QURULUŞUNUN DAĞILMASI

### IV FƏSİL

### İLK TUNC DÖVRÜ. KÜR-ARAZ MƏDƏNİYYƏTİ

**Əkinçi-maldar qəbilələr.** İlk Tunc dövründə, az qala, bütün Azərbaycanın və Zaqafqaziya ərazisinin düzən və dağlıq rayonları əkinçi-maldar qəbilələr tərəfindən tutulur, mənimsənilir. Bu dövrdə Mərkəzi və Şərqi Zaqafqaziyanın, Şimal-şərqi Qafqazın, həm də Cənubi Azərbaycanın və Şərqi Anadolunun əsas əraziləri elmdə Kür-Araz mədəniyyəti adı altında tanınmış vahid maddi-mədəni irsə sahib qəbilələr tərəfindən məskunlaşır. Bu mədəniyyət ilk dəfə 1940-cı illərdə, Kür-Araz çayları arasındakı ərazilərdə tapılmış materiallar əsasında müəyyənləşdirilmişdir. O vaxt Kür-Araz mədəniyyətini eneolitə aid edirdilər. Sonralar aydın oldu ki, bu mədəniyyətin hüdudları Kür-Araz çayları arasından çox genişdir, abidələri isə e.ə. IV minilliyin ortalarından III minilliyin son rübünədək xronoloji çərçivəni əhatə edən ilk tunc dövrünə aiddir.

Eneolit dövründən ilk tunc Kür-Araz mədəniyyətinə keçidi bilavasitə əks etdirən abidələr demək olar ki, hələ məlum deyildir. Ancaq bəzi abidələrdə onları bir tərəfdən Kür-Araz mədəniyyətinə, digər tərəfdən eneolit mədəniyyətinə bağlayan materiallara rast gəlinir.

İlk Tunc dövründə Azərbaycan və bütün Zaqafqaziya qəbilələrinin ictimai-iqtisadi və mədəni inkişafında əhəmiyyətli irəliləyişlər baş verir. İnkişaf etmiş əkinçi-maldar təsərrüfatı zəminində yaranan yaşayış məskənlərinin bəziləri bu dövrdə böyük yaşayış məntəqələrinə çevrilir. Yerli xammaldan tunc məmulatın istehsalı geniş inkişaf tapır. Əkinçilik və maldarlığın yüksək inkişafı əhalinin artımına və patriarxal münasibətlərin qəti olaraq möhkəmlənməsinə səbəb olur.

İlk tunc dövrünün son mərhələsində yerli qəbilələrin sosial-iqtisadi həyatında aydın müşahidə olunan dəyişikliklər baş verir. Ayrı-ayrı maldar qəbilələrin daxilində mülki və sosial təbəqələşmə artır, hakimiyyət və mülkiyyət qəbilə başçılarının əlində cəmləşir.



downloaded from KitabYurdu.az

Azərbaycanda Kür-Araz mədəniyyəti qəbilələri eneolit dövründə tərk edilmiş bəzi yaşayış yerləri ərazisində məskunlaşır. Naxçıvanda I Kültəpə, Ovçulartəpəsi, Qazaxda Babadərviş, Cənubi Azərbaycanda Göytəpə və Yanıqtəpə belə yerlərdəndir. Azərbaycanın digər ilk tunc dövrü yaşayış yerləri yeni ərazilərdə bina olunur. Bunlardan Qobustan və Mingəçevir, Füzuli rayonunda Qaraköpəktəpə və Günəştəpə, Beyləqan rayonunda Çardaxlıtəpə, Cəlilabad rayonunda Mişarçay, Xaçmaz rayonunda Qəflə təpələri, Dəvəçi rayonunda Sərkərtəpə, Ağcabədi rayonunda Cüttəpə, Bərdə rayonunda Şortəpə, Ağdam rayonunda Qarahacı və s. yaşayış yerlərini göstərmək olar.

Azərbaycanda bu dövrün bir sıra dəfn abidələri Xankəndi yaxınlığında və Xanlarda, Mingəçevirdə, Mil düzündə, Daşkəsən rayonunda, Şəmkir rayonunda Osmanobuzda, Tərtər rayonunda Borsunluda, Astara rayonunda Telmankənddə tədqiq edilmişdir.

Abidələrin öyrənilməsi Azərbaycanda İlk Tunc dövründə məskunlaşmış qəbilələrin təsərrüfatını, məişətini və mədəniyyətini, ideoloji görüşlərini işıqlandırmağa imkan verir.

**Yaşayış yerləri.** Azərbaycan ərazisində İlk Tunc dövrü yaşayış yerləri əksər hallarda dağa yaxın, kiçik çay sahillərində bina olunurdu. Onlara hərdən mərkəzi aran rayonlarında, yaxud Araz və Kür çayları sahillərində də təsadüf olunur.

Yüksək dağlıq rayonlarda, az da olsa, həm dəfn (Daşkəsən) və həm də yaşayış yerlərinin qalıqları (Kəlbəcər) aşkar olunmuşdur. Düzən rayonlarda eneolit dövründən fərqli olaraq İlk Tunc dövrü yaşayış yerləri tək-təkdir. Məsələn, Kür çayının orta axarında Gəncə-Qazax və Mil-Qarabağ düzənlərində əvvəllər sıx məskunlaşmış ərazilər ilk tunc dövründə əsasən sahibsizləşir. İqlimin dəyişməsi, quraqlıq dövrünün başlanması, kiçik çayların və bulaqların quruması ilə əlaqədar yaranan vəziyyətdə əsrlərlə gur həyatlı və əkinçilik mədəniyyətinin inkişafı üçün əlverişli ərazilər tərk olunur.

Zaqafqaziyanın Kür-Araz mədəniyyəti yaşayış yerləri orta hesabla 1-2 ha sahəni tutur (Babadərviş, Qaraköpəktəpə, Mişarçay, Cüttəpə və s.). Lakin bəzi Kür-Araz mədəniyyəti yaşayış yerlərinin sahəsi çox böyükdür. Belə ki, Cənubi Azərbaycanda Yanıqtəpə 9 ha sahəni tutur, bu isə İlk Tunc dövrünün bəzi yaşayış yerlərində hövük əhali kütləsinin cəmləşməsini və bir çox əsrlər ərzində arasıkəsilməz həyat tərzini əks etdirir. Yaşayış yerlərində qalın mədəni təbəqələrin yaranması uzun müddətli həyat tərzi ilə bağlıdır. I Kültəpədə mədəni təbəqənin qalınlığı 8 m, Qaraköpəktəpədə 7 m, Mişarçayda 4 m-dən artıq, Urmiya gölünün qərbində Göytəpədə 9 m-dir.

İlk tunc dövrü yaşayış yerlərinin bəziləri müdafiə hasarı ilə əhatəyə alınmışdır. Bu isə həmin vaxtda əhalinin həmişə dinc şəraitdə yaşamadığını, bəlkə mal-qara üçün otlaq ərazilər və sair üstündə baş verən toqquşmaları sübut edir. Göytəpə yaşayış



downloaded from KitabYurdu.az

yerində çiy kərpicdən daş bünövrə üzərində müdafiə hasarının eni 1,65 m, Yanıqtəpədə qala hasarı 5 m enində olub palçıqla bərkidilmiş daşdan hörülmüş və hər iki üzdən suvanmışdır. Qala divarında tağlı qapı aşkar edilmişdir.

Kür-Araz mədəniyyəti yaşayış yerlərinin, o cümlədən Azərbaycan abidələrinin memarlığında, eneolit dövründə olduğu kimi, ən çox dairəvi planlı evlər inşa edilirdi. Lakin bəzi yaşayış yerlərində düzbucaqlı formalı evlərə də rast gəlinir. Belə kərpic evlər Göytəpədə aşkar olunmuşdur. Yanıqtəpədə belə evlər dairəvi planlı tikililəri əvəz edir və burada uzun müddət inşaatda vahid forma olaraq qalır. Eyni vəziyyət Qaraköpəktəpə yaşayış yerində də qeydə alınmışdır. Dairəvi planlı evlərin diametri bəzən 13 m-ə çatır, adətən onların diametri 3 m-dən 5 m-ə qədər, divarların qalınlığı isə təqribən 0,5 m-dir.

İnşaatda adi formalı kərpiclər işlədilirdi. Kültəpə, Yanıqtəpə və Mişarçay evlərində kərpiclərin düzülüş texnikası maraq doğurur. Bir cərgədə kərpiclər cüt-cüt divar boyu uzununa, o biri cərgə isə divarın eninə düzülmüşdür.

Dairəvi planlı evlərdə damları örtmə konstruksiyası, görünür, konik formalı olub, dirəklər üzərində qurulmuşdu.

Babadərvişdə evlərdən birinin mərkəzi hissəsində dirək çalası, döşəməyə basdırılmış gil manqal və möhrədən düzəldilmiş kürsünün varlığı aşkar olunmuşdur.

Evlərin divarları və döşəmələri adətən gillə suvanırdı. Qaraköpəktəpənin ilk tunc dövrü təbəqəsində, ötən dövrün bəzi yaşayış yerlərində olduğu kimi, evlərdə gillə suvanmış döşəmələrə qırmızı şirə çəkilməsi halları qeydə alınmışdır.

Adətən yaşayış otaqlarının mərkəzi hissəsində gil manqallar yerləşdirilirdi. Kültəpə və Yanıqtəpə yaşayış yerlərinin bəzi evlərində divar dibində qurulmuş sobaların varlığı maraq doğurur. Onların iç hissəsində istiliyi çox saxlayan qum qatı və alovun cərəyan etdiyi kanallar vardır.

Yanıqtəpə yaşayış yerində ikimərtəbəli evlərin aşkar olunması, şəksiz, böyük əhəmiyyət kəsb edir. Orada xüsusi məqsəd daşıyan yataq səkiləri, taxçalar və taxıl kəndisi olmuşdur. Evlərin divarlarında asılmış gön və dərilərin izləri qalmışdır. Bütün bunlar Yanıqtəpə əhalisinin məişət mədəniyyətinin nisbətən yüksək inkişafına dəlalət edir.

Beləliklə, ilk tunc dövrü yaşayış yerlərinin memarlığında və ev inşasında ötən dövrə nisbətən tərəqqi müşahidə olunur. Bununla bərabər Cənubi Qafqazın bir çox yaşayış yerlərində, eneolit dövründə olduğu kimi, dairəvi planlı evlər tikilirdi. Buradan da Azərbaycanın və Zaqafqaziyanın qədim qəbilələrinin mədəni inkişafında varislik elementlərinin olduğu bilinir.

**Təsərrüfat.** Azərbaycan əhalisinin ilk tunc dövrü iqtisadiyyatında aparıcı rolu əkinçilik tuturdu. Bu dövrdə Azərbaycanda xış əkinçiliyi geniş yayılır. Bu baxımdan maraqlıdır ki, ilk tunc dövrü yaşayış yerlərində daşdan, buynuzdan və sümükdən



downloaded from KitabYurdu.az

hazırlanmış toxalar yoxdur. Ancaq ötən dövrün hər bir yaşayış yerində bu alətlərə çoxlu miqdarda təsadüf olunur.

Kür-Araz mədəniyyəti qəbilələrinin iribuynuzlu heyvanları qoşquda istifadə etməsi bir sıra faktlarla təsdiq edilmişdir. Belə faktlar öküzləri qoşquda təqlid edən gil fiqurlar, bəzən oxla birlikdə tapılan təkər modelləridir.

Azərbaycanda Kür-Araz mədəniyyəti yaşayış yerlərindən suvarma şəraitində becərilən dən qalıqları əldə edilmişdir. Süni suvarma bəsit şəkildə olsa da, bu ərazinin eneolit dövrü əhalisində də məlum idi. Azərbaycanda süni suvarma ilə yanaşı, xüsusən dağlıq rayonlarda dəmyə əkinçiliyi əsas yer tuturdu.

Kür-Araz mədəniyyəti qəbilələri buğda və arpa, darı və kətan, paxlalı bitkilərdən noxud (nut) becərirdilər. Noxud Kültəpə və Babadərvişdən tapılmışdır.

Səpin üçün taxıl dənlərinin seçilməsi bu dövrün əkinçilik mədəniyyətində böyük tərəqqi idi. Arpa və buğda ayrılıqda əkilirdi. Bu barədə məlumat Babadərviş tapıntılarından aydın olur. Burada bir taxıl quyusundan arpa, o birindən yumşaq buğda tapılmışdır. Yumşaq buğda qalıqları II Babadərviş yaşayış yerinin otlaqlarından birində tapılmışdır. İlk tunc dövründə yumşaq buğda daha geniş yayılmış dənli bitki növlərindən olmuşdur. Məhsulun biçilməsindən sonra müxtəlif sadə üsullarla, o cümlədən ovma yolu ilə onun döyülməsi aparılırdı. I Kültəpədə böyük bir quyuda yanmış dən qalıqları, sünbüllü küləş və dərz bağlamaq üçün bəndəmlər bir yerdə tapılmışdır. Görünür, taxıl buraya döyülməmiş vəziyyətdə yığılmışdır. Babadərvişdə yanğın baş vermiş bir evin döşəməsinin xeyli hissəsində sünbül qılçığının qalın qatı var idi. Döşəmə üzərində bu qata bitişik dən topasına rast gəlindi. Bu faktlar göstərir ki, ehtiyat üçün saxlanılan taxıl həm də ehtiyaca görə döyülürdü.

Taxıl məhsulunun biçilməsi yığma oraqlarla aparılırdı. Oraqların əsası ağac dəstəklərdən, dişləri çaxmaq daşından düzəldilirdi. Ancaq ilk tunc dövrü bəzi yaşayış məskənlərində tunc oraqlara da rast gəlinmişdir. Azərbaycan ərazisində belə bir oraq I Kültəpədən tapılmışdır. Metal oraqların meydana gəlməsi, sözsüz ki, biçin prosesində əməyin məhsuldarlığına müsbət təsir göstərir.

Dənin saxlanılmasının mühüm əhəmiyyəti var idi. Bu məqsədlə iri saxsı qablardan, xüsusi quyulardan və kərpic tikintilərdən istifadə olunurdu. Babadərviş yaşayış yerində 22 quyu aşkar olunmuşdur. Dənin nəmləşib çürüməməsi məqsədilə quyuların dibi daş və ya kərpiclə döşənirdi. Yanıqtəpədə aşkar olunmuş dördgözlü qalın divarlı tikinti taxıl anbarı kimi istifadə olunmuşdur.

İnamla demək olar ki, İlk Tunc dövründə çörək bişirilirdi. Bu məqsədlə Naxçıvan Kültəpəsində aşkar olunmuş düzsəthli kürələrdən istifadə olunurdu.

Kür-Araz mədəniyyəti yaşayış məskənlərindən məlum olan materiallar təsərrüfatda əkinçiliyin çox mühüm rolunu göstərir.



downloaded from KitabYurdu.az

İlk Tunc dövrü təsərrüfatının başqa mühüm sahəsini maldarlıq təşkil edirdi. Arxeoloji materiallar çox müxtəlif olmasa da, dövrün maldarlıq təsərrüfatının xarakteri haqqında kifayət qədər təsəvvür yaradır. Osteoloji material göstərir ki, sürüdə bütün ev heyvanları var idi (öküz, inək, keçi, qoyun və ev donuzu). Kür-Araz mədəniyyəti qəbilələrinin, o cümlədən Azərbaycan əhalisinin atdan istifadəsi haqqında olduqca az material vardır.

İlk Tunc dövrünün başlanğıcında maldarlıq təsərrüfatında iribuynuzlu heyvanlar üstün mövqe tuturdu, sonralar isə xırdabuynuzlu heyvanların sürüdə ümumi artım meyli müşahidə olunur. Mal-qaranın xeyli artımı öz növbəsində yem mənbələrinin, o cümlədən otlaqların, örüşlərin genişlənməsinə səbəb olmalı idi. Yaşayış yerləri ətrafındakı örüşlər, xüsusən yay aylarında artmaqda olan tələbatı ödəmirdi. Bununla əlaqədar olaraq bütün Qafqazda olduğu kimi, Azərbaycanda da İlk Tunc dövründə heyvandarlığın yaylaq forması inkişaf edir; yayda heyvanlar dağlara, alp otlaqlarına sürülürdü. Qoyunçuluğun inkişafı İlk Tunc dövründə dağlıq rayonların geniş mənimsənilməsinin əsas səbəblərindəndir.

Daşkəsən rayonunda Xaçbulaq yaylağında maldar qəbilələrə məxsus kurqan qəbirləri məlumdur. Yaylaq məskənlərinin qalıqları Kəlbəcərdə, Şirvanın dağlıq hissəsində, Şamaxı rayonunda müəyyən edilmişdir.

Mal-qaranın artması ilə heyvandarlıqda daha intensiv proses müşahidə edilir, izafi ərzaq məhsulu yaranır. Maldarlıq təsərrüfatı tarixində yağ istehsalının və onun inkişafının mühüm əhəmiyyəti vardır. Bu dövrdə ilk dəfə gil nehrə icad olunur. Yeri gəlmişkən qeyd edək ki, o, öz formasını dəyişmədən Azərbaycanda bu günə qədər qalmaqda davam edir. Nehrə adının da onun icad olduğu dövrdə meydana gəldiyi şübhə doğurmur.

Beləliklə, ilk tunc dövründə əkinçi-maldarlıq təsərrüfatında böyük tərəqqi başlanır, yeyinti məhsullarının istehsalında yeni imkanlar yaranır. Maldarlıq təsərrüfatının sürətli inkişafı sayəsində icma-qəbilə quruluşu daxilində mülki və sosial ayrılmalar güclənir.

**Sənətkarlıq.** Kür-Araz dövrü yerli filiz yataqlarının geniş istifadəsi və metalişləmə sənətinin yüksək inkişaf səviyyəsi ilə xarakterizə olunur. Azərbaycanda zəngin Gədəbəy, Dağlıq Qarabağ və Balakən mis mədənləri məlumdur. Kür-Araz mədəniyyəti abidələrində ayrı-ayrı külçə əridilən obyektlərin aşkar olunması İlk Tunc dövründə Zaqafqaziyada mis-mədən yataqlarının istismarını aydın sübuta yetirir.

Azərbaycanın bir çox yaşayış yerlərindən metal istehsalı ilə bağlı olan müxtəlif əşyalar geniş şəkildə təmsil olunmuşdur. Onlar başlıca olaraq mis-mərgmüş qatışığından ibarət tuncdan hazırlanırdı, ancaq tək-tək məmulatların tərkibində qalay qatışığı vardır.



downloaded from KitabYurdu.az

Qafqazda mis-tunc metallurgiyasının yaranmasında və inkişafında Ön Asiya ölkələrinin, görünür, müəyyən təsiri olmuşdur. Lakin Kür-Araz mədəniyyəti dövründə Qafqaz Avrasiyada müstəqil və mühüm metal istehsalı mərkəzlərindən birinə çevrilir.

Metal əşyaların spektral tədqiqi, onların əksər halda mis-mərgmüş tərkibli olduğunu göstərmişdir. Qədim ustalar şüurlu surətdə əşyaların daşıyacağı məqsəddən asılı olaraq, onların tərkibinə müxtəlif miqdarda mərgmüş qatırdılar. İş burasındadır ki, misin əridilməsi üçün yüksək (1083°) istilik tələb olunur, başqa metalın (mərgmüş, qalay, nikel və s.) qatışığı olduqda ərimə dərəcəsi azalır, metalişləmə ilə əlaqədar görülən işlər bir qədər yüngülləşir. Qədim ustalar bu biliyi mənimsədikdən sonra tuncun başqa xassəsini də müəyyənləşdirirlər. Yəni tunc misdən bərkdir və az istilikdə (700°) əriyir. Eyni zamanda müəyyən olunur ki, tərkibinə çox mərgmüş qatılmış əşyalar kövrək olur. Kənd təsərrüfatında istifadə məqsədilə hazırlanan metal alətlərdə, həm də İlk Tunc dövrü abidələrindəki silahlarda az mərgmüş (4-5 faizə qədər) qatışığının olması məhz bununla izah olunur.

Azərbaycanda erkən dövr metal sənayesinin öyrənilmə tarixində Babadərviş yaşayış yerində tədqiq edilmiş misəritmə kürə qalıqları böyük əhəmiyyət kəsb edir. Kürələrin yalnız aşağı hissələri qalmışdır. Görünür, kürələrin kifayət qədər mükəmməl quruluşu olmuşdur. Bunu kürədəki külçələr və tapılan körük ucluqları aydın sübut edir. Kürələrin birində tullantı şəklində istehsal çıxarı və mis külçəsinin parçası tapılmışdır. Babadərvişdə bundan əlavə metal əşyalar, həm də metal əridib tökməkdə istifadə edilən təknəyəbənzər gil qəlibin yarı hissəsi əldə edilmişdir. Bu tapıntılar ilk tunc dövrü Babadərviş yaşayış yerində metal istehsalı ilə əlaqədar bütün prosesin qaydaya salındığını sübut edir. Metaləritmə sənətkarlığı Kültəpə, Qaraköpəktəpə, Şortəpə, Mişarçay, Göytəpə, Yanıqtəpə və başqa ilk tunc dövrü yaşayış yerlərində də mövcud olmuşdur.

Yaşayış yerlərində mövcud olan metaləritmə emalatxanaları metal istehsalının başqa istehsal növlərindən ayrıldığını göstərir. Emalatxanalar bütün icmanı təmin edirdi, onlarda ustaların başçılığı altında bir qrup adam çalışırdı. Kür-Araz mədəniyyətinin geniş ərazisində, qismən də ondan xaricdə metal istehsalı məhsulunun oxşar nümunələrinin yayılmasını izafi məhsulun mübadiləsi və mədəni-iqtisadi əlaqələrlə izah etmək olar. Deməli, İlk Tunc dövründən başlayaraq Azərbaycanda və Zaqafqaziyada metal istehsalı və metal əşyaların hazırlanması sənətkarlığın mühüm sahələrindən birinə çevrilir. Filizin çıxarılması və əridilməsi, metalın tökülməsi, xüsusi qarışıqların tətbiqi, isti və soyuq döymə, əmək alətlərinin və silahların, bəzək əşyalarının çeşidlənməsi istehsalın bu sahəsinin səviyyəsini və onun ilk tunc dövrü əhalisinin həyatındakı rolunu əyani surətdə əks etdirir. Bu istehsal sahəsinin inkişafı ilə sənətkarlığın başqa növləri, məsələn, sümük və daşişləmə olduqca məhdudlaşır. Dəvəgözü daşının işlənməsi demək olar ki, öz əvvəlki əhəmiyyətini itirir, çaxmaq daşından indi əsasən oraq dişləri və ox ucları hazırlanırdı. Sümükdən hazırlanan



downloaded from KitabYurdu.az

başlıca alət - biz özü də əvvəlki dövrə nisbətən az idi. İndi onu tuncdan hazırlanan daha möhkəm və etibarlı alətlər əvəz edir. Bu dövrün yerli metal istehsalı məmulatı içərisində ən mühüm alət küplü tunc baltalar oldu. Azərbaycanın İlk Tunc dövrü yaşayış yerlərinin demək olar ki, hər birindən belə balta qəliblərinin tapılmasına baxmayaraq, onların özünün hələ ki, üç ədədi məlumdur. Ağdam, Masallı və Dəvəçi rayonlarının hərəsində bir tunc balta tapılmışdır.

Qafqazın İlk Tunc dövrü abidələrində küplü baltalardan başqa, yastı iskənəvari tunc baltalara da rast gəlinir. Astara rayonunda Telmankənd yaxınlığında bir kurqanda yastı tunc baltalar dəstəkli nizə ucluqları ilə birlikdə əldə edilmişdir. İki ədəd süngüvari nizədən biri I Kültəpədən, o biri Xaçbulaqdan məlumdur.

Qafqazda ilk tunc dövründən başlayaraq geniş yayılan metal silah iki ağızlı yarpaqvari bıçaqlar - xəncərlər olmuşdur. Belə xəncərlərə Xaçınçay sahili və Xankəndi kurqanlarında, Yanıqtəpə və Kültəpə yaşayış yerlərinin mədəni təbəqələrində rast gəlinmişdir. Yerli metal istehsalı məmulatına Qaraköpəktəpə yaşayış yerindən tapılmış dördtilli biz, başı ilgəkli sancaq, barmaqcıq və s., Kültəpədən başı ilgəkli dörd sancaq, bıçaq parçası və s. aiddir. Kültəpə metal əşyaları içərisində Qafqazda ən qədim tunc oraq diqqəti xüsusi ilə cəlb edir.

Beləliklə, müxtəlif məqsəd daşıyan metal məmulatı Azərbaycanda dövrün metalişləmə sənətkarlığı haqqında aydın təsəvvür yaradır.

Sənətkarlıq sahələrindən arxeoloji materiallarla daha zəngin dulusçuluq təmsil olunmuşdur. Zaqafqaziyanın ilk tunc dövrü saxsı məmulatı o qədər mənalı və özünə məxsus əlamətlərə malikdir ki, o, Kür-Araz mədəniyyətini müəyyənləşdirən əsas amil rolunu oynayır. O, Eneolit dövrünün saxsı məmulatından keyfiyyətinə, texniki işlənməsinə və formaların müxtəlifliyinə görə fərqlənir. İlk Tunc dövrü abidələrində sözün əsil mənasında hələ gil qabların hazırlanması ilə əlaqədar istehsal ocaqları aşkar olunmamışdır. Çox güman ki, dulusçuluq emalatxanaları yaşayış yerlərindən kənarda yerləşmişdir. Mişarçay yaşayış yerində hələlik yeganə bir dulus kürəsi qalıqlarının abidənin qənşərində yerləşməsi bunu sübuta yetirir. Kürədə gildən sapand daşlarının bişirilməsi prosesi nə səbəbdən isə başa çatmamış, kürə bərk dağıdılmışdır. Kürədən qalan hissədə çoxlu yarıbişmiş gil sapand daşları və sönmüş sobanın qırmızı rəng almış divarından parçalar vardır.

Kür-Araz mədəniyyətinin qab-qacağı bir qayda olaraq, əksər halda, qum qatışıqlı yaxşı yoğrulmuş gildən hazırlanırdı.

Bəzi rayonlarda (Qəbələ, Xanlar, Xankəndi və b.) qabların hazırlanmasında torbalardan istifadə olunurdu. Torba qumla doldurulur, xaricdən istənilən formanı almaqla suvanır, qurudulduqdan sonra qum boşaldılır və bişirilirdi. Qabların belə üsulla hazırlanması İlk Tunc dövründə Qafqazın dulusçuluq sənətində geniş tətbiq olunurdu. Bəsit dulus çarxı əvvəldən məlum olsa da, bu dövrdə məhdud miqyasda işlədilir və hər yerdə tətbiq olunmurdu. Kür-Araz mədəniyyəti qablarının bəzi



downloaded from KitabYurdu.az

nümunələri o qədər nazik divarlıdır ki, dulus çarxında hazırlanma təəssüratı yaradır. Qara şüyrəli belə qabların kiçik qırıqlarına, məsələn, Mişarçay yaşayış yerində rast gəlinmişdir. Kiçik Qafqaz ərazisi abidələrinin qab-qacağı əksər halda qara, məharətlə şüyrələnmiş üzə və çəhrayı astara malikdir. Burada qırmızı, boz bişməli qablar da az deyil. Qaraköpəktəpə yaşayış yerində qaraşüyrəli qablar bozşüyrəlilərdən sonra yaranır. Təbriz yaxınlığında Yanıqtəpədə hər iki qrupa eyni vaxtda rast gəlinir. Mişarçay yaşayış yerində qırmızı rəngli qablar üstünlük təşkil edir.

Kür-Araz mədəniyyəti abidələrinin saxsı məmulatında ornament xüsusi maraq doğurur. Burada qabarıq, basma və cızma üsulu ilə verilmiş cüt spirallara, konsentrik dairələrə, rombvari, üçbucaqvari naxışlara, sxematik quş və heyvan rəsmlərinə və s. təsadüf olunur. Zəngin ornamentik naxışlara malik qab-qacaq Babadərviş və Yanıqtəpə yaşayış yerlərindən əldə edilmişdir. Babadərvişdə demək olar ki, Kür-Araz saxsı məmulatında tətbiq olunan bütün bəzək vurma üsullarına və motivlərinə rast gəlinir. Yanıqtəpə qablarında isə naxışlar bütünlüklə çərtmə üsulla yerinə yetirilnişdir. Burada, Kür-Araz mədəniyyətinin başqa yaşayış yerlərində olduğu kimi, qabların yuxarı hissəsi, bəzən də boğazları naxışla bəzənirdi.

Dulusçuluq sənətinin inkişaf səviyyəsi müxtəlif formalı kiçik miniatür camlardan tutmuş taxıl saxlanan iri qablaradək özünü əyani surətdə göstərmir. Səciyyəvi formalar çölmək, bardaq, xeyrə, parç, qazança və sairədən ibarətdir. Həmin vaxtda yarımkürə qulplu gil qapaqların geniş istehsalı başlanır və Kür-Araz mədəniyyətinin səciyyəvi əlamətlərindən birini təşkil edir.

Manqalların, müxtəlif sacayaqların hazırlanması da İlk Tunc dövrünün saxsı məmulatı istehsalında xüsusi yer tutur. Bir çox başqa səciyyəvi əşyalar kimi onlar da bu mədəniyyətin tənəzzülü ilə istifadədən çıxır.

Kür-Araz mədəniyyəti qəbilələrinin inkişaf etmiş sənət sahələrindən biri də toxuculuq olmuşdur. Ona görə təəccüblü deyil ki, iribuynuzlu heyvanların sümüyündən kəsilmiş və ortasından deşik açılmış iy başlıqlarına hər bir Kür-Araz mədəniyyəti yaşayış yerində təsadüf olunur. İy başlıqlarını (iyrəcək) bəzən gildən və daşdan düzəldirdilər. İlk tunc dövründə ipəyirmə sənətində iy başlıqları əsas alət olmuşdur. Dövrün qablarında dəfələrlə parça izlərinə rast gəlinmişdir.

İlk tunc dövründə dülgərlik və dabbağlıq sənət sahələri də inkişaf edir. Adətən bu sənət sahələrinin inkişafını işıqlandıracaq materiallar dövrümüzə gəlib çatmır, buna görə də onlardan bəhs edərkən dolayı dəlillərdən istifadə edilir. Belə ki, dövrün ağacişləmə sənəti barədə gildən təkər modelləri, evlərdə dirək quyuları, kurqan qəbilələrində tir qalıqları və başqa bu kimi dəlillər təsəvvür yaradır. Əhalinin məişətində dəri məmulatı geniş işlənirdi. Cənubi Azərbaycanda Yanıqtəpə evlərinin birində aşkar olunan dəri qalıqları buna misaldır. Dəridən paltar, ayaqqabı, başqa təsərrüfat və məişət avadanlığı hazırlanırdı.



downloaded from KitabYurdu.az

Sənətkarlığın inkişafı Kür-Araz mədəniyyəti qəbilələrinin Qafqaz və Ön Asiyanın qonşu vilayətləri ilə təmasına və qarşılıqlı əlaqələrin güclənməsinə lazımi şərait yaradır.

**Əlaqələr.** Kür-Araz mədəniyyətini şöhrətləndirən maddi varidatda bir çox formaların, nümunələrin yeknəsəq olması heyrət doğurur. Buna qəbilələrarası daimi və fəal əlaqələr imkan yaratmışdı. Bu prosesdə yarımköçəri maldarlıqla məşğul olan qəbilələr böyük rol oynamışdır. Özlərinin həyat tərzi sayəsində onlar texnika və mədəniyyətdə baş verən yenilikləri yaymalı olurdu. Mübadilə müntəzəm səciyyə alır. Əkinçilik və maldarlıq təsərrüfatından əldə edilən izafi məhsul əsas mübadilə vasitəsi olur. Əkinçilər mübadiləni əsasən taxıl, həm də sənətkarlıq məmulatı ilə aparırdılar. Əvəzində mal-qara, yun, süd məmulatı və mis külçəsi alırdılar.

Tunc metallurgiyasının inkişafı dəvəgözünü təsərrüfat və məişətdən sıxışdırdı, qəbilələrarası mübadilədə öz əhəmiyyətini itirdi. Qafqazda tunc sənayesinin inkişafının başlanğıc mərhələsi Ön Asiya ilə təmasda keçir. İlk Tunc dövründə Qafqaza müxtəlif biçimli, xüsusən metal əşyalar daxil olur və yaxud onların formaları mənimsənilir. Buna görə təəccüblü deyildir ki, Qafqazın bir sıra əsas tunc əşya tipləri nəinki öz aralarında bir-birinə bənzəyir, həm də bu ərazidən kənarda olan abidələrin materialları ilə yaxın oxşarlıq tapır. Bu dövrdə Qafqazda dəstəkli nizə ucluqları geniş yayılır. Belə ucluqlar Ön Asiyanın bir çox vilayətlərindən məlumdur və orada onlar nəinki tuncdan, həm də qızıl və gümüşdən hazırlanırdı. Azərbaycanda Lənkəran düzənliyindən Şimali Qafqazda Prikuban vilayətinə qədər, tipoloji cəhətdən Ön Asiyanın İlk Tunc dövrü nümunələri ilə oxşar yastı iskənəvari baltalar yayılmışdı. Astara rayonunun kurqanlarından birində dəstəkli nizə ucluğu ilə birlikdə iki iskənəvari formalı balta tapılmışdır. Bu kurqanın metal əşyaları mərgmüşlü tuncdan hazırlanmışdır. Lakin bəzi nümunələrdə mərgmüşdən əlavə az miqdarda qalay da var. Məlum olduğu kimi, Qafqazda və ona qonşu rayonlarda qalay yataqları yoxdur. Ona görə Qafqazda tapılan qalay qatışıqlı əşyaları buraya qalayın, bəlkə də bəzi qalay qatışıqlı tunc məmulatın xaricdən gəlməsi ilə izah etmək olar. Babadərviş yaşayış yerindən qarmaqvari tunc əşyanın, Dağlıq Qarabağ kurqanlarının birində tapılmış tunc xəncər tiyəsinin tərkibində qalay qatışığı olması onların və ya qatışığın gətirilmə məmulata aidiyyətini göstərir.

Kültəpədən tapılmış dördtilli, tərkibində nikel və mərgmüş qatışığı olan biz diqqəti cəlb edir. Nikel qatışıqlı əşyalar Şimali Qafqazda Maykop mədəniyyəti abidələrindən məlumdur. Ancaq qalay kimi nikel də Qafqazın mədən yataqlarında yoxdur.

Qafqazın İlk Tunc dövrü abidələrində rast gəlinən mis-nikel qatışıqlı əşyalar, yəqin ki, Ön Asiya ilə bağlıdır. Onlar ola bilsin ki, Omanda hasil edilmiş metaldan hazırlanmışdır.



downloaded from KitabYurdu.az

Yerli qəbilələrin cənubla sıx əlaqəsi qiymətli metaldan hazırlanmış əşyalarda özünü əks etdirir. Azərbaycanda onlar dəfn abidələrindən əldə edilmişdir. Xankəndi qənşərində bir kurqanda üzərinə qızıldan qabıq çəkilmiş yuvarlaq formalı üç pasta muncuq tapılmışdır. Orada başqa bir kurqanda, ölünün başı altında, öz formasına görə Cənubi Mesopotamiyada Ur qəbirlərindəki asmaları xatırladan, qızıl lövhədən hazırlanmış sırğa tapılmışdır. Dağlıq Qarabağda Xaçınçay sahilindəki kurqanda basma naxışlı qızıl boru va məftildən spiralvari burulmuş qızıl bəzək vardır. Xaçbulaqda İlk Tunc dövrü kurqanında ölünün gicgah sümükləri ilə yanaşı, bir-birinə keçirilmiş nazik məftildən iki cüt sırğaya rast gəlinmişdir. Onlardan biri qızıldan, üçü isə qızıl qatışıqlı gümüşdən hazırlanmışdır.

Bu dövrdə Azərbaycan və Zaqafqaziya qəbilələrinin Şimali Qafqazla qarşılıqlı əlaqələri möhkəmlənir. Böyük Qafqazın cənub ətəklərində Kaxetiyadan Şirvana qədər ərazinin bir çox abidələrində qırmızı oxralı qab-qacağın tapılması Şimali və Cənubi Qafqaz qəbilələri arasında geniş qarşılıqlı əlaqələrin olduğunu təsdiq edir. Maykop mədəniyyəti əşyalarının kimyəvi tərkibinin öyrənilməsi də həmin nəticəyə gətirir. Məlum olmuşdur ki, Maykop mədəniyyəti tunc əşyalarının əsas hissəsi öz mənşəyi ilə Zaqafqaziyaya bağlıdır. Şimah Qafqaz qəbilələri Zaqafqaziya ilə sıx təmasda olaraq, yaratdığı əlaqə yolları ilə aldığı metalın müəyyən hissəsini Şərqi Avropa düzənliyi qonşularına da çatdırırdı.

Görünür, yaranmış belə yollar vasitəsi ilə Şimali Qafqaza parlaq zərgərlik sənəti məhsulu olan çoxlu miqdarda məmulat, Mesopotamiyadan qızıl və gümüş əşyalar, İrandan əqiq muncuqlar daxil olurdu. Bu işdə Zaqafqaziya, o cümlədən həm də Azərbaycan, yəqin ki, Şimali Qafqaz ilə Ön Asiya vilayətləri arasında vasitəçi kimi iştirak edirdi.

**Ayinlər. Etiqad və adətlər.** Azərbaycanda və ümumiyyətlə, Zaqafqaziyada ilk tunc dövrü ayin, adət və sairədə yeni xüsusiyyətlərin yaranması ilə səciyyələnir. Məhsuldar qüvvələrin inkişafı ona gətirib çıxarır ki, təsərrüfat-məişət həyatında qadının mövqeyi xeyli zəifləyir, maddi varidata sahib olan, ailə və nəslə başçılıq edən kişinin cəmiyyətdə mövqeyi xeyli artır, qadına pərəstişi doğuran zəmin sarsılır. Bununla əlaqədar kişi cinsinə aid heykəllər yaranır.

Kişiyə pərəstiş oda pərəstişlə əlaqələndirilir. Məhsuldarlıq rəmzi kimi gil manqalların və sacayaqların kişi əlamətini əks etdirən təsvirlərlə hazırlanması halları məlumdur. Dəfn adətlərində kişiyə pərəstiş aydın müşahidə edilir. Qəbilə başçıları axirət aləminə çox təmtəraqlı mərasimlə müşayiət olunur. Onların qəbirləri üzərində böyük kurqanlar qurulur.

İlk tunc dövründə dəfn adətində də dəyişikliklər baş verir: ölülər heç yerdə yaşayış yeri ərazisində basdırılmır, onlar xüsusi seçilmiş yerlərə aparılırdı. Belə qəbiristanlarda ayrı-ayrı ailə və nəslə aid dəfn abidələri tikilirdi. Belə abidələr, görünür, ailə üzvlərinin ölümdən sonra da yaşamasına inamla əlaqədardır.



downloaded from KitabYurdu.az

Xankəndinin qarşısında tədqiq olunan kurqanların hərəsində 40-50 ölü basdırılmışdır. Bu kurqanların qəbirlərində ətrafı kiçik xəndəklə əhatələnmiş, diametri 4,5 m-ə çatan dairəvi meydançalar olmuşdur. Orada bükülü, oturaq və arxası üstdə uzadılmış ölülərə təsadüf olunmuşdur. Bir çox hallarda ölülərin başı altına gil camlar və ya daş qoyulmuşdur.

Dəfn olunanlar sağlığında istifadə etdiyi əşyalarla, o cümlədən daşdan, metaldan və sümükdən əmək aləti, eləcə də qızıl və başqa bəzək əşyaları, içərisinə azuqə qoyulmuş qab-qacaqla basdırılmışlar. Burada keçi skeletinə də rast gəlinmişdir. Xankəndi kurqanlarının birinin tədqiqi Azərbaycanın İlk Tunc dövründə bu rayonda yaşamış əhalinin dəfn adətlərinin və dini təsəvvürlərinin maraqlı xüsusiyyətlərini aşkar etdi. Qəbir meydançasının bir yarısında ölülər sadəcə basdırıldığı halda, o biri yarısında ölülər yandırılmışdır. Bu dövrdə ölüyandırma adəti Gəncəçay hövzəsi abidələrindən də məlumdur. Orada kurqan qəbirlərinin dairəvi meydançası XƏNDƏKLƏ əhatə olunmuşdur. Xəndəklərin birində 22 dirəkdən istifadə edərək meydança ətrafına divar çəkmişlər. Başqa bir kurqanda qəbirin divarı daşla hörülmüşdür. Bu kurqanlann qəbirlərində ölüyandırma adəti müşahidə edilmişdir. Gəncə şəhəri yaxınlığındakı bir kurqan qəbrində insan sümükləri, ağac kömürü, kül, qab parçaları, daşlar və başqa qalıqlar güclü yanmadan bərkimiş kütlə əmələ gətirmişdir.

Xanlar rayonunda bir kurqanda isə ölüyandırma sal daş üzərində aparılmışdır, orada çoxlu ağac kömürü, kül və yanmış insan sümükləri qalmışdır. Ölüyandırma adəti Azərbaycanda Oğuz və Qəbələ rayonlarında da qeydə alınmışdır. Qəbələ yaxınlığında tədqiq edilən iki kurqanın qəbirlərində kömür və kül qalıqlarının olmaması ölülərin yandırılmasında yağdan və ya neftdən istifadə olunduğunu söyləməyə əsas verir. İki qəbirdə 26 ölü yandırılmışdır. Qəbirlərin birinin şərq hissəsində, çox güman ki, dəfn mərasimi ilə əlaqədar daş səki qurulmuşdur.

Maraqlıdır ki, Qafqazın başqa rayonlarında o dövrdə belə dəfn adəti yayılmamışdı. İraqı çıxmaq şərtilə, Qədim Şərq ölkələrində də bu adət məlum deyil. Mesopotamiyanın tarixində ilk dəfə, ölüyandırma adəti Şimali İraqda Xalaf mədəniyyətinə aid II Yarımtəpə yaşayış yerində müşahidə olunmuşdur. Azərbaycanda ölüyandırma ölübasdırma adəti ilə yanaşı, sonrakı dövrlərdə də tətbiq olunur. Ölüyandırma həm də tək ölü basdırılan qəbirlərdə də, məsələn, İlk Tunc dövrü bir Xaçbulaq kurqanında müşahidə edilmişdir. Ölülərin kütləvi yandırılması Şamxorçayın Kürə töküldüyü Osmanbozu adlı yerdə, həm də Tərtər rayonunun Borsunlu kəndi yaxınlığındakı kurqanlarda aşkar edilmişdir. Ölüyandırma adətinə Azərbaycanın Böyük və Kiçik Qafqaz sahəsi arasında eramızdan əvvəl III minillikdə geniş ərazidə məskunlaşmış Azərbaycan əhalisinin möhkəm etnik əlamətlərindən biri kimi baxılmalıdır. İlk tunc dövrü əhalisinin həyatında bir sıra etiqadlar və dini adətlər möhkəmlənir. Belə ki, Babadərviş yaşayış yerində bir quyu yanmış öküz sümükləri ilə



downloaded from KitabYurdu.az

dolu idi. Ehtimal etmək olar ki, öküz qurban ayini ilə əlaqədar mərasimdə yandırılmışdır.

Kür-Araz mədəniyyəti yaşayış yerlərində ev heyvanlarının, xüsusən çox əhəmiyyət verilən öküzün gildən hazırlanmış fiqurlarına dəfələrlə rast gəlinmişdir. Orijinal formalı iki öküz fiquru Babadərviş evlərinin birində ocaq kənarında tapılmışdır. Başqa bir evdə ocaq kənarında öküz buynuzlarını təqlid edən gil sacayaqlara rast gəlinmişdir. Buynuzvari sacayaqların və öküz fiqurlarının tez-tez tapılması öküzə pərəstişin Zaqafqaziyada geniş yayıldığını göstərir.



downloaded from KitabYurdu.az

V FƏSİL

# ORTA TUNC DÖVRÜ

**Azərbaycanın qədim əhalisi. Ölkə ərazisində ilk tayfa ittifaqları: kutilər, lullubilər, hurrilər. Orta tunc dövrünün əvvəllərində maldarlığın əhəmiyyətinin və maldar tayfalarının rolunun artması.** Eramızdan əvvəl III minilliyin son rübündə Kür-Araz mədəniyyətinin süqutu ilə əlaqədar Azərbaycanın və ona həmsərhəd olan ölkələrin tarixində yeni mərhələ başlandı.

Bu dövrdən etibarən vaxtilə Kür-Araz mədəniyyətinin ƏVVƏLLƏRDƏ yayıldığı ərazilərdə nəzərə çarpacaq hadisələrdən biri heyvandarlığın inkişafı sayəsində əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artması olmuşdur.

Zəngin yaylaqlara malik olan Zaqros dağ zolağı və Cənubi Qafqaz ərazisinin təbii şəraiti heyvandarlığın inkişafı üçün böyük imkanlar yaradırdı. Mal-davar Azərbaycan sakinlərinin başlıca məşğuliyyətinə və sərvətinə çevrilməyə başladı.

Mühüm cəhət odur ki, heyvandarlıqda artım əsasən davarın artımı hesabına baş verirdi. Bu isə heyvandarlıq sistemini əsaslı surətdə dəyişdirirdi. Yarımköçəri, köçmə maldarlıq təsərrüfatı tam surətdə formalaşırdı.

Davarın artması və əmək məhsuldarlığının yüksəlməsi sayəsində ölkədə məskunlaşmış əhalinin artımı tayfaların yayılmasının mühüm səbəblərindən biri idi. Maldarlıq təsərrüfatı şəraitində yaşayan tayfalar daha mütəhərrik idilər, onlar xüsusilə çevik həyat tərzi sürürdülər, qohumlarından - əkinçi-maldar tayfalardan ayrılırdılar. İlk tunc dövrünün sonralar, xüsusilə orta tunc dövrünün əvvəllərində həmin tayfaların yayılması nəticəsində dağətəyi, dağlıq və hətta yüksək dağ əraziləri də yaylaq kimi istifadə olunmağa başlandı.

Ümumi kütlədən ayrılmış maldar tayfalar filizlə zəngin olan ərazilərin sahiblərinə çevrilirdilər. Bu ərazilərin bəziləri tezliklə dağ-mədən işi və metal emalı mərkəzlərinə çevrildi.

Kür-Araz mədəniyyətinin son dövrlərində və orta tunc dövrünün əvvəllərində maldar tayfaların aparıcı mövqelər tutması (qədim əkinçilik mənbələrinin saxlanması şərtilə), yarımköçəri maldarlığın meydana gəlməsi, metal emalının inkişafı, Mesopotamiyanın, Kiçik Asiyanın və İranın şəhər sivilizasiyaları ilə sıx əlaqələr məhsuldar qüvvələrin əhəmiyyətli dərəcədə inkişafına, izafi məhsulun xeyli miqdarda yaranmasına, ictimai təbəqələşmənin dərinləşməsinə, bu bölgədə məskunlaşmış tayfaların iqtisadi, siyasi və mənəvi həyatında mühüm dəyişikliklərə gətirib çıxarırdı.

Bütün bu dəyişikliklər etnik proseslərə də təsir göstərməyə bilməzdi. Arxeoloji materiallar bu dövrdə əhalinin xeyli dərəcədə çoxalmasını, iri tayfa ittifaqlarının meydana gəlməsini, tayfalar daxili münasibətlərin mürəkkəbləşməsini, hərbi toqquşmaların artmasını göstərir. Maldar tayfaların yeni ərazilərdə məskunlaşması ilə



downloaded from KitabYurdu.az

əlaqədar olaraq Cənubi Qafqazın demək olar ki, hər yerində yaşayış məskənlərinin, habelə möhkəmləndirilmiş qalaların sayı artmağa başladı.

Təbiidir ki, əkinçilik təsərrüfatına nisbətən maldarlıq daha çox izafi məhsul verirdi. Dağ-mədən sərvətlərinin və sənətkarlığın inkişafı hesabına artan izafi məhsul ayrı-ayrı şəxslərdə və ailələrdə cəmləşir, ibtidai icma mühitində nəsli zadəganlarının meydana gəlməsinə şərait yaradırdı. Qəbir abidələri də sərvətlərin toplanmasını və zadəganların meydana gəlməsini isbat edir. Xeyli sərvətin tayfa başçılarının əlində toplanmasını onları xarici hücumlardan qoruyan çoxsaylı müdafiə tikililərinin mövcudluğu da sübut edir. Bu tikililər nəinki çoxlu insan kütləsinin gərgin və məqsədyönlü əməyindən, habelə hərbi toqquşma təhlükəsinin xeyli artmasından xəbər verir.

Bu dövrdə maldarlıq və əkinçiliklə yanaşı, müharibələr də Azərbaycan sakinlərinin əsas məşğuliyyətinə çevrilir. Həmin tarixi mərhələdə Azərbaycan ərazisinin bir hissəsi (cənub) onun əhalisilə birlikdə Şumer-Akkad mənbələri orbitinə düşür. Bu mənbələr isə bizə müharibələr, e.ə. III minilliyin son üç əsrində Azərbaycanda, ona qonşu olan vilayətlərdə baş vermiş hadisələr, orada yaşamış tayfaların adları və s. haqqında ilkin məlumatlar verir.

Güman etmək olar ki, Azərbaycan ərazisində ilk böyük tayfa ittifaqları İlk Tunc dövrünün sonlarında yaranmağa başlamışdır.

Cənubi Azərbaycanda və ona bitişik olan ərazilərdə yaşamış tayfalar haqqında ilkin yazılı mənbələr e.ə. XXIII əsrə aiddir. Onlar xüsusilə kutilər, lullubilər, hurrilər və b. haqqında məlumat verir.

Akkad hökmdarı Naramsin (Naram-Suen) artıq e.ə. XXIII əsrin son rübündə Mesopatamiyaya soxulmuş kutilərlə toqquşmalı olmuşdu. Kutilərin başçısı Enridavazir Akkad qoşunlarını məğlub etmiş, Cənubi Mesopatamiyaya gəlib çatmış, orada özünü "dünyanın dörd ölkəsinin hökmdarı" elan etmiş, buna dair iri kitabə yazdırmışdı. Kutilər Mesopotamiyada soyğunçuluq və zorakılıq idarə üsulu tətbiq etmişdilər. Onlar şəhərləri dağıdır, çoxlu insan qırırdılar. Qədim yazı kutiləri Şumer çarlığını dağlara aparan, Şumerə düşmənçilik gətirən, arvadı ərindən, uşaqları valideynlərindən məhrum edən "dağ əjdahaları" adlandırır.

Siyasi baxımdan kamil olmayan gəlmə tayfalar zəbt olunmuş ölkədə dövlət aparatının mühüm sahələrinin idarə edilməsini yerli zadəganlara həvalə edir və beləliklə, öz mövqelərini zəiflədirdilər. "Dağ əjdahaları"nın artan zülmü istila olunmuş vilayətlərin əhalisini onlara qarşı qaldırırdı. Son kuti hökmdarı Tirikan cəmi 40 gün hökmranlıq etmişdir. E.ə. XXII əsrin sonunda kutilər Mesopotamiyadan qovuldular.

Mesopotamiya epizodu ölkənin istilası zamanı artıq ibtidai icma münasibətlərinin süqutu mərhələsində olan kutilərə müəyyən təsir göstərməyə bilməzdi.



downloaded from KitabYurdu.az

Kutilərin Mesopotamiyada təxminən bir əsrlik ağalığı onlar arasında nəsil-tayfa münasibətlərinin dağılması prosesini sürətləndirməli idi.

Mesopotamiyadan qovulmuş kutilər vətənlərinə - Kürdüstana və Cənubi Azərbaycan vilayətlərinə qayıtdılar. Ehtimal etmək olar ki, onların buradan tədricən digər tayfa ittifaqı lullubilər tərəfindən sıxışdırılması başlandı. Kutilər əvvəllər yaşadıqları vilayətlərdə mövqelərini itirirdilər. Onların adına e.ə. II və hətta I minilliyin Akkad və Aşşur (Assuriya) mənbələrində təsadüf olunur. Lakin bu etnonim o dövrdə (hər halda e.ə. I minillikdə) artıq gerçək əhəmiyyətə malik deyildi. "Kuti" etnonimi Mesopotamiyadan şimalda və şərqdə yaşamış müxtəlif xalqlara şamil edilirdi.

Təbiidir ki, kuti elementi Zaqros ərazisindəki etnik proseslərdə müəyyən rol oynamışdır.

Böyük etnik və siyasi birliklərdən biri də lullubi tayfa ittifaqı idi.

Lullubilər haqqında ilk məlumat Akkad hökmdarı Naramsinin kitabələrindən birində mövcuddur. Hökmdar "Lullubum dağlılarını öz ətrafında toplamış Sidur[ri]" üzərindəki qələbəsilə öyünürdü.

Lullubi hakimlərinin özlərinin ilkin yazılı abidələri e.ə. XXIII əsrə aiddir. Onların içərisində ilk növbədə Sarıpulda (Zöhab şəhəri yaxınlığında) qayada həkk olunmuş "çar" Anubaniniyə məxsus olan relyefli kitabəni qeyd etmək lazımdır.

Anubanininin kitabəsinə istinadən göstərmək olar ki, ona tabe olan ərazi çox geniş idi. Ehtimal etmək olar ki, bu ərazi Urmiya gölündən İran körfəzinə qədər uzanırdı. Vaxtilə kutilərə məxsus olmuş ərazinin xeyli hissəsi sonralar lullubilərin əlinə keçmişdi.

Artıq e.ə. III minilliyin II yarısında lullubilər nəinki Azərbaycan və İranın, habelə Mesopotamiyanın tarixində əhəmiyyətli rol oynayırdılar. Güman etmək olar ki, lullubilər ən qədim dövrlərdən etibarən Mesopotamiya ilə sıx əlaqədə olmuşlar. Onlar Azərbaycan və ona qonşu olan vilayətlərin tarixində mühüm mövqelərini əsrlərlə (e.ə. I minilliyin əvvəllərinə qədər) saxlaya bilmişlər.

Ən iri tayfa ittifaqlarından biri də hurrilər idi. Bəzi faktlar iddia etməyə imkan verir ki, lullubilərin (habelə kutilərin də) hurrilərlə münasibəti e.ə. III minilliyin sonunda düşmənçilik xarakteri daşıyırdı. Bunu hurrilərin dilində "barbar" mənasında işlənən nullatum (lullu-[lullubilərin etnonimidir]-nullu sözündən alınmışdır) ifadəsi də təsdiq edir. Urartu dilindəki lullu - "düşmən" sözü də buradandır.

Urmiya gölü rayonlarında kaşşu (kassit) etnosunun da bir qismi yaşamışdır. Lakin onlar haqqında ilkin yazılı məlumatlar e.ə. II minilliyə aiddir.

E.ə. III minilliyin sonu - II minilliyin əvvəllərində Azərbaycan əhalisinin etno-dil mənsubiyyəti məsələsi mürəkkəbdir. Bu, yalnız ümumi şəkildə izah oluna bilər. Vaxtilə bizim biliklərimizin yeganə mənbəyi arxeoloji materiallar idi. Lakin onlar böyük dəyərə malik olmasına baxmayaraq, tayfalar, tayfa birləşmələri, onların adı və



downloaded from KitabYurdu.az

dili haqqında bizə heç bir məlumat vermirdi. Bu dövrdə vəziyyət əsaslı şəkildə dəyişdi.

E.ə. III minilliyin son rübündə Azərbaycan ərazisinin bir hissəsi (Urmiya gölündən qərbdə və cənubda yerləşən vilayətlər) əhalisilə birlikdə Şumer-Akkad yazılı mənbələri orbitinə düşür. Həmin dövrdə yaşamış tayfaların bəzilərinin adları bizə məlumdur. Onomastik materiallar əsasında həmin ərazidə yaşamış əhalinin dilləri haqqında müəyyən müddəa irəli sürmək mümkündür. Yazılı mənbələr müxtəlif tayfalar, tayfa birlikləri ilə bağlı olmuş siyasi həyatın konkret hadisələrinə dair məlumatlar verir.

Cənubi Azərbaycanın və ona qonşu vilayətlərin o dövrkü əhalisinin (hurrilər istisna olunmaqla) dil mənsubiyyəti haqqında bizim məlumatımız cüzidir. Müxtəlif mənbələrdə kuti, lullubi və kaşşı dillərindən bizə yalnız bir qədər ad və söz gəlib çatmışdır.

Əvvəllər bu dilləri Zaqr-Elam, Zaqros, Kasin və s. adlanan böyük dillər ailəsində birləşdirirdilər.

Belə müddəaların irəli sürülməsi zamanı müqayisəli material kimi əsasən qədim yazılı elam dilinin materiallarından istifadə edilirdi. İran yaylasında və ətraf vilayətlərin ərazisində elam elementinin geniş yayılmasını söyləmək üçün xeyli əsasımız vardır. Elam dili, şübhəsiz, dravid dillərilə qohumdur. Lakin kuti, lullubi, kaşşı dillərini, bu dillərin daxil olduğu fərziyyə olunan dil ailələrini bütünlüklə digər dil ailələrilə (xüsusilə Qafqaz, Dravid, Ural-Altay və başqaları ilə) əlaqələndirmək üçün əsas yoxdur. Son tədqiqatlar kaşşu dilinin elam dili ilə qohum olduğunu təsdiq etməyə imkan vermir.

Güman etmək olar ki, lullubi dili elam dilinə qohumdur. Lakıı bu gümana qəti inam yoxdur. Kuti dilinin Qafqaz dilləri ailəsinə aid olduğunu istisna etmək olmaz.

Zaqros dağlarının qərb ətəklərində, Urmiyanın qərb vilayətlərində və b. yerlərdə yayılmış ən mühüm elementlərdən biri də hurrilər idi. Bu ərazilər hurrilərin dravid dili daşıyıcıları ilə kontak zonası olmuşdur. Hər iki dil qrupları arasında aşkar edilmiş müəyyən uyğunluqlar bunu isbat edir. Dravid dillərinin hurrilər vasitəsilə Qafqaz dillərinə təsirini də ehtimal etmək olar. İran yaylası ərazisində dravid elementinin mövcud olması şübhəsizdir. Antik müəlliflər bu tayfaların qalıqlarını "efioplar" adlandırırdılar.

Hurrilərin - bu "dağ xalqlarının" Qədim Şərq tarixində rolu olduqca böyük idi. Onlar şumerlərlə, akkadlılarla və elamlılarla yanaşı, qədim Ön Asiyanın dördüncü böyük mədəni xalqı hesab oluna bilər. Hələ e.ə. III minilliyin son rübündə hurrilərin yazısı olmuşdur.

Hurrilərin vətəninin Cənubi Qafqaz, Erməni yaylası və Dağlıq Kürdüstan ərazisi olduğunu güman etmək olar. Şimali Zaqros bölgəsində hurrilərin qədim dövrlərdən etibarən yaşamasını Şumer sənədləri də təsdiq edir. Hurrilər daha sonralar



downloaded from KitabYurdu.az

Fərat çayının yuxarı axarında, Şimali Mesopotamiyada, Tavr dağlarının ətəklərində, Kiçik Asiyada, Suriyada, Fələstində və digər ərazilərdə yayılmışdır. Hurri tayfaları Dəclə çayının orta axarında, Şimal-Qərbi Mesopotamiyada, Balix və Xarmis çayları vadilərində, Nuzidə (Kərkük, qədim Arrapxa yaxınlığında) və digər vilayətlərdə də yaşamışlar.

Hurri elementlərinin Şərqdəki vilayətlərdə (Mannada və hətta Aidiyada) da yaşadıqlarını güman etmək olar.

Vaxtilə hurrilərin "ari"liyi - Hind-Avropa mənşəli olmaları haqqında baxış mövcud idi. Bu baxışın tərəfdarları hesab edirdilər ki, ari olan hurrilər Mitanni dövlətində əhalinin yüksək təbəqəsini təşkil edirdilər. Onlar hurrilər arasında "hind" adları tapırdılar. Mesopotamiyada, Suriyada və digər vilayətlərdə "ari" sülalələrinin mövcudluğuna dair, Qədim Şərq tarixində onların rolu haqqında müxtəlif fərziyyələr irəli sürürdülər.

Müəyyən aridilli əhali kütləsinin qədimlərdə Ön Asiya vilayətlərinə soxulması məsələsi etiraz doğurmur. Lakin bu əhalinin Ön Asiyaya köçməsi probleminin hurrilərin dilinin səciyyəsi məsələsinə aidiyyəti yoxdur. Hurri dilinə yalnız bəzi hind-Avropa (aridilli) mənşəli söz və adlar daxil olmuşdu. Qətiyyətlə demək olar ki, hurri dili hind-Avropa dillərinə aid deyil. Artıq müəyyən edilmişdir ki, bu dil Urartu dilinə qohumdur. Son dövrdə hurri (eləcə də Urartu) dilinin Şimal-Şərqi Qafqaz dilləri ailəsilə bağlayırlar.

Mannada hurri və lullubi elementlərinin nisbəti məsələsi də tam şəkildə aydınlaşmamışdır. Lakin Manna dövləti dövründə Urmiya gölü ətrafında hurri etnosunun nisbətən geniş yayıldığı şübhəsizdir. Hurri elementləri antik dövrdə də burada məskunlaşmışdı. Lakin Mannanın tarixində lullubi elementinin rolunu və əhəmiyyətini qiymətləndirməmək olmaz.

Materialların cüziliyi kuti, lullubi, hurri və kaşşu tayfa ittifaqlarını arxeoloji komplekslərə bağlamaq imkanı vermir. Bunu yalnız müstəsna hallarda etmək mümkündür. Güman etmək olar ki, Urmiya gölünün qərb sahilində aşkar edilmiş və Cənubi Qafqaz mədəniyyətlərinə yaxın olan Göytəpə mədəniyyəti kutilərə məxsus imiş.

Bu dövrdə Şimali Azərbaycanın ərazisi yazılı mənbələrin diqqətindən kənarda idi. Buna görə də burada məskunlaşmış tayfaların, tayfa birliklərinin adları haqqında məlumatımız yoxdur. Biz buradakı siyasi, iqtisadi və mədəni həyat hadisələrini müəyyən ad daşıyan etnik birləşmələrlə əlaqələndirmək imkanına malik deyilik. Həmin ərazi əhalisinin etnik, dil şəraiti haqqında konkret bir fikir söyləmək çox çətindir. Bu problemə dair müəyyən fərziyyələr yürütmək olar. Bununla belə bu regionda Şimal-Şərqi Qafqaz dillərinə qədər hər hansı bir başqa dil ünsürlərinin yayılmasını söyləmək üçün əsas yoxdur.



downloaded from KitabYurdu.az

Demək olar ki, Şimal-Şərqi Qafqaz (Şərqi Qafqaz) qrupu (İber-Qafqaz qrupu kimi) Qafqaz ərazisində avtoxton olmuşdur. Qafqaz xalqlarının və dillərinin miqrasiya mənşəli olması fikri elmdə tənqidi surətdə qarşılanmışdır. Dilçilərin əksəriyyəti Qafqaz dilləri ailəsinin bütün budaqları arasında qədimdən qohumluq əlaqəsinin olduğunu ehtimal edir. Lakin bu qohumluq əlaqəsi hələ də qəti şəkildə sübut edilməmişdir. Əgər vahid Ümumqafqaz dilinin mövcudluğu fərziyyəsinə inansaq, bunu e.ə. III minilliyə deyil, daha qədim dövrlərə aid etmək lazımdır. Bütün Qafqaz dillərinin digər dillərlə və dil ailələri ilə (xüsusən Ön Asiyanın qədim dillərilə) genetik münasibəti məsələsi də həll olunmamışdır.

Şimal-Şərqi Qafqaz dil ailəsinə aid olan Nax-Dağıstan dilləri qrupunun hurri və Urartu dilləri ilə qohumluğu haqqındakı baxışı daha əsaslı hesab edilir. Bəzi müəlliflər hurri-Urartu dillərinin Hind-Avropa dillərilə "uzaq qohumluğu" olduğunu iddia edirlər. Qafqaz dillərində Hind-Avropa elementləri haqqında, qədim Hind-Avropa-Qafqaz uyğunluqlarına dair, Hind-İran-Qafqaz əlaqələri barədə mülahizələr də mövcuddur.

Son tədqiqatlarda Şimal-Şərqi Qafqaz dilləri ailəsinə hurri-Urartu və Nax-Dağıstan dilləri qrupundan başqa, Kiçik Asiyada, habelə Kipr, Lemnos adalarında və s. yayılmış bir sıra dilləri də daxil edirlər. Güman etmək olar ki, buraya etrusk dilini də daxil etmək mümkündür.

Kuti dilini də bu dillər ailəsinə aid etməyə müəyyən əsaslar vardır. Belə bir mülahizə söylənilmişdir ki, "udi" (Qafqaz Albaniyasının əsas əhalisi olmuş utilərin etnonimi. Müasir udilər onların qalıqlarıdır) Quti adının refleksidir. Maraqlıdır ki, Qafqaz dağlıları arasında Qutiyev//Kutiyev familiyalarına təsadüf olunur.

Təbiidir ki, bu mülahizələr kutilər və kuti dili problemini həll etmir. Bu yaxınlarda kuti dilinin hind-Avropa səciyyəli olması haqqındakı nöqteyi-nəzərin söylənməsi bu problemi daha da mürəkkəbləşdirmiş, kutilər isə daha sonrakı hind-avropalılar olan toxarlarla əlaqələndirilmişdir.

Həmin (yəni Şimal-Şərqi Qafqaz) dil ailəsinə Qafqaz Albaniyasının yerli əhalisinin dili-adətən uti (uti) dili ilə eyniləşdirilən alban dili də aiddir.

Son dövrədək sübut olunmamış Qafqaz dil birliyini Kür-Araz ilk tunc mədəniyyəti ilə əlaqələndirirdilər. Lakin mütəxəssislər bu fikrin qeyri-mümkünlüyünü dəfələrlə qeyd etmişlər. Son illərdə Kür-Araz mədəniyyətinin hind-Avropa mənşəli olmasına dair fərziyyə irəli sürülmüşdür. Lakin bu fərziyyə tarixi gerçəkliyə uyğun deyildir.

E.ə. II minillikdə Azərbaycan vilayətlərində əhalinin etnodil mənsubiyyəti məsələsi ilə əlaqədar olaraq qeyd etmək lazımdır ki, artıq bu dövrdə kuti elementi əvvəlki əhəmiyyətə malik deyildi. Kutilərin rolu əsasən lullubilərin və hurrilərin əlinə keçmişdi. "Kutilər" adına sonrakı vaxtlarda da təsadüf olunur. Məsələn, Kaşşu-Babil dövlətinin banisi olmuş II Aqum (e.ə. XVI əsrin əvvəlləri) özünü "...geniş Babil



downloaded from KitabYurdu.az

ölkəsinin hökmdarı, Padan və Almanın hakimi, kutilərin-ağılsız adamların ağası" adlandırırdı. Bu etnonim artıq gerçək mənasını itirmiş, ümumi mənada İran Kürdüstanı və Cənubi Azərbaycanda məskunlaşmış tayfaları göstərmək üçün istifadə olunmuşdur. Daha sonrakı dövrdə bu ad yüksək üslubda tərtib olunmuş və arxaik dildə yazılmış kitabələrdə tətbiq edilirdi.

E.ə. II minillikdə lullubilərin geniş yayılması və əhəmiyyətli rolu bir sıra Qədim Şərq materialları ilə təsdiq olunur. Tamamilə şübhəsizdir ki, lullubilər əvvəllər kutilərə məxsus olmuş ərazilərin böyük hissəsinə sahib olmuşdular. Lullubilər məskunlaşdıqları ərazilərin qərbində yerləşmiş vilayətlərə də soxulmuşdular. Güman olunur ki, e.ə. II minilliyin əvvəllərində Aşşur (Assuri) taxtına lullubilər sülaləsi sahib olmuşdu. Lullubilərin Qərb istiqamətində irəliləməsini hett mənbələri də təsdiq edir. Həmin mənbələrdə lula hi (lulahi) adı qeyd olunur ki, bu da xüsusi kateqoriyalı döyüşçüləri təşkil edirmiş.

E.ə. II minillikdə Ön Asiya tarixində hurri tayfalarının rolu və əhəmiyyəti, əvvəllər olduğu kimi, böyük idi. Hələ e.ə. III minilliyin ikinci yarısında hurrilər yaşadıqları ərazinin hüdudlarından kənara çıxmağa başladılar. Artıq e.ə. II minilliyin əvvəllərində onlar Şimali Mesopotamiyanı, Suriyanı və Kiçik Asiyanın bir çox ərazilərini ələ keçirdilər. Hurrilərin adlarına Mari, Babilistan və Elamda rast gəlirik.

E.ə. II minilliyin ikinci rübünün əvvəllərində hurrilər Şimali Mesopotamiya ərazisində Ön Asiyanın ən böyük dövlətlərindən birini - Mitanni-Haniqalbatı yaradırlar.

Güman olunur ki, Mai(t)ta(n)ne-Mitanni adı Urmiyakənari vilayətin (Matienanın) adında da öz əksini tapmışdı. Burada hələ e.ə. I minillikdə hurrilər, habelə hurri mənşəli sayılan matieilər yaşayırdılar. Onlar Halis çayı hövzəsində də məskunlaşmışdılar.

Bəzi tədqiqatçılar Qədim Şərqdə ari ekspansiyası problemini hurrilərlə əlaqələndirirlər. Hazırda Ön Asiya vilayətlərinə hələ e.ə. II minilliyin birinci rübünün sonlarında müəyyən hind-İran mənşəli əhali kütləsinin gəlməsi məsələsi heç bir şübhə doğurmur.

Biz ari tayfalarının Ön Asiyaya müdaxiləsi probleminə ona görə toxunduq ki, onların hurri-mitannilərlə kontaktı təxminən e.ə. II minilliyin I—II rübündə, məhz, Urmiyayanı ərazidə, sonralar Matiena adlanan və hurri-matienlərin məskunlaşdığı vilayətdə baş vermişdi. Arilərin bir qrupunun Yaxın Şərq vilayətlərinə Qafqaz vasitəsilə Cənubi Rusiya çöllərindən müdaxilə etdiyini iddia etməyə əsasımız vardır.

E.ə. II minilliyin birinci rübündə tarix səhnəsinə kaşşu (kassit) tayfa ittifaqı çıxdı. Güman etmək olar ki, kaşşu etnosunun məskunlaşdığı əsas ərazi Luristan olmuşdur. Bəzən alimlər belə hesab edirdilər ki, kaşşuların vətəni Dağlıq Zaqros əraziləri deyil. Çünki onlar buraya guya mitannilər tərəfindən sıxışdırılmışdılar və kassitlərin vətənini Şərqi Kiçik Asiya ilə qonşu olan vilayətlərdə axtarmaq lazımdır.



downloaded from KitabYurdu.az

Onomastik materiallar kassu (kassitlərin Aşşur-Babil mənbələrindəki adı, Nuzi mənbələrindəki kassuhai) tayfalarının həm tarixi səhnəyə çıxdığı dövrdə (əgər kaşşu-kaspi eyniləşdirilməsi düzgündürsə), həm də daha sonrakı tarixi mərhələdə (antik müəlliflər bu haqda məlumat verirlər) geniş yayılması haqqında müddəa irəli sürməyə imkan verir.

Kaşşu etnosunun geniş yayıldığını və tanındığını aşağıdakı faktlar da sübut edir. Antik müəlliflər onların adı ilə Kaspi dənizini, habelə Qafqaz-Kaspini adlandırırdılar. Kaspilər Madada (Midiyada), Kaspi dənizi sahillərində və digər yerlərdə yaşayırdılar. Kaspilər, onlarla eyniləşdirilən kosseylər səkkizinci satraplıqda rnadalılar və matienlərlə yanaşı məskunlaşmışdılar. Kosseylərin Kaspi keçidinin yaxınlığında və Zaqros vadilərində olduğu da qeyd edilir. Pamiryanı vilayətlərdə məskunlaşmış kaspilər haqqında da antik müəlliflər məlumat vermişlər. Kaspilər barədə nəinki Qədim Şərq (arame) mənbələri və antik yazıçılar, habelə orta əsr erməni müəllifləri də məlumat verirlər.

Maraqlıdır ki, yunanca "qalay" mənasını verən "kassiteros" sözü, güman edildiyi kimi, kassitlərin adı ilə əlaqədardır. Şübhə yoxdur ki, Kaspi dil ailəsi İran yaylası ərazisində avtoxton idi.

Kassit tayfaları tarix səhnəsinə hələ e.ə. II minilliyin əvvəllərində çıxmışdılar. Bu zaman onlar Zaqros dağ vilayətlərindən sürətli axınla Babilistan üzərinə irəliləmiş, 500 ildən artıq müddət ərzində bu ölkəyə sahib olmuşlar.

Tamamilə şübhəsizdir ki, II Aqumun (e.ə. XVI əsrin əvvəlləri) hökmdar olduğu ərazilər Urmiyayanı vilayətə qədər uzanırdı. Maraqlıdır ki, Kaspi hökmdarının titulu (janzi) həm Urmiyayanı bölgədə, həm də Van gölü ətrafında yayılmışdı.

Güman etmək olar ki, məşhur Luristan tuncları kassitlərlə bağlıdır. Biz materiallara əsasən kassitlərin mifoloji və digər görüşlərinə dair müəyyən fikir irəli sürə bilərik. Bizə Kassit allahlarının bəzi adları, xüsusilə Günəş allahının adı və ya onun epiteti məlumdur.

Kassit-akkad qlossarisindən bizə 50-yə yaxın kassit sözü gəlib çatmışdır. Vaxtilə əsasən onomastik materiallar zəminində kassit dilini Zaqros-Elam, Qafqaz, hind-Avropa dilləri qrupuna aid edir, Elam-Kassit qohumluğu haqqında fikirlər söyləyirdilər. Bu baxış ən yeni tədqiqatlarla inkar olunur. Vaxtilə kassitləri "ari təsirinə" məruz qalmış tayfalar, yaxud "proto-hind-Avropa nitqi"nin ən qədim daşıyıcıları" hesab edir və onların dilini hind-Avropa dilləri ailəsinə daxil edirlər. Lakin bu fikirlər zəif əsaslandırılmışdır. Hurrilər kimi kassitlərin də müəyyən ari elementini özlərinə daxil edə bilməsi istisna olunmur. Hər halda arilərin kassitlərə təsiri şübhə doğurmur. Kassit dilini hatt, kaşk, habelə Qafqaz dilləri ilə bağlamaq cəhdləri edilməsini də qeyd etməmək olmaz. Tamamilə şübhəsizdir ki, mənşə etibarilə kassitlər yerli əhali olmuşlar.



downloaded from KitabYurdu.az

Antropoloji materiallar müasir azərbaycanlıların fiziki tipinin təşəkkülündə hələ çox qədim dövrdə bizi maraqlandıran ərazidə yayılmış, avropoid irqinin iki tipinin iştirak etdiyini söyləməyi imkan verir. Güman etməyə əsas vardır ki, antropoloji baxımdan azərbaycanlıların müxtəlifliyi çoxəsrlik etnogenetik proseslərin inikasıdır. Tunc dövründə Azərbaycan vilayətlərində məskunlaşmış tayfaların və tayfa birliklərinin əksəriyyəti əvvəllər də burada mövcud olmuş həmin iki antropoloji elementdən törəmişdir.

Həmin tiplərdən biri ("Kavkasion" adlanan tip) əsasən Mərkəzi Qafqaz ərazisində mövcuddur. Tədqiqatçılar bu tipin Qafqazda yerli olduğunu təsdiq edərək, onun hələ son paleolit dövründə Baş Qafqaz sıra dağlarının yüksək dağ ətəklərini məskunlaşdırmış etnik qruplardan törədiyini iddia edirlər. Bəzi alimlər Qafqazdakı "Kavkasion" tipin qədimliyini inkar etməyib, bu tipə aid olan qrupların əcdadlarının şimaldan gəlməsinin mümkünlüyü haqqında fikirlər söyləyirlər. Lakin "Kavkasion" tipin yerliliyi haqqında fikir son illərdə elmi cəhətdən bir daha əsaslandırılmışdır. Hər halda təsdiq etmək olar ki, Qafqazda "Kavkasion" tipi kompleksi ən azı 3 min il, bəlkə də daha uzun müddət ərzində mövcuddur.

Mövcud olan bütün dəlillər "Kavkasion" tipin Qafqaz Albaniyasının əhalisi arasında geniş yayıldığını söyləməyə imkan verir. Hazırda "Kavkasion" antropoloji tipi Gürcüstanın dağ-etnoqrafik qrupları, Dağlıq Osetiyada, Çeçenistanda, İnquşetiyada, Dağıstanda balkarlar, çərkəzlər, kabardinlər, Azərbaycanda Şahdağ qrupu xalqları arasında yayılmışdır.

Azərbaycanlıların etnogenezində iştirak etmiş ikinci antropoloji tipi ümumi şəkildə "Aralıq dənizi tipi" kimi müəyyən edirlər. Antropoloqların güman etdiyi kimi, bütövlükdə Qafqazın başqa xalqları kimi azərbaycanlılar da böyük Avropa irqinin Hind-Aralıq dənizi qolunun nümayəndələrilə oxşardır. Lakin tədqiqatçıların bəziləri bu antropoloji elementi "Qərbi Kaspi tipi" adlandırır, onu Hind-Pamir (Hind-Əfqan) irqi nümayəndələri - Əfqanıstanın, Şimali Hindistanın və Cənubi Orta Asiyanın əhalisinin bir hissəsilə əlaqələndirirlər. Digər alimlər isə bu elementin Ön Asiya irqindən olan fərdlərlə yaxınlığını qeyd edərək, güman edirlər ki, ona oxşar və "Xorasan irqi", ya "İran yaylası tipi" adlandırılan antropoloji tip İranın, xüsusilə Cənubi Azərbaycanın müasir əhalisinin müxtəlif qrupları arasında mövcuddur.

Azərbaycanlıların ikinci antropoloji tipinin onların indi yerləşdiyi ərazidə məskunlaşmasının qədimliyinə şübhə etməyə əsas yoxdur. Bu antropoloji tipin yerli mənşəli olması şübhəsizdir. Həmin tip Azərbaycan vilayətlərində hələ qədim zamanlarda geniş yayılmışdı. Buna görə də belə zənn edirlər ki, Azərbaycan xalqının qədim əcdadlarından birini qədim Ön Asiya xalqları arasında axtarmaq lazımdır.

Dağlıq Zaqros vilayətlərində qədim dövrlərdə aşşurlulara bənzər (assirioid) antropoloji tip mövcud olmuşdur.



downloaded from KitabYurdu.az

Mövcud olan cüzi materiallar Azərbaycanın və ətraf ərazilərin qədim sakinlərinin nəinki yalnız xarici görkəmi - antropoloji əlamətləri, habelə bu tayfaların bəzi etnoqrafik xüsusiyyətləri - onların geyimi və s. haqqında müəyyən təsəvvürə malik olmaq imkanı verir.

Naramsinin stelası və Anubanininin qaya üzərindəki relyefinə əsasən demək olar ki, lullubilər qısa saç və saqqal saxlayırdılar. Onların geyimi köynəkdən (tunika), qurşaqdan ibarət olurdu, onların üzərindən isə çiyninin bir tərəfinə dəri atılırdı. Bu, e.ə. I minillikdə də Cənubi Azərbaycan sakinlərinin, həmçinin kaspilərin geyimi olmuşdur. Baş geyimindən biri Şumer-Akkad mənşəli idi. Digəri isə ("tac" - tiara) daha sonrakı dövrlərdə (e.ə. I minillikdə) madalılar və farslar üçün səciyyəvi olmuşdur.

Materiallar sübut edir ki, Azərbaycanın yerli əhalisi uzun əsrlər ərzində özünün antropoloji tipini və etnoqrafik xüsusiyyətlərini saxlaya bilmişdi. Bu isə etnik əlamətlərin və qədim ənənələrin əsasən sabitliyinə dəlalət edir.

Beləliklə, təxminən e.ə. III minilliyin ikinci yarısında Cənubi Azərbaycanda və ona qonşu vilayətlərdə ilk böyük tayfa ittifaqları - etnososial səciyyə daşıyan etnik birləşmələr meydana gəldi. Bu birləşmələrdən hər biri qohum tayfalardan - qonşu ərazilərdə yaşayan, bir dilin müxtəlif ləhcələrində danışan və ümumi mədəniyyətin bir çox xüsusiyyətlərinə yiyələnmiş əhali qruplarından ibarət idi.

Azərbaycanın tarixi sivilizasiyası, şübhəsiz, yerli tayfalar, tayfa ittifaqları tərəfindən yaradılmışdır. Lakin qeyd etmək lazımdır ki, müasir azərbaycanlılar qədimdən Azərbaycanda və ona qonşu vilayətlərdə yaşamış qədim, yerli etnik birləşmələrin varisi olmaqla yanaşı, yalnız yerli etnik dil qrupları əsasında formalaşmamışdı. Burada baş vermiş etnik proseslərdə kütləvi köçmələrin də rolu böyük olmuşdur.

Bəlkə də qədim dövrlərdə Azərbaycan ərazisində on azı iki Avropayi (avropoid) antropoloji tipin mövcudluğunun (alimlərin əksəriyyəti onları yerli hesab edirlər, lakin yerliliyi də şərti surətdə başa düşmək lazımdır), yazılı mənbələrdə isə bir neçə dildə danışmış tayfaların burada məskunlaşmasının səbəblərini müəyyən dərəcədə miqrasiyalarla izah etmək lazımdır.

Əsrlər və minilliklər ərzində Azərbaycanda yaşamış nəsillər tərəfindən "azadlıq refleksinin", yeniliyə marağın toplanması ölkə sakinlərinin mədəniyyətinə xüsusi dinamiklik və çeviklik vermişdir. Ən qədim zamanlardan antik dövrə qədər Azərbaycanda mövcud olmuş bir sıra parlaq mədəniyyət bu həqiqəti isbat edir.

Miqrasiyalar ən qədim dövrlərdə də baş verirdi. Lakin miqrasiyaların rolunu və əhəmiyyətini mütləqləşdirmək lazım deyildir. Bununla belə, miqrasiyaların bəşər tarixində çox mühüm rol oynamasını qeyd etməmək olmaz.

Qədim dövrlərdə xalqların və hətta qohum xalq qruplarının köçü baş verirdi. Məsələn, e.ə. III-II minilliklərin qovuşuğunda hett tayfaları Kiçik Asiyaya köçmüşlər.



downloaded from KitabYurdu.az

Güman etmək olar ki, təxminən həmin dövrdə Hellin tayfalarının Yunanıstan ərazisində yerləşməsi baş vermişdir. Təxminən e.ə. II minilliyin sonu, yaxud I minilliyin başlanğıcında Cənubi Rusiya çöllərindən çıxmış İrandilli tayfalar iran yaylası vilayətlərində yerləşməyə başlamışdılar. Onların yaxın qohumları olan hind-ari tayfaları daha əvvəlki dövrdə Hindistana soxuldular.

Etnosların (xalqların) əksəriyyəti müxtəlif etnik qrupların - yerlilərin və gəlmələrin qovuşması nəticəsində təşəkkül tapmışdı. Bu obyektiv həqiqət həm müasir, həm də qədim xalqlara aiddir. Təbiidir ki, Azərbaycan ərazisində baş vermiş etnik proseslər də müstəsna ola bilməzdi. Ölkəmiz artıq çox qədim dövrlərdə, dəfələrlə müxtəlif tayfaların və xalqların müdaxiləsinə məruz qalmışdı.

Qeyd etmək lazımdır ki, bəşər tarixi həmişə antropoloji, dil və mədəni mənsubiyyəti baxımından müxtəlif qrupların əlaqəsi və qovuşması tarixi olmuşdur. Dünyada "təmiz", "özgə" elementlərini mənimsəməmiş xalq yoxdur.

**Abidələrin icmalı.** Orta Tunc dövrü Qafqaz və qonşu ərazilərin maddi mədəniyyətində əvvəl mövcud olmuş ümumiliyin aradan çıxması, kiçik ərazili mədəniyyətlərin yaranması və inkişafı ilə səciyyələnir. Hər şeydən əvvəl bu, memarlıqda düzbucaqlı tikililərin inşasında, metalişləmə və dulusçuluq sənətində yeni formalı predmetlərin istehsalında öz əksini tapır. Ötən dövrdə atribut rolunu oynayan dairəvi gil manqallara, yarımkürə formalı qulplara və ümumiyyətlə, dulusçuluqda qabların qulpla təchizolunma hallarına demək olar ki, rast gəlinmir. Azərbaycanın cənub ərazilərində boya naxışlı, qırmızı, şimalında isə qazma naxışlı qara-boz saxsı məmulatı Orta Tunc dövrü abidələrinin mədəni mənsubiyyətinin göstərici əlamətini təşkil edir.

Azərbaycanda Orta Tunc dövrü abidələri Naxçıvanda, Kür və Araz vadilərində, Urmiya gölü hövzəsində, Qarabağ düzənliyində, Muğanda, Qobustanda, Abşeronda və bir sıra başqa bölgələrdə məlumdur və qismən öyrənilmişdir.

Urmiya gölü hövzəsində Göytəpədə yaşayış hələ neolit dövründə başlamışdır. E.ə. III minilliyin ortalarında uzunmüddətli yaşayışdan sonra sakinlər oranı tərk edirlər. Müəyyən fasilədən sonra orta tunc dövründə Göytəpə yenidən məskunlaşır. Yeni sakinlərin Göytopədə yaratdığı maddi mədəniyyət ilk tunc dövrü üçün səciyyəvi deyildir. Bu, hər şeydən əvvəl, dulus məmulatına, onun çoxrəngli naxışlı qab-qacağına aiddir. Yaşayış yeri daş bina üzərində çiy kərpicdən, 3,6 m qalınlığında müdafiə qalası ilə əhatə olunmuş, evlər bir neçə otaqdan ibarət dördkünc formada tikilmişdir.

Urmiya gölü hövzəsində Həftəvan yaşayış yeri kərpic divarla əhatə olunmuşdur. Bəzi sahələrdə müdafiə divarının qalıqları 3,3 m hündürlükdədir. Düzplanlı təsərrüfat və yaşayış binalarının inşasında kvadrat kərpiclər (31x31x9,5; 36x36x8,5 m) tətbiq olunurdu. Otaqlardan birinin divarı dibində möhrədən səkiyəbənzər yataq yeri aşkar olunmuşdur.



downloaded from KitabYurdu.az

Bu dövrün mədəniyyəti əldə və yaxud çarxda hazırlanmış dulus məmulatında az-çox dolğun əks olunur. Dulus məmulatında ən maraqlı əlamət onun boyalı naxışı olmasıdır.

Naxçıvanın I və II Kültəpə yerlərində Orta Tunc dövrü təbəqələri İlk Tunc dövrü Kür-Araz mədəniyyəti mədəni təbəqəsi üzərində yerləşir. Evlər düzplanlıdır. II Kültəpədə yaşayış yeri 3 ha sahəni əhatə edir. Onun üçdə bir hissəsi bürcləri, dayaqları olan müdafiə divarı ilə əhatə olunmuşdur. Eni 2 m olan qala divarı palçıqla bərkidilmiş daş bünövrə üzərində hörülmüşdür. Divarın özünün inşasında iri kvadrat kərpiclərdən istifadə olunmuşdur (32x32x11 sm; 38x38x12 sm; 40x40x12 sm; 44x44x12 sm). Az keçmədən qala divarı dağıntıya məruz qalır və öz müdafiə əhəmiyyətini itirir. Ancaq bir qədər sonra o bərpa olunur, lakin sahəsi xeyli kiçilir. Qalanın şərq və cənub hissəsində köhnə divar əvəzinə yenisi tikilir. Yaşayış və təsərrüfat tikililəri düzplanlı olub, palçıqla bərkidilmiş daşdan hörülmüşdür. Bəzi evlər bir neçə otaqlıdır. Güclü və qəflətən baş vermiş yanğından tikintilər dağılmış, yaşlı bir adam sümükləri yanğın qalıqları içərisindən tapılmışdır.

Orta Tunc dövründə II Kültəpədə dörd inşaat qatı və 4 m-dən artıq mədəni təbəqə burada yaşayışın uzunmüddətli olması haqqında təsəvvür yaradır. Yaşayış yerindən çoxlu və müxtəlif material tapılmışdır. Burada rast gəlinən daş gürzlər müxtəlif sahələrdə istifadə olunmuşdur. Çox güman ki, onların zərif nümunələri silah kimi tətbiq edilmişdir.

Yaşayış yerindən dən üyütməkdə istifadə olunan daş alətlər, çaxmaq daşından oraq dişləri, taxıl qalıqları, ev heyvanlarının sümükləri, metal əşyalar, metal tökmək üçün gil buta, əldə, qismən də çarxda hazırlanmış müxtəlif formalı sadə və boyalı qab-qacaq məlumdur. Naxış əksər halda həndəsi fiqurlardan ibarət olsa da, insan, quş və heyvan təsvirlərinə də rast gəlinir.

Bir və bir neçə rənglə naxışlanmış Orta Tunc dövrü gil məmulatı Naxçıvan ərazisində Şortəpə, Nəhazir, Əznəbüt, Xalac abidələrindən məlumdur.

Kür-Araz ovalığında Orta Tunc dövrü abidələri Bərdə rayonunda Şortəpə, Ağdam rayonunda Rəsultəpə, Göytəpə, Çinartəpə, Ağcabədi rayonunda Çaqqallıtəpədə və b. yerlərdə müəyyən edilmişdir. Maraqlı materiallar Üzərliktəpə və Qaraköpəktəpə qazıntılarından məlumdur.

Bu dövrün ən yaxşı öyrənilmiş yaşayış yerlərindən olan Üzərliktəpə Ağdam şəhərinin şərq kənarında yerləşir, 3 ha sahəni tutur. Üzərliktəpədə üç inkişaf mərhələsini əks etdirən 6 metrlik qalın mədəni təbəqə əmələ gəlmişdir. Yaşayış yeri iri, kvadratşəkilli kərpicdən hörülmüş, eni 2 m olan müdafiə qalası ilə əhatə olunmuşdur. Qalanın şərq divarında giriş yolunun hər iki tərəfində çöl üzdən düzbucaqlı dayaqlar hörülmüşdür. Yaşayış yeri güclü yanğından iki dəfə dağılmışdır. Bir evin döşəməsində daş həvəng, dəndaşı, çaxmaqdaşından oraq dişləri, cilalı qara qablar, tunc xəncər, iynə və başqa əşyalar vardı. İri gil qabda və torbada olan buğdanı



downloaded from KitabYurdu.az

tələsikdə apara bilməmişlər. Yanğından sonra müdafiə hasarı öz əhəmiyyətini itirir və Üzərliktəpə müdafiəsiz, açıq yaşayış məskəninə çevrilir. Azərbaycanın bütün Orta Tunc dövrü yaşayış yerləri üçün səciyyəvi olan düzplanlı tikililər burada da inşa olunurdu.

Üzərliktəpənin dulus məmulatı sadə və boyalı qablar qrupuna bölünür. Birinci cilalı qablar qrupu yaşayış yerinin bütün mərhələlərində davam edərək, bir neçə əsr ərzində dulus məmulatının müxtəlifliyini və inkişafını aydın əks etdirir. Onun bəzi nümunələrinin cızma naxışları ağ maddə ilə doldurulmuşdur.

Üzərliktəpənin ikinci mərhələsində təmiz gildən yaxşı bişirilmiş, üzərində birrəngli boya naxışları olan qırmızı qablar meydana gəlir.

Orta Tunc dövrünün bir yaşayış yeri də Köndələnçayın sahilində Füzuli şəhərinin qarşısında yerləşir. O, Qaraköpəktəpədə İlk Tunc dövrü yaşayış yerinin üzərində salınmışdır. Orta Tunc dövrünün mədəni təbəqəsinin qalınlığı 2,5 m-ə çatır. Bu yaşayış yeri də müdafiə divarı ilə əhatə olunmuşdur. Yaşayış yerinin sakinləri oturaq həyat tərzi keçirir, əkinçilik və maldarlıqla məşğul olur, ətrafın otlaq sahələrindən istifadə edirdilər. Yaşayış yerində dulusçuluq, toxuculuq və başqa sənət sahələri inkişaf etmişdi.

Böyük Qafqazın cənub yamaclarında və dağətəyi qurşaqda Orta Tunc dövrünə aid abidələr hələ ki, az məlumdur. Ancaq Şəki rayonunda bu dövrün bir qrup kurqan qəbirləri öyrənilmişdir.

Azərbaycanın Xəzərsahili boyu məskunlaşmış qəbilələrin yaşayış yerləri, cənub və qərb vilayətlərinin yaşayış yerlərindən fərqli olaraq, uzunmüddətli olmamışdır; buna görə də onların mədəni təbəqələri zəifdir. Belə yaşayış yerlərindən biri Qobustanda Böyükdaşdağı üzərində aşkar olunmuşdur. Burada daşdan hörülmüş düzplanlı yaşayış və təsərrüfat tikililərinin qalıqları öyrənilmişdir.

Muğanın Orta Tunc dövrü yaşayış yerlərində də mədəni təbəqə zəifdir. Belə ki, Mişarçayda mədəni təbəqə cəmi 0,6 m-dir. Dəvəçi rayonunda Sərkərtəpə yaşayış yerində orta tunc dövrü mədəni təbəqəsinin qalınlığı cəmi 0,4 m-ə çatır. Zəif mədəni təbəqəyə malik yaşayış yerlərinin qalıqları Abşeronda da vardır (Bəndüstü, Dübəndi, Türkan). Ola bilsin ki, Xəzərsahili rayonları orta tunc dövrü yaşayış yerlərində qısamüddətli həyat onların sakinlərinin təsərrüfatında köçəri maldarlığın güclənməsi ilə əlaqədar olmuşdur.

Orta Tunc dövrü mədəniyyət qalıqlarının ikinci böyük qrupunu dəfn abidələri təşkil edir. Orta dövrün qəbir abidələrinin bir növü daş kromlexli kurqanlardır. Kromlex (daşdan dairə) qəbrin ətrafında qurulurdu. Qəbir adətən kromlexin ortasında qazılır, üzərində daş və torpaqdan təpə düzəldilirdi. Kurqanlar əhalinin maldarlıqla məşğul olan, hərəkətli həyat tərzi keçirən hissəsinə mənsubdur. Düzən sahələrdə və çay vadilərində yerləşən əhaliyə gəldikdə isə onlar ölüləri adətən xarici əlaməti olmayan qəbirlərdə dəfn edirdilər. Məhz bununla əlaqədardır ki, oturaq-əkinçi əhaliyə



downloaded from KitabYurdu.az

mənsub Orta tunc dövrü qəbiristanlığı indiyə qədər aşkar olunmamışdır. Ordubad rayonunda Plovdağ adlanan yerdə tədqiq olunmuş ətrafına daş dairə çəkilmiş, bəzən üzərində çətinliklə müşahidə edilən daş qalığı olan torpaq və daş qutu tipli qəbirlərdən ibarət nekropol müstəsna hal təşkil edir.

Urmiya gölü sahilində Göytəpə yaşayış yerində və Naxçıvan ərazisində Qızılvəngdə də Orta Tunc dövründə daş qutularda dəfnetmə adətinə rast gəlinmişdir.

Azərbaycanda həmin dövrə aid qəbir abidələri yüksək dağlıq ərazilərdə alp çəmənliklərindən (Daşkəsən rayonunda, Xaçbulaq yaylağı), düzənlə dağın qovuşduğu hissədən (Tərtər rayonunda Borsunlu, Naxçıvanda Əznəbürt), həm də düzən rayonlardan (Muğanda) məlumdur.

Orta Tunc dövrü qəbir abidələrində ötən dövrə xas olan bir sıra əlamətlər saxlanılır. Bu, özünü qəbir tikililərin quruluşunda və dəfnetmə adətində göstərir. Son Tunc dövründə də belə ənənə müşahidə olunur.

Ölülər böyrü üstdə, bükülü vəziyyətdə müxtəlif əşyalar, bəzən də azuqəsilə birlikdə basdırılırdı. Dəfndən sonra qəbrin içində tonqal qalanması və ölüyandırma (kremasiya) mərasiminin keçirilməsi halları da qeydə alınmışdır. Muğanda Əliköməktəpədə Orta Tunc dövrünə aid qəbirdə kremasiya aydın müşahidə olunmuşdur. Azərbaycan ərazisində hələ İlk Tunc dövründə geniş yayılmış qəbirlərdə tonqalvurma və kremasiya adəti burada Tunc dövrünün sonlarına qədər davam edir.

**Təsərrüfat.** Mənbəyi minilliklərin dərinliyindən başlayan əkinçilik və maldarlıq Orta Tunc dövrü təsərrüfatının əsasını təşkil edir. Ölkə ərazisinin xeyli hissəsində, başlıca olaraq düzənlikdə və çay vadilərində uzunmüddətli oturaq həyat tərzini əks etdirən yaşayış məskənləri əkinçilik təsərrüfatı mərkəzləri olmuşlar. Taxılın biçilməsində və üyüdülməsində tətbiq olunan əmək alətləri (çaxmaqdaşından oraq dişləri, dəndaşları, sürtgəclər və daş dəstəklər) yaxşı məlumdur. Torpağın şumlanmasında ağac xışlardan istifadə olunurdu. Bəzi yaşayış yerlərinin su mənbələrindən kənarda, münbit torpaqlarda bina olunması suvarma əkinçiliyinin sonrakı inkişafını göstərir. Orta Tunc dövrü yaşayış yerlərindən müxtəlif taxıl növlərinin yanıb kömürləşmiş qalıqları əldə edilmişdir.

II Kültəpədən yabanı arpa, Üzərliktəpədən müxtəlif növ buğda, o cümlədən yumşaq, bərk, xırda buğda, həm də mədəni arpa dəni tapılmışdır. II Kültəpə və Üzərliktəpədə bəzi quyuların dibində darı qalıqları qeydə alınmışdır. Əkinçilik mədəniyyəti barədə başqa maddi dəlillər də məlumdur.

Orta tunc dövrü yaşayış yerlərinin sakinləri çörək bişirirmişlər.

II Kültəpə yaşayış yerində sacabənzər saxsı əşyalar tapılmışdır. Üzərliktəpədən tapılmış çörəkbişirmə üçün hazırlanan gil əşya tamamilə başqa görkəmə malikdir. O, bir qədər yastılanmış, hündür divarlı manqala bənzəyir. Belə əşya Son Tunc dövründə daha geniş yayılır. Üzərliktəpədə ocaqların birindən tapılmış tağalaqvari gil kökə də həmin dövrdə çörəyin bişirilməsini sübuta yetirir. Çörəyi təqlid edən həmin gil kökə



downloaded from KitabYurdu.az

yanmış taxıl və qədim əkinçilikdə məhsuldarlıq rəmzi kimi pərəstiş edilən qadın fiquru ilə birlikdə tapılmışdır. Azərbaycanın qədim oturaq əhalisinin inkişafında əkinçiliyin rolu nə qədər böyük olsa da, o həmişə maldarlıqla birgə olmuşdur.

Üzərliktəpə yaşayış yerinin materialına görə, onun əhalisi ən çox iribuynuzlu heyvan saxlayırdı, ikinci yeri xırdabuynuzlu heyvan tuturdu, sonra isə ev donuzu və at gəlir. Maraqlıdır ki, Üzərliktəpə yaşayış yerinin osteoloji materialı içərisində, qulan və ceyranı nəzərə almasaq, vəhşi heyvan sümükləri yoxdur. Sürüdə ev donuzunun olması Üzərliktəpə sakinlərinin yaxşı otlaq sahələrindən istifadə edərək, oturaq maldarlıqla məşğul olduğunu göstərir.

İstər xırdabuynuzlu, istərsə də iribuynuzlu ev heyvanları sümükləri Naxçıvan yaxınlığında II Kültəpədən də tapılmışdır. Buradan həm də at sümüyünə təsadüf olunmuş və ilk dəfə uzunqulaq sümüyü tapılmışdır. Yeri gəlmişkən, bu, Zaqafqaziyada uzunqulağın istifadə olunması haqqında birinci ən qədim məlumatdır.

Ata gəldikdə, o, Eneolit dövründən məlum olsa da, Azərbaycanda ev heyvanı kimi sonrakı dövrlərdə məhdud miqyasda saxlanılırdı. Zaqafqaziyanın Orta Tunc dövrü abidələrindən atın qoşquda və nəqliyyatda istifadəsi haqqında material əldə edilməmişdir. Ancaq Cənubi Azərbaycanda atın qoşquda istifadəsini göstərən məlumatlar vardır.

Orta tunc dövründə xırdabuynuzlu heyvan sürüsünün artması ilə köçəri heyvandarlıq özünün sonrakı inkişafını tapır. Təsərrüfatın bu növü ilə bağlı əhalinin xeyli hissəsi hərəkətli həyat tərzi keçirirdi. Yayda heyvan alp çəmənliklərinə aparılır, qışda isə düzən - aran rayonlara qaytarılırdı. Bu rayonlarda onların dəfn abidələri yaxşı məlumdur. Məsələn, Xaçbulaq yaylağında dəniz səviyyəsindən 2000 m hündürlükdə, Qobustan, Abşeron, Muğan qışlaqlarında və s.

Çoxlu miqdarda heyvan saxlamaq maldar qəbilələrin varlanmasında əsas mənbə olan izafi məhsul almaq imkanını yaradırdı.

Beləliklə, əkinçilik və maldarlıq təsərrüfatının Orta Tunc dövründə sonrakı inkişafı müşahidə olunur. Əgər oturaq əhalinin təsərrüfat əsasını əkinçilik və maldarlıq təşkil edirdisə, hərəkətli əhalinin təsərrüfatında demək olar ki, başlıca sahə maldarlıq idi.

**Sənətkarlıq.** Orta Tunc dövründə metallurgiyanın inkişafında yeni mərhələ başlanır. Əvvəllər məlum olmayan alət, silah, bəzək formaları yaranır, alətlərin hazırlanma texnikasında bəzi yeniliklər tətbiq olunur, tunc məmulatı istehsalında yeni elementlərin qatılmasından istifadə olunur. Məhz bu dövrdən başlayaraq metal əşyaların hazırlanmasında qalay qatımlı tuncdan (qalay 5-10 %) daha çox istifadə olunur. Belə tuncdan, məsələn, Üzərliktəpədən, Göytəpədən və Qobustandan tapılmış xəncərlər hazırlanmışdır. Qatma element kimi qalayla birlikdə mərgmüş və sürmə, həm də qurğuşun işlənirdi və beləliklə, ərinti çoxkomponentli olurdu. Ancaq yüksək keyfiyyətli tunc istehsalını qatma element kimi qalay təmin edirdi.



downloaded from KitabYurdu.az

Müxtəlif tipli məmulat, misəritmə istehsalı qalıqları, metal əşyaların tökülməsində istifadə olunan formalar metallurgiyanın və metalişləmənin geniş inkişafını aydın sübuta yetirir.

Əsas xammal mənbələrini, görünür, yerli mədənlər təşkil edirdi. Demək olar ki, hər bir yaşayış yerində metal əşyaların istehsalı ilə məşğul olurdular. Misəritmə istehsalı ilə əlaqədar qalıqlar Üzərliktəpədə aşkar olunmuşdur. Orada posa (şlak) parçası, həm də piyalə formalı gil buta tapılmışdır. II Kültəpədə və Qobustan Böyükdaş yaşayış yerində gil çömçələrə rast gəlinmişdir. Həftəvan yaşayış yerində ox ucluğu tökülən daş qəlibin tapılması böyük əhəmiyyət kəsb edir.

Metal məmulatı adətən çoxlu miqdarda dəfn abidələrdən əldə edilir. Əliköməktəpə qəbirləri belə abidələrdəndir. Onlardan balta, nizə ucluqları, xəncər tiyəsi, borulu qarmaq, mis qazan, dördtilli bizlər, çoxlu düymələr, sürmədən bikonik muncuqlar, qızıl və gümüşdən asmalar və s. tapılmışdır. Öyrənilən dövrdə silah və alətlər tökmə üsulu ilə hazırlanır, sonra isə onların ağız hissəsi qismən döyülür və yararlı işlək hala salınırdı. Əvvəllər olduğu kimi, indi də mumdan və ya başqa tezəriyən materialdan istənilən əşyanın modeli düzəldilir, üzəri gillə suvanır və əridilmiş metal modelə tökülərkən onun formasını alırdı. Əşyanı çıxarmaq üçün gil forma sındırılmalı idi. Bu üsulla əşyanı yalnız bir dəfə almaq olar.

Orta Tunc dövründə xəncər və borulu nizələr geniş yayılmış silah tiplərindən idi. Bəzi hallarda onların hazırlanma texnologiyası mürəkkəb olurdu. Tərtər rayonunun Borsunlu kurqanından əldə edilən bir xəncərin tiyəsinin içərisində məftil olduğu müəyyən edilmişdir. Modelə əridilmiş metal tökülməzdən əvvəl məftil onun ortasına qoyulmuşdur. Bundan da məqsəd xəncərin möhkəmliyini təmin etmək idi. Analoji üsullar Son Tunc dövründə də tunc silahların (xəncər, bıçaq) hazırlanmasında tətbiq olunurdu.

Şəki rayonunda bir kurqandan məlum olan xəncərin hazırlanmasında başqa üsuldan istifadə olunmuşdur. Onu tunc təbəqədən düzəltmişlər. Tunc təbəqədə uzunsov üçbucaq formasında, baş tərəfdə dilçək yeri qoymaqla xəncər tiyəsini kəsmişlər. Ağzı əlavə olaraq işlənib itilənmiş və ucu şişlənmişdir.

Xəncər və başqa silah növlərindən fərqli olaraq, borulu nizələrin hazırlanması daha mürəkkəb proseslə əlaqədar yüksək ustalıq vərdişi tələb edirdi. Əvvəldən hazırlanmış tunc lövhəni elə əymək və düzəltmək lazım idi ki, onun bir yarısı boru, digər yarısı yarpaqvari formanı alsın. Bütöv tökülmüş borulu nizələrin hazırlanması orta tunc dövründən başlanır, ancaq geniş inkişafını sonrakı dövrdə e.ə. II minilliyin ikinci yarısında tapır.

Orta Tunc dövründə rast gəlinən asimmetrik tunc baltalar Qafqazda çox azdır. Onlara Talış-Muğan zonasında nisbətən çox rast gəlinir. Belə baltalardan ibarət bir dəfinə Astara rayonunda Lovain kəndindən təsadüfən tapılmışdır.

Orta tunc dövrü abidələrində metaldan xırda məmulata da rast gəlinir.



downloaded from KitabYurdu.az

Şəki kurqanlarından və Ordubad rayonunun Plovdağ nekropolundan çoxlu tunc sancaqlar, Göytəpədə Orta Tunc dövrü təbəqəsindən göbələkvari başlıqlı sancaqlar da tapılmışdır. Onlara oxşar nümunələr Naxçıvanın qəbir abidələrindən məlumdur.

Tunc məftildən qeyri-adi qıvrım bəzək əşyaları Quba rayonunda və Daşkəsən rayonunda Xaçbulaq kurqanlarının birindən tapılmışdır. Onlar belə düzəldilirdi: məftil iki dəfə yarım dairə, sonra bütöv dairə və bundan sonra yenə də iki yarım dairə şəklində əyilirdi. Bu qıvrım əşyalar saç bəzəyi kimi istifadə olunurdu. Eyni formalı tunc bəzək İranda Qodintəpə qəbrindən məlumdur.

Azərbaycanda və Zaqafqaziyada metallurgiyanın və metalişləmənin sonrakı inkişafı ona gətirib çıxarır ki, orta tunc dövründə əmək aləti və silah hazırlamada daş və sümük material kimi öz əhəmiyyətini itirir. Bununla belə, çaxmaqdaşı bəzi alət növlərinin hazırlanması üçün istifadə olunurdu. Hələ də yığma oraq dişləri çaxmaqdaşından hazırlanırdı. Əvvəllər olduğu kimi, dənin üyüdülməsi daşdan hazırlanmış alətlərlə aparılırdı. Buna görə də hər yaşayış yerində dən daşlarına, sürtgəclərə rast gəlinir, daş həvəng və dəstəklər isə azdır.

Metal silahların çoxdan meydana gəlməsinə baxmayaraq, ox ucluqları çaxmaqdaşından və dəvəgözündən hazırlanırdı.

Azərbaycanın orta tunc dövrü abidələrində ağacişləmə və toxuculuğun inkişafına dair mühakimə yürütməyə əsas verəcək dəlillərə olduqca məhdud miqdarda rast gəlinmişdir. Bununla belə, bir sıra dolayısı dəlillər həmin istehsal sahələrinin inkişafını göstərir. Məlumdur ki, balta, nizə, xəncər dəstələri və başqa əşyalar ağacdan hazırlanır, damları örtməkdə tirlərdən istifadə olunur, arabanın gövdəsi və təkərləri ağacdan düzəldilirdi. Şübhə etmədən demək olar ki, orta tunc dövründə ağacişləmə sənəti və toxuculuq istehsalı inkişafda olmuşdur.

Orta tunc dövründə toxuculuq dəzgahının tətbiq olunması haqqında dəqiq məlumatımız yoxdur. Ancaq Azərbaycanın həmin dövr abidələrindən (II Kültəpə, Üzərliktəpə) gildən və sümükdən iy baslıqlarının tapılması toxuculuğun inkişafını sübuta yetirir. Onlar, öz formalarına görə, Zaqafqaziyada həm əvvəl, həm də sonrakı dövrlərdə yayılmış alətlərdən heç cür seçilmir.

Azərbaycanın orta tunc dövrü əkinçi-maldar əhalisinin sənət sahələrindən ən geniş yayılmış, eyni zamanda ən vaciblərindən biri dulusçuluq olmuşdur. Ötən dövr dulusçuluq məmulatının bir sıra xüsusiyyətlərinin davam etməsinə baxmayaraq, indi xeyli yeniliklər meydana gəlir. Urmiyaətrafı ərazidə, Kür-Araz ovalığında, Naxçıvanda orta tunc dövründə boyalı qablar istehsalı geniş yayılır. Qablar əldə və eləcə də dulus çarxında hazırlanırdı. Azərbaycanın şimal rayonlarında və Xəzərsahili ərazidə boyalı qablara, demək olar ki, rast gəlinmir. Burada, əvvəllər olduğu kimi, qab-qacaq əl üsulu ilə hazırlanırdı.



downloaded from KitabYurdu.az

Orta tunc və əvvəlki dövr dulus məmulatı bir-birindən fərqlənir. Bu dövrün qablarında Kür-Araz mədəniyyəti dulus məmulatı üçün səciyyəvi olan naxış və yarımkürə qulplara təsadüf olunmur. Gil manqallar, sacayaqlar, qab qapaqları məişətdə artıq istifadə olunmur. Qırmızı bişimli həm də qara, boz rəngli qabların gövdəsi adətən naxışla yaraşıq üçün ağ maddə ilə doldurulurdu.

Boyalı qablarda naxış adətən bir rənglə vurulurdu, çox rənglə naxışlanmış qablar da vardır. Qabların yuxarı yarısında qırmızı və sarı şirə (anqob) üzərində müxtəlif həndəsi naxışlar çəkilirdi. İnsan, heyvan, quş təsvirlərinə olduqca az rast gəlinir. Qara və boz qablarda canlı təsviri heç yoxdur. Onlarda naxışlanma cızma üsulu ilə, həm də dişli qarqara ilə aparılmışdı. Naxışlama kompozisiyalarında əsas yeri tağvari fiqurlar, bir-birinin içərisində yerləşən asma yarımdairələr tutur, sınıq və dalğavari xətlərə, bəzən də meandr (həndəsi ornament) və qıvrım təsvirlərinə rast gəlinir. Bəzən qablar cızma bəzəklərlə bəzədilirdi.

Ümumiyyətlə, bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da ayrı-ayrı zonaların tunc dövrü dulusçuluq sənətkarlığında müxtəliflik çox nəzərə çarpır.

Azərbaycanın dulus ustaları tunc dövrünün bütün inkişaf mərhələlərini keçərək zəmanəmizə qədər gəlib çatan gil nehrələrin hazırlanmasını davam etdirirdilər.

**İctimai münasibətlər və əlaqələr.** Orta tunc dövrü cəmiyyətdə ictimai bərabərsizliyin güclənməsi zamanıdır. Yerli əhalinin iqtisadiyyatında və mədəniyyətində müşahidə olunan irəliləyiş cəmiyyətin istehsal qüvvələrinin ümumi inkişafı, həm də ehtimal ki, Ön Asiya ölkələrinin təsiri və əlaqələrlə bağlı olmuşdur. Dövrün ictimai quruluşunu belə təsəvvür etmək olar: bir qütbdə öz yaxın adamları və zadəganlarla başçı, o biri qütbdə əsas icma kütləsi dururdu. İctimai vəziyyətdən asılı olmayaraq, müdafiə qalalarının tikintisində, düşmənə qarşı mübarizədə bütün cəmiyyət üzvləri iştirak edirdi.

Yaşayış məntəqələrinin ətrafında müdafiə divarlarının çəkilişində görülən işlərin həcmi bunu sübut edir. II Kültəpədə 2 m enində divarın uzunluğu təxminən 400 m olmuşdur. Üzərliktəpə yaşayış yerini əhatə edən müdafiə divarının uzunluğu daha çoxdur. Burada divarın qalınlığı 2 m idi. Əgər fərz etsək ki, müdafiə divarlarının hündürlüyü 3 m-ə çatırdı, onda Kültəpə, Üzərliktəpə müdafiə divarlarının hörülməsinə sərf olunan zəhmət çox olmuşdur. Hələ onu da nəzərə almaq lazımdır ki, inşaat materialının əldə edilməsi, gətirilməsi, kərpiclərin hazırlanması böyük əmək tələb edirdi. Öz sahəsinə görə, Kültəpə və Üzərliktəpədən xeyli artıq olan Göytəpədə müdafiə divarlarının inşasında görülən işlər daha böyük miqyasda aparılmışdır. Bu, şübhəsiz, böyük insan kollektivinin iştirakını, mütəşəkkillik tələb edirdi və çox güman ki, xüsusi imtiyaza malik şəxslərin nəzarəti altında görülürdü. Belə işləri köçəri maldarlıqla məşğul olan əhali böyük ərazidə qoruq tikmək məcburiyyətində yerinə yetirirdi. Daha asanlıqla artıq məhsul verən, ayrı-ayrı qəbilələrin varlanmasını xeyli asanlaşdıran maldarlıq təsərrüfatı mülki və ictimai ayrılmanı dərinləşdirirdi.



downloaded from KitabYurdu.az

Bu proses dəfn abidələrində özünün aydın əksini tapır. Əliköməktəpədəki varlı qəbir, ola bilsin ki, qəbilə başçılarından birinə məxsus imiş. Nəzərə çarpacaq varidatı ilə icmanın, qəbilənin imtiyazlı şəxslərinə mənsub qəbirlər də seçilir. Onların sırasına daha qiymətli bəzək əşyaları verən Şəki kurqanlarından birini də aid etmək olar. Beləliklə, məlum olur ki, dövrün bəzi qəbirləri kasıbdır, digərləri nisbətən varlıdır və ya çox varlıdır. Ancaq başlıcası budur ki, qəbirlərdə dəfn olunanlar tək-təkdir; yerli cəmiyyətin ictimai inkişafı hələ o səviyyəyə çatmamışdır ki, o zaman başçıları axirət dünyasına yola salarkən onları qul, kəniz və s. şəxslərlə birlikdə basdırsınlar. Ancaq bu dövrün cəmiyyəti artıq ibtidai icma quruluşunun son mərhələlərindən birinə gəlib çatmışdır.

Sinifli cəmiyyət mövcud olan Ön Asiya vilayətləri ilə qonşuluq ölkənin sosial-iqtisadi inkişafına müəyyən təsir göstərirdi, yeni texniki və mədəni nailiyyətləri mənimsəməyə imkan verir, əlaqələri və mübadiləni genişləndirirdi. E.ə. III—II minilliklər ərəfəsində Azərbaycana və Cənubi Qafqaza müntəzəm olaraq qalay daxil olmağa başlayır və bu dövrdən metal əşyaların istehsalında əsas qatma element olur. Dulus çarxında hazırlanmış bir qisim boyalı saxsı məmulatının meydana çıxması, uzunqulağa, qoşqu atına eyni vaxtda rast gəlinməsi Qədim Şərq ölkələri ilə əlaqələri əks etdirir. Bu, həm də orta tunc dövründə Zaqafqaziyada borulu nizə ucluqlarının, dəstəyi çərçivəli xəncərlərin və bir sıra Ön Asiya bəzək əşyalarının yayılması ilə sübuta yetirilir.

Göytəpədə, Qızılvəngdə "ayrıcılar" adlanan yastı dördkünc muncuqların bir neçə nümunəsinə rast gəlinmişdir ki, onlar Mesopotamiyada hurri mərkəzi Nuzidən (Yorqantəpə) məlum olan əşyalarla eyniyyət təşkil edir. Şortəpədəki qara, yaşıl, sarı və bənövşəyi rənglə naxışlanmış boyalı qab-qacaq Zaqafqaziyada çox nadir hal olmaqla Şimali Azərbaycanın cənubla əlaqələrini əks etdirir. Dövrün bəzi abidələri Azərbaycan qəbilələrinin Şimali Qafqazla əlaqələrindən xəbər verir. Muğanda (Əliköməktəpə) varlı qəbirlərdən birində Şimali Qafqazda yayılmış kabardin-balkar adı altında tanınan daş balta var idi. Abşeronda Gürgan kurqanlarından birindən formasına görə Şimali Qafqazın bir çox abidələrində özünə oxşarlıq tapan xəncər tiyəsi əldə edilmişdir. Ön Asiya mənşəli bəzəklər tapılmış Şəki kurqanlarının dəfn adətində və kurqanların inşa quruluşunda Şimali Qafqazın mərkəzi rayonlarının, o cümlədən Kabarda-Balkariyanın həmdövr abidələri ilə tam eyniyyət olması Azərbaycan və Böyük Qafqazın o biri tərəf qəbilələri arasındakı etnomədəni əlaqələr barədə qiymətli məlumatdır.

Beləliklə, orta tunc dövrü abidələri Azərbaycan əhalisinin həm Ön Asiya, həm də Qafqazın qonşu ölkələri ilə əlaqələrini aşkara çıxarır.

**Mənəvi mədəniyyət.** İbtidai icma quruluşu dövrü qəbilələrinin mənəvi mədəniyyətinin ətraflı öyrənilməsinə ehtiyac vardır. Arxeoloji material əsasında onun işıqlandırılması böyük çətinliklərlə bağlıdır. Lakin güman etmək olar ki, istehsal



downloaded from KitabYurdu.az

təsərrüfatının təşəkkül və inkişafı dövründən insanların ideologiyasında əkinçilik və maldarlıqla bağlı ayin və etiqadlar mühüm rol oynayırdı. Başqa ayinlər də mövcud idi, onların içərisində ehtimal ki, səma, günəş, qadın və sairə ilə bağlı ayinlər olmuşdur. Azərbaycanın orta tunc dövrü qəbilələrinin etiqadlarını əks etdirən bəzi abidələr bizə gəlib çatmışdır. Bu baxımdan Üzərliktəpə yaşayış yerində ocaq kənarında döşəmə üzərində əldə edilən tapıntı diqqətəlayiqdir. Daşla əhatələnmiş ocağın kənarlarında yanmış taxıla, gildən dairəvi kökəyə və gildən qadın heykəlciyinə rast gəlinmişdir. Məhsuldarlıq rəmzi olan gildən qadın fiqurları hələ əkinçiliyin sübh çağlarında yayılmışdır. Qadın obrazında təcəssüm etdirilən məhsuldarlıq, əmin-amanlıq ideyası əkinçi əhalinin dini təsəvvürlərində orta tunc dövründə əhəmiyyətli rol oynamaqda davam edirdi.

Nəhacirdən əldə edilən qab üzərində təsvir olunmuş səhnə müəyyən maraq doğurur. Qırmızı anqoblu (şirəli) bu qabda qara boya ilə xırdabuynuzlu heyvanın (keçi?) boğazına bağlanmış ipdən tutan kişi təsvir olunmuşdur. Rəsmdə adamın duruşu elədir ki, burada bəsit təsərrüfat-məişət səhnəsini güman etmək çətindir. ƏN başlıcası odur ki, kişinin əlləri yuxarıya, səmaya qaldırılmışdır. Elə təəssürat yaranır ki, o, hansısa ayin hərəkətini ifa edir, bəlkə də yalvararaq göyə müraciət edir. Göygöl rayonunda sonrakı dövrə aid bir qabda da eyni görkəmdə kişi təsvir olunmuşdur. Burada əllərini göyə qaldırmış kişinin qarşısında bir neçə heyvan dayanmışdır.

II Kültəpədə tapılmış boyalı qab parçasında bir-birinə yaxın dayanmış iki adam fiqurunun yuxarı hissəsi qalmış, birinin başında küləkdən dağılmış saçları və yaxud lələkdən düzəldilmiş çələng vardır. Onlar əllərini yuxarı qaldırmışlar. Ola bilsin ki, burada da ayinlə əlaqədar səhnə əks olunur.

Əvvəllər olduğu kimi, bu dövrdə də axirət dünyası ilə əlaqədar dini görüşlər əhalinin ideologiyasında müəyyən yer tuturdu. Bəzən ölüyandırma adəti tətbiq olunurdu. Ümumiyyətlə, dəfnə çox diqqət verilirdi. Dəfn səylə düzəldilmiş qəbirlərdə aparılır və üzərlərində bir çox hallarda kurqan qurulurdu, qəbirə ölü ilə bərabər heyvan əti, başqa ərzaq və avadanlıq qoyulurdu.

Qəbirlərdə əmək alətinə, müxtəlif silahlara, bəzək əşyalarına tez-tez rast gəlinir. Görünür, axirət dünyasında həyatın davam etməsi, orada ərzağın, istifadə olunan başqa şeylərin labüdlüyü barədə təsəvvürlər insanların şüurunda kök salmışdı.

Orta tunc dövrü incəsənəti, hər şeydən əvvəl, qaracılalı və boyalı qab-qacaqda öz əksini tapır. Qaracılalı qablar düz, sınıq və dalğalı xətlərdən yarımdairə və başqa həndəsi naxışlarla bəzədilirdi. Belə naxışların müxtəlif birləşmələri ilə qabların bütün səthi örtülürdü. Üzərliktəpədəki boyalı qablarda naxışlar yalnız həndəsi şəkildədir. Başqa boyalı qablarda isə az da olsa quş, insan və heyvan təsvirləri çəkilmişdir. Urmiya gölü hövzəsi və Naxçıvanın boyalı qablarında həndəsi naxışlar adətən qabın yuxarı yarısını əhatə edən üfüqi xətlər arasında çəkilirdi.



downloaded from KitabYurdu.az

O dövrün təsviri incəsənətində insan, heyvan və quş rəsmləri verilmiş səhnələr böyük maraq doğurur. Ustanın düşündüyü bədii ideya bəzi hallarda müvəffəqiyyətlə yerinə yetirilir: belə ki, Urmiya hövzəsində Göltəpədən məlum olan bir qabda eyni tipli heyvanlar və balaların sakit tərzdə hərəkət etməsi əks olunmuşdur. Canlarına qorxu düşmüş heyvan təsvirlərinə də rast gəlinir. Heyvanların başları qorxu səmtinə çevrilmiş vəziyyətdə verilir, bəzən də ustaya qaçmaqda olan sürünün dinamikasını əks etdirmək mümkün olmuşdur. Heyvanların sakit dayanmış halda təsvirləri veriləndə onların yanında quşlar göstərilir. Bununla da epizodun reallığı qeyd olunur. Həftəvantəpədə bir boyalı qab üzərindəki ov səhnəsi, ola bilsin ki, orta tunc dövrü bədii incəsənətinin ən parlaq nümunəsidir. Qabdan qalmış parçada ümumi kompozisiyanın bir hissəsini görmək mümkündür. Orada iki at qoşulmuş araba aydın müşahidə olunur. Atların qarşısında yırtıcı heyvan dayanır. Arabadan ona tərəf çoxlu oxlar süzür. Bu səhnədə təsvir olunmuş quşlar və kiçik heyvanlar ümumi kompozisiyanı tamamlayır. Kompozisiyada döyüş arabası ilə ov səhnəsi əsas xətdir.



downloaded from KitabYurdu.az

VI FƏSİL

# SON TUNC VƏ ERKƏN DƏMİR DÖVRÜ. İBTİDAİ İCMA QURULUŞUNUN DAĞILMASI. ERKƏN SİNİFLİ CƏMİYYƏT ƏRƏFƏSİNDƏ AZƏRBAYCAN TAYFALARI

**Tayfalar və tayfa qrupları.** Eramızdan əvvəlki II minilliyin II yarısı - I minilliyin başlanğıcı Cənubi Qafqazın və İran yaylasının şimal-qərb hissəsinin ərazisində son tunc dövrü, Dəmir dövrünün başlanğıcıdır. İbtidai icma quruluşunun intensiv surətdə dağılması və erkən sinifli qurumlara keçid dövrü Azərbaycanda xeyli miqdarda abidə miras qoymuşdur, həmin abidələr ərazi və mədəni mənsubiyyət baxımından bir neçə qrupa bölünür. Kiçik Qafqaz hüdudlarında və ona bitişik bölgələrdə - Qərbi Azərbaycanda lokallaşdırılan qruplardan biri Xocalı-Gədəbəy mədəniyyətinin inkişafını əks etdirir. Bu mədəniyyət həndəsi xarakterli (bəzən isə insan və heyvan təsvirləri ilə) ornamentə malik olan qara-boz rəngli keramika məmulatı, enli tunc qılınclar, təbərzinşəkilli baltalar, müxtəlif xəncərlər, borulu nizələr və yabalarla səciyyələnir.

Naxçıvan abidələri qrupu Naxçıvan Muxtar Respublikasının ərazisində və onunla həmhüdud olan bölgələrdə yayılmışdır. Bıi abidələrə qara-boz rəngli keramika məmulatı ilə yanaşı, Urmiya gölü ətrafında tapılmış materiallara bir çox cəhətlərdən oxşar olan boyalı qablar, metal məmulatı daxildir.

Talış və Muğan zonasında yaşamış tayfaların abidələr qrupu üçün uzun, nazik qılınclar, yəhərşəkilli dəstəklərə malik olan xəncərlər, ornamentsiz boz rəngli qablar səciyyəvidir.

Şimal-şərqi Azərbaycanda da abidələr qrupu məlumdur. Bu abidələr qrupu Dağıstanda, Çeçenistan və İnquşetiyada Qayakənd-Xoroçoy mədəniyyəti adı altında məlum olan mədəniyyət abidələri ilə böyük oxşarlığa malikdir. Xarici səthi kobud suvaqlanmış boz gil qablar bu mədəniyyətin fərqləndirici əlamətidir.

Bu mədəniyyətlərin təşəkkülü e.ə. II minilliyin II yarısında baş vermiş, e.ə. I minilliyin I rübündə onların inkişaf prosesi davam etmişdir. Bu mədəniyyətlərin daşıyıcılarının necə adlandıqlarını söyləmək çətindir. Həmin zamanın Aşşur (Assuriya) mənbələri Azərbaycanın yalnız Urmiya gölü ətrafında yaşamış tayfaları haqqında müəyyən dərəcədə mühakimə yürütmək imkanı verir.

Arxeoloji dəlillər e.ə. II minilliyin sonunda və I minilliyin başlanğıcında istehsalda və Azərbaycan tayfalarının ictimai həyatında mühüm irəliləyişlərin baş verdiyini təsdiq edir. Tuncun emalı yüksək çiçəklənmə mərhələsinə çatmışdı, saxsı əşyaların hazırlanması zamanı dulus çarxından istifadə edilirdi. Xış əkinçiliyi inkişaf edir, taxıl döyümü zamanı artıq vəldən kifayət dərəcədə geniş istifadə olunurdu. Bu



downloaded from KitabYurdu.az

dövrdə yaşayış bölgəsindən asılı olaraq ayrı-ayrı tayfaların təsərrüfatında fərqlər dərinləşirdi. Dağlıq bölgələrin maldar tayfaları metal emalı sahəsində böyük ustalıq səviyyəsinə çatmışdılar. Yaylaq maldarlığının təşəkkülü prosesi başa çatırdı, düzənliklərdə əkinçilik təsərrüfatı intensiv surətdə yüksəlir, bağçılıq və üzümçülük inkişaf edir, şərabçılıq meydana gəlirdi.

Dəmirin mənimsənilməsi bu dövrün mühüm hadisəsi idi. Bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanın abidələrində də dəmir əşyalara e.ə. II—I minilliklərin hüdudlarından başlayaraq təsadüf olunur. Tayfaların inkişaf səviyyəsi qeyri-bərabər idi. Cənub vilayətlərində məskunlaşmış tayfalar mühüm nailiyyətlər qazanmışdılar. Onlar sinifli cəmiyyətə keçməkdə olan, bəzi hallarda isə bu cür cəmiyyətə keçmiş əhali ilə qonşu idilər. Biz bu tayfaların sosial quruluşunda sinfi antaqonist münasibətlər cəmiyyətinə xas olan bir sıra ünsürlərə, məsələn, qulların mövcudluğu faktına rast gəlirik. Bu dövrdə ayrı-ayrı tayfa qruplarının birləşməsi prosesi güclənir, tayfa ittifaqlarının yaranması davam edirdi. Çox güman ki, ölkənin ayrı-ayrı bölgələrinin arxeoloji mədəniyyətləri qohum olan tayfa qruplarını və ittifaqlarını əks etdirir.

Çoxsaylı arxeoloji materiallar Cənubi Qafqaz və Urmiya gölü ətrafı cəmiyyətlərinin yüksək inkişaf səviyyəsində olduğunu təsdiq edir. Məhsuldar qüvvələrin köçəri maldarlığın inkişafı ilə şərtlənmiş yüksəlişi metal emalının tərəqqisinə təkan verirdi. Əkinçilik, üzümçülük və şərabçılıq inkişaf edir, suvarma sistemləri yaradılırdı. Tunc metal emalının çiçəklənməsi və dəmirin mənimsənilməsi dövrü başlanmışdı. Sənət sahələrinin - nəinki metal emalının, habelə dulusçuluğun xeyli dərəcədə inkişafı bunu təsdiq edir. Bu dövrdə sənətkarlıq kənd təsərrüfatından qəti surətdə ayrıldı. İstehsal əmtəə təmayüllü olmağa başladı, bu isə müntəzəm mübadiləyə və ticarətə təkan verdi. Cənubi Qafqaz və Cənubi Azərbaycan sakinlərinin Kiçik Asiyanın, Suriyanın, Mesopotamiyanın uzaq bölgələri və digər ölkələri ilə əlaqələri gücləndi. E.ə. II minilliyin sonuna doğru Şərqi-Cənubi Qafqaz - Şimal-Qərbi İran bölgəsinin daxilində əlaqələr möhkəmləndi, genişləndi.

Bütün bu proseslər əmlak bərabərsizliyini dərinləşdirir, hakim mövqelərə keçmiş nəsli tayfa əyanlarını zənginləşdirir, insanın insan tərəfindən istismarını gücləndirir, cəmiyyətin sinfi cəhətdən varlılara və yoxsullara bölünməsini şərtləndirirdi.

Bu hadisələr Azərbaycan ərazisində sinfi cəmiyyətlərin və ilk dövlət törəmələrinin yaranması erasının müjdəçiləri idi.

F.Engels özünün "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" adlı əsərində bu ümumtarixi dövrün səciyyəsini verərək yazmışdır: "Varlılarla yoxsullar arasındakı fərq azad şəxslərlə qullar arasındakı fərqlə yanaşı meydana çıxır, - yeni əmək bölgüsü yarandıqda, cəmiyyət yenidən siniflərə bölünür. Əhalinin artmaqda olan sıxlığı istər daxildə, istərsə xarici aləm qarşısında daha sıx birləşməyə məcbur edir.



downloaded from KitabYurdu.az

Qohum tayfaların ittifaqı hər yerdə bir zərurət olur, tezliklə bunların birləşməsi və beləliklə, ayrı-ayrı tayfa ərazilərinin bütün xalqın ümumi bir ərazisi halında birləşməsi zəruri olur. Xalqın hərbi başçısı zəruri, daimi bir vəzifəli şəxs olur. Xalq yığıncağı meydana gəlir.

Sərkərdə, şura, xalq yığıncağı inkişaf edib hərbi demokratiyaya keçən qəbilə cəmiyyətinin orqanlarını təşkil edir. Bu, ona görə hərbi demokratiya idi ki, indi müharibə və müharibədən ötrü təşkil olunmaq xalq həyatının müntəzəm funksiyaları olur... müharibə indi yalnız qarət naminə aparılır, daimi bir peşə olur... irsi kral hakimiyyəti və irsi əyanlıq üçün təməl qoyulur. Beləliklə, qəbilə quruluşu orqanları xalq, qəbilə, fratriya, tayfa içərisindəki öz köklərindən tədriclə ayrılır, bütün qəbilə quruluşu isə özünün əksinə çevrilir".

Bu proseslərin son mərhələsi insan tərəfindən tarixdə inqilabi rol oynamış bütün xammalların sonuncusu və ən mühümü olan dəmirin mənimsənilməsi ilə bağlıdır.

Tezliklə cəmiyyətin siyasi cəhətdən təşkilinin yeni forması olan dövlət də meydana gəldi. Bu təşkilat yenidən təşəkkül tapmır, əsasən köhnə, lakin artıq dəyişdirilmiş, istismarçı azlığın mənafelərini qoruyan orqanların hesabına yaradılırdı. Bu, artıq Dəmir dövrü idi.

E.ə. II minilliyin son rübünün qəbir abidələrindən tapılmış, dəmirdən hazırlanmış məmulat bu metalın sənətkarlıq cəhətdən mənimsənildiyini təsdiq etsə də, tuncun hələ uzun müddət ərzində sıxışdırılmaqda olduğunu qeyd etmək lazımdır.

Azərbaycanın daha çox inkişaf etmiş vilayətlərində və onunla həmhüdud olan bölgələrdə e.ə. II minilliyin sonunda ibtidai icma quruluşunun tənəzzülünü və dağılmasını, erkən sinifli cəmiyyətlərə keçidi nəinki kəskin əmlak bərabərsizliyi və hərbçilərin icma üzvlərinə məxsus olan qəbirlər kütləsindən seçilən çoxsaylı qəbirləri, habelə Zaqrosyanı zolaqda yaranmış, yazılı mənbələrdə təsdiqlənən xırda siyasi vahidlərin mövcudluğu faktı da nümayiş etdirir. Bu fakt tamamilə aydın surətdə təsdiq edir ki, göstərilən zamandan etibarən keçmişlərdə qalmış nəsli-tayfa prinsipinin əvəzində dövlət hakimiyyətinin ilk fərqləndirici cəhəti olan ərazi bölgüsü meydana gəlmişdi.

Göstərilən zamanda Cənubi Azərbaycan bölgəsində şərait xarici siyasi hadisələrlə bağlı olaraq əhəmiyyətli dərəcədə mürəkkəbləşdi.

E.ə. II minilliyin sonunda və I minilliyin başlanğıcında bölgənin və onunla həmhüdud olan ərazilərin daha qabaqcıl vilayətlərinin inkişaf səviyyəsini səciyyələndirən parlaq materiallar Naxçıvan, Dağlıq Qarabağ, Mingəçevir, Talış, Xurvin, Marlik, Həsənli zonasında aşkar olunmuşdur. Bütün bu materiallar nəinki yerli cəmiyyət daxilində əlaqələrin nəzərəçarpaçaq dərəcədə artmasını təsdiq edir, habelə aydın şəkildə deməyə imkan verir ki, e.ə. II minilliyin son rübündə Cənubi Qafqazın ərazisində və İran yaylasının şimal-qərbində Dəmir dövrünün ilk



downloaded from KitabYurdu.az

mərhələsini təşkil edən, bir-birinə yaxın olan mədəniyyətlər təşəkkül tapmışdı. Güman etmək olar ki, həmin mədəniyyətlər dəmirin emal olunmasının əsasları baxımından eyniyyət təşkil edirdilər. Deyilənlər təsdiq edir ki, həmin ərazilərin tayfalarında yeni münasibətlər eyni zamanda və oxşar şəraitdə təşəkkül tapmaqda idi. Bəzi fərqlərə baxmayaraq, erkən dövrdə bölgənin hər iki hissəsinin inkişaf səviyyəsi təxminən eyni idi.

Bizi maraqlandıran zamanın etnodil mənzərəsindən danışarkən göstərmək lazımdır ki, həmin mənzərə, əlbəttə, əvvəlki dövrün şəraitindən bir qədər fərqlənirdi. Lakin tayfaların taleyini dəfələrlə dəyişmiş gur hadisələrə, müxtəlif dəyişikliklərə və hətta kəskin çevrilişlərə baxmayaraq, bu dövrdə burada etnik, mədəni və dil baxımından keçmiş dövrlərin nəsilləri - Kavkasion və Aralıq dənizi antropoloji tiplərinə aid olan, Şimal-Şərqi Qafqaz ailəsinin dialektlərində (şimalda), hurri, lullubi və digər dillərdə, dialektlərdə (cənubda) danışanların nümayəndələri ilə bağlı olan avtoxton əhali yaşayırdı

Bölgənin əsrlər ərzində bura gəlmiş etnik qruplarla qaynayıb qarışmış avtoxton əhalisi Dəmir dövrünün başlanğıc mərhələsində mahiyyətcə artıq e.ə. III minillikdə (güman etmək olar ki, daha erkən zamanlarda) burada yaşamış etnik elementlərdən ibarət idi. İri tayfa birlikləri arasında yalnız kutiləri istisna etmək lazımdır. Artıq e.ə. II minilliyə doğru kutilər əski rollarını itirdilər. Güman etmək olar ki, e.ə. I minillikdə onlar başqa tayfalarla qaynayıb-qarışaraq tarix səhnəsini qəti surətdə tərk etdilər. Mənbələrdə yeni tayfaların və tayfa birliklərinin adları hallanmağa başlandı.

Cənubda başlıca etnik-dil massivi lullubi və hurri elementlərindən ibarət idi. Hurrilər Urmiya gölü sahillərində yaşayırdılar. Sulduz vadisində aşkar olunmuş "xabur" keramikası, Həsənli materialları, habelə təxminən e.ə. II minilliyin birinci yarısında mövcud olmuş hurri-ari kontaktı faktı bunu təsdiq edir. Bölgənin cənub hissəsində lullubilər də yaşamaqda idilər. Maraqlıdır ki, hələ e.e. I minilliyin I otuzilliyində Lullume, Zamua, Manna anlayışları arasındakı varisliyi izləmək mümkündür. Aşşur hökmdarı II Sarqonun Aşşur allahına yazdığı məlum "məktubu"nda deyilir: "Zamua adlanan lullume ölkəsi". Zamua isə, məlum olduğu kimi, Manna çarlığının meydana gəldiyi vilayət idi.

Güman etmək olar ki, lullubi elementi Urmiyaətrafı vilayətlərdə hələ xeyli müddət ərzində qalsa da, Mannanın etnik tarixində mühüm rol oynasa da, Manna çarlığı dövründə hurri qruplarının bu zonada üstün etnik element olduğunu təxmin etmək mümkündür. Məlumdur ki, hurrilər burada antik zamanlarda da yaşamaqda davam etmişlər.

Erkən dəmir dövründə Urmiya-Van-Şərqi Kiçik Asiya vilayətlərində mehri və yaxud mehranlar adlanan əhali qrupları meydana çıxdılar (onların əvvəllər də burada yaşadıqlarını güman etmək mümkündür). E.ə. XIII əsrə aid olan Hett sənədlərində Sala "ölkəsi" ilə yanaşı, Mehri "ölkəsi"ndən də danışılır (sala tayfası isə manda tayfası



downloaded from KitabYurdu.az

ilə yanaşı hələ e.ə. XIV əsrdə xatırlanır). Aşşur hökmdarı Adadnerari (e.ə. X-IX əsrlər) Mehri "ölkəsini" və aşşurlular tərəfindən doğranan "mehri ağacları"nı xatırlamışdır. E.ə. VII əsrə aid olan bir Aşşur mətni əsasında güman etmək olar ki, hələ bu zaman Qərbi Mada (Midiya) əhalisinin bir qismi bizə məlum olmayan mehran dilində danışırdı.

Mixi yazılı mənbə məlumatları əsasında e.ə. II minilliyin sonu I minilliyin lap başlanğıcında Cənubi Azərbaycan ərazisində həm etnik, həm də siyasi cəhətdən xeyli dərəcədə rəngarəng mənzərənin yarandığını iqrar etmək olar. Burada yuxarıda adları çəkilmiş tayfalardan və tayfa birliklərindən başqa artıq nigimxilər, turukkilər, uruatrilər və başqaları yaşayırdılar. Onların etnik-dil mənsubiyyəti haqqında biz heç nə bilmirik.

Şimali Azərbaycan vilayətlərində əsas əhalinin Şimal-Şərqi Qafqaz ailəsi dillərində danışan tayfalardan və tayfa birliklərindən ibarət olduğu şübhəsizdir. Burada nisbətən iri birliklərin mövcudluğu yaxşı izlənməkdədir. Güman etmək olar ki, bu birliklər Xocalı-Gədəbəy, Naxçıvan, Talış-Muğan, Qayakənd-Xoroçoy mədəniyyətlərinin etnik birləşmələrini (güman ki, qohum olan) əks etdirirdi. Qeyd etmək vacibdir ki, bu dövrün Mərkəzi və Cənub-Şərqi Qafqaz arxeoloji mədəniyyətləri bir-birinə yaxın idilər və Cənubi Qafqazın qərb hissəsinin sinxron mədəniyyətindən kəskin surətdə seçilirdi. Deyilənlər, şübhəsiz, Şimal-Şərqi Qafqaz dil ailəsi daşıyıcılarının bir qisminin əsasında tədricən protoalban tayfa ittifaqının təşəkkül tapmasından xəbər verir.

Bu dövrdə Urmiyaətrafı bölgədə şərait Aşşur hökmdarlarının, bir qədər sonra isə Urartu hökmdarlarının hərbi yürüşləri ilə əlaqədar olaraq xeyli mürəkkəbləşdi.

E.ə. II minilliyin II yarısına aid olan mənbələrdə Aşşur hökmdarının Turukki və Nikimxi ölkələrini tamamilə fəth etməsindən, "kutilərın geniş torpaqlarındakı bütün dağların və təpələrin hakimlərinin ram olunması"ndan danışılır. Güman etmək olar ki, turukkilər və nikimxilər hurri tayfalarından idilər. Mənbədə danışılan dağ tayfalarından olan uruatrilərin də hurrilərə yaxın olması güman edilir.

Güman olunur ki, Uruatri tayfa ittifaqı Böyük Zab çayının yuxarı axarı arasındakı bölgədə, Boxtansu vadisindən şərqdə yaranmısdı. Buna görə də ehtimal etmək olar ki, Uruatri əsasən Urartu tayfalarının deyil, kutilərin yaşadıqları ərazidə meydana gəlmişdi. I Salmanasarın yazılarından birinə əsasən "kutilər" Uruatridən Kutmuxiyədək uzanan ərazilərdə yaşayırdılar. Həqiqətən də Uruatrinin tərkibində olmuş "ölkələrin" adları Urartu səciyyəli deyildir və dağlıq Zaqros dillərinə yaxınlığı nəzərə çarpır.

E.ə. II minilliyin II yarısına aid olan Aşşur mənbələrində bir çox siyasi vahidlərin adları çəkilməyə başlayır. Biz həmin siyasi vahidlərin hüdudlarında yaşamış sakinlərin etnik-dil mənsubiyyəti haqqında yalnız fərziyyələr irəli sürə bilərik.



downloaded from KitabYurdu.az

**Abidələrin icmalı.** Azərbaycan ərazisində ötən dövrə nisbətən Son tunc və İlk Dəmir dövrü abidələri daha çoxsaylıdır. Onlar yaşayış yerləri, qalaça və çoxlu miqdarda müxtəlif tipli qəbirlərdən ibarətdir.

Bəzi hallarda dövrün yaşayış yerləri, xüsusən dağlıq rayonlarda və dağla düzənin qovuşuğunda müdafiə hasarına alınmışdır. Müxtəlif miqyaslı təpələr şəklində qalmış yaşayış yerlərinə daha çox düzənlərdə rast gəlinir. Bir çox hallarda bu dövrün yaşayış yerləri ötən dövrlərə aid abidə qalıqları və yaxud təbii təpələr üzərində bina olunmuşdur.

Bu dövrün yaşayış yerləri Gəncə-Qazax düzənliyində nisbətən çoxdur. Onlardan Qazax rayonunda Sarıtəpə, Babadərviş, Nadirbəytəpəsi, Arançıtəpələri, Yastıtəpə, Yuxarı Göycəli kəndində təpələr, Şomutəpə və Töyrətəpənin üst təbəqələri, Şamxor rayonunda Seyfəli və Bitdili yaşayış yerləri, Xanlar rayonunda 1 və 2 nömrəli yaşayış yerlərini və bir çox başqalarını göstərmək olar. Son tunc və ilk dəmir dövrü yaşayış yerləri Mingəçevirdə, Ağcabədi rayonunda Üçtəpədə, Naxçıvan ərazisində I—II Kültəpələrdə, Qızılvəngdə, Daşkəsən və Gədəbəy rayonlarında isə siklop yaşayış yerləri öyrənilmişdir. Kiçik Qafqaz rayonlarının siklop tikintilərindən fərqli olaraq, Naxçıvan ərazisindəki bəzi qalaçaların müdafiə divarları yonulmuş nəhəng daşlardan hörülmüşdür. Bunlardan ilk dəmir dövrünə aid Oğlanqala özünün miqyası və möhtəşəmliyi ilə seçilir. Dövrün abidələrindən biri də Ağdam rayonunun Şıxbabalı kəndi ərazisindəki Qaratəpədir. Onun çox geniş - təqribən 6 ha ərazisi və daş bünövrə üzərində iri kərpiclərdən hörülmüş qala divarı vardır.

Dəfn abidələri daha yaxşı məlumdur. Kurqanlar, daş qutular və torpaq qəbirlər daha xarakterikdir. Kurqanlara düzən rayonlarda çoxlu miqdarda rast gəlinir. Onlar alp çəmənləri olan yüksək dağ yaylalarında da az deyil. Belə ki, Daşkəsən rayonunun Xaçbulaq yaylasında böyük kurqan yığımı vardır. Düzən və dağətəyi qurşaqda kurqanlar geniş ərazini əhatə edir. Bir çox hallarda, məsələn, Şamxor rayonunun Şiştəpə kəndi yaxınlığında və Xocalıda kurqanlar böyük qəbiristanlıq təşkil edir və s.

Kurqan torpağı altında üzərlərinə ağac və daş lövhələrlə örtülmüş bir və bir neçə torpaq qəbrinə təsadüf edilir. Bir çox hallarda dağlarda yerləşən kurqanlarda qəbirlər daş qutu formasında düzəldilirdi. Çox qəbirli kurqanlar ola bilsin ki, ayrı-ayrı ailələrə mənsub imiş. Ölülər bir-birinə yaxın qəbirlərdə tək-tək basdırılır: əvvəl qəbirlər ayrı-ayrılıqda torpaqlanır, sonra kurqanın ümumi torpağı tökülürdü.

Qarabağın dağlıq hissəsində kurqanların olmasına baxmayaraq, orada siklopik qalaçalara rast gəlinmir. Çoxlu daşqutu qəbiristanlıqlarına malik, bəzi hallarda kurqan tökməsi altında daşqutu qəbirləri olan Talış dağlarında da siklopik qalaçalar yoxdur. Talış dağları ilə eyni mədəniyyətə mənsub olan Lənkəran və Muğan düzənliklərində qəbirlər torpaqda qazılmışdır.



downloaded from KitabYurdu.az

**Yaşayış yerləri və qalaçalar**. Adətən Son Tunc və İlk Dəmir dövrü yaşayış yerləri 1-1,5 ha sahəni tutur. Bəzi rayonlarda, o cümlədən Qazax rayonunda onlar qrup şəklində bir-birinə yaxın yerləşirlər.

Son Tunc və Dəmir dövrü yaşayış yerlərində həyat hərbi toqquşmalar nəticəsində tez-tez kəsilirdi, sakinlər onları tərk etməyə məcbur olurdu. Bir çox yaşayış yerlərində - Qazax rayonunda - Sarıtəpə, Töyrətəpə, IV Babadərviş, Xanlar rayonunda 1 nömrəli yaşayış yeri və s. yanğın və köklü dağıntıların qalıqları qalmışdır.

Bu dövrün memarlığında əsas yeri palçıqdan istifadə etməklə daşdan hörülmüş düzbucaqlı evlər tutur. Bağdatı və yarımqazma tipli evlər də vardır, ancaq onlara hər yerdə rast gəlinmir.

Cənubi Azərbaycanda inşaatda çiy kərpicdən geniş istifadə olunurdu. Urmiya gölünün cənub-qərbində qədim Həsənli qalasında bütün tikintilər kərpicdən hörülmüş və yaxşı suvanmışdır. Möhtəşəm qala divarlarının bünövrəsi iri sal daşlardan, üstü çiy kərpiclərdən hörülmüşdür.

Son Tunc və İlk Dəmir dövrü mədəniyyət abidələrindən Xanlar yaxınlığında Gəncəçay sahilində 1 nömrəli yaşayış yeri 3 ha sahə tutur və üç tərəfdən daşdan hörülmüş müdafiə hasarı ilə əhatə edilmişdir. Şərq tərəfdən qumsal torpaqdan 6 m enində sədd vurulmuşdur.

Yaşayış yerində evlər daşdan, düzplanlı tikilirdi, bəzisinin uzunluğu 17 m-dən artıq, eni isə 7 m idi. Mərkəzində bütün ev boyu, böyük divarın dibi boyu isə kiçik dirəklər yerləşirdi. Evin otaqlarından birində sadə tağlı və bacası olan ocaq qurğusu vardı. Buradakı çardağı qoşaçatlı iri evlər dövrün mürəkkəb, əsil memarlıq tikintisidir. Yaşayış yerində həyat uzun müddət davam etmişdir. Əvvəl o, çay sahilini tutmuş, sonra yamaca doğru genişlənmişdir. Burada sonrakı evlər çox kiçikdir. Hər belə evin qarşısında daş çəpərlənmiş həyətyanı sahə var.

Qazax şəhəri kənarında Sarıtəpə yaşayış yeri Ağstafaçayın sağ sahilində təbii təpələrdən birində yerləşir. Bir hektarlıq sahəsi olan bu təpə Tunc dövrünün sonlarında məskunlaşır. Evlər burada düzbucaqlıdır, palçıqdan istifadə etməklə daşdan hörülmüşdür. Yaşayış yerinin mərkəzində məbəd xidməti görmüş tikinti qalıqları qalmışdır. Məbədin divarları dirəklərlə bərkidilən ağac çubuqlardan hörülmüş və samanlı palçıqla suvanmışdır. Məbədi başqa tikililər əhatə edir. Yaşayış evləri nisbətən iridir. Uzunluğu 7,5 m, eni 5 m olan bir ev 2 metrlik möhrə divarla iki qeyri-bərabər hissəyə bölünmüşdür. Möhrə divarın ön tərəfində ortasında dairəvi ocaq olan səki düzəldilmişdir. Möhrə divarın bir ucu ilə evin divarı arasında iri təsərrüfat küpü yerləşirdi. O, buradan otağın arxa hissəsinə keçidi bağlamışdır. Arxa hissə mətbəx xidmətini görürdü, orada döşəmədə gildən dairəvi ocaq və çoxlu qab-qacaq var idi.



downloaded from KitabYurdu.az

Qonşuluqda yerləşən Babadərvişdə yaşayış binaları forma və materialına görə Sarıtəpə evlərindən fərqlənmir. Ocaqlar da eynidir. Evlərdən birində, ocağın arxasında gildən adam büstü düzəldilmişdir. Bu, yəqin ki, sakinlərdə oda sitayişin mövcud olduğunu göstərir.

Ağstafa rayonu Töyrətəpə yaşayış yerində evlərin divarları çubuqdan hörülür və palçıqla suvanırdı. Eyni üsulla inşa olunmuş evlər Mingəçevir yaşayış yerində də vardır. Mingəçevir yaşayış yeri Son Tunc və İlk Dəmir dövründə mövcud olan böyük yaşayış məntəqəsi olmuşdur.

Naxçıvan ərazisində bu dövrün yaşayış məskənlərində düzbucaqlı evlər palçıqla bərkidilmiş daşdan hörülürdü. Buradakı qalalar öz miqyası və möhtəşəmliyi ilə yaxşı məlumdur.

Ədəbiyyatda siklop tikintiləri adlanan qala tipli abidələrə azərbaycanlılar "qalaça", "qala" deyirlər. Qalalar bərkidici material işlətmədən, xüsusən alt cərgələrdə iri nəhəng daşlardan qurulurdu. Daşkəsən  rayonu Xaçbulaq yaylağında Nağaradağ, Çobandaşı siklop tikintiləri, Gədəbəy rayonunda Pirqalaqapısı belə abidələrdəndir. Bəzən qalaçalar bir-birindən 5 m aralı duran paralel qoşa divarlarla əhatə olunmuşdur. Məsələn, Gədəbəy rayonunda Başqalaçanı göstərmək olar. Yerləşdiyi ərazinin xarakterindən asılı olaraq siklop qalalarının planları müxtəlifdir. Nağaradağda Pirqalaçası iki cərgə daşdan hörülmüş, düzgün olmayan dördbucaq formalı 4000 kv.m sahəni əhatə edir. Gədəbəy rayonunda Söyüdlü yaxınlığında ovalşəkilli Azərqalaçası da təxminən eyni sahəyə malikdir. O, üç tərəfdən dik yoxuşlu dağın zirvəsində yerləşir, 2 m enində divarları üç cərgə daşdan düzülmüşdür. Qalaya yalnız cənub-şərq tərəfdən  qalxmaq mümkündür. Xaçbulaq yaylağında uzunsov dördbucaqlı Mollabulağı qalaçasının ölçüsü 55x20 m-dir.

Siklop tikintiləri yaxınlığında onlarla həmdövr materiala malik kurqan və yaxud daşqutu tipli qəbirlər yerləşir.

Gədəbəy rayonunun Böyük Qaramurad kəndində Böyükqalaçada, Daşkəsən rayonunda Xaçbulaq yaylağında Daşlıtəpədə və başqalarında mədəni təbəqə, daş divarlar, ev qalıqları və məişət avadanlığı aşkar olunmuşdur.

Öyrənilən dövrdə siklop qalaçaları həm müdafiə məqsədi güdmüş, həm də əhalinin yaşayış yeri olmuşdur. Ancaq dağlarda bir çox qalaçalar yayda, düzən rayonlarda isə bəzi yaşayış yerləri mövsüm vaxtı istifadə olunurdu. Dağlardan düzənə enən maldar əhalinin qışlaqlarından biri Mil düzündəki qazma tipli evləri olan Üçtəpə yaşayış məskənidir.

**Təsərrüfat.** Son tunc və İlk Dəmir dövründə Azərbaycan vadilərində və düzənlərində təsərrüfatda əkinçilik üstün yer tuturdu.

Qazax rayonunun Sarıtəpə yaşayış yerində aparılan qazıntılar Azərbaycan əhalisinin əkinçilik təsərrüfatına və məişətinə aid müxtəlif materiallar verdi. Burada



downloaded from KitabYurdu.az

əldə edilən taxıl qalıqları içərisində çoxcərgəli yabanı və mədəni arpa, həm də yumşaq və bərk buğda var.

Sarıtəpənin bəzi tikintilərində yalnız təsərrüfat küpləri yerləşirdi. Onlardan birində 15 belə küp var idi. Yəqin ki, bu tikintilər taxıl anbarı olmuşdur. Abidələrdə təsadüf edilən vəllər əkinçilik mədəniyyətinin yüksək inkişafını əks etdirir. Xanlar yaxınlığında 2 nömrəli kurqandan tapılan vəl Azərbaycan kəndlərində yaxın illərə qədər işlənən vəllərdən heç bir cəhətdən fərqlənmir.

Sarıtəpədə küplər həm də çaxır saxlamaq üçün istifadə olunurdu. Bir neçə küpdə, bəzən çəkisi 5 kq-a qədər daşlaşmış çaxır qalıqları tapılmışdır. Küplərin birinin hündürlüyü 2,05 m idi. Çaxır küplərinin boğazları dar olduğu halda, taxıl küpləri geniş ağızlı hazırlanırdı. Burada gildən küp qapaqları da tapılmışdır.

Sarıtəpə yaşayış yeri məbədində bir çölməkdə yanğından kömürləşmiş salxımın tapılması üzümçülüyün inkişafını sübuta yetirir. Sarıtəpə üzümü mədəni cinsə aid olub, iri giləleri vardır. Belə üzümün çəyirdəyi və şaftalı çəyirdəyi Xanlar yaşayış yerindən məlumdur. Əkin sahəsi kiçik su arxları vasitəsi ilə suvarılırdı. Torpağın şumlanması heyvan qoşulmuş xışla aparılırdı.

İri və xırdabuynuzlu heyvanların, donuz və at sümüklərinin tapılması müxtəlif ev heyvanlarının saxlanmasını göstərir. Bəzi qab-qacaq süd məhsullarının hazırlanmasında istifadə olunurdu. Nehrə, aşsüzən və s. belə qablardandır. Yarımoturaq həyat tərzi keçirən əhalidə maldarlıq həlledici rol oynamışdır. Yüksək alp çəmənlərindəki siklopik qalaçalar əhalinin bu qisminə mənsub idi. Onlar yay yaxınlaşanda qış düşərgələrindən oraya qalxırdılar.

Atın minikdə istifadə olunması yaylağa və qışlağa köçməni xeyli asanlaşdırır. At skeletinə əsləhəsi ilə birlikdə dəfn abidələrində dəfələrlə rast gəlinmişdir. 1 nömrəli Xanlar kurqanının zəngin qəbrində üç at skeleti, Tərtər rayonunda Borsunlu kəndində qəbilə başçısına mənsub kurqan qəbrində səkkiz, Ağdam rayonunda Sarıçoban kurqanında 16 at skeleti var idi.

Son tunc dövründə sal təkərli arabalardan geniş istifadə olunurdu. Belə təkərlərin gildən hazırlanmış modellərinə arxeoloji abidələrdə tez-tez rast gəlinir. Mingəçevirdə diskşəkilli təkərlərin gildən hazırlanmış modellərinə də arxeoloji abidələrdə rast gəlmək mümkündür. Mingəçevirdə diskşəkilli təkərləri olan konusvari və yaxud pətəkvari arabaların gildən hazırlanmış modelləri tapılmışdır. Bu modellər maldarların dağlara köçmə dövründə arabalarda düzəltdikləri evləri təqlid edir.

Arxeoloji materiallar sübut edir ki, e.ə. II minilliyin ikinci yarısında dəndəli təkəri olan arabalardan istifadə olunurdu. Sarıtəpə yaşayış yerindən əldə edilmiş gil qablar üzərində altı və ya səkkiz dəndəli təkərlərin təsviri vardır. Yəqin ki, son tunc dövründə Simali Azərbaycanda hərbi məqsədlə işlədilən arabalar da olmuşdur. Bunu Xaçbulaqda e.ə. I minilliyin başlanğıcına aid qəbirdən əldə edilmiş tunc kəmər



downloaded from KitabYurdu.az

üzərində içərisində döyüşçü oturmuş dəndəli təkərli ikiatlı araba təsviri aydın sübut edir.

Son tunc və ilk dəmir dövründə yerli əhalinin naxırında yeni heyvana - dəvəyə təsadüf olunur. Füzuli şəhəri yaxınlığında zəngin Qarabulaq kurqanında iki dəvə skeleti var idi. Qəbirdəki bəzək əşyalarının bir hissəsinin dəvəyə aid olması dəvədən nəqliyyatda və minik heyvanı kimi də istifadə edildiyini göstərir. Yay vaxtları bütün sürü ilə birlikdə dəvə də dağ otlaqlarına aparılırdı. Xaçbulaq yaylağında Daşlıtəpə siklop qalasının mədəni təbəqəsindən tapılmış dəvə sümükləri bunu sübut edir.

Beləliklə, qədim Azərbaycan əhalisinə məxsus sürüdə bütün ev heyvanları növlərinin olduğu müəyyən edilmişdir. Bu dövrdə də hələ tunc dövrünün ilkin mərhələlərində meydana gələn yarımköçəri maldarlıq qəti şəkildə formalaşır.

**Sənətkarlıq.** E.ə. II minilliyin ikinci yarısında ayrı-ayrı sənətkarlıq növlərinin xüsusi inkişafı müşahidə olunur. Bu dövrdə Azərbaycan əhalisi metallurgiya və metalişləmənin inkişafında yüksək səviyyəyə qalxmışdı. Məhz bu dövrdə Azərbaycanın zəngin mis mədənlərinin geniş istismarı başlanır.

Metalın əridilməsi xüsusi kürələrdə aparılırdı. Belə kürələrin qalıqları Mingəçevirdə aşkar olunmuşdur. Kiçik sahədə bir-birinə yaxın beş kürə vardır. Onlar planda dairəvi və ellipsvari olmuşdur. Kürələrin ətrafında metal çıxarına, yanmış suvaq parçalarına, kül yığıntılarına, həm də üzərində metal qalığı olan puta qırığına rast gəlinmişdir. Mingəçevirdə misgər dəfinələri tapılmışdır. Onlardan biri 5 kiloqram çəkidə, kürələrdən biri ilə yanaşı idi. Dəfinədə istifadədən düşmüş müxtəlif əşya hissələri var idi (qolbaq, bıçaq, barmaqcıq, metal lövhələr, qıvrım asmalar və s.). Bu əşyalar qəsdən toplanır və onlardan yeni tunc məmulat hazırlanırdı. Yastı balta tökmək üçün istifadə edilən daş qəlibin tapılması Mingəçevirdə metalişləmə emalatxanasının varlığı barədə dəlilləri tamamlayır. Metalişləmə emalatxanaları Azərbaycanın başqa yaşayış yerlərində də olmuşdur. Şamxor rayonunda təbərzin balta tökmək üçün qırmızı qumsal daşdan düzəldilmiş ikiüzlü qəlibin bir üzü tapılmışdır. Təbərzin balta üçün eyni formalı daş qəlibin bir parçası Gədəbəy rayonunun Böyük Qaramurad siklop qalaçasından əldə edilmişdir. Misgər emalatxanalarda yalnız sakinlərin özlərinin ehtiyacı üçün deyil, həm də mübadilə üçün məmulat hazırlanırdı. Bunu AZƏRbaycanın müxtəlif rayonlarından tapılmış təbərzin balta dəfinələri təsdiq edir. Belə ki, Dəvəçi rayonunda Meşrif dəfinəsində mis qazanda yeddi təbərzin balta, Xankəndi yaxınlığında Kərkicahan dəfinəsində altı təbərzin balta olmuşdur.

Qədim ustalar misə qatqı kimi mərgmüş, sürmə, əsasən, qalay, az hallarda qurğuşun əlavə edirdilər.

Ustalar tunc əşyaların texniki və texnoloji cəhətdən istehsalına yaxşı bələd idilər. Tunc əşyaların istehsalında müxtəlif üsul və qaydalar tətbiq edirdilər. Buraya daş qəliblərdə və mumdan düzəldilmiş modellərdə metaltökmə, metalı isti və soyuq döymə, bəndvurma, qaynaqlama, kəsmə, cızma və s. daxildir.



downloaded from KitabYurdu.az

Silahların əksəri metaltökmə yolu ilə düzəldilirdi. Bu, tunc baltalara, qılınclara və xəncərlərə aiddir. Mumdan düzəldilmiş modellər vasitəsi ilə demək olar ki, bütün xırda tunc əşyalar - quş, heyvan, insan fiqurları və müxtəlif bəzəklər - asmalar, barmaqcıqlar və diademlər (alınlıq) hazırlanırdı. Mürəkkəb formaya malik əşyalar hissə-hissə hazırlanır, sonra birləşdirilir və bənd edilirdi. Balıqqayadan və Xanlardan tapılmış tunc hərbi yabalar belə hazırlanmışdır. Bir çox hallarda xəncərlərdə və qılınclarda dəstək başlığı ayrılıqda hazırlanırdı. Kiçik Qafqaz və ona qonşu ərazilərdə xəncər başlıqları əsasən şəbəkəli düzəldilir, ağacla inkrustasiya olunurdu. Pasta, sümük və sədəflə inkrustasiyaetmə halları da məlumdur. Qəliblərdə tökülən tunc əşyalar zərbetmə və cızma üsulu ilə bəzənirdi. Enli tunc kəmərlərdə insan, heyvan, quş, balıq, müxtəlif nişanlar, həm də dini xarakter daşıyan bütöv səhnələrə təsadüf olunur. Metalişləmə sənətində tunc əşyaları inkrustasiya etmədə müxtəlif rəngli metallar tətbiq olunurdu. Dovşanlı kurqanlarından əldə edilmiş tunc halqa və toqqa başlığı elə tökülmüşdür ki, onlardan qıvrım çökəkliklər vardır. Həmin çökəkliklərə sonra həmin metalın daha açıq rənglisi doldurulmuşdur. Bu dövrdə tuncdan müdafiə üçün qalxan, dəbilqə (Dovşanlı) və qazan (Çovdağ, Xocalı, Meşrif) hazırlanırdı.

Hər qəbilə birliyi ərazisində metallurgiya ocağı özünəməxsus tunc əşyalarla səciyyələnir. Məsələn, Talış-Muğan mədəniyyətinin qılınc və xəncəri Xocalı-Gədəbəy mədəniyyətinin eyni məqsəd daşıyan materiallarından tamamilə seçilir. Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən yaxşı məlum olan tunc təbərzin baltalar, enli qılınclar Naxçıvan ərazisindən məlum deyildir.

E.ə. II minilliyin sonlarında dəmir yalnız xırda əşyaların hazırlanmasında istifadə olunur və olduqca az rast gəlinir. Sonralar dəmir silah və alət hazırlanırdı. Müvafiq dəlillər göstərir ki, tunc və dəmir metallurgiyasının inkişafında varislik olmuşdur.

Talış-Muğan mədəniyyət abidələrindən dəmir tiyəli xəncər və qılınclar, Xocalı-Gədəbəy mədəniyyətindən dəmir nizələr eyni tunc əşyaların formasını təkrar edir.

Azərbaycanda və ümumən Zaqafqaziyada dəmir metallurgiyasının inkişafı ilə tunc baltaların, qılıncların və bir sıra başqa əşyaların istehsalı kəsilir.

Son tunc və ilk dəmir dövründə bütün Zaqafqaziyada dulusçuluq sənəti inkişafını davam etdirir. Saxsı qab istehsalı əvvələ nisbətən genişlənir və müxtəlifliyi artır.

Dövrün dulus kürələri bu sənətkarlığın qədim yerli ənənələrini saxlayır. Qədim Mingəçevir yaşayış yerindən öz quruluşuna görə Azərbaycanın eneolit dulus kürələri ilə çox oxşarlıq təşkil edən kürələr aşkar olunmuşdur. Mingəçevir dulus kürələrinin ölçüləri demək olar ki, eynidir: uzunluğu 4 m, eni 2 m. Məhz belə kürələr çoxlu miqdarda müxtəlif ölçülü qabların, o cümlədən dövrün hər yaşayış məskənində



downloaded from KitabYurdu.az

təsadüf olunan iri küplərin istehsalına imkan verirdi. Ötən dövrlərdə iri qablar hazırlanmırdı.

Mingəçevir kürələrinin odluğu və qabbişmə kameraları vardır. Onlarda alov çəkməni gücləndirmək və lazımi hərarəti almaq üçün odluqdan qab bişən kameraya səkkiz boru qol qalxırdı. Kürələrdə və onların ətrafında 450-500 dərəcədə bişirilmiş boz və qara qab parçaları var idi. Ancaq Naxçıvan və Cənubi Azərbaycan ərazisində boz qab-qacaqla yanaşı qırmızı bişimli, boyalı saxsı məmulatı da istehsal edilirdi.

Dulus məhsulatında yaraşıqlı qablar diqqəti cəlb edir. Onlar heyvan, quş fiquru, uzunboğaz çəkmə, həm də keçidli qoşa qablar formasında hazırlanırdı. Mingəçevir, Xocalı, Gədəbəy, Gəncəçay hövzəsi və başqa ərazi abidələrində daş qablar - cam, nimçə, kubok formalı gözəl nümunələr əldə edilmişdir. Mingəçevirdən əldə edilən camın qoşa qoç başı formasında qulpu vardır. Eyni formalı, ancaq bir qulplu cam Gəncə yaxınlığında Alabaşlı kəndindən əldə edilmişdir.

Daşişləmə sənətində gümüşdən inkrustasiya vurmaq yenilikdir. Oyuq nöqtələrə gümüş zərrələri doldurmaqla həndəsi fiqur əmələ gətirən təsvir və heyvan rəsmi maraq doğurur. Belə naxışlar qədim Mingəçevir kurqanlarında tapılmış daş nimçə və badəvari qabları bəzəyir.

Son tunc və ilk dəmir dövründə mərmərdən və hematitdən toppuz, əqiqdən və xalsedondan bəzək əşyaları hazırlanırdı. Ağacişləmə və toxuculuq sənətkarlıqda mühüm yer tuturdu. Ancaq bu sənət sahələrinin məhsulları arxeoloji abidələrdə qalmır. Məişət və dəfn abidələrində ağac geniş tətbiq olunurdu.

Ağır arabalarla yanaşı, yüngül dəndəli təkərli arabalar da hazırlanırdı. Belə çətin və mürəkkəb nəqliyyat vasitəsinin hazırlanması yeni bir texniki proses olmaqla onun müxtəlif hissələrinin düzəldilməsi ağacişləmə sənətinə yaxşı bələd olmağı tələb edirdi.

Dövrün abidələrində dəfələrlə parça izlərinə, həm də qalıqlarına təsadüf edilmişdir. Bəzi hallarda materiya qalıqlarında boya izi müşahidə olunmuşdur. Boyanmış parça qalıqlarına Mingəçevirdə təsadüf edilmişdir. İy başlıqlarının tapılması əldə ipəyirməyə dəlalət edir. Toxuculuq dəzgahına gəldikdə isə bu dövrdə o barədə də danışmaq olar.

Dəri işləmə sənəti də inkişaf edir. Uzunboğaz çəkmə və burnu yuxarı əyilmiş çarıq modellərinin, həm də tunc bizlərin tapılması bunu sübut edir. Dəridən paltar tikilirdi. Atın minikdə və qoşquda istifadəsi ilə əlaqədar at əsləhəsi üçün göndən müxtəlif əşyaların hazırlanması zərurəti yaranır.

Beləliklə, Son Tunc və İlk Dəmir dövründə sənətkarlığın bəzi sahələrinin inkişafında xeyli tərəqqi müşahidə olunur. Ölkə iqtisadiyyatının ümumi vəziyyəti sənətkarlıqda yeni sahələrin yaranmasına şərait yaradır, bu da ibtidai icma quruluşunun dağılma və dövlətin yaranma ərəfəsində mübadilənin və ticarətin genişlənməsinə və güclənməsinə təkan verir.



downloaded from KitabYurdu.az

**İctimai və mülki bərabərsizliyin güclənməsi. İbtidai icma quruluşunun dağılması.** Arxeoloji mənbələrə görə, ölkənin bütün vilayətlərində ictimai-iqtisadi inkişaf prosesi eyni səviyyədə olmamışdır. Şimala nisbətən cənub bölgələrdə ictimai inkişafın bir qədər yüksək səviyyədə olması nəzərə çarpır. Burada əkinçilik və maldarlıq, tunc metallurgiyası yaxşı inkişaf etmiş, üzümçülük təsərrüfatın xüsusi sahəsinə çevrilmişdi. Saxsı məmulatı istehsalında dulus çarxı geniş tətbiq olunur, mübadilə və ticarət genişlənir. Bütün bunlar yerli əhalinin ictimai həyatında dəyişikliklərə gətirib çıxarır.

Cənub rayonlarının dəfn abidələri nisbətən zənginliyi ilə fərqlənir. Qarabağın kurqan qəbirlərində Zaqafqaziyada nadir hallarda rast gəlinən qızıl əşyalar, sədəf və sümükdən bəzəklər, çoxlu tunc və başqa məmulat tapılmışdır. Bir nekropolda rast gəlinən qəbirlər öz avadanlıqlarının zənginliyinə və kasıblığına görə fərqlənir.

O dövrdə Azərbaycanda qulların olmasını Dovşanlıda, Axmaxıda, Borsunlu və Xanlarda aparılan tədqiqatların nəticələri təsdiq edir. Belə ki, Axmaxı kurqanındakı əsas ölü həmdövr qəbirlərində rastlanan və yerli əhali üçün səciyyəvi olan dolixosefal tipinə mənsub idi. Əsas ölünü müşayiət edənlərə gəldikdə isə, onların kəlləsi başqa - braxisefal tipində idi.

Qəbilə başçılarına və şöhrətli şəxslərə mənsub bir sıra kurqan qəbirləri mürəkkəb quruluşlarına, zəngin avadanlığa və təmtəraqlı dəfn mərasiminə görə nəzər-diqqəti cəlb edir. Qullardan əlavə, ölmüş başçını axirət dünyasına arvadları, kənizləri, atları müşayiət edir, qəbirə çoxlu silah və ona mənsub olan əmlakı qoyulurdu. Dövrün abidələrində birinci dəfə olaraq üzərinə tunc lövhə çəkilmiş taxta qalxanlara və zirehli geyimə rast gəlinmişdir.

Azərbaycanda ibtidai icma quruluşunun dağılma və sinifli cəmiyyətin yaranması dövrünün ən təmtəraqlı abidələrindən biri Tərtər rayonunun Borsunlu kəndindəki böyük kurqandır. Kurqanın 256 kv.$m^2$ sahəyə (uzunluğu 32, eni 8 və dərinliyi 4 m) malik qəbiri təxminən iki yüz tirlə iki qatda örtülmüşdür. Qəbirdə qəbilə başçısı dəfn olunmuşdu. O, tunc mıxlarla bərkidilmiş, qızıl təbəqə çəkilmiş və tunc lövhələrlə bəzədilmiş taxt-kəcavə üzərinə qoyulmuşdur. Başçıdan əlavə, qəbirdə doqquz şəxsin qalıqları, səkkiz at skeleti, çoxlu iri və xırdabuynuzlu heyvan sümükləri, saxsı qablar, metal əşyalar - təbərzin balta, yastı balta, iskənə, nizə və ox ucları, kəmər və qazan qırıqları, qızıl düymələr, əqiqdən, pastadan və şüşədən muncuqlar, mərmər toppuz və şirli qab var idi. At əsləhəsi də qəbirdə böyük yığımda və müxtəliflikdə təqdim olunmuşdu (müxtəlif gəm, sümükdən qaytarğanlar, onların bəzilərində cızma üsulla insan başının təsviri verilmişdir). Orada həm də tuncdan bəzəklər və dəniz xərçənglərinin çanağından düzəldilmiş şəbəkə düymələr var idi. Şübhə yoxdur ki, Borsunludakı bu kurqan qəbilə başçısına mənsub imiş, dəfn ərəfəsində kənizləri, qulları və arvadları öldürülmüş və onunla birlikdə basdırılmışdır.



downloaded from KitabYurdu.az

Son Tunc dövrü qəbirlərində göstərilən əlamətlər və silahların çoxluğu, çox ehtimal ki, hərbi demokratiyanın inkişafı ilə əlaqədardır. İbtidai cəmiyyətin dağılması ərəfəsində zorakılıqla zəbtetmə və talançılıq bəzi qəbilələrdə varlanma mənbəyi kimi tez-tez baş verən hadisələrə çevrilir. Ancaq Azərbaycan əhalisinin və onun qonşularının bu dövrdə daima müharibələr şəraitində yaşamasını güman etmək səhv olardı. Doğrudur, ayrı-ayrı qəbilələr arasında varidat, ilk növbədə, mal-qara otlaqları üstündə vaxtaşırı toqquşmalar olurdu. Belə şəraitdə bəzi qəbilələrin əlçatmaz yerlərdə məskunlaşması və nəhəng qalaçalar hörülməsi səbəbləri aydın olur. Kiçik Qafqaz ərazisində təhlükə vaxtı özlərini və mal-qaranı qorumaq üçün siklop tikintiləri belə yaranmışdır. Müdafiə qalaları nəinki dağlarda maldar qəbilələrin, həm də dağətəyi qurşaqda əkinçilərin yaşadığı yerlərdə tikilirdi.

Bəzi varlı qəbirlərdə silahların həm əsas ölünün, həm də onu müşayiət edənlərin yanına qoyulması müşahidə edilmişdir. Dovşanlı kurqanında qəbirdə düz uzadılmış əsas ölü və ona məxsus çoxlu miqdarda avadanlıqdan əlavə bükülü vəziyyətdə üç skelet də var idi. Onlarla birlikdə tunc dəbilqə, silah, yaba və at yüyəninin tapılması onları ölən başçının hərbi dəstəsinin üzvləri hesab etməyə əsas verir.

Müvafiq dövr cəmiyyətində qəbilə başçıları, mötəbər şəxslər, hərbçilər, qullar və s. aydın seçilir. Bu, hər şeydən əvvəl, yeni ictimai-iqtisadi münasibətlərin yaranması ilə əlaqədar olub, təzəcə təşəkkül tapmaqda olan ictimai quruluşun "carçıları" idi.

Beləliklə, bu dövr ibtidai-icma quruluşunun dağılması prosesində son mərhələ - siniflərin və dövlətin yaranma ərəfəsi idi.

**Qəbilələrarası mübadilə. Xarici əlaqələr.** Son Tunc və İlk Dəmir dövrü təsərrüfatının qızğın inkişafı ərzaq məhsulu artımı yaradır ki, bu da qəbilələrarası geniş, müxtəlif cəhətli mübadiləyə təkan verir. Bu işdə düzəndən dağa, oradan yenə arana köçən qəbilələrin böyük rolu olmuşdur. Böyük əraziləri keçən bu qəbilələr oturaq əhali ilə daimi təmasda olur, mübadilə edir, bu və digər əşyaların yayılmasında vasitəçi xidmətini görürdülər. Mübadilə mal-qara, yun, əkinçilik və maldarlıq məhsulları, həm də sənətkarlıq məmulatı ilə aparılırdı. Dövrün abidələrində bir bölgənin məhsullarının başqasına keçməsini aydın müşahidə etmək olur. Bu, hər şeydən əvvəl, Azərbaycanın və bütün Qafqazın metallurgiya mərkəzlərinin istehsalına aiddir. Abşeronda zərif cızma xətlə naxışlanmış tunc kəmər tapılmışdır. Belə kəmərlər Qərbi Azərbaycan abidələrindən yaxşı məlumdur və orada onların istehsalı qaydaya salınmışdı. Dəvəçi rayonundan tapılan tunc təbərzin baltalar da orada mübadilə üçün hazırlanmışdır.

Dağıstan və Şimal-Şərqi Azərbaycan üçün səciyyəvi olan saxsı məmulatı nümunəsinin Gədəbəy rayonundan tapılması Xəzərsahili qəbilələrinin Mərkəzi Zaqafqaziya ilə əlaqələrini əks etdirən dəlillərdən biridir.



downloaded from KitabYurdu.az

Arxeoloji tapıntılara görə müəyyən edilən bir əlaqə xətti Talış metallurgiya mərkəzi ilə bağlıdır. Talışda ən səciyyəvi silah növlərindən biri olan haçadəstəkli xəncərlər Abşeronda və Dağıstanda tapılmışdır. Onlara Mərkəzi Qafqazda - Qərbi Azərbaycanda da (Qazax) və Gürcüstanda (Salka) rast gəlinmişdir.

Metal istehsalı inkişafının güclənməsi əlaqələrin və mübadilənin genişlənməsinə səbəb olurdu. Qafqazmənşəli tunc əşyalara Şərqi Avropa ərazisində rast gəlinir. Zərif cızma xətlə naxışlanmış Zaqafqaziya tunc kəməri Kiyev yaxınlığında tapılmışdır. Kiyev yaxınlığında Çernyaxov dəfinəsindən qalxanın, tunc döşlüyün tapılması daha maraqlıdır. O, böyük Xanlar kurqanından tapılan qalxan döşlüyü ilə o dərəcədə oxşardır ki, onların ümumi bir mənşəyə mənsubiyyəti şübhə doğurmur. Şimal vilayətlərindən fərqli olaraq Zaqafqaziya metal istehsalı mərkəzlərinin cənub istiqamətinə doğru əlaqələrini göstərən faktik dəlillər az məlumdur. Urmiyanın cənubunda Həsənlidən tapılan qızıl cam üzərində təsvir olunmuş üç müxtəlif xəncərdən birinin Son Tunc və İlk Dəmir dövründə Kiçik Qafqaz ərazisi abidələrində geniş yayılmış xəncər formasını əks etdirməsi diqqəti cəlb edir.

Bu dövr abidələrində yerli istehsal məmulatı ilə yanaşı, Qədim Şərq ölkələrindən gətirilmə əşyalara rast gəlinir. Saxsı məmulatı, tunc, qızıl və Ön Asiya mərkəzlərində istehsal olunmuş çoxlu miqdarda bəzək əşyaları aydın seçilir.

Azərbaycana daxil olan malların içərisində bəzən üçqulplu kuzə tipli şirli qabların orijinal nümunələri vardır. Xocalı kurqanlarından birində tapılan qab parçası üzərində heyvan təsvirləri yaşılımtıl və sarımtıl rənglə çəkilmiş və şəffaf şirə ilə örtülmüşdü. Mingəçevirdən məlum olan qablarda da eyni şirlənməyə rast gəlinir. Ancaq onlarda və Xocalının digər belə qablarında bəzək həndəsi fiqurlarla verilmişdir. Onların Aşşur mənşəli olması şübhə doğurmur.

Xocalıdan tapılan kiçik mücrü nəinki gilinə, həm də boyanın rənginə və eləcə də formasına görə qədim Assuriyanın mərkəzi Aşşurdan məlum olan mücrü ilə tam eyniyyət təşkil edir. Görünür Aşşur nümunələrinə Naxçıvan şəhəri yaxınlığında II Kültəpənin üst mədəni təbəqəsindən əldə edilmiş şirli camı da aid etmək olar. O, ağ gildən olub, göy rənglə boyanmış və şəffaf şirlə örtülmüşdür. Belə şirli qab nümunələri Borsunlu və Xaçbulaq kurqanlarından məlumdur.

Talış dağlarında qəbirlərdən birində şirli qaba rast gəlinmişdir. O, göyümtül-yaşıl rənglə boyanmış və şəffaf şirlə örtülmüşdür. Cənubi Qafqazın başqa şirli qabları kimi bu qab da Ön Asiya sənətkarlıq mərkəzlərinin məhsuludur. Orada artıq bir sıra şəhərlərdə şir və şüşə istehsalı texnologiyası mükəmməl mənimsənilmişdi. Şirli qabların geniş istehsalı Aşşur şəhərlərində e.ə. II minilliyin ortalarından məlumdur. Aşşur şəhərində tapılmış bir şirli qabda mixi yazı ilə XIV əsrdə yaşamış Aşşur hökmdarı I Adadnerarinin adı yazılmışdır. Bununla əlaqədar 11 nömrəli Xocalı kurqanından mixi xətlə Adadnerari adı yazılmış muncuğun tapılması maraq doğurur.



downloaded from KitabYurdu.az

Azərbaycanda yayılmış gətirilmə şirli qablar əsasən e.ə. XII -VIII əsrləri əhatə edir. Azərbaycanın qədim abidələrindən əldə edilmiş gətirilmə materiallar içərisində tək-tək silindrik möhürlər də vardır. Qızıl lövhədən hazırlanmış belə möhürlərdən biri Dovşanlı kurqanından tapılmışdır. Onda təsvir olunmuş bir qrup heyvanlar içərisində atı, dağ keçisini və iti seçmək olur. Möhürdəki təsvirlərin ümumi görünüşünə görə o, İran (Təpə-Sialk B) möhürünü xatırladır. Onlarda ümumi cəhət fiqurların sərbəst yerləşdirilməsidir. Başqa bir yumşaq daşdan hazırlanmış möhür İmişli rayonunun Çardaxlı kəndində tapılmışdır. Möhürdə arxa pəncələri üzərində dayanmış qəzəbli aslan və diz çökmüş oxatan təsvir olunmuşdur. Bu cür səhnə daha çox Aşşur möhürləri üçün səciyyəvidir ki, bu, İmişli möhürünü mənşə etibarilə onlarla bağlamağa imkan verir. Hurri möhürləri ilə eyniyyət təşkil edən Şahtaxtı möhüründə təsvir olunmuş müqəddəs ağacın bir tərəfində ibadət edən şəxs, o biri tərəfində isə başları arxaya çevrilmiş, döşləri bir-birinə toxunan iki keçi vardır. Şahtaxtı möhürü ilə bir qrupa daxil olan beş silindrik möhür Talış qəbiristanlıqlarından əldə edilmişdir. Şübhə yoxdur ki, göstərilən möhürlər Ön Asiya ölkələrindən gətirilmədir.

Qızıl əşyalar (muncuqlar, barmaqcıqlar, lövhələr, aslan başı formasında fiqur, silindrik möhür və s.) Xocalı, Dovşanlı, Qarabulaq kurqanlarından, Qızılvəng qəbirlərindən məlumdur. Qızıl əşyaların Ön Asiya mənşəli olması şübhə doğurmur. Eyni sözü ağ pasta muncuqlar, fil sümüyündən və sədəfdən hazırlanmış bəzək əşyaları, şüşədən, müxtəlif rəngli şüşəvari pastadan muncuqlar və şüşə düymələrə də aid etmək olar.

Qalakənd, Mingəçevir və Xaçbulaqda qalaydan hazırlanmış bilərzik və barmaqcıqlar tapılmışdır. Qalay Ön Asiyaya və Qafqaza qonşu ölkələr vasitəsilə daxil olurdu. Çox uzaq ölkələrdən Qafqaza gətirilən məmulat, şübhəsiz, çoxpilləli mübadilə ilə əlaqədardır.

Gətirilmə əşyalara dəstələri çərçivə formasında düzəldilmiş xəncərlər də daxildir. Onlar Zaqafqaziya və Şimali Qafqazdan da məlumdur. Azərbaycanda onlar Naxçıvanda Qızılvəngdə, Cəlilabad rayonunda Uzuntəpədə, Gədəbəydə, Talışda Ağa evlər qəbiristanlığında (üzəri şirli iki silindrik möhürlə birlikdə), Masallı rayonunun Mahmudavar kəndində tapılmışdır. Talış və Muğan xəncərlərinin bir növü Ön Asiya nümunələrini təqlid etməklə hazırlanmışdır. Ön Asiya tipli xəncərlər çox uzun dövr ərzində, e.ə. II minilliyin ikinci rübündən e.ə. I minilliyin əvvəllərinə qədər işlənmişdir.

E.ə. II-I minilliklər ərəfəsində sıx mübadilə, ticarət əlaqələri nəticəsində ilk dəfə olaraq Azərbaycana dəvə gətirilir və həmin dövrdən də burada onun yetişdirilməsi başlanır.

Beləliklə, gətirilən dəlillər göstərir ki, son tunc və ilk dəmir dövründə Cənubi Qafqaz, o cümlədən Azərbaycan beynəlxalq ticarət əlaqələrinə qoşulur. Buraya gətirilən məmulatın əvəzinə mal-qara, metal və duz aparılırdı.



downloaded from KitabYurdu.az

**Mənəvi mədəniyyət və ideologiya.** Azərbaycan ərazisində Son tunc və İlk Dəmir dövrünə aid tədqiq olunan qəbir abidələri axirət dünyası ilə bağlı dəfn mərasimi, adət və etiqadlar haqqında mühakimə yürütməyə imkan verir. Təəssüflər olsun ki, dövrün yaşayış məskənlərinin zəif öyrənilməsi nəticəsində yerli əhalinin məişət, istehsal və mənəvi həyatını səciyyələndirən dini obyektlər və mərasimlər haqqında az danışa bilirik. Bu baxımdan yanğın nəticəsində dağılmış Sarıtəpə məbədinin qalıqları böyük maraq doğurur. Yaşayış yerinin mərkəzində inşa olunmuş məbəddə arxa divardan bir qədər aralı, yapma təsvirlə bəzənmiş, üz tərəfi qapıya baxan stela yerləşirdi. Onun arxasında duran kahin məbədə daxil olan hər şəxsi dördkünc gözdən müşahidə edə bilirdi. Stelanın qurtaracağı bir ucda qoç və donuz başları, o biri ucu isə öküz başı formasında düzəldilmişdir.

Məbəddən çatal gövdəli, qulpu üzərində yapma ilan təsviri olan kuzə tapılmışdır. Döşəmədə çiy gildən yastı nimçələr var idi. Onların bəzilərində içərisində qurban gətirilmiş qab qoyulmuşdur. Qablardan birində yanıb kömürlənmiş yarpaqlı üzüm salxımı qalmışdır.

Sarıtəpə yaşayış yerində dini mərkəz bir neçə otaqdan ibarət olmuşdu. İkinci otaq tam qalmasa da, orada daxili tərtibatdan çoxlu gil yapmalar, o cümlədən ilan fiquru var idi. Maraqlıdır ki, məbəd otaqlarında ocaq və ev avadanlığı yox idi.

Bütün arxeoloji materiallar bu obyektin dini xarakter daşımasına dəlalət edir. Yaşayış yerinin sakinləri məbədə yeni məhsulun barından gətirir, burada kahinlərin başçılığı ilə şənlik mərasimi keçirirdilər.

Sarıtəpədə tapılan gil möhürlər müqəddəs əşyalara aiddir. Onların hamısındakı naxışlar günəş təsvirlərindən, şüalı günəş dairəsindən ibarətdir. Bu möhürlər, yəqin ki, bayram günlərində müqəddəs çörəklərə naxış vurmaq üçün işlədilirmiş. Ola bilsin ki, günəşlə çörəyin sehrkarlıqla birləşməsi, əcdadlarımızın təsəvvürlərinə görə, məhsul bolluğunu təmin etməli idi.

Son Tunc və İlk Dəmir dövrü əkinçi qəbilələrin ideologiyasında heyvanlara pərəstiş müəyyən yer tuturdu. Sarıtəpə məbədindəki ağac dirəklərin uclarında gildən heyvan başlarının (qoç, donuz, öküz) düzəldilməsi məhz bununla izah edilməlidir. Sarıtəpədə bir qab qulpları heyvan fiqurlarını təqlid edir, burada beldən asmaq üçün ilgəyi olan tunc at fiquru tapılmışdır.

Sarıtəpə məbədində kuzə qulpundakı ilanın relyef təsviri qədim əkinçi əhalinin dini təsəvvürlərində suya sitayişlə bağlı olmalı idi.

İbtidai icma quruluşunun dağılması ərəfəsində əhalinin dini təsəvvürlərinin öyrənilməsində saxsı qablar üzərində çoxsaylı təsvirlər xüsusən maraqlıdır. Qablar üzərində çoxlu rəmzi işarələr və heyvanların, bəzən adamın sxematik fiqurları, həm də müxtəlif etiqad, pərəstiş və ayinlərlə bağlı təsvirlər vardır. Xanlar rayonunda Killikdağdan əldə edilən cam üzərində iki nəfərin əllərini göyə qaldırılmış vəziyyətdə heyvanların qarşısında durması, yəqin ki, məhsuldarlıq və heyvan artımı ideyası ilə



downloaded from KitabYurdu.az

bağlıdır. Həmin rayonda məlum olan bir qrup camlar üzərində verilən ov səhnəsi kainat haqqında təsəvvürlərlə əlaqədardır; qabın boğazını əhatə edən dalğavari xətt üç yerdə dairə ilə kəsilir, Günəş işarəsi - dairələrdən biri nöqtələrlə ovçunun oxu, ikincisi ovçu, üçüncüsü isə keçi fiquru ilə birləşir.

Materiallarda heyvan obrazları və simvolik işarələrlə həmin dövr əhalisinin üç aləm - Səma, Yer və Su haqqında təsəvvürləri əks olunur. Şəmkir rayonundan tapılmış sürmə düymənin orta hissəsində günəş işarəsi, kənarlarında quşlar, onların arasında üçbucaqlar (dağlar), maral və keçi təsvirləri verilmişdir.

Gil qablarda, tunc kəmərlərdə verilmiş müxtəlif səhnələrdə, eləcə də gil möhürlərdə günəş işarəsinin olması qədim əhalinin ideologiyasında Günəşə pərəstişin böyük əhəmiyyət daşıdığını təsdiq edir.

Son Tunc və İlk Dəmir dövrü dəfn abidələri axirət dünyası ilə bağlı çox cəhətləri aşkar edir. Dəfndə başlıca olaraq ölübasdırma tətbiq olunur, bəzi hallarda ölü parçalanırdı, bəzən də ölüyandırma adətinə təsadüf olunur. Ölülərin müxtəlif avadanlıqla birlikdə basdırılması öləndən sonra həyatın davamına inamla əlaqədardır. Dəfn abidələri qəbirlərin tiplərinə görə də müxtəlifdir. Gəncəçay hövzəsində bəzi qəbirlərin içərisi ağac tirlərlə iki-üç yarusa bölünürdü. Hər bir yarusda insan skeletinə rast gəlinir. Ayrı-ayrı hallarda aşağı yarusda ölü, yuxarı yaruslarda qəbir avadanlığı, heyvan cəsədləri yerləşirdi.

Əksər hallarda ölüləri bükülü vəziyyətdə böyrü üstə müxtəlif istiqamətlərdə basdırırdılar. Oturdulmuş və yaxud uzadılmış vəziyyətdə basdırılmış ölülərə də rast gəlinir. Kür çayının sağ sahilində Mingəçevir qəbiristanlığında ölülər sadə torpaq qəbirlərində yalnız bükülü vəziyyətdə dəfn olunmuşlar. Görünür, onlar adi adamlar imiş. Yaxınlıqda nəsli - qəbilə cəmiyyətinin adlı-sanlı nümayəndələri basdırılmış kurqanlar yerləşir. Bəzi hallarda ölülərin üzərinə qırmızı oxra səpirdilər. Göygöl və Tərtər rayonlarında kurqan qəbirlərində divarlara qırmızı rəng çəkilməsi müşahidə edilmişdir.

Dəfn abidələrindəki fərqə adətən etnik əlamət kimi baxılır. Ancaq bir vaxtda eynitipli əşyalarla müxtəlif adətlə basdırılanlara da rast gəlinir. 1 nömrəli Dovşanlı kurqanının qəbrində ölülərdə, biri düz uzadıldığı halda, üçü başlarında tunc dəbilqə bükülü vəziyyətdə basdırılmışdır. 2 nömrəli Dovşanlı kurqanı qəbirlərinin hərəsində uzadılmış vəziyyətdə bir ölü çox zəngin avadanlıqla (qılınc, iki xəncər, tuncdan nizə ucluğu və heyvan təsvirləri zərb olunmuş qızıldan boru və s.) dəfn olunmuşdur. Dovşanlı kurqan qəbiristanlığı, hər şeydən əvvəl, dəfn olunmuş şəxslərin ictimai vəziyyətindəki fərqi nümayiş etdirir. Daha iri qəbirli nəhəng kurqanlar imtiyazlı şəxslər və yaxud qəbilə başçıları üçün düzəldilirdi. Belələri Qarabağda - Füzuli, Ağdam, Tərtər və Xanlar rayonlarında tədqiq olunmuşdur. Tərtər rayonundakı Borsunlu kurqanındakı qəbir öz ölçüsü ilə (32x8 m) nəinki Azərbaycanda, hətta bütün



downloaded from KitabYurdu.az

Qafqazdakı oxşar abidələri üstələyir. Yəqin ki, belə dəfn abidələrinin qurulması mərhumun nəinki ictimai və mülki vəziyyəti, həm də ona pərəstişlə bağlıdır.

Beləliklə, Azərbaycanın Son Tunc və İlk Dəmir dövrü abidələri qəbilələrin mənəvi mədəniyyətinin və ideoloji aləminin müxtəlif sahələrini aşkar edir.

Ümumilikdə bu dövr yerli əhalinin inkişaf tarixində mühüm bir mərhələni, yeni ictimai quruluşa keçid ərəfəsini bütün dolğunluğu ilə əks etdirir.

**Aşşurluların və elamlıların Zaqros vilayətlərinə yürüşləri.** E.ə. II minilliyin son yüzillikləri dərin dəyişikliklərlə əlamətdardır. Bu dövrün materialları formalaşmış əmlak və sosial təbəqələşmədən, sənətlərin yeni-yeni müvəffəqiyyətlərindən, yaxşı möhkəmləndirilmiş bir çox içqalalı və nekropollu məskənlər salınmasından xəbər verir. Belə məskənlərin yalnız az bir qisminin tədqiq edildiyinə baxmayaraq, ətraf yerlərin siyasi və təsərrüfat mərkəzləri kimi onların əhəmiyyəti tamamilə aydındır. Bu şəhər-qalalar ətraf yerlərlə birlikdə Urmiyaboyu - Zaqrosboyu zonada ilk kiçik dövlət qurumları, ilk şəhər-dövlətlər idi; şəhər-dövlətlərdə cəmiyyət təşkilinin aradan qalxmış qəbilə-tayfa prinsipi əvəzinə dövlət hakimiyyətinin ilk fərqləndirici əlaməti olan ərazi bölgüsü meydana gəlmişdir. Bir qədər sonra aşşurlular bu siyasi qurumları "ölkələr" adlandırmışdılar. Həmin "ölkələr"də baş şəhər-qala alu dannu ("qüvvətli şəhər", bəzən äl sarruti - "çar şəhəri") ilə yanaşı, alani şehruti sa limetisunu, yəni "onların ətrafında yerləşən kiçik şəhərlər" də var idi.

Aşşur məlumatlarına görə, bu "ölkələr"in başında bel äli, yəni "məskən başçıları" və ya hətta sarrani - "çarlar" dururdular.

İri şəhər-qalalardan biri, eyni zamanda İda "ölkəsi"nin baş şəhəri Həsənli təpəsində qazıntı zamanı aşkara çıxarılmış kompleks idi. Burada e.ə. X-IX əsrlərdən qalan, çox qalın divarları, saray və məbəd tipli, möhtəşəm tikililəri olan bir şəhər aşkar edilmişdir. Şəhərin divarlarından kənarda kənd və nekropol varmış. Buradan tapılmış mərasim piyaləsinin üstünün yazısından məlum olur ki, həmin piyalə İda ölkəsinin hökmdarı Baurinin "sarayına" məxsus imiş. İda Daxili Zamuadakı ölkələrdən biri idi. Həsənli təpəsində aşkar edilmiş şəhərin öz adını, təəssüf ki, bilmirik.

Bu zaman İranla Zaqafqaziya arasında, həmçinin İran və Zaqafqaziya vilayətləri ilə Ön Şərq, Kiçik Asiya vilayətləri və digər rayonlar arasında əlaqələr güclənir.

Şərqi Zaqafqaziya sakinləri ilə Cənubi Azərbaycan sakinləri arasında münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bunlar inkişafın təxminən eyni mərhələsində olan eyni tipli cəmiyyətlərin münasibətləri idi. E.ə. I minilliyin lap ilk çağlarında burada əhalinin nəinki təsərrüfat və hərbi həyatında, həm də mifologiyasında, təsəvvür və mərasimlərində atın rolu artır.

Yalnız əhalinin əmlak və sosial cəhətdən kəskin şəkildə təbəqələşməsi, döyüşçülərin başqalarından seçilən saysız-hesabsız qəbirləri deyil, Zaqrosboyu



downloaded from KitabYurdu.az

zonada çoxlu xırda siyasi vahidlərin meydana gəlməsi də e.ə. II minilliyin sonunda Azərbaycanın ən çox inkişaf etmiş vilayətlərində və qonşu rayonlarda ibtidai icma quruluşunun dağıldığını və ilkin sinfi cəmiyyətlərin yaranmağa başladığını sübut edir. Bütün bunlar qəbilə-tayfa prinsipinin aradan qalxmaqda olduğunu və onun yerinə dövlət hakimiyyətinin ilk fərqləndirici xüsusiyyəti olan ərazi bölgüsünün gəldiyini göstərir.

Həmin dövrdə yadelli hökmdarların yürüşləri nəticəsində Cənubi Azərbaycan regionunda vəziyyət xeyli mürəkkəbləşir.

Hələ e.ə. II minilliyin ortalarında, Babilistanda kassitlər dövləti zəifləməyə başladığı zaman Aşşur və Elam dövlətləri güclənir.

Aşşur dövlətinin e.ə. XIV əsrdə başlanan qəsbkarlığı Zaqrosboyu zona sakinlərinin həyatında mühüm bir amil oldu. Yeni cəngavərlərin kitabələri Aşşur çarlarının adlarını yalnız onların müasirləri üçün deyil, gələcək nəsillər üçün də mənfur adlara çevirən qəddarlıqların başlanğıc mərhələsi haqqında mühakimə yürütməyə imkan verir.

Artıq Aşşur çarı I Adadnerari (e.ə. XIV əsr) Babilistanı və Mitainini məğlub edib Şərqə üz tutaraq Zaqros vilayətlərinə girir. Zəhmli hökmdar kassitlər, kutilər və lullubilər üzərində çaldığı qələbələrdən danışır.

Sələfinin qarətçilik siyasətini davam etdirərək Zaqros vilayətlərinə yürüş edən I Salmanasar öz kitabələrində kutilərə, Uruatri ölkəsi üzərində çaldığı qələbələri xatırladır. Tukultininurta (e.ə. XIII əsrin sonu - XII əsrin əvvəli) Zaqros tayfaları- kutilər, mehranilər, uruatrilər və başqaları üzərində çaldığı qələbələrdən bəhs edir.

Aşşur istilaçılarının məlumatından görünür ki, hələ eramızdan əvvəl II minilliyin lap sonunda Zaqrosboyu zonada həm siyasi, həm də etnik mənzərə olduqca rəngarəng idi.

Zaqros vilayətlərində ən böyük hökmdarlar Mesopotamiya ilə həmsərhəd olan zonada idi. Bu vilayətlər xeyli dərəcədə babilləşmiş Namru (Namar - qədim Navar) vilayəti, kassitlərə məxsus Bir-Xamban, Bit-Kirziyabku vilayətləridir. Bit-Tazakki, Bit-İştar, Murattaş, Saradauş həmin vilayətlərdən xeyli kiçik idi. E.ə. XIII əsrdə çox böyük Uruatri siyasi birləşməsi meydana gəldi. |

Bu zaman aşşurlular əsasən Zaqros vilayətlərinə qarətçilik yürüşlərinə çıxmaqla kifayətlənirdilər. Lakin sonralar vəziyyət dəyişdi. Herodot məlumat verir ki, "Assuriyanın Yuxarı Asiyada hökmranlığı 520 il davam etmişdir" və "assurilərdən ən əvvəl midiyalılar ayrılmışlar". E.ə. VII əsrin 70-ci illərində yaranmış Midiya çarlığının Aşşur əsarətindən məhz bu zaman xilas olduğunu nəzərə alsaq və göstərilən 520 ili də üstünə gəlsək, Aşşurun "Yuxarı Asiya" üzərində hökmranlığının nə vaxt başladığını müəyyənləşdirmiş olarıq. Deməli, Aşşurun burada hökmranlığının başlanğıcı e.ə. XII əsrin 90-cı illərindən sayılmalıdır. Bu isə o vaxt idi ki, Aşşur çarları I Tukultininurta və başqaları Zaqros zonasına yürüşlər edir və öyünürdülər ki,



downloaded from KitabYurdu.az

"...kutiləri və mehriləri tabe etmişlər" və ən başlıcası, "onların ölkələri hər il (seyrəltmə bizimdir - *məsul red.)* Aşşur şəhərinə bac vermiş və öz dağlarının sərvətlərini göndərmişlər".

Deməli, təxminən e.ə. XII əsrin başlanğıcında aşşurlular qabaqkı illərdən fərqli olaraq Dağlıq Zaqros vilayətlərində yerlərini möhkəmləndirməyə ilk cəhdlər göstərir, həmin rayonların sakinlərindən hər il bac alırdılar.

E.ə. XII-XI əsrlərdə aşşurlular bu zonada çox tez-tez "qonaq" olurdular. I Tiqlatpalasar (e.ə. XII əsrin sonu - XI əsrin əvvəli) və Aşşurbelkalla (e.ə. XI əsr) buraya yürüşlər edirdilər.

XII əsrin əvvəllərinə yaxın Elam çarları da yırtıcı nəzərlərini Zaqros "ölkələri"nə dikməyə başlayırlar. Elamlıların ən böyük yürüşləri I Şutruk-Nahhuntenin və Şilhak-İnşuşinakın (e.ə. XII əsrin ortaları) adları ilə bağlıdır.

Babilistan çarı I Navuxodonosor lullubilərə və kassitlərə çaldığı qələbə haqqında məlumat verir.

E.ə. XI yüzillik Aşşurun qüdrətinin ən yüksək zirvəyə çatdığı əsr idi. Həmin yüzilliyin sonuna yaxın tənəzzül başlanır. Hər halda Aşşur çarlarının Zaqros rayonlarına müzəffər yürüşləri və istilaları haqqında xəbərlər yazılı qaynaqlardan yoxa çıxır, bu zonanın sakinləri haqqında yazılı məlumatın da arası kəsilir.



downloaded from KitabYurdu.az

VII FƏSİL

# E.ə. II MİNİLLİYİN SONU - I MİNİLLİYİN BAŞLANĞICINDA AZƏRBAYCAN ƏRAZİSİNDƏ ƏHALİNİN TƏRKİBİ

**Avtoxton əhali. Azərbaycan ərazisində və həmhüdud bölgələrdə yaşamış tayfaların dilləri.** E.ə. XIV və XIII əsrlərin qovuşuğunda başlanmış dəmir dövrünün əvvəllərində əski ictimai, mədəni və müəyyən qədər etno-mədəni və dini ənənələr keçmişdə qalmağa başladı. Lakin həmin ənənələrin bəzilərinin izlərini daha sonrakı zamanlarda izləmək mümkündür. Tayfaların talelərini dəfələrlə dəyişdirmiş gur hadisələrə, müxtəlif səciyyəli dəyişikliklərə və sarsıntılara baxmayaraq, nəzərdən keçirilən dövrdə burada etno-mədəni və dil baxımından keçmiş tarixi mərhələlərin nəsilləri - Kavkasion və Aralıq dənizi antropoloji tiplərinə aid olanların, Şimal-Şərqi Qafqaz ailəsinin dillərində (şimalda) və hurri, lullubi və digər dillərin dialektlərində (cənubda) danışanların nümayəndələri ilə bağlı olan avtoxton əhali yaşayırdı.

Arxeoloji və antropoloji materiallar, habelə yazılı mənbələr əsasında demək olar ki, bölgənin avtoxton əhalisi müəyyən müddət ərzində nisbətən sabit qalmışdır. Lakin prinsipial baxımdan əhalinin bu cür müəyyənləşdirilməsi, "avtoxton əhali" anlayışı şərtidir. Çünki tayfalar ayrılır, özlərinin ilkin yaşayış yerlərini tərk edərək uzaqlara gedir, uzaq bölgələrin sakinləri ilə qaynayıb-qarışır, yeni məskənlərdə "aborigenlərə" çevrilirdilər.

Bu dövrdə Cənubi Azərbaycan vilayətlərinin maddi mədəniyyətində nəinki Kiçik Asiya təsiri, habelə Kiçik Asiyadan, bəlkə də başqa bölgələrdən müəyyən əhali qruplarının bu əraziyə bilavasitə daxil olması müşahidə edilir. Məsələn, Əlişar keramikası bunu təsdiqləyir. Lakin bu ərazidə yerli tayfalar başlıca, üstün etnik massiv olaraq qalmaqda idilər.

Bölgənin əsrlər boyunca bura gəlmiş etnik qruplarla qaynayıb-qarışmış avtoxton əhalisi Dəmir dövrünün başlanğıc mərhələsində əsasən e.ə. III minillikdə, bəlkə də daha erkən zamanlarda burada yaşamış etnik elementlərdən ibarət idi. Bu halda iri tayfa birlikləri arasında yalnız kutiləri istisna etmək lazımdır. Kutilər artıq e.ə. II minilliyə doğru əski qüdrətlərini itirmişdilər. E.ə. I minillikdə isə onların tarix səhnəsini qəti surətdə tərk etdikləri güman olunur.

E.ə. II minillikdə də hurrilər Urmiyaətrafı ərazidə yaşayırdılar. Sulduz vadisində aşkar olunmuş "Xabur keramikası" və e.ə. II minilliyin sonuna - I minilliyin başlanğıcına aid olan Həsənli materialları, habelə e.ə. XVII-XVI əsrlərdə Cənubi Azərbaycan ərazisində mövcud olmuş hurri-ari kontaktı faktı bunu təsdiq edir. Nəhayət, hurrilərin Xəzər dənizindən cənub-qərbdə yerləşmiş vilayətlərdəki təsirinin gücünü həm arxeoloji materiallar, həm də onomastik dəlillər təsdiqləyir.



downloaded from KitabYurdu.az

Bölgənin cənub hissəsində lullubilər yaşamaqda idilər. Maraqlıdır ki, bizim hətta e.ə. I minilliyin başlanğıcına aid olan mənbələrimiz Lullume, Zamua və Manna anlayışları arasındakı varisliyi izləməyə imkan verir. Aşşur hökmdarı II Sarqonun Aşşur allahına məlum "məktubu"nda deyilir: "Zamua adlanan Lullume ölkəsi". Məlumdur ki, Zamua ölkəsi Manna çarlığının meydana gəldiyi vilayət idi.

Güman etmək olar ki, lullubi elementi Urmiyaətrafı vilayətlərdə hələ uzun müddət ərzində qalsa da və Mannanın etnik tarixində mühüm rol oynasa da, Manna çarlığı dövründə hurri qrupları bu zonada üstün etnik element olmuşdur. Antik dövrdə də hurrilərin burada yaşamaqda davam etdiklərini güman etmək olar.

Erkən dəmir dövründə bölgənin cənub hissələrində başqa tayfalar və tayfa qrupları damehranlılar, nikimxilər, turukkilər, uruatrilər və başqaları yaşayırdılar. Biz onların etnik-dil mənsubiyyəti haqqında heç nə bilmirik.

Məhz avtoxton etnik elementlər bölgənin tarixi mədəniyyətinin yaradıcıları idilər. Həmin mədəniyyət modifikasiyalarla İrandilli tayfaların gəlişinədək mühafizə edilmişdir. İrandilli tayfalar xeyli dərəcədə bu mədəniyyəti mənimsəyərək, müəyyən mənada qədim mədəni ənənələrin davamçıları oldular.

**İrandilli tayfaların Azərbaycan ərazisinə soxulması. Bölgənin etnik görkəminin dəyişməsinin başlanğıcı.** E.ə. II minilliyin sonu - I minilliyin ilk yüzilliklərində Cənubi Qafqazın cənub-şərq vilayətlərində və İran yaylasının şimal-qərb hissəsində (Cənubi Azərbaycanda da) etnik-dil şəraiti təxminən bu cür idi. Güman etmək olar ki, kutilər başqa tayfalarla qaynayıb-qarışaraq tarix səhnəsini artıq tərk etmişdilər. Mənbələrdə bizə məlum olmayan mehran dilinin adı çəkilir. Mənbələrdə "Sipirmena ölkəsi"nin də adı çəkilir. Qədim mətnlərdən birində məlumat verilir ki, bu ölkədə yaşayanlar "qadınlar kimi mırtıldayırlar" (yəni güman etmək olar ki, anlaşılmayan, fonetik baxımdan yad dildə danışırdılar). Urmiyaətrafı hövzənin qeyri-irandilli, daha çox hurri-lullubi zonası fövqəladə dərəcədə mühüm rol oynayırdı. Burada bir neçə iri və xeyli sayda xırda birliklər vardı. Bu zona tezliklə təqribən bütün istiqamətlərdən yeni gəlmələrlə əhatə edildi. Gəlmə əhali kütlələri ayrı-ayrı hallarda tədricən yerli etnik mühitə daxil olurdular. Hələ Manna çarlığı dövründə də belə olmuşdur.

Bölgənin şimal hissələrinə gəldikdə isə, orada da avtoxton əhalinin - Şimal-Şərqi Qafqaz dil ailəsinin dillərində danışan tayfaların və tayfa qruplarının yaşadığı şübhəsizdir. Yuxarıda qeyd edildiyi kimi, həmin dil ailəsinə Nax-Dağıstan dilləri qrupu, Qafqaz Albaniyasının dili, habelə hurri, Urartu dilləri, Kiçik Asiyanın, Kipr, Lemnos adalarının bir neçə dili, etrusk və güman ki, kuti dilləri daxildir.

Demək lazımdır ki, Azərbaycanın cənub bölgələrində və onunla həmhüdud olan ərazilərdə lap e.ə. I minilliyin başlanğıcınadək, bəzən isə bir qədər sonra da yerli etnoslar hakim etno-mədəni, iqtisadi və hətta siyasi qüvvə idilər. Azərbaycan vilayətlərinin tarixi sivilizasiyası ən qədim zamanlardan etibarən bu diyarda yaşamış



downloaded from KitabYurdu.az

tayfalar tərəfindən yaradılmışdır. E.ə. I minilliyin başlanğıcında Azərbaycanın aborigenləri ilk sinfi cəmiyyətlərin və dövlətlərin yaradıcıları oldular. Lakin artıq e.ə. I minilliyin ilk yüzilliklərində təxminən e.ə. II və I minilliklərin qovuşuğunda nəhəng kütlə halında bizi maraqlandıran bölgənin torpaqlarına axışıb gəlmiş yeni tayfa qrupları ölkənin həyatında mühüm rol oynamağa başladılar. Cənubi Azərbaycanın etnik-dil mənzərəsi, məhz, bu zamandan etibarən tədricən dəyişməyə başladı.

E.ə. II minilliyin lap sonunda, xüsusilə I minilliyin başlanğıcında Araz çayından cənubda olan vilayətlərdə mədəniyyətin yeni elementlərinin meydana gəldiyini arxeoloji dəlillər tamamilə təsdiqləyir.

"II dəmir əsri" dövründə (e.ə. 1000-800-cü illər) özləri ilə at dəfni təcrübəsini, ata sitayişi və bir çox başqa cəhətləri gətirmiş, atçılıqla məşğul olmuş süvari gəlmə qrupların bu ərazilərdə mövcudluğunu Xürvin, Əmlaş, Marlik, Kəluraz, Dingətəpə, Həsənli, Luristan, Sialk və başqa yerlərin kompleksləri təsdiq edir.

Süvariliyin, yeni ideoloji təsəvvürlərin, dəfn adətləri və abidələrinin, heyvanlara sitayişin, incəsənətdə heyvan obrazlarının təsvirlənməsinin və diyarın yerli mədəniyyətlərində kökləri olmayan başqa cəhətlərin yayılması şübhəsiz olaraq yeni məskənə öz məişətini və mədəniyyətini gətirmiş gəlmələrin qarşımızda olduqlarından xəbər verir.

Aşşur mənbələrindən və bəzi başqa materiallardan məlum olan onomastik dəlillər bölgə üçün yeni olan bütün bu elementlərin İrandilli tayfaların buraya gəlişi ilə bağlı olduğunu təsdiq edir. Artıq e.ə. I minilliyin başlanğıc əsrlərində İranın şimal-qərb vilayətlərində xeyli İrandilli əhali qruplarının məskunlaşdığını onomastik materiallar tam aşkarlıqla təsdiqləyir. Mixi yazılarda aydın İran etimologiyasına malik olan onlarla antroponimə və toponimə təsadüf edilir. Bizi maraqlandıran ərazidə açıq şəkildə ifadə olunmuş bir çox İrandilli ictimai, dini, mədəni-tarixi anlayışlar və s. məlumdur.

Bu tayfaların bir qismi artıq e.ə. II minilliyin lap sonunda - I minilliyin başlanğıcında İran yaylasını və onunla həmhüdud olan bölgələri məskunlaşdırmağa və orada öz tarixi mədəniyyətlərini yaratmağa başladı.

Cənubi Azərbaycan vilayətlərində və onunla həmhüdud olan ərazilərdə bu dövrdə həmin tayfaların xüsusi çəkisi kifayət qədər idi. İrandilli tayfalar artıq özlərinin burada mövcudluğunun ilk onilliklərindən etibarən həyat və fəaliyyətlərinin cərəyan etdiyi bölgələrin siyasi, ictimai-iqtisadi və mədəni həyatında xeyli rol oynamağa başladılar. Bir qədər sonra onların təsir gücü qədim Azərbaycan (Mada-Atropatena) xalqının etnogenezində də öz əksini tapdı.

İran yaylasının ərazisinə daxil olmuş bu tayfalar Cənubi Rusiya vilayətlərindən çıxmışdılar. İrandilli etnik ümumilik məhz orada təşəkkül tapmış və bu birliyin erkən tarixi həmin ərazilərdə baş vermişdir. Bu tayfaların xeyli qismi özünün ilkin



downloaded from KitabYurdu.az

vətənində qalmaqda idi və yalnız sonralar qohumlarının ardınca hərəkət etdi. Bunlar kimmerlər, skif, sak tayfaları və başqaları idilər.

İran dil ailəsi bir çox ölü və canlı dilləri birləşdirir. Mada, qədim fars, bir çox skif, sarmat, sak tayfa dilləri, avesta dili, orta fars, Parfiya, Soqd, Xarəzm, alan dilləri və başqaları ölü İran dilləri sırasına, fars, tacik, kürd, talış, tat, paşto (əfqan), osetin dilləri və s. canlı İran dilləri sırasına aiddir. Dillərin bu ailəsi hind dilləri ilə yaxın və qohumdur.

İrandilli tayfaların Cənubi Qafqazın cənub-şərq ərazilərinə - İran yaylasına hansı yollarla daxil olduqlarına dair məsələdə vahid fikir yoxdur. Etnik qrupların hərəkəti haqqında məsələlərin həll olunmasına arxeoloji dəlillər heç də həmişə yardım etmir. Yalnız maddi mədəniyyətin həyat tərzi və yaxud ideologiya ilə bağlı olan ayrı-ayrı, daha sabit elementləri müəyyən yardım göstərir. Məlumdur ki, atçılıq, ata sitayiş, habelə incəsənətdə təmsil olunmuş sözsüz İran xarakterli motivlər bu cür elementlər sırasına aid edilir.

Bununla əlaqədar olaraq Gəncə-Xanlar-Mingəçevir zonasının, step kurqanlarının materialları (e.ə. II minilliyin sonu - I minilliyin başlanğıcı) diqqətəlayiqdir. Həmin materiallar adları çəkilmiş və onlarla həmhüdud olan ərazilərin digər sinxron qəbir abidələrindən kəskin surətdə fərqlənir. Bu materiallar burada yeni etnik elementin meydana çıxdığını təsdiq edir. Artıq e.ə. II minilliyin sonlarında Cənubi Qafqazın şərq qismindəki vilayətlərdə iki - yerli və gəlmə etnik elementin qaynayıb-qarışmasını izləmək mümkündür.

Müxtəlif taxta qurğular, od izləri və xüsusilə atların dəfn olunması Azərbaycanın step kurqanlarının səciyyəvi cəhətləridir. Cənubi Qafqazın və İranın daha erkən dövrlərinin mədəniyyətlərində kökləri olmayan bu adət tam müəyyənliklə Cənubi Rus çöllərinin mənəvi dünyası ilə bağlıdır. Cənubi Rusiya çöllərindən çıxmış, atların dəfn olunması adətini yaşadan gəlmələrin adı çəkilmiş ərazinin hüdudlarından kənarda İran nitqinin yayıcıları olduğunu arxeoloji dəlillərlə yaxşı uzlaşan linqvistik dəlillər də təsdiq edir.

Şimali Qafqazda, Cənubi Qafqazda, eləcə də Azərbaycanda, habelə İran yaylasının şimal-qərb qismində aşkar olunmuş, e.ə. II minilliyin sonuna - I minilliyin başlanğıcına aid olan at qəbirləri Cənubi Rus çöllərindən Orta Asiyaya, Dağıstan və Şimali Azərbaycan vasitəsilə cənuba hərəkət etmiş ilk irandilli miqrantların yolunu aşkarlayır.

Biz Cənubi Qafqazın İrandilli tayfalarının sonrakı taleyi haqqında heç nə bilmirik. Güman etmək olar ki, onların bir qismi bu ərazidə yaşamaqda davam etmiş, sonralar isə etnik simasını itirmişdir.

Güman ki, erkən irandilli gəlmələrin bir qrupunun Qafqaz yolu ilə bütövlükdə bir neçə yüzillik ərzində davam etmiş və arxeoloji cəhətdən aşkarlanan hərəkəti bu cür yerdəyişmələrin nə formalarını, nə də marşrutlarını məhdudlaşdırmır. Lakin



downloaded from KitabYurdu.az

şübhəsizdir ki, bu yol Cənubi Rus çöllərinin İrandilli sakinləri tərəfindən hələ e.ə. II minilliyin sonlarında - I minilliyin başlanğıcında, bəlkə də daha əvvəlki dövrdə istifadə edilmişdir.

İran yaylası ərazisinin yuxarıda adları çəkilmiş arxeoloji kompleksləri onların Cənubi Qafqazın və Ermənistan yaylasının mədəniyyətləri, habelə Şimali Qafqazın və Cənubi Rusiyanın çöl mədəniyyətləri ilə əlaqələndirilməsi üçün imkan verən səciyyəvi xüsusiyyətlərə malikdir. Bu baxımdan o da çox əhəmiyyətlidir ki, nəinki İran yaylasının şimal-qərb vilayətlərindən, habelə Sialkdan əldə olunmuş materialların Qafqaz materialları ilə yaxınlığı arxeoloji cəhətdən sənədləşdirilmişdir. Bu komplekslər Şimali Azərbaycan materialları ilə bilavasitə əlaqədardır. Məhz Azərbaycan ərazisində Son Tunc dövrünün böyük kurqanlar qrupunun materiallarında onların aşkar uyğunluğu daha çox nəzərə çarpır. Əlbəttə, ola bilər ki, irandilli tayfa qrupları Cənubi Rusiya çöllərindən İrana Xəzər dənizinin həm şərq, həm də qərb sahilləri boyunca, sahilboyu torpaqlarda məskunlaşaraq, təxminən eyni zamanda - e.ə. II minilliyin II yarısının hüdudlarında irəliləmişlər.

Beləliklə, arxeoloji materiallar və mixi yazılardan məlum olmuş dəlillər e.ə. II minilliyin sonunda - I minilliyin ilk əsrlərində Araz çayından cənubda olan vilayətlərdə də mədəniyyətin yeni elementlərinin və onların daşıyıcıları olan İrandilli tayfaların meydana gəldiyini göstərir.

İran yaylasındakı vilayətlərdə yeni gəlmələrin meydana gəlməsi məişətdə, təsərrüfat həyatında, xüsusilə dəfn adətlərində, ayinlərdə nəzərə çarpır. Məhz bu tayfalar Cənubi Azərbaycan vilayətlərinə sonralar zərdüştilikdə ("Avesta" onun müqəddəs kitabı idi), habelə müxtəlif "bidətçi" təlimlərdə öz əksini tapmış yeni dini təlimlər gətirmişdilər. Atəşpərəstlik, mazdaizm, dualizm həmin dini təlimlərin elementləri idi. Çevik süvari tayfalar olan gəlmələr özlərinin yeni yaşayış yerlərinə qərarlaşmış, spesifik yerlilərdən fərqlənən məişət vərdişləri, yeni silah, geyim, atçılıq ləvazimatı və yalnız özlərinə xas olan dəfn adətləri gətirmişdilər. Maddi mədəniyyətdə, dulusçuluqda və metal emalı texnikasında yeni cəhətlər aşkara çıxmışdı. İncəsənət abidələrində bu cəhətlər yaxşı müşahidə olunur. Təsərrüfatçılığın yeni formaları yaranır, hərbi işdəki dəyişikliklər diqqəti xüsusilə cəlb edir. Hərbi işdə atminmə, silahların yeni kompleksi geniş şəkildə tətbiq olunmağa başlandı.

İrandilli tayfaların gəlişi ilə İran yaylasının vilayətlərində, xüsusilə Azərbaycan ərazisində tədricən təsərrüfatçılığın yeni formaları meydana gəlməyə başladı. İrandilli tayfalar əsasən atçı və süvari idilər. Onlar yerli əhali ilə müxtəlif cür münasibətlər yaradırdılar. Bu münasibətlər bəzən düşmənçiliklə, bəzən isə sülhpərvərliklə səciyyələnirdi. Lakin şübhəsizdir ki, aborigenlərlə gəlmələr bir-birinə təsir edir, bir-birindən öyrənir, qarşılıqlı surətdə zənginləşirdilər.

E.ə. I minilliyin başlanğıcında İran yaylasının şimal-qərb vilayətlərində İran nitqinin yayılması bu bölgə əhalisinin mədəniyyətinin başlıca cəhətlərinin əsaslı



downloaded from KitabYurdu.az

dəyişiklərlə müşayiət olunduğunu iddia etməyə əsas verir. Bu dəyişikliklər məişətdə, təsərrüfat həyatında, hərbi işdə, dində, sosial strukturda, siyasi institutlarda nəzərə çarpırdı. Yerli və gəlmə etnik elementlərin uzunmüddətli birgə yaşayışı ümumiyyətlə və bütövlükdə avtoxton qrupların irandilli əhali tərəfindən assimilyasiyaya uğradılması ilə müşayiət edilirdi.

İran yaylasının şimal-qərb hissələrinin sakinləri vahid dil birliyi təşkil etmirdilər. Onlar iqtisadi, siyasi, mədəni cəhətdən bir-birilə az əlaqədar olan ayrı-ayrı tayfalardan və tayfa qruplarından ibarət idilər. Onlar bir-biri üçün az anlaşılan və yaxud anlaşılmayan müxtəlif dillərdə danışırdılar. Yalnız Urmiyaətrafı hövzənin Manna dövlətinə daxil olmuş ərazisinin əhalisi arasında müəyyən etnik konsolidasiya əlamətləri nəzərə çarpırdı.

Güman etmək olar ki, Araz çayından cənubda yerləşmiş torpaqların aborigenlərinin ictimai və mədəni səviyyəsinin ümumi artımı, artıq qeyd olunduğu kimi, əvvəllər orada olmamış, hamı tərəfindən anlaşılan dilin qəbul olunması zərurətinə aparıb çıxarırdı. Məhz gəlmə tayfalar bu və ya digər ərazini mənimsəyərək, bu və ya başqa şəkildə orada öz dillərini yayırdılar. Bütün dəlillər əsasında demək olar ki, yerli dillər geniş məkanda az və ya çox dərəcədə bir-birinə bənzər formalarda yayılmış maldarların dilləri (dialektləri) ilə rəqabət apara bilmirdi.

Ayrı-ayrı aborigen qrupların dil baxımından, sonra isə mədəni cəhətdən tədrici assimilyasiyası onları son nəticədə etnik assimilyasiyaya aparıb çıxarırdı.

Belə zənn edilir ki, dil insan davranışının ən mühüm formalarından biridir. Dilin dəyişməsinin nisbətən tez bir zamanda (bəzən ikinci və yaxud üçüncü nəsildə) insan qruplarının etnik mənsubiyyətinin dəyişməsinə, yəni assimilyasiyaya səbəb olması halları çox təsadüf olunan hadisələrdir. Məsələn, Hindistanda, Orta Asiyada, Əfqanıstanda və b. yerlərdə bu cür olmuşdur. Son antik dövr Avropasının bir çox ərazilərinin (İspaniyanın, Portuqaliyanın, Qalliyanın, Mezo-Dakiya vilayətlərinin) qədim əhalisi romanlaşmaya məruz qalmışdır. Erkən orta əsrlər dövründə Britaniyanın əhalisi əsasən germanlaşmışdır. Biz yazılı mənbələr üzrə məlum olan dövrlər ərzində bu və ya digər, bəzən isə geniş vilayətlərin əhalisinin öz dilini bir neçə dəfə dəyişməsinə dair nümunələrlə tanışıq. Kiçik Asiyanın etnik-dil görkəmi son 4-5 min il ərzində ən azı 3 dəfə dəyişmişdir. Kiçik Asiyanın əhalisi orta əsrlərdən etibarən artıq yeni, türklərin gətirdiyi dildə danışmağa başladı. Keçmiş Sovet İttifaqının, Amerika qitəsinin geniş ərazilərinin və s. yerlərin sakinləri özlərinin etnik-dil görkəmlərini dəyişmişlər. Planetin ən qədim mədəniyyətlərindən birinin qurucularından olmuş qədim Misir əhalisi də bu cür dəyişmələrə məruz qalmışdır. Xeyli sayda belə nümunələr göstərmək olar.

Araz çayından və Urmiya gölündən başlamış müasir Türkmənistanadək az və ya çox dərəcədə oxşar formalarda geniş məkanda yayılmış maldarların İran dilləri icmalararası, tayfalararası ünsiyyət vasitəsinə çevrilirdi. Beləliklə, bu dilin o dövrün



downloaded from KitabYurdu.az

ictimai-siyasi və mədəni şəraitində nisbətən çoxsaylı, güman ki, qarşılıqlı münasibətlərdə anlaşılmayan yerli dillərə nisbətən ictimai baxımdan daha mühüm olduğu aşkarlanır. Qeyd etmək lazımdır ki, gəlmələrin gətirdiyi təsərrüfatçılıq formaları, ictimai, siyasi və digər institutlar bəzi hallarda aborigenlər arasında hakim olmuş cəhətlərə nisbətən daha mütərəqqi idi. Şübhəsizdir ki, başqa hallarda qədim əkinçi əhalinin ictimai formaları daha çox inkişaf etmişdi. Lakin həmin əhalinin hamı tərəfindən anlaşılan ümumi dili yox idi və o, icmalararası, tayfalararası münasibətlərdə irandilli tayfaların ləhcələrindən istifadə etməli olurdu.

Beləliklə, e.e. II minilliyin sonunda - I minilliyin başlanğıcında Şimal-Qərbi İranın ərazisinə irandilli əhalinin gəlişi sayəsində artıq e.ə. I minilliyin II rübündə Qərbi İran yaylası vilayətlərinin xeyli qismi, xüsusilə Cənubi Azərbaycan əhalisinin dilləri iranlaşmaya məruz qalmağa, İran yaylası isə irandilli tayfaların yeni, ikinci metropoliyasına çevrilməyə başladı. Həmin dövrdə təşəkkül tapmaqda olan irandilli xalqlar əsasən assimilyasiyaya uğramış avtoxton əhalinin nəsillərindən ibarət idi. Onlar aborigenlərin nəinki maddi mədəniyyətini və təsərrüfat nailiyyətlərini mənimsədilər, habelə müəyyən dərəcədə yerli əhalinin antoropoloji tiplərinin də varisləri oldular.

Yuxarıda deyilənlərdən aydın olur ki, bizi maraqlandıran bölgənin əhalisinin irandilliləşməsi hələ Mannanın madalılar tərəfindən işğalına qədərki dövrdə başlanmışdı.

Mannanın madalılar tərəfindən işğalından sonra Cənubi Azərbaycanın yerli əhalisinin İran dilini qəbul etməsi prosesi kəskin surətdə gücləndi.

# ÜÇÜNCÜ BÖLMƏ



downloaded from KitabYurdu.az

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLK DÖVLƏTLƏR

## VIII FƏSİL

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ İLKİN SİYASİ QURUMLAR. MANNA DÖVLƏTİ

**Urmiya gölü hövzəsində ilk siyasi qurumlar.** E.ə. II minilliyin sonunda - I minilliyin əvvəlində Cənubi Azərbaycanda və qonşu vilayətlərdə yaşamış tayfaların tarixi haqqında başlıca olaraq mixi yazılara əsaslanan biliyimiz burada aşkar edilmiş çoxlu arxeoloji material sayəsində zənginləşmişdir. Bu, İlk Dəmir dövrü, yaxud son boz keramika dövrüdür. O vaxtın əsas abidələri Həsənli IV, Dingətəpə II, Göytəpə, Amlaş, Naxçıvan zonasının abidələri və başqalarıdır.

Bu zaman dəmir istehsalatda böyük yer tutur. Dəmir silahın miqdarı artır, lakin bimetal və xalis tunc silahdan da istifadə edilir. Təsərrüfat həyatında, xüsusən hərbi işdə at getdikcə daha böyük rol oynayır ki, bu da mifologiyada və mərasimlərdə çox aydın bir şəkildə öz əksini tapır.

İçqalaları və mürəkkəb daxili tikililər sistemi olan yaxşı möhkəmləndirilmiş yaşayış məntəqələri aşkarlanmışdır. Həsənlitəpədə tapılmış, e.ə. 1000-800-cü illərə aid olan şəhərqala məhz belə məntəqələrdən idi. Yəni ki, bu şəhər-qalalar mixi yazılarda adı çəkilən "ölkələrin" mərkəzləri imiş. Çoxlu qədim qəbiristan aşkara çıxarılmışdır.

Bu dövrdə sosial təbəqələşmə və əmlak təbəqələşməsi prosesi xeyli dərinləşmişdi. Sıravi qəbirlər arasında varlıların məzarları aydın seçilir.

Şimali və Cənubi Azərbaycan vilayətlərinin sosial və iqtisadi mənzərəsində böyük fərq yox idi.

E.ə. II minilliyin ikinci yarısı ibtidai icma quruluşunun intensiv surətdə dağılması və ilkin sinfi qurumların yaranması ilə səciyyələnir.

E.ə. I minilliyin əvvəlində Urmiyaboyu rayonda fərqləndirici əlamət daha qəbilə-tayfa bölgüsü deyil, ərazi bölgüsündən ibarət olan mövcud xırda vahidlərlə bərabər, nisbətən iri siyasi qurumların da yaranması idi.

Aşşurlular Urmiyaboyu rayonun bəzi vilayətlərinin hökmdarlarını bel älänu-dan ("məskən hakimləri"ndən) fərqli olaraq sarrani, yəni "çarlar" adlandırırlar. Urmiyaboyu hövzə zonasında janzu titulu da qeydə alınmışdır ki, bu da kaşşu (kassit) dilində "çar" deməkdir.



downloaded from KitabYurdu.az

Mixi yazılardan bəlli olduğu kimi, e.ə. I minilliyin əvvəlində Cənubi Azərbaycan ərazisinin özündə aşşurlularla mübarizə aparan bir neçə "çarlıq" var idi, burada ayrı-ayrı "çarlıq"ların birləşmə prosesi gedirdi və bunun sayəsində onlar uzun müddət Aşşur işğalçılarına müqavimət göstərə bilirdilər.

Həmin birləşmələrin meydana gəlməsi müəyyən dərəcədə xarici təhlükə ilə bağlı idi.

Aşşur dövlətinin güclənməsinin yeni dövrü e.ə. X əsrin sonundan - IX əsrin əvvəlindən başlanır. E.ə. IX-VIII əsrlərdən etibarən aşşurlular şimala və şimal-şərqə xüsusilə tez-tez yürüşlər edir, bu torpaqları tutmaq və onların sakinlərini əsarət altına almaq üçün cəhdlər göstərirlər. II Adadnerarinin (e.ə. 911-890-cı illər) və II Tukulti-Ninurtanın (e.ə. 890-884-cü illər) ardınca II Aşşurnasirapal (e.ə. 883-859-cu illər) Urmiyaboyu vilayətlərə yürüş edir. II Aşşurnasirapal ilk Aşşur çarı idi ki, öz sələflərindən xeyli uzaqlara - Urmiyaboyu rayonun içərilərinə gedib çatmışdı. E.ə. IX əsrin 80-ci illərindən aşşurlular bu vilayətlərə müntəzəm olaraq qarətçilik basqınları və uzunmüddətli yürüşlər etməyə başlayırlar.

Aşşur qaynaqlarında adına hələ e.ə. X əsrin sonunda təsadüf edilən Zamua ölkəsi Urmiyaboyu rayonda ən iri siyasi birləşmə idi. Artıq e.ə. IX əsrin əvvəlində burada bütün Zamuanı, yaxud hər halda onun xeyli hissəsini əhatə edən birləşmə vardı ki, onun başında Daqara vilayətinin tayfa başçısı, Akkad adı daşıyan Nur-Adad dururdu. Daqara vilayəti Şimal-Şərq və Şərq ölkələrinin bir növ qapısı idi, buna görə də aşşurlular onu işğal etməyə xüsusi maraq göstərirdilər.

881-ci ildə Zamua üzərinə yeriyən II Aşşurnasirapal məlumat verir ki, zamualılar istilaçıların yolunu kəsmək üçün Babite aşırımında (indiki Dərbənd-i Bazian) müdafiə divarı hörmüşlər. Lakin onlar basqının qabağını ala bilmədilər və II Aşşurnasirapal Daqara "ölkəsinin" Birutu, Uze və Laqalaqa qalalarını ətraf məskənlərlə birlikdə işğal etmiş, çoxlu qənimət ələ keçirmiş və əsirlər tutub aparmışdı. Aşşurlular Daqaraya tərəfdar olan qonşu vilayətlərə də hücum edib, Bara, Bunasi və Larbusa şəhərlərini tuturlar. Fürsətdən istifadə edən Nur-Adad öz mövqelərini möhkəmləndirir. Lakin asşurlular yenidən qalib gəlib, bu dəfə Birutu qalasını yandırırlar.

Aşşurlular Zamua rayonlarını çapıb-talayandan sonra bu vilayətdən bac olaraq qaramal, davar, at, arpa, şərab, mis və misdən hazırlanmış məmulat, gümüş və qızıl tələb etməklə kifayətlənməyib, ertəsi il (e.ə. 880-ci ildə) Zamua üzərinə yenidən yürüş edirlər. Bu zaman Zamuanın başında artıq çar Ameka dururdu. Basqın nəticəsində yalnız Amekanın çarlığı deyil, habelə hakimlərdən Araştua, Kirtiara və başqalarının vilayətləri də darmadağın edildi. Məğlubiyyətə uğradığına və paytaxtı "çar şəhəri" Zamrinin işğal edildiyinə baxmayaraq, Ameka istilaçılara inadlı müqavimət göstərirdi. O, paytaxtı tərk edib qoşunla birlikdə Etini dağlarına çəkildi. II Aşşurnasirapal təqibi davam etdirərək ölkəni viran qoydusa da, çarın özünü ələ keçirə



downloaded from KitabYurdu.az

bilmədi. Kitabədən bəlli olur ki, Ameka imkan tapıb Sabua dağında yerini möhkəmləndirmişdi. Görünür, Amekanın ərazisi kifayət qədər geniş idi. Etini və Sabua dağları bir-birindən uzaqda yerləşirdi, çünki Aşşurnasirapal Lallu və Edir çaylarından, Su və Elaniu dağlarından keçməli olmuşdu. Aşşurlular nəticə etibarilə Amekanı ram edə bilmədilər. Kitabədə Zamuanın paytaxtı Zamrinin, Arazitku, Ammaru, Parsindu, İritu, Suritu qalalarının 150 ətraf məskənlə birlikdə tutulmasından danışılırsa da, Ameka üzərində qəti qələbə çalındığı haqqında məlumat verilmir. Əhali Aziru və Simaki dağlarına çəkilir, Mesu şəhərində yerini möhkəmlədir. Möhkəmləndirilmiş Ammali şəhərinin başında duran Araştua aşşurlulara qarşı Ameka ilə birgə çıxış edir.

Kitabədə verilən məlumata görə, adları çəkilən şəhər-qalalardan başqa, daha bir neçə şəhər-qala da işğal olunmuşdu. Bunlar Sabininin idarə etdiyi Kisirtu şəhəri və onu əhatə edən on məskən, habelə Kirtiaranın idarə etdiyi bareanlıların şəhərləri idi. Ehtimal ki, onlar da Araştuaya tabe idilər, çünki kitabədə bu şəhərlərin qarət edildiyi bildirildikdən sonra deyilir ki, Aşşurnasirapal Araştuanın şəhərlərindən çıxıb getmişdi. Lakin, görünür, Araştua özü ondan xeyli güclü olan Amekadan asılı idi, aşşurlular yalnız Amekanı "çar" adlandırırdılar. Amekanın çar şəhərlərində ələ keçirilmiş qənimət başqa şəhərlərdə ələ keçirilən qənimətə nisbətən daha zəngin və daha rəngarəng idi.

Aşşurlular dəfələrlə məlumat verirlər ki, Zamridə "onun (Amekanın) əmlakı və mülkiyyəti", çoxlu "mis əşyalar, mis vazalar, camlar, mis məcməyilər, qızıl suyuna çəkilmiş sinilər, onun sarayının sərvətləri, onun topladığı xəzinə" ələ keçirilmişdir. Zamualılar hər il bac verməli idilər.

Aşşurnasirapalın salnamələrindən görünür ki, Zamua cəmiyyəti artıq sinfi cəmiyyətdir; Ameka çarlığında şəhər-qalalardan əlavə, mərkəzi "çar" şəhəri Zamri də var idi. Ələ keçirilmiş qənimətin təsvirindən və siyahısından görünür ki, Zamua vilayətlərində yüksək dərəcədə inkişaf etmiş professional sənətkarlar varmış.

II Aşşurnasirapal Zamua zonasında uzun müddət qaldığına görə burada düşərgə salır və Zamua ərazisinin ayrı-ayrı şəhərlərinə vaxtaşırı basqınlar edir. Aşşurlular Zamuanın zəbt olunmuş hissəsində əyalət yaradır və daimi nəzarət üçün Dur-Aşşur qalasını tikirlər. Onlar ölkənin bu hissəsini sonralar Zamua və ya Mazamua adlandırırdılar; vilayətin qalan hissəsinə isə Daxili Zamua deyilirdi.

[Xarici] Zamua rayonlarını işğal etməyin və orada əyalət yaratmağın aşşurlular üçün çox böyük əhəmiyyəti vardı. Məhz bu dayaq nöqtəsindən aşşurlular Şərqə yürüşlər etməyə başladılar.

II Aşşurnasirapal Zamua yürüşündən danışarkən Ata çarlığını darmadağın etdiyini və Sipirmena ölkəsindən hədiyyələr aldığını bildirir.

Daxili Zamuada ən iri siyasi vahidlər Nikdimanın və Nikdaranın (və ya Mekdiaranın) torpaqları idi. Nikdiaranın ölkəsində hakimiyyət irsi çar hakimiyyəti idi.



downloaded from KitabYurdu.az

E.ə. 855-ci ildə, Nikdiaranın hökmranlığı dövründə, Urmiya gölündə onun döyüşçüləri ilə aşşurlular arasında döyüş olmuşdu. Nikdiara hələ IX əsrin 20-ci illərində də ölkəni idarə edirdi. Sonra hakimiyyət başına Nikdiaranın oğlu Şarsina keçdi. Aşşurlular onun 300 məskənini tutmuşdular.

Urmiya gölü hövzəsində Allabria çarlığının böyük əhəmiyyəti var idi. Ölkə hökmdarlarının adları Akkad və kaşşu adları idi. Bu, çox güman, həmin rayonda Akkad və kassit mədəni ənənələrinin mövcud olduğunu göstərir.

Allabrianın adı ilk dəfə IX əsrin ortalarında III Salmanasarın kitabələrində çəkilir. Bu çarın salnamələrində hökmdar Yanziburiaş dövründə Allabria cəmiyyəti haqqında müəyyən fikir söyləməyə imkan verən maraqlı məlumat vardır. Aşşur dövləti Allabrianı sonralar özünə tabe etmişdi. Hərçənd məlum olduğuna görə, II Sarqon zamanında mannalı Ullusunu ölkənin hökmdarı İttini dilə tutub "Urartuya xidmət etməyə" razı salmış və İtti onun fitvası ilə Asşura qarşı üsyan qaldırmışdı. Lakin Aşşur dövləti əleyhinə koalisiya darmadağın edilmiş, çar İtti isə Suriyadakı Amatu şəhərinə sürgün edilmişdi. Allabrianın başına Aşşurun əlaltısı Belapaliddina qoyulmuşdu. Sonralar Aşşurbanipalın zamanında və ya hətta bir az əvvəl Allabria Mannaya qatılmış, lakin tezliklə yenə də Aşşur tərəfindən istila edilmişdi.

Adətən qaynaqlarda Allabria ilə Karalla ölkəsi yan-yana qoyulur. Aşşur çarı II Sarqonun zamanında Karalla ölkəsi Aşşur əleyhinə koalisiyada xüsusi fəallıq göstərmişdi. Elə Aşşur çarının özü belə bir məlumat da verir ki, "Karalla ölkəsinin sakinləri mənim adamımı qovub yerinə Amitaşşini qoymuşlar". II Sarqon itaətsizlik üstündə Karalla çarı Aşşurlenin dərisini diri-diri soydurmuş, torpaqlarını isə Aşşur ərazisinə qatmışdı.

Allabriadan və Karalladan qərbdə yerləşən, adı ilk dəfə hələ e.ə. X əsrin əvvəlində II Aşurnasirapalın salnaməsində çəkilən Kirruri çarlığı var idi. Onun haqqında son dəfə e.ə. IX əsrin ortalarında III Salmanasarın kitabəsində məlumat verilir.

Aşşurlular Kirruridən və ona qonşu olan digər vilayətlərdən bac olaraq "at, qatır, şərab, tunc qablar" alır və onların başı üstündə "bac toplayanlar" qoyurlar.

E.ə. IX əsrdə Urmiyaboyu rayonda mühüm bir siyasi qurum çar II Tulukti-Ninurtanın salnamələrində adı ilk dəfə çəkilən Gilzan dövləti idi. O, Kirruri və Xubuşkia ilə qonşu idi. Aşşur hökmdarlarının Gilzan üzərinə çox tez-tez yürüş etmələri bu ölkənin onlar üçün necə böyük əhəmiyyətə malik olduğunu göstərir.

Ölkəni çarlar idarə edirdilər. Burada e.ə. IX əsrin birinci yarısında və ortalarında Asu, sonra isə Upu hökmdar idi. Uzun müddət hökmdarlıq etmiş Asu III Salmanasarın pişvazına "öz qardaşları və oğulları ilə birlikdə" çıxır. Bu, sübut edir ki, Asu artıq tayfa başçısı deyil, suveren irsi hökmdar idi, elə bir hökmdar ki, onu aşşurlular da "çar" adlandırırdılar.



downloaded from KitabYurdu.az

Gilzanlılar öz müstəqilliyini qoruyub saxlayaraq aşşurlulara yalnız bəzi hallarda bac verirdilər və beləliklə, Gilzan çarları bac verərək qarətlərin, dağıntının, kütləvi qırğının qarşısını alırdılar. Bu ölkə aşşurlular tərəfindən bir dəfə də dağıdılmamışdı. Mənbələrdə yalnız bir dəfə III Salmanasarın Gilzandakı məbədə qoyulmuş zəfər stelası haqqında məlumat verilir. Lakin aşşurlular elə bu dəfə də ölkəni qarət etməmiş, bac olaraq davar, qaramal, at, ikihürgüclü dəvələr, şərab və s. almaqla kifayətlənmişdilər.

Güclənmiş Urartu dövləti IX əsrin axırlarında Gilzanı işğal edib öz ərazisinə qatdı.

Bir çox onilliklər ərzində Aşşur və Urartu qaynaqlarında Parsua ölkəsinin də adına rast gəlinir. Aşşur mətnlərində adı çəkilən Parsua tam üst-üstə düşməyən üç vahidə - e.ə. IX əsr Parsua ölkəsi, e.ə. VIII əsrin ortalarınadək mövcud olmuş Parsua "çarlığı" və Aşşurun Parsua əyaləti - uyğun gəlib əsas özək kimi eyni bir ərazini tuturdu. Qaynaqlara görə, vilayət yuxarıda adını çəkdiyimiz Allabria ilə yan-yana və Misi ilə qonşu idi, deməli, belə hesab etmək lazımdır ki, o, Zamuadan şərqdə, Mannadan cənubda və cənub-qərbdə, Bit-Xambandan şimalda yerləşirmiş.

Parsuanın adı ilk dəfə e.ə. 843-cü ildə III Salmanasarın salnamələrində çəkilir. 834-cü ildə bu çarın kitabələrində Parsua ölkəsinin 27 "çarından" bac alınmasından bəhs olunur. Aşşurluların bu vilayətə yürüşlər etməsi və ondan bac alması haqqında sonralar da məlumat verilir. Buraya urartulular da yürüşlər edirdilər.

E.ə. VIII əsrin ortalarına yaxın Parsua bəzi qonşu rayonları, o cümlədən Bit-Abdadananın və Gizilbundanın bir sıra rayonlarını da işğal etmiş hökmdar Tunakinin vahid mülkü idi. Lakin bu çarlıq tezliklə III Tiqlatpalasar tərəfindən darmadağın edilmiş və Aşşurun əyalətinə çevrilmişdi.

Atçılıq və dəvəçiliklə məşğul olan, qaramal və davar saxlayan cəngavər tayfanın (və ya tayfaların) yaşadığı Mes[s]i (Misi, Misu) "ölkəsi"nin böyük əhəmiyyəti var idi. Messinin adı Zamua, Maday, Gizilbunda və Parsua ilə bir çəkilir. Daha sonrakı mənbələrdən məlum olur ki, bu vilayət Mannanın cənub qurtaracağında idi və Manna sonralar onu işğal edib öz ərazisinə qatmışdı. Lakin Messi hökmdarları onda da özlərini müstəqil aparmağa cəhd etmişdilər.

Messi vilayətinin boyun əyməyən əhalisinin gizləndiyi dağ qalası Mesunun adını II Aşşurnasirapal e.ə. IX əsrin 80-ci illərində çəkir. Bu ölkəyə sonra III Salmanasar, V Şamşi-Adad, III Adadnerari yürüşlər etmişlər. Aşşurluların verdiyi məlumata görə, vilayətin ərazisi olduqca geniş idi. Messinin çarlar və ya tayfa başçıları tərəfindən idarə edildiyi haqqında bizim qaynaqlarda heç bir məlumat yoxdur.

Aşşurlular adətən Messini işğal edir və talayır, ondan bac alınması haqqında isə heç bir məlumat vermirlər. Onların bu ölkədə qarət etdikləri əmlak içərisində əkinçilik məhsullarının adı bir dəfə də çəkilmir, lakin "saysız-hesabsız" davar və



downloaded from KitabYurdu.az

qaramal, qatır, ikihürgüclü dəvə və at ələ keçirildiyi bildirilir. Demək lazımdır ki, Messi atları sonralar da tez-tez xatırlanır.

Messi, Parsua, Maday və Zikertu ilə həmsərhəd olan Gizilbunda vilayətinin əhalisi Aşşur kitabələrinin birində "başının üstündə hökmdarlıq tanımayan və öz qüvvəsinə güvənən" bir əhali kimi səciyyələndirilirdi. Etnik mənzərəsi lazımınca aydın olmayan bu dağlıq diyar - Kafelan-kuh rayonu - əkinçilik-sənətkarlıq ölkəsi idi. E.ə. IX-VIII əsrlərdə bu ölkənin əhalisi ola bilsin, iri tayfa ittifaqından ibarət idi və aşşurlular onun başçısı Pirişatini "çar" adlandırırdılar.

Artıq e.ə. IX əsrin son rübündə aşşurlular bu ölkədə olmuşdular. Gizilbunda hakimləri arasında birlik yox idi. Ölkənin ayrı-ayrı rayonlarının hakimləri bac verərək Şamşi-Adadı rəhmə gətirməyə çalışdıqları halda, çar Pirişati müqavimət göstərməkdə davam edirdi. Aşşur hökmdarı bunun üstündə ölkəni dağıdıb viran qoydu. O, ətraf məskənlərin əhalisinin daldalandığı "möhkəmləndirilmiş şəhər" Uraşı işğal etdi, "şəhərin küçələrini onun döyüşçülərinin qanına boyadı... 6000 döyüşçünü qırdı, çar Pirişatini 1200 döyüşçusü ilə birlikdə diri-diri tutdu. Əsirlər apardı, onların əmlakını, var-dövlətini, qaramalını, davarını, atlarını, gümüşdən, saf qızıldan və tuncdan qayrılmış saysız-hesabsız əşyalarını qarət etdi, dağıtdı, viran qoydu, od vurub yandırdı...".

III Adadnerarinin kitabələrindən birində onun başqa ölkələrlə bərabər, "Gizilbundanı ta hüdudlarınadək" istila etdiyi haqqında məlumat verildiyinə baxmayaraq, Gizilbunda öz suverenliyini qoruyub saxlamışdı.

Ön Asiyamn qədim tarixində sonralar çox böyük rol oynayacaq Amaday vilayətinin adı ilk dəfə elə bu vaxt (e.ə. 834-cü ildə) çəkilir. Amaday vilayəti Gizilbundadan şərqdə və Zikertudan cənub-şərqdə Qızılüzən çayının vadisində (çayın cənubdan şimala axan hissəsində) yerləşib, cənuba və şərqə tərəf uzanırdı.

Amaday (Maday) tayfa ittifaqı Mada xalqının əsası, ölkə isə gələcək Mada çarlığının özəyi oldu. Mada çarlığı tayfa ittifaqının yaşadığı ərazidə və ya sərhəd rayonlarında yerləşən Kiyandan, Xurvindən, Mərlikdən, Sialkdan və başqa yerlərdən əldə edilmiş arxeoloji materiallar həmin vilayətin əhalisinin təsərrüfat və mədəniyyətinin nisbətən yüksək inkişaf səviyyəsindən xəbər verir. Əhali maldarlıqla, əkinçiliklə və müxtəlif sənətlərlə məşğul olurdu.

E.ə. IX əsrin 20-ci illərində aşşurlular Maday tayfa ittifaqının ərazisinə yenidən soxuldular, "paytaxtı" Saqbitu olan "çar" Xanaziruka ilə toqquşdular. Ağır vuruşmalarda 2300 döyüşçü öldürüldü, 140 süvari döyüşçü əsir tutuldu. Neynəva hökmdarı bu ölkədə 1200 məskəni viran qoydu.

Gizilbundadan şimalda Andia ölkəsi yerləşirdi. O, müasir Boqrovdağ silsiləsi rayonunu, Qızılüzən (Səfidrud) çayının vadisini əhatə edirdi. Bu ölkənin adı III Salmanasarın, III Adadnerarinin, II Sarqonun salnamələrində çəkilir. Tədqiqatçılar güman edirlər ki, Andialılar hurridilli və ya Qafqazdilli tayfadır. E.ə. VIII əsrin



downloaded from KitabYurdu.az

sonunda Andia artıq Mannaya tabe idi, amma özünü separatistcəsinə aparır, Mannanın düşmənləri ilə ittifaq bağlayırdı.

Cənubi Azərbaycan vilayətlərinin həyatında uzun müddət mühüm rol oynamış çox böyük bir tayfa ittifaqı Zikertu idi. E.ə. VIII əsrin son rübündə Zikertu təqribən indiki Marağa ilə Ərdəbil arasındakı ərazini tuturdu. Zikertunu və zikertuluları Əhəməni (Haxamanişi) və antik qaynaqlardan məlum olan Saqartiya və saqartiyalılar ilə eyniləşdirirlər. Əhəmənilər dövründə zikertuluların sakin olduqları ərazi təqribən gələcək Atropatenaya uyğun gəlirdi. E.ə. VIII əsrdə zikertulular həm Manna hökmdarlarını, həm də Aşşur fatehlərini az narahat etməmişdilər.

Cənubi Azərbaycan ərazisində yuxarıda adlarını çəkdiyimiz tayfa ittifaqlarından və ölkələrdən başqa, bir çox daha xırda siyasi vahidlər də var idi. Bunların sırasına Ninni "çarlığını" aid etmək olar. Onun mərkəzi olan möhkəmləndirilmiş Aridu şəhərində aşşurlular hələ III Salmanasar zamanı insan kəlləsindən qüllə qurmuş, cavan oğlan və qızları tonqallarda yandırmışdılar. Daha sonra yenə də III Salmanasar zamanında bac olaraq qoşqu atları verməyə məcbur edilən Haruna "çarlığı", bac olaraq at, qatır, mal-qara, şərab, tunc qab-qacaq və i.a. verən Şurdira, Simesi, Ulmania, Adauş, Xarmasa və başqaları, Urartu mənbələrində adları çəkilən Sanqibuti, Puluadi və bir çox başqaları da bu qəbilədəndir.

Bu vaxt, eləcə də bir qədər sonra Aşşur ilə Urartu arasında mübarizə əsasən Urmiyaboyu vilayətlərə yiyələnmək uğrunda gedirdi. Çox güman ki, artıq e.ə. IX əsrin sonuna yaxın urartulular Urmiyaboyu rayona ilk yürüşlər edirlər.

Beləliklə, e.ə. IX əsrin ilk onilliklərində Urmiyaboyu - Zaqros zonasında müxtəlif birləşmələr yaranmağa başlayır və onlar burada ilk iri siyasi birləşmənin - Manna çarlığının meydana gəlməsi üçün zəmin hazırlayırlar.

**Manna çarlığının meydana gəlməsi. Aşşurlulara və urartululara qarşı mübarizə.** E.ə. IX əsrin ikinci yarısından etibarən Urmiyaboyu rayonda tədricən Manna çarlığının konturları görünməyə başlayır. Artıq e.ə. VIII əsrdə Manna siyasi həyatda və beynəlxalq münasibətlərdə mühüm amilə çevrilmişdi. Bu çarlığı Cənubi Azərbaycan ərazisində ilk iri dövlət qurumu hesab etmək olar.

Manna birləşməsi qədim ənənələri olan bir ərazidə, qədim tarixin çox böyük bir kəsiyində iqtisadi və mədəni cəhətdən öndə gedən bir rayonda meydana gəlmişdi.

Manna e.ə. III—II minilliklərdə bu regionda mövcud olmuş kuti, lullubi, hurri tayfalarının, digər tayfaların və tayfa ittifaqlarının bilavasitə varisi idi.

Manna çarlığının yerləşdiyi torpaqlarda yaşayanlar hələ ən qədim zamanlarda Mesopotamiya vilayətləri ilə mədəni-iqtisadi və siyasi münasibətlərə girmişdilər. Həmin ərazidə yaşayan tayfalarda ibtidai icma quruluşunun süqutunun sürətlənməsində bunun, şübhəsiz, böyük əhəmiyyəti vardı.

Manna e.ə. IX əsrin sonunadək Zamua vilayətinin digər "ölkələrindən" az fərqlənirdi.



downloaded from KitabYurdu.az

Mannanın adı mixi yazıda ilk dəfə e.ə. 843-cü ildə III Salmanasarın kitabəsində ("Munna" formasında) çəkilmişdir. Adətən Aşşurlular Mannanı "Mannalılar (tayfasının) ölkəsi", urartulular isə " Mana ölkəsi" adlandırırdılar. Bibliyada Ararat, Aşkenaz çarlıqlarının adı ilə yanaşı, çəkilən Minni adını Manna ilə eyniləşdirirlər.

Manna adı mənşəcə yerli idi. Bəlkə də bu ad əvvəlcə Urmiyaboyu tayfalardan birinə məxsus olmuş, sonra mannalıların birləşdirdiyi torpaqların hamısına yayılmışdı.

Mannada çoxluq təşkil edən tayfa ilə bərabər, digər tayfalar, məsələn, sunbilər, taurlalılar, dalilər də vardı. Lakin etnik konsolidasiya nişanələri artıq nəzərə çarpmaqda idi. Məsələn, Manna çarı nəinki Urartu çarının istila etdiyi torpaqları geri almaq qayğısına qalır, həm də "...pərən-pərən salınmış mannalıların öz yerinə qaytarılmasına" çalışırdı.

III Salmanasar vaxtında bir sıra Manna vilayətlərinin (bunların başında aşşurlulara boyun əyməyib, "dağlara çəkilmiş" çar Uda dururdu) birləşdiyinə hələ ilk eyhamlar var idi. Çox keçmədən Mannalılar ölkəsi Urmiyaboyu rayonunun xeyli hissəsini tutur və onun adı eponimlər siyahısında çəkilir. Bu, İzirtu şəhərində əyləşən çarların başçılığı ilə həmin ərazidə birləşmə prosesinin genişlənməsindən xəbər verir.

Aşşur məlumatlarına görə, Manna çarlığı qədimdə Lullubum adlanmış böyük Zamua vilayətinin bir hissəsi olan Daxili Zamuanın ərazisində meydana gəlmişdi. Güman ki, Zamua etnik termindir - iri lullubi tayfalarından birinin adıdır.

İki təhlükə: bir tərəfdən möhkəmlənmiş Aşşur dövlətinin, digər tərəfdən də çox keçmədən Urartu dövlətinin törətdiyi təhlükə bu vilayətlərdə Manna tayfalarının siyasi cəhətdən birləşməsinə güclü təkan verdi.

III Salmanasarın hökmranlığının on altıncı ilindəki yürüş təsvil edilərkən məlumat verilirdi ki, çar Daxili Zamuada torpaqları tuta-tuta Munna (Manna) ölkəsinə çatmışdı. Lakin salnamələrdə Mannanın qarət və işğal edilməsindən, yaxud ondan bac alınmasından bir kəlmə də danışılmır. Görünür, aşşurlular ya Mannanı istila edə bilməmişdilər, ya da bu ölkənin yalnız sərhədlərinə gedib çatmış, sonra dönüb qonşu Allabrianın üzərinə yerimişdilər.

E.ə. 829-cu ilin salnamələrində Mannanın adı darmadağın edilmiş ölkələrin adları sırasında çəkilir. III Salmanasar artıq qocalmışdı və Aşşur qoşunlarına bu dəfə sərkərdə Dayan-Aşşur başçılıq edirdi. Aşşur kitabəsində yazılmışdı: "Mən mannalı Udakinin məskənlərinə yaxınlaşdım. Mannalı Udaki mənim silahımın parıltısından dəhşətə gəlib, canını qurtarmaq üçün öz çar şəhəri Zirtanı tərk etdi. Mən onun dalınca düşdüm. Saysız-hesabsız qaramalını, qoyunlarını, mülkiyyətini apardım. Şəhərlərini viran qoydum, dağıtdım, od vurub yandırdım".

Məğlubiyyətə baxmayaraq Manna təslim olmadı, bac vermədi. Aşşurlular ancaq qənimət ələ keçirməklə kifayətləndilər.



downloaded from KitabYurdu.az

III Salmanasarın hakimiyyətinin son illərində Aşşur dövlətində daxili iğtişaşlar başlandı. Urartu çarı İşpuini bundan istifadə edib Urmiya gölünün sahillərinə çıxdı, Gilzan çarlığını işğal edib Urartuya qatdı. İşpuininin vaxtında urartulular Manna çarını ağır məğlubiyyətə uğratdılar. Bunu, məsələn, bir də ondan görmək olar ki, 820-ci ildə Urmiyaboyu vilayətlərdə hegemonluq Zamua çarlarından biri olan Şarsinanın əlinə keçir.

E.ə. IX əsrin sonu - VIII əsrin birinci yarısında Urartu çarları Menuanın, I Argiştinin, II Sardurinin zamanında urartulular Mannanın ən təhlükəli düşmənlərinə çevrilirlər. Menuanın hökmranlığı dövründə Urartu o qədər qüvvətlənir ki, Aşşur çarı onu ləyaqətli bir düşmən kimi tanımağa məcbur olur. İki güclü düşmən arasında Urmiyaboyu əraziyə yiyələnmək uğrunda mübarizə qızışır. Menua qalib gəlir və Aşşur çarının əlindən vilayətləri bir-bir alır.

Lakin Aşşur çarlığı hələ kifayət qədər güclü idi və Urmiyaboyu vilayətlər uğrunda mübarizə davam edirdi. E.ə. 807 və 806-cı illərdə düşmənlər Mannada iki dəfə vuruşmuşdular.

E.ə. IX əsrin lap sonunda - 802-801-ci illərdə aşşurlularla urartulular arasında mübarizə daha da qızışdı. Menuanın Mannaya ikinci yürüşü bu dövrə aiddir. Menua Mannada (Miandub yaxınlığında) qala qurur, yaxud onu bərpa edir və orada öz qarnizonlarını qoyur. Ola bilsin ki, urartulular ayrı-ayrı vaxtlarda Manna ərazisinin bir hissəsində müvəqqəti hökmranlıq etmişlər.

E.ə. VIII əsrin birinci yarısı Aşşur dövlətinin zəiflədiyi və Urartu dövlətinin gücləndiyi dövr idi. Bu dövrə aid Urartu qaynaqlarında Manna ölkəsinin adı getdikcə daha tez-tez çəkilir və ona qarşı bir çox yürüşlər edildiyi göstərilir. Urartulular bu ölkəni talan edir, oradan saysız-hesabsız qaramal, davar, minlərlə əsir aparır, yerli əhalidən bac alırlar və həmin torpaqlarda yerlərini möhkəmləndirməyə cəhd edib, işğal olunmuş rayonlarda qalalar qururlar.

I Argiştinin hakimiyyəti dövründə urartulular Urmiyaboyu rayona, xüsusən Mannaya daha tez-tez yürüşlər edirdilər. Urartulular bu vilayətlərə e.ə. 784, 781-774-cü illərdə soxulmuşdular. Bu on il ərzində Urmiyaboyu vilayətlərdə, təxmini hesablamalara görə, 50 mindən artıq adam öldürülmüş və əsir alınmış, 100 mindən çox davar və 40 mindən artıq qaramal, xeyli at, dəvə aparılmış, bir çox şəhər və digər yaşayış məntəqələri dağıdılmışdı. Lakin Manna mübarizəni kəsmir və arabir əks-hücuma keçirdi. E.ə.VIII əsrin 70-ci illərinin ortalarında artıq belə bir əks-hücum olmuşdu. Görünür o vaxt, yaxud bir qədər sonra Manna Urartunun hakimiyyəti altından çıxmışdı, hərçənd I Argişti (e.ə. 773, 772, 771, 769, 768-ci illərdə) və II Sarduri (e.ə.VIII əsrin 50-ci illərinin əvvəlində) buraya viranedici yürüşlər etmişdilər. E.ə. VIII əsrin 60-cı illərin ortalarında və əvvəlində I Argişti Buştunu, Urmiyadan cənub-şərqdə bir sıra rayonları işğal edir, Cənubi Zaqafqaziyaya (Etiuni ölkəsinə)



downloaded from KitabYurdu.az

soxulur, Mannanın möhkəmləndirilmiş "çar şəhəri" Şimerixadirini işğal edir, orada çoxlu kişi və qadın tutub aparır.

II Sardurinin vaxtında urartuluların istilaçılıq siyasəti daha kəskinləşir. II Sarduri Şimali Urmiya vilayətlərinə soxulur, Cənubi Azərbaycan torpaqlarının içərilərinədək irəliləyir. O məlumat verir ki, dağlıq Puluadi ölkəsinə qalib gəlmiş, 21 qalanı, 45 şəhəri və "çar şəhəri olan Libliuni"ni ələ keçirmişdi. Çar salnaməsində deyilir ki, düşmən ölkəni ram etmək üçün o, işğal etdiyi vilayətdə öz qalalarını qururdu.

Bu, urartuluların Manna ərazisinə ən çox nüfuz etdiyi dövr idi. Onlar istila olunmuş vilayətlərdə qalalar tikirdilər, həmin qalalarda qoşun saxlayır və yeni yürüşlərə hazırlaşırdılar. Sonralar II Argişti də bu rayonlarda olmuşdu.

Manna mübarizə aparır, Urartu çarlarına inadlı müqavimət göstərirdi. Manna məhz Urartu ilə mübarizədə vahid dövlət kimi təşəkkül tapır və bu dövlət bəzən Cənubi Azərbaycanın, demək olar ki, bütün ərazisini əhatə edirdi.

VIII əsrin ikinci yarısı Manna çarlığının möhkəmlənməsi və genişlənməsi dövrü idi.

**Mannanın təsərrüfat həyatı: əkinçilik, maldarlıq, sənətkarlıq.** E.ə. I minilliyin başlanğıcında və sonralar Cənubi Azərbaycan tayfalarının təsərrüfatı çoxsahəli idi. Diyarın əhalisi əkinçilik, maldarlıq və müxtəlif sənətlərlə məşğul olurdu. Müxtəlif vilayətlərdə təsərrüfatçılığın ayrı-ayrı sahələri üstünlük təşkil edirdi.

Məsələn, Zamua, Allabria, Karalla, Kirruri, Gilzan vilayətləri və bəzi başqa vilayətlər oturaq əkinçilik-maldarlıq təsərrüfatının qədim ənənələrinə, mahir sənətkarlara malik, qızğın ticarət edən, şəhər və kənd tipli bir çox məskənləri olan rayonlar idi. Başlıca sahə əkinçilik, özü də suvarma əkinçilik idi. Dövlət hakimiyyətinin tam təşəkkülü prosesi bəlkə də məhz suvarma əkinçiliyin inkişafı ilə bağlıdır. Aşşur çarları tez-tez xatırladırlar ki, "mən onların bol məhsulunu yandırdım, dolu anbarlarını açdım və qoşunuma o ki var arpa yedizdirdim", "onun bol məhsulunu saya gəlməyən qamış kimi kökündən qopartdım... onun lacivərd rəngli gözəl, güllü-çiçəkli, yamyaşıl torpaqlarını, Adad kimi suya qərq etdim, atlarının ümid yeri olan çəmənlərini də arabaların təkərləri, süvarilərin, döyüşçülərin ayaqları altında tapdaq eləyib çöl-biyabana çevirdim", "bağlarını, qamış kimi sıx ağaclarını... onun şəhərinə yaraşıq verən, bolluca meyvə ağacları və meynələri olan gözəl bağlarını qırdım"...

Zikertunun, müəyyən dərəcədə də Gizilbundanın və bəzi başqa yerlərin əhalisinin əsas peşəsi maldarlıq idi. Lakin burada, əlbəttə, əkinçilik və sənətkarlıqla da məşğul olurdular.

Elə vilayətlər də vardı ki, Aşşur mənbələri o vilayətlərdən qarət edilmiş əmlakı sadalayanda əkinçilik məhsullarının və sənətkarlıq məmulatının adını bircə dəfə də çəkmirlər. Belə vilayətlərdən biri, məsələn, Mes[s]idir. İstilaçıların yazılarında burada



downloaded from KitabYurdu.az

"saysız-hesabsız" qaramal, davar, qatır, ikihürgüclü dəvə və at ələ keçirildiyi haqqında tez-tez məlumat verilir.

Aşşur kitabələrinə görə, yuxarıda xatırladılan inkişaf etmiş əkinçilik vilayətlərində yalnız kənd təsərrüfatı məhsulları deyil, metallar və sənətkarlıq məmulatı da ələ keçirilir və bac şəklində alınırdı. Kitabələr yalnız bərəkətli zəmilər, kanallar, taxıl və şərab anbarları, küləş, at ilxıları, qaramal və davar haqqında yox, qızıl, gümüş, mis, bu metallardan hazırlanan məmulat, müxtəlif parça və i.a. haqqında da məlumat verir.

Metallurgiya və metalişləmə, dulusçuluq, daşişləmə, sümükişləmə, əyiricilik və toxuculuq geniş surətdə inkişaf etmişdi.

Diyarın qədim metallurgiyasının öz filiz mənbəyi vardı. Biz mis, dəmir, qızıl, qurğuşun və gümüş yataqlarının istismar edildiyini qəti söyləyə bilərik.

Əsasən dulus çarxında hazırlanan bir çox keramika məmulatı sənətkarların böyük məharətindən xəbər verir; regionun müxtəlif yerlərində dulus sobaları aşkarlanmışdır.

Qəbirlərdən daşdan, gipsdən, qızıldan düzəldilmiş çoxlu möhür (bir parasının üzərində mixi yazı işarələri qalmışdır), xeyli bər-bəzək, bilərzik, üzük, muncuq, sırğa, asmalar və s. tapılmışdır. Çoxlu sənət inciləri - qızıl camlar, müxtəlif ritonlar, situlalar və başqa şeylər aşkara çıxarılmışdır. Bir çox sənət inciləri müxtəlif zərgərlik, dulusçuluq mərkəzlərindən bəhs etməyə imkan verir. Mühüm bir cəhət ondan ibarətdir ki, qazıntı zamanı Həsənlidə sənətkar emalatxanaları, xüsusən "sənətkar evi" tapılmışdır. Bütün bunlar, şübhəsiz, əhalinin yüksək sənətkarlığa və zəngin incəsənətə malik olduğunu sübut edir.

Zəngin xammal ehtiyatları, böyük kənd təsərrüfatı potensialı, inkişaf etmiş sənətkarlıq, incəsənət və bir çox başqa nailiyyətlər region vilayətlərinin yalnız bir-biri ilə deyil, həm də uzaq ölkələrlə ticarətinin inkişafına kömək edirdi. Hələ lap qədim vaxtlardan Azərbaycanın vilayətlərindən bu diyarı Qərb və Şərq, Şimal və Cənub ölkələri ilə birləşdirən beynəlxalq ticarət yolları keçirdi.

**Əkinçilik.** Azərbaycanın torpaqları və su ehtiyatları bol əkinçilik məhsulları yetişdirilməsinə imkan verirdi. Azərbaycanın coğrafi şəraiti sayəsində həm dəmyə yerlərdə, həm də suvarılan torpaqlarda əkinçilik inkişaf etmişdi. Quraqlıq rayonlarda bulaq və kəhriz sularından istifadə olunurdu.

Aşşur çarları bol qənimət ələ keçirdiklərini, hər il bac topladıqlarını bildirirlər. Birdəfəlik bac adətən taxılla alınmırdı, çünki kənd təsərrüfatı məhsulları ehtiyatından yürüşün özündə qoşunu dolandırmaq üçün istifadə olunurdu. Aşşur istilaçılarını mal-qara, metal və metaldan hazırlanan məmulat daha çox maraqlandırırdı. Lakin illik bac olaraq hər il başqa şeylərlə yanaşı taxıl da alınırdı.

Həsənlidə aparılan qazıntı işlərinin nəticələri bölgənin iqtisadiyyatında əkinçiliyin çox mühüm yer tutduğunu söyləməyə imkan verir. Burada iki və altı



downloaded from KitabYurdu.az

cərgəli arpa, bir növ buğda və darı yetişdirilirdi. Digər tikintilər sırasında içərisində müxtəlif kənd təsərrüfatı məhsullarının qalığı olan anbarlar da aşkar edilmişdir.

Əkinçilik qədim əhalinin əsas peşələrindən biri olduğuna görə əkinçilik texnikası yüksək səviyyədə inkişaf etdirilməli idi. Dəmir dövrünə keçdikdən sonra əkinçilik alətləri təkmilləşdirilməyə başlandı. Tarlalar ağac kotanla, dəmir toxa ilə şumlanırdı. Taxıl dəmir oraqla biçilirdi. Həsənlidə qazıntı zamanı dəmir toxalar və dəmir oraq tiyələri tapılmışdır.

Təsərrüfatda yüklər iki və ya dördtəkərli arabalarda daşınırdı.

Təsərrüfat haqqında xüsusilə zəngin məlumatı II Sarqonun yürüşünün müfəssəl təsvirindən almaq mümkündür. Bu təsvirdə Mannada və onun tabeliyindəki vilayətlərdə arpa ilə dolu anbarların ələ keçirilməsindən, zəngin əkinçilik rayonlarının var-yoxdan çıxarılıb xaraba qoyulmasından danışılır. İstilaçının keçdiyi bütün yol boyunca mannalılar onun qoşununu ərzaqla təmin etməyə məcbur idilər. Məsələn, Manna çarı Ullusunu haqqında deyilir ki, "o mənim (II Sarqonun) qoşunumu yedirib-içirmək üçün anbarlara un və şərab doldurmuşdu".

Zirkertu ilə döyüşə hazırlaşanda II Sarqon Mannanın Panziş qalasını möhkəmləndirmişdi: "Onun (Ullusununun) qalası Panzişə... yaxınlaşdım. Bu şəhəri daha da möhkəmləndirdim, onun içərisinə yağ, dən, şərab və döyüş ləvazimatı qaldırdım".

Uişdiş və Sanqibutu vilayətində çoxlu taxıl ehtiyatı var idi, görünür, bu, müharibə ehtimalına qarşı və ya qıtlıq illəri üçün yaradılmışdı. "Onun ölkəni və camaatı dolandırmaq üçün uzun müddət anbarlara vurduğu çoxlu arpa və buğda ehtiyatını qoşunumun atları, qatırları, dəvələri və ulaqları ilə daşıtdırıb öz düşərgəmdə qalaq-qalaq yığdırdım".

Şəhərlərdə belə böyük anbarlar olduğunu arxeoloji qazıntılar da sübut edir. Həsənlidə qazıntı zamanı tapılmış binalardan biri təsərrüfat məqsədləri üçün imiş. Onun içərisində keramika məmulatı, kənd təsərrüfatı məhsullarının, qala ətrafında yetişdirilən buğda, arpa, darı, əncir və üzümün qalıqları var idi.

Suvarma kanalları şəbəkəsi barlı-bəhrəli bağlar və üzümlüklər salmağa imkan verirdi. Bizə məlum olduğuna görə, Urartu çarı Rusa mannalılardan zəbt etdiyi Sanqibutu vilayətinin Ulxu şəhərinin ətrafında kanallar çəkdirmişdi. "O, axar suyu aparan kanal qazmış və onu Fərat çayı kimi gur axmağa məcbur etmişdi. Kanaldan saysız-hesabsız arxlar ayırmışdı... zəmiləri həqiqətən suvarırdı".

Arxların bəzisi borularla yerin altından çəkilmişdi. Sanqibutu vilayətinin təxmin edildiyi rayonun yaxınlığında Bastam məskənində də uzunluğu 12 kilometrə qədər olan bu cür kanalın qalıqları tapılmışdır. Güman edilir ki, kanallar çox uzun idi və Sanqibutunun xeyli hissəsinin torpaqlarını suvara bilirdi. Su, ola bilsin, Araz çayının qolu Kotur çayından götürülürdü.



downloaded from KitabYurdu.az

II Sarqon Sanqibutu vilayətinin "böyük, qamış kimi sıx bitki ağaclarını", meyvə bağlarını və üzümlüklərini xüsusilə qeyd edir. Görünür, Mannada üzümçülük də böyük miqyas almışdı. II Sarqon tənəkləri "dağların pöhrəlikləri" adlandırır. Burada şərabçılıq inkişaf etmiş sahə idi. Ulxu şəhərini aldıqdan sonra II Sarqon məlumat verir ki, gizli şərab zirzəmilərinə girmiş və onun qoşunları "irili-xırdalı tuluqlardan ləzzətli şərabı çay suyunu içən kimi içirdilər". Mannanın digər vilayətlərində də şərab ehtiyatları var idi. Həsənlidə qazıntı zamanı aşkara çıxarılan yaşayış məntəqəsindən bu cür şərab anbarları, onların içərisində isə torpaq döşəməyə basdırılan şərab küpləri tapılmışdı. Bu küplər çox böyük idi və bəzisi 240 litrədək şərab tuturdu.

**Maldarlıq və atçılıq.** Əkinçiliklə yanaşı, maldarlıq da təsərrüfatın ən mühüm sahələrindən biri idi.

Cənubi Azərbaycanın şimal-qərb hissəsi - Qaradağın ətəklərinin Muğan düzü ilə qovuşduğu yerlər yaxşı qış otlağıdır. Zaqros dağları sistemində geniş təbii otlaqlar vardır və burada ayaqaltı yemlə milyonlarla mal-qara saxlamaq mümkündür.

Manna ərazisində qaramal, davar, at saxlanılması mixi yazılardan bəllidir. Burada köçəri (yaylaq-qışlaq) - maldarlıq inkişaf etmişdi, mal-qara yazda dağlara sürülür, payızda vadilərə gətirilirdi. Ola bilsin ki, Urartu çarlarının yürüş vaxtı yaylaq maldarlığı ilə bağlı imiş. Daha çox qənimət ələ keçirmək mümkün olsun deyə yürüşlər ya mal-qara sürülənə qədər, ya da dağdan qaytarılandan sonra edilirdi. Bu mülahizənin düzgünlüyünü o da təsdiqləyir ki, Həsənli ərazisinə yürüş və qədim qalanın dağılması yayın sonuna təsadüf etmişdi: burada üzümlə dolu qablar tapılmışdı. Görünür, üzüm şərab çəkmək üçün hazırlanıbmış.

II Sarqon bildirmişdi ki, duuzu ayı (iyun-iyul aylarına müvafiqdir) "qoşun yığmaq və düşərgə salmaq üçün" buyurulubdur. Yürüşlərin təsvirinin sonunda adətən çoxlu qaramal və davar aparıldığı haqqında məlumat verilirdi.

II Aşşurnasirapal Daqara ölkəsindən və bütün Zamuanın çarlarından bac olaraq "at, qaramal və davar" tələb edirdi.

III Salmanasar Mannanın adını ilk dəfə çəkəndə buradan saysız-hesabsız qaramal və qoyun" ələ keçirir.

I Argişti də Mannada külli miqdarda mal-qara ələ keçirir. O, məlumat verir ki, buradan 2411 baş qaramal, 5149 baş davar, 170 at və 62 dəvə aparmışdı.

I Argiştinin oğlu II Sardurinin yazısında bir neçə vilayətdən, o cümlədən Puluadidən ələ keçirilən mal-qara sadalanır və sayı göstərilir. Puluadi ölkəsinin payına təkcə bir yürüş zamanı ələ keçirilən təqribən 1400 at, 1200 başdan çox qaramal və 18 min başdan çox davar, 115 baş dəvə düşür.

Düşmən qoşunları hücum edəndə yerli əhali var-yoxundan heç olmazsa, bir qismini - qarətdən xilas etmək üçün adətən mal-qarasını dağlara ötürürdü. Aşşur çarları dağlara sürülən mal-qaranı ələ keçirib geriyə, yəni vadilərə qaytardıqlarını tez-



downloaded from KitabYurdu.az

tez xəbər verirlər. V Şamşi-Adad Messi vilayətində, Mannanın özündə və başqa vilayətlərdə qaramal, davar, qatır, qoşqu atları və dəvələr ələ keçirmişdi.

Manna çarlığının vilayətlərində atçılığa xüsusi, çox böyük əhəmiyyət verilirdi. Qafqazda və Ön Asiya vilayətlərində at ən azı e.ə. III minillikdən məlum idi, lakin qədim Şərqdə atçılığın geniş yayılması, atla xüsusi məşq sənəti, atın döyüş arabalarına qoşulması e.ə. II minilliyin birinci yarısına aiddir. E.ə. II-I minilliyin ayrıcında və xüsusilə I minilliyin əvvəlində minik atından hərbi məqsədlərlə istifadə edilməsi, süvariliyin yayılması irandilli əhalinin məskunlaşması ilə əlaqədar idi. Görünür, qonşu xalqların süvari qoşunları məhz öz silahlı süvariləri ilə güclü olan irandilli tayfalarla mübarizədə təşəkkül tapmışdı.

Atçılıq sürətlə yayılır, iqtisadiyyatda və hərbi işdə getdikcə daha böyük yer tuturdu. Bəzi vilayətlər at yetişdirməkdə ixtisaslaşmağa başlayırdılar.

Aşşur mənbələrində Urmiyaboyu vilayətlərdən alınan bac sadalanarkən tədricən at birinci yerə keçir, bəzi vilayətlərdən bac olaraq ancaq at alınırdı. Mannaya yürüş etmiş çarların demək olar ki, hamısı belə məlumat verirdi: "Mannalılardan bac kimi qoşqu atları aldım". Zamuadan, Gilzandan, Messidən, Gizilbundadan Aşşur çarına qoşqu atları göndərirdilər. I Rusa zamanında urartulular tərəfindən tutulan, lakin Aşşur çarının köməyi ilə yenidən Mannaya qaytarılan Manna vilayəti Subinin əhalisi at yetişdirməkdə xüsusilə mahir idi. II Sarqonun kitabəsində bu barədə ətraflı danışılır: "Həmin vilayətdə yaşayan adamların süvari qoşun üçün ata təlim vermək sənətində tayı-bərabəri yoxdur. Öz geniş ölkəsində öz çar alayı üçün bəslədiyi və hər il bac kimi aldığı kiçik dayçaları böyüməyincə minmirdilər, gərdişə gəlməyi, dövrə vurmağı, dönməyi, döyüş üçün vacib olan bütün vərdişləri öyrətməyincə bu dayçaları yəhərləmirdilər".

Subi vilayətinin Sanqibutu ilə həmsərhəd zonasında Uşkaya ilə Tarmakisa (indiki Təbriz) qalaları arasında Aniaştaniya məskəni var idi. II Sarqon onu "ilxılar evi" adlandırır.

Gizilbunda vilayəti yaşayış məskənləri rəisləri Mannanın Zirdiakka qalasına II Sarqona qoşqu atları, sayagəlməz qaramal və davar gətirirdilər. Ullusunu da II Sarqona "qoşqu ləvazimatı ilə birlikdə qoşqu atları" bəxş etmişdi.

Həsənlidən tapılan müxtəlif əşyaların üzərindəki rəsmlərdə görünür ki, təkərli nəqliyyat da, atminmə də geniş yayılmışdı. Qızıl və gümüş camların üzərindəki təsvirlər biratlı və ikiatlı arabaların mövcud olduğunu göstərir. Hər iki arabanın təkərlərində Aşşur və Urartu arabalarında olduğu kimi altı dəndə vardı.

Həsənlidə e.ə. IX əsr layının üzərində ağacdan hazırlanmış və atlı təsviri olan relyef tapılmışdır. Qazıntı zamanı aşkar edilmiş əşyalar arasında at, qoç və buzov formasında məharətlə hazırlanmış ritonlar vardır. Buradan gəm və bər-bəzəkli qoşqu şeyləri ilə birlikdə dəfn edilən at qalıqları da tapılmışdır. At dəfn etmək Naxçıvan diyarında da geniş yayılmış bir adət idi. Şahtaxtı qəbiristanının bir çox qəbirlərində



downloaded from KitabYurdu.az

çoxlu qab-qacaqla birlikdə at skeletlərinə də rast gəlinir. Marlik və Kaluraz mədəniyyəti daşıyıcılarının dəfn adətlərində də ata xüsusi münasibət bəslənildiyini, ona hətta sitayiş edildiyini görmək olar. Döyüşçülərin məzarları ilə yanaşı, atlar üçün ayrı-ayrı dəfn kameraları qurulurdu. Bu kameralardan at dişləri və tunc gəmlər tapılmışdır. Kalurazda da ayrı-ayrı at qəbirləri aşkar edilmişdir. Hər bir qəbirdən bütün ləvazimat və bəzək şeyləri ilə birlikdə üç at skeleti çıxmışdır.

**Sənətkarlıq.** Təsərrüfatçılığın əsas növlərinin mükəmməl mənimsənilməsi müxtəlif sənət sahələrini inkişaf etdirməyə imkan verirdi. Əhali metal hasil etməyi və ondan əşyalar qayırmağı çox yaxşı öyrənmişdi. Tunc məmulat həm təsərrüfatda, həm də hərbi işdə geniş tətbiq olunurdu. Misdən tunc xəlitəsi almaq üçün aşqar kimi cürbəcür metallardan istifadə edilirdi. Əsas aşqar kimi qalay işlədilirdi. Bu ərazidə qalayın olmaması və görünür, onun fasilələrlə gətirilməsi sənətkarları xəlitələrin alınması üçün qurğuşun, sürmə, arsen kimi əvəzedicilər işlətməyə məcbur edirdi.

E.ə. II minilliyin sonunda mis-arsen ərintilərindən hazırlanan əşyalar Kültəpədə (Naxçıvan MR) aşkara çıxarılmışdır. Mingəçevirdə çoxlu mis-sürmə xəlitələri tapılmışdır. Həsənlidə az miqdar kalsium və maqnezium qarışığı olan tunclar aşkar edilmişdir.

Qalayın idxalı məsələsinə dair tədqiqatlar güman etməyə əsas verir ki, qədim tunc metallurgiyası üçün qalay mənbəyi, ehtimal ki, Malay arxipelaqının və həmsərhəd ölkələrin zəngin qalay yataqları imiş. Regionun ərazisində xalis qalaydan olan əşyalar çox az tapılmışdır və tapılanlar da ancaq bəzək şeyləridir.

Aşşur çarları metallarla birlikdə metal məmulat da zəbt edir və bac olaraq alırdılar. II Aşşurnasirapal məlumat verir ki, zamualı Amekanın "çoxlu mis əşyasını, mis güyümlərini, mis camlarını, mis məcməyilərini, onun sarayının xəzinəsini, onun var-dövlətini" zəbt etmişdi. III Salmanasar bac olaraq Gilzandan gümüş, qızıl, qurğuşun və mis qab-qacaq alırdı. Şamşi-Adad isə Gizilbundada gümüş qab-qacaq, əla qızıl və mis ələ keçirmişdi.

Həsənlidə, Marlikdə, Ziviyədə, Naxçıvan zonasında qazıntı zamanı tapılan e.ə. I minilliyin əvvəlinə aid olan sənətkarlıq məmulatı bu ərazinin əhalisi arasında sənətkarlığın yüksək səviyyədə olması haqqında mixi yazılara əsasən yaranmış rəyi təsdiq edir. Üstəlik, aşkarlanmış məmulatın bir qismi son dərəcə nəfis və zərifdir ki, bu da sənətkarların incə bədii zövqündən xəbər verir.

Hələ II Aşşurnasirapal məlumat verirdi ki, öz paytaxtı Kalxuya bu vilayətlərdən sənətkarlar aparırmış. Tapıntılar göstərir ki, sənətkarlar əl çatan bütün material növlərindən istifadə edir, metal, ağac, sümük, gil və daşdan məmulat hazırlayırdılar. Buradan tapılan əşyaların bəzisində Aşşur, Urartu və ya skif sənətlərinin təsiri nəzərə çarpır, ayrı-ayrı məmulatlar isə naşı təqliddən başqa bir şey deyildir. Yaxın Şərqin böyük bir hissəsində yayılmış təsvirlərin ümumi mürəkkəb süjetləri var idi.



downloaded from KitabYurdu.az

Oxşarlıq əlamətləri və təqlid ünsürləri müxtəlif vilayətlər və dövlətlər arasında qədimdən mövcud olan qarşılıqlı əlaqənin qanunauyğun nəticəsi idi. Mövcud quru yollarından başqa, Diala və Xabur çayları kimi su yolları da Aşşur ilə əmtəə mübadiləsinə, şübhəsiz, çox kömək edirdi. Yaxın Şərqi Egey sahilləri ilə birləşdirən yollar arasında Azərbaycandan Trabzona, oradan da Qara dənizlə qərbə gedən yollar böyük əhəmiyyətə malik idi. Azərbaycandan Kiçik Asiyanın qərb sahillərinə gedən yol münasib, asan yoldur və bu yolda mədəni mübadilə üçün, hətta təkərli nəqliyyat üçün də elə bir maneə yoxdur.

Sənətkarlıq məmulatının əsas qismi mükəmməlliyi və forma rəngarəngliyi etibarilə ən qədim vaxtlardan burada inkişaf edən yerli sənətin özünəməxsusluğunu göstərir.

Həsənlidəki qədim qalanın ərazisində sənətkar emalatxanası, emalatxanada isə tökmə üsulu ilə tunc dirəkciklər, baltalar hazırlamaq üçün qəliblərin qırıqları, habelə bəzək şeyləri hazırlamaq üçü qəliblər tapılmışdır.

Mannanın metal üzrə sənətkarlarının iş texnikasına birtaylı və ikitaylı açıq qəliblərdə tökmə işləri, döymə, naxışvurma, ştamplama və həkkaklıq daxil idi.

Kənd təsərrüfatında həm tunc, həm də dəmir toxalardan, dəmir tiyəli oraqlardan istifadə edilirdi.

Qəbirlərdə və Həsənli qalasında silahlar tunc və dəmirdəndir, bəzisi qızıl və gümüşlə zəngin bəzədilmiş, habelə inkrustasiya edilmişdir.

Tuncdan və dəmirdən hazırlanmış yarpaqvari ox ucları bu dövr üçün səciyyəvidir. Tiyəsinin yuxarı hissəsində qabarıq aypara təsviri verilmiş xəncərlər Həsənli qızıl camının üzərində təsvir edilmiş xəncərlərə bənzəyir. Döymə üsulu ilə dəmirdən hazırlanan "açıq aypara" tipli iri xəncərlər və qılınclar da geniş yayılmışdı. Bəzi xəncərlərin dəstəkləri məharətlə bəzədilmiş sümük və ağacla naxışlanmış, metal məftillə köbələnmişdir.

Həsənli xarabalıqlarında iki tip - sivri və şırımlı döyüşçü dəbilqələri tapılmışdır. Sivri, konusvari dəbilqələr Aşşur və Urartu üçün səciyyəvi idi.

Güman etmək olar ki, şırımlı dəbilqəni yerli əhalinin döyüşçüləri qoyurmuşlar. Bunu ondan da yəqin etmək mümkündür ki, III Salmanasarın Balavat darvazasındakı təsvirdə şırımlı dəbilqəli dağ camaatı ilə vuruşan sivri dəbilqəli aşşurlular göstərilmişdir.

Marlikdə nadir bir dəbilqə tapılmışdır. Güman edilir ki, bu dəbilqə hansısa bir çara məxsus ola bilərdi və cah-calallı dekorativ görkəminə baxmayaraq ondan əməli surətdə istifadə olunurdu. Dəbilqə özü tuncdan idi, onun üstünə çəkilmiş qızıl və gümüş quramada şərab nəziri vermək ayinini icra edən saqqallı allah, əllərini qaldırıb ibadət edən ilahələr və onların başı üzərində qanadlarını açmış quş təsvir edilmişdir. Dəbilqənin arxa tərəfində lələkləri və ya tükdən olan daraqları sancmaq üçün lülətcik



downloaded from KitabYurdu.az

vardır. Bu dəbilqənin formasında e.ə. VII əsrin ortalarına aid Aşşur relyefındə təsvir edilən Elam döyüşçüsünün başından yerə düşmüş dəbilqəyə oxşarlıq tapırlar.

Döyüşçünün geyiminə dəriyə və parçaya bənd etmək üçün deşikləri olan tunc çiyinliklər də daxil idi.

Metal məmulat parçalara sancılan xeyli miqdarda müxtəlif qabarıq bəzək şeyləri ilə, həmçinin düymələr, pərçimlər, sancaqlar və s. ilə təmsil olunmuşdur.

Qızıl və gümüş məmulat da sənətkarların yüksək məharətinə gözəl misaldır. Yuxarıda adını çəkdiyimiz qızıl cam, bir də gümüş qədəh xüsusilə maraqlıdır. Qızıl camın üzərində allahlara qurbanvermə mərasimi, miflərdən və görünür, əhali arasında geniş yayılmış dastandan ayrı-ayrı səhnələr təsvir edilmişdir. Gümüş qədəhin üzərindəki təsvirlər, ehtimal ki, qələbə səhnəsini əks etdirir. Cəng arabasının ardınca məğlublar gedirlər, hər iki məmulatdakı təsvirlərdə eyni kompozisiya üsulundan istifadə edilmişdir.

Üzərində qrifonların və qanadlı öküzlərin qorelyef təsvirləri olan Marlik qızıl qabları maraqlıdır. Birinin üzərində dirilik ağacının yanlarında qanadları olan dörd öküzün təsviri vardır; onların 2 santimetr qabağa çıxan relyefli başları, qabın gövdəsi ilə birlikdə, döymə üsulu ilə bütöv bir əşya kimi düzəldilmişdir.

Eyni bir əşyanı bir neçə metaldan hazırlamaq metodu məharətlə tətbiq edilirdi. Marlikdə gövdəsi gümüş, lüləsi qızıl qab tapılmışdır. Ziviyə dəfinəsinin əşyaları arasında qızıl inkrustasiyalı gümüş boşqab vardır. Həsənlidə qoç başı formasında bir mis riton tapılmışdır. Qoçun gözləri, qaşları və burun pərələrinin üzərindəki zolaqlar mavi pasta ilə inkrustasiya edilmiş, buynuzları gümüş folqa ilə örtülmüşdür. Ritonun çənbəri heyvan təsvirlərindən ibarət olan gümüş frizlə bitir.

Zərgərlik məmulatından mis, tunc, gümüş və qızıl boyunbağılar, sırğalar, bilərziklər, kəmərlər, qızıldan, serdolikdən (əqiqdən), balıqqulağından düzəldilmiş çoxlu muncuq vardır. Bu bəzək şeyləri müxtəlif üsullarla: ştamplama, yivaçma, tökmə, deşmə üsulları ilə hazırlanır, həmçinin burulmuş tunc və qızıl məftildən istifadə olunurdu.

Həm qəbirlərdən, həm də yaşayış yerlərindən tapılmış keramika sayca çox, forma və keyfiyyətcə rəngarəngdir. Həsənlidə qazıntı zamanı aşkar edilmiş "Sənətkar evi" adlandırılan tikilidə metal məmulat hazırlamaq üçün lazım olan alətlərdən başqa, həyətdə keramika bişirmək üçün soba da tapılmışdır. Hazır məmulat həmin evin damında qurudulurmuş.

Bu dövrdə qapalı sobalarda, azaldılmış atmosfer təzyiqi altında qara-boz keramika bişirmək ənənəsi davam etdirilirdi.

Sadə həndəsi rəsmlərlə bəzədilmiş, ilgəkvari qulpu olan uzun lüləli pardaqlanmış qara rəngli "çaydanlar", badələr, piyalələr və kuzələr o dövr üçün səciyyəvidir.



downloaded from KitabYurdu.az

Oxşar çaydanlar qazıntı zamanı Həsənlidən, Göytəpədən, habelə Naxçıvan MR-də Qızılvəngdən, Muncuqlu təpədən də tapılmışdır.

E.ə. I minilliyin əvvəlindən Urmiya hövzəsi vilayətlərinin Aşşur ilə qarşılıqlı münasibətlərinin intensiv vaxtında şirli keramikadan hazırlanan əşyalar da meydana gəlir. Məlum olduğu kimi, aşşurlular bu növ keramika hazırlamaqda hələ orta Aşşur dövründən kamilləşmişdilər.

Daşişləmə sənəti üçayaqlı dövrə, mərmərdən hazırlanmış əsa başı, gözəl alebastr qabla təmsil olunmuşdur. Daşdan yonulmuş silindrşəkilli möhürlər incəliyi ilə fərqlənir; bunların bir qismində ov səhnələri, diz çökmüş oxatanların və müxtəlif heyvanların fiqurları təsvir olunmuşdur. Həmin möhürləri son Aşşur dövrünə aid edirlər. Dirilik ağacı və yanlarında keçilər təsvir edilən başqa tip möhürləri e.ə. II minilliyin ortalarından I minilliyin əvvəlinədək Yaxın Şərqin əksər hissəsində yayılmış Mitanni üslubu deyilən üslubla əlaqələndirirlər.

Gil kimi ağac və sümük də təsərrüfatda istifadə edilən əsas materiallardan idi. Qalıqların tədqiqi göstərir ki, burada qovaq, sərv, qarağac, yemişan, alma və armud ağaclarından istifadə edilirmiş. Bərk oduncaq növlərindən yaşayış evləri tikintisində tir kimi istifadə olunur, nizə, toppuz və ox sapları hazırlanırdı. Müxtəlif əşyaların gövdəsi ağacdan yonulur, sonra üstünə metaldan üz çəkilirdi.

Ağacdan yonulmuş atlı heykəlciyi Həsənlidə ağac oymaçılığı sənətinin nümunəsidir. Ağacdan düzəldilmiş adam başı da qalmışdır; uzun ensiz sifəti, çox qabağa çıxan burnu vardır, qaş-gözü inkrustasiyalıdır.

Həsənlidən həmçinin bir neçə müxtəlif parça qırığı, o cümlədən zərif və cod parça qırıqları tapılmışdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, bu parçalar qoyun və ya keçi yunundandır. Parça əriş və arğac saplarını bir-birinə keçirmə metodu ilə toxunurdu. Parçaların bir qismi xovlu idi - saçaqlısı da olurdu, saçaqsızı da. Bəzən xovun uzunluğu üç santimetrə çatırdı. Parça nümunələrindən birinin saçağı ilməkvari düzəldilmişdir.

Marlikdə də kiçik parça kəsikləri, adi və eşmə kəndir qalıqları tapılmışdır.

Həsənlidə və Marlikdə aşkar edilmiş parça qalıqları öz vaxtına və yaxşı qalmasına görə Ön Asiya parçaları arasında nadir tapıntılardır. Yazılı qaynaqlardan bilirik ki, e.ə. IX əsrdə II Aşşurnasirapal Zamuadan bac olaraq yun və yun parçadan tikilmiş əlvan paltar alırdı. Belə şeylərin bac olaraq alınmasına çox nadir hallarda təsadüf edilir və yalnız II Sarqon Musasirdə "Urartu və Xabxi ölkəsinin ala-bəzək kətan geyimlərini, tünd-bənövşəyi rəngdə boyanmış yun, al-qırmızı paltar üçün yununu" ələ keçirməyindən danışırdı.

Həsənli sakinlərinin geyimi bizə bəzək şeylərində təsvir edilmiş şəkillərdən tanışdır. Görünür, məşğuliyyət növündən və sosial vəziyyətdən asılı olaraq adamların geyimi də müxtəlif idi. Adətən ətəyi topuğa çatan qısaqol paltar geyirdilər; paltarın ətəyi və qolları saçaqlı olurdu. Üstdən bellerinə enli kəmər bağlayırdılar.



downloaded from KitabYurdu.az

Döyüşçülərin də geyimi uzun idi, ətəyə doğru genəlirdi, parçadan və ya dəridən olurdu, üzərinə kiçik metal lövhəciklər tikilirdi. Başqa bir növü ətəyi dizdən olan qısa xirqə idi. Döyüşçülərin kürəyini sol çiyinə bənd edilən heyvan dərisi örtürdü.

Marlik sakinlərinin geyimi haqqında gümüş qədəh üzərində çəkilmiş rəsmlərə görə mühakimə yürütmək olar: onlar ətəyi dizə qədər olan qısaqol xirqə geyir, üstündən enli kəmər bağlayırdılar. Qəbirdən tapılmış paltarın ön hissəsinə tikilmiş uzun bir cərgə qızıl düymələrə əsasən belə bir nəticə çıxarmaq olar ki, Marlik sakinləri uzun paltar geyirmişlər.

**Mannanın şəhərləri və şəhər həyatı.** Mənbələr Manna dövlətinin müxtəlif yaşayış yerləri haqqında məlumat verir. Bu yaşayış yerlərini iki qrupa bölmək olar: möhkəmləndirilmiş şəhər-qalalar və onların ətrafında yerləşən məskənlər.

Sinfi təbəqələşmə, maddi sərvətlər toplanması və bununla əlaqədar tez-tez baş verən düşmən basqınları əhalini öz təhlükəsizliyini qorumaq üçün yollar və vasitələr axtarmağa məcbur edirdi. E.ə. II minilliyin sonuna məxsus abidələr göstərir ki, mannalılar öz məskənlərini düşmənin əli çatmayan, eyni zamanda asan müdafiə edilən təbii yüksəkliklərdə və strateji cəhətdən əlverişli olan yerlərdə salmağa başlayırlar. E.ə. I minilliyin əvvəlinə yaxın bu məskənlər tədricən qalın divarlar arasına alınır və əsil qalalara çevrilir.

Lakin şəhər-qalaların heç də hamısı yaşayış məntəqələri deyildi. Onların bəzisi yalnız mühüm strateji mövqelərdə qərar tutan və daha vacib yaşayış mərkəzlərinin yollarını qoruyan müdafiə qurğuları imiş. Düşməndən müdafiə üçün bu qala-şəhərlərdə müəyyən qədər qoşun saxlanılırdı. Habelə mühasirə təhlükəsi yarandıqda mal-qara buraya sürülür, yaxın kəndlərin sakinləri burada daldalanırdılar. Həmin qalalar təpənin başında divarla dövrələnmiş kiçik bir sahədə yerləşirdi. Görünür, Zibda (Uzbia, İzzibiya) da qədimdə bu cür qalalardan idi. Onun xarabaları hündürlüyü 90 metr olan təpədədir. Təpənin yuxarı hissəsində çox məhdud bir sahəni tutan, ətrafına çiy kərpicdən hasar çəkilmiş tikililərin qalıqları vardır.

Belə qalalardan biri də Zibia ilə birlikdə Armait (Urmeyate) idi. Aşşur mənbələrinə görə, Mannanın paytaxtı İzirtu bu qalaların bilavasitə yaxınlığındaymış. Onların adları həmişə birgə çəkilirdi və aşşurlular İzirtuya Zibia və Armait qalaları dağıdıldıqdan sonra yaxınlaşırdılar.

Həsənli yaxınlığındakı Əqrəbtəpədə də qazıntı zamanı eynilə bu tipdən olan kiçik bir qala aşkar edilmişdir. Bu qalanın da ətrafına qabarıq bürcləri olan hasar çəkilmişdi. Qala iki dəfə yandırılmış, lakin dağıdıldıqdan sonra ilkin plan əsasında bərpa edilmişdir. Ola bilsin, Əqrəbtəpədə qurulmuş bu istehkam Həsənli təpəsində yerləşmiş şəhərin giriş yollarında bir maneə imiş.

Düşmənin yaxınlaşdığını xəbər verən xüsusi bürclər də müdafiə məqsədlərinə xidmət edirdi. Əldə olan məlumata görə, Mannanın Sanqibutu vilayətində belə bürclər varmış: "Dağ zirvələrində bürclər ucaldılmışdı, tonqal yandırılıb-yandırılmadığına



downloaded from KitabYurdu.az

gecə-gündüz göz qoyur və uzaqda olan çoxsaylı düşmən yaxınlaşdıqda xəbər verirdilər".

Şəhər-qalalar çox böyük bir ərazini əhatə edən və ən əlverişli mövqe tutan məskənlər idi. Bunlar daha ciddi möhkəmləndirilirdi, içqalaları, sarayları, məbədləri və digər memarlıq qurğuları vardı. Şəhər-qalaların bəzisi "çar şəhəri" adlanırdı və çarın, əyanların, vilayət rəislərinin yaşayış yeri idi. Bu şəhərlər mədəniyyət, din və sənət mərkəzləri idi. Kiçik qalalar və onların ətrafından yalnız mal-qara zəbt edilirdisə, iri şəhərlərdən mal-qara sürülür, anbarlardan taxıl, ehtiyatda olan gümüş, mis, qızıl, sənətkar əməyinin məhsulları aparılırdı.

Aşşur relyeflərindəki təsvirlər bu cür qalaların zahiri görkəmini təsəvvürdə canlandırmağa kömək edir. Mannanın Uşkaya qalasını II Sarqon belə təsvir edir: "Mən güclü silahımın hünərinə bu qalaya qalxdım, onun bol əmlakını qarət edib düşərgəmə daşıtdırdım. Bünövrəsi səkkiz qulac qalınlığında olmuş və qayaya dirənən möhkəm qala divarını, onun diş-diş olan üst hissəsindən ta hündür özülünədək birnəfəsə söküb yerlə yeksan etdim. Qalanın içində olan evlərə od vurdum, onların uzun tirlərini yandırdım".

Ən mühüm qalaların müdafiəsini möhkəmləndirmək üçün onların ətrafında dövrələmə xəndəklər qazır, torpaq bəndlər qururdular. Tarui və Tarmakisa belə qalalardan idi.

Həsənli təpəsini əhatə edən divarın salamat qalmış özülünün qalınlığı 3 m 20 sm, yəni təqribən 8 qulacdır ki, bu da II Sarqonun kitabəsində deyilənə uyğun gəlir. Divarların özülü iri daş tavalardan hörülmüşdür. Divarın tamamilə salamat qalmış özülünün hündürlüyü 2 m 60 sm-ə yaxındır. Qala divarının qalan hissəsi isə kvadratşəkilli çiy kərpicdən tikilmişdir. Güman edilir ki, divarların hündürlüyü 10 metrə yaxın ola bilərdi. Qalanın bütün çevrəsi boyunca bir-birindən 30-35 metr aralı, hərəsi 10 kv.m olan on bir ədəd kvadratşəkilli, qabarıq bürc tikilmişdi. Bürclər arasındakı divar 3x0,5 metr ölçülü iki kontrforsla möhkəmləndirilmişdi. Qalanın mərkəzində onun qalan hissəsindən hündür olan içqala vardı. Binaların arasından yerinə iri-iri tavalar döşənmiş küçə keçirdi. Binalar iki və ya üç mərtəbəli idi. Yuxarı mərtəbələrə pilləkən vardı. Binaların kərpic divarları daş bünövrənin üstündə hörülürdü. Yaşayış binalarının dəhlizi, ona bitişik kiçik yan otaqları, daş özüllər üzərində duran, diametri yarım metr olan ağac sütunlar vardı. Divarların qalığına görə güman edirlər ki, sütunların hündürlüyü 6 metrdən çox imiş. Zalın divarları boyunca gillə suvanmış çiy kərpicdən kürsülər, zalın ortasında isə ocaq vardı. Saray kompleksinin ayrı-ayrı otaqlarında divarlara şirələnmiş kərpicdən üz çəkilmişdi. Yerə daş tavalar döşənmişdi. Qapılar taxta dabanlıqlara söykənən mehvər ətrafında fırlanırdı. Biz II Sarqonun məlumatından bilirik ki, çar saraylarının üstü sərv ağacından yonulmuş tirlərlə örtülür və bunların xoş ətri otaqları bürüyürdü.



downloaded from KitabYurdu.az

Mannaya qonşu olan Allabria vilayətinin III Salmanasann salnaməsində verilmiş təsviri binalar haqqında müəyyən təsəvvür yaradır: "Mən allabrialı Yanzi-Buriaşın möhkəmləndirilmiş Şurdira şəhərini, qızıl qapısını, saray kənizlərini, xeyli mülkiyyətini ələ keçirdim". Buna müvafiq olaraq biz Manna şəhər-qalalarında "saray məşuqələri" üçün ayrıca zəngin bərbəzəkli otaqlar olduğunu təsəvvürümüzə gətirə bilərik, xüsusilə də ona görə ki, Həsənli qalasının sütunlu zala bitişik otaqlarının birindən eyni vaxtda tələf olmuş üzüklü, bilərzikli, dekorativ sancaqlı 44 qadının skeleti tapılmışdır.

Aşkar edilmiş çoxlu silahdan məlum olur ki, çar əhatəsinin hərbi nümayəndələri üçün sarayda xüsusi otaqlar varmış.

Allahlara ibadət etmək üçün məbədlər tikilirdi.

Təsərrüfat ehtiyacları üçün əsas binalara bitişik çoxlu yardımçı otaq tikilirdi; bunların bir qismindən taxıl və şərab saxlanan böyük qablar tapılmışdır.

Şəhər-qalada əhalini sənətkarlıq məmulatı ilə təmin edən ustalar da yaşayırdı.

Qalanın ətrafında kiçik məskənlər yerləşirdi. Bunların sakinləri əkinçilik və heyvandarlıqla məşğul olur, şəhər-qalanı ərzaqla təchiz edirdilər. Bəzən bir şəhərin ətrafında xeyli məskən olurdu.

Adətən mixi yazılarda düşmən şəhərləri üzərində qələbənin təsviri verilərkən yaxşı möhkəmləndirilmiş şəhər-qalanın və onun ətrafında olan kiçik məskənlərin tutulması haqqında trafaret bir cümlədən istifadə olunur. Bir çox məskənlərin əhalisi düşmənin hücumu zamanı yaxınlıqdakı qalada daldalanır, öz əmlakını buraya daşıyır, mal-qarasını sürüb gətirirdi. Qala mühasirəyə alınanda onun müdafiəsində qoşunlardan başqa, burada daldalanan əhali də iştirak edirdi. Kiçik məskənlər talan edilir və yandırılırdı, möhkəmləndirilmiş şəhər-qalaları isə işğal etmək heç də həmişə mümkün olmurdu, buna görə də onların bəzisi bir neçə dəfə mühasirəyə alınırdı. Lakin inşaat texnikası o qədər yüksək idi ki, dağıdılmış qalalar tez bərpa olunur, orada həyat davam edir, müdafiə qaydaya salınırdı. Həsənli qalası bir neçə dəfə dağıdılmış və hər dəfə təxminən öz ilkin planı əsasında bərpa edilmişdi. Qala son dəfə, görünür, qəfil hücum nəticəsində dağıdılmışdı. Şiddətli yanğın tikililəri bürümüş, çoxlu adam yanıb həlak olmuşdu. Onların əmlakı yanan və uçulan binaların xarabalıqları altında qalmışdı. Çox ehtimal ki, daha qalanı bərpa etmək mümkün olmamış və yeni sakinlər buraya təqribən yüz ildən sonra gəlmişdilər.

Həsənli təpəsində qazıntı zamanı aşkara çıxarılmış şəhərin Manna ərazisində mövcud olması cəmiyyətin yüksək sosial-iqtisadi, siyasi və mədəni inkişaf səviyyəsinə sübutdur.

**Mannanın dövlət quruluşu.** E.ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan tayfalarının xeyli hissəsi ilkin quldarhq cəmiyyəti şəraitində yaşayırdı.

İlk vaxtlar, hər halda e.ə. IX əsrin sonuna kimi Manna Zamua vilayətinin digər "ölkələrindən" az fərqlənirdi. Lakin birləşmə prosesi nəticəsində Manna tezliklə çox



downloaded from KitabYurdu.az

iri siyasi quruma çevrildi. Əhalisi oturaq həyat sürürdü. Eyni "çar şəhəri" İzirtu (Zirta) uzun müddət Manna çarlığının paytaxtı olaraq qalırdı. Bu, giriş yolları Zibia və Armait qalaları ilə qorunan xeyli dərəcədə möhkəmləndirilmiş bir şəhər idi. Ölkədə "çar şəhəri" adlanan başqa şəhərlər də vardı.

Manna yüksək dərəcədə inkişaf etmiş struktura malik olan əmlak təbəqələşməsinin və sosial təbəqələşmənin geniş miqyas aldığı bir cəmiyyət olsa da, hər halda ilkin sinfi cəmiyyət idi. Qaynaqlarda "ölkənin adamları" adlandırılan geniş xalq kütlələri ölkənin siyasi həyatında fəal rol oynayırdılar. Manna çarı Ahşerinin hakimiyyəti istibdad forması almağa başlayanda, məhz, "ölkənin adamları" ona qarşı çıxdılar.

Ölkədə çar hakimiyyəti ibtidai icma quruluşunun qalıqları olan müxtəlif orqanlar tərəfindən məhdudlaşdırılsa da, çox güclü idi. Gilzan çarı Asu (Sua) III Salmanasarın pişvazına "öz qardaşları və oğulları ilə" çıxdığı halda, Manna çarı Ullusunu II Sarqonun pişvazına "öz ölkəsindən onun ölkəsini idarə edən ulu ağsaqqallar, müşavirlər, oğul-uşaqları, canişinlər və başçılarla birgə çıxmışdı".

Deməli, güman etmək olar ki, Manna çarı ölkəni tam hakimi - mütləq kimi idarə etmirdi. Sarqonun mətnində sadalanan əyanlardan, canişinlərdən və başqalarından ibarət ağsaqqallar şurası onun hakimiyyətini məhdudlaşdırırdı. Lakin mənbələrdən bəlli olur ki, çarlar müstəqil hökmranlığa can atırdılar, bunun nəticəsində çar siyasətinin tərəfdarları ilə əleyhdarları arasında daimi mübarizə gedirdi.

Mannada nəsli əyanlar, habelə hərbi və xidmətçi əyanlar təbəqəsi güclü idi.

Qeyri-məhdud hakimiyyətə can atmaq bəzən faciə ilə nəticələnirdi. Çar Ahşerinin öldürülməsi buna misal ola bilər.

Hərçənd Mannada çar hakimiyyəti qəbilə-tayfa başçısının hökmranlığından törəmişdi, lakin artıq e.ə. VIII əsrdə o, irsi idi. İranzudan sonra hakimiyyət onun oğullarının - ölkəni ardıcıl idarə edən Azanın və Ullusunun əlinə keçir. Ahşeridən sonra Mannanı onun oğlu Ualli idarə edirdi.

Maraqlıdır ki, II Sarqonun "Relyasiya"sında deyilir ki, Sarqonun pişvazına çıxanda Ullusunu nəinki öz təhlükəsizliyini qorumaq üçün girov almamışdı, hətta əksinə "böyük oğlunu ehtiram əlaməti olaraq bəxşiş və sovqatla" Aşşur çarının "hüzuruna göndərib onun himayəsinə vermişdi".

Manna çarlığı "mahallara" bölünürdü, onları çar "canişinləri" idarə edirdilər. Tayfaların, yaxud qəbilə və ərazi icmasının başçıları olan "məskən hakimləri" Mannanın inzibati həyatında xarakterik sima idilər. Mannada müəyyən dərəcədə etnik konsolidasiya əlamətləri meydana gəlir ki, bu da öz ifadəsini etnik mənlik şüurunun yaranmasında tapır. Belə ki, mənbələrin şəhadətinə görə Manna çarı Urartu çarının işğal etdiyi torpaqların sadəcə geri alınmasına deyil, həm də "...pərən-pərən düşmüş mannalıların öz yerlərinə qaytarılmasına" çalışır.



downloaded from KitabYurdu.az

Beləliklə, e.ə. I minilliyin ikinci rübünə yaxın Manna sabit dövlət qurumu idi və sonralar uzun bir zaman boyunca çox geniş bir ərazini birləşdirib Yaxın Şərqdə iri dövlətlərdən biri oldu.

**Manna çarlığının qüvvətlənməsi və genişlənməsi.** E.ə. VIII əsrin 40-cı illərində Aşşur dövlətinin qüvvətlənməsi beynəlxalq vəziyyəti xeyli dəyişdi.

E.ə. 744-cü ildə III Tiqlatpalasar Urartu çarı Sarduri ilə baş verəcək toqquşmada cinahını möhkəmləndirmək üçün şimal-şərqə yürüşə başlayır, çünki cəngavər Mada hakimləri əlverişli vaxtda urartuluların təbii müttəfiqi ola bilərdilər.

Aşşur çarının əsil Mada vilayətlərinə soxula bilmədiyinə baxmayaraq, yürüş ümumiyyətlə uğurlu oldu. III Tiqlatpalasar şərqdə iki yeni əyalət - Parsua və Bit-Xamban vilayətlərini yaradır.

743-cü ildə Aşşur çarı Urartu çarını birinci güclü məğlubiyyətə uğradır. Sardurinin qüvvələrini tamam əzmək mümkün olmadı. Buna görə də 739-cü ildə Tiqlatpalasar daha qəti tədbirlərə başlayır. III Tiqlatpalasar ömrünün son on ilində əsasən öz qorxulu düşmənini-Urartulu Sardurini qəti darmadağın etməklə məşğul idi. Uzun sürən bu inadlı mübarizə, nəhayət, 735-ci ildə Aşşurun xeyrinə qurtardı. Sarduri məğlub edildi. III Tiqlatpalasar məqsədinə çatdı. Bunun ardınca o, qərbə üz tutdu və bir sıra uğurlu müharibələrdən sonra "bütün Qərbin süzereni" oldu, "dənizə gedən yol onun üzünə açıldı". Cənubda Babilistan ələ keçirildi. Beləliklə, Aşşur Ön Asiyanın şərqində yenidən birinci oldu.

Manna beynəlxalq vəziyyətin dəyişməsindən istifadə etdi. III Tiqlatpalasarın öz Şərq yürüşlərində Manna ərazisinə girməməsi həm aşşurluların Manna ilə dostluq münasibətlərinə, həm də, görünür, Manna çarlığının gücünə sübut ola bilər.

İki qüdrətli rəqib arasında gedən mübarizə mannalıların əl-qolunu açdı və onlar ayrı-ayrı vilayətləri bir-bir öz torpaqlarına qataraq Manna çarlığını xeyli gücləndirdilər. Şübhəsiz, Sardurinin darmadağın edilməsi bütün Cənubi Azərbaycan ərazisini Mannanın tabeçilyinə keçirdi. Bunu ondan görmək olar ki, sonralar II Sarqon dövründə, Mannadan ayrılmış Zikertu, Uişdiş, Messi və digər vilayətlər bir vaxtlar Manna çar xanədanına tabe idilər və qədim mətndə deyildiyinə görə, "Manna çarının canişinləri" sayılırdılar.

Mannanın güclənməsi, görünür, VIII əsrin 20-ci illərinin axırlarınadək davam etmişdi. Bu vaxtdan Urartunun köməyi sayəsində Mannanın "böyük canişinləri" ondan qopub ayrılmağa başlamışdılar.

Mannanın gücləndiyi və genişləndiyi dövrdə yarımmüstəqil ucqar hakimlərin torpaqları ona tabe idi. Mənbələr Marağa-Səhənd rayonunda yerləşən Uişdiş (urartulularda - Uqişti) vilayətinin, cəngavər bir tayfa yaşayan, cənub-qərbdə Parsua ilə qonşu, şimal-şərqdə Gizilbunda ilə həmsərhəd olan çox geniş Messi (Mesu, Missi) vilayətinin adını çəkir. Messi Mannaya çar Ullusunu zamanında birləşdirilmişdi. Mannalılar onun sərhədində Sirdakka (Zirdiakka) qalasını tikmişdilər.



downloaded from KitabYurdu.az

Andia Mannadan ən uzaqda olan vilayət idi. O, Səfid-Rud çar vadisinin aşağı və orta hissəsində yerləşir, "qürubda olan Böyük dənizə" (Kaspi dənizi nəzərdə tutulurdu) qədər uzanırdı. Mannalılar Andianı Manna çarlığının qüdrətli vaxtında istila etmişdilər. Doğrudur, vilayətin hökmdarları ayrılmağa can atır və Mannanın düşmənləri ilə ittifaqlar bağlayırdılar.

Göstərilən vilayətlərdən əlavə, Urmiya hövzəsinin şimal-şərq hissələrində, Manna və Urartunun şimal sərhədlərinin qovşağında Subi və Bari vilayətləri də vardı, bunlara Sanqibuti də deyilirdi. II Sarqon Bari vilayətində iki möhkəmləndirilmiş qalanın - at tövlələri və arpa ilə dolu anbarları olan Tarui və Tarmakisa qalalarının adını çəkir.

Asılı vilayətlər də daxil olmaqla Manna Urmiya gölünün bütün cənub hövzəsini, Urmiya ilə Araz arasındakı suayırıcınadək gölün şərq sahilini, habelə Qızılüzən çayı hövzəsinin xeyli hissəsini və ondan cənubda yerləşən rayonları əhatə edirdi. Güman etmək olar ki, Manna ərazisi gələcək Mada Atropatenası – At$^{a}$/$_{u}$rpatakana, yəni Cənubi Azərbaycana təxminən uyğun gəlirdi.

Çox ehtimal ki, Mannanın ən böyük tərəqqisi çar İranzunun sələflərinin hökmranlığı dövrünə və onun hökmranlığının başlanğıcına təsadüf edir. İranzunun sələflərinin adları bizə məlum deyil.

İranzu zamanında Mannanın Qədim Şərqdə güclü dövlətlərdən birinə çevrilməsi yarımmüstəqil ucqar çarlıqları narahat etməyə və Urartu dövlətini təşvişə salmaya bilməzdi. Mannanın öhdəsindən gələ bilməyən Urartu onun hakimiyyəti altında olan vilayətləri ona qarşı qaldırmağa cəhd edir. İranzunun hökmranlığının axır vaxtlarında onun mövqeləri zəifləyir.

E.ə. VIII əsrin 20-ci illərinə yaxın Mannanın vəziyyəti artıq ağır idi. Mannadan ayrılmış Zikertu, Uişdiş, Misi, Andia hökmdarları, habelə Aşşur dövləti ərazisinə hücum etməyə cürət edən Urartu çarı I Rusa tərəfindən sıxışdırılan Manna çarı İranzunun bircə çarəsi qalırdı: Neynəva hökmdarlarının ali hakimiyyətini tanımaq və beləliklə, vəziyyəti az da olsa düzəltmək.

İranzunun açıq-aşkar II Sarqonun tərəfinə keçməsi I Rusanın və Zikertu "çarı" Metattinin ona qarşı düşmənçiliyini daha da şiddətləndirdi. Metatti Aşşur əleyhinə koalisiyanın ən fəal başçılarından biri idi. Müttəfiqlərin ikisi də İranzunu sıxışdırmağa başladı. 719-cu ildə İranzunun öz şəhərləri - Şuandaxul və Durdukka onun əleyhinə üsyan qaldırdılar. Metatti onlara hərbi yardım göstərdi. Sukka, Bala, Abitikna şəhərləri də ayrılıb düşmənlərin tərəfinə keçdilər.

Manna çarı İranzu aşşurluların köməyini axtarmağa məcbur oldu. Urmiyaboyu rayonda Aşşurun mövqeləri elə bir təhlükə qarşısında qalmışdı ki, II Sarqon dərhal əks-tədbir görmək qərarına gəldi, xüsusilə də ona görə ki, cənubda Elam vilayətlərində və ondan şərqdə də qüdrətli Aşşur dövlətinin siyasətindən narazılıq



downloaded from KitabYurdu.az

artırdı və bu torpaqlar hər an Neynəva hökmdarının düşmənlərinin cəbhəsində mühüm yer tuta bilərdi.

II Sarqon, çox ehtimal ki, öz təşəbbüsünün verə biləcəyi nəticələrdən ehtiyat edərək, yuxarıda adları çəkilən, Mannadan üz döndərib Rusanın və Metattinin tərəfinə keçən şəhərlərə qarşı hələlik cəza ekspedisiyası ilə kifayətlənməyi qərara aldı. Aşşur çarının bu yürüşü 719-cu ildə baş verdi. Qiyamçı şəhərlər dağıdıldı və əhalinin bir hissəsi Aşşur dövlətinin qərb torpaqlarına köçürüldü.

Sarqon gedəndən sonra Urmiyaboyu zonada böyük dəyişiklər baş verdi və bunlar Aşşurun mənafeyinə ciddi xələl gətirdi. Aşşur dövlətinin sadiq və dəyanətli müttəfiqi olan çar İranzu (719-cu və 716-cı illər arasında) vəfat etdi.

Kimmerlilərin zərbəsindən toxtayıb özünə gəlmiş I Rusa Urmiyaboyu zonada Aşşura qarşı yenidən fəaliyyətə başlayır.

Manna taxt-tacına sahib olan Aza da, atası İranzu kimi, Aşşur dövlətinə arxalanmağa çalışırdı ki, bu da, əlbəttə, 1 Rusanı və onun müttəfiqi Metattini Azaya düşmən etməyə bilməzdi. Vəziyyət həm də ona görə pisləşdi ki, Manna "canişini" uişdişli Baqdatti də düşmənlərin tərəfinə keçdi. Aza qısa müddət hökmranlıq edəndən sonra "əlçatmaz Uauş dağına" çəkilib müdafiə mövqeyi tutmağa məcbur oldu. Lakin o, düşmənlərinə üstün gələ bilmədi və öldürüldü. Manna taxt-tacına Azanın qardaşı Ullusunu yiyələndi: o, Aşşurun düşmənləri tərəfinə keçdi. Allabria çarı İtti və karallalı Aşşurle də bu cəbhəyə qoşuldular.

Aşşurun mənafeyi üçün çox təhlükəli olan belə gərgin bir anda e.ə. 716-cı ildə II Sarqon Urmiyaboyu rayona, xüsusən Mannahlar ölkəsinə yürüş edir. Aşşur çarının salnaməsində bu yürüşlə əlaqədar olaraq deyilir: "Əllərimi qaldırıb tanrım Aşşura yalvardım ki; Mannalılar ölkəsinin qisasını alsın və onu Aşşur (dövləti) hüdudları içərisinə qaytarsın, Uauş dağında, o yerdə ki, onlar Azanın meyitini tullamışdılar, mən Baqdattinin dərisini soydum və mannalılara göstərdim".

II Sarqon daha sonra yazır: "Hiddətimdən... əkinlərə daraşan çəyirtkələr kimi bu ölkələrin üstünü aldım. Mannalılar ölkəsində onun (yəni Ullusunun) çar şəhəri İzirtunu quzğun kimi çaldım və onlara əməlli-başlı divan tutdum. İzirtunu yandırdım, sonra Zibia və Armaid şəhərlərini tutdum. Ullusunu və onun bütün ölkəsi bir nəfər kimi yığışıb ayaqlarıma döşəndilər: mən onları əfv etdim. Ullusununun günahlarından keçdim və onu atasının çar taxtında əyləşdirdim".

Allabrialı İtti köç-külfəti ilə Aşşur torpaqlarına sürgün olundu, karallalı Aşurlenin isə dərisi soyuldu. Karalla Aşşurun Zamua (Lullume) əyalətinə birləşdirildi. Mannanın iki rayonu Aşşurun başqa bir vilayətinə - Parsuaya qatıldı.

Sonra II Sarqon bir neçə vilayəti və qalanı, o cümlədən mühüm qala sayılan Kişessunu işğal etdi. Xarxar da tutuldu və sakinləri əsir edilib aparıldı. İşğal edilmiş vilayətlərdə II Sarqon daha iki əyalət - Xarxar və Kişessu əyalətlərini yaratdı.



downloaded from KitabYurdu.az

Urartu çarı I Rusanın və Manna "canişini" Dayaukkunun çar Ullusunuya qarşı təcavüzə başlayıb, onun 22 qalasını işğal etməsi II Sarqonun Urmiyaboyu rayona növbəti yürüşünə (715-ci ildə) səbəb oldu. Bu münasibətlə Aşşur çarının salnaməsində deyilir: "Mənim hökmranlığımın yeddinci ilində urartulu Rusa mannalı Ullusunuya xəyanət etmək fikrinə düşdü və onun 22 qalasını əsir etdi. O, Manna canişini Dayaukkuya Ullusunu haqqında yalan danışıb şübhə oyatdı və onun oğlunu girov götürdü".

II Sarqon öz düşmənlərinə zərbələr endirib Mannaya məxsus qalaları Rusanın əlindən alıb, Dayaukkunu ailəsi ilə birlikdə əsir tutub Suriyaya, Hamata göndərdi. Sonra Aşşur çarı şərq vilayətlərinin içərilərinə doğru irəliləyib Andiaya yiyələndi. Andia hökmdarı Telusina Aşşur əleyhinə koalisiyanın nümayəndələri ilə ittifaqda idi. Andiadan 4200 əsir və çoxlu mal-qara aparıldı.

Aşşur əleyhinə koalisiyanın darmadağın edilməsi Manna üçün müsbət nəticələr verdi. II Sarqonun "Təntənəli kitabə" adlanan kitabəsində məlumat verilir ki, "mannalı Ullusunu mənim gördüyüm işlərdən əlçatmaz dağlarda xəbər tutunca quş kimi uçub yanıma gəldi və ayağıma döşəndi. Mən onun sayagəlməz günahlarından keçdim, cinayətlərini unutdum, mərhəmət göstərib onu çar taxtına əyləşdirdim. Ursanın (Rusanın) və Metattinin əlindən aldığım 22 qalanı və 2 möhkəmləndirilmiş şəhəri ona verdim və onun zülm görən ölkəsini bərpa etdim. Öz çar surətimi həkk edib üstündə mənim hakimim Aşşurun qələbələri haqqında yazı yazdım və gələcək zamanlar üçün onun çar şəhəri İzirtuda dikəltdim".

Aşşur mənbələrində dəfələrlə məlumat verildiyi kimi, Manna çarı Ullusunu sonralar da Aşşurun müttəfiqi olaraq qalırdı.

Aşşur silahının qələbələrinə baxmayaraq, Urmiyaboyu vilayətdə vəziyyət yenə də gərgin idi və öz dövrünə görə mükəmməl, geniş şaxələnmiş kəşfiyyatı olan aşşurlular bunu diqqətlə izləyirdilər. Nəhayət, hökmranlığının səkkizinci ili olan 714-cü ildə II Sarqon Urartu, Zikertu və Andiaya qarşı cəza ekspedisiyası kimi nəzərdə tutulan öz məşhur yürüşünə çıxdı. II Sarqon e.ə. 714-cü ilin təxminən iyun-iyul aylarında yürüşə başlayaraq tezliklə Zaqros-Kullar uca dağ silsiləsinə, "Zamua adlanan Lullume ölkəsinin uca dağına" çatır, "qoşununa baxış düzəldir" və "dağların içərilərinə, Zikertuya və Andiaya" yollanır. Lakin çar hələ bundan əvvəl Manna ərazisinə, "Karalla ilə Allabrianı birləşdirən" Surikaş vilayətinə girir. Manna çarı Ullusunu haqqında II Sarqon belə bir məlumat verir: "Hər il qisasını aldığıma görə mənim yürüşə çıxıb yaxınlaşdığımı eşitcək, o, öz ulu ağsaqqalları, müşavirləri, oğul-uşağı, ölkəsini idarə edən canişinləri və başçıları ilə birlikdə öz ölkəsindən və öz çar şəhəri İzirtudan yola düşüb hüzuruma gəldi, bac olaraq bütün ləvazimatı ilə birlikdə qoşqu atları, qaramal və davar gətirdi, ayaqlarımdan öpdü".



downloaded from KitabYurdu.az

Aşşur çarı sonra Allabriada və Parsuaşda (Parsuada) olmuşdu. "Namru, Sanqibutu, Bit-Abdadani ölkələrinin və madalılar ölkəsinin məskən rəisləri" itaət etdiklərini bildirmək üçün Parsuaşa gəlmiş, bac-xərac da gətirmişdilər.

II Sarqon Parsuaşdan Mannanın Misi vilayətinə keçir; çar belə məlumat verir: "Öz ölkəsinin adamları ilə birlikdə Ullusunu mənə sidqi-ürəkdən xidmət etməyə hazır vəziyyətdə özünün Sirdakka (və ya Zirdiakka, Durdukka) qalasında yolumu gözləyirdi. Mənim inanılmış Aşşur vilayət rəislərim kimi o da mənim qoşunumu yedizdirib-içirtmək üçün un və şərab anbarları düzəltmiş, böyük oğlunu ehtiram əlaməti olaraq bəxşiş və sovqatla hüzuruma göndərib mənim himayəmə vermiş, öz çarlığını möhkəmlətmək üçün stelasını mənə ithaf etmişdi. Mən onun bac olaraq verdiyi iri qoşqu atlarını, qaramalı və davarı qəbul etdim".

Ullusunu ilə danışıqlarında Sarqon Manna çarına söz vermişdi ki, Mannanın itirilmiş torpaqlarını alıb ona qaytarmaq məqsədilə Urartuya qarşı yürüşə başlayacaqdır. Sarqonun "Relyasiya"sında bu münasibətlə deyilir: "...o (Ullusunu) öz qisasının xatirinə qabağımda üzüqoylu düşdü yerə. İstəyirdi ki, qəddar düşmənləri olan kakmiyalıların ayağı onun ölkəsinə dəyməsin, çöl döyüşündə Urs (Rusa) məğlub edilsin, pərən-pərən düşmüş mannalılar öz yurdlarına qaytarılsın, o öz düşmənlərini qalibiyyətlə ayaqlayıb öz ürək arzusuna çatsın".

Danışıqlar zamanı Ullusununun və mannalıların şərəfinə ziyafət düzəldilmişdi. "Çar Ullusunuya... süfrə açdım, taxtını atası, valideyni İranzunun taxtından yüksəyə qaldırdım; onları aşşurlularla birlikdə şən süfrə başında əyləşdirdim və onlar mənim çarlığıma Aşşur qarşısında, öz ölkəsinin allahları qarşısında xeyir-dua verdilər".

Sarqon Mannada ikən Gizilbunda vilayətinin məskən rəislərindən bac alır; o rəislərdən ki, onlar "uzaq yerdə uzaq dağlarda yaşayır, Mannalılar ölkəsi və madalılar ölkəsi boyunca yolları kəsirlər, bu məskənlərdə yaşayan adamlar isə öz qüvvələrinə güvənir və başqalarının hakimiyyətini tanımırlar, - məndən əvvəl gəlib getmiş çarların heç biri onların yurdlarını görməmiş, adlarını eşitməmiş, onlardan vergi almamışdır, - dağlı knyazları itaətə gətirmək və onlardan bəxşişlər almaq ixtiyarını mənə əta edən mənim hakimim Aşşurun böyük kəlamına görə, mənim qoşunumun yürüşündən xəbər tutub qorxuya düşdülər, öz ölkələrində onları dəhşət bürüdü: bac vermək üçün qoşqu atları, sayagəlməz qaramal və davar topladılar və Mannanın Zirdiakka qalasına - mənim hüzuruma gətirdilər; yalvarıb, and-aman edirdilər ki, onları öldürməyim, divarlarını uçurtmayım; ayaqlarımı öpürdülər".

Sarqon Urartulu Rusa ilə müharibəyə başlayacağını vəd etdiyinə baxmayaraq, nədənsə Zikertu üzərinə gedir.

Sarqon yazır: "Mannanın Zirdiakka qalasından yola düşdüm... Mannalılar ölkəsinin, Bit-Kapsinin və qüdrətli Madalılar ölkəsinin arasında sürətlə irəlilədim və onun (Ullusununun) böyük qalası Panzişə gəldim; bu qala Zikkertudan və Andiadan qorunmaq üçün, bir də qaçanlar olmasın və düşmən ayaq basa bilməsin deyə bu iki



downloaded from KitabYurdu.az

vilayətin qarşısında ucaldılmışdı. Mən qalanın istehkamını gücləndirdim, əmr edib oraya arpa, yağ, şərab gətirtdim".

Sarqon sonra Zikertu ərazisinə soxulur. Dəhşətli təhlükə qarşısında Metatti öz paytaxtı Pardanı tərk edir. Sarqonun verdiyi məlumata görə, "Metatti öz sarayının əmlakını atıb kənara çıxdı. Atlarını və döyüşçülərini yığıb Ursanın (Rusanın) köməyinə göndərdi". Aşşur çarı talanlar edir, qalaları, məskənləri dağıdır. "Onların (yəni qalaların) divarlarını uçurtdum, qalalardakı evləri yandırdım, tufan kimi dağıdıb yerlə yeksan etdim" - deyə zəhmli hökmdar məlumat verir.

Rusa Metattinin köməyinə çatmağa tələsirdi. O, görünür qərbdən Sarqonun arxasına keçib yolunu kəsməyə çalışırdı. Sarqon düşmənin niyyətini duyub birdən-birə yolunu dəyişib qərbə burulur, urartuluların vaxtilə tutduqları Manna vilayəti Uişdişi ələ keçirir və burada Rusanın planları haqqında Allabria çarından məktub alır.

Sarqon həlledici döyüş ərəfəsindəki vəziyyəti xarakterizə edərək məlumat verir ki, Rusa "özünün və müttəfiqlərinin çoxsaylı qoşununu topladı, zikertulu Metattinin hayıfını almaq üçün döyüş qüvvələri yaratdı, təcrübəli döyüşçülərini... sıraya düzdü, yelqanadlı atlara mindirdi, əllərinə silah verdi. [Rusaya] çoxdan bəri kömək etmiş, ətrafda nə qədər dağlı çar var hamısını onun köməyinə çağırmış və özü yardım görmüş zikertulu Metatti qoşununun çox olmasına, köməyə güvənib onları ayrılmağa vadar etdi".

Düşmənlərin döyüşü Uauş (indiki Səhənd) dağında oldu, o "böyük dağda ki, başı buludlara çatır, dünya yaranandan ins-cins görməyib, yolçusu olmayıb, göylərində quşlar uçmayıb, qoynunda quşlar balalamayıb, yuva qurmayıb, o uca dağda ki, dikəlmiş xəncər tiyəsinə bənzəyir, dibsiz uçurumlar və uzaq dağ dərələri görünür; bərk istilərdə və şiddətli şaxtalarda bu dağ ölüm deməkdir, səhərlər və axşamlar şəfəqə bürünür, gündüzlər və gecələr aravermədən qar yağır, ətəyindən zirvəsinədək buz bağlamışdır; kim bu dağa qədəm basırsa, qasırğaya düşür, bədəni (soyuqdan) qarsalanır".

Aşşur çarı Uauş dağında öz düşmənlərini dəhşətli məğlubiyyətə uğratdı, darmadağın etdi. Sarqon məlumat verir: "Qoşunu əzdim, zikertulu Metattinin və qonşu çarların alayını pərən-pərən saldım. Qatı düşmənim Urartunun və müttəfiqlərinin qoşunlarını məğlubiyyətə uğratdım, Uauş dağında onları qaçmağa məcbur etdim. Mənim hakimim Aşşurun Urartu üzərində qələbəsini əbədi bərqərar etdim... Andianın və Zikertunun adamlarını ölüm girdabına saldım".

Zəhmli hökmdar belə bir məlumat verməyi də unutmur: "Qəddar düşməni Mannalılar ölkəsinə yaxın qoymadım, mannalıların hökmdarı Ullusunuya yaxşılıq etdim və onun əzabkeş camaatını işıqlı günə çıxartdım".

Sarqon bu parlaq qələbədən sonra Urmiya gölünün şərq sahili boyunca sürətlə şimala doğru irəliləməyə başladı. Düşmən nizamsız halda geri çəkilirdi. "Urartu ərazisinin girəcəyində... Urartu adamlarının "Mannalılar ölkəsi" adlandırdıqları...



downloaded from KitabYurdu.az

Subinin ucqarında yerləşən böyük Uşkayya qalası (görünür, müasir Uski nəzərdə tutulur, Təbrizdən qərbdə Səhənd dağının şimal yamacındadır - *məsul red.)"* döyüşsüz ələ keçirildi.

Mannanın bir az əvvəl urartulular tərəfindən işğal edilmiş Subi vilayəti haqqında "Relyasiya"da məlumat verilir ki, "bu vilayətdə yaşayan adamların... süvari qoşun üçün at təlimində misli yoxdur".

Uşkayya haqqında deyilir: "Mən (Sarqon - *məsul red.)* onun qayada 8 qulac qalınlığında bünövrə üzərində tikilmiş möhkəm divarını diş-diş olan üst hissəsindən ta hündür özülünədək birdəfəyə söküb yerlə yeksan etdim. Qalanın içindəki evləri alova bürüdüm, evlərin uzun tirlərinə od vurdum. Qalanın ətrafındakı 115 məskəni tonqal kimi yandırdım, tonqalların tüstüsü qasırğa şiddəti ilə göyün üzünü bürüdü. Qalanın ərazisini bir kökə saldım ki, elə bil tufan qopub onu məhv etmiş, yaşayış məskənlərini daş-torpaq altında qoymuşdu. Mən Aniaştanianı, onun (Urartu çarının - *məsul red.)* Sanqibutu sərhədində Uşkayya ilə Tarmakisa arasında tikilmiş ilxılar evini ətrafındakı 17 məskənlə birlikdə dağıdıb yerlə yeksan etdim, damların uzun tirlərinə od vurdum. Zəmilərin məhsulunu, küləşi yandırdım, dolu-dolu anbarları açdım və qoşunuma o ki var arpa yedirtdim. Onun otlaqlarına mənim mal-qaramı çəyirtgə sürüsü kimi buraxdım. Mal-qara onun ümid yeri olan ot-ələfi yeyib zəmilərini viran qoydu".

Bundan sonra Sarqon Bari "ölkəsinə" soxulur. Əvvəllər mannalılara məxsus olmuş bu ərazi, görünür, hələ Menua zamanında urartulular tərəfindən işğal edilmişdi.

Belə bir məlumat verilir ki, "Tarui və Tarmakisa dalaylar ölkəsində, onun (yəni Rusanın) zəngin arpa evinin (görünür, "dən anbarının") ətrafında tikilmiş güclü istehkamlardır - divarları möhkəmləndirilmiş, sədləri davamlı, xəndəkləri dərin idi, dövrəsinə hasar çəkilmişdi, orada çar alayının ehtiyat atları tövlələrə salınmışdı. Hər gün yemlənirdi; bu vilayətdə yaşayan adamlar mənim ətraf məskənlərdə törətdiyim əməlləri gördükdə canlarına titrətmə düşdü, məskənlərini atıb səhraya qaçdılar... Bu vilayətin hər yerini tor kimi bürüdüm, onların möhkəmləndirilmiş şəhərləri arasında müharibə qızışmasına imkan verdim. Onların möhkəm divarlarını (diş-diş olan yuxarı hissəsindən başlayıb) bünövrəsinədək dağıdıb yerlə yeksan etdim, onların içində olan evləri alova bürüdüm, uzun tirlərinə od vurdum. Onların bol məhsulunu alışdırdım, dolu-dolu anbarları açdım, qoşunuma o ki var arpa yedirtdim. Onların 30 ətraf məskənini tonqal kimi yandırdım, tonqalların tüstüsü ilə göyün üzünü tozanaq kimi örtdüm".

Çox keçmədən Ulxu şəhəri (görünür, Mərənddən şimaldadır) işğal edildi. Urartu çarının sarayı bu şəhərdə idi. "Relyasiya"da deyilir ki, orada çiçək açan bağlar, üzümlüklər, kanallar və i.a. vardı. Bütün bunlar qılıncdan keçirildi və yandırıldı.

Darmadağın edilib ruhdan düşmüş Rusanın ordusu qaçdı. Sarqon Qərbə tərəf hərəkət edərək Kətur aşırımı rayonunda Urartu ərazisinə soxuldu.



downloaded from KitabYurdu.az

Aşşurlular bütün Urartu ərazisindən qılınc və odla keçdilər. Sarqon öz ölkəsinə qayıdanda Urartunun dini mərkəzinə - Urmiya gölündən cənub-qərbdə indiki Rəvanduz rayonunda yerləşən Musasirə basqın etdi. Musasir işğal və qarət olundu, Urartu çarı I Rusa özünü öldürdü.

Mannanın ən təhlükəli düşmənlərinin darmadağın olunmasından istifadə edərək, Manna çarı urartulular tərəfindən tutulmuş torpaqlar üzərində öz suverenliyini bərpa etdi. Aşşur çarının özü bu işdə ona kömək göstərdi, "Ursadan və Metattidən alınan 22 qalanı və 2 möhkəmləndirilmiş şəhəri" Ullusunuya qaytardı, "Mannalılar ölkəsinin Uişdiş vilayətini" ona verdi. Görünür, urartuluların "Mannalılar ölkəsi adlandırdıqları" Subi vilayəti də qaytarılmışdı.

Lakin, çox ehtimal ki, mannalılar bununla kifayətlənməmiş və öz hakimiyyətlərini Urmiya gölündən şimaldakı rayonlarda urartuluların əvvəllər tutduqları başqa torpaqlara da yaydılar. Təsadüfi deyildir ki, "Mannalılar ölkəsinin adamları" Sarqonun "Relyasiya"sında onun Sanqibuti vilayətində qalaları tutması ilə əlaqədar olaraq xatırladılır; Sanqibuti vilayətindən sonra Urartunun öz ərazisi başlanırdı.

Sarqon Andianı, Zikertunu və Urartunu darmadağın edəndən sonra, Manna Cənubi Azərbaycan ərazisinin az qala hər yerində və ya böyük bir hissəsində hakimiyyəti yenidən ələ keçirir.

II Sarqon Mannanın itaətkarlığını dönə-dönə qeyd etsə də, mannalılara "öz yurdlarında arxayın yaşamaq" imkanı verdiyini bildirsə də, "Mannalılar ölkəsini sakitləşdirmişəm", "səpələnmiş mannalılar ölkəsini bir yerə toplamışam" desə də, Manna əslində Aşşurun tabeliyindən çıxır. Maraqlıdır ki, Ullusunu Aşşura 714-cü ildə iki dəfə bac verdiyi halda, 713-cü ildə ancaq bircə dəfə, necə deyərlər, "pay" verməklə kifayətlənmişdi. Həm də Sarqon Manna çarının müttəfiqliyini xüsusi qeyd edir, ona kətan və yun paltarlar, xəncər və üzüklər bağışlayır.

Manna o zamanın qüdrətli dövlətlərindən birinə çevrilir, tezliklə cürətlənib Aşşur torpaqlarına basqın etməkdən çəkinmir.

E.ə. VIII əsrin lap sonunda tarix meydanına yeni bir qüvvə - kimmerlər çıxır. Düşünmək olar ki, Asarxaddon zamanında kimmerlərin şəxsində mannalılar özlərinə müttəfiq qazanmışdılar. Kimmerlər Aşşur ilə Manna arasında gedən mübarizəyə fəal surətdə qarışır, bu mübarizədə Mannanın tərəfini saxlayırdılar.

E.ə. VIII əsrin sonunda - VII əsrin əvvəlində Mannanın həm aşşurlular, həm də urartulularla münasibətləri qatı düşmənçilik münasibətləri idi.

Artıq Sarqonun varisi Sinaxxerib (e.ə. 705-681) mannalıların, onun hakimiyyətinə itaətkarlıqla boyun əyməməsindən şikayətlənir və öyünür ki, boyun əyməyən mannalıları əsir aparıb kərpic daşımağa məcbur etmişdir. Keçmiş müttəfiqlərin sonradan bir-birinə düşmən kəsilməsi o zamanın sənədlərində dəfələrlə xatırladılır. Sənədlərin birində deyilir ki, zalipilərin bac olaraq Aşşura apardıqları



downloaded from KitabYurdu.az

atları mannalılar ələ keçirmişlər. Cənubi Azərbaycan vilayətlərinə Argiştinin (e.ə. 718-685) yürüşləri həmin dövrə aiddir. Çarın indiki Sərab rayonunda aşkara çıxarılmış iki kitabəsində haqqında danışılan bu yürüşlər Cənubi Azərbaycan vilayətlərinə urartuluların son yürüşləri idi.

Urartuluların bu rayonlarda neçə müddət qaldıqlarını söyləmək çətindir. Lakin güman etmək olar ki, çox qalmamışdılar, çünki Manna o dövrdə kimmerlər, skiflər və madalılarla ittifaq sayəsində kifayət qədər güclü idi. O dərəcədə güclü idi ki, çar Asarxaddon (e.ə. 680-668) kitabələrinin məlumatına görə, Aşşuru sıxışdırmağa və onun torpaqlarını əlindən almağa başlamışdı. Bu zaman Urmiyanın qərbində Mannanın hüdudları bəlkə də Xubuşkiyaya qədər uzanırdı. Aşşur hakiminin Şamaş allahının orakuluna sorğularından birində Assarxaddonun qasidinin Xubuşkiyaya səyahətindən bəhs olunur və onun mümkün düşmənləri sırasında "Mannalılar ölkəsinin sərhədində" sakin olan skiflərin də adı çəkilir.

**Mənəvi mədəniyyət və dini etiqadlar.** Qədim dövrün müxtəlif xalqlarının mənəvi mədəniyyətində dini etiqadlar və ayinlərin icrası xüsusi yer tutur. Əhalinin dini etiqadları ilə tanışlıq onun mədəniyyətini və incəsənətini, onun dünyagörüşünün inkişafını başa düşmək üçün zəruridir.

Yerli əhalinin dini baxışları haqqında yazılı mənbələrin məlumatı son dərəcə məhduddur, bu qaynaqlarda Urmiya gölü hövzəsinin qədim sakinlərinin sitayiş etdikləri allahların adı çəkilmir, məbədlərin adı göstərilmir. Əldə olan bir neçə məlumat belə güman etməyə əsas verir ki, mannalıların şəhərlərində ayrı-ayrı məbədlər varmış və bu məbədlərdə allahların heykəlləri qoyulubmuş. II Aşşurnasirapal Zamuada alınan qəniməti sadalayanda zamualı Amekanın paytaxtı Zamridə ələ keçirilən bütlərdən də xəbər verir. II Sarqon deyir ki, mannalılar çar Ullusunu ilə birlikdə Aşşura və öz allahlarına təşəkkür duası oxumuşlar: "Onlar mənim səltənətimə Aşşurun və yaşadıqları ölkənin allahlarının hüzurunda xeyir-dua vermişlər".

Arxeoloqlar Həsənlidə qazıntı zamanı aşkara çıxarılmış məskənin binalarından birini məbəd hesab edirlər; bu binanın ortasında kərpic meydança vardı, güman ki, gətirilən qurbanları burada yandırırlarmış. Divarlardan birinin dibində pilləkanlı səki aşkar edilmişdir; səkiyə üçayaqlı dəmir çıraq qoyulmuşdu.

Biz yerli əhalinin dini görüşləri haqqında maddi mədəniyyət abidələrindən daha çox məlumat ala bilərık. Dəfn adətləri, keramika və metal məmulatının, silindrik möhürlərin və digər əşyaların üzərindəki təsvirlər əhalinin mənəvi həyatının xüsusiyyətlərini əks etdirir.

Həsənlidən tapılmış qızıl camın yuxarı registrindəki təsvirlər allahlara sitayişi və qurbanlar verilməsini xüsusilə parlaq şəkildə nümayiş etdirir. Qatırlar və öküz qoşulmuş üç döyüş arabasını ətəyi uzun, qolu qısa olan saçaqlı paltar geymiş allahlar sürürlər. Onların saçları bellərinə çatır. Allahlara tərəf iki fiqur gəlir, ehtimal ki,



downloaded from KitabYurdu.az

kahinlərdir - biri qədəhdən şərab tökmək mərasimini icra edir, digəri ibadət edirmiş kimi əllərini qabağında tutmuşdur. İki xidmətçi onların ardınca qurbanlıq qoyunlar gətirir. Onlar da allahlar və kahinlər kimi geyinmişlər, lakin saçları çiyinlərinədək kəsilmişdir.

Bu təsvir kompleksi allahlara şərab (?) nəziri vermək mərasiminin icrasından, havaların məhsul üçün əlverişli olması naminə yalvarış və qurbanlar kəsilməsindən bəhs edən məhsuldarlıq mifləri ilə əlaqələndirilir. '

Camın üzərində təsvir edilmiş allahların baş geyimində qanadlara və buynuzlara bənzər şeylər vardır. Həsənlidə minalı divar üzərində buynuzlu allahın başının relyefli təsviri aşkar edilmişdir. Qanadların olması bu ərazidə geniş yayılmış hurri ənənəsi sayılır.

Qızıl camın üzərində təsvir edilmiş, öküz qoşulu döyüş arabasını sürən ilk allahı tufan, hərb allahı ilə eyniləşdirmək olar ki, onun da atributu öküzdür. Bu allah aşşurluların allahı Adada, urartuluların allahı Teyşebaya, hurrilərin allahı Teşşəba (Teşuba) uyğundur. Qatırlar qoşulmuş döyüş arabalarının sürücüləri Mesopotamiya allahları olan Günəş allahı Şamaş və Ay allahı Sin ilə tutuşdurulur. Mesopotamiya təsvirlərindən göründüyü kimi, bu allahlar tez-tez Adad allahı müşayiət edirlər. Bunlar üçü birlikdə təbiətin xeyirxah qüvvələrinin təcəssümü olan allahlar üçlüyünü təşkil edirlər. Adətən mifik rəvayətlərdə xeyirxah qüvvələr şər qüvvələrlə qarşılaşdırılır və şər qüvvələrlə daim mübarizə aparılır.

Urmiyaətrafı rayonda aşkara çıxarılmış qədəhlərdən birinin üzərində şər qüvvələrin təcəssümü olan ikibaşlı ilana qarşı təbiətin xeyirxah qüvvələrinin mübarizəsi təsvir edilmişdir. Bu motiv Həsənli camı üzərində də əks olunmuşdur; burada düşmən qüvvələr üçbaşlı əjdaha surətində çıxış edirlər.

Qədim əhali vəhşi və ev heyvanlarına fövqəltəbii qüvvələr kimi isnad edir, bəzilərini allahların rəmzi, müttəfiqi və ya əksinə, düşməni sayırdılar.

Mesopotamiya və Kiçik Asiya allahları ilə yaxınlıq, əlbəttə, Urmiya gölü hövzəsinin vilayətləri ilə həmsərhəd ərazilər arasında mövcud olmuş qonşuluq münasibətləri və əlaqələr sayəsində müınkün ola bilər. Lakin nəzərdən keçirilən ərazidə Aşşur və ya Urartu allahlarının tam eyni olan allah təsvirləri tapılmamışdır. Məlumdur ki, qədim xalqların demək olar ki, hamısında təbiət qüvvələrinə sitayiş geniş yayılmışdı, lakin bu qüvvələr hər dəfə yerli şəraitə və adətlərə müvafiq olaraq təsvir edilirdi.

Nəzərdən keçirilən ərazinin qədim əhalisinin etiqadlarında dirilik ağacına sitayiş böyük yer tuturdu. Bu, Həsənlinin, Marlikin, Ziviyənin qədim əhalisinin incəsənətində də öz əksini tapmışdır. Sənətkarların hazırladıqları bir çox metal və sümük əşyalarda, möhürlərdə dirilik ağacı və yanlarında ayaq üstə durmuş və yaxud diz çökmüş heyvanlar təsvir olunur. Həsənlidən tapılmış qab parçalarından birində, Marlikdən tapılmış möhürlərdə ağacın qabağında dayanan dağ keçisinin təsviri vardır.



downloaded from KitabYurdu.az

Marlikdə aşkara çıxarılmış qədəhin üzərindəki təsvirdə də dirilik ağacının yanında qanadlı öküzlər dayanmışdır. Ziviyədə aşkara çıxarılmış qızıl pektoralın yuxarı registrində stilləşdirilmiş dirilik ağacı, onun yanında qabaq ayaqlarını qaldırmış dağ keçiləri, aşağı registrdə qanadlı öküzlər təsvir edilmişdir.

Dirilik ağacına sitayiş Yaxın Şərqdə geniş yayılmış motivdir. Dirilik ağacı təbiətin ölməsi və dirilməsi ideyasını, qədim əhalinin əhyaya və axirətə inamını təcəssüm etdirirdi. Müvafiq dövrün dəfnləri də buna sübutdur. Ölünü sağlığında nədən istifadə eləmişdisə və o dünyada ömrünü davam etdirmək üçün nə lazımsa hamısı ilə təmin edirdilər. Qəbirlərə silah, bəzək şeyləri, içində yemək-içmək olan çoxlu qab-qacaq qoyulurdu; bəzən qazıntı zamanı bu yemək-içməyin qalıqları tapılır. Qəbirlərə hökmən qoyulan əşyalardan biri də, ehtimal ki, dini mərasimlərdə işlədilən və içərisinə müqəddəs su doldurulan uzunlülü qablar idi. Mərhumun baş tərəfində qurbanlıq heyvanlar yerləşdirilirdi.

Bu dövrdə əhalinin həyatında at xüsusi yer tuturdu. At, sözsüz, ilahiləşdirilirdi. Marlik, Kaluraz və Şahtaxtı nekropolundan tapılmış materiallar sübut edir ki, atlar ayrıca qəbirlərdə basdırılırdı.

Əfsanəvi xüsusiyyətlərə malik olduqları güman edilən atların təsvirlərinə sənətkarların qayırdıqları əşyalarda da rast gəlinir.

Materiallar göstərir ki, Urmiyaətrafı vilayətlərdə allahlar panteonu varmış, əhali allahlara sitayiş edirmiş, məbədlərdə ibadət olunur, qurbanlar kəsilir, dini ayinlər icra edilirmiş.



downloaded from KitabYurdu.az

IX FƏSİL

## KİMMER VƏ SKİF (ŞKUDA) TAYFALARININ AZƏRBAYCAN VƏ ÖN ASİYA ƏRAZİSİNƏ BASQINLARI. MİDİYA (MADA) VƏ SKİF ÇARLIQLARININ YARANMASI

**Kimmerlərin və skiflərin Cənubi Qafqaz vilayətlərinə soxulması.** E.ə. I minilliyin ilk əsrlərində Qafqaz bərzəxinin demək olar ki, hər yerinə səyyar atçı-atlı tayfalar yayılmışdı; onların təşəkkül tapmış məişət xüsusiyyətləri, yeni növ silahları, at ləvazimatı və yalnız özlərinə xas olan dəfn adətləri vardı. Arxeoloji materiallarla təsdiq edilən yazılı qaynaqlar bu tayfaları inamla skiflər (şkuda) hesab etməyə imkan verir. Cənuba yayılan kimmerlər də hələ skiflərdən əvvəl Qafqazın bəzi rayonlarında olmuşdular.

Kimmerlər e.ə. II minilliyin sonunda - I minilliyin əvvəlində Qara dənizin şimalsahili vilayətlərində yaşamış çoxsaylı tayfalardır. Şərq ədəbiyyatında kimmerlər haqqında ən qədim məlumatlardan biri, görünür, daha ilkin qaynağa əsaslanan Bibliyanın "Varlıq" kitabının X fəslində verilmişdir. "Xalqlar lövhəsi" adlanan bu qaynaqda həmin tayfalar *Gmr* (qamer) adlandırılır ki, bu da, güman edildiyinə görə, Aşşur mətnlərinin gi-mir-ra-i sözünə və antik yazıçıların *κιmmepιοι* sözünə uyğundur.

Bibliya müəlliflərinə görə, kimmerlər haradasa şimalda yaşamışlar. "Odisseya"nın müəllifi də onları uzaq şimalda "Mavi okean"ın hüdudları yaxınlığında yerləşdirir. Ola bilsin ki, "İliada"nın epizodlarından birində də kimmerlər nəzərdə tutulur.

Arxeoloji materiallar göstərir ki, məhz kimmer-skif yürüşlərinin qızğın dövründə Cənub-Şərqi Qafqazın ayrı-ayrı rayonlarında, məsələn, Mingəçevirdə kənardan yeni etnik ünsür gəldiyini sübut edən eyni qəbir abidələri və dəfn adətləri peyda olur.

Mingəçevirdə aşkara çıxarılmış üzük-möhürlərin üzərindəki təsvirlər də sübut edir ki, torpaq qəbirlərdə dəfn edilmiş fərdlər sak[2] - skiflərdir. Üzük-möhürlərdən birinin üzərində başında şiş papaq və əynində səciyyəvi sak geyimi olan sak-tiqraxauda təsvir edilmişdir.

Kişi qəbirlərinin hamısından skif tipli ox ucluqları deyilən onlarca ox ucluğu tapılmışdır. Qəbirlərdə tez-tez skiflərə məxsus tipik əyri bıçaqlara və bülöv daşlarına, habelə skif tipli qılınclara və nizə ucluqlarına rast gəlinir. Ucları ağzını açmış yırtıcı heyvanların başı şəklində olan bilərziklər və tunc güzgülər də tapılmışdır.

---

[2] Skiflərə qohum tayfa birləşmələridir.



downloaded from KitabYurdu.az

Hələ Strabon "sakların kimmerlər və trerlər kimi basqınlar etmələrindən" bəhs edərkən yazırdı ki, tutduqları vilayətə "onlar (yəni saklar - *məsul red.)* öz adlarına uyğun olaraq Sakasena adı qoymuşlar". Antik coğrafiyaçının məlumatı, şübhəsiz, kimmer-skiflərin böyük Ön Asiya yürüşləri dövrünə, Kür çayından cənubda, indiki Gəncə-Qazax rayonunun yerində olmuş vilayətə aid edilməlidir.

Sakesinlər Herodotun e.ə. VI əsrə aid məxəzində, görünür, ortokoribantlar adı ilə məlum imişlər; parikanlar (Manna çarlığının sakinləri - ?) ilə birlikdə onlar Mada satraplığının tərkibinə daxil imişlər və yəqin ki, Azərbaycan ərazisində yaşayırdılar. Lakin sakların adına e.ə. VII əsrin ortalarına aid mətndə təsadüf edilir; burada onların adı "Saklar ölkəsinin və Qutnumun çarı" adlandırılmış kimmer başçısı Tuqdammi ilə əlaqədar olaraq çəkilir. Adı Qutiumla (Manna ilə - ?) bir sırada çəkilən bu sakların yaşayış yeri ancaq Mannanın yaxınlığındakı vilayətlər sayılmalıdır.

Şübhə yoxdur ki, e.ə. VII əsrin sakları e.ə. VI-V əsrlərin ortokoribantlarının və e.ə. IV-I əsrlərin sakasenlərinin özüdür və qaynaqlara görə onlar daha məhdud bir ərazidə - Sakasenada (erməni müəlliflərinə görə Şakaşen) yaşamışlar. Kür çayı sahilində şimaldan Sakasenaya bir vilayət bitişik idi və adından - Kambisenadan göründüyü kimi, orada Şərqi İran tayfası olan kambuciyalıların bil hissəsi yaşayırdı. Ola bilsin ki, saklar və kambuciyalılar Cənubi Qafqaza eyni bir vaxtda gəlib çıxmışlar.

Deməli, hələ e.ə. VII əsrdə (bəlkə də VIII əsrdə) "skif" tayfalarından biri, Zakaspinin sak əhalisinin-sak-tiqraxaudaların (şişpapaq sakların) müəyyən qrupları, digər skif tayfaları ilə birlikdə Cənub-Şərqi Qafqaza və Canubi Azərbaycan vilayətlərinə soxulmuşlar. Onlar Qafqazın onomastikasında da iz qoymuşlar. Bu izlər ən əvvəl "Sakasena" (Şakaşen), "Şəki", "Kambisena" adları və digər adlardır.

**Kimmerlər və skiflər Ön Asiyada. Manna və kimmer-skiflər.** E. ə. VIII əsrin sonunda, Herodotun məlumatına görə, skiflər tərəfindən sıxışdırılan köçəri kimmerlərin sayagəlməz ordaları Ön Asiyaya soxulmuşlar. Kimmerlər hələ Cənubi Qafqaz torpaqlarında urartulularla toqquşaraq iki böyük axına bölünmüşlər. Birinci axın cənub-qərbə, Kappadokiyaya yönəlmiş, ikinci axın isə cənuba, Manna vilayətlərinə və Madanın şimal-qərb hissəsinə üz tutmuşdu.

Bu zaman Ön Asiya ölkələri iki düşmən cəbhədən: Aşşur dövlətindən və Aşşur qəsbkarlığına qarşı mübarizə aparan ölkələrdən ibarət idi.

Aşşurun düşmənləri ilə ittifaq bağlayan kimmerlər özləri işğalçılıq məqsədləri güdsələr də, obyektiv olaraq təcavüzkar dövlətlə mübarizə aparırdılar. Kimmerlərin talanlarına Kiçik Asiya ölkələri xüsusilə çox məruz qalırdılar. Doğrudur, madalılarla onların arasında başqa cür münasibətlər yaranmışdı. Aşşur qaynaqlarından məlumdur ki, kimmerlər Aşşura qarşı mübarizədə madalılarla əlbir idilər. Tezliklə mannalılar və qismən skiflər də bu koalisiyaya qoşuldular.



downloaded from KitabYurdu.az

Mannalılarla ittifaq bağlamış skiflər artıq e.ə. VII əsrin 70-ci illərində aşşurlularla fəal mübarizə aparırdılar. Bu hadisələr güclü üsyana çevrilən Mada hadisələri ilə bir vaxta düşdü. Üsyan nəticəsində aşşurlular Mada vilayətlərindən tamamilə qovuldular və burada Mada çarlığı meydana gəldi.

E.ə. VIII əsrin lap sonu, iki iri və köhnə rəqibin - Aşşur ilə Urartunun ağır mübarizə apardıqları dövr Manna çarlığının güclənmə dövrü idi. Uzun müddət mannalıları sıxışdıran Urartunun darmadağın edilməsi, şübhəsiz, Mannanın vəziyyətinə müsbət təsir göstərdi. Çox keçmədən Manna o qədər genişləndi və möhkəməndi ki, hətta Aşşur üçün təhlükəyə çevrildi.

Kimmerlərin adı Manna ilə əlaqədar olaraq e.ə. VIII əsrin son rübündə və e.ə. VII əsrin ilk onilliklərində çəkilmişdir.

Kimmerlərdən bir qədər sonra e.ə. VII əsrin 70-ci illərində Manna ərazisində skiflərin-iskuzai, askuzai olması sübut edilmişdir. Bəzi mətnlərdə skiflər Mannalılar ölkəsinin sakinləri adlandırılır. Müəyyən etmək çətindir ki, hansı skiflər nəzərdə tutulur: Manna çarının Aşşur ilə mübarizədə istifadə etdiyi muzdlu qoşunlarımı, yoxsa bu köçərilərin hansısa başqa qrupları? Bəlkə skiflərlə mannalılar arasında sadəcə müttəfiqlik münasibətləri olmuşdur. Məlumdur ki, e.ə. VII əsrin 70-ci illərində İşpaka başda olmaqla skiflər Manna ilə müttəfiq idilər.

E.ə. VII əsrin 80-ci illərində kimmer-skif orduları Aşşur dövlətinin sərhədlərinə gəlib çatdığı zaman onun vəziyyəti çox ağır idi. Sinaxxeribin (703-681) Mannaya yürüşü tam qələbə ilə nəticələnməmişdi. Aşşur hökmdarı əsirlər tutmaqla kifayətlənməli olmuşdu. Sinaxxeribin öldürülməsi, bunun ardınca daxili mübarizənin başlanması və kimmerlərin həmin hadisələrdən istifadə edib Aşşur vilayətlərinə soxulması nəticəsində vəziyyət daha da mürəkkəbləşmişdi.

Aşşur dövləti üçün çox çətin olan belə bir vaxtda mannalılar skiflərlə ittifaqda Neynəva hökmdarlarına məxsus torpaqları işğal edirdilər. Bu hadisələrdə, görünür, kimmerlər də müəyyən rol oynamışdılar. Artıq, kifayət qədər qüdrətli bir dövlət olan Mannanı bu zaman Belxabu idarə edirdi.

Mannalıların hücum əməliyyatlarının güclənməsi Asarxaddonun Mannaya qarşı yürüşə çıxmasına səbəb oldu. Asarxaddon məlumat verir ki, "Mannalılar ölkəsinin vilayətində" sakin olmuş skiflər Manna çarı Ahşeriyə kömək edirdilər. Neynəva hökmdarı müttəfiqlər üzərində qələbələri ilə öyünsə də bu əməliyyat, görünür, uğursuz olmuşdu. Asarxaddon orakuldan tez-tez xəbər alır ki, bac-xərac toplayanlar madalılar ölkəsinə gedəndə mannalılar onlara basqın edəcəklərmi? Mannalılar bəzi qalaları ələ keçirmişdilər və həmin qalaları aşşurlular ancaq bir çox illərdən sonra geri ala bildilər. Beləliklə, bu hadisələr nəticəsində, görünür, e.ə. 674-cü ilə yaxın Aşşur dövləti Mannanı bac-xərac verən bir ölkə kimi, müttəfiq kimi itirmiş oldu. Həmin itki Aşşur ordusunun atla təmin edilməsinə xüsusilə mənfi təsir



downloaded from KitabYurdu.az

göstərirdi ki, bu da Mada vilayətlərində soyğunçuluğun şiddətlənməsinə gətirib çıxartdı və madalıların hamılıqla çıxış etməsi üçün bəlkə də bir təkan oldu.

Lakin Mannanın çiçəklənməsi uzun sürmədi. E.ə. 660-cı ilə yaxın aşşurlular mannalıları ağır məğlubiyyətə uğratdılar. Mannanın bir çox qalaları və hətta çarlığın paytaxtı İzirtu da işğal edildi; bundan əvvəl çar Ahşeri paytaxtı tərk edib öz "ümid yeri olan şəhərə"-Atranuya qaçmışdı. Aşşurlular yol üstündə qarşılarına çıxan hər şeyi dağıdıb yandıraraq bol qənimət ələ keçirdilər. Bu müharibə Mannadakı onsuz da gərgin vəziyyəti daha da kəskinləşdirdi. Ölkədə üsyan qalxdı və o, Ahşerinin həlak olması ilə nəticələndi.

Atası Ahşerinin yerinə taxta əyləşən Ualli Aşşur tərəfinə keçdi və Neynəva hökmdarının vassalı oldu. O, Neynəva hökmdarının tələbi ilə aşşurlulara bac-xərac borcunu ödədi-aşşurlulara üstəlik 30 at verildi. Ualli öz oğlu Erisinini əmanət (girov), qızını isə kəniz kimi çara göndərdi. Bunun müqabilində Aşşurbanipal Mannaya öz sülh elçisini yollayır. Sonralar da Mannalılar Aşşura sadiq qalıb, aşşurlularla birlikdə madalılara qarşı çıxış edirdilər.

**Mada (Midiya) çarlığının yaranması.** Madalılar (midiyalılar) tarix səhnəsinə e.ə. I minilliyin əvvəlində çıxmışlar. Onların adları Aşşur salnaməsində ilk dəfə IX əsrin 30-cu illərində çəkilmişdir. III Salmanasar (860-825) onların ölkəsini Amädai adlandırır. Sonralar Matäi və Matäi formalarına rast gəlinir ki, bu da həm "madalılar", həm də "Mada" deməkdir. Aşşur hərbi ədəbiyyatından məlum olan bu formaların hamısı Mada sözləri olan mad`a, mada ("madalılar", "Mada") sözləri ilə mənşəcə bağlıdır. "Madalılar" və "Mada" adlarının sonrakı formalarının hamısı - həm Şərq, həm də Avropa formaları öz mənşəyini bu etnoxoronimdən götürür; ərəblərdə təsadüf edilən "mah", ermənicə "mar", orta fars sözü "may" da bu qəbildəndir.

Mada tayfa ittifaqı əsasən Cənubi Azərbaycandan şərqdə və cənub-şərqdə yerləşən vilayətlərdə təşəkkül tapmışdı. Xurvindən, Marlikdən, Sialkdan, Mada tayfa ittifaqının yaşadığı digər ərazilərdə və ya sərhəd rayonlarda olan başqa yerlərdən əldə edilmiş arxeoloji materiallar region sakinlərinin təsərrüfat və mədəni inkifının nisbətən yüksək səviyyəyə çatmasından xəbər verir. Onlar maldarlıq, əkinçilik və müxtəlif sənətlərlə məşğul olurdular.

Herodota görə, madalılar kənd-kənd *(κ ara κ wmas)* yaşayırdılar. Bu "kəndlər" äläni sehrüti-dən (kiçik məskənlərdən) başqa bir şey deyildi; Aşşur məlumatlarına görə, gələcək Madanın ərazisində kiçik məskən çox idi. Yenə də həmin məlumatlara görə, bu məskənlərin başında bel äli - məskən başçıları dururdu; onların hakimiyyəti, şübhəsiz, qəbilə (icma) başçısı hökmranlığından doğurdu.

Aşşur qaynaqları və antik müəlliflərdən tarixi ənənə olaraq gələn natamam məlumatlarla yanaşı, Avesta da e.ə. I minilliyin başlanğıcındakı Mada cəmiyyəti haqqında müəyyən təsəvvür yaradır.



downloaded from KitabYurdu.az

Herodotun topladığı rəvayətlərdə Mada dövlətinin əsasının qoyulması, guya e.ə. 700-cü ildən 647-ci ilədək Madanı idarə etmiş Deyok deyilən birisinin adı ilə əlaqələndirilir. Bu Deyoku Manna canişinlərindən biri olan və II Sarqon tərəfindən adı çəkilən Dayaukku ilə eyniləşdirmək (necə ki, əvvəllər eyniləşdirirdilər) əsla düzgün deyildir. Mərkəzləşdirilmiş Mada dövləti haqqında Herodotun göstərdiyi dövrdə heç söhbət də ola bilməzdi. Çünki Aşşur qaynaqlarına görə, nəinki Herodotun dediyi Deyokun hökmranlığının ilk çağlarında (e.ə. 700-cü ildən), hətta bir neçə onillik keçəndən sonra da Mada əslində belə bir dövlət deyildi.

Herodotun dediyi Deyokun guya yaşadığı və vahid Mada dövlətini idarə etdiyi dövr həqiqətdə qüdrətli Aşşur çarı Sinaxxeribin (705-680-ci illər) hökmranlığı dövrünə təsadüf edir; bu zaman madalıların ərazisində ancaq bir neçə adda-budda birləşmə var idi.

Bununla birlikdə Mada dövlətinin təşəkkül dövrü Herodotun dediyi Deyokun hökmranlıq vaxtını da müəyyən dərəcədə əhatə edir.

Hadisələrlə bir vaxtda yazılmış Aşşur qaynaqları müstəqil Mada çarlığının meydana gəldiyi dövrü ardıcıl işıqlandırır.

O zamankı Aşşur dövləti nəinki xırda, həm də iri siyasi vahidlərin ən təhlükəli düşməni, yeni yaranan gənc dövlətlərin inkişafı yolunda maneə, onları daim vahimədə saxlayan bir qüvvə idi.

Lakin çox keçmədən gənc dövlətlər Aşşur dövləti ilə qəti mübarizəyə qalxırlar.

Mannalılar və madalılar ilə ittifaq bağlayan kimmer-skif ordaları Ön Asiyada meydana atıldıqdan sonra bir-birinə düşmən qüvvələrin - Aşşur dövləti ilə əleyhdarlarının qüvvələr nisbəti xeyli dəyişildi.

Mada "ölkələrinin" çoxəsrlik daxili inkişafı, ayrı-ayrı ittifaqlar və onların intensiv surətdə artması - bunların hamısı özlərinə köçərilərdən ibarət müttəfiqlər tapmış madalıların koalisiyasının təşəkkülü üçün zəmin hazırlayırdı.

Bu arada Mada vilayətlərində vəziyyət getdikcə mürəkkəbləşirdi. Həm aşşurlulara qarşı, həm də onlara meyil göstərən yerli hökmdarlara qarşı get-gedə daha tez-tez üsyanlar qalxırdı. Artıq Asarxaddonun vaxtında aşşurlular Mada rayonlarından daha bac toplaya bilmirdilər; madalılar çox vaxt öz qarətçilərini "qarət" edirdilər.

E.ə. VII əsrin 70-ci illərində Madada Bit-Kari əyalətindəki Kar-Kaşşi qalasının qəsəbə başçısı Kaştaritinin rəhbərliyi ilə güclü xalq hərəkatı başlandı. Mənbələrin birində deyildiyi kimi, Kaştariti Aşşurun Mada əyalətində (hələ II Sarqon zamanında Madadan ayrılmış əyalətdə) qəsəbə başçısı olan Mammitiarşuya məktub yazıb "aşşurlulara qarşı birləşməyi..." təklif etmişdi. Sonralar koalisiyaya Saparda əyalətində "qəsəbə başçısı" olan Dussani də qoşulmuşdu.

Mada vilayətlərində üsyanın başlanmasına yaxın skiflər artıq madalıların müttəfiqləri kimi fəaliyyət göstərir, Aşşur dəstələrinə tez-tez basqınlar edirdilər. Az



downloaded from KitabYurdu.az

sonra mannalılar (skiflərin bir hissəsi onlarla ittifaqda idi), habelə kimmerlər üsyançıların köməyinə gəldilər.

Kaştaritinin yaratdığı hərbi ittifaqın mərkəzini müasir Həmədan zonası ilə eyniləşdirmək olar. Bit-Kari əyaləti məhz burada yerləşirdi. Əyalətin mərkəzi Kar-Kaşşi qalası idi ki, bu da tərcümədə "Kassilər koloniyası" deməkdir. Qəsəbənin bir adı da "Babillilər qalası" idi. Burada kassit və Babil təsiri güclü idi, Babil allahlarına sitayiş yayılmışdı. Meydana gəlmiş Mada çarlığının mərkəzi, Herodotun məlumatına görə, bu rayonda yerləşirdi. Elə burada qədim toplanış yerində Madanın paytaxtı *Ha$^{n}$gmatana* (yunanca: Akbatana və ya Ekbatana) salınmışdı ki, bu da qədim İran sözü olub, "yığıncaq yeri" deməkdir. Kaştariti adının özü (Xsatrita) İran sözüdür, "ixtiyar sahibi", "hökmlü" deməkdir.

Madalılar, skiflər, kimmerilər və mannalılar koalisiyasının mövcud olması müttəfiqlərə bir neçə cəbhədə vuruşmaq imkanı verdi. Üsyançı dəstələri artıq Aşşur sərhədlərinə yaxınlaşmaqda idilər. Onlar qalaları bir-birinin ardınca mühasirəyə alır və allahın orakuluna verilən sorğulardan göründüyü kimi, Neynəva hökmdarını qorxuya salırdılar. Ola bilsin ki, Elam və Urartu da müttəfiqlərə körnək etməyə hazır idilər.

Düşmənlərin hərbi cəhətdən üstün olduğunu başa düşən Aşşur çarı yaxınlaşan fəlakətin qarşısını hiylə diplomatiyasının köməyi ilə almağa cəhd edir; koalisiya başçılarının hər birinin hüzuruna qasidlər göndərilir.

Qələbə çalacağına əmin olan Kaştariti Aşşur ilə danışıqlar aparmaqdan boyun qaçırdı. Lakin Asarxaddonun fitnə-fəsadları müttəfiqlər cəbhəsində təfriqəyə səbəb oldu. Partatua başda olmaqla skiflərin bir hissəsi Aşşunın tərəfinə keçdi. Aşşuru labüd məhvdən məhz bu xilas etdi.

Aşşur çarı "məkrli düşməni ayağımın altına salıb tapdaladım" - deyə öyünürsə də, əsil vəziyyət tamam başqa idi.

Aşşurlularla skiflərin Kaştaritini birlikdə məğlub edib-etmədiyindən asılı olmayaraq, VII əsrin 70-ci illərindəki üsyandan sonra bu ərazidə müstəqil Mada çarlığı meydana gəlir; aşşurlular daha Madadakı satraplıqlarının adını çəkmirlər.

Bu hadisələrdən sonra qaynaqlar öz varlığının lap əvvəlindən çox təcavüzkar siyasət yeridən Mada çarlığı haqqında məlumat verir.

E.ə. VII əsrin 20-ci illərindən Madanın qarşısında yeni dövr - böyük istila müharibələri dövrü açılır. Mada və madalılar tezliklə Ön Asiyanın tarixində çox böyük rol oynamalı oldular.

**Skiflərin hegemonluğu. Azərbaycan ərazisində Skif çarlığı.** Qədim Şərq qaynaqları şəhadət verir ki. e.ə. VII əsrin 70-ci illərində meydana gəlmiş Skif çarlığı bir neçə on il ərzində Ön Asiyanın hərbi-siyasi həyatında çox mühüm amil olmuşdur. Qaynaqlar skiflərin Aşşur dövlətinə yaxın vilayətlərdəki, xüsusən Manna və Madadakı fəaliyyətindən bəhs etməklə bərabər, İşkuz (skiflər) ölkəsinin çarı Partatua



downloaded from KitabYurdu.az

haqqında da məlumat verir; İşkuz ölkəsi Aşşurun diplomatik fəaliyyət meydanının hüdudları daxilində idi, yəni Kür çayının orta axarı ilə Urmiya gölü ətrafındakı Manna ərazisi arasında yerləşən vilayətləri əhatə edirdi. E.ə. VI əsrdə Aşgenaz (Skif) çarlığının adının Urartu, Manna və Mada ilə bir sırada çəkilməsi də e.ə. VII əsrin təxminən ikinci yarısında Ön Asiya vilayətlərində hegemonluğu müəyyən müddət (Herodotdan gələn "28 il" rəqəmi, güman edildiyinə görə, şişirdilmiş rəqəmdir) əlinə keçirmiş (bunu arxeoloji material da təsdiq edir) skiflərin gücünə və qüdrətinə sübutdur.

E.ə. VI əsrin hələ 90-cı illərində Skif çarlığı çox zəhmli bir qüvvə sayılırdı. Həmin əsrin ancaq 80-ci illərində "şimalın (yəni skif - *məsul red.)* hökmdarları" haqqında həlak olmuş bir xalqdan danışılan kimi danışılır.



downloaded from KitabYurdu.az

Skif çarlığının tarixi müqəddəratı irandilli mühacirlərin böyük kütlələrinin Ön Asiya vilayətlərinə gəlməsi və bu regionda coşqun fəaliyyət göstərməsi ilə bilavasitə bağlıdır. Adətən skiflər adlandırılan bu tayfalar içərisində skiflərdən başqa saklar da var idi.

Aşşur mətnlərində skiflərin adı ilk dəfə e.ə. 680-ci il ilə 674-cü il arasında, çox ehtimal ki, e.ə. 674-cü ilin ortalarında çəkilir.

Ola bilsin ki, e.ə. 674-cü (?) ilin ortalarında skif qoşunları artıq mannalılar ölkəsinin vilayətlərində "yaşayırlar" (qədim mətni belə də tərcümə etmək olar: "olurlar", "sakindirlər" və i.a. - *məsul red.).*

Yazılı qaynaqların məlumatından belə bir nəticə çıxarmaq olar ki, skiflər Ön Asiyaya kimmerlərin ardınca gəlmişlər və Herodotun bu hadisələr haqqında dedikləri - yalnız skiflərin kimmerləri təqib etməsindən başqa - həqiqətə yaxın idi.

Bu vaxtdan başlayaraq Aşşur kitabələri skifləri ən əvvəl Manna və qismən Mada ilə əlaqələndirir. E.ə. VII əsrin artıq 70-ci illərində İşpakay (lspakaja, Ispaka'ä) başda olmaqla skiflər mannalıların müttəfiqi kimi çıxış edirlər.

Deməli, təxminən e.ə. VII əsrin 70-ci illərinin axırlarında Skif çarlığı artıq mövcud idi. Özü də onu Manna-Mada torpaqlarının bilavasitə yaxınlığında, ola bilsin, Kürdən (Sakasena rayonunda) başlanan və Arazdan cənubda, ta Şimali Manna vilayətinədək uzanan zolaqda axtarmaq lazımdır. Aşşur mətnlərinin sübut etdiyi kimi, miqrasiyanın ən erkən, ilk axınları məhz buraya yönəlmişdi.

Skif tayfalarının Qafqaza və Ön Asiyaya, o cümlədən də Azərbaycana axını kütləvi köç deyildi, çox ehtimal ki, hərbi basqınlar idi. İşğal edilmiş vilayətlərin müxtəlif hissələrində köçkünlər düşərgələr salır, buradan onların çox böyük atlı dəstələri bəzən uzaq rayonlara da reydlər edirdilər. Azərbaycanda skiflər o qədər də çox deyildi. Azərbaycan əhalisinin əsas kütləsi aborigenlərdən ibarət idi.

Skif başçısı İşpakay Aşşur mətnlərində sadəcə "işkuzlu", yəni "skif "adlandırılır. Təxminən eyni rayonlarda fəaliyyət göstərən Partatua isə ən tezi e.ə. 673-cü ilə aid olan Aşşur sənədində artıq "İşkuz (ölkəsinin) çarı", yəni "Skif çarlığının" çarı adlandırılmışdır.

Azərbaycanda "Skif çarlığı"nın tarixində qaranlıq nöqtələr az deyildir. Məsələn, bilmirik ki, İşpakay Partatuanın sələfi idi, yoxsa "onlar iki (düşmən) skif koalisiyasının başçıları idilər? Lakin İşpakayın skifləri, şübhəsiz, mannalıların və görünür, həm də madalıların müttəfiqləri idilər və bu skif sərkərdəsi təxminən e.ə. 673-cü ilin axırlarında həlak olmuşdur. Bu da ağlabatandır ki, İşkuz ölkəsinin çarı Partatua (onun hökmranlığı e.ə. 675-645-ci illərə aid edilir) lap əvvəldən aşşurlularla danışıqlara başlamış və Assarxaddonun qızını almaq üçün elçi göndərmişdi. Bu vaxtdan "Skif çarlığı" Aşşurun sədaqətli müttəfiqi olmuşdur. Bəlkə də yalnız bu ittifaq sayəsində madalıların, skiflərin (İşpaka başda olmaqla, Partatuanın əleyhdarlarının), kimmerlərin və mannalıların koalisiyası Aşşur üzərində tam qələbə



downloaded from KitabYurdu.az

çala bilməmişdi. Partatuanın skifləri Neynəva dövlətini labüd məhvdən xilas etmişdilər.

E.ə. VII əsrin 70-ci illəri, qismən də 60-cı illəri Azərbaycanda "Skif çarlığı"nın təşəkkül dövrü sayıla bilər, lakin bu "çarlıq" spesifik köçəri dövlətinin əlamətlərinə malik olsa da, onu dövlət qurumu hesab etmək çətindir.

Adətən Prototinin (Aşşur qaynaqlarında Partatua) oğlu Madinin adı ilə əlaqələndirilən dövrdə skiflərin Ön Asiyadakı fəaliyyətində qaranlıq nöqtələr az deyildir.

Herodota görə, skiflərin Ön Asiyaya ilk gəlişi Prototinin adı ilə yox, Madinin adı ilə bağlıdır və guya məhz Kiaksar Aşşur ilə müharibə apardığı vaxt Madi kimmeriləri təqib eləyə-eləyə Madaya girmişdir. Herodotun verdiyi məlumata görə, skiflər Madaya, (daha doğrusu, Şimali Azərbaycan vilayətlərinə) Dərbənd keçidindən soxulmuşlar ("skiflər... düz yoldan burulub, xeyli uzun olan yuxarı yolla getmişlər, Qafqaz dağları sağda qalmışdır"). Herodot yazır: "Bu yerdə midiyalılar skiflərlə vuruşmuşlar. Midiyalılar basılmış və öz hökmranlığını itirmiş, skiflər isə bütün Asiyaya yiyələnmişlər. Skiflər buradan Misir üzərinə getmiş və öz yollarında hər şeyi viran etmişlər. Misir çarı Psametix skifləri Fələstin Suriyasında qarşılamış, hədiyyələr və yalvar-yaxarla onları ayaq saxlamağa razı salmışdır...

Skiflər Asiyada iyirmi səkkiz il hökm sürmüş, israfçılıq və savaşqanlıqları ilə hər şeyi tam bərbad hala salmışdılar. Çünki onlar hər bir [xalqdan] müəyyən edilmiş bacı toplamaqla kifayətlənməyib, ölkəni gəzərək, əllərinə nə keçirdisə, qarət edirdilər... " [I, 104-105].

Burada təsvir edilən vəziyyət vaxt etibarilə e.ə. VII əsrin 50-ci illərinə deyil, sonuna daha çox uyğun gəlir, çünki skif hökmranlığınn "bütün Asiyaya" yayılması və skiflərin butün Asiyada "savaşqanlıq" etməsi, Herodotdan asılı olmayan mənbələrə görə, məhz göstərilən dövrdə baş vermişdir.

Qələmə aldıqları hadisələrin müasirləri və şahidləri olan Bibliya müəllifləri yazırlar ki, Ön Asiyanın müxtəlif vilayətlərinin sakinləri "uzaq yerdən, dünyanın qurtaracağından", "şimaldan", "Şimal torpaqlarından" olan xalqın, "qüvvəli" və "qədim", lakin həyasız" xalqın basqını gözlənəndə qorxuya düşür və dəhşətə gəlirdilər, o xalqın ki, "sənin nə taxılından, nə şərabından, nə zeytun yağından, nə dana-buzovundan, nə də qoyun-quzundan sənə heç nə saxlamayacaq, nəhayət, sənin özünün də axırına çıxacaqdır" [Deut., 28, 49], "ümidini bağladığın möhkəmləndirilmiş şəhərlərini qılıncdan keçirəcəkdir" [J e r e m., 5, 18]. "Şimaldan" olan xalqın skiflərlə eyniliyinə şəkk-şübhə ola bilməz. Maraqlıdır ki, Mada çarlığını darmadağın etmiş skiflərin Urartuya, Aşşura, Suriyaya, Fələstinə və hətta Misirə basqınlar etdikləri haqqında yazılı mənbələrin məlumatı adları çəkilən vilayətlərdə skiflərin məhz e.ə. VII əsrin sonunda - VI əsrin əvvəllərində coşqun fəaliyyət göstərdiklərinə şəhadət verən arxeoloji materiallarla da təsdiq olunur.



downloaded from KitabYurdu.az

Beləliklə, skiflər Ön Asiyaya e.ə. VII əsrin 30-20-ci illərində yox, təqribən 80-70-ci illərində soxulmuşdular. Aşşurbanipalın kitabəsində "Sak və Qutium (ölkəsinin) çarı" adlandırılmış "Ummanmanda çarı" Tuqdamme ilə eyniləşdirilən kimmer Laqdamisi Kiçik Asiyada, Strabonun dediyinə görə [I, III, 21], darmadağın etmiş Madinin qaynar fəaliyyət dövrü VII əsrin 40-20-ci illərinə təsadüf edir. Herodotda isə bu dövr ümumiyyətlə öz əksini tapmamış, olsa-olsa onun yalnız axırı, yəni talanlardan sonra "bütün Asiyada" skiflərin 28 illik hökmranlığının başlanması verilmişdir. Herodotun skiflər tərəfindən Mada şahlığının darmadağın edilməsi və onların Asiyada hökmranlığının başlanması barəsindəki məlumatı etiraz doğurmur. Lakin Herodotun dediyi Madinin skifləri "Avropadan kimmeriləri sıxışdırıb çıxaran" və guya onları təqib edə-edə Ön Asiyaya soxulan bir qüvvə ola bilməzdi. Vaxtilə (VII əsrin 80-70-ci illərində) Ön Asiyaya soxulan skiflər isə, təbii ki, Kiaksarın "hökmranlığı dövründəki (625-585-ci illər) madalıları darmadağın edə və "bütün Asiyada öz hökmranlığını" yarada bilməzdilər, bu, görünür, VII əsrin 30-20-ci illərində ola bilərdi.

Görünür, Herodotun istifadə etdiyi mənbədə Madinin yox, atası Prototinin Asiyaya soxulmasından xəbər verilirdi; məlum olduğu kimi, Prototi Asiyaya VII əsrin 80-70-ci illərində gəlmişdi. Herodot ata ilə oğlu dolaşıq salmış, atanın işlərini oğulun ayağına yazmış, beləliklə, təqribən yarıməsrlik hadisələri sıxıb cəmi bir neçə il çərçivəsinə yerləşdirmişdi. Madinin hökmranlıq etdiyi faciəli hadisələrlə dolu dövr Herodotun əsərində yoxdur. Madi heç də Ön Asiyaya soxulmamışdı (bunu onun atası etmişdi). Əslində soxulmağa ehtiyac da yox idi, çünki hələ Partatua vaxtlarından Asiyada "Skif çarlığı" vardı və Madi öz atasından sonra, güman ki, VII əsrin 40-cı illərinin ortalarından "Skif çarlığı"nın qanuni sahibi idi.

Belə güman etmək də çətindir ki, VII əsrin 30-20-ci illərində skiflərin hansısa yeni böyük kütlələri Qara dəniz sahillərindən Ön Asiyaya soxulmuş və guya "bütün Asiyada öz hökmranlığını" yaratmışdır. Asiya üzərində öz hegemonluğunu bərqərar edən skiflər, şübhəsiz, Madinin skifləri idi; hələ VII əsrin 40-cı illərində onlar Manna və ya Mada skiflərini öz hakimiyyəti altına alan kimmer çarı Tuqdammeni (tituluna görə Sak və Qutium [ölkəsinin] çarını) Kiçik Asiyada darmadağın etmişdilər. Deməli, Herodotun və bəzi tədqiqatçıların dediklərinin əksinə olaraq, Madi skifləri 30-20-ci illərdə Asiyaya gələ bilməzdilər.

Bəzi məlumatlara görə, VII əsrin 50-40-cı illəri Ön Asiyaya gəlmiş ayrı-ayrı köçəri qrupları arasında, həmçinin köçərilərlə Şərqin köhnə dövlətləri - Aşşur, Urartu və başqaları arasında ağır mübarizə dövrü idi.

Atası kimi, Madi də Aşşurun müttəfiqi idi. Skif Madi 640-cı ilə yaxın kimmer Tuqdammeyə qələbə çalmış və bu qələbə nəticəsində VII əsrin 30-20-ci illərində Asiyada tam ixtiyar sahibi olmuşdu. Bəzilərinin güman etdiyinə görə, "Skif çarlığı" Zaqafqaziyadan və İrandan ta Kappadokiyayadək, çox böyük bir ərazini əhatə edən



downloaded from KitabYurdu.az

böyük dövlətə çevrilmişdi. Məhz bu skiflər VII əsrin 30-20-ci illərində Ön Asiya ölkələrini bir neçə il dəhşətə salaraq, "bütün Asiyaya hakim" olmuşdular. Bundan əvvəl madalılar darmadağın edilmişdi.

Ön Asiyada skiflərin hegemonluğunun neçə il davam etdiyini demək çətindir. Herodot söyləyir ki, Asiyada skiflərin hakirniyyəti 28 il çəkmişdir, lakin bununla razılaşmaq olmaz, çünki onda belə hesab etmək lazım gələr ki, görkəmli sərkərdə və dövlət xadimi, “Asiya üzərində hökmranlığın banisi" [Esxil] Kiaksarın hakimiyyət dövrünün dörddə üç hissəsi skiflərin hökmranlığı dövrü (625-598-ci illər) ilə bir vaxta düşür; bu isə mümkün deyildir, heç olmazsa ona görə ki, "Kedd xronikası"na əsasən, "madalılar artıq e.ə. 615-ci ildə Aşşura qarşı müharibəyə başlamışdılar. Ontar Arrapxa əyalətinə soxulmuş, 614-cü ildə isə Aşşur dövlətinin paytaxtı Neynəvaya hücum edib onun ətraf qəsəbəsi olan Tarbisuya yiyələnmiş, sonra Aşşur şəhərinə yaxınlaşmışdılar. Şəhər alınmış və qarət edilmişdi. 612-ci ildə madalılar babillərlə, ola bilsin, skiflərlə və hakimiyyətləri altında olan (?) digər xalqlarla (müttəfiqlərlə - ?) birlikdə Aşşur dövlətinin paytaxtı, "aslanlar yatağı" Neynəvanı tutmuş, qarət etmiş, dağıtmış və yandırmışdılar. Madalılar Neynəvanın darmadağın olunmasında həlledici rol oynamışlar.

Madalılar məğlubiyyətə uğrayandan bir neçə il sonra, ola bilsin, e.ə. VII əsrin 20-ci illərinin sonunda - 10-cu illərinin əvvəlində skiflərin hakimiyyətindən xilas oldular. Lakin Bibliya müəlliflərinin məlumatına görə, şimal köçəriləri daha bir neçə il Ön Asiya xalqlarını dəhşətə gətirməkdə davam etdilər.

Ön Asiyada "Skif çarlığı"nın, demək olar, tam hökmranlığına, ehtimal ki, e.ə. VII əsrin 20-ci illərinin axırında və ya 10-cu illərinin əvvəlində son qoyuldu. Asiyada yeni qüvvə meydana gəldi. Bu qüvvə madalılar idi. Onlar köçərilərə nəinki müqavimət göstərə bildilər, həm də tezliklə köçərilərin hakimiyyətinə tamamilə son qoydular və hətta "Skif çarlığı"nın ərazisinə yiyələndilər.

Madalıların Aşşur üzərində qələbəsi Madanı Qədim Şərqin böyük dövlətinə çevirdi. Ola bilsin, e.ə. VII əsrin sonunda və ya VI əsrin əvvəlində madalılar Mannanı, Urartıınu və "Skif çarlığf'nı özlərinə 'abe etdilər.

Qədim Şərq mənbələrində "Skif çarlığı" haqqında son məlumatlardan biri e.ə. 594-cu ilə aiddir.

Görünür, 590-cı ilə yaxın Mada ilə Lidiya arasında, skiflərin ucbatından, müharibə başlananda Kiaksar tərəfindən "Skif çarlığı" ləğv edilmişdi.

Çarlıq ləğv olunmuşdu, lakin skif əhali qrupları - "skiflər", "ortokoribantlar" və "sakasenlər" Azərbaycan ərazisində yaşamaqda davam edirdilər. Onlar, məsələn, e.ə. IV əsrin sonunda Makedoniyalı Aleksandrın qoşıınlarına qarşı farsların müharibəsində madalıların müttəfiqləri kimi iştirak edirdilər [Arrian, III, 8. 4; açıq-aşkar yazır: "... kadusilər də, albanlar da, sakasenlər də midiyalılarla birləşmişdilər"].



downloaded from KitabYurdu.az

Arrian III Daranın məğlubiyyətindən sonra ona kömək etməli olan hansısa skiflərdən söz açır [III, 19, 3].

Azı 5-6 yüzillik ərzində skiflər Azərbaycanda fəaliyyət göstərən bir qüvvə olmuşdular.

Skiflərin bir hissəsi Qara dənizin şimal sahillərindəki vilayətlərə qayıtmış, buraya Ön Asiya mədəniyyətinin, xüsusən incəsənətdə "heyvani üslub" deyilən üslubun bir çox ünsürlərini gətirmişdilər.

Azərbaycan ərazisində skiflər sayca aborigenlərə nisbətən kiçik bir təbəqə təşkil edirdilər.

Skiflər xüsusən hərbi iş sahəsində Azərbaycanın yerli əhalisinin mədəniyyətinə müəyyən təsir göstərmişdilər. Aborigenlər onlardan at belindən ox atmaq taktikasını öyrənirdilər. Herodot yazır ki, madalılar öz oğullarını atıcılıq təlimi keçmək üçün skiflərin yanında şagirdliyə qoyurdular [I, 73].

"Skif çarlığı" Azərbaycan zonasında nisbətən sabit əraziyə malik idi. Bu çarlıq azı 80 il yaşadı. Onun öz hakim sülaləsi vardı. Çarlar bu sülalənin nümayəndələrini özlərinə bərabər tutur və onlarla hesablaşırdılar. Madinin hakimiyyəti zamanında "Skif çarlığı" böyük imperiyaya çevrilmiş, Asiyada isə skif hegemonluğu dövrü başlanmışdı. Azərbaycan tarixində skiflərin rolu və əhəmiyyəti böyükdür... Skif tayfaları Qara dəniz sahili Skifiyasının tarixinə də böyük töhfə vermişlər; onlar Azərbaycandan və qonşu vilayətlərdən buraya skif mədəniyyətinin tərkib hissəsinə çevrilmiş Ön Asiya sivilizasiyasının bir çox realiyalarını, o cümlədən "heyvan üslubu" gətirmişlər.



downloaded from KitabYurdu.az

X FƏSİL

# CƏNUBİ AZƏRBAYCANIN MİDİYALILAR (MADALILAR) TƏRƏFİNDƏN İŞĞALI. MANNA ÇARLIĞININ SÜQUTU

Eə. VII əsrin ortalarına doğru aşşurlular tərəfindən məğlubiyyətə uğradıldıqdan sonra Manna böyük dövlət kimi öz mövqeyini itirdi. Manna kimmerlər, skiflər və madalılarla mövcud olan ittifaqı sayəsində xeyli dərəcədə gücə və qüdrətə malik idi. Lakin əsrin 70-ci illərinin sonlarına doğru skiflərin bir qisminin xəyanəti nəticəsində bu ittifaq dağıldı. Partatua başda olmaqla aşşurluların tərəfinə keçmiş skiflərin bir qismi Asarxaddona mannalılara zərbə endirməkdə yardım etdi. İşpakay başda olmaqla skiflərin digər qismi isə mannalılarla ittifaq münasibətlərini davam etdirdi. Aşşur hökmdarı "Mannalılar ölkəsi əhalisini pərən-pərən saldım..., mannalıları xilas etməmiş skif, (onların) müttəfiqi İşpakanın qoşunlarını silahla qırdım" - deyə öyünürdü.

Artıq Aşşurbanipalın hakimiyyəti dövründə (668-627-ci illər), təqribən 660-cı ildə aşşurlular Mannanı çox ağır məğlubiyyətə uğratdılar, onu əski qüvvəsindən qəti şəkildə məhrum etdilər. Manna Nenəva hakimlərinin vassalı səviyyəsinə endirildi və o öz süqutuna qədər Nenəva hakimlərinə sadiq qaldı. Bu hal ona səbəb oldu ki, madalılar indi əski müttəfiqləri olmuş mannalılara rəqib kimi yanaşmağa başladılar.

Mada çarlığı artıq VII əsrin ortalarında kifayət dərəcədə böyük qüvvə idi. Əgər Herodota inansaq, Mada hökmdarı Fraorta (bəzi tadqiqatçılar onu Kaştariti ilə eyniləşdirirlər) Aşşura hücum etdi. Lakin Herodotun yazdığı kimi, aşşurlular o dövrdə hələ də "yaxşı vəziyyətdə idilər". Həqiqətən də əsrin 50-ci illərinin böhranından uğurla çıxmış Aşşur dövləti Misir ərazisini itirməsinə baxmayaraq, "hələ də ən böyük dövlət idi və Şərqdə Zaqros dağlarından başlayaraq qərbdə Suriya-Finikiya torpaqlarınadək olan böyük əraziyə sahib idi. Aşşur hökmdarını hələ də uğur və qələbə təntənəsi müşayiət edirdi. Hökmdarın qardaşı - Babil hakimi əzilmiş, üç müharibədə Aşşurun əski rəqibi olan Elam məğlubiyyətə uğradılmış, Manna və kimmerlər darmadağın olunmuş, Lidiya və Urartu alçaldılmışdı.

Lakin skif hökmranlığından azad olmuş Mada tezliklə Ön Asiyanın ən güclü dövlətinə çevrildi.

Uvaxşatranın (Kiaksarın, 625-584-cü illər) simasında Mada taxtına çox qabiliyyətli şəxsiyyətin çıxdığı şübhəsiz idi. Tamamilə əlverişli olmayan şəraitdə hakimiyyətə gəlmiş Kiaksar dərhal Mada qoşununun yenidən təşkil edilməsi ilə məşğul oldu və Mada tarixində ilk nizami ordunu yaratdı.

VII əsrin 30-20-ci illərində beynəlxalq şərait Aşşur dövlətinin mənafelərinin əksinə olaraq əhəmiyyətli dərəcədə dəyişdi. Vəziyyət getdikcə gərginləşirdi. Xaldey



downloaded from KitabYurdu.az

Babilinin hökmdarı Nabupalasar yaranmış şəraitdən istifadə etmək qərarına gəldi. Xaldeylər şimal istiqamətində irəliləməyə başladılar.

616-cı ildə Nabupalasar aşşurluları güclü məğlubiyyətə uğratdı. "Kedd xronikası"nda deyilir ki, Nabupalasar "asşurlulardan böyük qənimət ələ keçirdi, onların köməyinə gəlmiş mannalılar və əyanları ələ keçirildilər"...

Madalılar xaldeylərin təbii müttəfiqləri oldular. 616-cı ildə Kiaksar Aşşura qarşı açıq çıxış edərək Arrapxa vilayətini, sonra isə Aşşur şəhərini ələ keçirdi. Aşşur şəhəri amansızcasına əsasınadək dağıdıldı. İki müttəfiq - Nabupalasar və Kiaksar Aşşurun xarabalıqlarında görüşdülər və "Kedd xronikası"nda deyildiyi kimi, öz aralarında "dostluq və ittifaq bağladılar".

Tezliklə müttəfiqlər qəti tədbirlərə keçdilər və 612-ci ildə Nenəvanı ələ keçirərək onu "təpələrə və xarabalıqlara çevirdilər". Peyğəmbər Naum şəhərin qəti hücuma məruz qalmasının, ələ keçirilməsinin, talan olunmasının və dəhşətli taleyinin sarsıdıcı mənzərəsini vermişdir. "Ulu şəhər", "üçgünlük piyada gedişlə qət olunan şəhər"...süquta uğradı. "Şirlər yatağı" olan "azğın" Nenəvanın məhv olması münasibətilə xalqların sevinci həqiqətən sonsuz idi.

610-cu ildə müttəfiqlər Xarranı ələ keçirdilər, 605-ci ildə isə xaldeylər Misir-Aşşur qoşunlarının son istinad məntəqəsi olan Karxemışa sahib oldular. Uzun zaman ərzində Qədim Şərqin xalqlarını qarət və məhv etmiş hərbi-quldarlıq dövləti dağıdıldı. Aşşur üzərində qazanılmış qələbənin nəticəsində Mada Ön Asiyanın böyük dövlətinə çevrildi.

E.ə. VIII əsrin sonunda - VI əsrin başlanğıcında madalılar Mannanı, Urartunu və Skif çarlığını özlərinə tabe etdilər. Lakin həmin siyasi qurumlar müəyyən zaman ərzində özünü idarə edir, madalıların "kiçik" müttəfiqləri vəziyyətində çıxış edirdilər. Onlar 90-cı illərin sonlarınadək bu rolu oynamaqda davam etdilər. Manna sonuncu dəfə 593-cü ildə peyğəmbər Yeremiya tərəfindən xatırlanmışdır.

Lidiya ilə müharibə ərəfəsində (e.ə. 590-cı ildə) adları çəkilmiş üç siyasi qurumun özünüidarəsinə son qoyuldu və Mada Cənubi Azərbaycanın, Urartunun və Skif çarlığının torpaqlarının tam hakimiyyətə malik olan sahibinə çevrildi.

Mannanın işğalı Mada dövlətinin bütün iqtisadiyyatının yüksəlişində mühüm əhəmiyyətə malik idi. İnkişaf etmiş kənd təsərrüfatına, sənətkarlığa və şəhər həyatına malik olan Mannanın ələ keçirilməsi madalılar üçün nisbətən qabaqcıl quldarlıq münasibətlərinə uyğunlaşmaq və bağlanmaq prosesində mühüm əhəmiyyət kəsb edirdi. Hətta tabe olunmuş, fəth edilmiş Manna Mada imperiyasının mədəni-iqtisadi mərkəzi olaraq qalırdı.

Mada işğalı Mannanın özü üçün yalnız bir neçə əsr ərzində yerli dövlətçiliyin mövcudluğuna son qoyulması ilə deyil, həm də ölkənin etnik görkəminin dəyişməsi ilə həlledici rola malik idi. Bu zamandan başlayaraq intensiv etnik proseslərin nəticəsində yerli tayfalar tədricən Mada dilinin ləhcələrini qəbul edərək madalaşmağa,



downloaded from KitabYurdu.az

"madalılar" adlanmağa başladılar, Madanın bir hissəsinə çevrilmiş Mannanın özü isə "Mada" və yaxud "Kiçik Mada" adlanmağa başladı.

**Mada: dövlət, inzibati bölgü və cəmiyyət.** Kiaksar farsların tabe olunmasından, Şərqi İran ərazilərinin işğalından, geniş torpaqlara malik olan Aşşur dövlətinin darmadağın olunmasından, Mannanın, Urartunun və Skif çarlığının fəth edilməsindən sonra Qərbdə Halis (müasir Qızıl Irmaq) çayınadək uzanan zəngin Lidiyanı və yunan ticarət şəhərlərini öz dövlətinə birləşdirməyə cəhd etdi.

Lidiya ilə müharibə e.ə. 590-cı ildə başlandı. E.ə. 585-ci il mayın 28-də döyüş zamanı günəş tutulması hadisəsi baş verdi və bu hadisə döyüşən rəqiblər tərəfindən pis əlamət kimi qəbul edildi. Müharibə dayandırıldı. Sülh müqaviləsinə əsasən, Mada ilə Lidiya arasındakı sərhəd Halis çayı üzrə müəyyənləşdirildi.

Lidiya ilə müharibənin başa çatdığı ildə qədim dünyanın böyük dövlət xadimlərindən biri, Esxil tərəfindən "Asiya üzərində hökmranlığın banisi" adlandırılmış Uvaxşatra (Kiaksar) vəfat etdi. Onun yaratdığı dövlətin ərazisi böyük idi. Bu dövlət Mada çarlığından başqa Manna, Skif çarlığı, Urartu torpaqlarını, "Siro-Mada" adlanan ərazini (keçmiş Aşşur vilayətləri olmuş Zamuanı, Parsuanı, Kişessunu, Xarxarı və b.) əsil Aşşur torpaqlarını (Ksenofontdan məlum olduğu kimi), Hirkaniya və Parfiya ilə birlikdə İranın bütün şərq qismi (bu isə yunan ənənəsindən irəli gəlir) özündə ehtiva edirdi.

Beləliklə, Mada dövlətinin sərhədləri Şərqdə Orta Asiyadan qərbdə Halis çayınadək uzanırdı. Dövlətin şimal sərhədlərinin bir qismi Kolxidanın yaxınlığından keçirdi. Şübhəsizdir ki, Şimali Azərbaycanın bəzi bölgələri də Mada dövlətinin tərkibinə daxil idi. Mada dövlətinin tərkibində artıq sonralar fars hökmdarlarının yazılarında adları çəkilən satraplıqların ən azı bir qismi vardı. Bir çox qədim dillər tərəfindən əxz olunmuş, qədim fars mənşəli *xsaçapävan*-la deyil (yalnız Elam mənşəli saksapamana bu anlayışdandır), Mada mənşəli *xsavräpän*-la bağlı olan *xsaravpän* titulunun forması (müqayisə et: Babil dilində ahsadar(a) panu arami dilində, *hsdrrpny* [ahsadarapänä], Likiya dilində kssadrapa, qədim yunan dilində *aaıpaлess* və b. Əhəmənilər dövrü üçün məlum olan satraplıq institutunun artıq madalıların hökmranlığı zamanı mövcud olduğunu təsdiq edən dəlildir. Hər halda *xsavrapäna*-nın ad və ya titul kimi İran yaylasının qərb vilayətlərində hələ e.ə. VIII əsrdə mövcud olduğu təsdiqlənmişdir. Bu söz "hakimiyyət qoruyucusu", "çarlığın, malikanənin mühafizəsini (həyata keçirən)" mənasını daşıyır.

Güman etmək olar ki, Mada dövlətinin inzibati quruluşu sonralar İran imperiyasının quruluşu kimi Aşşur-Urartu sisteminin daha da inkişaf etmiş forması olmuşdur. Ehtimal olunur ki, inzibati idarəyə, məhkəməyə, maliyyə sisteminə başçılıq etmiş satrapların səlahiyyətləri prinsip etibarilə Aşşur vilayət rəislərinin (*bçl pehate, pehatu*) səlahiyyətlərinin oxşarı idi. Əhəməni dövrünün arami sənədlərində



downloaded from KitabYurdu.az

*xsavrapäna* bilavasitə pehä - "canişin" istilahı ilə tərcümə olunur. Halbuki bir sıra arami mətnlərində bu istilah tərcümə edilmir; bu mətnlərdə *'hsdrrpny'* (*ahsadarapänä*) istilahına təsadüf olunur. Hər halda Mada satrapları Aşşurun və Urartunun "qubernatorlarının" yalnız bir qədər dəyişilmiş oxşarları idilər. Ehtimal etmək olar ki, onlar Aşşur vilayət rəisləri və İran satrapları arasında olan bir vəzifədir. Güman ki, Mada dövlətinin siyasi inkişafı əsasən əski ənənələr məcrasında gedirdi.

İşğalçılıq müharibələri nəticəsində yaranmış nəhəng Mada dövləti qədim dünyanın vahid iqtisadi və mədəni-tarixi əsası olmadan, hərbi qələbələrdən və yaxud məğlubiyyətlərdən asılı olaraq yaranan və dağılan, möhkəm olmayan hərbi inzibati birliklərindən biri idi. Hələ Herodot bilirdi ki, "midiyalıların hökmranlığı zamanında bir xalq başqa xalq üzərində, midiyalılar isə hamı, ilk növbədə onlara yaxın olanlar, sonuncular öz qonşuları, qonşular isə onlarla həmsərhəd olan xalq üzərində ağalıq edirdi".

Bibliyada və başqa Qədim Şərq mənbələrində "Mada çarı" və "çarlarından", "Mada çarı" və "onun köməkçiləri olan çarlardan" danışılır. Deyilənlər Mada çarının vassalları və yaxud satrapları olmuşlar.

Lakin bununla belə Mada dövlətinin gücünü, rolunu və əhəmiyyətini azaltmaq olmaz.

Mada dövlətinin mövcudluğu dövrünün mahiyyətcə 6-8 onilliklə məhdudlaşmasına (e.ə. VII əsrin sonu - VI əsrin I yarısı) baxmayaraq, onun yaradılmasının İran yaylası və Ön Asiya tayfaları və xalqlarının tarixi üçün böyük əhəmiyyətə malik olması mübahisəsizdir.

Bu hal müəyyən dərəcədə geniş Mada vilayətlərində məskunlaşmış tayfaların və tayfa qruplarının konsolidasiyası prosesini sürətləndirdi, yadelli müdaxilələrə son qoydu və daxili həyatın inkişafı üçün nisbətən əlverişli şərait yaratdı, bu isə, öz növbəsində, həm kənd, həm də şəhər iqtisadiyyatının canlanmasına yardım etməyə bilməzdi.

Əlbəttə, böyük işğalçılıq müharibələrinə qədər Mada cəmiyyətində patriarxal münasibətlər hələ də kifayət dərəcədə güclü idi. "Mada xalqı" (icma üzvləri və azad əhalinin başqa qrupları) və "Mada qoşunu" anlayışları əsasən üst-üstə düşürdü. Quldarlıq əsasən patriarxal və ev quldarlığı səciyyəsi daşıyırdı.

Maddi nemətlərin başlıca istehsalçıları əsasən azad icma üzvləri olmuşlar. Hər bir icma üzvü eyni zamanda döyüşçü idi. Mada cəmiyyətinin gücü xeyli dərəcədə bununla izah edilirdi. Kiaksar məhz bu cəhətə arxalanaraq özünün işğalçılıq müharibələrinə başlaya bilmişdi.

Madalılar Kiaksarın böyük işğalçılıq müharibələri zamanından etibarən Şərqin qədim mədəniyyətləri ilə təmasda oldular və uzunmüddətli olmasa da, hər halda Ön Asiyanın ən mühüm qüvvəsinə çevrildilər. Bölgənin sinifli cəmiyyətləri ilə əlaqələr Madada patriarxal dayaqların dağılması prosesini sürətləndirdi. Mədəni ölkələrdən



downloaded from KitabYurdu.az

daxii olmuş sinfi mədəniyyət Mada dövləti qüdrətinin istinad etdiyi hər şeyi sürətlə dağıdırdı. Azad icma üzvü ilə əyanlar arasında intensiv surətdə yaranmağa başlayan və güclənən fərq getdikcə kəskinləşirdi. Sıravi azad icma üzvlərinin istismarı güclənir, ölkənin təsərrüfat həyatında qul əməyinin xüsusi çəkisi artırdı. Qul əməyindən nəinki yalnız hökmdar təsərrüfatında (Herodotun buna dair məlumatları vardır), habelə əyanların təsərrüfatlarında və məbəd torpaqlarında istifadə edilirdi. Polien hələ Deyokun hakimiyyəti dövründə Madada məbəd təsərrüfatının mövcud olduğunu təsdiqləyir.

Atəşpərəstlik etiqadı xidmətçiləri və qədim ənənələrin mühafizəçiləri olan maqlar - kahinlər əyanlarla yanaşı, Mada cəmiyyətində mühüm qüvvə idilər. Avestada məlumat verilir ki, maqlar qədimdən geniş torpaqlara malik idilər. Şübhəsizdir ki, böyük sərvətlərdən istifadə edən, xalq arasında böyük nüfuza malik olan möhkəm və mütəşəkkil qüvvəyə çevrilmiş maqlar hökmdarların həm xarici, həm də daxili siyasətinə təsir edirdilər.

Nəticədə cəmiyyətin əvvəlki strukturu xeyli dərəcədə sarsılır, patriarxal dayaqların dağılması prosesi sürətlənir, sinfi antaqonizm kəskinləşirdi. Mada dövlətinin yaranması ilə Mada nəsli-tayfa və hərbi demokratiya ölkəsindən qədim Şərq tipli dövlətə çevrilməyə başladı.

Herodotun məlumat verdiyi kimi, Mada cəmiyyətində sinfi mübarizə hələ dövlətin meydana gəldiyi zamandan əvvəlki dövrdə mövcud idi. Peyğəmbər İsayanın şəhadətinə görə, erkən dövrdə "gümüşü qiymətləndirməmiş və qızıla həris olmamış" madalılar inkişafın geniş yoluna çıxmışdılar.

Demək olar ki, bütün antik müəlliflər madalıların sonrakı nəslinin xasiyyətlərinin "pozğunlaşması"ndan, onların bəzəyə, sərvətə, parlaq həyat tərzinə hərisliyindən danışırlar.

Böyük işğalçılıq müharibələri zahirən Madanı gücləndirsə də, onu inkişaf etmiş quldarlıq münasibətlərinə malik olan qüdrətli və qorxulu dövlətə çevirsə də, məhz bu müharibələr tezliklə gəlmiş sonun başlanğıcı idi. Şübhəsizdir ki, madalıların yaratdığı Mada dövlətinin, onun mədəni-tarixi irsinin, müxtəlif ənənələrin və institutların rolu və əhəmiyyəti böyük idi.

"Hökmdarlar hökmdarı" haqqındakı Əhəməni təsəvvürü, *xsayviya* (çar) və *xsavrapän* ("satrap") titulları, müəyyən dərəcədə satraplıqlar sistemi, müxtəlif ideoloji təsəvvürlər, geyim, incəsənətin və memarlığın ünsürləri, bir çox başqa cəhətlər sonrakı nəsillər tərəfindən madalılardan əxz edilmişdi.

Mövcudluğunun qısamüddətli olmasına baxmayaraq, Mada dövləti İran yaylası hüdudlarından xeyli uzaqda olan çoxsaylı tayfalara və xalqlara təsir etmiş, İran aləminin mədəni və dini mərkəzinə çevrilmişdi. Strabon yazırdı ki, madalılar ermənilərin və daha öncə farsların, onların hökmdarlarının və Asiyada hökmranlıq adətlərinin baniləridir. Şübhəsizdir ki, Mada dövrü Cənubi Azərbaycan tayfalarının



downloaded from KitabYurdu.az

tarixində mühüm nailiyyətlər və müxtəlif dəyişikliklər zamanı olmuşdur. İran və Cənubi Azərbaycan sakinlərinin dini həyatında Mada maqlarının rolu xüsusilə böyük idi.

**Mədəniyyət və din.** Cənubi Azərbaycan əhalisinin mədəniyyəti və dini görüşləri bir çox qonşu xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqədə inkişaf edirdi. İrandilli tayfalar bu zonaya məişət, hərbi sənət, təsərrüfatçılıq, ictimai-siyasi institutlar, mədəni-ideoloji görüşlər və mifologiya sahəsində bir çox yeni cəhətlər gətirdilər. Onlar aborigenlərdən bir çox cəhətləri, xüsusilə erkən Mada geyimini əxz etdilər. Bizə Aşşur relyeflərindən məlum olan həmin geyim lullubilərin geyimi əsasında yaranmışdı. Mada papağı tiara haqqında da bunları demək lazımdır. Düzdür, sonralar madalılarda başqa geyim meydana gəldi; madalılar sonralar Persepol relyeflərində həmin geyimlə əks olunmuşlar. Görünür, əski geyim yalnız kaspilərdə qalmışdı, Mada parçaları və geyimi bütün qədim dünya miqyasında məşhurlaşmışdı. Aristofanın "Qurbağalar" əsərində deyilir ki, Mada parçalarında at-xoruz, keçi-maral və başqa fantastik heyvanlar təsvir edilirdi. Mada xlamidaları (bürüncəkləri) geniş yayılmışdı.

Gəlmə tayfalar aborigenlərin nəinki maddi mədəniyyətini, təsərrüfat nailiyyətlərini mənimsəmiş, habelə müəyyən dərəcədə onların antropoloji tiplərinin də varisləri olmuşlar. Cənubi Azərbaycan ərazisində təşəkkül tapmaqda olan xalq öz dillərini itirmiş gəlmələrlə qaynayıb-qarışmış yerli əhalinin nəsillərindən ibarət idi. Etnomədəni simbioz baş verirdi.

Madalıların işğalları sayəsində artıq Əhəmənilərin hakimiyyətinə qədərki dövrdə Cənubi Azərbaycan bölgəsində tədricən yeni etnik törəmə təşəkkül tapmağa başladı. Həmin törəməni şərti olaraq "Mada-Atropatena xalqı" adlandırmaq olar.

Madalılar Qərbi Asiyanın qədim mədəniyyətinin inkişafında böyük rol oynamışlar. Onların öz yazısı vardı. Lakin həmin yazının nümunələrini aşkar etmək mümkün olmamışdır. Madanın və onunla həmhüdud olan bölgələrin ərazisində cəmisi bir neçə mixi yazılı fraqment (ikisi Marlikdən aşkar edilmiş möhürlərin üzərində, biri isə Nuşi-Cantəpədə tapılmış gümüş parçasında) və (yerli hökmdarın adından yazılmış) Akkad dilində mixi yazılarla tərtib olunmuş kiçik bürünc cədvəl, habelə arami yazıları olan bir neçə vaza tapılmışdır. Mixi yazı e.ə. XI-IX əsrlərə, arami yazıları isə e.ə. VIII-VII əsrlərə aid edilir.

Madalıların qeyri-adi yüksəlişi, qüdrəti və uğurları qədim dünyanı onlara diqqət yetirməyə vadar etdi. Madalılar, onların əməlləri haqqındakı xəbərlər Aralıq dənizinin, Helladanın və Cənub-Şərqi Avropanın şərq vilayətlərinə çatmışdı. Yunan müəllifləri Miletli Hekatey, Miletli Dionis, Lampsaklı Xaron və başqaları madalılar haqqında yazmağa başladılar.

Mada dövləti İran yaylasında və onun hüdudlarından kənarda yaşayan bir çox xalqlara və tayfalara təsir etmiş İran aləminin mədəni və dini mərkəzi idi.



downloaded from KitabYurdu.az

Madalıların dini-fəlsəfi təsəvvürləri yəhudi dininə, ilkin xristianlığa və yunan fəlsəfi fikrinə müəyyən təsir göstərmişdi.

İran yaylasının ərazisində məskunlaşmağa başlamış Mada tayfalarının maddi mədəniyyəti, incəsənəti və ideoloji görüşləri Xurvin, Marlik, Deyləman, VI Sialkda abidələr qoyub getmiş tayfaların həyatının həmin tərəflərindən az fərqlənirdi. Bu abidələrdə aşkar olunmuş incəsənət əşyalarından bəziləri bilavasitə "Avesta" miflərindən çıxaraq "oxunur". Aşşur mətnlərindən əldə edilmiş onomastik məlumatlar əsasında tam müəyyənliklə göstərilən dövrdə bəzi , hallarda (daha sonrakı dəlillər üzrə bunu müəyyən etmək olar) "Avesta" formalarından fərqlənən qədim dinlərdən birinin -mazdaizmin səciyyəvi cəhətlərinin Qərbi İran vilayətlərində təşəkkül tapdığını iqrar etmək olar.

Ahura Mazda (Mazda, Ahura) adlanan əsas tanrıya, tanrıların kifayət dərəcədə çoxsaylı dəstəsinə - çox zaman bir-biri ilə düşmənçilik edən dayvalara (antropomorf quruluşuna malik olan naturalistik tanrılara) və ahuralara (əxlaqi səciyyəli hakimiyyətə malik olan, şər qüvvələrinə qarşı mübarizə aparan tanrılara) əsaslanan bir sıra dini sistemlər mazdaizm adlandırılır.

Kiçik Avestada olduğu kimi, iki əbədi başlanğıcın - Xeyirlə Şərin, İşıqla Zülmətin bir-birinə qarşı qoyulmasında ifadə olunan dualizm mazdaizm üçün səciyyəvi idi.

Madalıların maddi mədəniyyəti haqqında Mada qalalarının əks olunduğu Aşşur təsvirləri, Mada paytaxtı Ekbatan zonasında, Baba-Cantəpədə və Nuşi-Cantəpədə arxeoloji qazıntılar nəticəsində əldə olunmuş dəlillər əsasında mühakimə yürütmək olar.

Mada mədəniyyətinin daha erkən abidələri Luristanda, məşhur "Luristan tuncları" zonasında aşkara çıxarılmışdır. Mövzularının bir qismi aşkar şəkildə Avesta mənşəli olan Luristan tuncları əsil Mada incəsənətinin meydana gəlməsi və inkişafında müstəsna dərəcədə mühüm rol oynamışlar. Baba-Cantəpə adlanan iri məskən Mada mədəniyyətinin, xüsusilə tikinti sənətinin və memarlığının maraqlı abidələrindən biridir. Bu məskən Luristanın Piş-e-Kuh adlı yerində, bir neçə təpədə yerləşmişdir. Həmin məskən çoxtəbəqəlidir, II və III Dəmir dövrlərini (e.ə. X-Vl əsrləri) əhatə edir. Məskənin erkən təbəqələri Madaya qədərki zamana aiddir. Abidənin yalnız yuxarı təbəqəsi erkən Mada dövrü ilə bağlıdır. Bu məskən mədəniyyət abidələrinə və memarlıq detallarına görə Mada memarlığının Həmədandan təxminən 70 kilometr cənubda, əsrimizin 60-cı illərinin sonlarından arxeoloji cəhətdən tədqiq olunan mühüm abidələrindən biri Nuşi-Cantəpə ilə yaxındır.

Nuşi-Cantəpə kompleksi geniş vadi üzərində yüksələn təbii təpənin zirvəsində yerləşmişdir, əsasən, iki məbəddən, "qalaçadan" və sütunlu zaldan ibarətdir. Memarlıq baxımından çox mürəkkəb olan mərkəzi od məbədi daha maraqlıdır. Bu, səcdəgaha və minbərə malik olan, mərtəbəli romb şəklində ucaldılmış hündür



downloaded from KitabYurdu.az

qüllədir. Həmin qüllədə "müqəddəs" od alovlanırdı və bu odun izləri ağardılmış çiy kərpiclər üzərində qalmışdır. Görünür, bu məbəd Nuşi-Cantəpə ərazisində yalnız ən qədim tikili deyil, habelə İranda zərdüştiliyin bütün tələblərinə cavab verən ilk mazdaistik obyekt idi.

E.ə. VIII əsrin ortalarında, Mada tayfa ittifaqının və Mada dövlətinin başlanğıc dövründə yaranmış, onun çiçəklənməsi dövründə də mövcud olmuş Nuşi-Cantəpə kompleksi Selevkilər zamanınadək yaşamışdır. Erkən Mada dövrünün bütün kompleksində Urartu və Aşşur mədəniyyətlərinin, xüsusilə memarlıq ənənələrinin təsiri nəzərə çarpır.

Mada dövrünün tikililərinin qalıqları Qodin-təpədə, Sorx-i Dumbda (Luristanda), VI Sialkda və başqa yerlərdə aşkara çıxarılmışdır. Bunlar xeyli "Luristan tunc"nun, silindrşəkilli möhürün tapıldığı Sorx-i Dumbdakı məbəd, Qodin-təpədəki sütunlu zal və digər materiallardır.

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, Mada incəsənətinin köklərini ədəbiyyatda "Ziviyə dəfinəsi" və yaxud "Saqqız dəfinəsi" kimi məlum olan kompleksdə axtarmaq lazımdır. Dəfinə (bu əşyaların qəbirdən olduğu haqqında fikir mövcuddur) 1947-ci ildə, Urmiya gölündən təxminən 100 kilometr cənub-şərqdə yerləşmiş kiçik Ziviyə kəndinin yaxınlığında (Saqqız şəhərindən 40 kilometr şərqdədir) təsadüfən aşkar olunmuşdur. Dəfinədə 350-dək qızıl, gümüş, tunc və sümükdən hazırlanmış incəsənət əşyaları vardı. Əşyaların əsas kütləsini e.ə. VIII-VII əsrlərə aid edirlər. Bir çox əşyalarda Urartu, Suriya-Finikiya və Aşşur incəsənətinin təsiri maddiləşmişdir. Dəfinədə məlum olan Ön Asiya incəsənəti abidələrindən başqa qarışıq üsluba malik olan əşyalar da təmsil edilmişdir. Qarışıq üsluba malik olan əşyalarda Ön Asiyaya xas olan cəhətlər üslubun, texnikanın, təsvir detallarının yeni, o zamanadək məlum olmayan cəhətləri ilə uzlaşır. Onlar bəzək əşyaları, silahlar, insiqniyalar (ali hakimiyyət işarələri) və başqalarıdır. Bu əşyaların sırasında qızıldan hazırlanmış pektoralı, qılınc dəstəyinin başlığını, qılıncın aşağı qismini, diadema qırığını, düzbucaqlı medalları, gümüş nimçəni, at ləvazimatının gümüş və tuncdan hazırlanmış detallarını göstərmək olar. Həmin əşyalar Mannada və qonşu vilayətlərdə Həsənli, Marlik metalişləmə ustalarının xələfləri, yəni mannalılar tərəfindən hazırlanmışdır. Həsənli-Luristan-Marlik-VI Sialk özünəməxsus dördbucaq, Dəmir dövründə mövcud olmuş incəsənət əsasında madalıların, farsların və digər xalqların incəsənətinin, yaranmaqda olan skif incəsənətinin elementlərinin təşəkkül tapdığı ərazi idi. Skif incəsənətinin təşəkkül tapmasında e.ə. X-VIII əsrlərə aid olan Luristan tunclarının da mühüm rolu vardı.

İlk dövrdə bütün Mada tayfaları üçün məcburi olan vahid dini sistem olmamışdır. Madalılar arasında sonralar müəyyən dərəcədə "Avesta"da öz əksini tapmış, habelə daha sonrakı dövrdə öz mövcudluğunu "bidətçi" təlimlər kimi davam



downloaded from KitabYurdu.az

etdirmiş müxtəlif dini təlimlər yayılmışdı. Mada tayfalarının dini təbiət qüvvələrinə sitayişdən törəmiş politeizm idi.

Artıq e.ə. I minilliyin ilk yüzilliklərində Cənubi Azərbaycanda və İran Kürdüstanında qərarlaşmış madalıların dini görüşləri haqqındakı müəyyən təsəvvürü bizə onomastik material verir; bu, ilk növbədə, Aşşur mətnlərində xatırlanmış hökmdarların, tanrıların adlarıdır. Daha sonra erkən Mada ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış məbədlərdir.

Bu zonanın e.ə. IX-VIII əsrlərə aid olan onomastikasında spesifik mazdaistik anlayışlar mövcuddur. Bu cəhət erkən Mada vilayətlərində və ona Qərbdən bitişik olan vilayətlərdə mazdaizm və yaxud bir sıra mazdaistik təlimlərinin yayılması haqqında fikir söyləməyə imkan verir.

Əlbəttə, bu erkən mazdaizmin "Avesta"da öz əksini tapmış zərdüşti mazdaizminə (daha doğrusu, mazdayasnizmə) nə dərəcədə uyğun olduğunu demək çətindir. Mazdaizmdə hər şey "Avesta" ilə uzlaşmır, lakin onda Avesta inamları ilə aşkar ziddiyyət təşkil edən ünsürlər də yoxdur. Beləliklə, Cənubi Azərbaycanda və İran Kürdüstanında mazdaist təlimlərin "Avesta" təsirləri olmadan, müstəqil surətdə mövcudluğundan danışmaq olar.

Şübhəsizdir ki, vaxtilə İranın (o cümlədən Cənubi Azərbaycanın) və Orta Asiyanın xeyli qisminin sakinlərinin düşüncəsinə hakim kəsilmiş, zərdüştilik dininin müqəddəs kitablarının məcmusu olan "Avesta" müxtəlif xarakterli mənbədir, müxtəlif yerlərdə meydana gəlmiş çoxsaylı təbəqələrə malikdir.

Avestanı adətən iki hissəyə -"Qatik ("böyük, yaşlı" mənasında) Avesta"ya və "Kiçik Avesta"ya bölürlər. Ehtimal edirlər ki, "Qata"lar Zərdüştün fərdi yaradıcılığının məhsuludur. Alimlər zərdüştün fəaliyyətini müxtəlif dövrlərə - e.ə. VII-VI minilliklərdən başlamış e.ə. VII-VI əsrlərədək olan zamanlara aid edirlər. Onlar adətən "Qatik Avesta"nın daha qədim olduğunu qeyd edərək belə fikir irəli sürürlər ki, "Kiçik Avesta" ənənəsi peyğəmbər Zərdüstün ilkin, təmiz təliminin sonralar təhrif olunmuş formasıdır. Lakin bu, belə deyildir. Bizim "Kiçik Avesta" haqqında bildiklərimiz onun ideyalarının və obrazlarının xeyli dərəcədə qədim olduğunu təsdiqləyir.

"Avesta" təlimləri Azərbaycanın, İranın və Orta Asiyanın qədim tayfaları arasında yayılmışdı. Aşşur mənbələrindən əldə olunmuş onomastik materiallar, Herodotun məlumatları və başqa erkən antik mənbələr e.ə. I minilliyin başlanğıcında Cənubi Azərbaycanda "Kiçik Avesta" inamlarının erkən ocağının mövcudluğu haqqında danışmağa imkan verir.

Madalıların dini təsəvvürləri Qərbi İran vilayətlərində meydana gəlmiş "Videvdat"da əks olunmuş cəhətlərə uyğundur. "Videvdat"ın tərtibçiləri isə Mada maqları ola bilərdilər. Bu kitabın bütün məzmunu maqların böyük rola malik olduğunu təsdiq edir.



downloaded from KitabYurdu.az

"Videvdat"da pislənən devlər arasında Mada panteonunun qədim İran tanrıları az deyildir. Şübhəsizdir ki, Tarvi Taruvi ("zəfərgətirən" mənasını daşıyır) adlanan allah (sonralar dev) bunlardan biri idi. Mütəxəssislər güman edirlər ki, Tarvi adı Təbrizin Aşşur mətnlərindən məlum olan qədim adında – Tarmakis-də öz əksini tapmışdır. Təbrizlə Van gölü arasında yerləşmiş Kunduru (Hunduru) toponiminin, e.ə. 820-ci ilə aid olan iki Zarisu adının mövcudluğu qeydə alınmışdır. Zarisu adı "Videvdat"da xatırlanan tanrının (sonralar devin) – Zarisa-nın adı ilə bağlıdır; sonuncu isə həmin "Avesta"dan göründüyü kimi, Tarvi adlanan allahla sıx şəkildə əlaqədardır. Tarvi - Tarmakis toponimindən görünür ki, həmin allaha sitayiş artıq e.ə. I minilliyin lap başlanğıcında Təbriz zonasında mövcud olmalı idi.

"Maqların təlimi" haqqında məsələ çox mürəkkəbdir. Maqlar mənşə etibarilə Mada tayfalarından biri idilər. Bir çox hallarda etnik mənsubiyyətindən asılı olmayaraq sadəcə kahinlər də "maq" adlandırılırdılar. Oda sitayişin xidmətçiləri və qədim ənənələrin mühafizəçiləri olan maqlar, daha doğrusu, maqlar tayfasından olan kahinlər Mada hökmdarlarının, hər halda son Mada hökmdarı Astiaqın rəsmi saray kahinləri idilər.

Maqlar Raqa (orta əsrlərdə Rey, Tehran yaxınlığındadır) zonasında geniş və məhsuldar torpaqlara malik idilər. Güman etmək olar ki, buna görə də hələ orta əsrlər dövründə bu bölgənin hakimləri "maqların başçısı" adlandırılmışdılar. "Onlar divarlarla möhkəmləndirilməmiş kəndlərdə yaşayırdılar; onlara xüsusi özəl qanunlar əsasında yaşamaq icazəsi verilmişdi, dinə hörmət olunduğu üçün isə onlar ali hörmətə malikdirlər" [A m m i a n M a r s e l l i n, XXIII, 6, 35].

Aristotel Ferekidin görüşləri ilə "maqların təlimi" arasında oxşarlıq olduğunu qeyd edirdi. Bu qeyddən belə bir nəticə çıxarmaq olar ki, artıq e.ə. VII əsrdə Qərbi İran vilayətlərində "maqların təlimi" fəaliyyətdə olmuşdur. Bəzi alimlər belə hesab edirlər ki, "maqların təlimi" mahiyyətcə "zurvanizm" (zrvanizm, zarvanizm) təlimidir. Zurvana sitayiş İranın qərb vilayətlərində artıq e.ə. VI əsrin başlanğıcından təsdiqlənir. Burada onu zamanın androgin (kişi-qadın təbiətli) allahı kimi tanıyırdılar. Zurvan Elam dilində tərtib olunmuş Persepol sənədlərindən də məlumdur. Bu sənədlərdə Zurvan (Zervan, Zarvan, Zrvan) Turma adlandırılır. Lakin ehtimal etməyə bəzi əsaslar vardır ki, bu, əbədi zaman və tale allahına sitayiş e.ə. I minilliyin başlanğıcına aid olan Luristan tunclarında da təsdiqlənmişdir.

Zurvanizmin ali allahı olan Zurvan əbədi mövcud olan Sonsuz Zaman kimi düşünülürdü. Mifdə Zurvan androgin (kişi-qadın, iki-cinsli) şəkildə təsvir edilir. O, Ahriman və Ormaz adlanan əkizləri dünyaya gətirmişdir. Bundahişnə görə, Zurvan "hər iki yaranışdan - Xeyir və Şərdən qüdrətlidir". Zurvanizmin bəzi təsəvvürləri "Avesta"ya daxil olmuşdur. Ola bilər ki, hələ Sasanilər dövründə zərdüştiliyin bidətçi təriqətlərindən biri olan zurvanizmdə ən qədim, Avestayaqədərki dövrlərin ünsürləri



downloaded from KitabYurdu.az

mühafizə edilirdi. Hətta ehtimal etmək olar ki, zurvanizm monoteizmə meyilli və yaxud artıq hətta monoteist təlim idi.

Zurvanizm, ümumiyyətlə, Avesta təlimləri kimi iudaizmin, erkən Xristianlığın və qnostisizmin inkişafına böyük təsir göstərmişdir.

Diogen Laertli [Rq., I, 7] "maqların təlimi"ndən danışarkən məlumat verir ki, maqlar odu, torpağı və suyu allah hesab edirlər. Erkon zərdüştilik kimi, maqların təliminə də bütpərəstlik yaddır. Maqlar allahların təsvirlərini tanımırdılar.

Qərbi İran vilayətlərində hələ e.ə. I minilliyin başlanğıcında oda sitayiş edirdilər. Bu ərazidəki atəşpərəstlik məbədləri, xüsusilə Nuşi-Cantəpədəki Mada məbədi bunu tam müəyyənliklə təsdiq edir (e.ə. VIII əsrə aiddir).

Antik müəlliflərin məlumatlarının təsdiq etdiyi kimi, maqların təliminin əsasını iki başlanğıcın - İşıqla (Oromazda Ahuramazda) Zülmətin (Ariman, Anhra-Manyu) mübarizəsi təşkil edirdi.

Madalıların mənəvi mədəniyyətində dini görüşlərdən və mifologiyadan başqa habelə epik yaradıcılıq da mühüm yer tuturdu. Məlumdur ki, hələ çox qədim zamanlarda Qərbi İran vilayətlərində müxtəlif epik əsərlər mövcud idi. Həmin əsərlərin süjetləri çox zaman miflərlə bağlı olurdu.

Mada mədəniyyəti və dini atropatenalıların mənəvi mədəniyyət xəzinəsinə daxil oldu, madalıların özləri isə Atropatena sakinlərinin etnik tarixində çox mühüm rol oynamışlar.



downloaded from KitabYurdu.az

XI F Ə S İ L

# AZƏRBAYCAN TORPAQLARI FARS ƏHƏMƏNİLƏR (HAXAMANİŞİLƏR) DÖVLƏTİNİN TƏRKİBİNDƏ

**Mada çarlığının və Azərbaycan torpaqlarının Əhəməni II Kuruş (Kir) tərəfindən işğal edilməsi.** Astiaqın hökmranlığı dövründə (e.ə. 585-550-ci illərdə) Mada çarlığının vəziyyəti çox mürəkkəb idi. Mada cəmiyyətinin daxili ziddiyyətləri kəskinləşmişdi. Qəbilə əyanlarının dövlətdə mərkəzləşməni ləğv etməyə can atan böyük bir qismi ilə mərkəzi hakimiyyəti var qüvvə ilə möhkəmlətməyə çalışan Astiaq arasında ziddiyyətlər güclənmişdi. Kahinlər-maqlar da çardan narazı idilər. Xarici siyasi vəziyyət qorxulu idi.

Çarın başı Babil işlərinə qarışmışdı. Şimali Mesopotamiyada müharibə aparılırdı. Mada ordusu yorulmuşdu, ölkənin maddi ehtiyatları tükənməkdəydi. Məhz bu vaxt Kuruşun (Kirin) başçılığı ilə farslar üsyan etdilər.

Farslarla madalılar arasında e.ə. 553-cü ildə başlanan müharibə üç il çəkdi. E.ə. 550-ci ildə Kuruş Astiaqı məğlub edib əsir aldı. Ekbatana (Ha$^{n}$gmatana) sarayının sərvətlərini ələ keçirib Parsaya apardı. Mada dövləti süqut etdi, hakimiyyət Kuruşun əlinə keçdi. O, Mada çarlarının rəsmi titullarını qəbul etdi.

Madanın farslar tərəfindən işğalı nəticəsində madalılar dövlət müstəqilliyini itirib farsların hakimiyyəti altına düşdülər. Kuruş itaət altına alınan hər hansı başqa ölkə ilə necə rəftar edirdisə, Mada ilə də o cür rəftar etdi. Ekbatana dağıldı, madalıların bir hissəsi qul edildi və Madanın üzərinə bac qoyuldu. Mada, görünür, elə Kuruşun öz dövründə satraplığa çevrilmişdi. Mada əyanları tezliklə sıxışdırılıb arxa sıraya keçirildi, xalq kütlələrinə isə ikiqat zülm edilməyə başlandı.

Madalılara qalib gəldikdən sonra Kuruş istila müharibələrinə başladı. On ildən bir qədər artıq dövrdə çox nəhəng bir imperiya - Əhəməni dövləti yaradıldı. Onun sərhədləri qərbdə Aralıq və Egey dənizlərinə, şərqdə Orta Asiyaya çatırdı.

"Ölkələr çarlığı" öz etnik tərkibinə və iqtisadi quruluşuna görə əsla yekcins və möhkəm deyildi. O, "çarlar çarı" başda olmaqla Əhəmənilər tərəfindən idarə edilən farslar dövləti idi. Bütün farslar vergilərdən və icbari işlərdən azad edilmişdi. Ən mühüm mülki və hərbi vəzifələr farsların, fars əyanlarının əlində idi.

Kuruş qədim dövrün ən görkəmli şəxsiyyətlərindən biri idi. Onun yaratdığı Əhəmənilər dövlətində çox geniş bir ərazidə uzun müddət nisbi əmin-amanlıq təmin olunmuşdu. Bu, təsərrüfat həyatının və beynəlxalq ticarətin çiçəklənməsinə, habelə mədəniyyətin inkişafına, müxtəlif ölkələrin xalqları arasında mədəni əlaqələrin genişlənməsinə kömək edirdi.



downloaded from KitabYurdu.az

Biz ilk Əhəmənilər dövründə Azərbaycan ərazisinin hansı hissəsinin fars dövləti tərkibinə daxil olduğunu bilmirik. Maraqlıdır ki, Madanın birinci satrapı Oybar "Nabonidin salnaməsi"ndə [amçt]pehat [mat]Gutium adlanır. Sonuncu ad (Cutium) qədim Mada vilayətlərinə - Cənubi Azərbaycana, güman ki, qədim Urartuya da işarədir. Ksenofontun məlumatından aydın olur ki, Mada Kirin dövründə Ermənistan və kadusilərlə eyni canişinliyə daxil idi.

Deməli, Cənubi Azərbaycan torpaqlarının xeyli hissəsi, bəlkə də onun bütün ərazisi bu dövrdə Mada satraplığına daxil idi. Herodot farsların hökmranlığının Qafqaz sıra dağlarınadək yayıldığını söyləyir. Lakin bilmirik ki, onun dediklərini Kuruşun zamanınamı aid etmək lazımdır, yoxsa sonrakı dövrə. X, XI və XIV satraplıqların daxil olduğu vilayətlər hər halda e.ə. V əsrin birinci yarısından gec olmayaraq əsasən artıq farslara tabe idi.

Herodota görə, X satraplıq olan Madaya köhnə Mada çarlığının ərazisindən başqa, parikanilərin və ortokoribantilərin torpaqları da daxil idi ki, bunlar da ancaq Cənubi Azərbaycan, qismən də Şimali Azərbaycan torpaqlarında ola bilərdi.

XI satraplığa kaspilər, pavsiklər, pantimatlar, dareytlər daxil idilər. Elə bu satraplığa, şübhəsiz, kadusilər də daxil idilər. Doğrudur, Herodot onların adlarını çəkmir. Lakin ola bilsin, Kaspinin cənub-qərb sahilində yaşamış tayfaların ümumi adı kimi işlənən "kaspilər" adı altında kadusilər də nəzərdə tutulurmuş.

XIV satraplığa Kür-Araz rayonlarında yaşayan utilər və müklər, habelə Cənubi Azərbaycan vilayətlərində və onlara bitişik torpaqlarda yaşayan saqartilər daxil idilər.

Beləliklə, Azərbaycan Əhəmənilərin fars dövləti tərkibinə daxil oldu. Əhəmənilərin hakimiyyəti dövründə xammal ehtiyatları ilə, sənətkarlıqla və mədəni ənənələrlə zəngin olan Cənubi Azərbaycan bu regionda aparıcı rola malik idi.

**Qaumatanın çevrilişi. Əhəmənilər əsarətinə qarşı üsyanlar.** Fars monarxiyası Əhəmənilərin zülmünə çətinliklə dözən və imkan olan kimi yadelli zülmdən azad olmağa çalışan çoxsaylı, keçmişdə qüdrətli olan xalqlardan təşkil olunmuşdu. Ağır vergilər və hər cür mükəlləfıyyətlər nəhayətsiz idi. Silah gücünə Əhəmənilərə tabe olunmuş bütün xalqlar zülmə boyun əymək istəmirdilər.

Kirin ölümündən sonra onun oğlanları arasında hakimiyyət uğrunda mübarizə başlandı. Bu isə vəziyyəti daha da kəskinləşdirdi. Hər yerdə narazılıq hökm sürürdü. Ksenofont yazırdı: "...Pisliyə doğru ümumi dönüş başlandı".

Kambuciyanın (Kambizin, 530-522-ci illər) hakimiyyətə gəldiyi zaman imperiyada vəziyyət daha da kəskinləşdi. Tezliklə Kambiz daxili iğtişaşları bir qədər azalda bildi. Bundan sonra o, e.ə. 526-cı ildə Misiri fəth etməyə yollandı.

Hökmdarın olmadığı müddət ərzində ölkədə narazılıq artdı. Geniş antiəhəməni hərəkatının başlanmasına Darayavahuşun (Daranın) Bağıstan (Behistun, Bisütun) kitabəsi də şahidlik edir: "Sonra isə yalanlar ölkələrdə - həm Parsada, həm Madada, həm də digər ölkələrdə gücləndi".



downloaded from KitabYurdu.az

Geniş sosial mübarizənin başlanmasından istifadə etmiş Qaumata adlı maq üsyan etdi.

Qədim yazıçıların əksəriyyəti, habelə hökmdar Dara Qaumatanın çıxışını farsların hakimiyyətinə - Əhəmənilərə qarşı çevrilmiş Mada üsyanı olduğunu yaxşı bilirdilər. Antik müəlliflər şübhə etmirdilər ki, Qaumatanın hakimiyyətə sahib olması onun (yəni hakimiyyətin) madalıların əlinə keçməsi demək idi. Bu, Bağıstan kitabələrinin məlumatından da aydın olur.

Dara öz kitabəsində adətən düşmənlərin etnik mənsubiyyətini qeyd edir ("babilli", "erməni", "elamlı" və s.). Ona görə də çar Qaumatanı "maq" adlandırarkən (maqlar Mada tayfalarından biri idi, onların içərisindən "maq" adlandırılan kahinlər çıxırdı) öncə üsyançının etnik mənsubiyyətini və sonra isə Qaumatanın kahinlər təbəqəsinə mənsub olduğunu nəzərdə tuturdu. Bunu isbat edən Bağıstan kitabəsinin Babil mətnində Daranın əsas düşməni "Qaumata adlı madalı maq" adlandırılır. Maraqlıdır ki, bu mətndə fars və elam variantlarından fərqli olaraq deyilir ki, Qaumata Parsadan (farsların ölkəsi) başqa "Madanı da üsyankar etmişdi".

Beləliklə, Qaumatanın çevrilişi farsların hakimiyyətinə qarşı Mada narazılığının təzahürü idi. Güman etmək olar ki, Qaumata madalıların hökmranlığını bərpa etmək niyyətində idi.

Qaumatanın ideoloji silahı artıq Madada yayılmış, hər halda maqların qəbul etdiyi zərdüştilik - mazdayasnizm təlimi idi. Bu təlimdə geniş xalq kütlələrinin ümidlərini, səylərini müəyyən dərəcədə əks etdirən demokratik və mütərəqqi ideyalar özünü büruzə verirdi. Bəzi mənbələr Qaumatanın Zaratuştranın (Zərdüştün) tərəfdarı və məsləkdaşı olduğunu güman etməyə imkan verir.

Öz islahatlarını həyata keçirməyə başlamış Qaumata geniş xalq kütlələrinin mənafeyi naminə yuxarı təbəqəni (ilk növbədə, nəsli əsilzadələri) bir sıra imtiyazlardan məhrum etdi, onların əmlakını, qullarını əllərindən aldı, imperiyanın hər bir vilayətinə qasidlər göndərdi, xalqların üç il müddətinə vergilərdən və orduda xidmətdən azad edildiyini bildirdi. O, əsilzadələrə qarşı inadlı mübarizə apardı, amansız və qəddar tədbirlərlə onların öz hakimiyyətlərini geri qaytarmaq cəhdlərinin qarşısını aldı. Bütün bu tədbirlərdə Qaumata ən geniş xalq kütlələrinin, "yaxşılıq etdiyi bütün təbəələrinin" [H e r o d o t] fəal yardımına arxalanırdı.

Qaumatanın rəhbərlik etdiyi hərəkat geniş xalq kütlələrinin çıxışı idi. Bu hərəkat əsasən nəsli əyanlara qarşı yönəldilmişdi. İmperiyanın müxtəlif vilayətlərində, xüsusilə Madada Əhəmənilərə qarşı reaksiya xarakteri daşıyan siyasi mübarizə özünün inkişafı prosesində etnik sərhədləri keçmiş, hökmran fars sülaləsinin və onunla bağlı olan yerli nəsli əsilzadələrin zülmünə qarşı çevrilmiş ümumi xalq hərəkatı, etirazı ilə birləşmişdi. Qaumatanın dövründə, geniş xalq təbəqələri güclənmiş sinfi mübarizə nəticəsində yerli əyanların hesabına bir sıra imtiyazlar əldə



downloaded from KitabYurdu.az

etdilər. Dara bu imtiyazları geri almaq istədikdə silahlanmış xalq çıxış etdi, bu nailiyyətlərin müdafiəsi uğrunda mübarizəyə başladı.

Maqın əsas vəzifələrindən biri çar hakimiyyətinin, habelə sarsılmış imperiyanın möhkəmləndirilməsi idi. Güman etmək olar ki, Qaumata ayrı-ayrı köhnə çarlıqları (Madanı, Babili, Elamı və s.) bərpa etmək istəyən qiyamçılardan fərqli olaraq, "ölkələr çarlığı"nı möhkəmləndirməyə can atırdı. Lakin indi "Ölkələr çarlığı" farsların deyil, madalıların başçılığı altında bərpa olunmalı idi. Məhz buna görə də, maqın həlak olmasından sonra "farslardan başqa" [H e r o d o t] hamı onun taleyi üçün təəssüflənirdi. Qaumatanın özünü etibarlı adamlarla əhatə etmək arzusunu, maqın iqamətgahının Parsadan Madaya keçirilməsi faktını da onun yalnız madapərəst siyasəti ilə izah etmək mümkündür.

E.ə. 522-ci ilin sentyabrında maq öldürüldü. Qaumata öldürülən kimi Fravartişin başçılığı ilə Madada bir neçə ay davam etmiş böyük xalq üsyanı başlandı. Madalılara qədər elamlılar və babillilər, sonra isə farslar, margianalılar, digər xalqlar çıxış etdilər.

Üsyan etmiş madalılara ermənilər, parfiyalılar və hirkaniyalılar da qoşuldular. Bir qədər sonra Çissantaxmanın başçılığı ilə Cənubi Azərbaycan sakinləri olan saqartalılar mübarizəyə qalxdılar. Bu üsyan haqqında Bağıstan kitabəsində deyilir: "Saqartalı Çissantaxma mənə qarşı çıxdı. O, xalqa belə deyirdi: "Mən Saqartada çaram, Uvaxşatra (Kiaksar - *məsul red.)* nəslindənəm". Bundan sonra mən fars və mada qoşunlarını [saqartalıların üzərinə] göndərdim; madalı Tahmaspadanı onların rəisi təyin etdim"...

Üsyanlar imperiyanın digər vilayətlərində də baş verirdi. Geniş dövlətin ərazisi bütün Ön Asiya tarixində görünməmiş, izdihamlı xalq üsyanları alovuna bürünmüşdü.

Madalıların və saqartalıların üsyanları Dara üçün daha təhlükəli idi. Hökmdarın öz kitabəsində üsyan başçılarına verilmiş işgəncənin təsvirini verməsi bu üsyanı başqa üsyanlardan fərqləndirir, Daranın Fravartişə və Çissantaxmaya xüsusi nifrət bəslədiyi haqqında danışmağa imkan verir. Hökmdar onları şəxsən şikəst etmiş, vəhşicəsinə işgəncə vermiş, sonra isə payaya keçirtmişdi. Fravartişin yaxın silahdaşlarının isə dərisi soyulmuşdu.

Fravartişin sərkərdəliyi ilə madalıların üsyanı Mada dövlətinin müstəqilliyini bərpa etmək yolunda son təşəbbüs idi. Görünür, özünü Kiaksar nəslindən elan edən Çissantaxma Əhəmənilər imperiyasından ayrılmağa və Saqartiyada (əsasən Cənubi Azərbaycan ərazisini əhatə edən) müstəqil dövlət yaratmağa çalışırdı.

Lakin imperiyanın bütün qüvvələrinin çox böyük səyi nəticəsində Dara xalq kütlələrinin üsyanlarını yatıra bildi.

**Azərbaycan torpaqları Əhəmənilər hakimiyyəti altında. E.ə. VI əsrin son rübü - IV əsrin birinci yarısında Əhəmənilər dövləti.** I Dara üsyanları amansızlıqla yatırtdıqdan, bir sıra tayfaları və xalqları İran dövlətindən ayırmaq üçün göstərilən



downloaded from KitabYurdu.az

bütün cəhdlərə son qoyub hakimiyyətini möhkəmləndirdikdən sonra ümumimperiya miqyasında təbəddülat yaratmağa başladı. Bir sıra illər ərzində o, Əhəmənilər dövlətinin yaşaması üçün zəruri olan inzibati, vergi, maliyyə və hərbi xarakterli islahatlar keçirdi.

Dövlətin daxili vəziyyətini möhkəmləndirmək üçün xeyli iş gördükdən sonra I Dara xarici siyasət məsələləri ilə məşğul olmağı və öz torpaqlarını genişləndirməyi qərara aldı. O, Hind vadisi vilayətini tutdu, Orta Asiya saklarına qarşı yürüşlər etdi, Frakiyanı va Makedoniyanı ələ keçirdi, Qara dəniz sahillərində yaşayan skifləri itaət altına almaq üçün uğursuz cəhdlər göstərdi, Helladaya kəşfiyyat yürüşlərinə çıxdı.

Lakin bütün səylərinə baxmayaraq, öz hökmranlığının son dövründə I Dara xarici siyasətdə getdikcə daha tez-tez müvəffəqiyyətsizliyə uğrayırdı. E.ə. 500-cü ildə Kiçik Asiyanın yunan şəhərlərində farsların zülmünə qarşı üsyan qalxdı. E.ə. 490-cı ildə Attikaya soxulmuş farsların yunanlarla ilk böyük toqquşması Daranın tam məğlubiyyəti ilə başa çatdı.

Əhəmənilər dövləti yalnız güclü hərb maşınının sayəsində yaşaya bilirdi. Məhz hərbi qüvvənin köməyi ilə şah hakimiyyəti imperiyanın çoxlu xalqlarını itaətdə saxlayırdı. Lakin vaxtilə zəhmli bir qüvvə olan ordu getdikcə zəifləyirdi. Əvvəllər İran ordusunun özəyi sayılan fars azad icma üzvlərinin get-gedə var-yoxdan çıxması Əhəmənilər zorakılıqla toplanmış asılı adamlardan ibarət olan orduya muzdlu əsgərlər gətirməyə vadar etdi. Belə bir orduda cəngavərlik ruhunu və nizam-intizamı qoruyub saxlamaq getdikcə çətinləşirdi.

Bu şəraitdə iri satraplıqlar farsların hökmranlığından xilas olmaq üçün yeni bir qüvvə ilə cəhd göstərməyə başladılar. Ayrı-ayrı satraplar arasında toqquşmalar adi şəkil aldı. Şahın ən yaxın qohumları da mərkəzi hakimiyyətə qarşı tez-tez üsyan edirdilər. Separatizm cəhdləri, taxt-tac uğrunda mübarizə, saysız-hesabsız saray fitnə-fəsadları I Daranın vəfatından sonra daha da şiddətləndi. Onun oğlu Kserks (*Xsajarsan*; e.ə. 486-465-ci illər) qəsdçilər tərəfindən öldürüldü. Fitnə-fəsadlar və qətllər nəticəsində I Artaxsaça (Artakserks; e.ə. 465-424-cü illər) hakimiyyət başına gəldi. II Darayavahuş (Dara; e.ə. 423-404-cü illər) bir sıra qətllərdən və çoxlu fitnə-fəsadlardan sonra taxta çıxdı. Şah III Artaxsaca (Artakserks; e.ə. 358-338-ci illər) qüdrətli saray xadimi hərəmağası (xacə) Baqoy tərəfindən öldürüldü.

Demək olar ki, II Artakserksin (e.ə. 404-358-ci illər) ölümü ərəfəsində Əhəmənilər dövlətinin tənəzzülünün və dağılmasının bütün əlamətləri göz qabağında idi.

III Artakserks zamanında şah nəsli demək olar tamamilə məhv edilmişdi. Şah hətta körpələrə də aman verməmişdi.

Azərbaycan vilayətləri haqqında biliyimiz azdır. Yazılı qaynaqlarda Şimali Azərbaycan tayfaları haqqında heç bir məlumat verilmir. E.ə. VI-V əsrlərə aid arxeoloji materiallar də çox deyil. Arxeoloji materiallar e.ə. I minilliyin ikinci



downloaded from KitabYurdu.az

yarısının Şimali Azərbaycan vilayətlərini xeyli inkişaf etmiş oturaq əkinçilik-maldarlıq təsərrüfatına malik bir zona kimi təsvir edir. Burada yalnız təbii suvarmaya deyil, həm də çox böyük irriqasiya qurğularına əsaslanan suvarma əkinçiliyi mövcud idi ki, bu da əməyin məqsədyönlü təşkilindən xəbər verirdi. Həmin dövrdə Şimali Azərbaycan vilayətlərində müxtəlif sənətlər yüksək inkişaf səviyyəsinə çatmışdı, regionda yaşayan tayfalar digər ölkələrin xalqları ilə intensiv iqtisadi və mədəni əlaqə saxlayırdılar. Əldə olan materiallara əsasən deyə bilərik ki, bu vilayətlərdə dərin sinfi təbəqələşmə baş vermiş və şəhər həyatı inkişaf etməyə başlamışdı. Şimali Azərbaycan tayfalarının bir hissəsi, o cümlədən utilər və müklər XIV satraplığa, digər hissəsi (ola bilsin, həm də albanlar) XI satraplığa daxil idilər.

Əhəməni hökmranlığının müxtəlif dövrlərində Cənubi Azərbaycan ərazisinin ayrı-ayrı hissələri X, XI, XIV satraplıqların tərkibinə daxil idi. Cənubi Azərbaycanın əsas ərazisi hələ I Daranın hökmranlığının lap əvvəlində Mada satraplığının (Herodota görə, X satraplığın) tərkibində idi.

Əvvəllər Mada satraplığına daxil olan saqartilər I Daranın hökmranlığının ilk illərində Cənubi Azərbaycan vilayətlərində və ona qonşu olan bəzi rayonlarda mühüm rol oynayırdılar. Saqartilər, ola bilsin, e.ə. V əsrin əvvəlinə yaxın özlərinin keçmiş rolunu artıq itirmiş olsalar da, onların haqqında hətta sonralar yaşayıb-yaratmış müəlliflər də söhbət açırlar. Saqartilərin izləri onların yaşayış rayonunun toponimiyasında da qalmışdır. Saqartilərin əsas yaşayış rayonu Cənubi Azərbaycan idi.

Kür-Araz vilayətlərində yaşayan uti və mük tayfaları ilə birlikdə saqartilər bir satraplığın - XIV satraplığın sakinləri idilər.

I Daranın vaxtında Madanın tərkibindən Asaqarta adlanan əlahiddə bir əyalət ayrılmışdı. Asaqarta əyalətinə Madanın bütün şimal-qərb vilayətləri - hələ Bisütun kitabəsinin tərtib edildiyi dövrdə Mada satraplığının tərkibində olmuş vilayətlər daxil idi. Deməli, Asaqarta əsasən Kiçik Madaya, gələcək Mada Atropatenaya uyğun gəlirdi. Asaqarta satraplığı, ola bilsin, Şimali Azərbaycan ərazisinin bir hissəsini (utilər və müklər yaşayan ərazini) də əhatə edirmiş.

Biz Asaqarta satraplığının nə qədər ömür sürdüyünü bilmirik. Lakin orası məlumdur ki, nə Daranın son, nə də onun varislərinin kitabələrində Asaqartanın adı çəkilmir. Çox güman ki, Asaqarta sonralar yenidən Mada əyalətinə qatılmışdı. e.ə. V əsrin başlanğıcında madalılar Əhəmənilər dövlətində yenidən nəzərə çarpacaq rol oynamağa başlayırlar. Demək lazımdır ki, artıq I Daranın zamanında Cənubi Azərbaycan əhalisi madalılar adlanırdı.

Həm Cənubi, həm də Şimali Azərbaycan ərazisində yaşayan digər tayfalar, xüsusən kaspilər, utilər, müklər, parikanilər, matiyenlər, marlar və başqaları kimi, Mada kontingentləri də bir qayda olaraq Əhəmənilərin bütün yürüşlərində iştirak edirdilər.



downloaded from KitabYurdu.az

Cənubi Azərbaycanın vəziyyəti gərgin idi. Kadusilərə qarşı biri II Artakserksin, digəri III Artakserksin dövründə edilmiş iki yürüş də buna sübutdur.

Lakin kadusiləri sakitləşdirmək mümkün olmadı. İmperiyanın digər hissələrində də tam asayiş yox idi. Yunanlar yenə də itaətdən çıxırdılar, misirlilər onlara kömək edirdilər - onlar eyni zamanda Əhəməni torpaqlarına da soxulurdular. İran satrapları bir-biri ilə düşmənçilik edir və vuruşurdular, şah sarayı fitnə-fəsad yuvasına və qanlı çəkişmələr meydanına çevrilmişdi. Mərkəzi hakimiyyət kiçik şahlara bənzəyən və şah yerişi yeriyən öz canişinlərinin ayrılmaq cəhdlərinin kökünü kəsməkdə aciz idi. Buna görə təbiidir ki, o zaman təbəələr ayrı-ayrı satraplara çox vaxt "şah" deyirdilər.

Çox ehtimal ki, belə "şah"lardan biri də hələ qəddar, şöhrətpərəst, lakin ağıllı III Artakserksin dövründə hakimiyyət başına gəlmiş Mada satrapı Atropat idi. Anlaşıldığına görə, satrap olduqca müstəqil bir siyasət yeridirdi. Farslar tərəfindən itaət altına alınmamış kadusilər Atropatın müttəfiqləri kimi çıxış edirdilər, sakesinlər və albanlar İran dövlətinin təbəələri deyil, Atropatın müttəfiqləri idilər.

**Makedoniyalı Aleksandrın istilaları və farsların Əhəməni dövlətinin iflası.** II Daranın şahlığı dövründə dövlətin daxilində və xarici siyasət sahəsində baş vermiş bütün hadisələr Əhəmənilər dövlətinin xeyli dağıldığını aydın sübut edir. Onun hökmran olduğu illər dikbaş vassallarla mübarizə illəri idi. Şahın əvvəlcə qardaşı, sonra da əmisi - Mada satrapı üsyan etmişdi. E.ə. 408-ci ildə Madada üsyan qalxdı. II Daranın ölümündən sonra iğtişaşlar yeni qüvvə ilə qızışdı.

Fars dövlət sisteminin böhranı və büsbütün pozulması e.ə. V əsrlə IV əsrin ayrıcında tamamilə aydın bir şəkil almışdı. II Artakserksin hökmranlığının lap başlanğıcında kadusilər ayrılmış və onlara qarşı bir o qədər uğurlu olmayan yürüş edilmişdi. Çox keçmədən şahın qardaşı Kiçik Kir ilə müharibə başlandı. II Artakserksin baş sərkərdələrindən biri, Mada satrapı Arbak bu "vətəndaş müharibəsi"ndə açıq-açığına ikibaşlı oyun oynayırdı.

Misir yaranmış vəziyyətdən istifadə edib yenə farsların hakimiyyəti altından çıxdı. Az sonra Suriya satrapı Ariobarzan üsyan etdi. Bunun ardınca "satrapların böyük üsyanı" başlandı, nəticədə Qərb satraplıqlarının demək olar hamısı şahdan ayrıldı.

İmperiya ölüm ayağında idi. Bir çox qardaşlarını güdaza verən, cinsindən və yaşından asılı olmayaraq bütün qohum-əqrəbasını tələf edən qanlı müstəbid III Artakserks imperiyanın ömrünü bir neçə il uzatmışdı. O, üsyan edən tayfalar və xalqlarla, həmçinin öz satrapları ilə inadlı və qanlı mübarizə aparırdı. III Artakserks boyun əyməyənləri, üsyan qaldıranları ram edirdi, Suriyada, Fələstində, Finikiyada və Misirdə vuruşmuşdu. Onun dövründə dikbaş kadusilərə qarşı da yürüş edilmişdi. III Artakserks mərkəzi hakimiyyəti müəyyən dərəcədə möhkəmlətməyə müvəffəq oldu. Lakin e.ə. 338-ci ildə Əhəmənilər sülaləsinin bu sonuncu hökmdarı zəhərlə oldürüldü.



downloaded from KitabYurdu.az

İran dövlətinin son on illərinin hadisələrindən danışarkən qeyd etmək lazım gəlir ki, yunanlar da bu hadisələrin əsas iştirakçılarından idilər. Lakin onu da unutmaq olmaz ki, e.ə. IV əsrdə Hellada özü dərin böhran keçirirdi. O zamankı yunan dünyasında cərəyan edən sosial-iqtisadi proseslər hellin polislərinin iqtisadiyyatını təməlindən sarsıdırdı. Ayrı-ayrı şəhər-dövlətlər arasında gedən iqtisadi mübarizə siyasi mübarizə ilə, hellin aləmində hegemonluq uğrunda mübarizə ilə çulğaşırdı. Uzun sürən hərbi toqquşmalar nəinki vuruşan tərəflərin qarşılıqlı surətdə zəifləməsinə, həm də muzdlu döyüşçülər tutulmasına, antik demokratiyanın dağılmasına və yeni dövlət formaları axtarılmasına gətirib çıxarırdı. Yunanıstanda bütün Helladanı vahid, güclü hakimiyyət altında birləşdirməyə çağıran səslər getdikcə daha tez-tez eşidilirdi. Helladanın bu cür birləşdirilməsi, ilk növbədə, İranın törətdiyi təhlükəyə son qoyardı. Güclü hakimiyyət Helladada özlərinə yer tapmayan və Helladanın varlığı üçün təhlükə törədən minlərlə yunan yoxsullarını da "yerbəyer" etməli idi. Həmin yunanları "yerbəyer" etmək isə, güclü hakimiyyət tərəfdarlarının fikrincə, yalnız bir yolla, İrandan heç olmasa Kiçik Asiyanı ələ keçirmək yolu ilə mümkün olardı.

E.ə. IV əsrin ortalarında Balkandakı Makedoniya dövləti yüksəlməyə başlayır. Xaroneya yaxınlığındakı döyüşdən (e.ə. 338-ci il) sonra Makedoniya padşahı Filipp bütün Yunanıstanı özünə tabe etdi. İranla müharibə gerçəkləşməkdə idi. Lakin Şərqə yürüş üçün qızğın hazırlıq görüldüyü bir vaxtda makedoniyalı Filipp öldürüldü. Filippin ölümü heç də Şərqə yürüş ideyasının iflası demək deyildi. Müdrik dövlət xadimi və parlaq istedada malik sərkərdə olan gənc Makedoniya padşahı Aleksandr (İsgəndər) atasının işini davam etdirdi, İran müharibəsinə geniş hazırlıq görülürdü.

Şah ailəsi demək olar tamamilə tələf edildikdən sonra, e.ə. 336-ci ildə İran şahənşahının taxtında Əhəməni sülaləsinin yan şaxələrindən birinin nümayəndəsi olan Kodoman əyləşdirildi. III Dara adını qəbul edən bu şahın hökmranlığının tarixi (e.ə. 336-30-cü illər) Makedoniyalı Aleksandrın yunan-Makedoniya qoşunlarının zərbələri altında böyük İran dövlətinin məhv olması tarixidir.

Müharibə ərəfəsində İran imperiyası çöpayaqlı nəhəng timsalında idi. Farslar zahirən zəhmli, cah-calallı görünsələr də, əslində xalqlar üzərində öz hakimiyyətlərini itirmişdilər. Xalq kütlələri Əhəməni zülmünə qarşı yorulmadan mübarizə aparır, üsyanların arası kəsilmirdi. Artıq İran şahının öz canişinlərinə gücü çatmırdı. Çəkişmələr, qəsdlər, saray fitnə-fəsadları mərkəzi hakimiyyəti zəiflədirdi. Orduda da artıq iranlılara yox, yadellilərə - İran dövlətinin daxilən zəif olduğunu yaxşı bilən yunanlara bel bağlamaq lazım gəlirdi. Əhəməni dövlətinin süqutu labüd idi. Aleksandrın farslarla müharibəsi məhz belə bir şəraitdə başlandı.

Gözəl təchiz edilmiş intizamlı yunan-Makedoniya ordusu e.ə. 334-cü ilin yazında Hellespontdan (indiki Dardaneldən) keçib Kiçik Asiyaya soxuldu.



downloaded from KitabYurdu.az

Aleksandr qədim dövrün ən böyük sərkərdələrindən biri idi və bir çox görkəmli komandirləri - Antipatr, Ptolemey, Parmenion, Filota, Perdikka və başqalarını öz ətrafına yığa bilmişdi.

Gənc padşahın artıq ilk addımları onun hərbi planlarının geniş vüsətindən xəbər verirdi. Lakin Aleksandr İran dövlətini tamamilə məhv etmək, ələlxüsus dünyada ağa olmaq haqqında ilk vaxtlar çətin ki, düşünəydi, əvvəllər o, farslardan "qisas almaqdan" və "yunanları azad etməkdən", yəni Kiçik Asiyanı fəth etməkdən irəli getmək fikrində deyildi.

İki düşmən arasında ilk döyüş e.ə. 334-cü ilin mayında Qranik çayının sahilində oldu. Aleksandrın ordusu döyüşə qeyri-mütəşəkkil, ləng və gec hazırlanmış olan Kiçik Asiya satraplarının ordularını ağır məğlubiyyətə uğratdı.

III Daranın özünün başçılıq etdiyi İran orduları ilə Aleksandrın ikinci döyüşü e.ə. 333-cü ilde İss şəhəri rayonunda, dənizlə dağlar arasındakı ensiz vadidə (Şimali Suriya sərhədlərində) baş verdi. Bu vuruşma da yunan-makedoniyalıların qələbəsi ilə nəticələndi. Farslar darmadağın edildilər. III Dara hərb meydanından rüsvayçılıqla qaçdı. Aleksandra xeyli qənimət çatdı. O, şahənşahın anasını, arvadını və iki qızını da özü ilə apardı. Bu vuruşmada farslarla birlikdə madalılar da iştirak edirdilər.

İkinci döyüş nəticəsində bütün Kiçik Asiya Aleksandrın ixtiyarına keçdi. Makedoniya əleyhinə hərəkatın geniş miqyas alıb Makedoniyanın, Frakiyanın, Yunanıstanın, Kritin, Kiçik Asiyanm bir çox vilayətlərini bürüməsinə, habelə Finikiyanın və Fələstinin iri ticarət şəhərlərinin (Tir və Qazanın) güclü müqavimət göstərməsinə baxmayaraq, Aleksandr öz düşmənlərinə qalib gəlib Misirə yiyələndi və e.ə. 332/331-ci illərin qışını orada keçirdi. Beləliklə, Makedoniya padşahı Aralıq dənizinin şərq sahillərindəki limanların hamısını tutdu, farsların donanmasını bazalardan məhrum etdi, dənizdə hökmranlığı ələ keçirtdi və öz gediş-gəliş yollarından təhlükəni dəf etdi.

E.ə. 331-ci ilin yazında Aleksandr yenidən Asiyada göründü. Yunan-Makedoniya qoşunları Fərat və Dəclə çaylarını keçib Arbela yaxınlığında Qavqamela kəndinin ətrafında düşərgə saldılar. E.ə. 331-ci il oktyabrın 1-də burada Aleksandr qoşunları ilə III Daranın qoşunları arasında üçüncü vuruşma oldu. Qavqamela vurusması nəinki qədim dövrün ən iri vuruşmalarından biri, həm də makedoniyalı fatehin bütün vuruşmalarının ən çətini idi.

III Daranın orduları darmadağın edildi. Şah bir neçə satrapla və kiçik bir qoşun dəstəsi ilə Madanın paytaxtı Ekbatanaya qaçdı. Lakin yunan-makedoniyalılar özləri də bütün yürüş müddətində ən ağır tələfata bu döyüşdə uğradılar.

Əhəməni dövlətinin həyati əhəmiyyətə malik mərkəzlərinin hamısının yolu Aleksandrın üzünə açıldı. Aleksandr Babil və Suzu işğal etdi, sonra Parsaya soxuldu. Farsların iki paytaxtının ikisi də - Pasarqad da, Persepol da tutuldu. Makedoniyalı fateh burada xeyli sərvət - 120 min talant gümüş və qızıl, çoxlu qızıl və gümüş qab-



downloaded from KitabYurdu.az

qacaq, müxtəlif daş-qaş ələ keçirdi. Persepol şah sarayı yandırıldı. Lakin son dərəcə ağır tələfata baxmayaraq, III Dara hələ qisas almaq ümidində idi və Madada qoşun toplamağa başladı.

Bu dövrdə Madada, xüsusən Cənubi Azərbaycanda, eləcə də Şimali Azərbaycanda vəziyyətin necə olduğu haqqında əlimizdə kifayət qədər məlumat yoxdur. Bizə bəllidir ki, Atropatın başçılığı ilə madalılar Qavqamela vuruşmasında iştirak etmişdilər. Onu da bilirik ki, bu çarpışmada "kadusilər də, albanlar da, sakesinlər də madalılarla birləşdirilmişdilər" [A r r i a n].

Kadusilərin, albanların və sakesinlərin madalılarla birləşməsi, habelə sonra vaqe olmuş hadisələr güman etməyə əsas verir ki, Əhəməni sülaləsinin ağır illərində Atropat XI və XIV satraplıqlara daxil olan torpaqların xeyli hissəsini müəyyən dərəcədə özünə tabe edə bilmişdi. Yalnız buna görə Qavqamela vuruşmasında kadusilər və albanlar madalılarla "birləşdirilmişdilər". Sakesinlərə gəldikdə, ola bilsin, onlar Madanın tərkibinə daha əvvəllər daxil olmuşdular. Beləliklə, bütün Cənubi Azərbaycan ərazisi və Şimali Azərbaycan ərazisinin bir hissəsi əslində Atropatın hakimiyyəti altında idi. Mada satraplığına daxil olan digər vilayətlər də (Böyük və ya Aşağı Midiyanın torpaqları və bəzi başqa rayonlar da) görünür, ona tabe idilər. Ola bilsin, o, Qərbi Zaqafqaziyanın da bir hissəsinin sahibi idi. Biz Qavqamela vuruşmasından sonra Atropatla III Daranın qarşılıqlı münasibətlərinin necə olduğunu bilmirik. Lakin güman etmək olar ki, onların arası dəyməmişdi, çünki III Dara Aleksandrla mübarizəni məhz Madada davam etdirmək ümidində idi. O, Madada yeni qoşun toplamağa çalışırdı və bu işdə müəyyən uğurlar qazanmışdı. Kadusilərdən və skiflərdən (skiflər dedikdə, sakesinlər nəzərdə tutulmalıdır) köməyi də Madada gözləyirdi.

Deməli, Atropat və onun müttəfiqləri III Daranın tərəfini saxlayırdılar. Bunu Aleksandrın Atropat əleyhinə hərəkətləri də sübut edir. Makedoniya padşahı Paretakenadan Madaya hücuma başlayıb, ilk növbədə, Paretakenanı Mada satraplığından ayırdı. Bunun ardınca Madaya yeni satrap təyin etdi. Lakin bir qədər sonra vəziyyət dəyişdi. Aydınlaşdı ki, Atropatla ittifaqda olan kadusilər və skiflər III Daranın tərəfini saxlamırlar. Görünür, Atropat özü də şahənşahın tərəfini saxlamamışdı. Məhz buna görə III Dara Ekbatananı tərk edib monarxiyanın şərq əyalətlərinə qaçdı və tezliklə orada həlak oldu. Artıq Aleksandr Madaya hücumu zamanı Atropat ona öz loyallığını dəlillərlə sübut etmişdi. Bu baxımdan mühüm bir cəhət də ondan ibarətdir ki, Ekbatana yunan-makedoniyalılara müqavimət göstərməmiş və ələ keçirilən İran xəzinəsi buraya gətirilmişdi. Bütün bunlar eyni bir zəncirin halqaları olub sübut edirdi ki, Atropat öz siyasətini dəyişdirib Aleksandrın tərəfinə keçmişdi. Təsadüfi deyil ki, Atropat tezliklə (e.ə. 328-ci ildə) əvvəlki vəzifəsinə qaytarıldı.



downloaded from KitabYurdu.az

Əhəməni imperiyası tamamilə dağıldı. III Daranın ölümündən sonra Aleksandr özü Əhəmənilərin varisi, Asiyanın padşahı oldu. Bu, tarixin dönüş nöqtəsi idi. Aleksandrın qoyduğu yeni qayda, hellinizm dövrü İranın qüdrətli dövrünün sonu idi. Farsların özləri üçün bu dövr nəinki bir dünya dövləti kimi onların qüdrətinin sonu, həm də yadellilərin hökmranlığı dövrünün, pərakəndəlik dövrünün başlanğıcı idi.

O zamanlar baş vermiş hadisələri gözdən keçirərkən Qədim şərq xalqlarının tarixində Əhəməni dövrünün xüsusi əhəmiyyətini qeyd etməmək olmaz. Bu dövlət öz tərkibinə daxil olan xalqların sosial-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdır.

Əhəmənilərin hökmranlığı dövrü intensiv proseslərlə - imperiyanın çoxsaylı xalqlarının etnik cəhətdən qaynayıb-qarışması, onların mədəniyyətlərinin və dini baxışlarının sinkretikləşməsi prosesləri ilə səciyyələnir. İran şahları əhalini kütləvi surətdə köçürmək üsuluna geniş surətdə əl atırdılar. Onlar müxtəlif xalqların nümayəndələrindən bir çox ölkələrdə hərbi koloniyalar yaradırdılar.

İran şahları saraylarının tikintisində imperiyanın demək olar ki, bütün xalqlarının nümayəndələri işləyirdilər.

Canlı etnik, iqtisadi və mədəni əlaqələr, qaynayıb-qarışma və sinkretikləşmə prosesləri elmi biliklərin sintezinə, incəsənət və memarlığın inkişafına, müxtəlif dini baxışların qovuşmasına, tədricən mahiyyətcə yeni maddi və mənəvi mədəniyyət yaranmasına səbəb olurdu. Əhəmənilər dövründə qazanılmış nailiyyətlər sonralar da - Parfiya və Sasani dövrlərində Şərqin tarixində böyük rol oynamaqda davam edirdi.

Əhəməni ənənələri, mədəniyyəti və incəsənəti təkcə İranın öz xalqları tərəfindən yaradılmamışdı. Bu mədəniyyətin təşəkkülündə Zaqafqaziyanın, Orta Asiyanın, habelə onlardan şimaldakı step ərazilərinin xalqları və tayfaları xüsusilə böyük rol oynamışdılar. Bu vilayətlərin qədim sakinləri Əhəmənilər dövlətinin iqtisadi və mədəni həyatında fəal iştirak etmişdilər.



downloaded from KitabYurdu.az

# DÖRDÜNCÜ BÖLMƏ

## AZƏRBAYCAN ƏRAZİSİNDƏ DÖVLƏT QURUMLARI HELLİNİZM DÖVRÜNDƏ

### XII FƏSİL

### MADA-ATROPATENA (*Ät$^{a}$/$_{u}$rpätakän) DÖVLƏTİ

**Madanın satrapı Atropat. Azərbaycan ərazisində müstəqil Mada-Atropatena (*Ät$^{a}$/$_{u}$rpätakän - Kiçik Mada) dövlətinin yaradılması.** E.ə. V-IV əsrlərdə imperiyanın hər yerində olduğu kimi, Cənubi Azərbaycanda da vəziyyət narahat idi. Satraplar bir-biri ilə düşmənçilik edir, bir çoxu özünü padşah kimi aparır, "şah" adlandırılırdı. Belə "şah"lardan biri də Mada satrapı Atropat (*Ät$^{a}$/$_{u}$rpät) idi.

Regionun tarixində görkəmli rol oynamış Atropatın adı mənbələrdə ilk dəfə e.ə. 331-ci ildə baş vermiş məşhur Qavqamela vuruşması ilə əlaqədar çəkilir.

Cənubi Azərbaycan ərazisinin ayrı-ayrı hissələri X, XI və XIV satraplıqların tərkibinə daxil idi. Mada satraplığı (yaxud X satraplıq) əvvəlki Mada padşahlığının, Cənubi Azərbaycan (I Dara zamanında Asaqarta) vilayətlərinin ərazisindən əlavə, parikanilərin və ortokoribantilərin (skif-sakesinlərin) torpaqlarını da əhatə edirdi.

Mərkəzi hakimiyyət üçün ağır olan illərdə Mada satrapı olduqca müstəqil bir siyasət yeridirdi; XI və XIV satraplıqlara daxil olan torpaqları öz əlinə almışdı. Atropat həmin satraplıqların sakinləri ilə müəyyən müttəfiqlik münasibətləri yaratmışdı. Məhz buna görə də kadusilər farslara boyun əyməyərək Qavqamela vuruşmasında bütün İran dövlətinin müttəfiqləri kimi yox, ancaq madalıların müttəfiqləri kimi çıxış edirdilər (madalılarla "birləşdirilmişdilər").

Albanlar və sakesinlər də İran imperiyasının təbəələri deyil, Mada satrapının müttəfiqləri idilər.

Çox "ehtimal ki, kadusilər kaspilərin, pavsiklərin, pantimatların və dareytlərin daxil olduqları XI satraplıqla bağlı idilər. Herodotun əsərində kadusilər haqqında məlumatın olmaması, ola bilsin, ondan irəli gəlir ki, Kaspi dənizinin cənub-qərb sahilində yaşamış tayfaların bəlkə də ümumi adı olan "kaspilər" adı altında kadusilər də nəzərdə tutulurdu. Qeyd etmək lazımdır ki, "Kadusilərin torpağı" və "Kaspilərin



downloaded from KitabYurdu.az

torpağı" anlayışları sonralar da eyni mənada işlədilirdi. Güman etməyə əsas var ki, XI satraplığa albanlar da daxil idilər və "kaspilər" adını onlara da aid etmək olar.

Herodota görə, XI satraplığa kaspilər, pavsiklər, pantimatlar va dareytlər daxil idilər.

XIV satraplığa Kür-Araz rayonlarında yaşayan utilər və müklər, habelə yaşayış yerləri Cənubi Azərbaycan vilayətləri və onlara bitişik torpaqlar olan saqartilər daxil idilər.

Beləliklə, Cənubi Azərbaycanın bütün ərazisi və Şimali Azərbaycan torpaqlarının xeyli hissəsi bu və ya digər dərəcədə Atropatın hakimiyyəti altında idi.

Belə güman etməyə bəzi əsaslar var ki, hələ Mada dövləti dövründə madalıların hakimiyyəti Qərbi Zaqafqaziyanın ayrı-ayrı rayonlarına, xüsusən tarixi Gürcüstanın vilayətlərinə də yayılırdı. Maraqlıdır ki, Herodota görə, "Kolxidadan Madaya girmək çətin deyil". Yenə də həmin müəllif məlumat verir ki, skiflər "Fasis (görünür, Rioni və ya Çorox çayının - *məsul red.)* yaxınlığında Madaya soxulmaq" niyyətində idilər. Güman etmək olar ki, tarixi Gürcüstanın torpaqları (və ya torpaqlarının bir hissəsi) Mada satraplığının tərkibinə daxil idi və ya onun himayəsi altında idi. Polibi e.ə. III əsrin son rübünün hadisələrindən danışarkən məlumat verir ki, Atropatenanın bəzi hissələri "Fasisdən yuxarıdakı yerlərdə Pontun (Qara dənizin - *məsul red.)* üzərində yüksəlir, digər tərəfdən o, Hirkan (Kaspi - *məsul red.)* dənizinə qədər çatır".

Atropatilər və görünür, Atropatın özü də bu vilayətləri ənənəyə görə idarə edirdilər, çünki onlar əslində Mada satraplığı hökmdarlarının siyasi varisləri idilər.

Polibinin əsərində deyilir ki, "həmin padşahlıq (yəni Atropatena - *məsul red.*) hələ farsların (yəni Əhəmənilərin - *məsul red.*) zamanından mövcuddur". Lakin bu fikrin səhihliyi olduqca şübhəlidir. Görünür, Polibinin əsərində belə bir mətləb öz əksini tapmışdır ki, Əhəmənilər dövlətinin zəiflədiyi dövrdə satrapların bir çoxu (yəqin ki, həm də Atropat) özlərini şah kimi aparırdılar və təbəələr onları rəsmən "şah" adlandırırdılar. Yalnız buna görə Polibi (və ya onun istifadə etdiyi qaynaqlar) həmin vilayəti hələ müstəqil dövlətə çevrilməmişdən əvvəl "padşahlıq" adlandırırdı. Qədim İran və antik qaynaqlara görə, əslində satraplıq və satrap haqqında danışmaq olar. Lakin Atropatena satraplığı və satrapı yox, Mada satraplığı və Mada satrapı haqqında.

Atropatena şahlığı isə bir qədər sonra meydana gəlmişdi. İran imperiyası darmadağın edildikdən sonra Aleksandrla Atropatın qarşılıqlı münasibətlərinin ilk dövrdə necə olması haqqında biliyimiz yox dərəcəsindədir. Bu münasibətlərin daha çox düşmənçilik münasibətləri olduğunu güman etməyə bəzi əsaslar vardır. Atropat Aleksandrın hüzuruna gəlib boyun əyməmişdi; Aleksandr isə onu vəzifədən götürüb yerinə Oksadat adlı bir nəfəri təyin etmişdi. Ola bilsin, ilk vaxtlarda Atropat hətta Aleksandrla mübarizəyə girmək niyyətində imiş. Strabon, görünür, buna işarə edərək



downloaded from KitabYurdu.az

yazırdı ki, Atropat "bu ölkənin (gələcək Atropatenanın - *məsul red.)...* makedoniyalıların hakimiyyəti altına düşməsinə yol vermədi".

Lakin Atropat tez bir zamanda makedoniyalılarla qarşılıqlı münasibətləri yoluna qoya bildi. Yəqin ki, yalnız buna görə Atropat e.ə. 328-ci ildə yenidən Madanın satrapı vəzifəsinə qaytarıldı. Lakin Atropatın hakimiyyəti əslində yalnız Kiçik Madaya (ondan asılı olan Zaqafqaziya vilayətləri ilə birlikdə) şamil idi, çünki o zaman Aşağı (Böyük) Madada yunan-makedoniyalılar ağalıq edirdilər.

Atropat böyük dövlət xadimi idi. Çox istedadlı bir insan, arif bir siyasətçi və bəsirətli bir diplomat kimi Atropat Aleksandrla hərbi mübarizənin faydasızlığını gözəl başa düşürdü. Buna görə də o, müdriklik göstərərək, yunan-makedoniyalılarla danışıqlar aparmaq, onlara yaxınlaşmaq, Şərqin yeni hökmdarının müxtəlif tədbirlərində iştirak etmək yolunu seçdi. Lakin, nə olursa olsun, Atropat istilaçıların Atropatena ərazisinə soxulmasına "yol vermədi". Azərbaycan və hətta Qafqaz torpaqlarının makedoniyalılar tərəfindən işğal edildiyi haqqında antik dövrün axırlarından irəli sürülən (məsələn, bax: Plini, IV, 10, 39 və başqa müəlliflər), hətta orta əsrlərdə də müdafiə edilən (o cümlədən Nizamidə) fikirlərin heç bir gerçək əsası yoxdur. Aleksandr olsa-olsa Atropatenanın sərhədlərinə gəlib çatmış, onun ərazisinə isə girməmişdi.

Təzə-təzə təşəkkül tapan, hələ işlərini yoluna qoymamış nəhəng dövlətdə o zaman vəziyyət mürəkkəb və çox dəyişkən idi: özbaşınalıq və korrupsiya hökm sürürdü, satraplar azğınlıq edir, köməksiz-arxasız əhalini açıq-açığına çapıb talayırdılar. Yeni padşah çox keçmədən təxirəsalınmaz işlərlə əlaqədar olaraq uzun müddətə Asiyanın dərinliklərinə getdi və beş ildən ziyadə imperiyanın mərkəzi vilayətlərində olmadı.

Əhəmənilərin hökmranlığı dövründə və sonrakı qarışıqlıq illərində olduğu kimi, indi də Atropat fürsəti əldən vermədi. Şərqi İranın və Orta Asiyanın boyun əyməyən tayfalarına və xalqlarına qarşı makedoniyalı fatehin apardığı amansız müharibə illərindən (özünün 328-ci ildə yenidən satraplığa qoyulmasından ta Aleksandrın 324-cü ilin əvvəlində Hindistan səfərindən qayıtmasınadək), şübhəsiz, öz xeyrinə və vətəninin rifahı naminə istifadə etdi.

E.ə. IV əsrin son rübü gələcəyin Atropatenası olan Kiçik Mada üçün daxili yüksəliş və yetişmə dövrü idi - qüvvə toplamaq, tədricən Atropatenanın qüdrət və müstəqilliyinin təməlini qoymaq dövrü idi. Atropat makedoniyalılara yaxınlaşmaq siyasətini davam etdirirdi, qızını Şərqin yeni hökmdarının ən qüdrətli əshabələrindən biri olan Perdikkaya ərə verdi. Bıı, Aleksandrın, necə deyərlər, "beynəlmiləl" siyasətinə verilən "bac" idi.

324-cü ilin yay fəslinin sonuna yaxın Böyük Madada vəziyyət bir qədər mürəkkəbləşdi - Bariaks adlı birisi makedoniyalı istilaçılara qarşı mübarizəyə qalxdı.



downloaded from KitabYurdu.az

O, Əhəmənilər dövlətini bərpa etməyə çalışırdı. Bunu ondan görmək olar ki, Bariaks özünü Parsa və Madanın padşahı elan etmişdi.

Aleksandr Madaya yollandı, lakin Atropat öz qüvvələri ilə Bariaksın üsyanını yatırdı, onu əsir tutub makedoniyalılara verdi və onlar Bariaksı Pasarqadda edam etdilər.

Madada Aleksandr məşhur Bağıstan (Bisütun) vilayətinə baş çəkdi. Sonra padşah bir ay Niseya çöllərində qaldı. Ən qədim vaxtlardan burada məşhur cins atlar yetişdirilirdi, elə atlar ki, onların əvvəlcə şöhrəti, sonra da özləri Çinə gedib çatmışdı; Çində onlara "səma atları" adı verilmişdi.

Vaxtilə Niseya çöllərində 160 min at otlayırmış. Aleksandrın vaxtında isə Makedoniya hərbçilərinin çapqınçılığı nəticəsində orada ancaq 60 min at qalmışdı.

Padşahı öz satraplığının sərhədində qarşılamaq məqsədilə Atropat da Niseya çöllərinə gəlmişdi. O, bir müddət Aleksandrın yanında oldu.

Bir azdan padşah öz qoşunu ilə Ekbatanaya gəlib keyfə qurşandı. Teatrlara gedir (buraya təkcə Helladadan üç min aktyor gəlmişdi), gimnastika və musiqi yarışlarına tamaşa edir, arada içki məclisləri qururdu və i.a.

O zaman tez-tez düzəldilən şənliklərin birində Atropat Aleksandrı əyləndirmək üçün özü ilə yüz nəfər atlı qadından ibarət bir dəstə gətirmişdi; Arrianın verdiyi məlumata görə, "güman edilirdi ki, bunlar amazon qadınlarıdır". Onların kimliyini dəqiq demək çətindir. Strabona görə, amazon qadınlarının məskəni "Albaniyadan yuxarıdakı dağlardır".

Yalnız bu cür əməllərlə, müdrik siyasətlə Atropat öz ölkəsinin “makedoniyalılara tabe olmasına yol vermədi".

Aleksandr 324-323-cü illərin qışında Madada çoxlu kosseyləri (kassiləri - ?) qılıncdan keçirdikdən və onların torpaqlarında şəhərlər bina etdikdən sonra bu ölkənin hüdudlarını tərk edib Babilə yollandı; ola bilsin ki, Babili dövlətə paytaxt seçmişdi.

Aleksandrı yeni bir allah kimi salamlayıb təbrik etmək üçün 323-cü ilin yazında Babilə səfirlər gəldi; padşah gümrah idi, onun bir çox yaradıcılıq planları vardı. Lakin 323-cü ilin iyununda Aleksandr naməlum bir xəstəlikdən qəflətən vəfat etdi.

Aleksandrın vaxtsız vəfatından sonra, e.ə. 323-cü ildə, onun satrap və sərkərdələrinin Babildə keçirilən müşavirəsində Atropat iştirak etməmişdi. Bu zaman Atropatın kürəkəni Perdikka artıq dövlətin naibi idi. Müşavirədə Mada satraplığı Pitona verildi. Əlbəttə, söhbət yalnız Böyük Madadan gedə bilərdi, çünki Kiçik Madanı felən və rəsmən Perdikkanın qayınatası idarə edirdi. Atropatı hakimiyyətdən düşürməyə heç bir əsas yox idi, təkcə ona görə ki, o özünü yeni üsuli-idarəyə sadiq olan bir satrap kimi aparırdı. Sonrakı hadisələr də göstərir ki, Atropat satrap hakimiyyətindən məhrum edilməmişdi.



downloaded from KitabYurdu.az

E.ə. 321-ci ildə, Perdikka həlak olduqdan sonra, satraplıqlar ikinci dəfə bölüşdürüldü. Bölgü Atropatın satraplığına şamil edilmədi. Görünür, bu vaxtdan Kiçik Madanı müstəqil dövlət saymaq olar.

Deməli, çox ehtimal ki, keçmiş İran satrapı, əslən, çox güman ki, madalı olan Atropat IV əsrin 20-ci illərinin sonunda yeni dövlətin müstəqil hökmdarı olur; bu dövlət rəsmən Mada, sonralar isə özünün ilk hökmdarının adı ilə tez-tez antik qaynaqlarda Atropatena, Şərq qaynaqlarında *Ät$^{a}$/$_{u}$rpätakän adlandırılırdı.

Kiçik Mada makedoniyalı istilaçılardan siyasi asılılığa son qoyan ilk Şərq dövləti oldu.

Strabonun "Coğrafiya"sında deyilir: "Midiya iki hissəyə bölünür. Bir hissəsi Böyük Midiya adlanır... O biri hissə Atropat Midiyasıdır. Atropatena Midiyası öz adını sərkərdə Atropatdan götürmüşdür, o Atropatdan ki, Böyük Midiyanın bir hissəsi olan bu ölkənin də makedoniyalıların hakimiyyəti altına düşməsinə yol verməmişdi. Çar elan edilən Atropat doğrudan da bu ölkəni öz qərarı ilə müstəqil bir ölkəyə çevirmişdi və onun ailəsində varislik hələ də davam edir. Atropatena hərbi qüvvə mənasında çox sanballı ölkədir, çünki o... 10000 süvari və 40000 piyada... meydana çıxara bilər" [XI, XIII, I].

Beləliklə, Manna dövlətinin süqutundan iki əsr yarımdan çox keçdikdən sonra Azərbaycan ərazisində yenidən müstəqil dövlət meydana gəldi. Diyarın sakinlərinin tarixi müqəddəratında bu möhtəşəm hadisənin həqiqətən misilsiz əhəmiyyəti vardı. Bu hadisə diyarın və hətta Ön Asiya Şərqinin bir hissəsinin qədim tarixində və ilkin orta əsrlər tarixində, şübhəsiz, dərin iz buraxmışdı.

Həmin dövlətin meydana gəlməsinə kömək edən əsas səbəblərdən birini bütün qədim tarix ərzində xeyli dərəcədə aparıcı region olan bu bölgənin özünün iqtisadi, sosial, mədəni və siyasi inkişaf səviyyəsinin çox yüksək olmasında axtarmaq lazımdır.

Digər mühüm amil həm Aleksandrın hökmranlığı dövründə, həm də onun ölümündən sonrakı ilk illərdə təşəkkül tapmış siyasi vəziyyət idi: Aleksandrın vəfatından sonra başı onun mirasını bölməyə qarışan Makedoniya sərkərdələri Hellinizm dünyasının mərkəzindən uzaq bir yerdə, əsas hərbi əməliyyat meydanından kənarda yeni dövlətin yaradıldığı məqamı, Plibinin ibarəsincə, "gözdən qaçırmışdılar".

Atropatın qohumluq əlaqələri də bu işdə az rol oynamamışdı.

Atropatın şəxsi keyfiyyətlərinin də, şübhəsiz, çox böyük əhəmiyyəti vardı. Öz fəaliyyətində o, yadellilərin hakimiyyətinə tabe olmaq istəməyən yerli əhalinin geniş yardımına arxalanırdı.

Atropatenanın və bəzi qonşu vilayətlərin yerli əhalisindən danışarkən Atropatenanın bəzi tayfalarının, xüsusilə kadusilərin və skif əhalisindən olan müəyyən qrupların və digərlərinin xüsusi cəngavərliyini və qadir gücünü əsla



downloaded from KitabYurdu.az

nəzərdən qaçırmaq olmaz. Axı təsadüfi deyildir ki, III Dara üç dəfə basıldıqdan və qoşunlarının demək olar hamısı məhv edildikdən və ya onu atıb getdikdən sonra ümidini ancaq kadusilərə və skiflərə bağlamışdı. Hərçənd kadusilər və skiflər axırıncı Əhəməni - III Daranı müdafiə etmədilər, lakin etibarlı və sanballı bir qüvvə kimi onlara ümid bəslənilməsi olduqca səciyyəvidir və çox şey deyir. Azərbaycanın məhz bu tayfalarına arxalanması sayəsində Atropat öz hakimiyyətini qoruyub saxlaya bilmiş, ömrü digər satrapların ömründən uzun olmuşdu. Bu cəngavər tayfalar olmasaydı, Atropat, çətin ki, müstəqil dövlət yaradıb o təlatümlü illərdə onu qoruya biləydi.

O vaxtlar meydana gəlmiş Vifiniyada, Pont çarlığında, Kappadokiyada və bir sıra digər dövlətlərdə olduğu kimi, Atropatenada da, görünür, o zamanlar üçün kifayət qədər tipik olan müstəbid monarxiya siyasi quruluşu yaradılmışdı.

Sonralar Atropatenanın siyasi quruluşu, ola bilsin, müəyyən dərəcədə dəyişir və Atropatena bəlkə də teokratik dövlətə - bir növ "Papa vilayətinə" çevrilir ki, bu da görünür, Mada maqlarının dövlətdə çox böyük rol oynaması ilə bağlı idi.

Biz Atropatın hökmranlıq illərinin necə keçdiyini, onun daxili siyasətinin necə siyasət olduğunu, xarici siyasi həyatda nə kimi hadisələr baş verdiyini bilmirik. Biz hətta Atropatenanın bu ilk tacidarının nə vaxt vəfat etdiyini, taxt-tacı kimə miras qoyduğunu da bilmirik. Lakin sonrakı onilliklərin və hətta yüzilliklərin hadisələri göstərir ki, Atropatena monarxiyası banisinin hökmranlıq etdiyi illər gənc dövlətin möhkəmləndiyi və qüvvətləndiyi bir dövr idi.

Yalnız buna görə Strabon deyə bilmişdir ki, "hələ indi də (eramızdan əvvəlki dövrün sonu - eramızın başlanğıcı - *məsul red.)* onun (Atropatın - *məsul red.)* ailəsində... varislik davam edir".

Aleksandrın sərkərdələrinin hakimiyyət uğrunda mübarizə apardıqları təlatümlü illərdə və Selevkilərin hökmranlığı dövründə Atropat yeni yaradılmış dövlətin istiqlaliyyətini qoruyub saxlaya bildi. Lakin Aleksandrın ən qabil sərkərdələrindən biri olan və e.ə. IV əsrin son onilliyində köhnə İran satraplıqlarının hamısına yiyələnən Selevkin "mərkəzləşdirmə" siyasətinə qarşı bəlkə də Atropatın özü, yaxud ən yaxın varisləri inadlı mübarizə aparmalı olmuşdular.

Miandob şəhərindən şərqdə Leylan kəndi rayonunda yerləşən Qazaka (Qanzaka, madalıların qanza sözündəndir, "sərvət, xəzinə" deməkdir), ehtimal ki, artıq Atropatın zamanında dövlətin paytaxtı oldu.

Təəssüf ki, biz ölkənin iqtisadi həyatına, siyasi və mədəniyyət tarixinə çox az bələdik. Yazılı mənbələrin sayı cüzi, arxeoloji material son dərəcə azdır. Lakin həm bilavasitə qaynaqlardan alınan sübut-dəlillər, həm də dolayı məlumatlar və fərziyyələr əsasında ümumən Atropatena haqqında bildiklərimiz belə hesab etməyə əsas verir ki, Atropatena kənd təsərrüfatının, sənətkarlığın, ticarətin, şəhər həyatının çox inkişaf



downloaded from KitabYurdu.az

etdiyi, yüksək mədəniyyəti, əhalisinin Atropatena dili və yazı ənənələri olan bir ölkə idi.

Cənubi Azərbaycan ərazisində müstəqil dövlət yaradılması qədim ənənələrə malik ölkədə təsərrüfat həyatının fəallaşmasına, məhsuldar qüvvələrin yüksəlməsinə, ticarətin və sənətlərin canlanmasına çox kömək etdi. Daha sonrakı məlumatlar göstərir ki, Atropatenada məbəd torpaq sahibliyi inkişaf edibmiş. Antik müəlliflərin məlumatına görə, münbit torpaqlar maqlara məxsus imiş. Quldarlıq da inkişaf edibmiş.

Atropatena dövlətinin təşəkkülü və inkişafı Hellinizm dövrünə təsadüf etmişdi. Makedoniyalı Aleksandrın istilalarından, Əhəməni dövlətinin süqutundan və möhtəşəm imperiya yaradılmasından başlanan dövr qədim tarixdə mühüm mərhələlərdən birinin başlanması və yeni mərhələnin - Hellinizm mərhələsinin başlanması ilə əlamətdardır. Hellinizm mahiyyətcə oykumenanın Helladadan Hindistanadək uzanan çox geniş bir regionun sivilizasiyalarının təqribən yüzillik tarixidir. Hellinizm Qərb və Şərq quldarlıq cəmiyyətlərinin inkişafında yeni mərhələdir, Hellin mədəniyyəti ilə bir sıra Şərq mədəniyyətlərinin bir-birinə güclü nüfuzudur. Hellinizm yalnız uzaq vilayətlər arasında iqtisadi əlaqələrin canlanması dövrü deyil, həm də müxtəlif yunan institutlarının, yunan elminin, təhsilinin, ədəbiyyat və incəsənətinin Qədim Şərq ölkələrinə nüfuz etməsi, beləliklə, formaca sinkretik mədəniyyətin təşəkkülü üçün zəmin hazırlanması dövrü idi. Son dərəcə böyük əhəmiyyətə malik olan bir amil də Şərqin geniş ərazilərində, o cümlədən Atropatenada yunan dilinin yayılmasından ibarət idi.

Cənubi Azərbaycan tayfalarının və xalqlarının - kuti, lullubi, hurri, mannalı və başqalarının madalılarla qaynayıb-qarışması nəticəsində yeni bir etnos - Hellinizm dövründə madalıların üstünlük təşkil etdiyi atropatenalılar etnosu təşəkkül tapdı.

Atropatena fenomeninin ümumi xarakteristikasını verərkən qeyd etmək lazımdır ki, bu dövlət yeni şəraitdə köhnə Madanın etno-mədəni ənənəsini mahiyyətcə davam etdirsə də və ətraf aləm tərəfindən Mada kimi qavranılsa da, Azərbaycan məfhumunun özü, həmçinin onunla bağlı siyasi və etno-mədəni xarakterli hadisələr və vəziyyətlər məhz Atropatena dövründə təşəkkül tapmağa başlamışdı.

**Atropatenanın (*Ät$^{a}$/$_{u}$rpätakän-yn) etnik mənzərəsi. Mada-Atropatena etnosunun təşəkkül tapması.** Mənbələrin azlığı üzündən Atropatenanın etno-dil mənzərəsi hələ də tam surətdə aydın deyildir. Lakin hər halda artıq e.ə. I minilliyin ilk yüzilliklərində Cənubi Azərbaycan zonasında baş vermiş etnodil dəyişikliklərinin ümumi mənzərəsini təsəvvür etmək olar.

Mannanın madalılar tərəfindən işğalı diyarın etnodil taleyində həlledici rol oynamışdır. Bu işğal yerli tayfalarda müstəqil dövlətçiliyin varlığına təqribən üç yüzillik dövr boyunca son qoymuşdu. Burada qeyd etmək lazımdır ki, madalıların



downloaded from KitabYurdu.az

irandilli olmaları müasir elmdə şübhə doğurmur. Bizə onlarla Mada adları, bir sıra Mada sözləri bəllidir.

Artıq antik müəlliflərin məlumatları madalıların İran dialektlərindən (resp. dillərindən) birində danışdıqlarını aydın surətdə təsdiqləyir. Bu, I Daranın yazılarından birindəki dəlillərdən də şübhəsiz şəkildə irəli gəlir. Orada deyilir: "Parsa (Farsistan - *məsul red.)* Mada, habelə başqa dilli ölkələr".

Herodot farsların və madalıların qədim zamanlarda "arilər adlandırılması" haqqında rəvayəti saxlamışdır. Məlumdur ki, yalnız iranlılar və hindlilər "ari" adlanırdılar.

Strabon Eratosfenin çox qiymətli şəhadətini saxlamışdır. Eratosfen öz əsərində Makedoniyalı Aleksandrın silahdaşlarının məlumatlarından istifadə etmişdir. Eratosfenə görə, "Parsanın, Midiyanın, Baktriyanın və Soqdianın əhalisi a z ı n a d ə k b i r d i l l i d i r" (yəni mahiyyətcə birdillidir, seyrəltmə bizimdir - *məsul red.)*.

İndi biz Mada dilində mətnlərin olmamasına baxmayaraq, xeyli onomastik materiala və başqa dəlillərə əsaslanaraq Mada dili haqqında nəinki yalnız ümumi sözlərlə, hətta tam əsasla danışa, habelə onun bəzi xüsusiyyətlərini aydınlaşdıra və bu dili İran dilləri ailəsinin şimal-qərb qrupuna aid edə bilərik. Bu dil əlamətlərinin məcmusuna görə qədim fars dilindən daha çox Avesta dilinə yaxındır.

Mada dili nə Mada dövlətinin, nə də hətta Əhəmənilər imperiyasının dağılmasından sonra tarix səhnəsindən çıxmadı. Haqqında orta əsr mənbələrində məlumatlar verilən Mada dialektlərindən bəziləri lap yaxın zamanlaradək mövcud olmuşdur, bəzi yerlərdə isə onların qalıqları indi də mövcuddur. Mühümdür ki, Mada dilinin və yaxud Mada dialektlərinin nəsilləri olan bu dialektlər yeni dövrdə də tarixi Madanın ərazisində, yəni qədim dövrdə Mada dilinin və onun ləhcələrinin yayıldığı, bəzi hallarda isə indi də yayılmış ərazidə və Mada ekspansiyasının əsaslı şəkildə müdaxilə etdiyi, Mada elementlərinin dərindən oturaqlaşdığı bölgələrdə, xüsusilə Cənubi Azərbaycanda - gələcək Atropatenada (Adurbadaqanda) yayılmışdı. Düzdür, hazırda bu dialektlərin yayılma mənzərəsi xeyli pozulmuş, onların böyük qismi fars və türk dilləri tərəfindən sıxışdırılıb çıxarılmışdır.

Cənubi Azərbaycanda və onunla həmhüdud olan ölkələrdə Mada etnik elementlərinin hakim olmasına baxmayaraq, bölgənin əhalisi müxtəlif olmaqda idi. Burada hələ Əhəmənilər dövründə saqartalılar, müklər, utilər, parikanlılar, ortokoribantlar, kadusilər, dareytlər, pantimatlar, pavsiklər, kaspilər, matienlər, mardlar, parslar, anariaklar və b., habelə madalılar tərəfindən assimilyasiya edilməmiş başqa tayfalar yaşayırdılar.

Miletli Hekatey, onun ardınca isə Herodot müklər adlanan Arazboyu tayfalardan birini xatırlatmışlar. "Tarixin atası"nın məlumatından aydın olur ki, müklər e.ə. V əsrin siyasi hadisələrində iştirak etmişlər. Müklər saqartalılarla, utilərlə və başqa tayfalarla birgə XIV satraplığa daxil idilər və Mukan (indiki Muğan



downloaded from KitabYurdu.az

çölündə) ərazisində yaşayırdılar. Şübhəsizdir ki, bu vilayətin adı maqlardan (orta əsrlərdə müg) deyil, "mük" etnonimindən törəmişdir. Mükän-Mügän dolaşıqlığı, bu adlar arasındakı fərqlərin aradan çıxması və, "Mukan"ın əvəzinə "Muğan"dan istifadə olunması daha sonrakı zamana aiddir və xalq etimologiyasının nəticəsidir.

Yaqutun (İbn-əl-Qəlbiyə istinadən) Mukanın (mukanlıların etnonimi) və onun qardaşı Cilanın (yəni Gilanın, gilanlıların, ola bilər ki, əvvəlki kadusilərin; bu haqda b a x : P1in, IV, 48) Yafəsin nəvələri və Təbəristanın sakinləri olduğuna dair xatırlaması istisna olunmaqla mənbələrdə mukanlıların dil-etnik mənsubiyyəti barədə heç bir məlumat yoxdur.

Müklərin Əhəməni dövlətinin siyasi həyatında iştirakı heç olmazsa bundan görünür ki, Herodotun məlumat verdiyi kimi, onlar imperiyanm başqa təbəələri ilə bərabər Xşayarşanın (Kserks) e.ə. V əsrin son rübündə Helladaya yürüş etmiş qoşunlarının sıralarında idilər.

Müklərlə qonşuluqda yaşamış, XIV satraplığa daxil olmuş digər mühüm tayfa *utilər* idi. Hər iki halda onlar Herodot tərəfindən müklərlə birgə xatırlanır. Bununla əlaqədar olaraq qeyd etməmək olmaz ki, Pliniyə görə, utilərin yaşadığı vilayət Araz çayı üzrə Atropatena ilə və məhz onun Mukana bitişik olan hissəsində həmsərhəd idi.

Herodotun "utilər" adı altında antik zamanlarda və erkən orta əsrlərdə Qafqaz Albaniyasının Otenada (erməni müəllifləri "Utik" adlandırırlar) yaşamış məşhur otenlər-utilər-udi tayfasını görmək lazımdır. Hazırda yığcam halda Qəbələ və qismən Oğuz zonasında yaşayan udilər həmin tayfanın qalıqlarıdırlar.

Utilər də müklər kimi, e.ə. V əsrin son rübündə Kserksin Yunanıstana yürüşündə iştirak etməklə tarix səhnəsinə çıxmışlar.

*Kaspilər* haqqında erkən məlumatlar e.ə. V əsrə aiddir. Həm qədim Şərq mənbələrində, həm də antik mənbələrdə onlar haqqında məlumatlar mövcuddur. Kaspilər çox qədim və geniş yayılmış etnik törəmələrdən biri idilər. Şübhəsizdir ki, Kaspi dənizinin adı onların adından yaranmışdır. Güman olunur ki, Qafqaz ərazisindəki, ona yaxın olan torpaqlardakı bir neçə keçidin, Orta Asiyada mövcud olan bir neçə şəhərin adı da kaspilərin etnonimindən törəmişdir.

Kaspilər XI satraplığa daxil olmuş pavsiklərlə, pantimatlarla və dareytlərlə birlikdə müəyyən müddətdən sonra da əvvəllər Kaspilər ölkəsi, antik mənbələrdə Kaspiana, erməni mənbələrində *Kaspk'* kimi tanınmış Paytakaranda, utilərlə qonşuluqda yaşayırdılar.

Lakin mənbələrdə bu "Qərb" kaspilərindən başqa saklarla birlikdə XV satraplıqda yaşamış "Şərq" kaspiləri haqqında da məlumatlar vardır. Antik müəlliflərin xatırladıqları "Qərb" kaspilərindən danışarkən unutmaq lazım deyildir ki, istər kaspilərin özləri, istərsə də bəzi alimlərin güman etdikləri kimi Kaspi bölgəsinin bu və ya digər tayfalarını da özündə ehtiva etmiş, erkən zamanların özəl adları ilə bizə məlum olmayan "kaspilər" (xüsusilə Qafqa Albaniyasının əsas əhalisi olan albanlar)



downloaded from KitabYurdu.az

əsasən Azərbaycanın, qismən şimal, qismən isə cənub vilayətlərinin sakinləri olmuşlar.

Mövcud mənbələrə görə, kaspilər bizim təsəvvürümüzdə əkinçiliyi, maldarlığı, sənətləri, ticarəti, habelə gəmiçiliyi və dənizçiliyi yaxşı bilmiş xalq kimi canlanır.

Arami sənədlərindən bizə məlumdur ki, Misirdə kaspilərin kifayət dərəcədə böyük məskənləri var idi.

Kaspilərdə "ən zəngin və nəcabətli şəxslər (hakimiyyətə malik olanlar - *məsul red.)"*, kahinlər vardı. Bizə kaspilərin adət və mərasimləri, silahları və geyimi barədə bəzi faktlar məlumdur. Döyüşçü kaspilər "yapıncı geyirdilər və qamışdan hazırlanmış yerli ox və kamanlarla silahlanırdılar". Kaspilərin dəfn adətləri Mada tayfası olan maqların adətlərinə yaxın idi. Saf təbiətin - odun, suyun və torpağın meyitlərlə murdarlanmasına yol verilməməsi haqqında təsəvvür bu adətlərin əsasında dururdu.

Kaspilər siyasi meydana artıq e.ə. V əsrdə çıxmışdılar. Herodot Kserksin Helladaya yürüşündə onların iştirak etdiyi haqqında məlumat verir. Habelə məlumdur ki, onlar Makedoniyalı Aleksandrın qoşunlarına qarşı döyüşmüşlər.

Atropatena çarlığının qüdrətli dövründə Kaspiana Atropatenanın hakimiyyəti altında və yaxud hər halda ondan müəyyən asılılıqda olmuşdur. E.ə. II əsrdə kaspilər erməni çarlarının ekspansiyası ilə üzləşdilər. Kaspiana bir müddət Atropatenadan qoparıldı. Strabonun məlumatına görə, sonralar "Alban torpağının tərkibinə Kaspiana da daxil idi".

Etnik və siyasi dəyişiklərə baxmayaraq, Urmiyaətrafı bölgədə yerli elementlər hələ antik dövrdə qalmaqda idilər. Uzun zaman ərzində antik müəlliflər tərəfindən xatırlanan *ma(n)tianalılar* adı da bunu təsdiq edir. Onların Urmiya gölü zonasında yerləşmiş ölkəsi Ma(n)tiana adlanırdı. Unniya gölünün özü qədim zamanlarda Matiana və yaxud Mantiana gölü adlanırdı [Bax: S t r a b o n, XI, XIV, 8]. Gölün digər adı Kapavta idi və bu da Strabon tərəfindən təsdiqlənir [XI, XIII, 2].

Ma(n)tianalılar Araz və Halis çaylarının yuxarı axarlarından başlanmış Dəclənin və Diyalanın yuxarı axarlarınadək olan çox geniş ərazidə yaşayırdılar. Məlumdur ki, ma(n)tianalılar kolxların qonşuları olmuş, ermənilər, madalılar, habelə kadusilərlə yanaşı yaşamışlar.

Görünür, Ma(n)tiana adı hurri, Mitannisi (Maitenisi) ilə bağlıdır və iddia etmək olar ki, matianalılar mənşəcə hurri idilər. Onlar gerçək etnik qrup kimi artıq e.ə. V əsrin əvvəlində çıxış etmişlər. Herodotun sələfi Miletli Hekatey onlar haqqında danışır. Herodot Kserksin Helladaya yürüşü ilə bağlı olaraq onları xatırlatmışdır. Hələ e.ə. I əsr müəllifləri də matianalıları tanıyırdılar.

Beləliklə, matianalılara mənbələrdə təxminən 5-6 əsr ərzində təsadüf olunur. Bu isə, şübhəsiz, adı çəkilmiş bölgədə ayrı-ayrı yerli etnik qrupların və etnik ənənənin yaşarı və kifayət dərəcədə möhkəm olduğunu təsdiqləyən faktdır.



downloaded from KitabYurdu.az

Antik dövrdə Cənubi Azərbaycanda yerli etnik elementlərlə yanaşı, irandillilər də yaşayırdılar. Onların arasında saqartalılar (əvvəlki zikertulular), Atropatın dövründə sakesinlər adı altında məlum olmuş ortokoribantlar daha mühümləri idilər. (A)mardların və b. da adlarını çəkmək lazımdır.

Atropatenanın, Atropatın və Atropatilərin xeyli dərəcədə qüdrət mənbəyi olmuş çox böyük və güclü tayfa qruplarından biri *kadusilər* idi. Onlar haqqında daha erkən məlumatlar Ktesidə və Ksenofontda vardır.

Kadusilər Kaspi dənizinin cənub-qərb qismindən başlanmış Matiana torpaqlarınadək olan kifayət dərəcədə geniş ərazidə yaşayırdılar. Antik müəlliflər kadusilərin qonşularl kimi madalıları, matianalıları, albanları, karduxları, anariakları, kaspiləri, (a)mardları, sakları, tapürləri, hirkanları və b. xatırladırlar. Görünür, kadusplər XI satraplığın xalqları sırasına daxil idilər.

Cəngavər dağ tayfası olan kadusilər öz müstəqilliklərini yalnız Mada monarxiyası dövründə deyil, Əhəmənilər hakimiyyəti zamanında da mühafizə edə bilmişdilər. Düzdür, Ktesi iddia edir ki, onlar Kirə tabe olmuşdular. Lakin sonralar, hətta III Daranın zamanında kadusilərin fars hökmdarının təbəələri deyil, Mada satrapı Atropatın müttəfiqləri hesab olunduqları üçün Ktesinin dediyinə inanmaq çətindir.

Mada tayfalarından biri, "Midiya xalqının dini fikrinin daşıyıcıları" (V.V.Struvenin ifadəsidir) olan *maqlar* Atropatenanın etnik tərkibində mühüm yer tuturdular. Maq kahinlər - Od ayininin xidmətçiləri, zərdüştilik təliminin təbliğatçıları və qədim ənənələrin, Avesta kitablarının mühafizəçiləri idilər. Maqlar Madanın sonralar isə Atropatenanın mənəvi, mədəni, habelə siyasi və iqtisadi həyatında böyük rol oynamışlar.

Yuxarıda deyildiyi kimi, yerli tayfalarda müstəqil dövlətin mövcudluğuna son qoymuş madalılar tərəfindən Mannanın işğalı diyarın etnik taleyində həlledici rol oynamışdır.

Mada işğalı zamanından etibarən diyarın etnik-dil mənzərəsi kəskin surətdə dəyişməyə başladı. Araz çayından cənubda yerləşmiş torpaqların əhalisinin ictimai və mədəni səviyyəsinin ümumi yüksəlişi Cənubi Azərbaycanın bütün əhalisi üçün anlaşıqlı olan dilin zəruriliyini tələb edirdi. Lakin həmin dövrdə bu ərazidə bu cür dil yox idi, müxtəlif dillər mövcud idi və həmin dillərin daşıyıcıları bir-birini anlamırdılar. Yalnız Manna ərazisinin bir qismi istisnalıq təşkil edirdi. Burada etnik konsolidasiyasının əlamətləri nəzərə çarpır və güman ki, hamı üçün müəyyən qədər anlaşılan ümumi dil yaranırdı. Lakin Manna dövlətinin süqutu bu prosesi dayandırdı.

Qeyd etmək lazımdır ki, intensiv surətdə baş vermiş assimilyasiya prosesləri nəticəsində artıq Əhəmənilər hakimiyyətinə qədərki zamanda Manna tayfaları tədricən madalılarla qaynayıb qarışmağa başlamışdılar. "Manna" xoroniminin və "mannalılar” etnoniminin itməsi Manna əhalisinin etnik simasını itirməsindən xəbər



downloaded from KitabYurdu.az

verir. Manna sonuncu dəfə e.ə. VI əsrin əvvəlində yad edilmişdir. Artıq antik dövrdə "mannalıların", belə demək mümkünsə, izi də qalmamışdı. Buna görə, də heç də təəccüblü deyildir ki, nə I Dara, nə də Herodot nə Mannanı, nə də mannalıları tanımırdılar. Mannalıları artıq "madalılar" adlandırırdılar.

Madalıların işğalı, Cənubi Azərbaycan torpaqlarının uzun müddət ərzində Mada dövlətinin, sonra isə Mada satraplığının tərkibində olması, hələ Əhəməni hakimiyyətinə qədərki dövrdə burada Mada etnik elementlərinin geniş surətdə məskunlaşması sayəsində bu ərazidə tədricən yeni etnik birliyin əsasları təşəkkül tapmağa başladı. Bu etnik birliyi Mada-Atropatena xalqı adlandırmaq olar. Mənbələrdə onlar madalı, atropatenalı adlanırdılar.

Gəlmə tayfalar aborigenlərin nəinki maddi mədəniyyətini, təsərrüfat nailiyyətlərini, habelə müəyyən dərəcədə onların antropoloji tiplərini də əxz etdilər. Cənubi Azərbaycan ərazisində təşəkkül tapmaqda olan xalq mahiyyətcə öz dillərini itirmiş, gəlmələrlə qaynayıb-qarışmış avtoxton əhali qruplarının nəsillərindən ibarət idi. Etno-mədəni simbioz baş verirdi.

Mada işğalından sonra Manna xarici aləm tərəfindən Madanın tərkib hissəsi, "Kiçik Mada" kimi qəbul edilirdi. Mada-Atropatena ($At^{a}/_{u}$ rpatakan, Atropat Madası, Kiçik Mada, Atropatiya, Atropatena) onu əhatə edən xalqların təsəvvüründə Böyük Madanın bir qismi, ölkənin əhalisi isə madalılar kimi qavranılırdı. Mənbələrin əksəriyyətində Atropatena Madanın bir qismi hesab olunur. Məsələn, Strabon kimi məlumatlı bir müəllif Atropatenanı sadəcə olaraq "Midiya" adlandırır. Tatsit də ölkəni bu cür adlandırırdı. Görünür, "Mada" ölkənin rəsmi adı idi. Xeyli sonralar da həmin diyarı bu cür adlandırırdılar. I Daranın yazısında, antik müəlliflərdə (Strabon, Plini və bir çox başqaları) və digər mənbələrdə Cənubi Azərbaycanın əhalisi "madalılar" adlandırılırdılar.

Madalılar aborigenlərlə qaynayıb-qarışarkən diyarın etnik görkəmini dəyişərək onların ictimai və mədəni həyatına özlərinin bir çox cəhətlərini bəxş edirdilər. Onlar işğal etdikləri ölkədə bir növ kök salırdılar. Bu ərazi tədricən onların yeni vətəninə çevrilirdi.

"Mada" və "Atropatena", habelə "madalı" və "atropatenalı" istilahları əsrlər boyu çox zaman bir-birini əvəz edən istilahlar kimi işlənmişdir. Bu, erkən orta əsrlər dövründə bir sıra mənbələrdə daha əyani surətdə izlənilir. Bu baxımdan məşhur Rüstəmin nümunəsi xüsusilə maraqlıdır. VII əsrin erməni müəllifi Sebeos Rüstəmi gah Asxarh maraö-ın (madalılar ölkəsinin) sərkərdəsi, gah da Atrpatkanın (Atropatenanın) knyazı adlandırır. Əl-Məsudidə ərəblərlə döyüşdə həlak olmuş həmin Rüstəm "əl-azəri", yəni “azəri" adlandırılır, bu isə son nəticədə elə "azərbaycanlı" deməkdir. Antik dövrün Mada-Atropatena dilinin yazılı abidələri indiyədək aşkar olunmasa da, biz tam əsasla iddia edə bilərik ki, Atropotenanın orta Mada dili, şübhəsiz, geniş yayılmış, zəngin yazı ənənəsinə malik olmuş İran dillərindən biri idi.



downloaded from KitabYurdu.az

Nəinki Azərbaycanın retrospektiv surətdə əsrlərin dərinliyinə yönəldilə biləcək erkən orta əsrlər dövrünün nisbətən yaxşı məlum olan etnik-dil mənzərəsi, habelə bir çox digər məlumatlar da bunu tam müəyyənliklə təsdiq edir.

Erkən orta əsrlər dövründə Cənubi Azərbaycanda etnodil situasiyasından danışarkən qeyd etmək lazımdır ki, ərəb müəlliflərinin məlumatlarına görə, burada yayılmış dillər İran dilləri olmuşdur. Ərəb müəllifləri bu dövrdə Cənubi Azərbaycanda yayılmış dillərin və ləhcələrin sırasında azəri (*aбari*) pəhləvi (fahlavi < pahlavi) və fars (luyat-i furs) dillərini xatırladırlar.

Azəri dilinin Cənubi Azərbaycan əhalisinin xeyli qisminin dili olduğundan əl-Məsudi danışır. İbn Hövqəl, Yaqut Həməvi, Bəlazuri və başqa ərəb müəllifləri bu dil haqqında məlumat verirlər. Müqəddəsi azəri dilini çətin anlaşılan, ayrı-ayrı sözləri Xorasan dilinə bənzəyən xüsusi "fars dili" kimi səciyyələndirir. IX-X əsrlərin bir sıra digər müəllifləri kimi, Müqəddəsi üçün (luyat-i furs) (yəni "fars dili”) məfhumu sadəcə olaraq İran dilləri qrupuna mənsubluq demək idi. Azəri dilinin fars dili olmadığı qənaəti həmin dilin "yaxşı olmadığını", onun çətin anlaşıldığını (fars dilini bilən şəxsin baxımından) iddia edən ərəb müəllifinin öz sözlərindən bəlli olur. Müqəddəsidə azəri dili üçün "fars dili" məfhumunun istifadə olunması başqa ərəb müəllifləri tərəfindən, məsələn, İbn əi-Mükəfa tərəfindən İsfahanın, Reyin, Həmədanın, Nəhavəndin və Azərbaycanın dilini nəzərə çatdırmaq məqsədilə fahlavi ("pəhləvi dili") istilahının işlədilməsinə bənzəyir.

Beləliklə, hələ ərəb müəlliflərinin yaşayıb fəaliyyət göstərdikləri dövrdə Azərbaycanda fars dilindən güclü surətdə fərqlənən və talış dilinə yaxın olduğu aşkarlanan azəri dilində də danışırdılar. Azəri dilinə və müasir talış dilinə yaxın olan dialektlər hələ erkən orta əsrlərdə Cənubi Azərbaycan ərazisində geniş yayılmışdı.

Orta əsrlərdə Cənubi Azərbaycanda yayılmış bu dillər öz sələfinin - Mada dilinin və yaxud daha yaxşı - Mada ləhcələrinin bəzi xüsusiyyətlərini saxlamışlar. Əlbəttə, bu ləhcələr qədim zamanlarda da Azərbaycan ərazisində mövcud olmuşlar.

Bizim azəri dili (həmin dili "Azərbaycan dili" də adlandırmaq olar; *luyat-i aбarbäyjan* istilahına əl-Birunidə də təsadüf olunur) haqqında bildiklərimizdən aşağıdakı nəticələrə gəlmək lazımdır:

1. Hələ orta əsrlərin ərəb müəllifləri dövründə Azərbaycanda Azəri dilində də danışırdılar;

2. Azəri dilinin İran dillərindən olduğu mübahisəsizdir, çünki bu dil ərəb rnüəllifləri tərəfindən "dari" və "pəhləvi" dilləri ilə bir sırada xatırlanır və yaxud fars dili ilə birgə Qafqaz dillərinə qarşı qoyulur;

3. Azəri dili fars dili deyildir.

Azəri dili materiallarının nüfuzlu alimlər tərəfindən aparılmış təhlili iddia etməyə imkan verir ki, bu dil Şimal-qərbi İran dilləri qrupuna aiddir və o, şübhəsiz,



downloaded from KitabYurdu.az

hələ Mada dilinə xas olmuş fonetikanın başlıca xüsusiyyətlərini özündə saxlamış talış dilinə yaxın idi.

Cənubi Azərbaycanın İran dialektləri - xarzani, xalxali, karinqani və b. qədim zamanlarda bu bölgədə mövcud olmuş dillərin qalıqlarıdır.

Qeyd etmək çox vacibdir ki, həm erkən orta əsrlərdə Cənubi Azərbaycanda mövcud olduğu təsdiqlənən, həm də hazırda bu ərazidə qalmış dialektlər (bunların hamısı Şimal-Qərbi İran dilləri qrupuna aiddir) Mada dilini də səciyyələndirən xüsusiyyətlərlə fərqlənirlər. Buna görə də zənn etmək olar ki, onlar Mada dilinin və yaxud daha doğrusu Mada dialektlərinin varisləridir.

Son zamanlar İran alimlərinin əsərləri sayəsində məlum olmuşdur ki, Cənubi Azərbaycan vilayətlərində talış dilindən başqa bu dilə yaxın olan tati, xarzani, takestani, xalxali və b. dialektlər yayılmışdır və həmin dialektləri Mada dilinin varisləri hesab etmək olar. İran tədqiqatçısı E. Yarşater hətta bu dialektləri sadəcə olaraq Mada dialektləri adlandırır.

Maraqlıdır ki, Cənubi Azərbaycanın bəzi kəndlərində (Gəlinqaya, Dizəc Qurban, Kuri, Pir-İshaq, Xarzənd, Uryan, Qaragöz və b.) hal-hazırda da azəri dilində danışırlar.

Artıq indi iddia etmək olar ki, talış dili problemi azəri dili ilə, Cənubi Azərbaycan ərazisində yayılmış müasir dialektlərlə bilavasitə bağlıdır. Həmin nəticəni irəli sürmək isə yalnız əsrimizin 30-cu illərindən başlayaraq mümkün olmuşdur: 30-cu illərdə B.V.Millerin "Vilayətin türkləşməsinə qədərki dövrdə Azərbaycan əhalisinin dili haqqında məsələyə dair" adlı məqaləsi çıxdı. Bu məqalə azəri dilinin materialları əsasında yazılmışdı. Lakin həmin materiallar elmi dövriyyəyə ilk dəfə İran alimi Seyid Əhməd Kəsrəvi Təbrizi tərəfindən "Azəri və yaxud Azərbaycanın qədim dili" adlı əsərində verilmişdir.

Kəsrəvi azəri dilinə dair materialları ilk dəfə aşkara çıxardı, orta əsrlərdə Azərbaycanda yayılmış bu dilin İran səciyyəli olduğunu sübut etdi. Lakin o, dilçi olmadığına, mahiyyətcə İran dillərinin tarixi, müasir İran dialektləri haqqında heç bir təsəvvürə malik olmadığına görə səhv olaraq azəri dilini əski fars dili kimi müəyyənləşdirirdi.

B.V.Millerin əsərlərindən sonra azəri dili ilə ən yaxın əlaqələri olan talış dilinin tarixi haqqında danışmaq mümkün oldu. Həmin fikri talış dilinə fövqəladə dərəcədə yaxın olan tati dili haqqında da demək olar (lakin artıq İran tədqiqatçıları E.Yarşater, A.Karəng, Y.Zoka, M.Nəvvabi və b. əsərlərindən sonra).

Talış, tati dilləri, Cənubi Azərbaycanın bir sıra başqa dilləri və dialektləri qədim zamanlarda burada mövcud olmuş böyük dil massivinin varisləridirlər. Mada dili, onun dialektləri və şivələri bu dil massivində hakim mövqe tutmuşdu.

Azərbaycan ərazisində yayılmış bu dillər buraya nə yeni dövrdə, nə də orta əsrlərdə gələ bilməzdilər. Bu, mütəxəssislər üçün mübahisəsiz olan həqiqətdir. Özü də



downloaded from KitabYurdu.az

müqayisəli dilçiliyin məlumatlarının göstərdiyi kimi, şimal-qərb qrupunun dilləri və dialektlərinin fars qrupu dilləri ilə ən azı antik zamanın başlanğıcınadək ayrıldığını da xüsusilə qeyd etmək lazımdır.

Mada dilinin və onun dialektlərinin bölgənin hakim dili olması şübhəsizdir. Bu, nəinki hələ antik dövrdə bizi maraqlandıran ərazilərdə Mada etnik elementlərinin geniş surətdə məskunlaşmasına dair yaxşı məlum olan faktlardan, ölkə əhalisinin "madalılar" etnonimi ilə ifadə olunmasından, ölkənin "Mada" adlandırılmasından, erkən orta əsrlərdə burada Mada qrupunun dil və dialektlərinin, yeni dövrdə isə həmin qrupun dialektlərinin yayılmasından, habelə başqa mübahisəsiz məlumatlardan da irəli gəlir.

Parfiya və orta fars dilləri ilə yanaşı, qədim erməni dilində orta Mada və yaxud Mada-Atropatena dilindən əxz olunmuş müəyyən miqdarda mənimsəmələr vardır. Bu, mənimsəmələr yazılı abidələri təəssüf ki, bizə gəlib çatmamış Mada dili haqqında müəyyən dərəcədə təsəvvür yaratmağa imkan verir: "Midizmlər" ən erkən, e.ə. II əsrə aid olan arami yazılarında aşkara çıxır.

Deyilənlər Mada-Atropatena (orta Mada) dilinin geniş yayıldığını, mədəni əhəmiyyətini və həmin dilin Atropatenanın qonşularının dillərinə çoxəsrlik təsirini təsdiq edir. Şübhəsizdir ki, orta Mada dili zəngin yazı ənənəsinə malik idi. Şübhəsizdir ki, erməni hərfləri ilə, lakin fars dilində tərtib edilmiş, XV əsrə aid olan əlyazmada məhz bu Atropatena dili "Mada dili" adlandırılmışdır. Bu əlyazmada ibadətin yeddi dildə, o cümlədən "Mada" dilində mətni vardır. Heç şübhəsizdir ki, bu dil Mada qrupuna mənsubdur. Mannanın madalılar tərəfindən işğalından sonra Mada elementlərinin həmin ərazidə məskunlaşması intensiv etnik proseslərlə ınüşayiət olunmalı idi. Həmin proseslər bu ərazidə Mada dilinin və Mada etnosunun qələbəsi ilə başa çatmışdı.

Bizə bəlli olan materiallardan belə nəticə çıxır ki, assimilyasiyaya uğramış etnoslar adətən onların yerini tutmuş etnoslara müəyyən dərəcədə nəinki tarixi-mədəni, habelə bioloji irsi də ötürürlər. Bizi maraqlandıran halda da belə olmuşdur. Qeyd etməmək olmaz ki, qədim zamanlarda yaranmış irandilli xalqların əksəriyyəti İran yaylasının etnik simasını itirmiş və assimilyasiyaya uğramış yerli əhalisinin nəsillərindən ibarət idi. Onlar aborigenlərin nəinki maddi mədəniyyətini və təsərrüfat nailiyyətlərini mənimsəyir, habelə müəyyən dərəcədə yerli əhalinin antropoloji tiplərinin də varisləri oldular. Bu mənada etnosların əksəriyyəti ümumdünya-tarixi prosesini izsiz tərk etmir.

Hellinizm dövründə Cənubi Azərbaycanın ərazisində öz dili, adı-etnonimi, etnik özünüdərki və etnosun başqa ayrılmaz tərkib komponentləri olan yeni etnik birlik meydana gəlmişdi.



downloaded from KitabYurdu.az

Maraqlıdır ki, Ermənistanda və İberiyada (Şərqi Gürcüstanda) ümumxalq dilləri - koyne Atropatenada ümumxalq dilinin meydana gəldiyi bir zamanda zühur etmişdir. Görünür ki, Albaniyada da ümumi danışıq dili bu zaman meydana gəlmişdi.

Atropatena fenomeninin ümumi səciyyəsini verərkən qeyd etmək fövqəladə dərəcədə vacibdir ki, "Azərbaycan" anlayışının özünün, habelə onunla bağlı olan etnomədəni, ictimai və siyasi səciyyəli hadisələrin və halların başlanğıcı Vətənimizin tarixinin məhz Atropatena dövründə qoyulmuşdur. Qədim Azərbaycan dövlətçiliyinin, qədim Azərbaycan, daha dəqiq Atropatena-Mada xalqının mənşəyi məhz buradandır. "Azərbaycan" xoroniminin özü də əsası etibarilə həmin zamana gedib çıxır və qədim *Ätarpätakän'-ın qanunauyğun surətdə dəyişmiş formasıdır. Bu xoronim heç də bir çoxlarının düşündüyü kimi, "Odlar yurdu" deyil, "Atropata məxsus olan [torpaq]" deməkdir. Müqayisə üçün "Lotaringiya" (kral Lotarın adından törənmişdir), "Özbəkistan" (Özbək adındandır), "Kolumbiya" (Kolumbun adı ilə bağlıdır) və s. xoronimləri yada salmaq olar.

Bu adın ikinci hecada "a" saiti ilə mövcud olan, erkən orta əsrlərdə yaxşı təsdiqlənən formaları (Adarbigana, Adarbadagani, Ädarbaбkän, Ädarbäygan, Ädärbäyjän, Äzärbadgän və b.) müvafiq hecada "u" saiti olan orta fars formalarına - Aturpatkan'a gedib çıxa bilməz.

Belə hesab edirlər ki, *Ätarpätakan(a) forması Mada dialektlərinə gedib çıxır. Bu ad Ätarpät adından və -akän(a) şəkilçisindən ibarətdir və yuxarıda qeyd edildiyi kimi, "Atropata məxsus olan [torpaq]" deməkdir. Bu nöqteyi-nəzər Strabonun müddəası ilə yaxşı uzlaşır. Strabon yazmışdır ki, Atropat Madası "öz adını sərkərdə Atropatın adından almışdır".

"Azərbaycan" adının yuxarıda verilmiş müxtəlif formalarının mövcudluğu Ätrpät(a) adının müxtəlif formalarının mövcudluğu ilə izah olunur: Avestada Ätərəpat(a), - e.ə. I minilliyin ortalarına aid olan Elam sənədlərində Ätarpäta (Ha-tar-ba-ad-da), Ätropät (Nisadan aşkar olunmuş Parfiya sənədlərində Ätropätak variantı da vardır), Sasani dövründə Äturpät, daha sonrakı dövrdə Ädurbäd və s. İran aləmində geniş şəkildə təsdiqlənən bu ad "Od (tanrısı) tərəfindən mühafizə olunan" mənasını daşıyır. Beləliklə, eyni adın qanunauyğun fonetik variantları olan "Azərbaycan" xoronimi mənbələrdə təsdiqlənən bir sıra aralıq (keçid) formaları vasitəsi ilə məhz *Ätarpätakän(a) formasına gedib çıxır.

Biz Vətənimizin tarixində müəyyən dövrdə irandilli tayfaların üstün, aparıcı rolu, Cənubi Azərbaycanın bir çox yerli tayfalarının iranlaşması, Atropatena dilinin İran xarakteri haqqında danışarkən daha erkən zamanlarda Cənubi Azərbaycan ərazisində və onunla qonşu olan ərazilərdə yaşamış kuti, lullubi, hurri, Manna qruplarını, başqa tayfaları və xalqları Azərbaycan xalqının əcdadları sırasından heç də çıxarmırıq. Adları çəkilmiş tayfa və xalqlar sələflərimiz, erkən tariximizdir və biz, əlbəttə, onlardan imtina etmək fikrində deyilik. Məlumdur ki, ingilislər öz tarixlərini



downloaded from KitabYurdu.az

Albion sahillərinə anqlosaksların çıxmasından, fransızlar Qalliyanın romanlaşması zamanından başlamırlar; Misir ərəbləri heç də o fikirdə deyildirlər ki, onların tarixi ərəb süvarilərinin ölkə sərhədlərinə daxil olduğu gündən başlanır; nə ispanlar, nə türklər, nə farslar, nə də başqaları yaşadıqları ərazinin ən qədim sakinlərinin - onlarla qaynayıb-qarışmış, onların içərisində "ərimiş" aborigenlərin tarixindən imtina etmirlər.

Vətənimizin torpağında yaşamış bütün tayfa və xalqlar bizi maraqlandıran ərazidə baş vermiş etnik proseslərdə özəl, həm də mühüm rol oynamışlar. Onların hamısı müxtəlif dövrlərdə burada təşəkkül tapmış etnik birliklərdə, son nəticədə isə eramızdan əvvəlki son yüzilliklərdə meydana gəlmiş etnik birlikdə qovuşmuşdur. Həmin etnik birliyin təşəkkülündə həlledici rol madalılara məxsus idi.

Böyük dövr ərzində - Cənubi Azərbaycanın madalılar tərəfindən işğalı zamanından etibarən - diyarın tarixi madalıların (artıq diyarın aborigenləri ilə qaynayıb-qarışmış) yeni şəraitdəki tarixidir, Yeni Mada dövlətinin (300 ildən artıq) tarixidir və s.

Biz məhz buna görə tam əsasla Azərbaycan xalqının əcdadları sırasında diyarın yalnız ən qədim sakinlərinin deyil, habelə gəlmə irandilli madalıların adını da çəkirik. Madalıların bu torpağa gəlişinə qədərki tarix də müəyyən dərəcədə bizim tariximiz, xalqımızın tarixidir. Hazırda türk dillərindən birində danışan azərbaycanlılar madalılar vasitəsilə Hind-İran, daha geniş miqyasda isə, Hind-Avropa aləminə bağlanır, iranlılarla, hindlilərlə, germanlarla, slavyanlarla və başqa xalqlarla qohumluğa yetirlər. Azərbaycanlılar məhz madalılar vasitəsilə İran mədəniyyətinin də varislərinə çevrilir, irandilli xalqlarla birgə bu zəngin aləmə, eposa, "Avesta"ya, zərdüştilik təliminə və bir çox digər tarixi-mədəni dəyərlərə sahiblik hüququ qazanırlar.

**Təsərrüfat həyatı.** Atropatenanın təsərrüfat həyatı mürəkkəb xarakterli idi. Ölkədə bir neçə şəhər, bir sıra böyük və kiçik məskənlər vardı. Atropatenanın şəhərləri əkinçiliyi, maldarlığı və sənətkarlığı sahmanla aparan təsərrüfat mərkəzləri idi. Strabon fiziki coğrafiyanın xüsusiyyətləri üzərində dayanaraq göstərir ki, əsasən Böyük Mada və şimal vilayətləri Matianaya və Ermənistana qədər uca dağlarla örtülüdür və soyuq ölkələr sırasına aiddir. Əsərin bir parçasına əsasən Mada son dərəcə münbitdir, onun dağlıq şimal hissəsi isə öz yoxsulluğu ilə fərqlənir.

Daha sonralar yaşayıb-yaratmış müəlliflərin məlumatlarında Atropatenanın münbit torpaqlarından bəhs olunur. Belə ki, dağ yamaclarında torpaq bərəkətli, münbit və ən məhsuldardır, çaylar və bulaqlarla zəngindir.

Qədim müəlliflər həmin ərazidə yetişdirilən mədəni bitkilər haqqında xeyli məlumat qoyub getmişlər. Məsələn, Strabon bildirir ki, burada üzüm və əncir, habelə buğda bitir. Strabonun verdiyi məlumat daha sonralar yaşayıb-yaratmış müəlliflər



downloaded from KitabYurdu.az

tərəfindən də təkrar edilir. Qaynaqlar Atropatenada arı balının olmasından danışmağa imkan verir.

Qədim müəlliflər Atropatena ərazisində taxıl əkilməsindən bəhs edirlər. Antik ədəbiyyatda münbit məbəd torpaqları haqqında məlumat vardır. İçkilər hazırlanması haqqında verilən məlumat da çox maraqlıdır. Məsələn, Strabon yazır ki, yerli sakinlər "bəzi bitkilərin köklərindən şərab çəkirlər". Belə bir məlumat da maraqlıdır ki, Mada sakinləri "meyvələrlə qidalanır, qurudulmuş və döyülmüş almadan kökə, qovrulmuş badamdan çörək bişirirlər". Madada nəinki buğda, alma və badam yetişdirir, həm də döyülmüş meyvədən un hazırlayırdılar. Strabon Madada zeytun olduğunu da qeyd edir.

Strabon "atlar üçün ən yaxşı yem" olan yoncadan bəhs edir. Antik müəllif bu otu "Midiya otu" adlandırır, çünki "o, Midiyada çox bitir". Antik müəllifin məlumatına əsasən, Mada torpağında silfi də yetişir, ondan Mada şirəsi deyilən şirə çəkilir, bu şirəni uzun müddət saxlamaq mümkündür. Antik müəllif Mada şirəsini tərifləyir, onu Kirena şirəsi ilə müqayisə edərək Mada silfisinin xüsusiyyətlərini araşdırmağa çalışır. Məlumdur ki, silfi və ya gecəotu yabanı yerkökküdür. Qədimdə silfinin və ya gecəotunun şirəsindən ədviyyat və dərman kimi də istifadə edirdilər.

Yerli əhali hələ o vaxtlarda kənd təsərrüfatı zərərvericilərinə qarşı mübarizə aparırdı. Kaspiananı nəzərdə tutaraq Elian qeyd edir ki, burada saysız-hesabsız siçan olur. Onlar çayları üzüb keçir, zəmilərə daraşıb əkinləri tələf edirlər.

Atropatenada maldarlıq da inkişaf etmişdi. Atçılıq təsərrüfat həyatında müəyyən yer tuturdu. Hələ Polibi qeyd edirdi ki, Atropatenada "atçılıqda üstün olan" bir xalq yaşayır. Antik coğrafiyaçı Strabon Apollonidə istinad edərək yazır ki, atropatenalıların on min süvarisi var idi, on min süvari isə Atropatenanın çoxsaylı ilxılarından alınmış 10000 döyüş atı deməkdir. Güman ki, Atropatenada, Parfiyada olduğu kimi, ölkənin həm hərbi, həm də təsərrüfat ehtiyaclarını ödəyən atçılıq təsərrüfatları varmış.

Heyvandarlıq haqqında başqa məlumatlar da vardır. Elian yazır ki, Kaspianada dəvə olduqca çoxdur, ən iri dəvələr ən böyük at boydadırlar və gözəl yunları vardır: onların yunu çox zərifdir, belə ki, yumşaqlığına görə hətta Milet yunundan da geri qalmır. Maldarlıq təsərrüfatı çoxlu ev heyvanlarının olması ilə fərqlənirdi. Eliana görə, "kaspilərin keçiləri ağappaqdır, buynuzsuzdur, alçaq boyludur və burunları enlidir". Yenə həmin müəllif Makedoniyalı Aleksandr ordusunda xidmət edən Amintaya istinad edərək məlumat verir ki, "kaspilər ölkəsində çoxlu öküz naxırları və at ilxıları vardır".

Ölkədə balıqçılıqla da məşğul olurdular. Qədim müəllifin dediyinə görə, "Kaspi ölkəsində çox böyük bir göl vardır və o göldə şişburun adlanan balıqlar yetişir. Onların uzunluğu hətta səkkiz qulaca çatır".



downloaded from KitabYurdu.az

Ehtimal ki, burada nərə balığı nəzərdə tutulur. Elian sözünə davam edərək daha sonra yazır: "Kaspilər onları tutur, duzlayır və qurudurlar, (sonra) dəvələrə yükləyib Ekbatanaya aparırlar. Bu balıqların piyindən məlhəm hazırlayırlar, duzlu balığı (kaspilər) satırlar, çox qatı, lakin üfunətli olmayan balıq yağını dərilərinə sürtürlər, balıqların içalatını çıxarır, bişirir və işlətmək üçün çox əlverişli olan yapışqan düzəldirlər: bu yapışqan hər şeyi elə bərk yapışdırır ki, hətta on gün suda saxlanılsa belə, nə boşalır, nə də qopur. Hətta fil sümüyündən əşyalar hazırlayan ustalar da bu yapışqandan işlədir və çox gözəl əşyalar qayırırlar". Balıqlara vurmaq üçün lazım olan çoxlu duz hələ Strabonun bəhs etdiyi Atropatena duzxanalarından gətirilirdi.

Atropatenanın təsərrüfat həyatı haqqında bir sıra digər məlumatlar da vardır. Məsələn, Strabon yazır ki, Madada bir Kapavta gölü vardır, bu göldə kristallaşma gedir və duz çöküntüləri əmələ gəlir. Başqa bir yerdə antik coğrafiyaçı yazır ki, kellər arasında "bir göl Mantiana adlanır ki, bu da tərcümədə "mavi" deməkdir. Söyləyirlər ki, bu, Meotidadan sonra ən böyük şor göldür, o, Atropatenaya qədər uzanır. Strabon göl haqqında söhbətinə davam edərək yazır ki, "orada duzxanalar düzəldilmişdir".

Atropatenanı nəzərdə tutaraq Ammian Marsellin məlumat verir ki, "bu ölkədə Midiya yağı hazırlanır. Bu yağla yağlanmış çox azacıq dartılmış kamandan qopub nəyə isə sancıldıqda bərk alovlanır - sürətlə uçduqda alov sönür, su ilə söndürmək istədikdə alov daha da şiddətlənir və onu söndürmək üçün üstünə torpaq tökməkdən başqa heç bir vasitə yoxdur". Bu "Midiya yağı" həm hərbi işdə, həm də təsərrüfatda kara gəlirdi". "Midiya yağı" o dövrün gil və metal çıraqları üçün yanacaq idi. Ammian "Midiya yağı"nın hazırlanması üsulu haqqında məlumat verərək yazır ki, mütəxəssislər "yağın içərisinə xüsusi bir ot tökür, sonra qatılaşmağa qoyurlar, yağ qatılaşdıqda ona qatı yağa bənzər təbii yanacaq əlavə edərək daha da qatılaşdırırlar. Bu məhsul yerli dildə nafta adlanır". Öz-özünə alışan yağın hazırlanması özlüyündə neft məhsulları istehsalının yüksək səviyyəsindən xəbər verir.

Keramika istehsalı təsərrüfatın ayrıca bir sahəsi idi. Mil, Muğan, Talış, Naxçıvan, Germi və başqa yerlərin küp qəbirlərindən çıxarılmış gil məmulat Atropatenada keramika istehsalının səviyyəsindən xəbər verir. Arxeoloji material Atropatenada gil məmulatının geniş miqyas almasını təsdiq etməyə imkan verir.

Atropatenada tikinti işləri də aparılırdı.

Metal məmulat istehsalı nümunələri də çox maraqlıdır. Tuncdan, dəmirdən, qızıldan və gümüşdən qayrılmış çoxlu əşya dəmirçilik və zərgərliyin inkişafından məlumat verir.

Təsərrüfat əlaqələrini getdikcə inkişaf etdirmək üçün əlverişli şərait olması Atropatenanın ticarət imkanlarını genişləndirirdi. Strabon məlumat verir ki, Şimali Kaspinin xeyli hissəsinin sahibi olan aorslar dəvələrlə gedib madalılar və ermənilərlə ticarət edirdilər. Madalılar və ermənilər onları Babil və Hind malları ilə təmin



downloaded from KitabYurdu.az

edirdilər. Kaspi sahili boyunca şimala gedən yolun böyük əhəmiyyəti vardı. Başqa bir ticarət yolu Ekbatanadan Artaksata tərəfə gedirdi. Bu şəhər "Atropatiya sərhədlərinin yaxınlığında" idi [S t r a b o n]. Ekbatanaya balıq daşınması haqqında Klavdi Elianın verdiyi məlumat da Kaspianadan keçib Atropatenaya gedən ticarət yolunun mövcud olduğunu təsdiq edir.

Əsasən antik Atropatena ərazisindən əldə edilmiş yeni arxeoloji materiallar Atropatena sakinlərinin maddi və mənəvi həyatını daha aydın təsəvvür etməyə imkan yaradır.

**Atropatena Hellinizm dövlətləri sistemində.** Çox geniş Şərq vilayətlərinin yunan-makedoniyalılar tərəfindən istila edilməsi nəticəsində yeni dövr - Hellinizm dövrü, yunan və Şərq ünsürlərinin qarşılıqlı surətdə nüfuz etməsi dövrü başlandı. Lakin Aleksandrın vəfatından az sonra məlum oldu ki, dünya dövləti zamanın sınaqlarından çıxa bilməyəcəkdir. Böyük fatehin ölümü onun imperiyasının süqutu prosesini sürətləndirdi. İmperiya daha kiçik, lakin yaşamağa qabil olan çarlıqlara parçalanmağa başladı. Çarlıqların bəzisi yalnız sözdə mərkəzi hakimiyyətdən asılı idi. O biriləri, məsələn, Kiçik Mada isə əslində tam müstəqil idilər.

E.ə. IV əsrin sonunda əlinin altında qoşunu və hakimiyyəti altında ərazisi olan satraplardan hər biri öz torpaqlarını nəinki müdafiə etməyə, həm də mümkün qədər genişləndirməyə çalışırdı. Güclü satraplardan biri olan, "Yuxarı satraplıqlar" üzərində hakimiyyəti ələ keçirmək iddiasına düşən və bütün İranı özünə tabe etməyə can atan Mada satrapı Pifon ilə öz istiqlaliyyətini qoruyan digər Şərqi İran satraplıqlarının koalisiyası arasında 318-ci ildə qızğın mübarizə başlandı. Pifonun niyyəti baş tutmadı. O, sıxışdırılıb Madaya qayıtmağa məcbur oldu.

E.ə. IV əsrin sonunda Selevkilər dövlətinin yaradılmasının təməli qoyuldu. 312-ci il oktyabrın ilk günlərində Selevkin Babilə gəlməsi ilə bütün Ön Asiyada yeni tarix hesabı - Selevkilər erası başlandı. İran satraplıqlarında real hakimiyyət tədricən Selevkin əlinə keçir.

Kiçik Madanın demək olar ki, bütün 300 illik tarixi - e.ə. IV əsrin 20-ci illərindən e.ə. I əsrin birinci rübünədək [bu zaman ölkə öz köhnə, rəsmi adını saxlamaqla bərabər, getdikcə daha tez-tez Mada dilində *Mäd-i Ätarpätkän (Atropat Madası), yunanca *Мбліа Арролагvn*, digər hallarda Ätrpatkän, *Арролагnvn* və s. adlanmağa başlamışdı] - əslində bizdən gizli qalmışdır. Qaynaqlarda bu ölkənin adı o dövrün hadisələri ilə bağlı vur-tut bir neçə dəfə çəkilir. Qonşu ölkələrin tarixinə və ümumi vəziyyətə, habelə qaynaqlarda adının iki üç dəfə çəkilməsinə əsaslanaraq yeganə onu qəti demək olar ki, bütün bu müddət ərzində Atropatilər çarlığı mövcud olmuşdur. Burası da şəksizdir ki, Makedoniya istilası zamanından etibarən Kiçik Mada əsas Madadan - Böyük və ya Aşağı Madadan qəti ayrılmışdır. Böyük və ya Aşağı Madaya, xüsusilə onun mərkəz rayonlarına yunan-makedoniyalılar çox böyük əhəmiyyət verirdilər, çünki Şərq vilayətləri ilə əlaqə məhz Mada vasitəsilə



downloaded from KitabYurdu.az

saxlanılırdı. Həmin Mada torpaqları yunan-makedoniyalıların bilavasitə hakimiyyəti altına düşür və burada onlar hərbçilər yaşayan çoxlu qəsəbə salırlar. Antik müəlliflərin əsərlərində bu barədə məlumat qalmışdır. Polibi bildirir ki, Aleksandrın təşəbbüsü ilə "Midiya qonşu barbar xalqlardan qorunmaq üçün hər tərəfdən Hellin şəhərləri ilə əhatə edilmişdir". Sonralar Ammian Merselin yazırdı: "Midiyada varlı şəhərlər də, qala tipində tikilmiş məskənlər də, əhali də eyni dərəcədə çoxdur".

Hellinizm Aşağı Madanın məişətinə, mədəniyyətinə, siyasi həyatına dərindən nüfuz etmiş, ölkə ayrı-ayrı hissələrə parçalanaraq əvvəlki siyasi birliyindən məhrum olmuş, onun əhalisi olan madalılar isə etnik simalarını itirib digər tayfalara və xalqlara qarışmışdılar.

Kiçik Madaya gəlincə, o, getdikcə daha artıq dərəcədə əsil Madaya, əhalisi isə madalılara çevrilirdi.

Görünür, Atropatın varisləri də çarlığın banisinin ənənəsini davam etdirərək, yunan-makedoniyalıların ölkəyə soxulmasına "yol vermirdilər", hər halda mane olurdular. Yeri gəlmişkən, deyək ki, bu, Atropatenanın tarixinə dair yazılı qaynaqların yox dərəcəsində olmasının əsas səbəblərindəndir.

Lakin heç bir şeyə baxmayaraq, Hellinizm hər halda Kiçik Madaya da nüfuz edirdi. Burada Hellinizm ayinləri aşılanır, sinkretik allahların (yunan-İran allahlarının), xüsusən Herakl-Veretraqnanın (?) ibadətgahları tikilirdi. Kerefto dağlarından bir yunan kitabəsi tapılmışdır ki, o kitabə hardasa Beotiyada da, Arkadiyada da, yaxud hər hansı başqa bir yunan vilayətində də ola bilərdi. Aşkara çıxarılmış məşhur avroman perqamentləri yunan dilinin, yazısının və hüquq normalarının Mada-Atropatenaya, hətta onun kənd rayonlarına da çox dərin nüfuz etdiyini göstərir. Bu dövr Yeni Mada çarlığının möhkəmlənməsi və onun sərhədlərinin genişlənməsi ilə səciyyələnir. Qonşu vilayətlərdəki yunan-makedoniyalılar kimi, Atropatilər də geniş şəhərsalma işlərinə başlamışdılar. Atropatenanın antik ənənə ilə salınan bir neçə şəhəri haqqında məlumatımız vardır. Bunlar Qazaka, Fanaspa, Fraaspa, Aqanzana şəhərləri və Atropatena ərazisində tapılmış bir neçə qədim yaşayış yeri, o cümlədən Mil düzündəki Təzəkənd yaşayış yeridir. Qədim adlarını bilmədiyimiz, lakin ümumən antik dövrə aid olan bir neçə başqa abidə də məlumdur.

Atropatena çarları özlərinin siyasi və iqtisadi mövqelərini möhkəmləndirərək Suriya, erməni və Parfiya padşahları ilə qohum olurdular. Onların müttəfiqlik və dostluq əlaqələri, çox güman ki, uzaq şimala - albanlara, sakesinlərə və müasir Azərbaycan Respublikası ərazisində yaşamış digər tayfalara qədər gedib çatırdı.

Yeni Mada çarlığının hökmdarları, çox güman ki, o cümlədən Atropat özü artıq IV əsrin lap sonunda İran satraplıqlarına yiyələnmiş Selevkin (302-281) qəsdlərindən ölkəni nə yolla olursa-olsun qorumaq məcburiyyətində qalmışdılar.



downloaded from KitabYurdu.az

Lakin Selevkin və hakimiyyətə onunla şərik olan Antioxun bütün ciddi-cəhdlərinə baxmayaraq, e.ə. III əsrin ortalarına yaxın Selevkilər dövləti fəlakət həddinə çatdı. Baktriya, Soqdiana və Parfiya əldən çıxdı. Tezliklə müstəqil Parfiya dövləti meydana gəldi və ona Asiya tarixində mühüm rol oynamaq nəsib oldu.

Kaspi dənizini öyrənmək məqsədilə Heraklid (hələ Aleksandrın sağlığında) və Patrokl (e.ə. təqribən 285-280-ci illərdə) tərəfindən təşkil edilmiş ekspedisiyaların Mada-Atropatenaya necə təsir göstərdiyi barədə heç nə bilmirik. Demək lazımdır ki, bu iki ekspedisiyadan heç birinin əməli əhəmiyyəti olmamışdı və Selevkilərin başı digər işlərə elə qarışmışdı ki, Kaspiyə ekspedisiyalar göndərmək onların gözünə görünmürdü.

Aleksandrın parçalanmış monarxiyasını yenidən bölmək uğrunda mübarizə e.ə. bütün III əsr ərzində ara vermədi. Diadoxları (hərfən: varislər) epiqonlar (hərfən: sonra doğulmuşlar, törəmələr) əvəz etdi. Aleksandrın sərkərdələrinin - Ptolemeyin, Selevkin və b. varisləri Kiçik Asiyada, Suriyada, Finikiyada, Yunanıstanda, Makedoniyada rəqabəti davam etdirirdilər.

Atropatdan və onun zamanındakı hadisələrdən sonra yazılı qaynaqda Atropatenanın adı ilk dəfə e.ə. III əsrin iyirminci illərində çəkilir. Söhbət Polibinin əsərinin bir parçasından gedir.

E.ə. III əsrin 20-ci illərində Atropatena taxt-tacında biz Arazın yalnız cənubunda deyil, şimalında da çox geniş əraziyə malik olan "ən qüdrətli və ən müdrik hökmdarı", "atropatilər və onlarla həmsərhəd xalqlar üzərində" [Polibi] hökmranlıq edən Artabazanı görürük. Polibinin dediyinə görə, Artabazanın dövləti Kaspi dənizindən Rioni çayının yuxarılarınadək uzanırdı; beləliklə, Ermənistanı və İberiyanı da, hər halda onların müəyyən bir hissəsini əhatə edirdi. Bu vilayət, yunan müəllifinin (Polibinin) təsdiq etdiyinə görə, "...Midiya ilə yanaşı olub ondan dar silsiləsi ilə ayrılır, onun bəzi hissələri Fasisdən (Rionidən - *məsul red.)* yuxarıdakı yerlərdə Pontun (Qara dənizin - *məsul red.)* üzərində yüksəlir; digər tərəfdən o, Hirkan (Kaspi - *məsul red.)* dənizinə qədər çatır. Vilayətdə əsasən at belində vuruşan və müharibə üçün daha nə lazımdırsa hamısına kifayət qədər malik olan güclü bir xalq yaşayır". Gürcü mənbələrinə görə, e.ə. III əsr Kartli (İber) çarlığı tarixində "fars" elementlərinin (bu adın altında Atropatena midiyalılarını düşünmək lazımdır) üstünlüyü dövrü olmuşdur. Məhz bu zaman Atropatena ilə Ermənistan arasında sıx siyasi, mədəni və digər əlaqələr yaranır. Bu dövrün erməni əyanları arasında anadangəlmə atropatenalılar az deyildi. Atropatena və erməni kübarları arasında nikah əlaqələri isə adi hal idi. Ermənistanla münasibətlər heç də həmişə rəvan olmurdu. Dostluq, nikah əlaqələrini, ənənəvi mədəni-iqtisadi təmasları bir çox hallarda açıq düşmənçilik, bəzən hərbi toqquşmalar dərəcəsinə çatan düşmənçilik əvəz edirdi. E.ə. III əsrin sonu II əsrin əvvəlində məhz belə olmuşdu. O zaman şiddətli çarpışmalar nəticəsində Ermənistan taxt-tacına nəinki Atropatena dairələri ilə sıx əlaqə saxlayan, hətta bəlkə



downloaded from KitabYurdu.az

də özü madalı olan Artaşes yiyələnmişdi. Moisey Xorenli hər halda Artaşesi açıq-aşkar "madalı" adlandırır.

223-cü ildə Selevki dövlətində çarlığa III Antiox (223-187) keçdi. Selevkilərin bəzi ötəri müvəffəqiyyətləri və e.ə. III əsrlə II əsrin ayrıcında Aralıq dənizinin şərqində meydana gəlmiş Roma kimi yeni bir siyasi qüvvə ilə Selevkilərin ilk faciəli toqquşması III Antioxun adı ilə bağlıdır.

Antiox öz hakimiyyətinin ilk illərindəcə çox böyük bir təhlükə ilə qarşılaşdı: Mada satrapı Molon öz qardaşı Parsa satrapı Aleksandrla birlikdə Selevkilərin hakimiyyətinə qarşı üsyan qaldırdı və dövlətin şərq vilayətlərinin demək olar hamısını, o cümlədən Mesopotamiyanı tutdu. Yalnız çox böyük səylər bahasına Antiox öz düşmənlərinin öhdəsindən gələ bildi. İntihar etmiş Molonun cəsədi çarmıxa çəkildi və həqarətə məruz qoyulmaq üçün açıq nümayiş etdirildi. III Antioxun bundan sonra sürətlə Atropatenaya soxulması Molonun tədbirində atropatenalıların fəal iştirakına dəlalət edir. Antioxun Artabazanla müharibəsi sülhlə qurtardı. Atropatena müəyyən müddət Selevkilərin ali hakimiyyətini tanımağa məcbur oldu.

III Antiox 212-205-ci illərdə Selevkilərin əldən çıxmış vilayətlər üzərində hakimiyyətini bərpa etmək məqsədilə Şərqə möhtəşəm yürüşünə başladı. Bu məqsədlə Ekbatanada Anahita məbədi qarət edildi və oradan böyük bir məbləğ - 4000 talant ələ keçirildi. Parfiyalılar darmadağın edildilər və Selevkilərin ali hakimiyyətini tanıdılar. Yunan-Baktriya çarlığının hökmdarı da Selevkilərin hakimiyyətini formal da olsa tanıdı. Sonra Hindistana və İran körfəzinin Ərəbistan sahillərinə yürüş edildi.

III Antiox zəngin hədiyyələr və bac topladıqdan sonra Dəclə sahilindəki Selevkiyaya qayıtdı. Şərqə yürüş Selevkilər dövlətinin parçalanmasını, şübhəsiz, yavaşıtdı, lakin parçalanmanın səbəblərini aradan qaldırmadı.

E.ə. III əsrin sonu Selevkilər dövlətinin qüdrətli dövrü idi. "Böyük" titulu qəbul edən III Antiox Asiyanın çox geniş ərazilərində hökmdar kimi tanındı. Lakin bu, çox çəkmədi.

190-cı ilə yaxın, Maqnessiya ətrafında romalılarla döyüşdə Antiox məğlub olduqdan sonra, Selevkilər dövlətinin parçalanması prosesi yenidən başlandı.

II əsrin 60-cı illərində, bəlkə də ondan əvvəl Atropatena yenidən tamamilə müstəqil bir dövlətə çevrilir.

Maqnessiya ətrafındakı məğlubiyyətdən sonra Asiyada Selevkilər hakimiyyəti xeyli zəiflədi, hərçənd o zaman Selevki çarları bəzən qələbələr qazanır, hətta şəhərlər də salırdılar.

Bu ərəfədə Qərbi İranın və Ermənistan yaylasının vilayətlərində bir neçə müstəqil dövlət - Elimaida, Xarakena, Persida, I Artaşesin (yunanca Artaksi) Ermənistan çarlığı, Sofenada Zariadrinin (Zariatr, Zareh, Zarehr) Ermənistan çarlığı meydana gəlir. Ozünü padşah elan edən Mada satrapı Timarx Selevkilərdən ayrıldı və hətta öz sikkəsini buraxmağa başladı. Parfiya da asılılığın daşını atdı. Beləliklə, e.ə.



downloaded from KitabYurdu.az

160-cı ilə yaxın Selevkilər şərq satraplıqlarının demək olar ki, hamısını itirmiş oldular.

Meydana gələn erməni çarlıqları, xüsusilə Artaşesin çarlığı lap əvvəldən özlərini çox təcavüzkar aparır, qonşularına qarşı fəal qəsbkarlıq siyasəti yeridirdilər. Strabon yazır: "...Artaksinin və Zariadrinin müharibələri əvvəllər kiçik bir ölkə olmuş Ermənistanı böyütdü... Onlar birlikdə qonşu xalqların torpaqlarının bir hissəsini qoparıb mənimsədilər. Onlar midiyalılardan (atropatenalılardan - *məsul red.)* Kaspiananı, Favnitidanı və Basoropedanı, iberlərden Pariadr dağlarının ətəklərini, Xorzenanı və Qoqarenanı... xaliblərdən və mossiniklərdən Karenitidanı və Kseroksenanı..., kataonlardan Akilisenanı və Antitavrboyu vilayəti, suriyalılardan Taronitidanı... tutub aldılar".

Selevkilərlə çoxdan mübarizə aparan parfiyalılar e.ə. II əsrin 50-ci illərinin ortalarına yaxın geniş istila yoluna çıxıb, sanballı siyasi qüvvəyə çevrilirlər. Tezliklə (ehtimal ki, 148-147-ci illərdə) Parfiya çarı I Mitridat Selevkilərin basqınlarından müsibətlər çəkmiş Madanı işğal edir. Madanın işğalı o dərəcədə mühüm bir hadisə idi ki, bundan sonra I Mitridat "Böyük çar" titulunu qəbul etdi.

Madanın işğalı parfiyalıların üzünə Mesopotamiyanın yolunu açdı və e.ə. 141-ci ildə Mesopotamiya fəth edildi. Sonra varlı Elimaida da işğal olundu.

Bəzi tədqiqatçılar belə güman edirlər ki, parfiyalılar Aşağı Madadan sonra Mada-Atropatenanı da işğal etmişdilər, lakin mənbələrdə buna sübut-dəlil yoxdur. Selevkilərə düşmən olan, Hellinizm naminə nə varsa hamısına qarşı, Şərq xalqlarını Selevkilərin, yunan-makedoniyalıların hədsiz zülmündən xilas etmək uğrunda mübarizə aparan "vətənpərvər" qüvvə kimi parfiyalıların Atropatenada mövqeyi, ola bilsin, artıq möhkəmlənmişdi. Bir mühüm cəhət də ondan ibarətdir ki, parfiyalılar etnodil (görünür, həm də mədəni) cəhətdən madalılara çox yaxın idilər. Buna görə də Atropatenada parfiyalılara "özgələrdən", yəni yunan-makedoniyalılardan fərqli olaraq "öz adamları" kimi baxırdılar və o zaman yunan-makedoniyalılara qarşı vahid cəbhə yaranırdı.

Lakin bütün bunlara baxmayaraq, atropatenalılar öz dövlətlərinin suverenliyini saxlaya bilmişdilər. Atropatilər çarlığının parfiyalılar tərəfindən zəbt olunduğunu güman etməyə əlimizdə əsas yoxdur, çünki hələ öz "Coğrafiya" əsərini e.ə. lap son illərdə başa çatdırmış Strabon yazırdı: "onun (yəni Atropatın - *məsul red.)* ailəsində varislik hələ indi də davam edir" (seyrəltmə bizimdir - *məsul red.).*

E.ə. II əsrin 40-cı illərinə yaxın Parfiya dövləti demək olar bütün İranı və bütün Mesopotamiyanı əhatə edirdi. Tezliklə Parfiya dünya dövlətinə, parfiyalılar isə uzun illər boyu başlıca qüvvəyə çevrilirlər, özü də təkcə regionda yox. Bu ərəfədə İran ərazisində yunan-makedoniyalıların siyasi hökmranlığına həmişəlik son qoyulmuşdu. Doğrudur, 130-cü ilə yaxın Selevkilər İranda öz hökmranlıqlarını bərpa etmək üçün son dəfə daha bir cəhd göstərirlər. Lakin cana doydurulmuş, Makedoniya



downloaded from KitabYurdu.az

əsgərlərinin yerləşdikləri məskənlərin hamısında eyni vaxtda üsyan qaldırmış madalıların mütəşəkkil çıxışı (məhz bu çıxış Selevki ordusunun məhv olmasında həlledici rol oynadı) və Parfiya padşahı II Fraatın qoşunlarının uğurlu hücumu sayəsində bu cəhd Selevki ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi, VII Antiox da öldürüldü.

E.ə. II əsrin sonuna - I əsrin əvvəlinə yaxın Parfiya dövlətinin qüdrəti əvvəllər misli görünməmiş olan bir səviyyəyə çatdı.

Beləliklə, Selevkilər dövləti bir dünya dövləti kimi aradan qaldırıldı. İmtiyazlı vəziyyətlərindən məhrum olan yunanlar artıq yerli əhalidən sosial fərqlər səddi ilə təcrid edilməmişdilər. Bunun sayəsində Parfiya dövrü adlanan dövrdə mahiyyətcə Hellinizmin inkişafının növbəti mərhələsi başlanır.

**Atropatena eramızın ərəfəsində. Yadelli istilaçılara qarşı mübarizə.** E.ə. I əsrin birinci yarısının Atropatena tarixi, demək olar ki, qaynaqlarda öz əksini tapmamışdır. Yalnız 60-cı illərin hadisələri ilə bağlı bizə atropatenalılar haqqında bir neçə məlumat gəlib çatmışdır, özü də bunlar ölkənin daxili həyatına aid hadisələr deyil, hamısı xarici siyasət tarixinə aid hadisələrdir. E.ə. I əsrin ikinci yarısının - xüsusilə 30-cu illərin Atropatena tarixinin faktları və hadisələri cəhətdən vəziyyət bir qədər yaxşıdır.

Lakin tam inamla demək olar ki, göstərilən dövrdə Atropatena dövləti, şübhəsiz, mövcud olmuş, üstəlik regionun siyasi həyatında ən fəal iştirak etmişdir. Bunu biz yalnız Atropatena ilə qonşu olan ölkələrin tarixinə müraciət etmək və ya regionda ümumi vəziyyətlə tanış olmaq sayəsində öyrənirik.

Ön Asiyanın Şərq vilayətlərində e.ə. II əsrin ikinci yarısı və I əsrin başlanğıcı o zamankı dünyanın iki ən iri dövlətinin - Parfiya və Romanın durmadan qəsbkarlığı dövrü idi. Roma və Parfiya yeni torpaqlar işğal edə-edə, öz nüfuz dairələrini genişləndirə-genişləndirə və möhkəmləndirə-möhkəmləndirə tədricən, necə deyərlər, qarşı-qarşıya hərəkət edirdilər, nəhayət, bilavasitə üz-üzə gəldilər və bunun ardınca bir-biri ilə mübarizəyə başladılar.

E.ə. II əsrin sonuna - I əsrin əvvəlinə yaxın Parfiya dövləti zəhmli bir qüvvəyə çevrilir. Parfiyalılar Çin və Roma respublikası ilə diplomatik əlaqə saxlayırdılar. Parfiya mədəni dünyanın Şərq hissəsi ilə Qərb hissəsi arasında əlaqələndirici bir halqa idi. Bu dövr parfiyalıların geniş qəsbkarlığı dövrü idi.

Parfiyadan xeyli uzaq olan vilayətlərdə parfiyalıların mövqeləri möhkəmlənir və güclənir. Tezliklə bu vilayətlərin bəzilərində Parfiya çar sülaləsi - Arşakilərin nümayəndələri hakimiyyət başına gəldilər.

Lakin Roma da yatmamışdı. Artıq e.ə. II əsrin ortalarına yaxın Roma respublikası Aralıq dənizi hövzəsində ən güclü dövlətə çevrilmişdi. Bu zaman Roma Karfagenin axırına çıxmış, Yunanıstanda demokratik hərəkatın alovlarını söndürmüş, Aralıq dənizi hövzəsinin Şərq hissəsinə lap yaxınlaşmış və region dövlətlərinin



downloaded from KitabYurdu.az

işlərinə ciddi qarışmağa başlamışdı. E.ə. I əsrin əvvəlində romalılar artıq Kiçik Asiyada meydan sulayırdılar. Roma sərkərdəsi Sulla 92-ci ildə Dəclə çayının sahilində Parfiya səfiri ilə görüşmüşdü. Bu, parfiyalılar ilə romalılar arasında ilk ünsiyyət idi. Plutarx yazırdı: "İndiyədək iki xalq hələ bir-biri ilə təmasda olmamışdı".

O vaxt Ön Asiya regionunda vəziyyət son dərəcə mürəkkəb idi. Bir neçə əsr ərzində Roma ilə Parfiya arasında baş verən toqquşmalar, onların qarşılıqlı mübarizəsi nəticəsində Ön Asiya regionunda tədricən "siyasi dualizm" deyilən sistem meydana gəlməyə başlayır.

Romanın ucqar şərq torpaqlarının müxalif əhvaliruhiyyəli əhalisi parfiyalılara onu Roma əsarətindən xilas edəcək potensial bir qüvvə kimi baxırdı, elə bir qüvvə ki, o, Qərbdən gəlmə yadlar tərəfindən Şərqdə tətbiq edilmiş və tətbiq edilməkdə olan "Roma qaydasını" dağıda bilər. Parfiya dövlətinin qərb ucqarlarında yaşayan Parfiya təbəələri isə Romaya ümid bəsləyirdilər.

Roma qəsbkarlığı Zaqafqaziya regionu və ona qonşu olan ərazi xalqları üçün də, xüsusən yunan-makedoniyalılara qarşı mübarizənin yerli qüvvələrin qələbəsi ilə (onların öz dövlətinin, xüsusən Atropatenanın yaradılması ilə) başa çatdığı vilayətlər üçün də təhlükə törədirdi. E.ə. I əsrdə bu vilayətlər parfiyalıların siyasət və mədəniyyətinin təsir dairəsinə düşmüşdü. Parfiyalılar Şərq xalqlarını mənfur yunan-makedoniyalı əsarətindən, bir qədər sonra isə Roma əsarətindən xilas edən bir qüvvə kimi çıxış edirdilər. İki düşmən-Roma və Parfiya bir-biri ilə ölüm-dirim döyüşünə atılmazdan əvvəl vəziyyət məhz belə idi. Parfiyalılar Şərqdə öz mövqelərini möhkəmləndirdikdən sonra Qərbə üz tutdular. Artıq II Mitridatın hökmranlığının (e.ə. 123-87) əvvəlində parfiyalılar o zaman güclənmiş olan Xarakenaya və Babil satrapı Kimerə üstün gəlirlər. Parfiyalılar Ermənistanm və Selevki hakimlərinin daxili işlərinə qarışır, həmçinin Zaqafqaziyanın digər vilayətlərində, xüsusilə Albaniyada fəallıq göstərirdilər. Bunu xüsusən İsmayıllı rayonunun Mollaisaqlı kəndi zonasında tapılmış arxeoloji materiallar da təsdiq edir. Burada aşkara çıxarılan qəbir abidələri əslən Parfiya dünyasından olub Albaniyada qərar tutan gəlmələrdən qalmışdır.

Atropatenada da parfiyalıların mövqeləri möhkəmlənməkdə davam edirdi. E.ə. I əsrdə Atropatenada məişətdə, tikintidə, memarlıqda "parfiyalaşma" o qədər güclü və əhatəli idi ki, bunun birdən-birə, hazırlıq dövrü olmadan baş verdiyini güman etmək çətindir. Bütün bunlar onu göstərir ki, Atropatenada Parfiyanın təsiri, şübhəsiz, daha əvvəllər başlanmışdı. Bunu e.ə. I əsrdə Parfiya sikkələrinin Atropatenada geniş yayılması da təsdiq edir və güman etməyə əsas var ki, Ekbatanada kəsilmiş Parfiya gümüş pulu Zaqafqaziyaya Atropatena vasitəsilə yayılırmış.

Parfiya dilində tərtib edilmiş, bizə gəlib çatmış bir avroman sənədi də Atropatenada parfiyalıların o zamankı rolundan və əhəmiyyətindən xəbər verir.

Madalıların, xüsusən Atropatena madalılarının parfiyalılarla yaxınlaşması üçün Atropatenanın özündə çox böyük bir zəmin vardı. Hellinləşməyə müqavimət burada



downloaded from KitabYurdu.az

kifayət qədər fəal idi. Madalılar çox mürəkkəb şəraitdə, yunan-makedoniyalıları bir o qədər yaxına qoymayan müstəqil dövlət yaratdılar, öz istiqlaliyyətlərini qoruyub saxlamaq uğrunda selevkilərə qarşı inadlı mübarizə aparırdılar, Atropatena madalıları Mada etnik birliyinə mənsub olduqlarını dərk edir, öz mədəni ənənələrinin, dininin, dövlət quruluşunun üstünlüyünü qoruyub saxlamağa və möhkəmləndirməyə çalışırdılar; bütün bunlar parfiyalıların məqsədlərinə uyğun gəlirdi.

Parfiyalıları Atropatenaya tərəf çəkən bir amil də, əlbəttə, dövlətin ərazisini genişləndirmək və strateji cəhətdən mühüm əməliyyat meydanı ələ keçirmək niyyətindən, ən əvvəl atropatenalılarla parfiyalıların ümumi məqsədindən, hellinliyə qarşı mübarizədən ibarət idi. Parfiyalılar və atropatenalılar Atropatenada kökləri I minilliyin əvvəllərinə gedən "öz" mədəniyyət və dinini dirçəltmək işində də müttəfiq idilər. Hələ o zaman Qərbi İran vilayətlərində, o cümlədən Cənubi Azərbaycanda müxtəlif mazdaizm təlimləri, Kiçik Avesta etiqadları mövcud idi. Mada hökmranlığı dövründə, maqlar bu təlimləri təbliğ etməyə başlayanda gələcək Atropatena zonasında mazdaizm - Avesta təlimlərinin mövqeləri daha da möhkəmlənməkdə idi. Atropatilərin və Atropatena madalılarının rəsmi dini mazdaizm-zərdüştilik - Avesta dini idi. Atropatena dövlətinin banisi Atropatın özünün adı da zərdüşti adıdır. Parfiya padşahlığı dövründə də Zərdüşt kahinləri - maqlar İranın qərb vilayətlərinin dini həyatında çox mühüm rol oynayır, Kiçik Asiya və Zaqafqaziya ölkələrinin dininə və ideologiyasına çox güclü təsir göstərirdilər.

Dini sinkretizmin hökmranlığı dövründə Atropatenada zərdüştilik təliminin mövqeləri laxladı, bu təlim təbəddülata uğradı. Arşakilər köhnə dini dirçəltdilər və bu din özünütəsdiq uğrunda yadellilərə məxsus nə varsa hamısına qarşı mübarizədə onlara bayraq oldu. Doğrudan da "Avesta" kitablarını toplamaq yolunda ilk təşəbbüs Parfiya Arşakiləri zamanında göstərilmişdi. E.ə. I əsrdə Parfiyada "Avesta"nın, hər halda onun ayrı-ayrı hissələrinin yazılı mətni mövcud idi.

Parfiyalıların və Atropatena madalılarının mənafelərinin ümumiliyi, onların mədəniyyət cəhətdən yaxınlığı və dil cəhətdən qohumluğu Mada-Atropatena ünsürləri ilə Parfiya ünsürlərinin Atropatena zəminində etno-mədəni baxımdan xeyli yaxınlaşmasına və hətta qovuşmasına səbəb olurdu. Bu, zahirən öz əksini, məsələn, "parfiyalılar" termini əvəzinə tez-tez "madalılar" termininin işlədilməsində tapırdı. Elə bu zaman parfiyalıların təsiri altında Atropatenada yeni Avesta zərdüştiliyi ocağı meydana gəlir.

E.ə. I əsr Atropatenasında Avesta zərdüştiliyinin yeni mərkəzinin mövcud olduğunu fərz etmədən Atropatenanın sonrakı tarixində Zərdüşt kahinlərinin-maqların çox böyük rolunun səbəbini başa düşmək çətindir.

Güman etmək olar ki, "Avesta"nın kitablarından biri - "Videvdat" qəti şəkildə Atropatenada formalaşmağa başlamışdır və madalıların dini təsəvvürləri "Videvdat"da əks etdirilmiş təsəvvürlərə uyğundur.



downloaded from KitabYurdu.az

Güman ki, e.ə. I əsrin ikinci rübündə Atropatena çarları ilə erməni çarları arasında nikah əlaqələri yarananadək Atropatena prinsipcə parfiyapərəst siyasət yeridirdi. Atropatena çarı Mitridat erməni çarının qızı ilə evlənəndən sonra isə Atropatena tacidarının siyasəti antiparfiya siyasəti olmasa da, hər halda, şübhəsiz, ermənipərəst və antiroma siyasəti idi.

Bu zaman Romaya qarşı ümumi mübarizə zəminində atropatenalılarla ermənilərin əlaqələri çulğalaşır, ittifaq, dostluq, ən sıx siyasi və mədəni-iqtisadi təmas məcrasında inkişaf edirdi.

Parfiya ilə Ermənistan arasında gedən müharibələr nəticəsində Ermənistan II Mitridata tabe oldu. Parfiya çarı Ermənistan şahzadəsi Tiqranı girov götürdü və Tiqran uzun müddət Arşakilər sarayında saxlanıldı.

E.ə. 95-ci ildə parfiyalılar Tiqranı Ermənistan taxtına əyləşdirir və Tiqran bir məlumata görə, Ermənistanda, digər məlumata görə isə Atropatenada yerləşən 70 vadini təşəkkür əlaməti olaraq Parfiyaya verir. Bu vadilər üstündə dövlətlər arasında mübahisə gedirdi. Hələ Strabon yazmışdı: "Atropatilərin... qüdrətli qonşuları vardır və bu qonşular - ermənilər və parfiyalılar onların ölkəsini viran qoyurlar. Lakin atropatilər müqavimət göstərir və işğal edilmiş torpaqları geri alırlar".

Bəzi alimlərin güman etdiklərinə görə, II Tiqranın azad olunması müqabilində parfiyalılara verdiyi "70 vadi" məhz o vadilər idi ki, guya hələ I Artaşes onları atropatenalılardan almışdı. Əgər doğrudan da belədirsə, onda göstərilən fakt hələ Ermənistan dövlətinin meydana gəlməsinin lap ilk dövründə iki çar arasında düşmənçilik münasibətlərinə və təxminən e.ə. II əsrin birinci rübünün sonunda, yaxud ikinci rübünün əvvəlində erməni qəsbkarlığına sübut olardı. II Tiqran (95-55-ci illər) artıq öz hakimiyyətinin ilk illərində öz qonşularına - ilk növbədə Sofenadakı erməni çarlığına qarşı təcavüzkarlıq göstərir və e.ə. 94-cü ildə onu istila edir. Elə həmin il II Tiqran Pont dövlətinin qüdrətli çarı VI Mitridat Yevpator ilə saziş bağlayır və onun qızı Kleopatra ilə evlənir. Ermənistan çarı Atropatilərlə də qohum idi - Atropatena çarı Mitridat II Tiqranın qızını almışdı.

Pont-Ermənistan ittifaqının başlıca məqsədi Romaya müqavimət göstərmək idi. Lakin Roma ilə müharibədən əvvəl II Tiqran hələ Parfiya ilə mübarizə aparmalı idi.

Parfiyalıların Fərat sahillərinə gəlib çatması bu ərəfədə Kiçik Asiyada geniş əraziyə yiyələnmiş romalıları bərk narahat edirdi.

II Tiqran Sofenanı tutduqdan sonra fəal qəsbkarlıq əməliyyatlarını davam etdirirdi. O, Kappadokiyada öz mövqelərini möhkəmləndirdi ki, bu da 93-92-ci illərdə Roma ilə qısamüddətli müharibəyə gətirib çıxartdı. Tiqran darmadağın edilib böyük tələfata uğradısa da, Ermənistan çarının əvvəlki müvəffəqiyyətləri romalıları parfiyalılarla təmasa girmək üçün yollar axtarmağa vadar etdi. E.ə. 92-ci ildə Roma sərkərdəsi Sulla Fərat sahilində Parfiya səfiri Orobazla görüşdü. Bu görüş parfiyalı II



downloaded from KitabYurdu.az

Mitridatın romalılara yaxınlaşmasına kömək edirdi, lakin sonrakı hadisələrin göstərdiyi kimi, parfiyalılar Romanın onları, eləcə də bütün Şərqi necə böyük təhlükəyə məruz qoyduğunu o zaman hələ dərk etmirdilər.

Parfiya daxili çəkişmələr nəticəsində zəifləyir, Romada da vətəndaş müharibəsi qızışır, bunlar II Tiqranın əl-qolunu tamamilə açır. O, ən əvvəl təqribən 90-cı illə 88-ci il arasında parfiyalılara basqın edir və ilk növbədə, özünün azad edilməsi müqabilində hədiyyə verdiyi yetmiş vadini onlardan alır.

Strabonun əsərindən göründüyü kimi, II Tiqran atropatenalıların o vilayətini də işğal etmişdi ki, coğrafiyaçı onu Simbaka adlandırır, lakin bu ad təshih edilib "Albaka" yazılmalıdır (həmin yer indiki Beşqala ətrafında yerləşən müasir Böyük Axbaq vilayətidir). Biz bilmirik ki, Tiqran o vaxt Atropatena çarı ilə artıq qohum olmuşdumu, ya yox. Bizə burası da məlum deyil ki, o zaman Atropatena dövlətini çar Mitridatmı idarə edirdi?

Biz bilmirik ki, Atropatena doğrudan da tabe edilmişdimi və vassal çarlığa çevrilmişdimi, atropatenalı Mitridat sonralar II Tiqranın "sədaqətli vassalı" olmuşdumu, ona bac verirdimi və bəzi tədqiqatçıların hesab etdikləri kimi, müharibə zamanı ona köməkçi qoşunlar göndərməyi öhdəsinə almışdımı? Yalnız burası məlumdur ki, Atropatena padşahı Mitridat, yuxarıda qeyd edildiyi kimi, erməni padşahının qızı ilə evlənmişdi. İki tacidarın qarşılıqlı münasibətlərində çox şey bununla müəyyən edilirdi və ola bilsin ki, onlar sadəcə müttəfiq idilər.

II Tiqran öz qəsbkarlıq siyasətini davam etdirirdi. Adiabenanı işğal edib orada bütöv rayonları "viran qoymuşdu".

Qeyd etmək yersiz olmaz ki, Qərbdən Atropatenaya bitişik olan Adiabenanın üç iri xalqından biri Atropatenanın əsas əhalisi olan madalılar idi. Strabon Adiabenadan bəhs edərək yazırdı: "Burada ən çoxsaylı xalqlar olan midiyalılar, ermənilər və babillilər lap əvvəldən öz aralarında elə münasibətlər yaratmışdılar ki, münasib olduqda hamısı bir-birinə hücum edir və sonra yenidən barışırdılar...".

Çar Adiabenadan cənub-şərqə hücumu davam etdirərək, Parfiya hökmdarlarının yay iqamətgahı olan Ekbatanaya çatdı və onların oradakı qəsrini yandırdı.

Parfiya ilə e.ə. 85-ci ildə başa çatan uğurlu müharibə nəticəsində II Tiqran Ön Asiyanın çox geniş rayonlarına yiyələndi və "çarlar çarı" titulunu qəbul etdi. 83-cü ildə erməni padşahı Suriyanı və Finikiyanı tutdu.

Beləliklə, Yaxın Şərqdə siyasi vəziyyət xeyli dəyişdi - Parfiya iyirmi il müddətinə ikinci dərəcəli dövlət səviyyəsinə endi, II Tiqranın səltənəti isə qüdrətli və böyük dövlətə çevrildi. Söz yox ki, II Tiqranın böyük istilaları o zamanın digər iki iri dövlətinin zəifliyi nəticəsində mümkün olmuşdu.



downloaded from KitabYurdu.az

Şübhə yoxdur ki, Ermənistan dövlətinin təqribən on beş illik cah-cəlal və şan-şöhrət dövrü onunla Atropatilər dövləti arasında ittifaq, dostluq və həmrəylik dövrü idi.

Heç nədən xəbəri olmayan II Tiqran Roma ilə müharibəyə nəinki hazırlaşmırdı, hətta, əksinə, sakit-sakit öz paytaxtı Tiqranakertin inşasını başa çatdırırdı. E.ə. 70-ci ildə II Tiqranın qayınatası Pontlu Mitridat Roma sərkərdəsi Lukull tərəfindən darmadağın edildi və Ermənistana qaçıb bir müddət "çarlar çarının" məşvərətçisi oldu. Gizlincə müharibəyə hazırlaşan Lukull e.ə. 69-cu ildə Ermənistana soxuldu və həmin ilin yazında Tiqranakerti mühasirəyə aldı. O ərəfədə II Tiqran çox böyük bir ordu toplamışdı. Plutarxın verdiyi məlumata görə, "ermənilər və korduenlər yığma qoşun kimi hamılıqla tökülüşüb onun köməyinə gəldilər, çarlar gəldilər, özləri ilə bütün medləri (atropatenalıları - *məsul red.)* və adiabenliləri yığma qoşun kimi gətirdilər, Babildə olan dənizin sahillərindən çoxlu ərəb gəldi, Kaspi [sahillərindən] çoxlu alban gəldi, albanlarla qonşu olan çoxlu iber gəldi, çarları olmayan, Araz [sahillərində] sürülər otaran bir çox tayfalar gəldi, [bəziləri] yardım göstərmək, [başqaları] ənam almaq arzusu ilə gəldilər".

Plutarxın verdiyi məlumata görə, fəlakətli döyüşdən qabaq II Tiqran qoşunun orta hissəsinin komandanlığını öz öhdəsinə götürmüş, sol cinahı Adiabena padşahına, zirehli süvarilərin əksər hissəsinin ön sıralarda olduğu sağ cinahı isə Mada (Atropatena - *məsul red.)* padşahına etibar etmişdi.

Süvari qoşunun bu zirehlənmiş və nizələrlə silahlanmış hissəsi on yeddi min süvaridən ibarət idi və Plutarxın dediyinə görə, II Tiqran ona "xüsusi ümidlər bəsləyirdi". Plutarx bu barədə məlumat verərkən ayrıca qeyd edir ki, "bu, Lukullun senata raportunda göstərilmişdir". Müttəfiq qoşunun məhz bu hissəsinə komandanlıq etmək II Tiqranın kürəkəni Atropatena çarı Mitridata tapşırılmışdı. Müttəfiq qoşunun madalılardan ibarət olması və Atropatenadan gətirilməsi demək olar heç bir şübhə doğurmur [atropatenalılarda 10.000 süvari olması haqqında Strabonun verdiyi məlumatı, yaxud Plutarxın yuxarıda sitat gətirdiyimiz sözlərini xatırlayaq: "padşahlar gəldilər, özləri ilə bütün medləri (atropatenalıları - *məsul red.)* və adiabenliləri yığma qoşun kimi gətirdilər" və i.a.

Müttəfiq qoşunun sayca böyük üstünlüklərinə baxmayaraq, çarın səhvləri nəticəsində e.ə. 69-cu ilin payızında Tiqranakert yaxınlığındakı döyüşdə Lukull düşmənlərini darmadağın edərək qələbə çaldı. Romalıların əlinə saya-hesaba gəlməyən var-dövlət keçdi - onlar II Tiqranın səkkiz min talantdan ibarət xəzinəsinə, otuz milyon medimn taxıla və çoxlu miqdarda başqa sərvətlərinə yiyələndilər. II Tiqran istila etdiyi torpaqların demək olar hamısını itirdi. Məğlubiyyət çox ağır nəticələr verdi. Bu, silah zoruna yaradılmış "Böyük Ermənistan" dövləti süqutunun başlanğıcı idi.

Lakin müttəfiqlər məğlubiyyətdən sonra da Roma əleyhinə cəbhəni gücləndirməyə çalışırdılar. Onlar erməniləri parfiyalılarla barışdırmaq və ümumi



downloaded from KitabYurdu.az

düşmən olan Romaya qarşı birgə mübarizəyə sövq etmək üçün çox böyük səylər göstərirdilər.

Tiqran hətta istilalar prosesində ələ keçirdiyi torpaqların bir hissəsini parfiyalılara verməyə də hazır idi. Lakin parfiyalıların müttəfiqlərə qoşulduqları halda, çox təhlükəli bir vəziyyət əmələ gələ biləcəyini yaxşı başa düşən romalılar da sərvaxt tərpəndilər: Lukull parfiyalıların hüzuruna elçi göndərdi. Beləliklə, tərəflərin hər biri özünün xeyrinə olaraq Parfiya çarı III Fraatı münaqişəyə cəlb etməyə cəhd göstərdi. Lakin III Fraat bitərəfliyi üstün tutdu ki, bu da, şəksiz, çox böyük səhv idi.

Atropatenalı Mitridatın fəal iştirakı ilə əsasən ermənilərdən, iberlərdən, mardlardan və atropatenalılardan çox böyük bir ordu toplamış II Tiqran və Pontlu Mitridat e.ə. 68 və 67-ci illərdə Lukull üzərində bir neçə mühüm qələbə qazandılar. Birinci qələbə 68-ci ilin sentyabrında Artsaniya çayının sahilində qazanılmış qələbə idi. Bu məsələ barəsində iki əsas qaynaqda verilən məlumatı - Plutarxın [Luc. XXXXI, 7-14] və Dion Kassinin [XXXVI, 4-5] məlumatlarını tutuşdurduqda belə bir nəticəyə gəlmək mümkündür ki, düşmənlə necə olursa olsun vuruşmaq və Ermənistanın qədim paytaxtı Artaşatı ələ keçirmək istəyən, bu məqsədlə də Artsaniya çayını keçən Lukullu müttəfiqlərin süvari qoşunu qarşılayır. Plutarxın yazdığına görə, Lukull "Tiqranla gələn süvarilərin zəhmli görkəmindən və sayının çox olmasından qorxuya düşdü. Birinci olaraq o, özü atropatenalılara zərbə endirdi, atropatenalıların ən yaxşı qüvvələri məhz onunla üz-üzə gəlmişdilər...".

Dion Kassinin əsərində bu barədə deyilmişdir ki, süvari qoşunu (Plutarxdan göründüyü kimi, əlbəttə, atropatenalılar) "Romanın süvari qoşununu bərk sıxışdırdı, lakin tərəflərin heç biri piyadalarla əlbəyaxa döyüşə atılmırdı, əksinə, hər dəfə Lukull öz süvarilərinin köməyinə qalxanlı döyüşçülər göndərəndə onlar dərhal geri çəkilirdilər. Buna baxmayaraq, düşmənlər heç bir tələfata uğramadılar, çevrilib onları təqib edən düşmənlərə ox atırdılar, bir çoxlarını yaralayırdılar...".

Beləliklə, Artsaniya yaxınlığında Atropatena süvari qoşunlarının da iştirak etdiyi döyüşdə romalılar ağır məğlubiyyətə uğradılar. Artaşata tərəf getmək niyyətində olan Lukull Mesopotamiyaya yollanmaq məcburiyyətində qaldı.

Bu arada müttəfiq orduları öz müvəffəqiyyətlərini inkişaf etdirərək Kiçik Asiyaya soxuldular və romalıları ağır tələfata uğratdılar. Atropatenalı Mitridat xüsusilə böyük cəsurluq göstərərək, romalılara qəfildən basqınlar edir, onların pərən-pərən düşmüş kiçik dəstələrini təqib edib qırırdı.

67-ci ildə II Tiqran Kappadokiyaya soxuldu və kürəkəni Atropatena çarı ilə birlikdə Kappadokiyanı zəbt etməyə və viran qoymağa başladı. Elə həmin il Lukull Asiyadan geri çağırıldı.

Romanın Asiyada öz torpaqlarını genişləndirmək cəhdi bu cür şərəfsizliklə başa çatdı. Görkəmli Roma sərkərdələrindən biri olan Lukullun mənsəbi də beləcə rüsvayçılıqla sona yetdi.



downloaded from KitabYurdu.az

Müttəfiqlər qələbəni bayram edirdilər. Pontlu Mitridat və II Tiqran əvvəllər istila edilmiş, lakin sonra itirilmiş bir çox torpaqları geri aldılar.

Bu müharibələrə regionun bir sıra xalqları da cəlb olunmuşdu. Onlar qırğın, dağıntı, qarətlər, əsarət və köləlik gətirən Roma qəsbkarlığını dəf etməyə çalışırdılar. Dini fərqlərə, siyasi və iqtisadi ixtilaflara baxmayaraq, xalqlar ümumi təhlükəyə qarşı birləşdilər.

O vaxt müttəfiqlərin bütün cəhdlərinə baxmayaraq hələ kifayət qədər güclü olan Parfiyanı Roma əleyhinə koalisiyaya cəlb etmək, təəssüf ki, mümkün olmadı.

Bu müharibələrin beynəlmiləl xarakterini Siseron da qeyd edirdi; o yazırdı ki, Lukullun qoşunları Tiqran torpaqlarının hüdudlarına soxulduqdan sonra "...daha çox tayfa həyəcana gəlib bizim sərkərdəyə qarşı üsyan qaldırmışdı. Bir tərəfdən, Roma xalqının heç bir zaman narahat etmək və ya müharibə vasitəsilə itaət altına almaq fikrində olmadığı tayfalar qorxuya düşmüşdülər. Digər tərəfdən, barbar tayfalar arasında şüurları bərk həyəcanlandıra və sarsıda bilən belə bir rəy yayılmışdı ki, guya bizim qoşunlarımız o ölkələrə çox zəngin və olduqca hörmətli ibadətgahı qarət etmək məqsədilə gəlmişlər. Beləliklə, nə isə misli görünməmiş qorxu və dəhşət çoxsaylı və güclü tayfaları həyəcanlandırmışdı...".

Müttəfiqlərlə müharibələrdə Romanın məğlubiyyəti heç də Şərq vilayətlərinə qarşı Roma qəsbkarlığının sonu deyildi. E.ə. 66-cı ildə Qney Pompey Şərq vilayətlərində səlahiyyətli canişin və Roma qoşunlarının baş komandanı kimi Lukullu əvəz etdi və dərhal müharibəyə güclü hazırlıq görməyə başladı. Pompey ən əvvəl parfiyalılarla ittifaq bağladı, bu ittifaqın şərtlərinə görə parfiyalılar Ermənistanla müharibəyə başlamalı idilər; o, II Tiqranın oğlu Kiçik Tiqranı atasının üzərinə qaldırmağa başladı və hələ e.ə. 67-ci ilin payızında Kiçik Tiqran atasına qarşı üsyan etdi. Tiqran III Fraatın qızı ilə evləndi, Parfiya qoşunlarını Ermənistana çağırdı və Parfiya qoşunları, bəzi məlumatlara görə, Atropatenanı tutmuş Ermənistana soxuldular və Artaşatı mühasirəyə aldılar.

Pompey bu arada Pontlu Mitridatı tamamilə darmadağın edib Ermənistana soxuldu və Artaşata yaxınlaşdı.

Müttəfiqlərini itirən və öz vəziyyətinin çıxılmazlığını başa düşən II Tiqran e.ə. 66-cı ildə romalılarla həqarətli bir sülh bağladı. Sülhün şərtlərini Pompey irəli sürmüşdü.

II Tiqran külli miqdarda təzminat verməyə məcbur oldu, istila etdiyi bütün torpaqları itirdi və "yalnız ata yurdunun" - Ermənistanın çarı olaraq qaldı. Bu andan II Tiqran "Roma xalqının dostu və müttəfiqi" (bu, əslində vassal olmaq deməkdir) olur, Ermənistan isə böyük dövlətdən asılı çarlığa çevrilir.

Bəs bu zaman Atropatenanın vəziyyəti necə idi? Bəzi Roma qaynaqlarında Pompeyin məğlub etdiyi ölkələr və padşahlar sırasında "Madanın" (Atropatenanın) və onun çarı Daranın da adı çəkilir. Lakin buna inanmaq çətindir. Bu məlumatlardan belə



downloaded from KitabYurdu.az

bir nəticə çıxarmaq olar ki, e.ə. 65-ci ilə yaxın Atropatenada hökmranlıq Daranın əlinə keçmişdi.

Beləliklə, təsvir edilən dövrdə Atropatenanın və atropatenalıların adları mənbələrdə əsasən qonşu ölkələrin tarixi ilə, yaxud ümumregion xarakterli hadisələrlə əlaqədar olaraq çəkilirsə də, təsdiq edə bilərik ki, atropatenalılar Roma əleyhinə sanballı bir qüvvə olub region xalqlarının çağırılmamış "qonaqlara" qarşı mübarizəsində ən fəal bir şəkildə iştirak edirdilər. Onlar, şübhəsiz, bu ağır mübarizədə özlərinin istiqlaliyyətini qoruyub saxladılar. Strabon yuxarıda nəzərdən keçirilmiş hadisələrin demək olar ki, müasiri sayılan Apollonidə istinad edərək məlumat verir ki, Atropatena "hərbi qüvvə mənasında çox sanballı bir ölkədir, çünki o, döyüşə... 10000 süvari və 40000 piyada çıxara bilər".

Tiqranla sülh bağladıqdan sonra Pompey Zaqafqaziyanın içərilərinə doğru hərəkət etdi.

II Tiqran darmadağın edildikdən sonra parfiyalılar ayrı-ayrı uğursuzluqlarına baxmayaraq, müstəqil siyasət, həm də Romaya qarşı açıq-aşkar düşmənçilik siyasəti yeridən yeganə sanballı qüvvəyə çevrildilər. Deyə bilərik ki, e.ə. I əsrin 50-ci illərinin ikinci yarısına yaxın Parfiya Romanın müttəfiqi olan Ermənistanla əslində müharibə vəziyyətində idi. Roma Parfiyaya hələ müharibə elan etməmişdisə, bu, respublikanın paytaxtında vəziyyətin gərgin olmasının nəticəsi idi.

Romalılarla parfiyalılar arasında ilk qəti döyüş e.ə. 53-cü ildə Şimali Mesopotamiyada Karra şəhərinin yaxınlığında oldu. Surenanın komandanlığı altında Parfiya qoşunları romalıları məğlubiyyətə uğratdılar. Hərb meydanında 20 mindən çox Roma döyüşçüsü həlak oldu, təqribən 10 min döyüşçü əsir tutuldu, çoxlu sərkərdə, o cümlədən komandan Krass və oğlu öldürüldü.

Parfiya dövləti yenidən yüksəlməyə başladı ki, bu da erməni çarı, parfiyalıların düşməni olan Artavazdı Parfiya çarı II Orod ilə ittifaq bağlamağa və hətta bacısını şahzadə Pakora verib II Orod ilə qohum olmağa vadar etdi. Çox keçmədən şahzadə Pakor ölkənin şərikli çarı oldu.

Karra yaxınlığında parfiyalıların romalılara qalib gəlməsi mühüm hərbi-siyasi və psixoloji nəticələr verdi. Bu qələbə nəinki Romanın Şərqə hərəkətini dayandırdı, həm də romalıların yenilməzlik şöhrətinə son qoydu.

Əlbəttə, atropatenalılar Karra ilə bağlı hadisələrin laqeyd müşahidəçiləri ola bilməzdilər. Onların parfiyalılarla çiyin-çiyinə vuruşması demək olar ki, şəksizdir.

Biz Atropatenada o zaman kimin hökmranlıq etdiyini bilmirik. Bizə məlumdur ki, Dara ilə məşhur Artavazd arasında ölkəni Ariobarzan idarə edirdi; onu II Ariobarzandan fərqli olaraq I Ariobarzan adlandırmaq lazımdır.

II Orodun dövrü (e.ə. 57-36-cı illər) Parfiya dövlətinin ən qüdrətli dövrü idi. O dövrün parfiyalıları özlərinin Karra yaxınlığındakı qələbələrinin bəhrələrindən və Romadakı vətəndaş müharibələrindən nəticə etibarilə istifadə edə bilməsələr də,



downloaded from KitabYurdu.az

romalılara qarşı çox ciddi mübarizə aparırdılar. 40-cı ilə yaxın parfiyalılar Aralıq dənizi hövzəsinin şərqində Roma torpaqlarına geniş hücuma başlayıb həmin rayonda romalıların hökmranlığını təhlükə altına aldılar.

Adı Atropatena tarixində də çox mühüm hadisələrlə bağlı olan Roma triumviri Mark Antoninin yüksəlməyə başladığı vaxtdan Roma-Parfiya münasibətləri xeyli mürəkkəbləşdi.

Artıq e.ə. 38-ci ildə Antoninin sərkərdəsi Publi Ventili parfiyalıları Hindar yaxınlığında məğlubiyyətə uğratdı; qədim müəllif, hadisələrin müasiri Pompey Troq bu məğlubiyyət haqqında sonralar öz əsərində yazacaqdı: "Müharibələrin heç birində parfiyalılar bundan dəhşətli məğlubiyyətə uğramamışlar". Beləliklə, parfiyalıların Qərbə təntənə ilə başlanmış irəliləyişi, Parfiya dəstələrinin İoniyaya qədər gedib çıxması acınacaqlı bir nəticə ilə qurtardı. Parfiyalıların Roma əleyhinə tədbirlərinin fəlakətlə başa çatması, çox böyük insan tələfatı və maddi tələfat Parfiya dövlətində kəskin siyasi böhran doğurdu. Hindar yaxınlığında məğlubiyyətdən sonra parfiyalılar uzun müddət Dəclə çayının Roma sahilində görünmədilər.

Hindar döyüşündən sonra Antoni komandanlığı öz öhdəsinə götürdü. Qoşun çox böyük idi. Qədim müəlliflər təkcə Roma legionerlərinin 60 min nəfərdən 70 min nəfərədək, köməkçi qoşunların 40 min nəfərə yaxın, ispan və qall süvarilərinin 10 min və erməni süvarilərinin 6 min nəfər olduğunu göstərirlər. Romalıların araba karvanında mühasirə maşınları və digər ləvazimat vardı.

Misir çariçası Kleopatra ilə Antoninin e.ə. 36-cı ildə qəti rəsmiləşdirilmiş ittifaqı Aralıq dənizi hövzəsinin şərqindəki müxtəlif vilayətlərin hellinləşmiş əyanlarının mənafeyinin müdafiəçisi kimi triumvirin siyasi mövqelərini tamamilə müəyyənləşdirdi. Məhz buna görə Antoni öz hakimiyyəti altında olan ərazilərin xeyli hissəsində xırda hellinləşdirilmiş dövlətlər sistemini bərpa etdi və həmin dövlətlərin əyanlarının ittifaqına başçılıq etmək niyyətində idi. Antoni özünü mütləq hakim kimi aparırdı: torpaq paylayır, dövlətlərin sərhədlərini dəyişdirir və s.

Antoni geniş bir kampaniya nəzərdə tutmuşdu, onun planları vüsətli idi. Triumvir istəyirdi ki, Makedoniyalı Aleksandrın çarlığı kimi böyük bir Asiya dövlətinin əsasını qoysun. Romanın hökmranlığını Hindistana qədər yayacağını yürüş ərəfəsində elan etmiş Krassdan nümunə götürərək Antoni Kleopatradan olan oğlunun adını Aleksandr qoydu. Özünü mütləq hakim kimi aparan və böyük Şərq çarlarının nümunəsi ilə özünü ilahi mənşədən xəlq olunmuş hesab edən Antoni öz oğlu Aleksandrı Helios[3], onun bacısı Kleopatranı isə Selena adlandırdı[4]. Böyük istilaçının

[3] *Helios* - yunan mifologiyasında Günəş allahıdır.

[4] *Selena* - yunan mifologiyasında Ay ilahəsidir.



downloaded from KitabYurdu.az

şərəfinə Aleksandr adı verilən Antoninin bu oğlu sonralar Atropatena çarının qızına nişanlandı.

Aydındır ki, Parfiya dövlətini itaət altına almadan Böyük Asiya dövlətini yenidən yaratmaq mümkün deyildi. Müharibə müəyyən dərəcədə Kleopatradan alınmış iri məbləğdə pulun hesabına hazırlanırdı və Kleopatra həm də yürüşün ilhamçısı idi.

Antoni e.ə. 36-cı ilin yayında yürüşə başladı. Hərbi əməliyyat üçün münasib olan vaxtın xeyli hissəsi ötüb keçsə də, IV Fraat hakimiyyət başına gələndən sonra Parfiyada yaranmış vəziyyət, ölkədə amansız bir terrorun hökm sürməsi, bunun nəticəsində bir çox əyanların, çara yaxın adamların, qoca II Orodun özünün tələf olması, habelə Parfiyanın yeni çarı ilə Atropatena çarı arasına təfriqə düşməsi və bu səbəbdən Atropatena padşahının Antoniyə müraciət etməsi triumvirin planlarının həyata keçməsinə sanki əlverişli imkan yaradırdı.

Lakin Parfiyadakı böhran aradan qaldırıldı. Romanın törətdiyi təhlükə qarşısında parfiyalılar və müttəfiqləri birləşdilər. IV Fraat Şimali Mesopotamiyaya çox böyük qüvvələr çəkib gətirdi, o, Fərat çayından şərqdə romalılara qarşı geniş hərbi əməliyyata başlamağa hazırlaşırdı, yaxşı təlim keçmiş çox böyük və məharətli Parfiya süvari qoşununun əməliyyatı üçün burada əlverişli rayonlar vardı. Çox güman ki, Atropatena çarının demək olar ki, "eynən parfiyalılar kimi silahlanmış[5] 16 min süvarisi..." var idi. Atropatena çarı Fərat sahilində Fraatla bir yerdə idi. Bu nəticəni ondan çıxarmaq olar ki, romalılar Atropatenanın paytaxtlarından biri olan Fraaspanı mühasirəyə almağa başlayanda Plutarxa görə çar özü orada yox idi, "orada Mada (yəni Atropatena - *məsul red.)* çarının uşaqları və arvadları qalmışdılar".

Lakin gözlənildiyinin əksinə olaraq Antoni parfiyalıların paytaxtı Ktesifon üzərinə getmədi. Bu, xüsusən ona görə qəribə görünürdü ki, əvvəllər də, sonralar da romalıların Parfiyaya qarşı müharibələri Ktesifon istiqamətindən başlanırdı.

Antoninin ən yaxın yolla Ktesifon üzərinə hərəkət etməməsi, bəzi alimlərin fikrincə, komandanın hərbi səhvi idi və hərbi səhvdən də çox siyasi səhv idi. Antoni, necə deyərlər, "tapdanmış" yolla getməkdənsə, Şimala üz tutdu və Karan (indiki Ərzrum) şəhərinə çatdı; buradan Ermənistan ərazisi vasitəsilə Atropatenaya, Atropatenadan isə, görünür, düşmən dövlətin "lap qəlbinə" [T.Mommzen] - Ekbatanaya və Raqaya soxulmaq fikrində idi.

Beləliklə, Antoni Parfiyanı Beynənnəhreynin ən zəngin vilayətləri ilə birləşdirən yollara çıxmaq niyyətində idi; romalılar uğur qazansaydılar, onda parfiyalılar bu vilayətləri müdafiə edə bilməyəcəkdilər - bütün qüvvələrini öz dövlətlərinin "beşiyinin" - əsil Parfiyanın müdafiəsinə cəlb etməli olacaqdılar.

---

[5] *Plutarxa görə*: yay və oxla silahlanmış.



downloaded from KitabYurdu.az

Triumvirin belə bir qərar qəbul etməsinə bir neçə səbəb vardı. Əvvələn, Antoninin həmin planı, yəni Yuli Sezar tərəfindən ömrünün son aylarında hazırlanmış Parfiya kampaniyası planının cizgilərindən, güman ki, istifadə edilməklə tutulmuş plan parfiyalılar üçün lap gözlənilməz oldu və buna görə də o, Roma sərkərdəsi üçün çox əlverişli idi. İkincisi, Antoni şimal istiqamətini seçməklə, görünür, Publi Kanidi Krassın qoşunları ilə birləşmək fikrində imiş, Dion Kassinin verdiyi məlumata görə, bu zaman Publi Kanidi Krass artıq iberlərə və albanlara qalib gəlmiş, bəzi alimlərin güman etdiklərinə görə, beləliklə, romalıları Zaqafqaziya tərəfdən hücumlara məruz qalmaq təhlükəsindən xilas etmişdi. Üçüncüsü, belə bir yürüş planını Roma sərkərdəsinə erməni çarı Artavazd təkidlə tövsiyə edirdi, çünki bu plan öz əcdadları kimi Atropatenaya yiyələnmək xəyalına düşmüş erməni çarı üçün olduqca sərfəli idi. Antoni, beləliklə, Karanda öz müttəfiqləri ilə birləşdi, zəhmli ordusuna baxış düzəltdi və "Ermənistanı solda qoyub dərhal yoluna davam etdi, Atropatenaya çatıb ölkəni viran etməyə başladı" [P l u t a r x].

Antoninin ordusunun yolu, görünür, Xoy-Mərənd istiqamətində idi; triumvir buradan sürətli yürüşlə Fraaspaya (Fraataya, Praaspaya) çatmaq və onu tutmaq ümidində idi. Strabona istinad olunarsa [XI, XIII, 3] antik müəllif tərəfindən "yay paytaxtı" adlandırılan Qazakadan (indiki Leylan kəndi ilə eyniləşdirilən) fərqli olaraq Fraaspa Atropatena çarının qış iqamətgahı idi. Doğrudur, Antoninin mühasirəyə aldığı şəhəri Fraaspa adlandıran digər müəlliflərdən fərqli olaraq Strabon yürüşdə iştirak etmiş romalı vəzifə sahibi Kvint Delliyə əsaslanaraq həmin şəhəri "güclü Nera qalası" adlandırır. Ümumiyyətlə, Atropatena çarının iqamətgahları haqqında Strabonun məlumatında bir sıra mətləblər, xüsusən Vera qalası məsələsi aydın deyildir. Bəziləri Veranı Qazakanın içqalası, başqaları Fraaspanın içqalası sayırlar, bir başqaları isə belə güman edirlər ki Vera Fraaspanın özüdür. Son vaxtlaradək Fraaspanı müasir Təxti Süleymanın xarabalıqlarının yerində axtarırdılar, indi isə onu Marağa ətrafında yerləşdirirlər. Bununla bağlı qeyd etmək maraqlıdır ki, belə bir yeni fikir irəli sürülmüşdür: Vera qalasını Marağanın on beş kilometrliyində axtarmaq lazımdır, o yerdə ki, Səhənd dağının yamaclarında həqiqətən Daşqala Zöhhakın tikililəri qalmışdır. Antoni hərbi kampaniyanın planını cızarkən ərazinin çətinlikləri haqqında təsəvvürə malik deyildi və qarşısında duran atropatenalıların və parfiyalıların qüvvələrini lazımınca qiymətləndirməmişdi.

Dağ yollarında yerimək qoşun üçün, xüsusən mühasirə maşınları, mərmi atan maşınlar, o cümlədən səksən fut uzunluğunda qoçbaşı və digər ləvazimat daşıyan üç yüz arabadan ibarət böyük bir karvan üçün çox çətin idi.

Fraaspanı tez işğal etməyə çalışan Antoni araba karvanını öz leqatı Oppi Statianın iki legionuna, Ermənistan padşahı Artavazdın və Pont padşahı Polemonun köməkçi dəstələrinə tapşırıb arxada qoymağı qərara aldı, özü isə irəli cumdu. Hələ Plutarxın qeyd etdiyi kimi, bu, səhv idi. Əvvələn, ordu, onun kommunikasiyaları



downloaded from KitabYurdu.az

ağlasığmaz dərəcədə uzanırdı; təkcə araba karvanının mühafizəsi üçün qoyulmuş dəstənin uzunluğu 10-12 kilometrə bərabər idi ki, bu da bir çox çətinliklər törədirdi. İkincisi, Fraaspanın hasarı yaxınlığında, o yerdə ki, torpaq töküb bənd düzəltmək lazım gəldi, ordu əslində fəaliyyətsiz idi. Yeri gəlmişkən deyək ki, Antoninin gözləmədiyi halda Fraaspa uzunmüddətli müdafiəyə hazır idi. Hər şeydən göründüyü kimi, orada çox sanballı bir qarnizon və böyük ərzaq ehtiyatı varmış. Üçüncüsü, Roma ordusunun əsas kütləsindən ayrı düşmüş dəstələrə - Oppi Statianın dəstələri və Antoninin müttəfiqlərinin dəstələri üçün bilavasitə təhlükə yaradırdı.

Mühasirəyə alınmış Fraaspanın köməyinə gələn IV Fraat bundan istifadə etdi. Çevik Parfiya ordusu təqribən 40-50 min süvaridən, o cümlədən Atropatena süvarilərindən ibarət idi. Oppi Statianın dəstələrindən xəbər tutcaq Fraat, Plutarxın yazdığına görə, "güclü süvari dəstəsi göndərdi və bu dəstə Statianı dövrəyə alıb 10 min Roma əsgərini qırdı. Statian özü də həlak oldu. Barbarlar maşınları sındırdılar və dağıtdılar. Onların əlinə maşınlardan əlavə, çoxlu əsir də keçdi, əsirlər arasında çar Polemon da vardı"

Antoni köməyə gəldikdə, Dion Kassinin dediyinə görə, "meyitlərdən başqa heç nə tapmadı". Ermənistan çarı Artavazd öz dəstəsi ilə birlikdə döyüş meydanını tərk etmişdi.

Aryerqardın məhv edilməsi və Ermənistan çarının qaçması əslində kampaniyanın müqəddəratını həll etdi. Lakin Antoni Fraaspanın mühasirəsini dayandırmadı. Bu vaxt Parfiya-Atropatena süvari qoşunu romalıların geriyə yolunu tamamilə kəsərək əslində onları bütünlüklə mühasirəyə almışdı. Romalıların düşərgəsində aclıq başlanmışdı.

Öz qoşunlarını təhlükə altında qoymaq istəməyən Parfiya-Atropatena komandanlığı Antoninin qoşunları ilə ciddi döyüşlərə bilə-bilə girməməyə çalışırdı. Müttəfiqlərin dəstələri "gah bir, gah digər tərəfdən basqın edərək" [P l u t a r x] romalıları taqətdən salırdılar.

Fraaspanın uzunmüddətli mühasirəsi, mühasirəyə alınmışların inadlı müqaviməti, yem tapmaq üçün göndərilən dəstələrin məhv edilməsi, aclıq və bir çox başqa amillər Antoninin qoşunlarına pozğunluq salırdı.

Antoni legionerlərin döyüş əhvali-ruhiyyəsini qaldırmağa və qış düşənədək uzanarsa, romalılar üçün hökmən faciəyə çevrilə biləcək kampaniyanı tez başa çatdırmağa çalışaraq... on legion[6], üç pretor koqortası[7] və bütün süvari qoşunu[8] ilə birlikdə

[6] Legionda 4000 əsgər olurdu.

[7] Pretor koqortası-komandanın şəxsən mühafizə dəstəsi.

[8] Antoninin 10000 nəfərdən ibarət ispan və qallardan ibarət süvari qoşunu vardı.



downloaded from KitabYurdu.az

qoşun üçün ərzaq və atlar üçün yem tədarükünə yola düşdü - ümid edirdi ki, bu yolla düşmənləri açıq döyüşə atılmağa vadar edər [P l u t a r x].

Romalılar müttəfiqlərlə üz-üzə gəldikdə dərhal həmlə etdilər, lakin çevik süvarilər tez gizləndilər; onlardan cəmi 80 adam öldürüldü, 30 adam əsir tutuldu.

Plutarxın verdiyi məlumata görə, romalıları "acizlik və ümidsizlik hissləri bürümüşdü, belə bir dəhşətli fikir hamısına əzab verirdi ki, qələbə onlara çox cüzi üstünlük qazandırır, məğlubiyyət isə onları yenidən arabaların yanında baş vermiş döyüşün uğradığı qədər tələfata uğrada bilərdi"[9].

Ertəsi gün romalılar Fraaspa yaxınlığındakı düşərgəyə qayıdanda müttəfiqlərin qoşunları düşmənlərlə, necə deyərlər, "əsəblər müharibəsi" apararaq ona bir neçə dəfə basqın etdilər, "belə ki, romalılar öz düşərgələrinə güc-bəla ilə gəlib çatdılar" [Plutarx].

Bu arada "Fraaspada mühasirəyə alınmış midiyalılar (yəni atropatenalılar - *məsul red.)* düşərgə istehkamlarına basqın edərək, ön xətdə dayanan döyüşçüləri hürküdüb geri oturtdular..." [P l u t a r x]. Plutarxın və Dion Kassinin dediklərinə əsaslanaraq, belə güman etmək olar ki, mühasirəyə alınanlar Antoni olmayanda cəsarətli bir çıxış etmişdilər və Antoni qayıdan kimi öz qoşunlarının düşməni düşərgəyə buraxmış hissələrini "desimasiya" yolu ilə bərk cəzalandırmışdı. Plutarx yazır ki, Antoni "...onları (müəllifin təbirincə, "ürəksizlik" göstərmiş döyüşçüləri - *məsul red.)* on-on bölmüş və hər on nəfərdən birini - püşk hansının bəxtinə çıxsa - ölümə məhkum etmiş, qalanlarına isə buğda əvəzinə arpa verilməsini əmr etmişdi".

Qışın yaxınlaşması həm romalıları, həm də Atropatenanın müdafiəçilərini – parfiyalıları və madalıları eyni dərəcədə narahat edirdi. Antoni yaxşı başa düşürdü ki, əhalisi romalılara düşmən kəsilmiş bir ölkədə qış mənzillərinə çəkilmək əsla mümkün deyildir. IV Fraat və onun müttəfiqi Atropatenalı Artavazd da başa düşürdülər ki, əsasən süvarilərdən ibarət (40-50 min) olan nəhəng bir ordunu qışda çöl şəraitində saxlamaq qeyri-mümkündür. Plutarx əsla mübaliğə etmədən yazır: "...müharibə iki tərəfin heç biri üçün asan deyildi, gələcək isə daha dəhşətli görünürdü".

Dözməyib ilk addım atan Antoni oldu - o, IV Fraatın yanına elçilər göndərib köhnə və onun yürüşü zamanı ələ keçirdiyi bayraqların və əsirlərin qaytarılmasını tələb etdi. Parfiya çarı romalıları qəbul edərkən özünü çox təkəbbürlü apardı (bu səhnəni Dion Kassi təsvir etmişdir), onların tələbini rədd etdi, lakin bildirdi ki, mühasirəni dayandırıb ölkəni dərhal tərk etsələr, onun qoşunları maneçilik törətməyəcək və romalıların arxayınlıqla vətənə qayıtmasına imkan verəcəklər.

---

[9] Oppi Statianın aryerqardının tələf edilməsi nəzərdə tutulur.



downloaded from KitabYurdu.az

Barışıq bağlandığını güman edən Antoni bir neçə günlük yır-yığışdan sonra olan-qalan mühasirə maşınlarını atıb (mühasirədə olanlar bu maşınları dərhal yandırdılar), döyüşçülərin bir hissəsinin narazılığına baxmayaraq, düşərgədən tərpəndi və geri çəkilməyə başladı. IV Fraatın vədinə baxmayaraq müttəfiq qoşunu romalıları qarabaqara izləyirdi.

Romalılar Atropatenaya soxulduqları yolla deyil, başqa yolla geri çəkilirdilər. Güman edilir ki, bir şəxs Antonini duyuq salmış və o, öz döyüşçülərini Marağadan şərqə, sonra isə Səhəndin şərq yamaclarından keçən çətin dağ yolları ilə Təbriz vadisinə və Mərəndə tərəf, oradan da, ola bilsin, Əhərə və daha sonra "Midiyanı (yəni Atropatenanı - *məsul red.)* Ermənistandan ayıran" Araza tərəf apardı [Plutarx].

Qışın şaxtasında çətin dağ yolları ilə iyirmi yeddi günlük yürüş, aclıq, susuzluq, düşmənin süvari qoşununun daim arxadan təqib etməsi, iyirmiyə qədər çarpışma - bu çarpışmaların təkcə birində romalılardan 3 min adam öldürülmüş və 5 min adam yaralanmışdı - öz işini gördü. Plutarx romalıları təqib edənlər arasında xüsusi olaraq "midiyalılar (atropatenalılar - *məsul red.)* dəstəsinin" adını çəkir.

Atropatenada həlak olmuş romalıların ümumi sayı güman ki, 35 minə yaxın idi.

Beləliklə, öz miqyasına görə əzəmətli olan "Parfiya" ekspedisiyası fəlakətlə qurtardı.

Hellinist qaydalarını bərpa etməyə, artıq etnik cəhətdən dirçəlmiş, öz dövlət quruluşunu, mədəniyyətini bərpa etmiş yerli əhalini zorla əsarət altına almağa çalışan romalılar məğlub oldular.

Antoni və onun müşavirləri son bir neçə onillik ərzində Şərq, xüsusən "Parfiya" aləmində baş vermiş çox dərin dəyişiklikləri nəzərə almamışdılar.

Atropatenalılar, o cümlədən əhalinin ən geniş təbəqələri romalılara yunan-makedoniyalı istilaçıların varisləri kimi baxırdılar və onları böyük düşmənçiliklə qarşıladılar. İşğalçılara qarşı mübarizə elliklə mübarizə, ümumxalq mübarizəsi idi. Atropatenalıların mərd-mərdanə müqaviməti, Fraaspanın qəhrəmancasına müdafiəsi, Roma qoşunlarına qarşı hamılıqla mübarizə aparılması Parfiyanı ələ keçirmək və yeni "dünya dövləti" yaratmaq haqqında Antoninin avantürist planının puça çıxmasına xeyli dərəcədə səbəb oldu.

Atropatena çarı öz böyük qələbəsini bayram edirdi. Qələbə xüsusilə ona görə əlamətdar idi ki, Atropatena çarının əlinə çox böyük bir qənimət keçmişdi. O, Oppi Statianın əlindən alınmış Roma bayraqlarının sahibi idi. Pont padşahı Polemon onun əsiri idi. Bütün bunlar Atropatenanın və onun çarı Artabazdın nüfuzunun artmasına səbəb olmaya bilməzdi.

Bu qələbədən az sonra müttəfiqlərin - atropatenalılar ilə parfiyalıların arasına nifaq düşdü. Buna səbəb o idi ki, qənimət bölgüsü üstündə iki hökmdarın arası dəymişdi və görünür, "midiyalıda (yəni Artabazdda - *məsul red.)* belə bir şübhə və



downloaded from KitabYurdu.az

qorxu yaranmışdı ki, Fraat onun taxt-tacına qəsd edir" [Plutarx]. Həqiqətən də Parfiya çarı qət etdi ki, Atropatenanı ələ keçirmək vaxtı çatmışdır. Vəziyyət elə təhlükəli şəkil almışdı ki, Parfiyanın möhkəm tərəfdarı olan Artabazd riskə gedib ənənəvi Parfiyapərəst siyasətdan uzaqlaşır və e.ə. 35-ci ildə öz əsiri Polemonu Aleksandriyaya (İsgəndəriyyəyə) Antoninin hüzuruna göndərib ona sülh və dostluq təklif edir, "onu öz yanına çağırır, bütün qoşunu ilə birlikdə romalıların tərəfində vuruşmağı vəd edir" [Plutarx]. Beləliklə, Atropatena tarixində ilk dəfə olaraq Artabazd Roma silahının gücünə arxalanmağı qərara aldı.

Artabazd ilə Fraat arasındakı çəkişmələr "dünya dövləti" yaratmaq kimi sərsəm bir ideyadan hələ də əl çəkməyən uğursuz triumviri sevindirməyə bilməzdi. Plutarxın dediyinə görə, "[indi] Antonidə yeni və ən xoş ümidlər oyanırdı". Çox mühüm cəhət ondan ibarətdir (və Plutarx da ona diqqəti xüsusi cəlb edir!) ki, "əgər keçən dəfə parfiyalılara üstün gəlmək üçün onun (yəni Antoninin - *məsul red.)* ancaq bir şeyi - kaman və oxla silahlanmış çoxsaylı süvari qoşunu çatmırdısa, indi onun sərəncamında belə bir süvari qoşun var idi... və o, Araz çayının sahilində midiyalı ilə birləşib hərbi əməliyyata başlamaq üçün bir daha Ermənistandan keçməyə hazırlaşırdı". Doğrudur, süvari qoşun hələ Antoninin sərəncamına keçməmişdi. Lakin məsələ bunda deyil. Burada bizim üçün mühüm cəhət Atropatena süvarisinə yüksək qiymət verilməsidir. Zəhmli parfiyalılara üstün gəlmək üçün məhz Atropatena süvari qoşunu çatışmırdı. E.ə. 34-cü ilin yazında Antoni Ermənistana tərəf hərəkət etdi, ölkənin çarı Artabazdı və ailəsini əsir tutdu, ölkənin paytaxtı Artaksatanı aldı, xəzinəni ələ keçirdi və Ermənistanın istila olunduğunu elan etdi. Ermənistanın çarı elan edilən Artaksi (Artaşes) əvvəlcə romalılara müqavimət göstərməyə cəhd etdi, lakin bir azdan qaçıb parfiyalıların tərəfinə keçdi. Atropatenalı Artabazd elə onda Oppi Statiandan alınmış bayraqları Antoniyə qaytardı, qızı İotapanı Antoni ilə Kleopatranın oğluna - atası tərəfindən Şərqin gələcək hökmdarı kimi nəzərdə tutulan Aleksandra verəcəyini vəd etdi. Antoni Parfiya ilə müharibənin davam etdiriləcəyini bildirdi. Lakin bu müharibəni Qərbdəki əsas rəqibinə - keçmiş müttəfiqi, ikinci triumviratın üzvü Oktaviana (gələcəkdə Avqust) qələbə çalanadək təxirə salmalı oldu.

Həmin il, yəni e.ə. 34-cü ildə Antoni Aleksandriyada Ermənistan üzərində qələbəni bayram etdi. Elə bu zaman ən dəbdəbəli bir şəraitdə Antoni "Kleopatradan olan oğlunu çarlar çarı elan etdi, Ermənistanı, Midiyanı və Parfiyanı (bu ölkə nə vaxt ələ keçirilsə) Aleksandra vəd etdi... Antoni Aleksandrı camaatın qabağına tam Midiya geyimində, tiara və dümdüz kitara [10] ilə çıxartdı... Bu, Midiya və Ermənistan padşahlarının geyimi idi..." [Plutarx].

---

[10] *Tiara və kitara-padşah* baş örtükləridir.



downloaded from KitabYurdu.az

Görünür, Aleksandr Helios ilə İotapanın rəsmi nişanlanması da elə bu vaxt olmuşdu.

Bu zaman Atropatenalı Artabazdın vəziyyəti xeyli mürəkkəbləşdi. Bununla əlaqədar e.ə. 33-cü ilin yazında Antoni Ermənistana hərəkət etməyə məcbur oldu. Burada yenidən çoxlu qoşun toplayıb parfiyalılara qarşı yürüşə çıxmağa hazırlaşırdı, lakin Oktavianla münaqişənin kəskinləşməsi Antonini parfiyalılarla müharibədən vaz keçməyə məcbur etdi. Qərbə qayıtmağa tələsən Roma sərkərdəsi Atropatena padşahı ilə rastlaşdı, kömək üçün ona qoşun dəstəsi verdi, Oktaviana qarşı mübarizədə yardım göstərməsini xahiş etdi və özü Ermənistandan uzaqlaşdı. Bu zaman Artabazd qonşu Ermənistanın hesabına öz torpaqlarını bir qədər genişləndirdi.

Romanın köməyi sayəsində Artabazd ilk vaxtlar parfiya-erməni basqınlarını dəf edə bilirdi, lakin bir azdan Antoni Roma qoşunlarını Ermənistandan geri çağırdıqda Artabazd darmadağın edildi və əsir tutuldu, Atropatenanı isə IV Fraat Ermənistan çarı Artaksiyə verdi. Bu vəziyyət o qədər də uzun sürmədi, çünki bir neçə faktdan göründüyü kimi, tezliklə Atropatena padşahı əsirlikdən qaçdı (?). Və yalnız buna görə Aksiya yaxınlığında Kleopatra ilə Antoni üçün fəlakətlə nəticələnən döyüşdən; (e.ə. 31-ci il) qabaq "Midiya (Atropatena - *məsul red.)* padşahı" - Plutarxın verdiyi məlumata görə - "(Antoniyə yardım üçün - *məsul red.)* köməkçi dəstə göndərə (bildi)".

Deməli, e.ə. 31-ci ildə Artabazd artıq azadlıqda idi, Aksiya yaxınlığında baş verən faciədən, yəni-Oktavianın donanması Antoni və Kleopatranın donanmasını darmadağın edəndən sonra Kleopatra Atropatenanın köməyinə ümid bəsləyərək, vaxtilə Antoni tərəfindən əsir tutulub Misirə aparılmış Ermənistan çarını öldürür və başını Atropatena padşahı Artabaza göndərir.

Çox keçmədən biz həmin Atropatenalı Artabazdı artıq Oktavianın yanında iltimasçı rolunda görürük; bir məlumata görə, Oktavian ona Kiçik Ermənistanı, başqa bir məlumata görə isə ümumiyyətlə, Ermənistanı verir və Artabazd oranı, görünür, e.ə. 20-ci ilədək idarə edir. Oktavian Atropatena padşahına onun qızı, Aleksandr Heliosun nişanlısı İotapanı da qaytarır. Bütün bunlar, çox ehtimal ki, Antoni və Kleopatra tamamilə məğlub olduqdan və Avqust Misiri işğal etdikdən sonra, yəni təqribən e.ə. 30-cu ildən sonra mümkün ola bilərdi.

Beləliklə, son Atropatilər içərisində ən görkəmli şəxsiyyət olan Artabazdın sayəsində e.ə. 30-cü illərin ortalarında Atropatenanın siyasi meyli kəskin şəkildə dəyişir. Bəlkə də məcburiyyət üzündən atılmış bu addım ölkənin tarixində dönüş nöqtəsi oldu; lakin Romaya meyil uzun sürmədi. Tez bir zamanda atropatenalılar yenidən parfiyalıların tərəfinə keçdilər və uzun müddət - tam iki əsr onlarla bir cəbhədə oldular.

Atropatenanın Roma ilə yaxınlaşması Artabazda baha başa gəlsə də, Atropatenaya az fayda vermədi, başlıcası isə xüsusən qonşu Ermənistanı ələ



downloaded from KitabYurdu.az

keçirmək, Atropatena və Ermənistan padşahlıqlarını vahid bir tac altında birləşdirmək haqqında Atropatilərin çoxdan qurduqları iddialı planlar ilə əlaqədar olaraq böyük ümidlər doğurdu.

Madalılar ilə ermənilər arasında mədəni yaxınlıq, siyasi və iqtisadi əlaqələr lap qədimdən başlanmışdır. Strabon açıq yazırdı: "Midiyalıların əksər adətləri ermənilərin adətlərinin eynidir. Lakin, deyildiyinə görə, midiyalılar ermənilərin adətlərinin banileridir...".

Madalılar ermənilər arasında çoxdan bəri müəyyən mövqe əldə etmişdilər. Onlar azı yeddi yüz il boyunca Ermənistan tarixində çox böyük rol oynamışlar.

Ermənistanda madalılar yaşayan yerlər çox idi. Erməni müəllifləri "azad Masisdə (Araratda - *məsul red.)* yaşayan" madalılardan bəhs edirlər. Maraqlıdır ki, Araratdan şərqdə "mar (yəni Mada - *məsul red.)* kəndləri"nin olması erməni müəllifləri tərəfindən hələ orta əsrlər dövründə, xüsusən VIII əsrdə qeyd edilmişdir.

Mada mənşəli naxarar nəsli olan Murasanlar antik dövr Ermənistanın siyasi həyatında çox mühüm rol oynayırdı: bu nəslin başçısı Marasos-ter Ermənistan çarlığının sosial-siyasi iyerarxiyasında "ikinci yer" tuturdu (yəni çardan sonra birinci idi). Çox maraqlıdır ki, eramızın I əsrində Parfiya dövlətinin iyerarxiyasında Atropatena hökmdarlarının payına "ikinci yer" düşmüşdü. Erməni əyanları arasında anadangəlmə atropatenalılar az deyildi.

Avqust Atropatena haqqında liberal siyasət aparırdı. O, hər vasitə ilə atropatenalılara kömək edir, onların iddialarına yaxşı münasibət bəsləyirdi.

E.ə. 20-ci ilə yaxın Atropatenada hakimiyyət başına Artabazdın oğlu II Ariobarzan gəldi. Bu elə bir vaxt idi ki, Şərqdə vəziyyət Romanın xeyrinə olaraq dəyişmişdi - parfiyalılar sülh siyasətinə, Avqusta güzəşt etmək siyasətinə keçmişdilər.

Ariobarzan Romada on ilə yaxın yaşadı. Tasit onu "cismani gözəlliyi və görkəmli mənəvi keyfiyyətləri ilə fərqlənən bir midiyalı" kimi səciyyələndirirdi. Ariobarzan romalılara ən səmimi dostluq duyğuları bəsləyirdi; əlbəttə, bu, onun Ermənistan taxt-tacında bərqərar olmasında da əsas rol oynadı.

Ermənistanda Parfiyaya meylin güclənməsi və Roma əleyhinə çıxışlar edilməsi ilə əlaqədar olaraq e.ə. 20-ci ildən az sonra romalılar bu ölkəyə qoşun göndərdilər. Onlar Artabazdı (Ariobarzanın atasını, yoxsa oğlunu - ?) Ermənistan çarı elan etdilər. Tasitin yazdığına görə, Artabazd bir müddətdən sonra "onlar (ermənilər - *məsul red.)* tərəfindən devrildi, bunun bizə (yəni romalılara - *məsul red.)* ziyanı dəydi".

Tasit yazırdı: "O zaman Ermənistanda qayda yaratmaq üçün Qay Sezar (Avqustun oğulluğu - *məsul red.)* oraya göndərildi. Ermənilərin razılığı və təqdiri ilə o, əslən midiyalı olan Ariobarzanı onlara çar təyin etdi...". "İlahi Avqustun əməlləri"ndə də deyilir: "Bundan sonra ayrılan və üzə duran, oğlum Qay tərəfindən ram edilən elə həmin xalqı (erməniləri - *məsul red.)* mən medlərin (bu halda



downloaded from KitabYurdu.az

atropatenalılar nəzərdə tutulur - *məsul red.)* padşahı Artabazın (Artabazdın - *məsul red.)* oğlu çar Ariobarzanın ixtiyarına verdim..." [XXVII, 2].

Qay Sezar tərəfindən istila edilmiş ölkə e.ə. I əsrdə Atropatena padşahına verildi. Beləliklə, erməni əyanlarının əvvəlcə məmnuniyyətlə qəbul etdikləri Atropatena padşahı Ariobarzan Ermənistanın da çarı oldu. Atropatilərin uzun illərdən bəri bəslədikləri ümid və arzular, nəhayət, həqiqətə çevrildi - hər iki padşahlıq bir tac altında birləşdirildi.

Lakin Ariobarzanın Ermənistanda hökmranlığı sakit keçmədi. Görünür, parfiyalılar tərəfindən qızışdırılan ermənilər yadelli hökmdarın zülmünə dözmək istəmirdilər. Eramızın 2-ci ilində ermənilər Romaya və Ariobarzana qarşı üsyan qaldırdılar, buna görə də Qay Ermənistana ikinci dəfə soxuldu. Ermənilər, güman edildiyinə görə, Araz çayının vadisində yerləşən Artakir qalası yaxınlığında xüsusilə inadlı müqavimət göstərdilər. Parfiya sərkərdəsi Ad[d]o məhz burada Qayı ölümcül yaraladı və bir neçə ay sonra Qay aldığı yaradan öldü. Bununla belə, ermənilər darmadağın edildilər. Görünür, bu müharibənin gedişində Atropatena hökmdarı ermənilərdən iki ölkə arasında nifaq düşməsinə səbəb olmuş I Albaka (Strabonda səhvdir: Simbaka. Plinidə: *'Alavaka*) rayonunu geri almışdı.

Beləliklə, birləşmiş Roma-Atropatena qüvvələri üsyançıları ram edərək həmin il (eramızın 2-ci ilində) Ermənistana yiyələndilər. Ariobarzan yenidən Ermənistan çarı elan olundu. Lakin onun hökmranlığı çox çəkmədi. Dion Kassinin yazdığına görə, Artakir alındıqdan bir az sonra Ariobarzan vəfat etdi. Tasit təsdiqləyir ki, "o (Ariobarzan - *məsul red.),* bədbəxt hadisə nəticəsində öldükdən sonra ermənilər onun övladlarının hökmranlıq etməsinə dözmək istəmirdilər...". Lakin "İlahi Avqustun əməlləri"ndən bizə yaxşı məlumdur ki, Ariobarzanın vəfatından sonra Avqust Ermənistanı "onun oğlu Artabazda" vermişdi [XXVII, 2]. Dion Kassi həmçinin məlumat verir ki, Artabazdı Ermənistan taxt-tacına Avqust və Roma senatı qoymuşdu. O, Ermənistanı bir neçə il idarə etmiş və Avqustun vəfatından bir az qabaq nə vaxtsa öldürülmüşdü. Onun prinsiplə dostluq münasibətini bir üzündə Avqustun şəkli, o biri üzündə yunanca "böyük çar Artavazd" sözləri həkk olunmuş gümüş sikkə sübut edir.

Qayın gözlənilməz ölümü, Ariobarzanın qəflətən həyatdan getməsi, Artabazdın öldürülməsi Avqustun və onun atropatenalı müttəfiqlərinin planlarına ağır zərbə oldu. Atropatilərin Ermənistan taxt-tacında bərqərar olması üçün yaranmış əlverişli şərait uğursuzluqla nəticələndi.

Ariobarzanın oğlu Ariovast Atropatenanı idarə edən son Atropati oldu.

Eramızın 20-ci ilinə yaxın Atropatenada Atropatilar sülaləsinə son qoyuldu. Hakimiyyət parfiyalı Arşakilərin kiçik qolunun ixtiyarına keçdi.

Beləliklə, Atropatena tarixində Romaya meyil dövrü başa çatdı, atropatenalılar yenidən "Parfiyanın ağuşuna" qayıtdılar.



downloaded from KitabYurdu.az

Atropatilər ölkəni təqribən üç əsr yarım idarə etdilər. Atropatilər haqqında ən son məlumatı bizə ikidilli latın-yunan yazısı verir. Bu yazıda Atropatena padşah sülaləsinin son törəməsinin - Roma tribalarından birində yazılmış Qay Yuli Artabazın (məşhur Artabazdın nəvə və ya nəticəsinin) adı çəkilir.



downloaded from KitabYurdu.az

XIII F Ə S İ L

# ATROPATENANIN MADDİ MƏDƏNİYYƏTİ VƏ DİNİ

**Atropatenanın maddi mədəniyyəti.** Atropatenanın maddi mədəniyyət abidələri indiyədək çox az, kifayət olmayan dərəcədə öyrənilmişdir. Bu, birincisi, yazılı mənbələrin azsaylı və natamam, yarımçıq, qırıq olması və ikincisi, bu bölgənin arxeoloji cəhətdən tədqiqinin azhəcmli olması ilə izah edilir. Lakin buna baxmayaraq, artıq indi Atropatenanın yaşayış məskənlərini və onların tiplərini, memarlıq prinsiplərini, tikinti texnikasının üsullarını, dəfn adətlərinin tipləri, bu dövlətin pul dövriyyəsinin səviyyəsini və maddi mədəniyyətin bəzi başqa cəhətlərini bu və ya digər dərəcədə səciyyələndirmək olar.

**Yaşayış yerləri.** Antik müəlliflər (Strabon, Plutarx, Ptolemey, Dion Kassi) Atropatenada kifayət dərəcədə inkişaf etmiş şəhər həyatının olduğunu təsdiq edirlər. Fraaspa (Fraata, Faraspa), Qazaka (Qanzaka), Fanaspa, Aqanzana və b. Hellinist-Parfiya dövrünün mühüm şəhərləri sırasında xatırlanılır. Lakin tədqiqatçı üçün çətin olan cəhət ondan ibarətdir ki, həmin şəhərlərdən heç birinin yeri indiyədək qəti şəkildə müəyyənləşdirilməmişdir. Fraaspanı uzun müddət ərzində Urmiya gölündən təxminən 160 kilometr cənub-şərqdə yerləşmiş müasir Təxti Süleyman şəhər yeri ilə eyniləşdirirdilər. Lakin son vaxtlarda Almaniya arxeoloji İnstitutunun ekspedisiyasının qədim şəhərin yerində apardığı qazıntılar zamanı hələlik burada Parfiya dövrünün təbəqələri aşkara çıxarılmamışdır. Bu isə bir çox tədqiqatçıları Fraaspanın müasir Marağa şəhərinin ətraflarında yerləşdiyini bildirən əvvəlki nöqteyi-nəzəri müdafiə etməyə (və yaxud ən azı nəzərə almağa) vadar etdi.

Qazakanı da ilk növbədə Bizans mənbələrinə arxalanaraq Təxti Süleyman qədim şəhər yeri ilə eyniləşdirirdilər. Lakin bu lokallaşdırma da xüsusilə son zamanlar bir sıra tədqiqatçıların kəskin etirazına səbəb olmuşdur. Onlar digər nöqteyi-nəzəri, yəni vaxtilə Qazakanın Miyandob şəhərindən şərqdə olan Leylan kəndi ərazisində yerləşdiyini söyləyən baxışı müdafiə etdilər. Hazırda bu eyniləşdirilmə hamı tərəfindən qəbul edilmişdir.

Atropatenanın digər iki şəhərinin - Aqanzanın və Fraaspanın yerinin müəyyənləşdirilməsi tədqiqatçılar arasında fikir ayrılıqları doğurmur. Qeyd etmək lazımdır ki, indiki Zəncan şəhəri ilə eyniləşdirilən Aqanzana ciddi arxeoloji araşdırmalara məruz qalmamışdır. Fanaspaya gəldikdə isə belə bir fərziyyə irəli sürülmüşdür ki, Ptolemeydə [VI, 2] qeydə alınmış bu şəhər müasir Marağa və Miyanə şəhərləri arasındakı ərazidə, Miyanəyə daha yaxın olan bir mövqedəki Qaleye-Zöhhak adlı qədim şəhər yeri ilə eynidir. Qədim şəhər yerində dəfələrlə səyyahlar və arxeoloqlar olmuşlar. Onların arasında Almaniya Arxeoloji İnstitutunun bir neçə il



downloaded from KitabYurdu.az

ərzində kəşfiyyat axtarışları aparmış ekspedisiyalarını qeyd etmək lazımdır. Abidənin ətraflı (qazıntılar aparılmasa da) tədqiqi nəticəsində mühüm arxitektura, keramika və digər mədəniyyət qalıqları aşkara çıxarılmışdır ki, bu da həmin qədim şəhər yerinin tədqiqatçılar tərəfindən Ptolemeyin qeyd etdiyi Fanaspa ilə eyniləşdirilməsi üçün əsas olmuşdur.

Mil düzündə (Azərbaycan Respublikasının Beyləqan bölgəsi), iki təpə üzərində yerləşmiş, xəndəklərlə əhatələnmiş və keramikası, sikkələri, digər tapıntıları ilə e.ə. IV əsrə - eramızın I əsrinə aid olunan Təzəkənd şəhər yeri eramızın ilk əsrləri mənbələrində xatırlanmış qədim Paytakaranla eyniləşdirilir.

Antik ədəbiyyatda [S t r a b o n, XI, 13, 3] yuxarıda adları çəkilmiş şəhərlərdən başqa Vera qalasının mövcud olduğu təsdiqlənməkdədir. Bu qalanın lokalizasiyası da tarixçilər arasında xeyli mübahisələr doğurmuşdur. Strabonun mətnində həmin qalaya aid olan hissənin naqisliyi bu mübahisələrin başlıca səbəbidir. Oxunuşdan asılı olaraq Veranın lokalizasiyasının aşağıdakı variantları irəli sürülmüşdür: 1) Qazakanın içqalası; 2) Fraaspanın içqalası; 3) Fraaspanın özü. Lakin bu yaxınlarda Veranı Marağadan təxminən 16 kilometr yuxarıda Səhənd dağının ətəklərində lokallaşdırmaq haqqındakı təklifə yenidən diqqət yetirildi. Daşqala Zöhhak qala tikililəri Marağadan şimal-qərbdə, təxminən bu qədər uzaqlıqda (16 km) yerləşir və həmin abidənin islam dövrünə aid olan möhtəşəm tikinti qalıqlarının altında islamaqədərki zamanın tikililərinin xeyli qalığı nəzərə çarpır. Fərziyyənin tərəfdarlarının fikrincə, qalanın alınmaz və müdafiə üçün əlverişli vəziyyətdə olması bu fikrin mənafeyinə xidmət edən vasitəli təsdiqdir.

Almaniya Arxeoloji İnstitutunun ekspedisiyasının Astara-Ərdəbil bölgəsindəki kəşfiyyat işləri Mada-Atropatenada Parfiya dövründə tikilmiş qalalar haqqında təsəvvür yaradır. Bu işlərin gedişində uzun zaman ərzində, o cümlədən keramik materialın mühakimə yürütməyə imkan verdiyi kimi, Parfiya dövründə də fəaliyyət göstərmiş bir sıra qalalar: Qaleye-Sasan, Qaleye-Növduz, Ərdəbildən 30 kilometr şimal-qərbdə olan "Qala" qeydə alınmışdır. Onların yerləşməsində və quruluşunda bir sıra ümumi cəhətləri görmək olar. Bütün qalalar uca, çətinliklə fəth oluna bilən təpələrdə yerləşir, iri, yonulmamış daşlardan tikilmiş güclü divarlarla, yarımdairəvi qüllələrlə əhatələnmişdir, zəif daxili tikilişə malikdir, lakin bununla belə divarların daxilində həmişə içməli su ehtiyatlarını mühafizə etmək üçün çən (və yaxud çənlər) vardı.

Təəssüf ki, artıq deyildiyi kimi, Atropatenanın yuxarıda adları çəkilmiş yaşayış yerlərindən heç biri qəti surətdə lokallaşdırılmış hesab oluna bilməz. Bu, həm də identifikasiyası məsələsi tədqiqatçıların mübahisəsinə səbəb olmuş qədim şəhər yerlərinə, həm də müasir yaşayış məntəqələri ilə eyniləşdirilən, lokalizasiyası məsələsi mübahisə doğurmayan qədim şəhər yerlərinə eyni dərəcədə aiddir. Lakin belə hesab etmək lazımdır ki, sonrakı arxeoloji işlər bu fərziyyələrin doğruluğunu və



downloaded from KitabYurdu.az

yaxud səhv olduğunu müəyyən etməyə, habelə hazırda ümumiyyətlə antik dövrə aid olunan digər abidələrin (Cənubi Azərbaycandakı Qalaoğlu, Qamçıçay, Qaleye-Zərrin-Kuh, Gaur Qala və b., Azərbaycan Respublikası ərazisində Mil düzündəki Qaratəpə, Qalatəpə və bir sıra başqa abidələr) mövcudluğu müddətini və əhəmiyyətini daha dəqiq aydınlaşdırmağa yardım edəcəkdir.

**Memarlıq.** Bütün dövrlərdə və xüsusilə qədim zamanlarda inşaat materialının seçilməsi tamamilə ətraf landşaftın şəraitindən asılı olmuşdur. Müxtəlif vilayətlər arasındakı iqtisadi əlaqələrin nisbətən inkişaf etməməsi üzündən inşaat materiallarının daşınması çətin idi və buna görə də yerli materiallara üstünlük verilirdi. Atropatenanın coğrafi şəraiti inşaat materialı kimi daşın geniş surətdə tətbiq olunmasına yardım edirdi. Düzdür, emalı xeyli zəhmət tələb etdiyi üçün daş (əsasən yonulmamış) ilk növbədə müdafiə xarakterli qurğuların (şəhər və qala divarları, qüllələr, istehkamlar və s.) tikintisində istifadə edilirdi. Gil və yaxud gips məhlulu ilə möhkəmləndirilmiş kiçik daşlar və çaydaşıları adətən bişmiş kərpicdən ucaldılan binaların özülü olurdu. Bişmiş kərpici öz əhəmiyyətinə görə bu vilayətdə ikinci inşaat materialı hesab etmək olar (Qaleye-Zöhhakdakı pavilyon). İctimai təyinatlı binaların memarlıq baxımından bəzədilməsində daş, xüsusilə əhəngdaşı, qumdaşı geniş surətdə tətbiq edilirdi. Məsələn, Qaleye-Zöhhakda olan sarayda xeyli sayda bəzək detalları qeydə alınmışdır. Burada qarətçilik məqsədilə aparılmış qazıntılar nəticəsində binanın daş kvadratlardan tikilmiş otaqlarından biri qismən açılmışdır.

Tikintidə ağac çox məhdud surətdə tətbiq edilirdi (damın üstünü örtmək üçün tirlər, qapının yan taxtaları və üst tirləri və s.) və mahiyyətcə ikinci dərəcəli inşaat materialı idi.

Parfiya dövründə əsasən mülki, memarlıq üçün səciyyəvi olan hamar tirli damlarla yanaşı, müxtəlif texnikada icra olunmuş tağlı örtüklər geniş yayılmışdı. Özü də tağların bəzi tipləri yalnız İran yaylası üçün səciyyəvidir və qədim yerli ənənələrin inkişafının nəticəsidir. Tağların texnikası və onların formaları, bir qayda olaraq, materialdan asılı olurdu.

Bişmiş kərpicdən tikilmiş qurğularda tez quruyan əhəng və ya gil məhlulu tətbiq edilirdi. Tağların və arkaların hörülməsi texnikası aşağıdakı kimi idi: kərpiclər ya tağın mərkəzinə radial münasibətdə yastısına yerləşdirilir, ya da dikinə qoyulmuş şəkildə hörülürdü. Qarışıq hörgü üsulu da tətbiq edilirdi (Qaleye-Zöhhakda olduğu kimi).

Saray, məbəd binalarının, ictimai qurğuların memarlıq tərtibatının detalları, onların inşası zamanı tətbiq olunmuş materiallar Atropatenanın kifayət dərəcədə çoxsaylı abidələrində aşkara çıxarılmışdır. Lakin onların əksəriyyəti ya başqa məqsədlərlə aparılmış işlər zamanı, ya da onların yeni və ən yeni dövrün qurğularında yenidən istifadə olunması gedişində qeydə alınmışdır. Bu hal isə onların dəyərini xeyli azaldır. Çox güman ki, yalnız iki abidə Mada-Atropatena ərazisində mövcud



downloaded from KitabYurdu.az

olmuş memarlıq prinsiplərinin az və ya çox dərəcədə tam mənzərəsini verir: mülki xarakterli yaşayış yerinin nümunəsi kimi Qaleye-Zöhhak və məbəd qurğusu olduğu güman edilən, Təkab yaxınlığında yerləşən Kerefto (Karafto, Karaftu) qaya kompleksi.

İki təpədən və onların arasındakı çökəkdən ibarət olan Qaleye-Zöhhak qədim şəhər yeri şimaldan cənuba təqribən bir kilometrlik ümumi uzunluğa malikdir və Əhəmənilərə qədərki dövrdən islam zamanınadək müxtəlif vaxtlarda tikilmiş qurğuları özündə ehtiva edir. Şimaldakı təpə qədim şəhər yeri həyatının Parfiya dövrünə aiddir. Bu təpə e.ə. II-I minilliklərə aid olan məskən izlərini saxlamış çökəkdən ayrılmışdır. İkinci təpədə Sasanilərin hakimiyyəti dövründə tikilmiş qala qurğuları vardır. Bu qala qurğuları yonulmamış daşlardan bərkidici məhlul olmadan hörülmüşdür, diizbucaqlı qüllələrə malikdir. Bu divarın qərb qurtaracağında, Keranku çayı tərəfdəki yerdə qala qapılarının izləri nəzərə çarpır. Görünür bütün təpənin müdafiəsi üçün təqribən tam şəkildə qalmış, daha erkən zamanlarda tikilmiş qala divarından istifadə edilirdi. Divarın xarici tərəfindən, düz qala qapılarının qarşısında yonulmamış daşlardan tikilmiş ayrı-ayrı binalar görünməkdədir. Divarın daxili tərəfindəki binalar kompleksi böyük ərazidə yerləşmişdir ki, bu da tədqiqatçının fikrincə, kompleksin saray xarakteri daşıdığını təsdiqləyir.

Qaleye-Zöhhak qədim şəhər yerinin daha mühüm və yaxşı hifz edilmiş qurğusu pavilyondur. Pavilyon saray kompleksindən cənub-qərbdə yerləşir və həmin kompleksdən terrasla ayrılmışdır. Plan baxımından kvadrat təşkil edən (daxili ölçüləri 5,90x5,80 metr) pavilyon yonulmamış daşlardan olan özül üzərində yanı üstə qoyulmuş kərpiclərdən (32x32x6-33x33x6 santimetr) tikilmişdir. Tağları olan daxili binanın hündürlüyü 9,40 metrə (çələyin zirvəsinədək), pavilyonun ümumi hündürlüyü isə 12 metrə, eni 8,90 metrə çatır. Pavilyona girişin eni 2,50 metrdir və bu giriş şimal-şərq tərəfdə yerləşir. Cənub-qərb və şimal-qərb tərəflərdən pavilyon 4 metrdən artıq eni olan yarımdairəvi tağlarla çay vadisinə açılır. Cənub-şərq tərəfdən isə pavilyon bağlıdır və belə hesab edirlər ki, bu cəhət pavilyonun atəşpərəstlik məbədi və yaxud çahartaq kimi ibadət obyekti olduğu fikrini təkzib edir. Eyni zamanda pavilyonun çayın sıldırımlı sahilində, dərin dərənin qarşısındakı uca qayalığın üzərində yerləşməsi onun saray strukturunda görkəmli funksiyaya malik olduğunu göstərir.

Daxili və xarici tərəflərdən divarların üzərində, divar oyuqlarında, habelə tağların daxili səthində bəzi yerlərdə boya təsvirlərinin izləri olan suvaq qalmışdır. Həmin təsvirlər qadın başcıqlarının əks olunduğu kesson, meandr ornamenti, relyef şəklində verilmiş qıvrımşəkilli bəzək rəsmlərindən və s. ibarətdir. Pavilyon İranın, xüsusilə Əhəmənilər dövrünün tikinti ənənəsinə uyğun gələn üçpilləli merlonlara malik olan dişli məhəccərlə başa çatır.



downloaded from KitabYurdu.az

Pavilyonun həm Ön Asiyanın, həm də Romanın memarlığı ilə bənzərliklərə malik olan memarlıq xüsusiyyətləri (Aşşurdakı və Kuhi-Xocadakı saraylar, binaların daxilindəki memarlıq detallarının profilləri, dekor və s.), habelə keramika fraqmentləri onu Parfiya dövrünə, daha dəqiqi eramızın I əsrinə aid etməyə imkan verir.

Müasir İranın Qərbi Azərbaycan və Kürdüstan əyalətlərinin sərhədində, Kerefto dağlarında həm özünün memarlığı, həm də otaqlardan birinə girişin üzərində həkk olunmuş yunan apotropeik yazısı ilə nəzəri cəlb edən qaya kompleksi yerləşir. Yazının mətnində deyilir: "Burada Herakl yaşayır, hər cür pislikdən uzaq olsun".

Qayalıqda oyulmuş otaqlar bir-birilə birləşən iki səviyyədə yerləşir. Kompleksin hazırda qayalığın dibindən təqribən 9 metr hündürlükdə olan girişi ümumi uzunluğu 18,60 metr olan, suvanmış tağlı tavanlara malik bir neçə otaqlı, apsidalı otaqla başa çatan aşağı mərtəbəyə aparır. Aşağıdakı ansambl yuxarı mərtəbə ilə dəhliz vasitəsilə birləşir. Həmin dəhliz daha sonrakı, islam dövründə inşa edildiyi güman olunan 3 aralıq otaqdan keçir. Geniş dəhliz, divar oyuqlarında hər iki tərəfdən suflar əlavə edilmiş və arxasında bir-birinə düz yolu olan üç yanaşı otaq birinci mərtəbəni təşkil edir. Geniş dəhlizdən qapı ilə (1,80x1,10 metr) ayrılmış otaqlardan birinin üzərində yuxarıda adı çəkilmiş yazı vardır. Görünür, bu və ondan sonrakı otaq daxildən ağır siyirmə vasitəsilə bağlanırdı. Həmin otaqlarda qapılardan solda düzbucaqlı oyuqların olması bunu təsdiq edir. Yazının olduğu otaqda yuxarı fassiyasında dişciklər və dairələr şəklində olan friz yerləşmiş pəncərələr qalmışdır.

Kereftodakı bu mağara tipli tikilinin funksional təyinatına dair ədəbiyyatda iki nöqteyi-nəzər irəli sürülmüşdür. Tədqiqatçıların bir qismi onun sitayiş təyinatlı tikinti olduğunu iddia edir. Digər tədqiqatçılar isə əksinə, qayalıqlarda oyulmuş otaqlar kompleksinin mülki səciyyə daşıdığını söyləyirlər. Onlar belə hesab edirlər ki, bu kompleks yunan hərbi hissəsinin yerləşdiyi obyekt olmuşdur və Böyük Madanın şimal sərhədlərinin onu əhatə edən "barbar" xalqlardan müdafiəsi həmin hərbi hissənin vəzifəsi olmuşdur.

Kereftonun yaşayış kompleksi olduğunu iddia edən alimlər qeyd edirlər ki, Heraklın adı olan apotropeik formul həmişə şəxsi evə girişin üzərində yerləşir və bir növ tanrının himayəsi altında olan yaşayış yeri ilə əlaqələndirilmiş xeyir-duadır.

Bu nöqteyi-nəzərin tərəfdarları habelə Kerefto kompleksinin təcrid halında olduğunu, kompleksin böyük yollardan kənarda yerləşdiyini, yalnız otlaq yeri kimi istifadə oluna biləcək, kasıb bitki örtüyünə malik olan ərazidə qərarlaşdığını qeyd etmişlər.

Deyilənlərdən belə nəticə çıxarılır ki, burada sitayiş obyektinin əsasının qoyulması qeyri-mümkün idi və Kereftodakı tikili mülki xarakter daşıyırdı.



downloaded from KitabYurdu.az

Lakin göstərmək lazımdır ki, birincisi, Kerefto yazıları kimi yazılar yalnız yaşayış binalarında tətbiq edilmirdi. Bu cür formullar məqbərələrdə, qəbirüstü daş lövhələrdə, ictimai binalarda, habelə dini mahiyyətli memarlıqda da məlumdur.

İkincisi, kompleksin bu cür funksional təyinatlı halında sərhəd məntəqəsini "təcrid olunmuş yerdə, böyük yollardan kənarda" yerləşdirmiş rəhbərliyin məntiqi tamamilə anlaşılmazdır. Çünki düşmən müdaxilələrini yalnız böyük yolların mövcud olduğu yerlərdə gözləmək olardı.

Ətrafda yaşayan əhalinin bayramlar keçirmək və qurban vermək üçün toplaşa biləcəyi Kerefto kimi bir yerdə sitayiş obyektinin əsasının qoyulması fikrinin həqiqətə daha yaxın olduğunu güman etmək olar. Müxtəlif tanrılara həsr edilmiş mağara tipli, sitayiş təyinatlı tikililər nəinki Şərqdə, habelə Yunanıstanda da geniş yayılmışdı. Özü də onların hamısı Pavsaninin təsvirinə [X, XXXII, 5] görə, şəhərlərdən və başqa yaşayış məntəqələrindən çox uzaq məsafədə (30-dan 150 stadiyə qədər; stadi = 184,97 metr) yerləşirdi və çox zaman "mağara" tikililəri adlanırdı.

Kompleksin binalarından birində su mənbəyinin olması həmin yerin müəyyən qədər "müqəddəs" olduğu haqqındakı fikrə də sövq edir. Artıq bu cəhətə diqqət yetirilmişdir. Həmin cəhət belə fərziyyə irəli sürməyə imkan verir ki, burada "Şərq Heraklı"na sitayişdən başqa "səma suyu" ilahəsi hesab edilmiş Anahitə də sitayiş vardı. Maraqlıdır ki, Strabon [XI, 7, 5] Knidli Evdoksa istinad edərək Hirkaniya olmuş mağaralar haqqında məlumat verir. Onun məlumatına görə, bu mağaradakı çaylar birbaşa dənizə axır və yerli sakinlər qurbanlar verilməsi üçün mağaralara gəlirlər.

Qeyd etmək lazımdır ki, Herakla bənzər tanrılara sitayiş Şərqdə geniş yayılmışdı. İran Veretraqnası, Babil Nerqalı, erməni Vaxaqnı və b. bu qəbildəndir. Antik Ermənistanda (Taron vilayətindəki Aştaşatda) hətta yüksək təpədəki mağarada yerləşmiş Herakl-Vaxaqn məbədi məlumdur.

Heraklın özünə sitayişə gəldikdə isə o, Makedoniyalı Aleksandrın yürüşlərindən sonra bütün Şərqdə geniş yayılmışdı.

Biz bu qəhrəman təsvirlərinə hellinizm və Parfiya dövrünün sikkələrində də təsadüf edirik. Onun surəti təsviri incəsənətdə və heykəltəraşlıqda geniş yayılmışdı.

Bəzi müəlliflər Kereftodakı məbədi Tasitin xatırlatdığı [Annallar, XII, 13] Sanbulos dağında yerləşən səcdəgahla eyniləşdirirlər. Bu fikir şübhə doğurur. Görünür, Sanbulos dağı Behistun (Bisütun) dağıdır. Bu dağda "dincələn Heraklın" təsviri, Qotarzın Meherdat üzərindəki qələbəsini təsvir edən relyef (Tasitdə məhz bu iki rəqibin mübarizəsindən danışılır), Herakl Kallinikə həsr olunmuş yazı vardır.

Kereftodakı yazının mətni, habelə qədim dünyanın müxtəlif bölgələrində bənzərləri olan memarlıq kompleksinin planı belə bir fikir yaradır ki, burada Herakla və yaxud Mada Atropatenada sinkretik (Herakl-Veretraqna?) yunan-İran tanrısına sitayişin kifayət qədər erkən təzahürləri mövcud olmuşdur.



downloaded from KitabYurdu.az

Başlıca olaraq yazının paleoqrafiyası əsasında, habelə memarlıq üsullarına görə kompleksi e.ə. IV əsrin sonuna - III əsrin əvvəlinə aid etmək, yəni onun Mada-Atropatena dövlətinin mövcudluğunun başlanğıc dövrünə aid olduğunu göstərmək olar.

Qədim Atropatena ərazisində aşkar olunmuş ayrı-ayrı memarlıq detalları içərisində sütunların daş altlıqları daha çoxsaylı qrupu təşkil edir. Onların bütöv bir qrupu (17 ədəd) Leylan kəndindəki 3 müasir məscidin qurğularında ikinci dəfə istifadə olunarkən qeydə alınmışdır. Bütün bu sütun altlıqlarında (qismən kobud şəkildə hazırlanmış, qismən isə çox yaxşı emal edilmiş) tipik İran formaları nəzərə çarpır, onların 3-ü isə şübhəsiz, Parfiya dövrünə aiddir. Həmin sütun altlıqları mənşəcə Əhəmənilər dövrünün pilləli sütun altlıqlarına gedib çıxır və Sultanabadla Qum arasındakı Hürra adlı yerdən aşkar olunmuş sütun altlıqlarına tamamilə oxşayır.

Sütun altlıqlarının tək-tək nümunələri Qaleoğlu, Qaleye-Zöhhak, Xoy yaxınlığındakı Biləvar, Təzəkənd qədim şəhər yerlərində və bir sıra başqa məntəqələrdə tapılmışdır.

Memarlıq bəzəklərinin çoxsaylı parçaları Qaleye-Zöhhakda Parfiya dövrünə aid olan sarayın mövcudluğu güman edilən yerdə qeydə alınmışdır.

Kirəmit dam örtüyünün (solenin) qırıntısı da burada tapılmışdır. Bu tapıntı Qaleye-Zöhhakda mövcud olmuş binaların bu cür örtüklərlə örtülməsini güman etməyə imkan verir, görünür, kirəmit örtmə üsulu Hellinist inşaat təcrübəsindən əxz edilmişdir.

Qeyd olunmuş memarlıq qalıqları və inşaat materialları Qaleye-Zöhhak şəhər yerinin şimal təpəsində olan arxeoloji kompleksin saray xarakteri haqqındakı nöqteyi-nəzəri təsdiqləyir.

**Keramika.** Tədqiqatçılar tərəfindən yaşayış məskənlərindən və qəbirlərdən əldə olunmuş zəngin və rəngarəng saxsı materialı Atropatenada keramika istehsalının geniş şəkildə inkişaf etdiyini və yerli sənətkarların-dulusçuların yüksək səviyyəli ustalığını təsdiq edir. Keramika həm formaların müxtəlifliyi (kuzələr [çox hallarda burunlu], güldanlar, nimçələr, bardaqlar, möhtərlər və b.), həm də məmulatın yüksək keyfiyyəti ilə seçilir. Qabların əksəriyyəti yaxşı çökdürülmüş gildən hazırlanmış, bərabər yandırılmışdır. Qablar qırmızı, sarıya çalan açıq-qəhvəyi və yaxud boz-qara rənglidir. Anqob və cilalama geniş surətdə tətbiq edilirdi. Qırmızı boya ilə zəncir, həndəsi fiqur, çiçək motivləri və s. şəklində naxışlanmış qabların (əsasən kuzələrin) çoxsaylı qrupu mövcuddur. Boyalı keramika ilə yanaşı, ştampla naxışlanmış keramik formalara da təsadüf olunur. Minalanmış qablar ayrıca qrupu təşkil edir.

Keramika materialının artımı ilə əlaqədar olaraq keramikanın bu və ya digər qrupunun mövcudluğunda müəyyən dövrlərin, mərhələlərin ayrılması imkanı yarandı ki, bu da, şübhəsiz, sonralar Atropatenanın keramika məktəbinin yaranmasına gətirib çıxarmalı idi.



downloaded from KitabYurdu.az

Hazırda Atropatena keramikasının təkamülündə iki mərhələni ayırmaq olar: erkən (e.ə. III - II əsrlər) və son (e.ə. I əsr - eramızın II əsri) inkişaf mərhələləri.

Erkən mərhələ Madada olduğu kimi, boyalı keramikanın olması ilə səciyyəvidir. Lakin Atropatena keramikası yerli xüsusiyyətlərə malikdir. Fərqlər həm qabların naxışlanmasında, həm də onların profillərində müşahidə olunur.

Madanın və Mada-Atropatenanın keramika sənətləri arasındakı fərqləri qeyd edərkən Atropatenanın özündə də boyalı qabların dekorunda ciddi yeknəsəqliyin olmasını da göstərmək lazımdır.

Tiplərin və formaların daha əhəmiyyətli dərəcədə müxtəlifliyi sonrakı mərhələdə müşahidə edilir.

Təxminən e.ə. II əsrin ikinci yarısından etibarən hazırda Parfiya dövrünün arxeoloji obyektlərinin tarixinin müəyyən edilməsində əsas olan keramika tipi yarandı. Bu, qırmızımtıl-qəhvəyi rəngli (variantları: oxra rəngli, qonur) keramikadır və ədəbiyyatda "clinkyware" adı almışdır. Keramikanın bu növü Parfiya dövrünün əvvəlində meydana gələrək təqribən həmin dövrün sonunadək mövcudluğunu davam etdirmiş, eramızın II əsrinin sonlarından tez olmayaraq aradan çıxmışdır. Bu tipli keramikanın xüsusilə çoxlu qalıqları Qaleye-Zöhhakda və Ərdəbil yaxınlığındakı "Qala" adlanan möhkəmləndirilmiş təpədə qeydə alınmışdır.

Təxminən e.ə. II əsrin I yarısında İranın qərbində meydana gəlmiş minalanmış keramika əvvəlcə yaşılımtıl və yaxud ağımtıl rənglərə malik idi və formalarının rəngarəngliyi ilə seçilmirdi. Lakin artıq e.ə. I əsrin sonuna doğru minalanmış qabların formalarının artımı, habelə minanın rənginin dəyişməsi müşahidə olunurdu. Artıq minalar əsasən mavi (firuzəyi) və yaşıl çalarlara malik idi. Qaleye-Zöhhak şəhər yerində tapılmış açıq firuzəyi mina ilə örtülmüş "zəvvar" möhtərəsi abidənin eramızın I əsrinə aid olduğuna dəlalət edir.

Güman etmək olar ki, son mərhələdə məişət keramikası ən çoxsaylı kateqoriya idi və həm dulus çarxında hazırlanmış qablarla, həm də əllə yapılmış formalarla təmsil olunmuşdur.

E.ə. I əsr - eramızın I əsri üçün zoomorf keramikanın mövcudluğu səciyyəvidir. Üç-dörd kiçik ayaqcıqları olan, burun hissəsi realist və yaxud stilistik surətdə tərtib olunmuş heyvan başı şəklində hazırlanmış qablar zoomorf keramikanı təmsil edir. Qerminin ətraflarında xeyli bu cür qab aşkara çıxarılmışdır.

**Qəbir abidələri.** Atropatenanın qəbir abidələri indiyədək kifayət dərəcədə öyrənilməmişdir. Əslində iri gil qablardan ibarət olan, ədəbiyyatda "küp qəbirlər" adını almış qəbirlərdən başqa Atropatena ərazisindən qəbirlərin digər növləri hələlik məlum deyildir.

Küp qəbirlər təsərrüfat təyinatlı iri gil qablarda (hündürlüyü 1,50-1,80 metr, eni isə çox hallarda 1 metrdən artıq) dəfn adətinin təzahürüdür. Küp qəbirləri heç bir məzarüstü qurğulara malik deyildir. Meyit çox zaman üfüqi vəziyyətdə olan küpün



downloaded from KitabYurdu.az

içərisində sıx bükülü vəziyyətdə küpün boğaz hissəsinə doğru yönəlmiş halda, sağ və ya sol böyrü üstə yerləşdirilirdi. Belə bir fikir irəli sürülmüşdür ki, kişilər sol, qadınlar isə sağ böyrü üstə dəfn edilirdi. Dəfn üçün nəzərdə tutulmuş küpün içərisində xırda avadanlıq və bəzək əşyaları (qolbaqlar, boyunbağılar, üzüklər, muncuqlar və s.) yerləşdirilir, küpün yanında isə gil qablar qoyulurdu. Gil qabların içərisində qırmızı və qara rəngli boyalarla, həndəsi ornamentlərlə bəzədilmiş qabları (əsasən küpləri), içərisi oyma və ştamp bəzəklərlə naxışlanmış qara cilalı camları qeyd etmək lazımdır. Dəfn küplərinin oriyentasiyası sərbəstdir.

Küp qəbirlər uzun müddət ərzində əsasən eramızdan əvvəlki dövrün son əsrlərinə aid edilirdi. Lakin son zamanlar Naxçıvan ətrafında və Ağcabədi bölgəsində (Mil düzündə) tədqiq olunmuş qəbirlər ən erkən küp qəbirlərini e.ə. VI-III əsrlərə aid etməyə imkan verir.

**Sikkə tapıntıları.** Təəssüf ki, Atropatena ərazisindən tapılmış sikkə dəfinələri və sikkələrin ayrı-ayrı nümunələri hələ azsaylıdır. Lakin mövcud olan sikkələr kütləsi bu dövlətin pul dövriyyəsinin səviyyəsi haqqında təsəvvür yaratmağa imkan verir. Hellinizm dövründə Atropatena ərazisində pul dövriyyəsi hələlik az təsadüf edilən sikkələr əsasında təsdiqlənir. Onların arasında Makedoniyalı Aleksandrın ölümündən sonra dövriyyəyə buraxılmış, Urmiya gölü yaxınlığındakı qəbirlərdən birində aşkar olunmuş draxmanı (e.ə. III əsr) qeyd etmək lazımdır.

Atropatena ərazisində Parfiya hökmdarlarının sikkələri, əsasən draxmaları çox geniş yayılmışdı. E.ə. I əsrin - eramızın II əsrinin draxmaları xüsusilə geniş şəkildə təmsil olunmuşdur. Həmin draxmalar II Oroddan (e.ə. təqribən 57-37-ci illər) başlamış IV Vologezədək (eramızın 147-191-ci illəri) dövrü əhatə edir.

Atropatena ərazisində tapılmış iki dəfinə Atropatenada pul dövriyyəsinin səviyyəsi haqqında təsəvvür yaratmaq üçün böyük əhəmiyyətə malikdir: 1923-cü ildə Əhərdə tapılmış və I Qotarzdan II Orodadək olan dövrdə buraxılmış, təxminən 600 Parfiya draxmasından ibarət olan dəfinə və Azərbaycan Respublikasının Əli Bayramlı bölgəsində aşkar olunmuş, II Artabandan (10-38-ci illər) IV Vologezədək olan dövrdə buraxılmış 110 draxmadan ibarət olan dəfinə.

Eramızın ilk əsrlərində Atropatenada Parfiya draxmaları ilə yanaşı məhdud miqdarda olsa da imperator Avqustun Roma denariləri də dövr edirdi. Artıq sikkələrin bu, o qədər də tam olmayan siyahısı Atropatenada pul dövriyyəsinin inkişaf etdiyini təsdiqləyir.

Bu icmal təsdiq edir ki, bizim Atropatenanın maddi mədəniyyəti haqqındakı təsəvvürlərimiz hələ də çox kasıbdır.

**Din. Avesta problemi. Zərdüştilik.** Güman etmək olar ki, artıq e.ə. I minilliyin ilk əsrlərində Qərbi Madada, xüsusilə gələcək Kiçik və yaxud Atropat Madası zonasında müxtəlif mazdaist təlimlər yayılmışdı. Burada və ona qonşu olan



downloaded from KitabYurdu.az

ərazilərdə təxminən həmin minilliyin başlanğıcında gənc Avesta inamları ocaqlarının mövcud olduğunu ehtimal etmək olar.

Lakin bizə o da məlumdur ki, artıq Atropatena dövlətinin mövcudluğunun ilk onilliklərində bizi maraqlandıran ərazidə, Şərqin digər Hellinist dövlətlərində olduğu kimi, yunan-makedon işğalçıları tərəfindən gətirilmiş müxtəlif yunan ayinləri, xüsusilə Herakla sitayiş də yayılmışdı.

Mazdaist təlimlərin və hətta ola bilər ki, zərdüşti mazdaizminin özünün gələcək Atropatenanın vilayətlərindəki mövqeləri, şübhəsiz, Mannanın madalılar tərəfindən işğalından, Mada etnosunun burada konsentrasiyasından və bu bölgənin yeni Madaya çevrilməsindən sonra möhkəmlənməli idi.

"Avesta"ya gəldikdə göstərmək lazımdır ki, bu abidənin bizə gəlib çatmış nüsxəsi Sasanilər dövründə dövlət dini kimi elan olunmuş "Avesta" məcmuəsinin bir hissəsidir. Hazırda zərdüştilik dininə etiqad edənlərin sayı da çox deyildir. Ərəb işğalından və Sasanilər dövlətinin məhv olmasından sonra yalnız zərdüştilərin az qismi öz etiqadını mühafizə edirdi. Onları adətən "pars" (Hindistanda yaşayanları), "kəbr" (İranda yaşayanlar "kəbr" ərəb sözü olan "kafirin təhrif olunmuş şəklidir, "dinsiz, imansız" mənasına malikdir) "atəşpərəst" (zərdüştilik inamlarında və adətlərində atəşin, odun böyük rolu olduğuna görə) adlandırırlar. Tale zərdüştiləri bütün dünyaya səpələmişdir. Onlar İranda, Hindistanda, Pakistanda, ABŞ-da, İngiltərədə, Avstriyada, Kanadada, Şri Lankada, Yəməndə, Çində və başqa ölkələrdə yaşayırlar. Hazırda bütün dünyada 130 minədək atəşpərəst (zərdüşti) yaşayır.

Belə güman edirlər ki, Sasanilər sülaləsinin hakimiyyəti dövründə, Avesta bir neçə dəfə - III, IV, hətta VI və VII əsrlərdə kodifikasiya edilmişdir. Hesab edirlər ki, məhz zərdüştiliyin intibahı dövrü olan Sasanilər hakimiyyəti zamanında Avestanın müqəddəs mətnlərinin daha dəqiq, incə çalarlarını ifadə edən yazılışı üçün pəhləvi əlifbası (öz mənşəyi etibarilə arami yazısına gedib çıxır) əsasında xeyli miqdarda işarələri olan xüsusi şrift yaradılmışdı (bu isə tələffüzü daha dəqiq çatdırmağa imkan verirdi). Nüfuzlu tədqiqatçıların fikrincə, bu şrift birdəfəlik fərdi yaradıcılığın nəticəsi idi. Maraqlıdır ki, bu hadisə gürcü, erməni və alban əlifbalarının meydana gəldiyi bir zamanda baş vermişdir.

Avestanın kanonlaşdırılmış mətni pəhləvi (Sasani İranının yazı dili - orta fars dili) dilinə tərcümə və şərhlə təchiz edilmişdi.

Güman etmək olar ki, zərdüştilik dininin "Avesta dilində" yazılmış qədim Avestanın özündən (orta farsca apastak>*apastay*, "əsas", "əmrnamə", "qanun" deməkdir) və orta farsca yazılmış "Zend"dən (orta farsca zend, yəni "ifadəetmə", "təfsir", "izahat") ibarət olan müqəddəs kitablarının ümumi ifadəsi kimi "Zend-Avesta" istilahı məhz bu dövrdə yaranmışdır.

Buna görə də "Zend-Avesta" adının Avestanın özünə aid istifadə olunması (bu hala nəinki yalnız XIX əsrdə, habelə bəzən bizim günlərdə də təsadüf edilir)



downloaded from KitabYurdu.az

yolverilməzdir. "Zend dili" anlayışının Avesta dilinin ifadə edilməsi üçün istifadə olunması da səhvdir.

Filoloji xarakterli ayrı-ayrı mülahizələr və antik müəlliflərin məlumatları ehtimal etməyə imkan verir ki, vaxtilə İran, Azərbaycan, Orta Asiyanın xeyli qismi və digər bölgə sakinlərinin ağlına hakim kəsilmiş zərdüştilik dininin müqəddəs kitablarının toplanmasına ilk cəhd hələ Parfiya Arşakilərinin hakimiyyəti zamanında göstərilmişdir. Belə hesab edirlər ki, e.ə. I əsrdə Şərqi Parfiyada "Avesta"nın, ən azı onun ayrı-ayrı hissələrinin yazılı mətni mövcud idi.

Orta əsrlərin Denkart, Bundahişn, Arda Viraf-namak və bu kimi ilahiyyat və başqa kitablarda öz əksini tapmış zərdüştilik ənənəsinin məlumatları da bu nöqteyi-nəzəri möhkəmləndirir.

Bu və bəzi digər materiallar, xüsusilə antik müəlliflərin məlumatlarına əsasən vaxtilə "Avesta"nın dini və mərasim qanunlarının, kosmoqonik və esxatoloji təsəvvürlərin, müxtəlif tanrılara həsr olunmuş müqəddəs himnlərin, müxtəlif duaların, əxlaqi normaların, mifoloji, epik, əfsanəvi və başqa materialların nəhəng külliyyatı olması təsdiqlənir. Özü də bütün bunlar heç də həmişə peyğəmbər Zərdüştün (Zaratuştranın) adı ilə əlaqələndirilmirdi.

Hesab etməyə əsas var ki, bəzi alimlərin güman etdikləri kimi, Parfiya dövründə toplanan, bərpa olunan və yazıda maddiləşən yalnız şifahi zərdüştilik ənənəsi deyildi. Şifahi ənənə ilə yanaşı, əvvəlki əsrlərdə mövcud olmuş, müqəddəs kitabların məhz yazılı fraqmentləri toplanır, bərpa edilir və yenidən yazılırdı. Zərdüştilik ənənəsinə görə, "Avesta"nın əski əsrlərdə mövcud olmuş nüsxələrindən biri Makedoniyalı Aleksandr tərəfindən yandırılmışdır.

Bizə bəllidir ki, hələ e.ə. IV əsrin son rübündə yunan alimi Feopomp Makedoniyalı Aleksandrın tapşırığı ilə zərdüştilik dininin qədim kitablarını öyrənirdi. Plini [XXX, 2] məlumat verir ki, zərdüştlik dininin ən yaxşı bilicilərindən biri olan Hermippin (e.ə. III əsr) sözlərinə görə, zərdüştiliyin müqəddəs kitabları özündə 2 milyondan artıq misranı ehtiva edirdi. Maraqlıdır ki, ənənəyə əsasən Sasani hökmdarı I Şapur əsli itirilmiş, lakin tərcümələrdə və xüsusilə qədim yunan dilinə (Dekartda iddia edilir ki, "Avesta"nın və ya onun ayrı-ayrı hissələrinin qədim yunan dilinə tərcüməsi vardı) tərcümədə mühafizə olunmuş "Avesta"nın kitablarını pəhləvi dilinə tərcümə etməyi əmr etmişdi. Güman etmək olar ki, məhz qədim yunan dilinə tərcümə edilmiş "Avesta" Feopomp üçün öyrənmə obyektinə çevrilmişdi. Zərdüştilik kitablarının yazılı mətnlərinin mövcudluğunu nəinki qədim yunan müəllifi Pavsaninin zərdüşt kahininin
"k i t a b ı a v a z l a o x u d u ğ u n u" yad etməsi, habelə qədim yazıçıların hələ Sokrat dövründə Zərdüştün "lokiyalarının olması haqqındakı məlumatları" da təsdiqləyir. Bəzi tədqiqatçılar Herodotun qurban verilərkən maqların teoqonik nəğmələr oxuması haqqındakı məlumatlarında da "Qat"ın - "Avesta"nın bir qisminin



downloaded from KitabYurdu.az

yazılı mətninin mövcudluğuna işarəni görürlər. Nəhayət, "Avesta"nın, ən azı onun ayrı-ayrı hissələrinin yazılı mətninin hələ Əhəmənilər hakimiyyətinə qədərki dövrdə mövcud olduğunu məntiqi səciyyəli bir hal da təsdiqləməlidir. Zənn edirik ki, yazıda maddiləşmiş "Avesta" olmasaydı, qədim yunan fəlsəfəsinə və iudaizm dininə o, çətin ki, təsir edə bilərdi.

Beləliklə, yunan müəlliflərinin hesab etdikləri kimi 2 milyon misranı özündə ehtiva edən və yaxud zərdüştilik ənənəsinin və sonralar ərəb və farsdilli müəlliflərin iddia etdikləri kimi, 12 min öküz (inək) dərisi üzərində qızıl hərflərlə yazılmış "Avesta"nın (və yaxud onun ayrı-ayrı hissələrinin) yazılı mətni Makedoniyalı Aleksandrın yaşayıb fəaliyyət göstərdiyi dövrdən xeyli əvvəl mövcud olmuşdur.

Yunan-Makedoniya işğalı zamanı məhv olmuş və bir neçə əsr ərzində daha çox şifahi surətdə saxlandığı güman olunan (əlbəttə, ola bilər ki, kitablardan ayrı-ayrı fraqmentlər də qalmışdı) məhz bu "Avesta"nı Parfiya hökmdarı Arşaki Vologez (görünür, I Vologez) bərpa etməyə cəhd göstərmişdi.

Lakin alimlərin hesab etdikləri kimi, ilkin "Avesta"dan yaddaşda heç də hər şey qala bilməzdi (bəzi tədqiqatçılar hesab edirlər ki, 350 min sözdən artıq ola bilməzdi), hər halda "Avesta"nın hifz olunmuş hissələri artıq yuxarıda xatırlandığı kimi, e.ə. I əsrdə kodifikasiya olunmuşdu.

İlk Sasani hökmdarı Ərdəşir Papağanın dövründə (225-240-cı illər) "Avesta"nı çox fəal surətdə toplamağa və bərpa etməyə başladılar. Güman etmək olar ki, Avesta IV əsrdə hələ göstərilmiş zamanadək imperiyanın dövlət əhəmiyyətli müqəddəs məkanına çevrilmiş Atropatenada ali kahin Äturpät Mahrspandan tərəfindən kanonlaşdırılmışdı.

"Avesta" sonralar da redaktələrə məruz qalmışdır.

Axırıncı redaktədən sonra güclü surətdə seyrəlmiş "Avesta" 21 naskdan (kitabdan) ibarət idi. Lakin "Avesta"nın bu mətni də bizə tam şəkildə gəlib çatmamışdır. Artıq ərəblərin hakimiyyəti dövründə zərdüştiliyin müqəddəs kitabları yenidən təqiblərə məruz qaldı. Bizə məlumdur ki, ərəb işğalı dövründə digər qeyri islam ədəbiyyatı kimi, "Avesta"nın əlyazmaları da amansızcasına yandırılırdı.

Bu barədə Biruni məlumat vermişdir. Belə ki, Parfiya dövründən Sasanilərin hakimiyyəti zamanınadək olan ən azı 6-7 əsr ərzində bir çox ilahiyyətçi alimlər, kahinlər, adı məlum olmayan xeyli əməkçi nəsilləri tərəfindən bərpa olunan "Avesta" kitablarının bir qismi qayıtmaz şəkildə məhv oldu.

Hazırda Arşakilərin və Sasanilərin hakimiyyətləri dövründə bərpa olunmuş zərdüşti kitablardan bizim "Avesta" adlandırmağa adət etdiyimiz əsərdən aşağıdakılar qalmışdır: Yaştlardan, Yasnadan, Vispratdan ibarət olan üç natamam kitab (nask), nisbətən tam olan Videvdat, habelə Kiçik Avesta (Xurd Avesta, orta farsca Xurtak Apastak). Kiçik Avesta əsasən bizə məlum olan Böyük Avestadan seçilmiş, zərdüştiliyə sitayiş edən şəxs üçün gündəlik həyatda zəruri olan duaların minimum



downloaded from KitabYurdu.az

məcmuəsidir. Kiçik Avestaya bəzən ənənə üzrə Yaştları da daxil edirlər. Kiçik məcmuələr və s. şəklində ayrı-ayrı "Avesta" fraqmentləri (bizə qədər gəlib çatmamış Avesta kitablarından) də qalmışdır. Mütəxəssislərin hesab etdikləri kimi, bütün bunlar Sasanilər dövründə bərpa olunmuş "Avesta"nın yalnız dörddə bir qismidir.

Sasanilər dövründə bərpa olunmuş 20 kitabın (21 kitabdan) adları və qısa məzmunu bizə IX əsrin zərdüştilik əsəri Denkartdan məlumdur. Özü də qeyd etmək lazımdır ki, bu kitabların qısa icmalı "Avesta"nın öz mətni üzrə deyil, "Avesta"nın pəhləvi dilinə tərcüməsi əsasında hazırlanmışdır. Müxtəlif "Avesta" nasklarının məzmunu başqa pəhləvi kitablarında da izah edilmişdir. Göstərmək lazımdır ki, pəhləvi kitabları mahiyyətcə bizə "Avesta"nın itirilmiş hissələri haqqında bəzi təsəvvürlər yaratmaq imkanı verən yeganə mənbədir.

Hindistan parsları, onlarda zərdüştilik dininin müqəddəs kitablarının mövcudluğu haqqında erkən məlumatlar Avropaya yalnız XVII əsrdə çatmışdır. Tezliklə Oksford kollecinin kitabxanasında (İngiltərə) "Avesta"nın Hindistandan gətirilmiş ilk əlyazmaları meydana çıxdı.

Lakin bir çox onilliklər ərzində "Avesta"nı oxumaq heç kimə müyəssər olmurdu. "Avesta" Avropada ilk dəfə uzun müddət Hindistanda yaşamış, pars kahinlərinin yardımı ilə müqəddəs kitabları öyrənmiş fransız Anketil Düperron (1731-1805) tərəfindən 1771-ci ildə nəşr edilmişdir. Şübhəsizdir ki, bu, böyük şücaət tələb edən epoxal kəşf idi. Lakin Avropada "Avesta" ətrafında qızışmış mübahisənin getdiyi 50 ildən də artıq bir müddət ərzində fransız aliminin elmi şücaəti layiqincə qiymətləndirilmədi. Əksinə, Anketil Düketil Düperronun ölümündən sonra, artıq XIX əsrin 20-ci illərində alimə bəraət qazandırıldı və o, sonralar "avestologiya" adı ilə məlum olan yeni elmin banisi kimi tanındı.

Avropa mədəniyyətinə zərdüştilik haqqında təsəvvürü nəşr etdiyi "Avesta" vasitəsilə daxil etmiş şəxs məhz Anketil Düperron olmuşdur. Hegelin, Getenin və XIX əsrin başqa mütəfəkkir və alimlərinin mülahizələri məhz onun zərdüştilik dininin təfsirinə əsaslanırdı. Tezliklə "Avesta" parlaq alimlərin bir çox nəsillərinin tədqiqat obyektinə çevrildi. Bu estafet nəsildən-nəslə ötürülür və "Avesta"nın problemləri hazırda da müxtəlif ölkələrdə tədqiqatçıların fikrini həyəcanlandırır.

Yuxarıda qeyd edildiyi kimi, bizə qədər gəlib çatmış "Avesta" Yasnadan, Yaştlardan, Vispratdan, Videvdatdan və Kiçik Avestadan ibarətdir.

*Yasna* ("ehtiram", "pərəstiş", "qurban vermə") "Avesta"nın 72 fəsildən ibarət olan, ibadət, müxtəlif adətlər, mərasimlər və qurban verilməsi zamanı oxunan ayrı-ayrı duaları özündə ehtiva edən ən həcmli hissəsidir. Metrik formada tərtib olunmuş və xarakterinə görə Bibliya peyğəmbərlərinin nitqlərini xatırladan "Qat"lar ("himnlər", nəğmələr") onun ən mühüm qismidir (17 fəsildən ibarətdir).

Alimlər "Qat"ların məzmununun çox emosional və "insani" ruhda olduğunu qeyd edirlər. Güman edirlər ki, Qatlarda insanın səsi eşidilir və hərdənbir "müəllifin



downloaded from KitabYurdu.az

fərdiliyi aydın şəkildə hiss olunur" [E.E.Bertels]. Adətən Zərdüştün (Zaratuştra, Zaratustra) özü Qatların müəllifi hesab edilir. Zərdüşt öz moizələrində zülm və zülmət aləmindən imtina etməyə, xeyir və işıq aləmini seçməyə səsləyir. Qatların oxunuşu ən qədim zamanlardan indiyədək zərdüştilik təliminin ən müqəddəs mərasimlərindən biridir.

Qeyd etmək lazımdır ki, "Qat"lar Avestanın ən çətin anlaşılan qismidir. İranşünaslıq sahəsində ən nüfuzlu tədqiqatçılardan biri açıq surətdə yazırdı ki, Qatlar "bütün hind-Avropa filologiyasının ən çətin hissəsini təşkil edir" [Xr.Bartolome]. Qətiyyətlə demək olar ki, bizdə tərcümə variantlarının miqdarı qədər müxtəlif "Qatlar" mövcuddur [İ.M.Dyakonov].

Belə hesab etmək məqbuldur ki, şübhəsiz, "Avesta"da "Qatlara" nisbətən daha qədim fraqmentlər olsa da, "Qatlar" "Avesta"nın çox qədim hissəsidir. Bunu hər halda Yaştların, habelə Yasnanın bəzi hissələrinə münasibətdə də iddia etmək olar.

Yasnanın qismən şeirlərlə tərtib olunmuş Yeddi fəsli (35-41-ci fəsillər) Qatlara yaxınlaşır. Bu fəsillərdə ən qədim zamanların ruhu duyulmaqdadır. Yasnanın nəticə hissəsində dualar vardır.

"Avesta"nın dünyagörüşü və ədəbi-bədii cəhətdən fövqəladə dərəcədə qiymətli və maraqlı hissəsi Yaştlardır ("pərəstiş", "tərif"). Yaştlar İran panteonunun müxtəlif tanrılarına həsr olunmuş tərif səciyyəli 22 himn-duadan ibarətdir. "Avesta"nın bəlkə də ən qədim hissəsi olan Yaştlarda hindlilərin Vedalarında mövcud olan bənzərli materialla səsləşən çoxsaylı epik motivlər, mifoloji surət və süjetlər saxlanılmışdır. Bu süjetlərin bir qismi sonralar Firdovsi tərəfindən "Şahnamə" əsərində istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, Yaştlarda nəinki zərdüştiliyə qədərki dövrün ən qədim İran poeziyasının fraqmentləri, habelə daha sonrakı zamana aid olan himnlər mövcuddur.

*Visprat* ("Bütün ratular"; ratu - "hökmdar", "hakim", "tanrı" deməkdir. Beləliklə, "Bütün hökmdarlar", "Bütün hakimlər", "Bütün tanrılar") 24 fəsildən ibarət olan (müxtəlif əlyazmalarda fəsillərin sayı müxtəlifdir) kahin, dua kitabıdır. Kitab müxtəlif tanrılara ehtiramın izhar olunması ilə ibadət səciyyəli müraciətlərdən ibarətdir. Visprat mahiyyətcə Yasnaya əlavədir və öz xarakterinə görə Bibliya kitabı olan "Levit"ə bir qədər bənzəyir. Bu kitab "Avesta"nın ən solğun və maraqsız qismidir.

*Videvdatı* (təhrif olunmuş Vendidat da işlədilir) hazırda son zamanlaradək edildiyi kimi, sadəcə olaraq, "Devlər əleyhinə qanun" kimi deyil, dəqiqləşdirmə ilə "əvvəlki tanrıların rədd olunması" kimi tərcümə edirlər.

Videvdat "Avesta"nın Sasanilər dövründə bərpa olunmuş 21 kitabından yeganəsidir ki, təqribən tam qalmışdır və əski "Avesta"nın kitablarından birinə təqribən tamamilə uyğundur.



downloaded from KitabYurdu.az

Videvdat ilk növbədə nəyin qadağan olunduğunu, nəyə icazə verildiyini göstərən qanun və göstərişlər külliyyatıdır. 22 fəsildən (afqarddan və yaxud farqarddan) ibarət olan bu kitabda mərasimlə əlaqədar təmizlənmə qaydaları, müxtəlif ayinlərin həyata keçirilməsi üsulları əks olunmuşdur. Bu kitabda oda və başqa təbii qüvvələrə xüsusi diqqət göstərilməsi, itlərə və digər faydalı heyvanlara qayğı bəslənilməsi zərurəti, əkinçilik qaydaları haqqında danışılır, günahların və xeyirli əməllərin siyahısı sadalanır, günahların yuyulması məsələsinə dair göstərişlər verilir, bəzi dini-hüquqi müddəalar, mülki və cinayət hüququ və s. elementlər izhar edilir.

Videvdatda İran tayfalarının mifləri, əfsanələri, epik yaradıcılığı, kosmoloji, coğrafi təsəvvürlərinin və xalq əqidələri elementlərinin hifz olunması bizim üçün xüsusilə mühümdür.

Onlardan bəziləri nisbətən sonralar yaranmışdır, bir qismi isə mənşə etibarilə çox qədim zamanlara gedib çıxır.

Videvdatın I farqardının başlanğıcı olan "Coğrafi poema"da lap qədimlərə gedib çıxan süjetlər az deyildir. Burada Ahura Mazdanın ölkələri yaratması haqqında danışılır. Aryanam Vayçaxın - "Ari açıqlığı" adı həmin ölkələr sırasında birinci çəkilir. Güman etmək olar ki, bu ölkə arilərin ilkin vətəni olmuşdur. Bu ölkə "Coğrafi poema"da dünyanın ən yaxşı diyarı kimi səciyyələnmişdir, lakin qeyd edilmişdir ki, sonralar burada şər və zülmət ruhu olan Anhra Manyunun yaratdığı bəlalar meydana gəlmişdir.

I farqardda 16 ölkənin adı çəkilmişdir. Onların sırasında həm gerçək, həm də mifik ölkələr vardır. Ölkələrin adlarının çəkilməsində heç bir sistem və qayda yoxdur. Fəsil bu sözlərlə başa çatır: "Zəngin təbiəti, yaşayış üçün yararlı olan başqa gözəl yerlər və ölkələr də mövcuddur".

"Coğrafi poema" Avestanın coğrafi üfüqlərinin geniş olduğunu təsdiqləyir. Ola bilər ki, adları çəkilmiş ölkələr nəinki arilərin köç etdikləri vilayətlərdir, habelə Videvdatın mətninin tərtib olunması ərəfəsində zərdüştiliyin yayıldığı torpaqlardır. Videvdatın tərtibi zamanına gəldikdə isə demək lazımdır ki, hələ bu yaxınlarda bu kitabın "Avesta"nın başqa hissələrinə nisbətən daha gec meydana gəldiyini hesab edirdilər. Doğrudur, ümumiyyətlə bütün Kiçik Avestada olduğu kimi, Videvdatda da məzmununa görə və mənşəcə çox gec tarixi dövrlərə aid olan material az deyildir. Lakin onda aşkar şəkildə qədim, erkən bəzən qalan "Avesta"ya yad olan bir çox cəhətlərin qalması da mübahisəsizdir. Belə bir fikir söylənilmişdir ki, Əhəmənilər hakimiyyətinə qədərki dövrün madalılarının dini təsəvvürləri məhz Videvdatda əks olunmuş təsəvvürlərə uyğun gəlir. Güman edirlər ki, Videvdat (daha dəqiqi, Protovidevdat) Qərbi İran vilayətlərində meydana gəlmişdir, Mada maqları isə onun tərtibçiləri ola bilərdilər. Videvdatın dünyagörüşünün qədimliyini habelə o da təsdiqləyir ki, burada ali tanrı Ahura Mazdä (Qatlarda olduğu kimi, Ahura, Mazda Ahura, Mazda şəklində deyil) adlandırılır. Mütəxəssislərin gümanına görə, iş



downloaded from KitabYurdu.az

burasındadır ki, həmin adın daha qədim halı Ahura ("hökmdar", "cənab", "tanrı" deməkdir. Erkən dövrdə qədim hindilərdə olduğu kimi *asura; məlum olan Assara Mazas'ın Ähura Mazdä bərabər olduğuna diqqət yetirək. Ahura istilahı artıq e.ə. VIII əsrdən Qərbi İran onomastikasında təsdiqlənmişdir) adının Mazda ("müdrik" deməkdir və hind sözü olan medhas-a, rus sözü mudr-a qohumdur) epiteti ilə dəqiqləşdirildiyi zamanda (hələ qeyri-zərdüştilik dövründəmi - ?) olmuş, yəni onda tanrı Ahura Mazda adlandırılırdı.

Videvdatın II farqardında insanlığın əcdadı, mədəni qəhrəman, minillik "qızıl əsr" dövründə dünyada hökmranlıq etmiş, İran eposunun ən qədim motivlərinə gedib çıxan Yima (orta əsrlərdə Cəmşid adlanırdı) haqqında əfsanə hifz olunmuşdur. İbtidai dünya duyumunun tam surətdə sirayət etdiyi bu əfsanədə eposun ən qədim qalıq formaları mühafizə olunmuşdur. Həmin formalarda ari və hətta hind-Avropa səviyyələrinin motivləri və surətləri asanlıqla tanınır.

"Avesta"nın ümumi qiymətləndirilməsinə keçərkən demək lazımdır ki, bu abidə müxtəlif xarakterlidir, müxtəlif zamanlarda və müxtəlif məkanlarda yaranmış təbəqələrin ağlasığmaz dərəcədə miqdarından ibarətdir.

Əlbəttə, xüsusilə epik mahnılarda və abidənin başqa hissələrində əks olunmuş xalq elementləri "Avesta"nın daha qədim qatıdır. Həmin elementlər e.ə. I minilliyin ilk əsrlərindən gec olmayaraq meydana gəlmişdi. Ola bilər ki, onlardan bəziləri e.ə. II minilliyə, bəlkə də daha erkən çağlara gedib çıxır. Yasnanın və Yaştların müxtəlif hissələrində ən qədim epik nəğmələr hifz olunmuşdur. "Mal-qaranın oğurlanması" haqqında nəğmə, Mihr Yaştdakı mahnılar, Yima haqqında əfsanə də bu qəbildəndir. "Öküzün canı"ndan - Zərdüştün Qatlarının mərkəzi surətindən də - xeyli arxaiklik duyulmaqdadır. Lakin "Avesta"dakı bu elementlər onları kanonlaşdırılmış təlimə tabe etməyə cəhd edən xeyli sonrakı kahin ideyaları ilə güclü şəkildə çulğalamışdır.

İndiki "Avesta"nı adətən iki qismə - Qatik (böyük) Avestaya və Kiçik Avestaya ayırırlar. Qatlardan başqa, Böyük Avestaya Yasnanın bəzi digər bölmələrini də aid edirlər. Bütün qalanlar Kiçik Avestaya aiddir.

Alimlər adətən Qatik Avestanın daha yaşlı olduğunu etiraf edərək çox zaman belə hesab edirlər ki, Kiçik Avesta ənənəsi peyğəmbər Zərdüştün Qatik Avestada öz əksini tapmış ilkin, saf təliminin sonrakı təhrifindən ibarətdir.

Müəllifliyi adətən Zərdüştə şamil olunan Qatların Kiçik Avestadan kəskin surətdə fərqlənməsi mübahisə doğurmur. Tədqiqatçıların bir qismi onlar arasındakı təzadı aradan qaldırmağa cəhd göstərsələr də, avestoloqların böyük əksəriyyəti bunu etiraf edir. Lakin o da şübhəsizdir ki, sonralar əlavə olunmuş bir çox materialları da özündə ehtiva edən Kiçik Avestanı bütövlükdə heç bir vəchlə Zərdüşt təliminin sonrakı təhrifi hesab etmək olmaz. Görkəmli iranşünaslar bu cəhətə dəfələrlə işarə etmişlər.



downloaded from KitabYurdu.az

Həqiqətən də Kiçik Avestada arxaizmlər Qatlardakına nisbətən daha çoxdur. Təbiidir ki, Qatlarda da çox qədim, bəzi hallarda hind-Avropa birliyi dövründən gələn cəhətlər az deyildir. Qatlarla müqayisədə Kiçik Avesta çıxış nöqtəsi olan ümumari və hətta hind-Avropa materialına bir çox hallarda daha çox yaxındır. Ayrı-ayrı hallarda Kiçik Avesta arxaik hind-Avropa modellərini bilavasitə canlandırır. Qatlarda isə həmin modellər o qədər də çox deyildir və orada onlar tanınmaz dərəcədə dəyişdirilmişlər. Vedalar ruhunda politeizm hökm sürən Kiçik Avestada Mitra, Veretraqna, Tiştriya, Vayyu və bir çoxları fəaliyyət göstərirlər. Qatlarda isə dualizmin hökmranlığı şəraitində mahiyyətcə çox güclü şəkildə monoteizm elementləri zahirə çıxır.

Qanlı qurbanlar verilməsi və Xaoma adlanan sərxoşedici içkiyə pərəstiş Kiçik Avestaya xasdır. Qatlarda isə bu cür cəhətlər aşkar surətdə pislənməsə də təbliğ edilmir. Kiçik Avestada əski ümumari ictimai terminologiyası saxlanılmışdır, Qatlarda isə bu terminologiya yenisi ilə əvəz olunmuşdur. Kiçik Avestada ümumiyyətlə Riqveda ilə bir çox ümumi olan cəhətlər mövcuddur. Burada bəzən hett, qədim yunan, İtaliya, german-skandinav dinləri və mifologiyası ilə heyranedici oxşarlıq vardır.

Kiçik Avesta haqqında bütün deyilənlər onun ideyalarının və surətlərinin xeyli dərəcədə qədim olduğunu təsdiqləyir.

Beləliklə, əgər Qatlar Zərdüştün özünün yaradıcılığıdırsa, Kiçik Avestada zərdüştiliyə uyğunlaşdırılsa da, peyğəmbərin təliminin mahiyyəti ilə ciddi ziddiyyətdə olan, Zərdüştə qədərki material az deyildir.

Zərdüşt "Qərbin "oğulluğa" götürdüyü ilk Asiya oğlu idi. Onun təlimi Yunanıstanı Xristos təliminin qəbul olunmasından təxminən 4 əsr öncə zənginləşdirdi. Artıq Platon Zərdüştü tanıyırdı... Zərdüşt əsrlər boyu... Qərbdə qədim Asiya müdrikliyini təmsil edən yeganə şəxs idi..." [J a n D ü ş e n K i y e m e n].

Zərdüştün şəxsiyyətinə, həyat zamanına və fəaliyyət yerinə gəldikdə isə, bu məsələlər üzrə bir-birinə tamamilə əks olan elə çox nöqteyi-nəzərlər söylənilmişdir ki, burada onlar üzərində heç olmasa səthi surətdə dayanmaq üçün heç bir imkan yoxdur.

Bəziləri Zərdüştü tarixi şəxsiyyət, böyük peyğəmbər və Qatların müəllifi hesab edir, başqaları isə bunu tanımaqdan qəti surətdə imtina edirlər. Bəziləri Zərdüştün həyat zamanını e.ə. VII-VI minilliklərə, digərləri, tunc əsrinə, üçüncülər e.ə. 1000-ci ilə, dördüncülər e.ə. VII-VI əsrlərə və s. aid edirlər. Alimlərin böyük əksəriyyəti bu fikirlə razıdır ki, Zərdüşt təxminən e.ə. 1000-600-cü illər arasındakı dövrdə yaşamışdır.

Bir çox hallar Qərbi İran vilayətlərində Kiçik Avestada öz əksini tapmış ideyaların və surətlərin qədimdə yayıldığını təsdiqləyir. Cənubi Azərbaycan vilayətlərində Kiçik Avesta təlimlərinin erkən ocağının mövcud olduğunu da iddia



downloaded from KitabYurdu.az

etmək olar. Lakin deyilənlər heç də bizə burada "Avesta" təlimlərinin vətənini və "Avesta xalqının" özünü lokallaşdırmaq əsasını vermir.

Məsələ burasındadır ki, "Avesta"da müxtəlif zamanlarda və müxtəlif yerlərdə yaranmış xeyli miqdarda laylar vardır. Və elə buna görə də, sözün birbaşa mənasında, "Avesta" təlimlərinin vətəni haqqında ciddi danışmaq çətindir. Bu vətəni Qərbi Sibirdən başlamış Qərbi İran vilayətlərinədək olan çox geniş ərazinin müxtəlif yerlərində axtarırlar. Onu gah son quyu, gah Aidronovo mədəniyyətləri zonasında, gah Orta Asiyada, gah Madada (Raqa, sonra: Rey) və yaxud Cənubi Azərbaycanda lokallaşdırırlar. Hazırda yalnız bu və ya digər dövrdə Avesta təlimlərinin bu və ya başqa ərazilərdə yayılması haqqında danışmaq olar.

Avesta dialektlərinin daşıyıcısı olan "Avesta xalqı"na (Awestavolk) gəldikdə isə, yaxın keçmişdə bir çox alimlər bu "etnosun" tarixi gerçəklik olmasına şübhə etmirdilər. Lakin hazırda tam müəyyənliklə demək lazımdır ki, bu cür "etnos" heç bir zaman mövcud olmamışdır.

Qeyd etmək lazımdır ki, "Avesta" hərdənbir bizdə səslənən bəyanatların əksinə olaraq heç bir zaman hər hansı qeyri-İran dilində yazıla bilməzdi. Onun sonralar guya İran dillərindən birinə tərcümə olunması haqqında fikirlər də alimnümalıqdan başqa bir şey deyil. Məsələnin bu cür qoyuluşunun özü ciddi deyildir. Avestada mövcud olan xırda cəhətlərədək hər şey tam mənası ilə iranlılıqla bağlı olub, İran ruhu ilə yoğrulmuşdur.

"Avesta" kitablarının dilinin İran dili olmasına heç bir şübhə yoxdur. Alimlərin bir qismi onu Qərbi İran dillərinə aid edir, digərləri onu Şərqi İran dili hesab edir, nəhayət, üçüncülər güman edirlər ki, Avestanın dili İran dillərinin Qərb və Şərq qrupları arasında aralıq mövqeni tuturdu. Lakin son iki-üç onilliyin tədqiqatları göstərdi ki, irandilli olan hər iki Avesta dialekti (Kiçik Avesta və Qatik Avesta) "süni dillər" adlanan kateqoriyaya aiddir. Bu dillərdən məişətdə deyil, hind-Avropa dini və qəhrəmanlıq poeziyasında istifadə edirdilər.

Qatların və Kiçik Avestanın fərqli xüsusiyyətlərindən danışarkən onu da qeyd etməmək olmaz ki, əgər onlardan birincisi tam mənada kahin poeziyasının ənənəsini davam etdirirdisə, ikincidə hind-Avropa dünyəvi qəhrəmanlıq poeziyasının xüsusiyyətləri aşkar şəkildə nəzərə çarpırdı.

Doğrudur, ayrı-ayrı hallarda, məsələn, Kiçik Avestaya Qərbi İran dialektlərinin, Qatlara isə Şərqi İran dialektlərinin təsirindən danışmaq olar. Bu, əlbəttə, çox mühümdür, çünki bu hal müqəddəs yazıların hər bir qismini müəyyən əraziyə aid etməyə imkan yaradır. "Avesta"nın (daha dəqiqi, onun ayrı-ayrı hissələrinin) yaradılması işi hər hansı bir əfsanəvi "Avesta xalqına" deyil, artıq e.ə. I minilliyin



downloaded from KitabYurdu.az

lap başlanğıcında, bəlkə də daha öncə Orta Asiyada, İran yaylasının Şərqi və qərbində yaşamış irandilli xalqların böyük qrupuna məxsusdur. "Avesta"da olan bir çox cəhətləri onlar özlərinin əvvəlki vətənlərindən gətirmişdilər. Yeni yaşayış yerlərində də xeyli dəyər yaradılmışdı.

Qatlara qayıdarkən qeyd etməmək olmaz ki, onlar xeyli dərəcədə islahatçı fəaliyyətin məhsuludur. Onlarda ənənəvi Hind-Avropa görüşləri ilə xeyli ziddiyyətlərin olması da bunu təsdiq edir. Qatların öz məzmunu Zərdüştün ehkamının yeniliyi lehinə danışır. Fövqəladə dərəcədə mühümdür ki, Zərdüşt haqqında bizdən daha çox biliklərə malik olmuş yunanlar peyğəmbəri islahatçı kimi qəbul edirdilər. Aqafi [II, 24] bunu tam müəyyənliklə təsdiqləyir: "...O, (yəni Zərdüşt - *məsul red.)* əski müqəddəs adətləri dəyişdi və müxtəlif qüsurlu etiqadlar yaratdı".

Qatların islah olunması habelə ondan görünür ki, mütəxəssislərin nüfuzlu fikrinə görə, onlar xalq inamlarından çıxmamışdı və ümumiyyətlə nisbətən geniş kütlə üçün nəzərdə tutulmuş Kiçik Avestadan fərqli olaraq ruhani elitaya ünvanlanmışdı.

Yeri gəlmişkən, zərdüştilik təliminin islahat məhsulu olduğunu Gete də özünün məşhur "Divan"ında dəqiqliklə qeyd etmişdir: "Görünür, Zərdüşt ilkin saf, nəcib, təbii dini mürəkkəb mərasim kultuna çevirdi".

Peyğəmbərin öz təlimini harada təbliğ etdiyini dəqiq bilinməsə də, hər halda İran yaylasının qərb vilayətlərində artıq təxminən e.ə. I minilliyin birinci yarısında zərdüştilik kimi adlandırılması qəbul edilmiş, islahata məruz qalmış dini sistemin yayıldığı faktı şübhəsizdir.

Şübhəsiz, qədim İran dini və mifoloji təsəvvürlərindən törəmiş zərdüştilik, əlbəttə, onları xeyli, bəzi hallarda isə köklü dəyişikliyə məruz qoydu.

Zərdüştilik erkən dövlət törəmələrinin meydana gəldiyi dövrdə yaranmışdı və həmin dövrün ideologiyası idi. Zərdüştün əsasən Qatlarda ifadə olunmuş moizələri qəbilə-tayfa rəhbərlərinin və əski kahinlər kütləsinin əleyhinə yönəldilmişdi. O, xalqın həyat şəraitinin dəyişdirilməsi, əkinçilik əməyinin və oturaq maldarlığın təntənəsi, güclü hakimiyyət əsasında siyasi birləşmə uğrunda mübarizə aparırdı. Əbəs deyildir ki, Qatlarda dinc həyata və güclü hökmdarların himayəsi altında çiçəklənməyə, çəkişmələrə və hərbi yürüşlərə, düşmən hakimlərə və drug-un (yalanın) tərəfdarlarına, həqiqətin (asa, aqta) antipodu olan kahinlərə qarşı mübarizəyə çağırış vardır. Zərdüşt bütün coşqunluğu ilə əkinçiləri qarət edən, onların mal-qarasını sürüb aparan köçərilərə qarşı mübarizəyə çağırır. O, mal-qaranın kütləvi, qanlı şəkildə qurban edilməsinə qarşı çıxış edir, politeizmi - əski naturalist tanrılara pərəstişi rədd edir.

Zərdüştiliyin dini-fəlsəfi sistemi üçün dualizm daha çox səciyyəvidir. Bu dualizm iki başlanğıcın - Xeyirlə Şərin, Həqiqətlə Yalanın, İşıqla Zülmətin bir-birinə qarşı qoyulmasında ifadə olunur. Onların arasındakı mübarizə kosmik miqyaslar alaraq, vahid ümumdünya münaqişəsində cəmləşərək bütün dünya prosesinin məzmununu təşkil edir və bu prosesdə insan üçün fəal rol ayırır. Xeyir qüvvələrinin



downloaded from KitabYurdu.az

başında Ahura Məzda (sonralar Ahuramazda, Ormuzd), şər qüvvələrinin başında Anhra Maynyu (sonralar Ahriman) durur. Zərdüştə görə, Şər düşərgəsinə düşmüş qədim naturalist tanrılara-dayvalara (dev, div) qarşı ali hakimiyyətə malik olan tanrılar-ahurlar durmaqdadırlar. Zərdüştün təlimində bütün dünya ikiləşmiş, ikiyə bölünmüş sferalar kimi nəzərdən keçirilir: gerçək, dünyəvi, maddi aləm və ruhani, o biri dünyaya məxsus olan və xəyali sferalar. Əsas diqqət dünyəvi aləmə yetirilir. Zərdüştün dualizmi onun ictimai və təsərrüfat idealının təsdiqinə xidmət edir. Yerdəki həyat haqqındakı təsəvvürlər bütün Kainata şamil edilir. Səmalardakı dualizm yerdəki dualizmin, yerdəki antaqonizmlərin yalnız proyeksiyasıdır (inikasıdır). Zərdüştiliyin nikbin təliminə əsasən həqiqi inam tərəfdarlarının birgə səyləri nəticəsində sonluqda xeyir qələbə çalır. Xeyir qüvvələrinin zəfərini ifadə edən yeni dünya gəlir. Bu mübarizədə seçkisində azad olan insan mühüm yer tutur (İnsan bu mübarizədə istədiyi tərəfdə mövqe tuta bilər). İnsan Xeyirin, Həqiqətin və İşığın Şər, Yalan və Zülmət üzərində qələbəsinə fəal surətdə yardım etməlidir. "Xeyirli fikir", "xeyirli söz" və "xeyirli əməl" bu mübarizədə insanın başlıca silahlarıdır. Təlimin ruhundan aydın olduğu kimi, insan Zülmət üzərində qələbəyə mərasim və dualarla deyil, daha çox həyat tərzi ilə - kənd təsərrüfatında səylə məşğul olmaqla, maddi nemətlərin artırılması, torpağın çalışqanlıqla becərilməsi, mal-qaraya qayğılı münasibətlə yardım etməlidir. Avestaya görə, taxılın becərilməsi şər başlanğıca zərər gətirir və xeyirin işini 10000 duanın oxunuşu qədər irəliyə aparır. Adi xeyirli əməllər - əliaçıqlıq, düzlük, müqaviləyə sədaqət də nəzərdə tutulurdu. Asketizm zərdüştilik üçün həmişə yad olmuşdur. Nikahda olmamaq, evlənməmək ən ağır günah hesab edilirdi.

Qatlarda insan konsepsiyasını nəzərdən keçirərkən tam müəyyənliklə göstərmək lazımdır ki, Qatlardakı insan-əkinçi və köçəri bədii təxəyyülün mərkəzində duran, fəaliyyət göstərən subyekt deyildir: o, Qatların tərtibçisinin diqqət mərkəzində duran tanrıların yalnız təsir obyekti kimi mövcuddur. İnsanlar arasında Qatların tərtibçisini yalnız hökmdarlar, rəhbərlərin, hakimlərin və kahinlərin "fövqəlinsan" Surətləri cəlb edir. Əgər "zəif insan" fəallığa cəlb olunursa, bu halda həmin insan yalnız tanrıların xidmətçisi, səma və dünyəvi qüvvələrin iradəsinin icraçısı rolunda olur. İnsana xeyirli, habelə tanrılara xidmət edən və onlar tərəfindən himayə olunan mal-qaradan bir qədər yuxarıda yer verilir.

Beləliklə, Qatlarda insan konsepsiyası özünün bütün ibtidai sadəlövhlüyü ilə artıq insanı bu dünyanın və səmanın güclülərinə xidmət üçün yaranmış varlıq kimi qiymətləndirən dini traktovkadır. Buradakı insan öz mənafeyi naminə fəaliyyət göstərən varlıq deyil, (mal-qara kimi) onun üzərində durmuş dünyəvi və yüksək hakimiyyət tərəfindən himayə olunan gerçəklikdir [İ.S.Braginski].

"Avesta"da dövlətçiliyin təşəkkülü dövründə yaranmış xeyirxah hökmdar haqqındakı xalq arzusu da xeyli dərəcədə əks olunmuşdur. Qatlarda borcu əkinçilik



downloaded from KitabYurdu.az

vilayətlərinə basqın edən düşmənləri qovmaqdan və "sevincli məskənlər üçün dinclik gətirməkdən" (Yasna, 48,5 və b.) ibarət olan xeyirxah hökmdarlardan danışılır.

"Avesta"nın panteonundan danışarkən qeyd etmək lazımdır ki, ari tayfalarda, görünür, hələ çox qədim zamanlarda tanrıların iki tipi - devlər və asuralar (iranlılarda "ahura") mövcud idi. Zərdüştiliyin səma iyerarxiyasında Ahura Mazdadan sonra ali pilləni Ameşa Spentlər (Ölməz müqəddəslər) adlandırılan və ali tanrının ruhları - köməkçiləri olan tanrıların altılığı və yaxud yeddiliyi (sonralar onların sayı artıb-azalır) tutur. Burada mahiyyətcə yeddi tanrılı panteonun qədim hind-İran sxemi təkrarlanır. Ameşa Spentlərdən beşinin hind (veda) mifologiyasında bənzəri vardır. Hər bir Ameşa Spent fərqləndirici rəmz kimi öz çiçəyinə - müşklü qızılgülə, yasəmənə, zanbağa və s. malik idi.

Ameşa Spentlərdən sonra qalan tanrılar - yazatlar (ibadət olunanlar, pərəstiş olunanlar) gəlirdi. Mitra (hərfən: "müqavilə", "razılıq" deməkdir) qədim hind-İran müqavilə tanrısıdır və yazatlar arasında ən çox pərəstiş olunandır. O, Günəş tanrısı kimi də çıxış edirdi. Sonralar Mitraya pərəstiş fövqəladə dərəcədə geniş şəkildə, hətta Qərbdə yayıldı.

Ardvisura Anahita ("Güclü, qüsursuz Ardvi"), Veretraqna, Mah və başqa tanrılar çox məşhur idilər.

Su və məhsuldarlıq ilahəsi olan Ardvisura Anahita "Avesta"da torpağa bərəkət, mal-qaraya və insanlara məhsuldarlıq verən güclü, gözəl, cavan qadın kimi təsvir edilir. Müharibə və qələbə tanrısı olan Veretraqna (pəhləvicə Varhran, farsca Bəhram) mənşəcə hind-İran ümumiliyi dövrünə gedib çıxır.

Mah Ay tanrısı idi.

İdrak, Dünya, zərdüştilikdəki İnam ("dayna", yəni "din", "inam" sözü də bu anlayışdan törəmişdir) tanrı görkəmində təqdim olunur.

Zərdüştilikdə xeyli qədimlərdən gələn Oda sitayiş mühüm yer tuturdu. Od (Atar, sonralar Azər) ilahi ədalətin-Artanın ("Avesta"da Aşa) ifadəsi və yaxud rəmzi kimi nəzərdən keçirilir.

Zərdüştün təlimi haqqında mülahizələrimizə yekun vuraraq tam qətiyyətlə göstərmək lazımdır ki, İran yaylasının qərb vilayətlərində və xüsusilə Cənubi Azərbaycanda yayılan qədim mazdaist təlimlərdən nəşət edən, bütün Avesta üzrə qırmızı xətlə keçərək, zərdüştinin bütün dünya duyumuna nüfuz edən dualizm artıq e.ə. I minilliyin lap başlanğıcında Zərdüştün islah etdiyi (öz inikasını qatlarda tapan) dini sistemdə monoteizmə (yəni həqiqi mənada ali tanrı Ahura Məzdaya olan inama) meyllə uyuşur. Ola bilər ki, buna görə də Zərdüştü bəşəriyyət tarixində təkallahlılıq ideyasının ilk təbliğçilərindən biri, Qatlarda izhar olunmuş zərdüştiliyi isə monoteist dinin yaradılmasının ilkin cəhdlərindən hesab etmək lazımdır.

Zərdüştiliyin təşəkkülündə əski mazdaist dinlərindən başqa zurvanizm, "maqların təlimi" və bəzi başqa təlimlər müəyyən rol oynamışdır. İran yaylasının qərb



downloaded from KitabYurdu.az

vilayətlərində, əlbəttə, əvvəllər də ona bənzər təlimlərin - mazdaizmin, dualizmin, atəşpərəstliyin və bir çox başqa baxışların mövcud olduğu Cənubi Azərbaycanda da zərdüştilik şübhəsizdir ki, e.ə. I minilliyin başlanğıc əsrlərində yayılmağa başlanmışdı. Görünür, təxminən e.ə. I minilliyin ikinci rübündə (görünür, bu rübün axırında) burada yayılmış zərdüştiliklə yəhudi və hellin aləmi tanış olmağa başlamışdı. Tezliklə Zərdüşt Qərb tərəfindən "oğulluğa" qəbul edildi.

Qərbin görkəmli müasir iranşünaslarından biri zərdüştiliyin rolunu bu cür qiymətləndirir: "Zərdüştilik dünya vəhy dinlərindən ən qədimidir və görünür, o, bilavasitə və yaxud vasitəli şəkildə bəşəriyyətə hər hansı başqa dinə nisbətən daha çox təsir göstərmişdir" [M e r i B o y s].

Zərdüştilik və onunla bağlı olan dini-fəlsəfi sistemlər, şübhəsiz, iudaizmə və erkən xristianlığa müəyyən təsir göstərmişdir. İudaizm və erkən xristianlıq zərdüştilikdən bir çox "hakim" konsepsiyaları əxz etmişdir. Zərdüştiliyin yunan fəlsəfi fikrinin bir çox nümayəndələrinə də böyük təsiri olmuşdur.

Dövlət və ehkam (doqmatik) dini kimi zərdüştilik Sasanilər hakimiyyəti dövründə qəti surətdə təşəkkül tapmışdır. Həmin dövrdə "Avesta" mətnləri kodifikasiya (bir daha - ?) edilmişdir.

Sonrakı zərdüştilik ənənəsi iddia edir ki, Zərdüşt əslən Cənubi Azərbaycandan idi. Orta əsrlərin bir çox müsəlman müəllifləri də Azərbaycanı inadla peyğəmbərin vətəni adlandırırlar.

Zərdüştün vətəninin Azərbaycanda lokallaşdırılmasının səbəbini Sasanilər monarxiyasının bu vilayətin ehkamçı zərdüştilik tarixində oynadığı mühüm rolla izah etmək lazımdır. Müxtəlif sarsıntılara baxmayaraq, Sasanilər dövründə bütün İranın başlıca, dövlət əhəmiyyətli müqəddəs yerləri (şahın ziyarət etdiyi Adurquşnast atəşpərəstlik məbədi, hökmdarın və hərbçilər zümrəsinin məbədi) Cənubi Azərbaycanda yerləşirdi. Burada habelə "yanar kömürləri" və "çoxsaylı maqları" olan bir çox başqa məbədlər də cəmləşmişdi. Orta əsr müəlliflərinin məlumatlarına görə, bu səcdəgahlardan çoxusu hələ "Zərdüştə qədərki dövrdə" mövcud idi. Güman etmək olar ki, Avesta kanonunun qəti surətdə formalaşdırılması da burada baş vermişdi. Və nəhayət, Sasanilər dövründə bu vilayət zərdüştiliyin və zərdüşti kahinliyinin dayaq məntəqəsi idi. Bütün bunlar göstərilən dövrdə, bəlkə də erkən zamanlarda zərdüşti Cənubi Azərbaycanın böyük rolunu və əhəmiyyətini təsdiq etsə də, lakin hər halda bunlar Azərbaycanı zərdüşti Avesta təlimlərinin vətəni kimi tanımağa imkan vermir.

Zərdüştilik ərəb işğalından sonrakı 3-4 əsr ərzində də mühüm rol oynamışdır. Pəhləvi dilindəki zərdüştilik ədəbiyyatının bir çox əsərləri, xüsusilə zərdüştiliyin ensiklopediyası olan Denkart məhz bu zaman yazılmışdı. Zərdüştilik ideyaları məzdəkilərin və babəkilərin ideologiyasına böyük təsir göstərmişdir. Zərdüştilik problemləri yeni dövr alimlərinin də əqlini həyəcanlandırmış və həyəcanlandırmaqdadır.



downloaded from KitabYurdu.az

Qədim İran inamları, etiqadları haqqında yuxarıda bütün deyilmişləri yekunlaşdıraraq demək lazımdır ki, Atropatena zərdüştiliyi qədim İran dini təlimlərinin tarixində mühüm mərhələlərdən biri idi. Sasanilər hakimiyyəti dövründə Atropatena bir neçə əsr ərzində zərdüştiliyin istinadgahına çevrilmişdi.



downloaded from KitabYurdu.az

IV F Ə S İ L

# ANTİK ALBANİYANIN ƏRAZİSİ VƏ ƏHALİSİ. TƏSƏRRÜFAT HƏYATI. İCTİMAİ MÜNASİBƏTLƏR VƏ SİYASİ QURULUŞ

**Qədim Albaniyanın ərazisi və əhalisi.** "Albaniya" və "albanlar" tarixi Azərbaycanın əsasən şimal vilayətlərini əhatə edən ölkənin və həmin ölkədə yaşayan xalqın antik mənbələrdən məlum olan adlarıdır. Bir çox hallarda elmi və kütləvi ədəbiyyatda bu ölkəni Qafqaz Albaniyası da adlandırırlar.

Antik dövrün bir qismini və erkən orta çağların bir neçə yüzilliyini əhatə etmiş Albaniya dövrü Vətənimizin tarixində böyük və çox mühüm mərhələdir. Albanlar orta əsrlərdə onların torpaqlarına gətirilmiş türk dilini qəbul etmiş və yeni türkdilli xalqa çevrilmiş müasir azərbaycanlıların bilavasitə əcdadlarından biridir. Şübhəsizdir ki, azərbaycanlılar alban mədəniyyətinin, albanlar tərəfindən yaradılmış və akkumulyasiya edilmiş bütün dəyərlərin varisləridir.

Antik və erkən orta əsr müəlliflərinin məlumatlarına əsasən, alban tayfalarının məskunlaşdıqları ərazi qədimlərdə cənubda Araz çayı və Talış dağlarından, şimalda Böyük Qafqaz bərzəxinin şimal-şərq qollarınadək uzanırdı. Strabonun göstərdiyi kimi, albanlar "iberlərlə Kaspi dənizi arasında" yaşayırdılar. Ptolomeyə görə, Albaniya "Şimalda Sarmatiyanın bir qismi ilə, Qərbdə İberiya ilə, Cənubda Böyük Ermənistamn bir qismi ilə" həmsərhəd idi.

Dövlətlərin siyasi sərhədlərinin sabit olmamasına və bir çox hallarda dəyişməsinə baxmayaraq, ümumiyyətlə, hesab etmək olar ki, alban tayfalarının məskunlaşdıqları torpaqlar hellinist-Roma zamanında, yəni Alban dövlətinin meydana gəlməsi dövründə və mövcudluğunun ilk yüzilliklərində müasir Azərbaycan Respublikasının bütün ərazisini və Dağıstanın cənub bölgələrini əhatə edirdi.

Albaniyanın təbii şəraiti böyük rəngarəngliyi ilə fərqlənir: dağlar, vadilər, çəmənliklər, çoxsaylı çaylar və xırda çaylar. Ölkə məhsuldar torpaqlarla və faydalı qazıntılarla zəngindir. Burada neft, təbii qaz, dəmir, qurğuşun, mis, daş duz, mineral bulaqlar və bir çox digər sərvətlər vardır.

Bitki və heyvanlar aləmi zəngindir. Burada Eldar şamı, dəmirağac, palıd, çinar və s. mövcuddur. Meyvə bağları, saysız-hesabsız üzümlüklər, əncir vardır. Burada zanbaq, ayıdöşəyi, qərənfil, qızılgül, zəfəran, bir çox dərman bitkiləri və s. bitir.

Burada xeyli heyvan yaşayırdı və yaşamaqdadır: ceyran, tur dağkeçisi, bezoar keçiləri, ayı, qaban, canavar, tülkü, dovşan və s. Quşlar aləmindən kəkliyi, turacı, qırqovulu və s. xatırlatmaq lazımdır. Kaspi dənizində və ölkənin çaylarında çoxlu müxtəlif balıq vardı.



downloaded from KitabYurdu.az

Heç şübhə yoxdur ki, alban tayfaları Kür çayının yalnız sol sahilində deyil, sağ sahilində də yaşamışlar. Kür çayının Albaniya ərazisindən keçdiyini söyləyən Strabonun məlumatları bunu qəti şəkildə təsdiqləyir. Antik, habelə erməni müəlliflərinin alban tayfalarının Kür çayının sağ sahilində də yaşadıqlarını qeyd edən məlumatları da bunu tam müəyyənliklə təsdiq edir. Doğrudur, bizim mənbələrdə (həm antik, həm də xüsusilə erməni) bir sıra hallarda iddia olunur ki, Albaniyanın cənub sərhədi Kür çayı boyunca keçirdi, Kür çayının sağ sahilindən guya Böyük Ermənistanın torpaqları başlanırdı.

Belə bir nöqteyi-nəzər mövcuddur ki, işğalçılıq müharibələri dövründə ermənilər Kür və Araz çayları arasındakı torpaqları da ələ keçirmişdilər. Başqaları (bunlar adətən erməni müəllifləridir) hətta iddia edirlər ki, həmin ərazi Ermənistanın şimal-şərq qismidir, "erməni" Albaniyasının bu qisminin əhalisi guya əzəldən erməni olmuşdur. Bu müəlliflər Albaniyanın böyük qismini "Ermənistanm Şərq diyarı", "Ermənistanın ayrılmaz hissəsi", "Əzəldən erməni torpaqları", "Əsil Ermənistan vilayəti" və s. adlandırırlar.

Əgər Kür çayını Albaniyanın cənub sərhədi hesab etmiş Plininin, Dion Kassinin, Plutarxın və bəzi başqa antik və erməni müəlliflərin məlumatlarına əsaslanıb Kür çayını Albaniyanın cənub sərhədi hesab etmiş müəlliflərin nöqteyi-nəzəri ilə mübahisə etmək mümkündürsə, ikinci nöqteyi-nəzər millətçilik hisslərindən doğmuş və erməni etnosunun Cənubi Qafqazda avtoxton olması haqqında aşkar şəkildə yalan nöqteyi-nəzəri hər vasitə ilə qərarlaşdırmaq arzusundan törəmişdir.

Albaniyanın cənub sərhədlərinin Kür çayı boyunca keçməsi haqqındakı rəvayətin meydana gəlməsi onunla izah olunur ki, artıq e.ə. II-I əsrlərdə erməni hökmdarlarının ola bilər ki, təcavüzü bəzi hallarda alban tayfalarının yaşadıqları Sağsahil Kür torpaqlarına da yayılmışdı. Məhz bu, Kürdən cənubda olan torpaqların Ermənistana mənsub olması haqqındakı *xülyanı* meydana gətirmişdir. Şübhəsizdir ki, bu rəvayətin meydana gəlməsində və inkişaf etdirilməsində mühüm rol antik müəlliflərin erməni informatorlarına məxsus olmuşdur. Habelə onu da qeyd etmək lazımdır ki, Qafqazı nadir hallarda yaxşı tanımış antik müəlliflərin məlumatları çox zaman ctibarlı olmayan mənbələrə, təsadüfi məlumatlara və s. əsaslanırdı.

Erməni müəlliflərinin özlərinə gəldikdə isə demək lazımdır ki, onların təsvir etdikləri Ermənistanın əzəmət mənzərəsi tarixin *gerçəklik mənzərəsi deyil,* onların özlərinin şəxsi idealını - zərdüştilik İranının təhlükəsinə qarşı olan vahid, birləşdirilmiş Ermənistanı əks etdirir. Tamamilə şübhəsizdir ki, bu *mənzərələr gerçəkliyi təhrif edir* [N.Qarsoyan].

Ən sadə səbəbdən Sağsahil Kür torpaqları heç cür "əzəli erməni torpaqları" ola bilməzdi. Ona görə ki, alban tayfalarından fərqli olaraq *ermənilər Cənubi Qafqazın aborigenləri deyildirlər.* Erməni dilinin özü bunu müəyyənliklə təsdiqləyir. Qədim erməni dili Ermənistan yaylasının avtoxtonlarının dillərinə qohum olmadığına görə



downloaded from KitabYurdu.az

mübahisəsizdir ki, bu dil həmin əraziyə onun daşıyıcıları vasitəsilə xaricdən gətirilmişdir. Mütəxəssislərin hesab etdikləri kimi, qədim erməni xalqı Fərat çayının yuxarı vadisində təxminən e.ə. II minilliyin sonunda - I minilliyin başlanğıcında təşəkkül tapmışdır. Deyilənlər bütün müəyyənliyi ilə onu təsdiq edir ki, *ermənilər Cənubi Qafqazda qeyd-şərtsiz gəlmə xalqdır.*

Erməni ekstremistlərinin "əzəli erməni torpağı" elan etdikləri Dağlıq Qarabağ ərazisində də ermənilər gəlmə elementdir. Ermənilərin Qarabağın aborigenləri olmadığını Dağlıq Qarabağ ermənilərinin diş-çənə sisteminin analizi də bütün müəyyənliyi ilə təsdiq edir.

*Alban tayfaları* isə şübhəsiz Cənubi Qafqazın cənub-şərq vilayətlərinin, əlbəttə Kür və Araz çayları arasındakı ərazinin avtoxtonları idilər. Yuxarıda qeyd olunduğu kimi, güman etməyə əsas var ki, *sonralar alban tayfa ittifaqı kimi tanınmış, tədricən təşəkkül tapan tayfa ittifaqının konturları hələ e.ə. II minilliyin lap sonunda - I minilliyin başlanğıcında, son tunc dövrü və dəmir dövrünün əvvəlində nəzərə çarpırdı.*

Qədim yazıçılar albanlardan danışarkən onların gözəlliyini, hündür boya, sarışın saçlara, boz gözlərə malik olduqlarını qeyd edirlər. Güman olunur ki, bunlar qədim aborigen əhalinin-indi də Azərbaycanın, Dağıstanın və Qafqaz bərzəxinin başqa vilayətlərinin dağ və dağətəyi bölgələrində geniş surətdə təmsil olunan kavkasion tipinin səciyyəvi cəhətləridir.

Albanların etnodil mənsubiyyəti haqqında danışarkən qeyd etmək vacibdir ki, tarixi ənənə (və çox vacibdir ki, erməni ənənəsinin özü) hazırda yalnız Qəbələ (keçmiş Qutqaşen) bölgəsində yaşayan, qədim zamanlarda və orta əsrlərdə isə Azərbaycan ərazisində fövqəladə dərəcədə geniş yayılmış müasir udiləri qədim albanlarla eyniləşdirir. Udilərin özləri son zamanlaradək mənşəcə alban olduqlarını xatırlayırdılar. Belə ki, onlar I Pyotra ünvanlanmış məlum məktubda yazırdılar: "Biz ağvanıq (yəni albanıq - *məsul red.)* və milliyyətcə utilərik (yəni udilərik - *məsul red.*)".

Udi dilinin Şimal-Şərq Qafqaz dilləri ailəsinə mənsub olması hazırda heç bir şübhə doğurmur. Bu belədirsə, onda alban dili (və yaxud dialektlərin kontiniumu) də adı çəkilmiş dil ailəsinə aid olunmalıdır. Bu ona görə həqiqətdir ki, artıq bir çox faktlar arxeoloji qazıntılar zamanı aşkar olunmuş Mingəçevir yazılarının qədim udi mənsubluğuna dair fərziyyənin xeyrinə şəhadət verir. Əlbəttə həmin yazıların dili yalnız alban dili ola bilərdi.[11]

[11] Bu yaxınlarda ölkəmizin Gürcüstan Respublikasındakı səfirliyindən Akademiyamızın prezidenti F.Maqsudov cənablarına göndərilmiş məktubdan bəlli olmuşdur ki, Gürcüstan EA-nın ekspedisiyası Sinaydakı Müqəddəs Yekaterina monastrında külli miqdarda alban əlyazmaları aşkar etmişdir. Professor Z.Aleksidze bu yazıları udi dilinin köməyi ilə oxumağa başlamışdır.



downloaded from KitabYurdu.az

Beləliklə, alban dili Şimal-Şərq Qafqaz dilləri ailəsinə aiddir. Şimal-Şərq Qafqaz dilləri ailəsi daşıyıcıları qədim zamanlarda Qafqazdan Egey və Aralıq dənizlərinədək olan geniş ərazilərdə yayılmış böyük dil ailəsinin qollarından biridir.

Bir sıra alimlərin Albaniya sərhədinin Kür çayı boyunca keçməsi, Kür çayının sağsahil torpaqlarının "əzəli erməni torpaqları" olması və s. haqqındakı mülahizələri ilə əlaqədar "erməni tarixinin atası" hesab edilən Movses Xorenasinin əsərindən bir parçanı iqtibas gətirmək vacibdir. Onu da demək lazımdır ki, həmin müəllifin məlumatları bizi maraqlandıran dövr üçün də mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Erməni müəllifi yazır ki, Alban hökmdarına *"Erasx* (Araz - *məsul red.) çayından başlanmış Xnarakert* (Ağstafa zonası - *məsul red.) adlanan qalayadək olan Alban düzü və onun dağlıq hissəsi miras qaldı... Parfiyalı Valarşak adlı-sanlı, cəsur Aranı* (albanların əfsanəvi əcdadını - *məsul red.) hakim təyin edir... Aranın varislərindən utilər, qardmanlılar, sodey tayfaları və Qarqar knyazlığı əmələ gəlmişlər...* (hər yerdə kursiv bizə məxsusdur - *məsul red.).* Yeri gəlmişkən, alban salnaməçisi Moisey Kalankatlı da bu cür fikirdədir.

Movses Xorenasilə adları çəkilmiş tayfaların hamısı tamamilə mübahisəsizdir ki, erməni tayfaları deyil, alban tayfa ittifaqına daxil olan tayfalardır. Utilər (müasir udilər), qardmanlılar və sodeylilər şübhəsiz, qarqarlar isə böyük ehtimalla Kür çayından cənubda, Sağsahil Kür torpaqlarında - gələcək Qarabağda (yalnız dağlıq hissədə deyil) yaşayırdılar.

Beləliklə, Albaniyada Parfiya mənşəli Arşakilər sülaləsinin hakimiyyətə gəlməsi dövründə, təxminən I əsrin II yarısında *Arazın döngəsindən tutmuş Ağstafa zonasınadək bütün sağsahil Kür ərazisi Albaniyaya, Alban çarlığına məxsus idi.* Tarixi Albaniyanın vilayətləri olan Arsax (Orxistena), Utik (Otena), Sovdek (Sodeya, Savdeya) və b. məhz bu ərazidə yerləşirdi. Əgər həmin ərazilərin bu və ya digər hissəsi nə vaxtsa müvəqqəti olaraq erməni hökmdarları tərəfindən ələ keçirilirdisə, bu hadisə I əsrdən gec olmayaraq, ermənilərin işğalçılıq müharibələri dövründə - e.ə. II-I əsrlərdə ola bilərdi.

Ermənilərin təcavüzkarlığı hələ antik müəlliflərin diqqətini cəlb etmişdi. Strabon yazırdı: "...əvvəlki zamanlarda kiçik ölkə olmuş Ermənistanı Artaksinin və Zariadrinin müharibələri böyütdü... Onlar birlikdə qonşu xalqların vilayətlərinin bir qismini kəsərək öz mülklərini genişləndirdilər: Onlar madalılardan (yəni atropatenalılardan. - *məsul red.)* Kaspiananı, Favnitidanı və Basoropedanı; iberlərdən Pariadrın dağətəyini, Xorzenanı və Kür çayının o biri sahilində yerləşən Qoqarenanı; xaliblərdən və mossiniklərdən Karenitidanı və Kiçik Ermənistanla həmsərhəd olan və



downloaded from KitabYurdu.az

yaxud onun hissəsi olan Kserksenanı; kataonlardan Akilisenanı və Antitavr ətrafındakı vilayəti; nəhayət, suriyalılardan Taronitidanı zorla aldılar".

Lakin bütün bu deyilənlər yalnız I əsrədək baş vermişdir. İş burasındadır ki, "Böyük Ermənistan" adlandırılan dövlət e.ə. II əsrin əvvəlindən e.ə. I əsrin 60-cı illərinədək mövcud olmuşdur. E.ə. 60-cı illərdə II Tiqran özünün bütün işğallarından imtina etməli oldu və "Roma xalqının dostu və müttəfiqi" elan edildi ki, bu isə həmin zamanın diplomatik dilində Romadan tam asılılığın etiraf olunması demək idi, həmin asılılıq prinsipcə eramızın IV əsrinədək davam etdi. I əsrin bütün I yarısı Ermənistan üçün hökmdarların dəyişməsi ilə səciyyəvi idi. Həmin hökmdarlar gah Romanın, gah da Parfiyanın səltənətə çıxardığı şəxslər olmuşlar. Numizmatik material bu dövrün Ermənistanının siyasi taleyi haqqında çox mühüm məlumatlar verir. Həmin material çarlığın tənəzzülünü, Ermənistanın işğal olunduğunu, Ermənistan üzərində Romanın qələbələrinin şöhrətləndirildiyini və s. təsdiq edir. I-II əsrlər ərzində Ermənistanda Roma qoşunları qərarlaşmışdı. Roma strateqləri özlərini ölkənin sahibi kimi aparırdılar. Deyilənlərdən belə nəticə çıxır ki, Ermənistan göstərilən dövrdə işğalçılıq müharibələri apara bilməzdi.

Beləliklə, artıq I əsrə doğru bütün Albaniya yuxarıda göstərilmiş sərhədlər hüdudunda birləşdirilmişdi.

Antik Albaniyanın ərazisi sıx surətdə məskunlaşmışdı. Burada yaşamış tayfalar haqqında Yunan-Roma müəllifləri məlumat verirlər. Strabon hesab edir ki, Albaniyada 26 tayfa mövcud idi.

"Albanlar" adına ilk dəfə e.ə. IV əsrin hadisələri ilə əlaqədar olaraq eramızın II əsrinin müəllifinin məlumatlarında təsadüf olunur. Lakin güman etməyə bəzi əsaslar var ki, Kaspisahili tayfaların böyük qismi (görünür ki, onların sırasında albanlar da vardı) erkən zamanlarda *"kaspilər"* adı altında tanınmışlar. Əgər bu belədirsə, onda ola bilər ki, albanlar Kserksin qoşunlarının tərkibində Helladaya hərbi yürüş etmiş, Herodotun xatırlatdığı "kaspilərin" sırasında olmuşlar. Bu güman sərfi-nəzər edilərsə, albanların Qavqamelada baş vermiş məşhur döyüşdə İran qoşununun tərkibində "gözlənilmədən" meydana gəlmələrini və həmin qoşunda kifayət qədər fəxri mövqe tutduqlarını anlamaq çətin olar.

Çox zaman albanların özləri ilə eyniləşdirilən ən iri alban tayfalarından biri utilər idi. Hələ Herodot onlar haqqında məlumat vermişdir. Utiya (Otena, Utik) vilayəti Kür çayının sağ sahilində yerləşirdi.

Müasir udilərin əcdadları olan utilər hələ orta əsrlərdə Azərbaycanın kifayət qədər geniş ərazisində yaşayırdılar. Udilərin Qarabağ zonasında mövcudluğu hələ XIX əsrdə də təsdiq edilir. Uti vilayətinin də daxil olduğu Arranın arran dilinin qədim udi dili olduğunu demək üçün əsaslar vardır.

Antik dövrdə Albaniyada aynianlar, anariaklar, parrasilər və b., yaşayırdılar. Kaspi sahilinin cənub-qərb bucağında kaspilər, daha doğrusu onların hansısa bir qismi



downloaded from KitabYurdu.az

məskunlaşmışdı. Kaspilər haqqında həm qədim Şərq mənbələri, həm də antik müəlliflər danışırlar. Kaspi dənizinin adının onların adından alınması şübhəsizdir. Mənbələr əsasında məlum olur ki, kaspilər əkinçiliyi, maldarlığı, balıqçılığı, sənətkarlığı, ticarəti, görünür, habelə gəmiçiliyi və dənizçiliyi yaxşı bilmiş xalq idi.

Arami sənədlərindən bizə məlumdur ki, Misirdə hərbi kolonistlərin, o cümlədən kaspilərin də kifayət dərəcədə böyük məskənləri vardı. Burada kaspilər gəmilərin hazırlanması sahəsində çalışırdılar.

Qədim erməni mənbələrinə görə, kaspilər, güman ki, hələ son antik və erkən orta əsrlər zamanında Paytakaran (sonralar: Beyləqan) zonasında yaşamışlar.

Savdeylər (Sodeylər) alban tayfalarından biri idi. Onları görünür, Plininin xatırlatdığı sodilərlə eyniləşdirmək lazımdır.

Alban tayfaları sırasında qardmanlıları və herləri də xatırlatmaq lazımdır. Güman etmək olar ki, alban tayfalarının etnogenezində kellər, leqlər, didurlar (didoylar), çilblər (silvlər), lpinlər (lupenlər) və başqa tayfalar müəyyən rol oynamışlar. Ola bilər ki, onların bir qismini alban etnik elementlərinin özünə aid etmək lazımdır.

Bizim alban tayfaları haqqındakı bilgilərimizin hamısı onları müəyyənliklə Cənubi Qafqazın cənub-şərq hissəsinin köklü əhalisi hesab etməyə imkan verir.

Heç şübhəsizdir ki, özündə 20-dən artıq tayfanı ehtiva etmiş alban (alban-uti) aborigen etnik massivi Qafqaz Albaniyasının ərazisində əsas, üstün massiv olmuşdur.

Ola bilsin ki, albanlar bu massivdə daha iri tayfa idi. Bəlkə buna görə bütün ölkə Albaniya adlanmağa başlanmışdı. Lakin bu da tamamilə mümkündür ki, bu tayfanın özü adını ölkənin adından almışdır. "Albaniya" adının yozulması sahəsindəki bir çox cəhdlərə baxmayaraq, hələlik bir nəticə hasil olunmamışdır.

Qafqaz Albaniyası tayfalarının dilləri, yuxarıda dediyimiz kimi şübhəsiz, Şimal-şərq Qafqaz dilləri ailəsinə aiddir.

Lakin qeyd etməmək olmaz ki, qədim Albaniya etnik tərkibinə görə kifayət dərəcədə rəngarəng ölkə idi. Burada e.ə. son əsrlərdə - eramızın ilk yüzilliklərində bir neçə müxtəlif dəfn adətləri mövcud olmuşdur. Məsələn, torpaq, quyu, çiy kərpic, küp, təknə, katakomba qəbirləri aşkara çıxarılmışdır. Bu hal ölkə əhalisini çoxtayfalı və etnik cəhətdən rəngarəng hesab etməyə imkan verir. Lakin görünür, bu mənzərəni bizi maraqlandıran ərazidə 20-dən artıq alban tayfasının mövcudluğu faktı ilə tutuşdurmaq lazım deyildir. Alban tayfaları arasındakı fərqlər haqqında biz yalnız müxtəlif fərziyyələr, mülahizələr irəli sürə bilərik. Görünür, bu fərqlər dağlı Qafqaz etnodil ümumiliyi çərçivəsinə, sığışdırıla bilər. Arxeoloji materiallar da bunu təsdiqləyir. İçərisində sıx bükülü skeletlər olan torpaq qəbirlər - geniş yayılmış Yaloylutəpə mədəniyyəti, bir qədər sonralar isə onunla birgə mövcud olmuş və ondan sonra bir neçə əsr ərzində yaşamış, Albaniya ilə qonşu olan vilayətlərdə də məlum olan küp qəbirlər mədəniyyəti alban tayfalarının vəhdətinin arxeoloji inikasıdır. Yaloylutəpə mədəniyyətinin materialları nəinki bizi maraqlandıran vilayətin Ön Asiya və Şərqi Aralıq



downloaded from KitabYurdu.az

dənizi sakinləri ilə əlaqələri haqqında danışmağa, habelə güman etməyə imkan verir ki, bu mədəniyyətin aparıcı tipləri ola bilsin, genetik baxımdan, geniş Ön Asiya kökləri ilə bağlıdır. Burada yada salmaq lazımdır ki, alban dili Şimali Qafqazdan başlamış Aralıq dənizindəki adalaradək olan vilayətlərin sakinlərinin danışdıqları dillər ailəsinə aiddir. Əlbəttə, bununla biz maddi mədəniyyətlə dil arasında bərabərlik işarəsi qoymuruq. Lakin göstərilən maraqlı faktı qeyd etməyə bilməzdik.

Küp qəbirlərin Gürcüstanda, Ermənistanda, Cənubi Azərbaycanda və başqa vilayətlərdə geniş yayılması faktı adları çəkilən ərazilərin əhalisinin albanlarla əlaqələri olduğunu parlaq surətdə təsdiq edir. Kiçik Asiya, Suriya, Misir və Egey aləmi ilə əlaqələr haqqında da danışmaq üçün çoxlu əsaslar vardır. Bir çox faktlar eramızdan əvvəlki son əsrlərdə və eramızın ilk yüzilliklərində Albaniyanın Şimali Qafqazla, Qafqazın önündəki ərazi ilə, Qara dənizsahili vilayətlərlə geniş əlaqələri olduğunu təsdiqləyir. Albanlar arasındakı fərqləri ayırmaq heç cür mümkün olmasa da, Albaniya ərazisində mövcud olmuş, adları çəkilmiş hər iki mədəniyyətin alban tayfalarına mənsubluğu şübhə doğurmur.

Yaloylutəpə mədəniyyəti ilə küp qəbirlər mədəniyyəti arasındakı iki, bir-birinə yaxın olan tayfa qruplarının arasında mövcud olmuş bəzi etnik fərqlərin nəticəsi kimi aşkara çıxmış fərqlər zaman keçdikcə aradan qalxırdı. Təxminən eramızın başlanğıcında Yaloylutəpə sakinləri assimilyasiyaya uğradılar, öz etno-mədəni simalarını itirdilər. Küp qəbirlər mədəniyyəti alban tayfalarının hakim mədəniyyətinə çevrildi.

Bütün dəlillərdən aydın olur ki, alban tayfa ittifaqı artıq e.ə. I minilliyin II yarısının başlanğıcında mövcud idi. Bütün dəlillərdən başqa bunu o da təsdiq edir ki, Arrianda Atropatın müttəfiqləri sırasında kadusilərlə və sakesinlərlə yanaşı Albaniya ərazisində yaşamış hər hansı tayfa qruplarının deyil, məhz albanların adı çəkilir.

Albaniyada alban tayfalarının istifadə etdikləri iki başlıca dəfn adətindən başqa bir neçə digər mərasimlərin də mövcud olması bu diyarda müxtəlif vaxtlarda bura gəlmiş başqa, qeyri-alban mənşəli əhali qruplarının olduğunu da təsdiqləməlidir. Deyilənləri hər halda içərisində uzadılmış skeletlər (görünür, bəzi hallarda zəif bükülü) olan quyu qəbirlərini, çiy kərpicdən hazırlanmış, təknə, taxta qutu və katakomba qəbirləri qoyub getmiş tayfalar barədə də iddia etmək olar.

Müxtəlif zamanlarda Albaniyaya daxil olmuş bu dəfn adətlərinin daşıyıcıları əsasən irandilli tayfalar idilər. Bunlar skiflər, saklar (ortokoribantlar, sakesinlər), sarmat-massaket-alan dairəsinin tayfaları (yuxarı aorslar, alanlar, massaketlər), parfiyalıların hansısa qrupları və başqaları idilər.

Təəssüf ki, biz yerli alban tayfalarının irandilli gəlmələrlə qarşılıqlı münasibətləri haqqında məlumatlara malik deyilik. Lakin qeyd etməliyik ki, mövcud olan materiallara əsasən İran elementi, şübhəsiz, Albaniyanın etnik, mədəni və siyasi tarixində az rol oynamamışdır.



downloaded from KitabYurdu.az

Albaniyada Sakasena (erməni mənbələrinə görə - Şakaşen) vilayəti vardı. Vilayətin adı buraya gəlmiş irandilli sakların adındandır. Onların qohumları olan kambocilər və yaxud onların hansısa qrupları Sakasena yaxınlığında məskunlaşmışdılar. Həmin vilayət onların adı ilə Kambüsena (gürcü mənbələrində Kambeçovani, erməni mənbələrində Kambeçan adlanır) adlanmağa başlandı. Eramızın ilk əsrlərində Kaspisahili zolaqda Maskut çarlığı və b. meydana gəldi.

Görünür ki, Qafqaz Albaniyasının tarixində Parfiya elementinin əhəmiyyəti burada I əsrdən etibarən hakim olmuş Arşakilər sülaləsinin Parfiya mənşəli olması ilə heç də məhdudlaşmır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Albaniyadakı Parfiya Arşakiləri tezliklə əsil alban Arşakilərinə çevrilmişdilər.

Lakin bütün hallarda tam müəyyənliklə demək lazımdır ki, bir çox əsrlər ərzində Cənubi Qafqazın cənub-şərq vilayətlərinə gəlmiş irandilli tayfalar Qafqaz Albaniyası zəminində etnik fasiləsizliyi qıra, ölkənin avtoxton əhalisini assimilyasiyaya uğrada bilmədilər. Antik və erkən orta əsrlər dövründə alban etnosunun və onun mədəniyyətinin mövcudluğu bunun mübahisəsiz sübutudur.

Ola bilər ki, eramızdan əvvəlki son 2-3 əsrdə Albaniyaya yunan əhalisinin hansısa qrupları daxil olmuşdular.

III-IV əsrlərdə erkən türkdilli tayfalar Albaniyaya daxil olmağa başladılar. Sonralar bu tayfalar başqa türkdilli tayfalarla birlikdə ölkə sakinlərinin dil görkəminin dəyişməsində həlledici rol oynadılar.

Albaniya və albanlar haqqında bütün bildiklərimiz bizə deməyə əsas verir ki, albanlar ola bilsin, artıq e.ə. V əsrə doğru, hər halda e.ə. IV əsrdən gec olmayaraq, Qavqamela döyüşündə farsların tərəfində iştirak etdikləri zaman tarix səhnəsinə qədəm qoymuşlar.

Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş dəlillər bütövlükdə eramızdan əvvəl I minilliyin II yarısının və eramızın ilk əsrlərinin Albaniyasını kifayət dərəcədə inkişaf etmiş oturaq maldarlıq-əkinçilik təsərrüfatına, sənətkarlıq istehsalına və ticarətə malik olmuş vilayət kimi təsvir edir. Lakin Albaniyanın ayrı-ayrı bölgələrində köçəri əhali qrupları da yaşayırdılar.

**Əkinçilik. Bağçılıq. Üzümçülük.** Antik müəlliflər Albaniya kənd təsərrüfatının mənzərəsi haqqında müəyyən məlumat verir.

Məsələn, Strabon əkinçilik barəsində yazır ki, albanlar "həm cürbəcür (yabanı) meyvələr, həm də insanın yetişdirdiyi [meyvələr] verən torpaqdan da lazımi dərəcədə istifadə etmirlər. Burada həmçinin həmişəyaşıl [bitkilər] yetişir... bir dəfə toxum səpilən torpaq bəzən iki və ya üç dəfə məhsul verir. Birinci dəfə hətta əlli qat məhsul yığırlar. (Bu zaman torpaq [herikə] qoyulmur) və hər hansı dəmir (kənd təsərrüfatı) alət(i) ilə deyil, adi ağacdan düzəldilmiş xış ilə şumlanır. Çayların suları və başqa sular bütün düzənliyi Babil və Misirdən xeyli yaxşı suvarır, belə ki, [düzənlik] daim zəngin otlaq



downloaded from KitabYurdu.az

görkəmində olur, buna görə də bərəkətlidir. Üstəlik, burada hava da oradakından yaxşıdır".

Qədim coğrafiyaşünas başqa bir yerdə qeyd edir ki, albanlar və iberlər "münbit torpağa malikdirlər və təsərrüfatı yaxşı inkişaf etdirə bilirlər". Biz Strabonda əkinçilik üçün yararsız ərazi haqqında da işarələrə rast gəlirik. Məsələn, o yazır ki, İberiyadan Albaniyaya gedən yol "Kambüsenadan suyu qıt olan dərə-təpəlik ərazidən keçir". Bu "dərə-təpəlik", eyni zamanda suyu qıt olan ərazidə, əlbəttə, əkinçilik inkişaf edə bilməzdi. Strabonun yuxarıda gətirilən məlumatı ilə əlaqədar olaraq, ağac xışın xatırladılması maraq doğurur, ədəbiyyatda onu ağac kotan da adlandırırlar. Məlum olduğu kimi, ağac xış qədim Şərqin hər yerində geniş yayılmışdı və Albaniya bu baxımdan heç də istisna deyildi.

Ağac kotan əsasən elə bir dəyişikliyə uğramamış, ilkin formasını bizim günlərə qədər saxlamışdır. Ağac xış əkinçilərin əməyini yüngülləşdirir və əmək məhsuldarlığını artırırdı. Torpaq təkcə təsvir edilən üsulla deyil, həm də qəbirlərdə arxeoloqlar tərəfindən izləri qeydə alınmış müxtəlif çeşidli alətlərlə şumlanırdı. Məsələn, katakombalar qazılanda torpaq işləri, yəqin ki, kürəklə görülürdü. Spesifik formalı Azərbaycan kürəyini xatırladan başqa bir alət - bel haqqında da məlumat vardır. Bu cür alət Albaniyanın hüdudlarından kənarda da aşkar edilmişdir.

İrriqasiya haqqında da bizə bəzi məlumatlar gəlib çatmışdır. Məsələn, "çayların suları və başqa sular ilə" Albaniya ərazisinin suvarılması haqqında Strabonun məlumatı maraq doğurur. Tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi, Strabon "başqa sular" deyəndə, ehtimal ki, irriqasiya sistemini - kəhrizləri və kanalları nəzərdə tutmuşdur. Azərbaycan ərazisində hələ qədim zamanlarda tikilmiş irriqasiya qurğularının mövcud olması çoxdan məlum idi. Yerli əhali bu kanalların bir hissəsindən indi də istifadə edir.

Qədim Qafqaz Albaniyasında Gəncə yaxınlığında Şəmkir çayının subasarında kəhriz sisteminin mövcud olması qeydə alınmışdır. Hazırda Azərbaycan kəndlərində kəhrizlərdən istifadə olunur, yaxın keçmişdə Bakıda, Gəncədə, Şəmkirdə, Naxçıvanda və başqa şəhərlərdə əhali kəhrizlərdən istifadə edirdi. Strabonun dediklərinə, habelə arxeoloji və etnoqrafik məlumata əsaslanaraq belə bir fərziyyə söyləmək olar ki, qədim Azərbaycanın əhalisi becərilən torpaqlarda irriqasiya məqsədləri üçün kanallardan və kəhrizlərdən istifadə etmişdir, bu isə əkinçilik təsərrüfatı səviyyəsinin nisbətən yüksək olması şəraitində mümkündür.

Kənd təsərrüfatında tərəqqi yeni əmək alətləri və yeni əmək vərdişləri ilə bağlı idi. Qazıntı zamanı çoxlu biçin aləti tapılmışdır. Torpaq və küp qəbirlərdə, habelə çiy kərpic türbələrdə dəmir oraqlar və biçində işlədilən oraq şəkilli bıçaqlar aşkar edilmişdir. Arxeoloji ədəbiyyatda küp və katakomba qəbirlərindən, habelə Mingəçevirin ilk və orta əsrlərə aid məskənlərindən tapılmış dəmir oraqlar məlumdur.

Məlumdur ki, Azərbaycanda həm bərk, həm də yumşaq buğda əkilirdi. Bərk buğda dəninin və ununun Mingəçevirdə aşkar edilmiş qalıqları həmin vaxtlara aiddir.



downloaded from KitabYurdu.az

Qaratəpədə eramızdan əvvəl I minilliyin sonuna aid keramika əşyalarında buğda və darının qabarıq təsvirləri vardır. Kür çayının solsahil qəsəbələrində arpa dəninin qalıqları aşkar edilmişdir. Mingəçevirdə buğda və arpa qalıqları, Xınıslıda isə kömürləşmiş buğda və arpa dənləri aşkar olunmuşdur. Buğda yumşaq və bərk sortlara mənsubdur, arpa altıcərgəlidir. Həm yumşaq, həm də bərk buğdanın ayrı-ayrı növləri Azərbaycanın müxtəlif yerlərində indiyədək yetişdirilməkdədir. Küp qəbirlərdə buğda və arpa qalıqları, həmçinin gümüşü rəngli kəpək şəklində darı tapılmışdır. Gətirilən faktlar göstərir ki, Azərbaycan ərazisində hələ ilk vaxtlardan buğda və arpa yetişdirilmiş, darı isə güman ki, nisbətən sonralar əkilməyə başlanmışdır.

Daha erkən arxeoloji material və etnoqrafik məlumat belə güman etməyə əsas verir ki, alban əkinçiləri kənd təsərrüfatı işləri zamanı taxıl döyümünün hər üç üsulundan, habelə sovuruq ata-ata dən təmizləmək üsulundan istifadə etmişlər. Taxılın çoxaldılması anbarlar yaradılmasını tələb edirdi. Ən qədim zamanlardan Azərbaycanda taxılı saxlamaq üçün quyulardan və küplərdən istifadə olunurdu. Hələ Roma yazıçıları aqronomiyaya dair risalələrində göstərirdilər ki, taxılı saxlamağın yayılmış üsullarından biri onun quyularda saxlanılması idi. Məsələn, Luki Kolumella (I əsr) yazırdı ki, "heç bir anbar olmayanda bəzi dənizaşırı əyalətlərdə edildiyi kimi, taxılı torpaqda saxlamaq [lazımdır]...". Taxıl saxlanılan xüsusi quyular haqqında başqa məlumat da var. Məsələn, Plini göstərir ki, "taxılı quyularda saxlamaq daha münasibdir... hər şeydən əvvəl quyular quru torpaqda qazılsın, sonra dibinə saman döşənsin; daha sonra oraya taxıl doldurulur...". Arxeoloji materialın öyrənilməsi göstərir ki, əkinçi əhali taxıl ehtiyatını iri gil küplərdə də saxlayırdı. Mingəçevirin qədim xarabalığında yerə basdırılmış iri təsərrüfat küpləri, quyularda darı, arpa və buğda qalıqları ilə yanaşı, emal edilmiş kənd təsərrüfatı məhsulları da var idi. Maraqlıdır ki, quyuların birindən təqribən 15 kiloqram un tapılmışdır. Qabların birində buğda unundan yoğrulmuş xəmir aşkar edilmişdir. Dəfn adətləri ilə bağlı adi iri küplərdə şərab, taxıl və başqa əkinçilik məhsulları saxlanılırdı. Xınıslıda yerə basdırılmış bir təsərrüfat küpü, habelə bir neçə quyu aşkar olunmuşdur. Albaniyaya qismən daxil olan qonşu Dağıstanda da taxıl və şərab saxlanılan iri gil qablar tapılmışdır.

Kənd təsərrüfatı məhsullarının emalında işlədilən alətlər taxıl istehlakının səviyyəsini göstərir. Əhali dən daşlarından geniş istifadə edirdi. Dən daşlarından əlavə, əl dəyirmanları da aşkar olunmuşdur. Yaloylutəpədə qazıntı sahələrinin birində iki əl dəyirmanı daşı tapılmışdır. Görünür, əl dəyirmanı eramızdan əvvəl I minilliyin son əsrlərinə aiddir. Eramızın I əsrinə aid olan əl dəyirmanı Xınıslı kəndində tapılmışdır. Maraqlıdır ki, Yaloylutəpədə və Xınıslıda aşkar edilmiş əl dəyirmanı daşlarının diametri və qalınlığı eynidir. O zaman Azərbaycan ərazisində təkcə əl dəyirmanları deyil, su dəyirmanları da vardı.

Bağçılığa dair qaynaqlar nisbətən məhduddur. Strabon məlumat verir ki, Albaniya torpağında ağaclar becərilir; həmişəyaşıl bitkilər haqqında da məlumat verilir.



downloaded from KitabYurdu.az

Strabon, məsələn, Araz vadisindən, habelə Sakasena və Qoqarenadan danışanda göstərir ki, "bütün bu ölkə cır meyvələrlə və insan tərəfindən yetişdirilən ağacların [meyvələri] və həmişəyaşıl [bitkilər] ilə doludur. Burada hətta zeytun bitir...". Bu məlumata əsasən güman etmək olar ki, həm Araz vadisində və Qoqarenada, həm də Sakasenada iki növ ağac vardır. Birinci növ ağaclar cır meyvə ağacları, ikinci növ ağaclar isə yerli əhali tərəfindən yetişdirilən meyvə ağaclarıdır. Bu ərazidə sonralar da məlum olmuş zeytun ağacları diqqəti cəlb edir. Kursi Ruf (I əsr) çox ehtimal ki, Cənubi (bəlkə həm də cənub-şərqi) Qafqazı nəzərdə tutaraq göstərirdi ki, başqa ehtiyatları bol olan bu ölkədə həm də çoxlu alma yetişdirirlər və onun torpağı üzüm hasilə gətirmək üçün olduqca əlverişlidir.

Qəbiristanlıqlarda aparılan qazıntı işləri antik Albaniyada bağçılıq haqqında müəyyən material verir. Küp qəbrindəki qabların birindən qoz və nar qalıqları, başqa birindən şaftalı çərdəkləri tapılmışdır. Çiy kərpic qəbrində gilas tumları aşkar edilmişdir. Mingəçevirdə tapılan taxta qəbirlərdə də meyvə qalıqları vardır.

Üzümçülük haqqında da məlumat qalmışdır. Qazıntı zamanı aşkara çıxarılmış paleobotanik material antik müəlliflərin üzümçülük haqqında məlumatını təsdiqləyir. Ağdam yaxınlığındakı Üzərliktəpədə eramızdan əvvəl III-I əsrlərə aid küp qəbirlərin birindən dibində üzüm tumları olan bir qab tapılmışdır. Qonşu ölkələrdə olduğu kimi, Azərbaycanda da lap qədimlərdən üzüm yetişdirilirdi. Başqa bitkiləri yetişdirmək mümkün olmayan torpaqlarda da üzüm çox gözəl yetişir. Strabon Albaniya üzümçülüyündən danışarkən göstərir ki, "tənəklər (hətta qulluq edilməyəndə də) uzun ömür sürür. [Hər] beş ildən bir tənəyin dibi bellənəndə [artıq zoğlar] kəsilir. Cavan tənək iki [yaşında] bar verir, yetişmiş tənək isə o qədər [üzüm] verir ki, salxımlar dərilməmiş qalır". "Dionisi Perieketin coğrafiyasına dair şərhlər"də Evstafi yazır ki, kaspilərin torpağında tənəklər bol üzüm verir. Strabon tənəklərə qulluq edilməsinin ayrı-ayrı mərhələləri üzərində dayanır, Evstafi isə kaspilərin torpağında üzümün bərəkətli olduğunu qeyd edir. Üzümçülüklə əlaqədar olaraq qazıntı zamanı tapılmış bəzi əşyaların da adını çəkmək lazımdır: həmin əşyalar hər şeydən əvvəl tənəkləri budamaq üçün işlədilən bıçaqlar və qayçılardır. Dediklərimiz göstərir ki, qədim Qafqaz Albaniyasının ərazisində bol üzüm yetişdirilirdi. Mingəçevir küp qəbirlərinin birindən üzüm tumları tapılmışdır.

Məlum olduğu kimi, üzümdən müxtəlif məhsullar hazırlanması təsərrüfat həyatında böyük əhəmiyyətə malikdir. Qədim Albaniyada üzüm şirəsini çıxarmaq üçün bilavasitə istifadə olunmuş əşyalar böyük maraq doğurur. Belə əşyalardan biri də şirə almaq üçün düzəldilmiş daş vannadır. Bu cür üzümsıxma vannalarından biri Xınıslıda aşkar edilmişdir; vannanın dibi girintili-çıxıntılıdır və orada hazır üzüm şirəsinin axması üçün nov vardır. Hazır üzüm şirəsini qıcqırmağa qoyurdular. Arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış materialın araşdırılması göstərir ki, öyrənilən dövrdə üzümçülüklə yanaşı, şərabçılıq da olmuşdur. İri küplər həm üzümü emal etmək, həm də şərab saxlamaq üçün idi.



downloaded from KitabYurdu.az

Gildən qayrılmış başqa əşyalar da şərabçılıqdan xəbər verir. Məsələn, küp və torpaq qəbirlərdə aşkar edilən tor arakəsməli qabları göstərmək olar.

**Maldarlıq, balıqçılıq.** Albaniya əhalisinin təsərrüfatında maldarlıq nəzərə çarpacaq yer tuturdu. Əlverişli təbii şərait buna imkan yaradırdı. İlin qızmar vaxtlarında mal-qara uca dağlarda yerləşən Alp çəmənliklərinə qalxır, qışın soyuğunda düzənliklərə enirdi. Strabon "daim zəngin otlaq görkəminə malik olan" Albaniya düzənliyindən danışarkən bildirir ki, Albaniyada "həm ev, həm də çöl [heyvanları] otlayan sürülər gözəl artım" vəziyyətindədir. Klavdi Elian (II—III əsrlər) Amintanın əsərinə istinad edərək yazır ki, "Kaspilər ölkəsində öküz sürüləri və at ilxıları çoxdur...".

Albaniyada maldarlıq haqqında qədim müəlliflərin məlumatları osteoloji materialla da təsdiq olunur. Zəngin küp qəbirlərin birindən genağızlı küplərdə və dərin camlarda olan heyvan sümüklərindən başqa, həm də öküzün qafa tası və ayaq sümükləri tapılmışdır; bunların yanında bir neçə qoyun-keçi kəlləsi və başqa sümüklər vardı. Mingəçevirdə gildən bişirilmiş öküz başı, habelə inəyə oxşayan heyvan fiqurları aşkar edilmişdir. Mingəçevirdə zəngin qəbirlərin birində küpdən kənarda at sümükləri, Şıxdərə Kəlləsində (Mollaisaqlının 3 kilometrliyində) ayaqları qoparılmış keramik at fiqurları aşkara çıxarılmışdır; atın boynundan və quyruğundan çıxıntı şəklində uzanan qayış təsvirləri qabarıq verilmiş yəhəri atın belində saxlayır.

Albaniyada qoyun-keçi çox yayılmışdı. Klavdi Elian yazır ki, "kaspilərin keçiləri ağappaqdır, buynuzları yoxdur, boyları alçaq, burunları enlidir". Küp qəbirlərə qoyulan qabların xeyli hissəsi qoyun və keçi sümükləri ilə doludur. Qədim Albaniyada maldarlığın əhəmiyyəti zoomorf keramikada da öz əksini tapmışdır. Küp qəbirlərdən tapılan bir çox qabların üstündə buynuzlu qoyun başının təsvirləri vardır. Qaratəpə (Mil, Örənqala xarabalığının yaxınlığında) gil qablarının lülələrində, qulplarında və boğazlarında buruq buynuzlu qoç başı təsvir edilmişdir. Kür çayının sağ sahilində əldə edilmiş osteoloji material göstərir ki, qoyun və keçi cinsləri Şərqi Qafqaz ərazisində çox olan qoyun və keçilərin müasir cinslərinə uyğun gəlir. Albanların təsərrüfatında əhliləşdirilmiş itlər də var idi. Strabon yazır ki, albanlar həm özləri, həm də itləri böyük [həvəslə] ov edirlər, [ona görə yox ki, ov onların] peşəsidir, daha çox [ona görə ki, onların ova] meylləri [vardır]". Qədim albanlann it saxlamasını arxeoloji material da təsdiq edir. Yazılı qaynaqlar və arxeoloji material göstərir ki, Albaniyada ov ilə də məşğul olurdular, ov isə, şübhəsiz, azuqə toplamağa kömək edirdi və ola bilsin, eyni zamanda tərbiyə forması idi, gənc döyüşçülər üçün bir növ mərdlik dərsi idi.

Yazılı qaynaqlarda Kaspi torpağında dəvələr olması haqqında da məlumat qalmışdır. Klavdi Elian yazır ki, burada "dəvələr lap çoxdur... [onların] gözəl yunu vardır".

Mal-qara yerli əhalini ilk növbədə ət, dəri, yun ilə, həmçinin lazım olan digər xammalla təmin edirdi. Genağızlı, ikiqulplu, orta ölçülü küplər maldarlıq təsərrüfatında tətbiq olunur. Dəfn küpündə tapılmış gil güvəclərin birində ağartı izləri aşkar edilmişdir.



downloaded from KitabYurdu.az

Arxeoloji qazıntılar zamanı Albaniyanın qədim əhalisi tərəfindən işlədilən çoxlu gil nehrə aşkara çıxarılmışdır. Məsələn, Mingəçevir, Ağcabədi küp qəbirlərində və başqa yerlərdə nehrələr tapılmışdır. Südün yaxşı çalxalanması üçün bu nehrələrdən bəzisinin dibində barmaqvari iki və ya dörd çıxıntı vardır. Yağın alınması prosesini etnoqrafiya materialı əsasında təsəvvürdə canlandırmaq olar. Azərbaycanın kənd əhalisi indi də nehrədə yağ çalxayır. Etnoqrafik material göstərir ki, qədim əhali yağı saxlamaq üçün genağızlı, qulpsuz qablardan, habelə kəsilmiş ev heyvanlarının təmizlənib qurudulmuş mədələrindən istifadə edirdi. Yazılı qaynaqların, arxeoloji materialın və etnoqrafik məlumatın öyrənilməsi güman etməyə əsas verir ki, qədim Albaniyada maldarlıq yarıköçəri, aran-yaylaq maldarlığı idi.

Bir çox qaynaqlar albanların balıqçılıqla da məşğul olduqlarını söyləməyə imkan verir. Klavdi Elian yazır ki, "Kaspi torpağında nəhəng bir göl var və bu göldə itiburun adlanan iri balıqlar üzür... Kaspilər onları tutur, duzlayır və ya qurudurdular...". Bu məlumat həm Albaniyaya, həm də Atropatenaya aiddir. Balıqçılığın inkişafını arxeoloji material da təsdiq edir.

**Sənətkarlıq.** Qazıntılar nəticəsində dulus kürələrinin və çoxlu gil qabların tapılması sübut edir ki, qədim Qafqaz Albaniyasında keramik məmulat istehsalı geniş yayılmışdı. Dulus kürələri ölkənin bütün ərazisində aşkara çıxarılmışdır. Mingəçevir kürələri daha mükəmməl öyrənilmişdir; Kür çayının sahilində dulus kürələrinin sıx yerləşməsi vaxtilə burada iri dulusçuluq mərkəzi olduğuna dəlalət edir. Kürələr Alazan çayı ilə Əyriçayın qovuşduğu yerin yaxınlığında - Torpaqqalada da qeydə alınmışdır. Dulusçular qabaqcadan lazımi qədər gil tədarük edirdilər; gil yataqları həm torpaq, həm də küp qəbirlər mədəniyyətinin yayıldığı ərazidə vardır. Əşyalar hazırlamaq üçün işlədilən gil adətən yaşıla çalan açıq sarı rəngdə olur. Bitki qatışığı ilə bu cür gildən yapılan qablar bişiriləndə sarımtıl, çəhrayı və qırmızımtıl rəng alır ki, bu da küp qəbirlərdən və çiy kərpic qəbirlərindən çıxan keramikanı son tunc dövrünün və ilk orta əsrlərin gil məmulatından fərqləndirir. Görünüşündən, xüsusilə təzə sınıq yerindən məlum olduğu kimi, qablar yaxşı qurudulmuş gildən düzəldilirdi. Müxtəlif gillərin xassələrindən asılı olaraq, məmulat bişirildikdən sonra müxtəlif rəng alırdı. Qədim əhalinin sakin olduğu hər bir iri rayona yerli gildən hazırlanan keramikanın spesifik rəng çalarları uyğun gəlirdi. Tərkibində cüzi miqdarda xırdadənəli yağsızlaşdırıcı qum olan gildən hazırlanmış açıq və tünd rəngli qablar torpaq qəbirlərdən çıxarılmış kiçik ölçülü keramika üçün səciyyəvidir. Bu məmulat Alazan, Türyan və Pirsaat çaylarının sahillərində, habelə Muğanın torpaq qəbirlərində intişar tapmışdır. Yaloylutəpə tipli torpaq qəbirlərdə aşkar edilmiş iri ölçülü keramika üçün əsasən qurutma və bişirmə zamanı deformasiyanın qarşısını alan xeyli miqdarda iridənəli qum qarışmış açıq rəngli gil səciyyəvidir. Belə keramikaya başlıca olaraq Türyançay sahillərində və qismən küp qəbirlərin intişar tapdığı bütün ərazidə, habelə Kür çayından cənubda təsadüf edilir; bu məmulat yağsızlaşdırıcının çox olması ilə fərqlənir. Kür ilə Alazan qovşağından cənubda yerləşən rayon öz məmulatı ilə diqqəti



downloaded from KitabYurdu.az

xüsusilə cəlb edir. Sabirabad yaxınlığında küp qəbirlərdən tapılan keramika qatışığı az olan gildən hazırlanmışdır. Həm qara, həm açıq rəngli keramikanın gil kütləsinin keyfiyyəti eynidir, hər ikisinin tərkibində silisium, alüminium, dəmir, kalsium, maqnezium, oksigen, kükürd və başqa elementlər vardır; qara keramikanın gil kütləsində alüminium daha çoxdur. Küp qəbirlər keramikasının yayıldığı zona üçün tərkibində xırdadənəli və iridənəli qumdan ibarət az miqdar yağsızlaşdırıcı olan açıq rəngli gil səciyyəvidir.

Həm təsərrüfat, həm də qəbir küpləri istehsalında istifadə edilən iri ölçülü məmulat üçün çoxlu yağsızlaşdırıcı işlədilirdi. Kiçik ölçülü keramika məmulatına isə, əksinə, yağsızlaşdırıcı az tətbiq edilirdi. Böyük küplər hazırlananda gil kütləsinə yalnız iridənəli qum deyil, həm də şamot-döyülmüş saxsı qatırdılar. Çiy kərpic qəbirlərin zonasına gil Gəncəçay vadisindən gətirilirdi. Bu gildən hazırlanan məmulatın rəngi tünd boza çalırdı, çox vaxt qabın üstü başdan-başa tünd xallarla örtülürdü. Keramikanın texnoloji xüsusiyyətlərinin öyrənilməsi göstərir ki, dəfn mərasiminin hər növü üçün özünəməxsus hazırlanma texnikası olan gil qab səciyyəvidir ki, bu da qədim Qafqaz Albaniyasının mədəniyyətlərini bir-birindən fərqləndirməyə imkan verir.

Kirəmitçilik saxsı qab istehsalı ilə sıx bağlıdır. Çaqqallıda (Qəbələ zonası) qazıntı zamanı çoxlu bütöv kirəmit və külli miqdarda kirəmit qırıntıları tapılmışdır. Bunlar yastı solenlərdir (təqribən 64/66x40/46x3 santimetr). Habelə ikienişli (təqribən 70/74x44/42x2 santimetr) və novlu (təqribən 55x26/30x2 santimetr) kalipterdir. İstehsal prosesində hazır gil kütləsindən arzu olunan kirəmit alınır, qurudulur və keramika sobasına qoyulurdu. Açıq boz və açıq qırmızı rəngli kirəmitlər yaxşı duruldulmuş açıq rəngli gil ilə cüzi miqdarda yağsızlaşdırıcının qatışığından hazırlanırdı. Dulusçular çəkisi çox ağır gələn (təqribən 12-15 kiloqram), lakin əla dam örtüyü olan kirəmit bişirirdilər. Xınıslıda kirəmit qırıqları aşkar edilmişdir. Seyidtala qədim şəhər xarabalığında da bu cür kirəmit (62x43x2,5) tapılmışdır. Belə solenlər və novlu kalipterlər Mollaisaqlıda və Şıxdərə Kəlləsində də aşkara çıxarılmışdır.

Bişirmə sobalarında daha kiçik gil əşyalar: iy, qursa, ayin əhəmiyyəti olan kiçik gil heykəlciklər də bişirilirdi. Qədim Albaniya qəbiristanlarında və məskənlərində tapılan keramika məmulatının, habelə dulus sobalarının kütləvi xarakter daşıması qədim Qafqaz Albaniyasında keramika istehsalının geniş miqyas aldığını göstərir.

Mis filizi çıxarılan qədim mədənlərin mövcud olması, arxeoloji qazıntılar zamanı çoxlu metal məmulat tapılması göstərir ki, qədim Qafqaz Albaniyasında əmək alətləri, silahlar və bəzək şeyləri istehsalı yüksək sənətkarlıq səviyyəsində aparılırmış. Qəbirlərdə aşkara çıxarılan əşyalar ölkədə dəmir, tunc, qızıl və gümüş məmulatı istehsalının inkişaf etdiyini təsdiqləməyə, albanların metalişləmə üsulları haqqında mühakimə yeritməyə imkan verir.

Qədim Albaniyada metaldöymə, metalda naxışaçma və qəliblərə metaltökmə geniş yayılmışdı. Metal iki üsulla-qızdırılaraq və ya soyuq-soyuq döyülürdü. Birinci üsulla



downloaded from KitabYurdu.az

işləyəndə metalı kürədə qızdırıb zindanda bir və ya bir neçə çəkiclə döyürdülər-qədim albanlar və qonşuları dəmiri əsasən bu cür emal edirdilər. İstidöymə üsulu bir çox əmək alətləri və silahlar istehsalında tətbiq edilirdi. Albanlar qəbirə çox zaman ölü ilə birlikdə oraqlar və oraqşəkilli bıçaqlar, habelə xəncərlər, qılınclar, yabalar, ox, nizə və mizraq ucları da qoyurdular. Albaniya qəbirlərindən tapılmış çoxlu üzüklərdə, sırğalarda, qolbaqlarda, toqqalarda, tökmə, döymə və digər proseslərin birgə tətbiqi ilə hazırlanmış digər bəzək əşyalarında isti emalın izləri vardır. Bəzək şeylərinin ayrı-ayrı hissələri çivi və ya lehim ilə birləşdirilirdi. Bəzək şeylərinin xeyli hissəsi - sırğalar, üzüklər, qolbaqlar, boyunbağılar, zınqırovlar - soyuq emal üsulu ilə hazırlanırdı. Emalın başqa bir üsulu metalda naxışaçma idi. Hazır metal məmulatın naxışlarını rəsm əsasında üst və ya alt üzündəki alətə zərbə vura-vura həkk edirdilər. Metalda naxış açmaq texnikası haqqında müxtəlif qəbirlərdə aşkar edilmiş azsaylı əşyalara - sikkələrə, yüksək əyarlı qızıldan düzəldilmiş nazik lövhəciklərə görə mühakimə yürütmək olar. Metal emalının ən çox zəhmət tələb edən üsullarından biri açıq və ya açılıb-örtülən qəliblərə metal tökülməsidir.

Tunc, gümüş və qızıl əşyalar qədim alban ustalarının zərgərlik sənətinin texnologiyasını ətraflı izləməyə imkan verir.

Antik Albaniyada sənətlərin digər növləri də inkişaf etmişdi. Arxeoloji material sümükişləmə və ağacişləmə sənətinin səviyyəsi haqqında mühakimə yürütməyə imkan verir. Daşişləmə sənətinin inkişaf etməsi də şəksizdir.

Təəssüf ki, antik Albaniyada toxuculuq haqqında məlumatımız kasaddır. Şübhə yoxdur ki, burada qoyun və dəvə yunundan istifadə olunurdu. Qazıntılar zamanı çoxlu qırxılıq tapılmışdır. Bu cür dəmir qırxılıqlar Azərbaycanda indi də tətbiq olunur. Elian Kaspiana ərazisində yun və yun paltar istehsalı haqqında məlumat verir: "[onlarda] dəvə olduqca çoxdur... gözəl yunu vardır; dəvə yunu çox zərifdir, belə ki, yumşaqlıq cəhətdən hətta Milet yunundan da geri qalmır. [Bu yundan] tikilmiş paltarı hiyerevslər və ən varlı kaspilər geyirlər...". Görünür ki, dəvə yunundan olan paltar yüksək qiymətləndirilirdi və yəqin ki, alver malı idi.

İplik istehsalının başqa bir mənbəyi kətan idi. Qabığı o qədər bərk olmayan bu biçimli, elastik, gövdəsi kövrək bitkiyə insan çoxdan diqqət yetirmişdi. İstehsal prosesində kətanı əvvəlcə əlləri ilə didir, sonra lifindən sap eşir və yalnız bundan sonra iyə sarıyırdılar.

Kətan parçalardan qədim Qafqaz Albaniyasında geniş istifadə olunurdu. Küp və çiy kərpic qəbirlərdən tapılmış əl və ayaq bilərziklərində oksidləşmə nəticəsində parçanın aydın izləri qalmışdır. Mingəçevirdə qoşa küp qəbirlərin birində sap qalıqları ilə birlikdə piləklər aşkar edilmişdir. Tədqiqat göstərmişdir ki, Mingəçevirdə tapılan parça qırığı nazik kətan parçanın kəsiyidir. Başqa bir qəbirdə gümüş toqqa üzərində kətan parçanın qalıqları aşkar edilmişdir. Xınıslıda dəmir toqqada parça qırıqları qalmışdır. Mingəçevir küp qəbirlərindən tapılan kətan parça hər sırada arğacı bir ərişin üstündən



downloaded from KitabYurdu.az

aşırıb o biri ərişin altından keçirmək üsulu ilə toxunmuşdur. Xalça ilmələri ilə toxunan parçalar da olmuşdur. Küpdə dəfn edilmiş yeniyetmə bir qızın paltarı qədim Albaniyada kətan parçaların olması haqqında fikir söyləməyə imkan verir: qızın qırmızı dəri başmaqları və eynilə kəməri, parçadan tikilmiş, hər balağına iki tunc bilərzik keçirilmiş dizliyi vardı. Dizliyin üstündən ətəklik (yubka) geymiş, beldən yuxarıda isə əynində kofta və tor ilmələrinin izləri qalmışdı. Qollarına qolbaqlar və sapa düzülmüş muncuqlar taxılmışdı, boynunda da muncuq çox idi. Albanlarda əl iyinin quruluşu son dərəcə sadə idi - kələfbənd taxta ilə milə geydirilirdi. Məlumdur ki, əyirmə zamanı kələfbəndi və ona keçirilmiş taxta mili adətən sağa hərləyirlər. Azərbaycanda bu əyirmə üsulundan indi də istifadə edilir. Təmizlənmiş, əl ilə didilmiş yunu hər hansı bir əşyaya bənd eləyib, ipi iyə sarıyırlar. Eramızdan əvvəl I minilliyə aid edilən sadə toxuculuq dəzgahlarının ayrı-ayrı hissələri Mingəçevir və Babadərvişin katakomba qəbirlərində aşkar edilmişdir. Dəzgahların ayrı-ayrı hissələri ilə yanaşı, sümük çubuqlar da tapılmışdır. Qəbirlərdən tapılmış parça qırıqları söyləməyə irnkan verir ki, toxuculuq antik Albaniyanın inkişaf etmiş sənətlərindən biri olmuşdur.

Bir qədər sonralar Albaniyada pambıq və ipək parçalara rast gəlinir.

Sənət növləri bunlarla bitmir. Səhih mənbələrin olmaması Qafqaz Albaniyasında dabbağlıq, dərzilik haqqında mühakimə yürütməyə imkan vermir. Hərçənd arxeoloji material içərisində bəzən bu sənətlərin zəif izlərinə təsadüf edilir.

**Ticarət. Ticarət yolları.** Antik Albaniyada iri və xırda yaşayış məntəqələri az deyildi. Ptolemey göstərir ki, Albaniyada 30-dan artıq polis (şəhər) və kome (kənd) var idi.

Arxeoloji qazıntılar nəticəsində antik Albaniyanm bir çox yaşayış məskənləri aşkar edilmişdir. Mingəçevir, Çuxur-Qəbələ, Xınıslı, Təzəkənd xarabalıqları bu qəbildəndir. Mollakənd, Qalagah, Nüydü, Hacıhətəmli yaxınlığında və digər rayonlarda qədim alban şəhərlərinin və məskənlərinin xarabalıqları kəşf edilmişdir.

Təbiidir ki, alban şəhər və məskənlərinin əhalisi qarşılıqlı əlaqə saxlayırdı. Müxtəlif rayonlarda xeyli miqdarda oxşar və ya eyni məmulatın mövcud olması çoxişlənən malların ancaq fəal qarşılıqlı mübadiləsi şəraitində mümkündür. Məişət əşyaları istehsal mərkəzlərindən istehlak rayonlarına yüz illərdən bəri istifadə edilən ticarət yolları ilə çatdırılırdı. Yerli əhalinin Bazərgan yolu adlandırdığı tranzit yolun izləri indi də qalmaqdadır. Bazərgan yolu Köndələndağın cənub yamacı ilə uzanıb gedirdi. Bütün bu yol boyunca körpü, qüllə, qala və başqa tikililərin xarabalarına rast gəlinir. Mingəçevir yaxınlığındakı bərə Kürün sağ sahilini sol sahili ilə birləşdirirdi. Qədim Qafqaz Albaniyasının ərazisindən baş magistrallardan əlavə, Qəbələ, Mingəçevir, Şamaxı, Torpaqqala, habelə digər məskənləri və şəhərləri birləşdirən ticarət yolları da keçirdi. Ehtimal ki, Albaniyanın baş quru magistrallarından biri Kür çayından şimalda yerləşən ərazidən keçir və Bakıdan Şamaxı, Göyçay, Ağdaş, Şəki, Zaqatala, Balakən istiqamətində Laqodexiyə qədər davam edən və oradan Qərbə tərəf gedən yol ilə ayrı-



downloaded from KitabYurdu.az

ayrı yerlərdə üst-üstə düşürdü. Bu yol qədim Şamaxını Qəbələ və Mingəçevir ilə birləşdirirdi. Eyni zamanda baş magistraldan ayrılan qol yolları ilə ilin isti, yağıntısız vaxtlarında Albaniyanın şimal vilayətlərinə getmək olurdu. Ağdaşın yaxınlığında Bakı-Tbilisi baş magistralından Qəbələyə tərəf Savalan keçidi ilə yol ayrılır. Savalan keçidinin bir parçası şərqə dönür. Qədim karvan yolu boyunca uçuq körpülərin qalıqlarına rast gəlinir. Qəbələyə gedən ticarət yolu Çayboğazı qəsəbəsi yaxınlığında şərqə və cənub-qərbə tərəf istiqamət alırdı. Birinci yol Bozdağın cənub yamacları ilə Şamaxıdan keçir, ikinci yol isə Mingəçevirə tərəf gedirdi. Qəbələdən şərqə tərəf Göyçaya qədər uzanan üçüncü qədim yolu əhali Əlvan yol adlandırır. Dagil, Xaçmaz, Bum, Qutqaşen yaxınlığında olan keçidlərlə Qəbələyə Dağıstandan da getmək mümkündür. Yollar qışda qarla örtülür, gediş-gəliş ilin yalnız isti vaxtlarında mümkün olur. Qeyd edilir ki, Dəvə yolu (qədim Bazərgan və ya Elçi yolu belə də adlanır) Mollaisaqlıya qədər uzanır. Şirvan öndağı ilə Şamaxıya çatır, oradan isə Kaspi sahillərilə Duvanlıya gedirdi. Həftəran vadisinin əhalisi Şimali Qafqazda və Dağıstanda yaşayan tayfalarla əlaqəni həm də Dərbənd keçidi və Böyük Qafqaz silsiləsinin Xaçmaz, Bum, Qəbələ və Vəndam yaxınlığından keçən dar aşırımları vasitəsilə saxlayırdı.

Bu yollardan əlavə, Şamaxı rayonunu İsmayıllı, Qəbələ, Bum, Xaçmaz, Oğuz və başqa yerlərlə kəndarası yollar da birləşdirir. Qədim Qafqaz Albaniyasının baş magistrallarından biri Qazaxdan başlanan, Şəmkir, Gəncə və Mingəçevirdən keçib Şamaxıya gedən yol ilə, həm də Bərdədən başlanan, Ağdamdan və Füzulidən keçərək cənubda Atropatenaya və İrana gedən yol üst-üstə düşürdü. Ərəb coğrafiyaçılarının məlumatına görə, Tbilisidən şərqə gedən yol Xunan, Şəmkir və Gəncədən keçərək Bərdəyə qədər uzanırdı, buradan isə Bərzənc, Şamaxı, Şirvan və digər şəhərlər təriqi ilə Dərbəndə yaxud Bərdədən çıxıb Yunan, Beyləqan, Barsan, Bəlxəb və Bərzənd təriqi ilə Ərdəbilə getmək olardı.

Strabon yazırdı ki, İberiyaya "Albaniyadan keçid əvvəlcə qayalardan çapılmış [yoldan ibarətdir]. Sonra [yol] Qafqazdan axan [Alazan] çayının əmələ gətirdiyi bataqlıqdan [keçib gedir]". Onun verdiyi məlumata görə, Ermənistan, İberiya və Albaniyanın qovşağında-nisbətən kiçik olan bu dərə-təpəlik ərazidə yollar müxtəlif tərəflərə uzanır, həmin yolla Albaniyanın qərb darvazası sayılan keçidlə albanlar yaşayan əraziyə getmək mümkündür.

Strabon qeyd edirdi ki, adətən "İberiyadan Albaniyaya Alazan çayının sahili ilə" keçmək olar. İberiyadan Albaniya hüdudlarına yalnız bu yolla, dərə-təpəli Kambüsenadan və Alazan çayının sahili ilə keçmək mümkün idi.

Qədim dövrün bir çox yazıçıları Qafqaz darvazasını səhvən Kaspi darvazası adlandırırdılar. Ptolemeyin "Sarmat darvazası"nı Plinidəki "Qafqaz darvazası" ilə eyniləşdirmək olar. Bütün əlamətlərdən görünür ki, Qafqaz darvazası indi Daryal dərəsi dediyimiz dağ keçidinin eynidir. Lakin cənub vilayətlərini Qafqaz ilə birləşdirən ticarət yolu burada da qırılmırdı. Yol davam edərək Qafqaz darvazasından şimal-qərbə, Tanaisə



downloaded from KitabYurdu.az

tərəf uzanırdı. Strabon məlumat verir ki, Tanais "bir tərəfdən, Asiya və Avropa nomadlarının, digər tərəfdən Bospordan gəmilərlə [Meotid gölünə gələnlərin ümumi ticarət mərkəzi idi: birincilər qullar, gön-dəri və köçərilərdən alına bilən digər əşyalar, ikincilər isə mübadilə üçün paltar, şərab və məişətdə işlədilən başqa ləvazimat gətirirdilər".

Ticarət magistrallarının kəsişmə nöqtəsi olan Ekbatana yolun cənub hissəsində yerləşirdi. Bu şəhər eyni zamanda malları yalnız qəbul etmək üçün deyil, həm də satmaq üçün münasib yer idi. Şərqdən Qərbə gedən baş ticarət magistralı Ekbatanadan keçirdi və buradan müxtəlif ölkələrin mallarını almaq olardı. Doğrudan da, Strabon məlumat verir ki, Kaspi dənizinin şimal hissəsi sahibi olan aorslar "ermənilərdən və midiyalılardan mübadilə qaydası ilə hind və Babil malları alır, dəvə karvanları ilə daşıyıb satırdılar". Güman etmək olar ki, bundan çox-çox əsrlər əvvəl hərbi məqsədlərlə istifadə olunan tranzit yolu Kaspinin şimal sahilində yaşayan tayfalar ilə Atropatena və Ermənistan əhalisi arasında ticarət magistralı olmaqda davam edirdi. Balıq daşınması haqqında Klavdi Elianın məlumatı da Ekbatanaya gedən ticarət yolunun mövcud olduğunu təsdiq edir. Daha sonralara aid olan materiala əsasən Beyləqandan çıxıb Varsan və Bərzənddən, yəni kaspilər yaşayan ərazidən keçərək Ərdəbilə, oradan da cənuba - Ekbatanaya getmək olardı.

Ticarətin canlanması Ekbatanadan başlanan, Qazaka vasitəsilə Artaksataya, oradan da şimala doğru uzanan ticarət yollarının daha da inkişaf etməsinə səbəb olurdu. Bu yol Ekbatanaya gətirilən malları qonşu ölkələrdə, habelə Ermənistanda və İberiyada yaymaq üçün istifadə edilən əsas magistrallardan biri idi.

Cənubda qədim Albaniyanın quru, ticarət yolları Parfiya çarlığının geniş ərazisi ilə Qərbdən Şərqə Dəclə çayının sahilindəki Antioxiyadan və Selevkiyadan Markianaya qədər uzanan böyük qədim Şərq magistral yollarına çıxırdı. Bu magistrallar Qərbə, Romanın tabeliyində olan ölkələrə və Şərqə, Hindistan və Çinə aparır, başlıca olaraq Ekbatana yaxınlığında qovuşurdu.

Antik müəlliflər quru ticarət yollarından əlavə, dəniz və çay ticarət yollarından da bəhs edirlər. Strabon ehtimal ki, Qara dəniz sahillərindən Kaspi dənizinə gələn yolun ümumi uzunluğunu nəzərdə tutaraq yazırdı ki, bu ərazi "Kür çayının mənsəbindən Kolxidaya qədər, Albaniya və İberiya daxil olmaqla, dənizdən dənizə təqribən 3 min stadi uzanır, buna görə də onlar bərzəx şəklindədir". Pliniyə görə, Hindistandan yola düşəndən yeddi gün sonra Baktriyaya, Oks çayına tökülən Baktr çayının sahillərinə çatmaq olar. Hind malları bu çaydan Kaspiyə qədər, oradan da Kür boyunca quru yolla uzaqbaşı beş günə Ponta, Fasid yaxınlığına daşına bilər. Aristobulun dediyinə görə, "Hürkan dənizinə çoxlu hind malları gətirilir, oradan Albaniyaya ötürülür, Kür sahili ilə və bitişik ərazilərdə Evksinə çatdırılır".

Kaspi dənizi ilə ticarət yolunun olması bəzi coğrafiyaçılarda şübhə oyadır. Pomponi Melanın məlumatına görə, Kaspi dənizi "sərt və fırtınalı dənizdir, limanları



downloaded from KitabYurdu.az

yoxdur, hər tərəfdən fırtınalara açıqdır, başqa dənizlərə nisbətən burada daha çox dəniz yırtıcıları qaynaşır, odur ki, dənizçilər buraya başqa dənizlərə nisbətən daha az gəlirlər".

Fəal ticarətdə duz, görünür, mühüm yer tutmaqda davam edirdi. Bununla əlaqədar olaraq, Strabon yazır ki, Matiana gölündə "duzxanalar düzəldilmişdir". Duzxanaların olması, görünür, ona sübutdur ki, həm Atropatenanın, həm də qonşu ölkələrin uzaq və yaxın bölgələrinə duz ixrac edilirmiş. Mada yağı haqqında xəbər, ola bilsin, qədim Azərbaycanın ərazisi ilə bağlıdır.

Kaspiana sakinləri Madanın mərkəzi rayonları ilə iqtisadi əlaqə saxlayırdılar.

Roma tacirləri Aralıq dənizi ölkələrini Hindistan və Çin ilə bağlayan Qafqaz yolları ilə tanış olmaq arzusunda idilər. Domisianın hökmranlığı dövrünə aid latın kitabəsinin tapıldığı yerdə - Bakıdan cənub-qərbə tərəf Kaspinin qərb sahilində - romalıların peyda olması bəlkə də ipək yolunun qollarından birini nəzarət altına almaq və Parfiya torpaqlarından keçmədən Mərkəzi Asiya vilayətləri ilə əlaqəyə girmək arzusundan irəli gəlirdi. Azərbaycanda Böyük Dəhnə kəndinin yaxınlığında aşkar edilmiş yunan kitabəsi də Roma aləmi ilə qədim Qafqaz Albaniyası arasında olan əlaqələrdən soraq verir. Kitabədən görünür ki, yunan mənşəli Eli İason bu kitabəni Evnon adlı hamisinə ithaf etmişdir. Zəngin Şərq ölkələri ilə ticarət əlaqəsinə girmək istəyən romalılardan əlavə, Şərq sakinləri də ticarət əlaqələrinə cəhd göstərirdilər. Qərb ölkələrinə, habelə Avropaya gedən ipək yolu məhz bunun nəticəsində açılmışdı. Şərq ölkələri ilə Qərb ölkələri arasında müntəzəm əmtəə mübadiləsinə artıq eramızdan əvvəl I əsrdə imkan yaranmışdı.

Parfiyanın iqtisadi həyatına qoşulmuş yerli tacirlər ticarətdə fəal rol oynayırdılar. Onlar bir-birindən uzaq ölkələri birləşdirən böyük bir magistralı əllərində saxlayırdılar. Bütün bunlar göstərir ki, bir tərəfdən, Avropadan, digər tərəfdən, Çindən, Hindistandan və Orta Asiyadan uzanan ticarət magistralları Parfiya ərazisində kəsişir, gətirilən mallar isə ya yerli tacirlər tərəfindən başqa yerlərə ötürülür, ya da iri şəhərlərdə qalaraq böyük yolların qolları ilə tədricən hər tərəfə yayılırdı. Atropatena və Albaniya bu ticarətdə müəyyən yer tuturdu: ixrac edilən mallar Ekbatanaya daşınır, buradan da başqa yerlərə aparılırdı.

Antik Atropatena və Albaniya üçün nəzərdə tutulan idxal malları da Ekbatanaya bu əsas ticarət yolları ilə gətirilirdi.

Azərbaycan ərazisindən şüşə məmulat, eləcə də məharətlə düzəldilmiş küplər, vazalar, qədəhlər, ətirqabılar, kolbaşəkilli qablar tapılmışdır. Bunlar başlıca olaraq küp, katakomba və taxta qəbirlərdə aşkar edilmişdir. Məişətdə şüşə məmulatdan qab-qacaq, ətirqabı, ənlikqabı və s. kimi istifadə edilirdi; dəfn mərasimində lazım olan ətirlər və ətirli yağlar da şüşə qablara tökülürdü.

Bəzi bəzək şeyləri istisna edilməklə, şüşə məmulatı hazır şəkildə xaricdən gətirilirdi. Dəyirmi oturacaqlı vazaşəkilli qablar, qulplu və ya qulpsuz mumiya şüşələri, altı yastı qədəhlər gətirilmə idi. Bu məmulatın hamısı antik dünya ölkələrində geniş



downloaded from KitabYurdu.az

yayılmışdı. Dəyirmi oturacaqlı və ya yapma naxışlarla bəzədilmiş vazaşəkilli və kolbaşəkilli qablara, ətir şüşələrinə və digər şüşə əşyalara öz formaları, ölçüləri və başqa xüsusiyyətləri ilə bənzəyən qablar və əşyalar Şərq, xüsusən Suriya şüşə istehsalı mərkəzlərinin məhsulları arasında da vardır. Tipoloji təhlil şüşə səhəngləri Suriya mənşəli məmulat sırasına, vazaşəkilli qabları isə şüşə məmulatın Şərqi Aralıq dənizi tipoloji qrupuna aid etməyə imkan verir. Kolbaşəkilli balzam qabları antik dünyanın bütün ərazisində yayılmışdı. Bunlar Misirdə, Kiprdə, Dura-Yevroposda, Qarnilə və başqa yerlərdə aşkar edilmişdir. Bu qabların yayılması onların Yaxın Şərq mənşəyini aydın göstərir. Suriyada istehsal edilən şüşə məmulatı Atropatenaya, oradan da Qafqaz Albaniyasına gətirilirdi. Aşkar edilən şüşə məmulatı ticarət mübadiləsinə maddi sübutdur və Ön Şərq ilə antik Albaniya arasında ticarət əlaqələrinin olduğunu aydın göstərir.

Ticarət və mübadilədə olan əşyalar arasında əksəriyyəti Mingəçevirdə, Xınıslıda, Torpaqqalada, Gəncədə və Azərbaycanın digər yerlərində arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş qliptika məmulatı da vardır. Bunlar qədim zamanlarda geniş ərazidə yayılmış gemma-intaliyadır. Azərbaycanın antik intaliyaları oval şəklindədir, çoxunun diametri 1 santimetrə yaxındır (yəni bunlar bir qəpiklik sikkədən iri deyildir), qiymətli daşlardan, başlıca olaraq müxtəlif rəngli və çalarlı xalsedondan hazırlanmışdır; tünd və açıq-qəhvəyi rəng üstünlük təşkil edir, tünd-qırmızı, sarımtıl-qırmızı, qırmızı və digər rənglərə də təsadüf edilir. Tünd-göy, sarı, sarı-qızılı və tünd-qəhvəyi rəngli şüşə litiklərə də rast gəlinir. Tapılmış intaliyaların böyük bir hissəsi ilkin xüsusiyyətlərini və cazibədarlığını saxlamışdır. Xalsedon intaliyalarda və şüşə litiklərdə adətən antik panteonun allahları və ya ilahələri (Mars, Helios, Afrodita, Erot), münbitlik rəmzləri (yetişmiş xaşxaşın çiçəyi və sünbül), dəbilqəli, nizəli-qalxanlı döyüşçü, habelə üzbəüz dayanıb əllərini göyə qaldırmış qəhrəmanlar təsvir edilmişdir. İntaliyalarda heyvan rəsmləri də vardır. Açıq qəhvəyi rəngli gemmaların birində qurbangahın və alov dillərinin bir qədər sxematik, lakin aydın təsviri verilmiş, çiy kərpic qəbirdən tapılan litikdə isə həmrəylik rəmzi sayılan əlsıxma məqamı təsvir olunmuşdur.

Üzərində insan, quş, heyvan təsvirləri, nəbati naxışlar oyulmuş gemmalar, habelə qaytan keçirmək üçün deşiyi olan çoxüzlü möhürlər, bullalar diqqəti cəlb edir. Məmulatın əksəriyyəti qəbirlərdən tapılmışdır ki, bu da onların tarixinin müəyyən edilməsini asanlaşdırır. Qədim Albaniyada antik intaliyaların meydana gəlməsini haqlı olaraq romalıların Qafqaza yürüşləri ilə əlaqələndirirlər: eramızdan əvvəl I əsrdə antik dünyanın məmulatı buraya sel kimi axıb gəlmişdi.

Eramızdan əvvəl III-I əsrlərə aid tapıntılar arasında qazıntılar zamanı aşkar edilən, bullalar düzəltmək üçün hazırlanan, bərkimiş gil parçaları, habelə bullalar diqqəti cəlb edir. Bullalarla lülələnmiş vacib kağızları və yük taylarını möhürləyirdilər. Belə quru gil parçalarında yayvarı xətlər də nəzərə çarpır. Maraqlıdır ki, bullaların xeyli hissəsi



downloaded from KitabYurdu.az

gətirilmə üzük-möhürlərlə möhürlənmişdir. Bullalar sübut edir ki, antik Albaniyada intaliyalar yalnız bəzək və həmail deyil, həm də möhür, yəni mülkiyyət nişanı idi.

Gemmaların əksəriyyəti Yunanıstan-Roma ellərindən gətirilirdi. Lakin gemmaların bir qismi Yunanıstan-Roma mədəniyyətinin təsiri altında olan yerli oymaçı ustaların əlinin məhsuludur. Qafqaz Albaniyasına Roma intaliyalarının gəlib çıxması ilk növbədə ticarət münasibətlərinin inkişafı ilə izah olunur. Tacirlər əmtəə dövriyyəsinin geniş miqyas almasına kömək edirdilər, bunun nəticəsində digər zərgərlik məhsulları kimi, Roma gemmaları da eramızdan əvvəl bütün I əsr ərzində ölkədə yayılmağa başlamışdı.

Zərgərlik məhsullarının əksəriyyəti qədim Qafqaz Albaniyasında istehsal olunurdu. Lakin gətirilmə məmulata da təsadüf edilir. Məsələn, Yaloylutəpə tipli torpaq qəbirlərdən və Mingəçevirin katakomba qəbirlərindən saf qızıldan hazırlanmış ayparaşəkilli sırğalar tapılmışdır. halqanın mərkəzində piramida şəklində düzülən buğda dənəsi boyda dörd kürəcik lehimlənmişdir. Msxetilə, Qarnilə və Dura-Yevroposda antik dövr üçün səciyyəvi olan gümüş sırğalar tapılmışdır. Bu cür sırğalar Qafqaz Albaniyasının ərazisinə Roma ilə ticarət nəticəsində gəlib çıxmışdır.

Arxeoloji qazıntılar zamanı eramızdan əvvəl son əsrlərə - eramızın ilk əsrlərinə aid olan, yerli məhsul olmayan gümüş, tunc və dəmir toqqalar tapılmışdır. Bu toqqalar qismən Qalliya-Roma mənşəli gətirilmə toqqalardır. Toqqalar Albaniyaya Qara dənizin şimal sahillərində yerləşən şəhərlərdən gəlib çıxmışdı. Çoxlu gətirilmə muncuq aşkar edilmişdir. Məsələn, Yaloylutəpə tipli torpaq qəbirdən formaca liranı xatırladan sədəf muncuqlar tapılmışdır. Çəkilmiş şaquli cızıq muncuqların səthini 2 hissəyə ayırır: muncuğun hər iki hissəsində kiçik oyuqlar olan dairəciklər yerləşdirilmişdir. Bu muncuqlar qədim dövrdə Aralıq dənizi ölkələri üçün səciyyəvi olmuşdur. Mingəçevir küp qəbirlərindən xeyli hissəsi idxal edilən ən böyük miqdarda muncuqlar tapılmışdır. Maraqlıdır ki, Kür çayından şimalda torpaq qəbirlərdən çıxan muncuqların əsas tiplərinə sağ sahildə olan küp qəbirlərdə də rast gəlinir. Lakin Mingəçevirin e.ə. II-I əsrlərə aid küp qəbirlərində aşkar edilən muncuqların əsas tiplərinə torpaq qəbirlərdə təsadüf olunmur. Əcnəbi muncuqlar Mingəçevirə Qara dəniz sahillərindən, Yaloylutəpəyə isə Suriyadan gəlib çıxmışdır. Mingəçevirə və Xınıslıya Misir həmailləri: girdə muncuqlar, amforaşəkilli asma bəzəklər, açılmış əl şəklində bəzək şeyləri, balasını bağrına basan ilahə heykəlciyi gəlirdi. Suriyadan ala-bəzək muncuqlar və başqa bəzəklər gətirirdilər. Müxtəlif formalı şüşə muncuqlar, pastadan və qiymətli daşlardan düzəldilən muncuqlar Finikiyanın Tir və Sidon şəhərlərindən gətirilirdi. Misirdən cürbəcür bəzək şeyləri, o cümlədən skarabeylər daxil olurdu. Skarabeylərin vətəni Misirdir. Skarabeylər Misir ayinləri ilə birlikdə yalnız Romada deyil, imperiyanın hüdudlarından kənarda da Yaxın Şərq ölkələrinə, o cümlədən qədim Qafqaza qədər yayılırdı. Bunlar digər mədəniyyət əşyaları ilə yanaşı, qədim Qafqaz Albaniyasına da gəlib çatırdı.



downloaded from KitabYurdu.az

Misir məmulatı sübut edir ki, Zaqafqaziyanı Ön Qafqaz, Dəryal və Dərbənd keçidləri ilə əlaqələndirən qədim ticarət arteriyaları Roma dövründə əhəmiyyətini itirməmişdi və sarmatlar aləmi bunların vasitəsilə İberiya və Qafqaz Albaniyası ilə əlaqə saxlayırdı. Skarabeylərin aşkar olunması bir daha sübut edir ki, bu ərazinin əhalisi Misir pastasından məmulat istehsalının uzaq mərkəzləri - Navkratis və Aleksandriya şəhərləri ilə ticarət və mədəni əlaqələr saxlayırdı. Kütləvi səciyyə daşıyan materialdan əlavə, ayrı-ayrı əşyalar da əlaqələrdən xəbər verir. Qədim Qafqaz Albaniyasının keramika məmulatı arasında oxşarı olmayan amfora bu baxımdan maraqlıdır. Qab Gəncə yaxınlığında çiy kərpic qəbirlərin birindən tapılmışdır. Şirlidir, cəng layı altında parıltısını itirmiş açıq mavi-yaşıl rəngdədir.

Azərbaycanın Laçın rayonunun Zerta (Qara kaha) kəndi yaxınlığında tapılmış tunc çırağı da xaricdən gətirilən əşyalar sırasına aid etmək lazımdır. Çırağın üstündə ağzını açmış sağqallı-bığlı maska təsvir edilmişdir. Uzunsov iri gözlərin üstündə qalın çatma qaşlar yerləşir. Belə çıraqlara Romada təsadüf edilir və bunlar I əsrin ikinci yarısı və II əsrin birinci yarısı ilə əlaqələndirilir. Çıraqda təsvir edilmiş maskanın stilinin təhlili diqqəti Roma imperiyasının Şərq əyalətlərinə, daha doğrusu Suriyaya yönəldir. Suriyada istehsal edilmiş tunc çıraq qədim Qafqaz Albaniyasına, ola bilsin ki, XII Fulminata legionu senturiyasının romalı döyüşçüləri tərəfindən gətirilmiş və ya buraya I əsrin axırlarında - II əsrin əvvəllərində xarici tacirlərlə qədim Albaniya əhalisi arasında ticarət mübadiləsi nəticəsində gəlib çıxmışdır. Bununla əlaqədar olaraq, antik dövrün Qəbələdən tapılmış qapaqlı tunc çırağı nəzəri cəlb edir. Belə çıraqların Misirdə və İtaliyada aşkar edilmiş nümunələri Britaniya muzeyində saxlanılır.

Azərbaycan ərazisində aşkara çıxarılan gümüş piyalə gətirilmə əşyalar sırasına aiddir. Piyalənin dibi dörd cüt ortaq mərkəzli dairəvi şırımla naxışlanmışdır. I-III əsrlərə aid edilən, halqa ayaqcığı olan başqa bir piyalə Mingəçevirin taxta qutu qəbrindən tapılmışdır. Bu iki piyalədə Romanın təsiri duyulur. Mingəçevirin III sol sahil məskənində aşkara çıxarılmış bərnişəkilli gümüş cam diqqəti cəlb edir. Belə qablar Roma torevtikasında məşhurdur. Mingəçevirin III sol sahil məskənində aşkar edilmiş, tənək yarpaqları və üzüm salxımları şəklində naxışları olan gümüş cam yüksək bədii keyfiyyəti ilə fərqlənir. Halqaşəkilli alçaq oturacağı olan bu omfallı cam Armazisxevilə İberiya pitiaxşlarının sərdabələrindən birinin I-II əsrlərə aid gümüş camı ilə müqayisə edilə bilər. Bir qədər sonra Rustov kəndi yaxınlığında eramızın I-II əsrlərinin torpaq qəbirlərindən başqa bir gümüş piyalə tapılmışdır. Gümüş piyalələrin forma, ölçü və dekorativ tərtibat xüsusiyyətləri onları Romadan idxal olunan əşyalar sırasına aid etməyə imkan verir. Qaraməryəm küp qəbrindən tapılmış başqa bir gümüş piyalə də hellinizm tipli qablar sırasına aiddir. Torpaqqala (Alazan) katakomba qəbrində aşkar edilən, halqa şəklində geniş oturacağı olan qapaqlı, nazik divarlı gümüş vaza xaricdən gətirilən məmulatlar sırasına aiddir. Vazanın dibində zərli medalyon üzərində qaçan maral və başı üzərində uçan qrifon təsvir edilmişdir. Vaza Romanın özündə, ya da



downloaded from KitabYurdu.az

əyalətlərində geniş yayılmış qabları xatırladır. İçində Nereidanın - dəniz pərisinin təsviri olan dövrə ölkənin geniş ticarət əlaqələrinə dəlalət edən mədəniyyət əşyalarındandır. Dövrə kübarlar cəmiyyətində məişətdə işlədilən qab kimi, ya əcnəbi tacirlərin hədiyyəsi kimi qiymətləndirilir.

Beləliklə, xaricdən gətirilən əşyalar sırasına şüşə məmulat sikkələrin və gemmaların böyük bir qismi, kauri çanaqları, bəzi muncuq növləri və skarabeylər, habelə tunc çıraq və gümüş dövrələr aiddir. Azərbaycanda aşkar edilən əcnəbi əşyaların bir çoxu açıq-aşkar həm Qərb, həm də Şərq arealı ilə, o cümlədən Parfiya ilə bağlıdır. Uzaq və yaxın ölkələrlə ticarət əlaqələri başlıca olaraq Parfiya dövlətinin magistralları vasitəsilə həyata keçirilir və bu magistrallar Albaniyanı antik dövrün ən iri mərkəzlərinin nüfuz dairəsinə daxil edirdi.

Qonşu ölkələrlə ticarət münasibətlərinin artması sikkə tədavülünə gətirib çıxarırdı. Azərbaycanın bütün ərazisində - Mingəçevirdə, Bərdədə, Füzulidə, Çuxuryurdda, Yaloylutəpədə, Kür, Araz, Gəncəçay və başqa çayların sahilləri boyunca yerləşən ərazidə arxeoloji qazıntılar zamanı çoxlu sikkə aşkar edilmişdir. Sikkələr həm küp qəbirlərdə, katakomba qəbirlərdə, torpaq qəbirlərdə və digər qəbirlərdə, həm də ayrıca dəfinələr şəklində bir neçə ədəddən bir neçə yüz ədədə qədər tapılmışdır.

**Pul tədavülü.** Albaniya dövləti yaranana qədər Azərbaycanda ticarət uzun müddət sadə əmtəə mübadiləsi formasında aparılmışdır. Başqa ölkələrdə olduğu kimi, burada da tədricən pul funksiyasını yerinə yetirən, başqa əmtəələr üçün dəyər ekvivalenti olan əmtəələr meydana gəlmişdir. Qədim Albaniyada sikkə zərb olunanadək ümumi ekvivalent funksiyasını kauri balıqqulağı, mal-qara, metal külçələri və başqa mallar yerinə yetirirdi.

Uzun müddət elmdə belə bir fikir hökm sürürdü ki, albanlarda pul tədavülü olmamışdır. Bu rəyi söyləyənlər Strabonun sözlərinə istinad edirdilər: "Onlarda (albanlarda) adətən zərb edilmiş sikkə işlənmir, onlar 100-dən o yana say bilmədiklərindən ancaq mübadilə ticarəti ilə məşğul olurlar". Lakin Azərbaycanda tapılan çoxlu numizmatik materiallar və bu materialların öyrənilməsi göstərdi ki, Albaniyada pul tədavülü, görünür, e.ə. IV əsrin axırlarında - III əsrin əvvəllərində başlanmışdır. Tapıntılar əsasında antik dövrdə Albaniyanın pul tədavülünü iki tarixi mərhələyə bölmək olar. Birinci mərhələ hellinizm dövrünü, yəni e.ə. IV əsrin axırlarından e.ə. I əsrin ortalarına qədərki dövrü, ikinci mərhələ isə e.ə. I əsrin ortalarından eramızın III əsrinin ortalarına qədər olan dövrü əhatə edir. Hellinizm dövrünə aid Azərbaycanda bir neçə pul dəfinəsi tapılmışdır. Bunlardan biri Bərdə dəfinəsidir. Dəfinə Makedoniyalı Aleksandrın, Selevki hökmdarlarının sikkələrindən ibarətdir. Şamaxı yaxınlığında Xınıslı kəndinin ətrafında tapılan dəfinə daha böyük olmuşdur. Bu dəfinədən 300-dən çox sikkə toplamaq mümkün olmuşdur. Dəfinədəki gümüş sikkələr arasında Afinanın, Frakiya çarı Lisimaxın (e.ə. 323-281-ci illər), Vifiniya çarları I Nikomedin (e.ə. 149-91-ci illər) və II Nikomedin (e.ə. 91-74-cü illər), Pont çarı VI Mitridat Evpatorun (e.ə. 114-63-cü



downloaded from KitabYurdu.az

illər) tetradraxmaları, e.ə. 175-ci ildən 83-cü ilədək hökmranlıq etmiş Selevki çarlarının tetradraxmaları, e.ə. 80-ci illərdə kəsilmiş Roma denarisi və nəhayət, 70-dən çox yerli sikkə vardır. Bu dəfinə e.ə. 60-50-ci illərdə basdırılmışdır.

Sikkələrin həm tərkibi, həm də miqdarı cəhətdən hellinizm dövrünün ən zəngin dəfinəsi Azərbaycan Respublikasının Qəbələ rayonunda Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhəri xarabalığının yaxınlığında tapılmışdır. Burada 700-dən artıq gümüş sikkə toplamaq mümkün olmuşdur. Dəfinə kənardan gətirilmə və yerli sikkələrdən ibarətdir. Dəfinənin ən qədim gətirilmə sikkələri Makedoniyalı Aleksandrın draxmaları və Frakiya çarı Lisimaxın tetradraxmalarıdır. Həmin sikkələr uzun müddət istifadə olunduğundan çox sürtülmüşdür. Gətirilmə sikkələrin böyük əksəriyyəti e.ə. 187-ci ildən 129-cu ilədək hakimiyyət başında olmuş Selevki hökmdarlarının tetradraxmalarıdır. Dəfinədə o dövrdə hökmranlıq etmiş bütün Selevki padşahlarının sikkələri vardır.

Dəfinədə Parfiya sikkələri bir neçə draxma ilə təmsil olunmuşdur. Bunlar əsasən Parfiyanın ilk sikkələrindən ibarətdir. Dəfinənin tərkibində beş ədəd yunan-Baktriya tetradraxmasının olması xüsusi maraq doğurur. Bu tetradraxmalar Zaqafqaziya ərazisində nadir tapıntılardır. Tetradraxmalardan biri Yunan-Baktriya çarlığının banisi I Diodota məxsusdur və e.ə. 250-247-ci illərdə kəsilmişdir, qalanları isə Evkraditin (e.ə. 169-159-cu illər) adından zərb edilmişdir.

Bu dəfinənin ən böyük qismi yerli bənzətmə sikkələrdən ibarətdir. Üç tetradraxma Selevki sikkələrinə, qalanları (500-dən çox sikkə) isə Makedoniyalı Aleksandrın tetradraxmalarına və drahmalarına bənzətmədir. Dəfinə eramızdan əvvəl II əsrin iyirminci illərində basdırılmışdır.

Azərbaycanda hellinizm dövrünə aid başqa bir dəfinə Ağsu rayonunun Nüydü kəndinin yaxınlığında torpaq qəbrindən tapılmışdır. Dəfinə Makedoniyalı Aleksandrın draxmalarına bənzədilmiş 36 ədəd yerli sikkədən ibarətdir.

Cənubi Dağıstanın Qasımkənd rayonundakı Gərayxanov adına sovxozun yaxınlığında tapılmış Selevki hökmdarlarının bir neçə mis sikkələrindən ibarət dəfinə çox maraqlıdır.

Yuxarıda adları çəkilən dəfinələrlə yanaşı, arxeoloji qazıntılar zamanı tarixi Albaniyanın ərazisində hellinizm dövrü sikkələrinin ayrı-ayrı nümunələri də tapılmışdır. Bu tapıntılar başlıca olaraq Parfiya çarlarının draxmalarından və Makedoniyalı Aleksandrın draxmalarına bənzədilən yerli sikkələrdən ibarətdir. Onlar arxeoloji qazıntılar zamanı Şamaxı şəhəri yaxınlığındakı Xınıslıda, Qəbələ zonasında və Nüydü qəbiristanından tapılmışdır.

Azərbaycanda tapılan Ermənistan sikkələri II Tiqranın iki sikkəsi ilə təmsil olunmuşdur. Bunlar Mingəçevir küp qəbirlərinin birindən Roma respublika denariləri ilə birlikdə tapılmışdır.

Beləliklə, tapıntılar əsasında aydınlaşır ki, Albaniya ərazisində geniş yayılmış ən qədim sikkələr Makedoniyalı Aleksandrın və Lisimaxın sikkələri olmuşdur.



downloaded from KitabYurdu.az

Görünür, məhz bu zamandan Albaniyada pul tədavülü üçün əlverişli şərait yaranmışdı. Bu da başlıca olaraq ölkənin daxili sosial-iqtisadi inkişafından, beynəlxalq ticarətin genişlənməsindən irəli gəlirdi. Lakin gətirilmə sikkələr ölkənin daxili bazarının daim artan tələbatını tam ödəyə bilmirdi. Buna görə də Albaniyada yerli sikkələrin kəsilməsinə ehtiyac yarandı. Beləliklə, yeni yaranmış Albaniya dövləti tipinə görə Makedoniyalı Aleksandrın geniş yayılmış məşhur tetradraxma və draxmalarına bənzəyən öz pulunu kəsməyə başladı.

Yerli sikkələr iki nominalla - tetradraxma və draxmalarla təmsil edilmişdir. İndiyədək cəmi dörd tetradraxma məlumdur. Bunlar Qəbələ dəfinəsinin tərkibində aşkara çıxarılmış və bir cüt möhürlə zərb edilmişdir. Makedoniyalı Aleksandrın sikkələri kimi, bu tetradraxmaların da üz tərəfində şir dərisi geymiş Heraklın başı təsvir olunur. Təsvir nöqtələrdən ibarət dairəvi haşiyəyə alınmışdır. Sikkələrin arxa tərəfində Zevs təsvir edilmişdir. O, taxta əyləşmiş, qartal tutan sağ əlini qabağa uzatmış, sol əli ilə skipetrə söykənmişdir. Sağda yazıya bənzər cizgilər vardır. Sikkələrin orta çəkisi 15,31 qramdır. Bu sikkələr Makedoniyalı Aleksandrın sikkələrindən yalnız bir qədər kobudluqları ilə fərqlənir. Bununla belə, nəzərə çarpır ki, ilk vaxtlar yerli zərbxanalarda Makedoniyalı Aleksandrın sikkələrinin surətini mümkün qədər dəqiq çıxartmağa çalışmışlar. Bu meyil drahmalarda da müşahidə olunur.

Tədricən sikkələrin tipləri daha böyük dəyişikliklərə uğramışdır. Üz tərəfində sağa baxan insan başı təsvir olunur. Təsvirlərin yalnız çöhrəsi aydın görünür. Lakin zənlə baxanda gözə dəyir ki, başda dəbilqə vardır. Dəbilqələr formaca müxtəlifdir. Güman etmək olar ki, sikkələrdə Albaniya çarının şərti təsviri verilmişdir. Başda dəbilqənin olması Albaniyada çar hakimiyyətinin "hərbi xarakterinin" rəmzi kimi qəbul oluna bilər. Məlum olduğu kimi, hellinizm monarxiyalarında çar öz ölkəsinin ordusunun baş komandanı sayılırdı. Pompeyin yürüşü zamanı Albaniya çarı Oroys da öz qoşununun başında durmuşdu.

Makedoniyalı Aleksandrın sikkələrində olduğu kimi, yerli bənzətmə sikkələrin də arxa üzündə taxtda əyləşən Zevs təsvir edilmişdir, lakin təsvir bir qədər kobuddur. Yalnız bəzi sikkələrdə taxtın ayaqları izlənir. Görünür, zərb ustaları möhürlərdə xırda detalları verməyə həmişə müvəffəq olmamışlar, söykənəcək və qoltuqaltı sxematik verilmişdir. Fiqurun sağ qolunun üstündə quş oturmuşdur, sol əli isə skipetrə söykənmişdir.

Təsvirlər sxematik verildiyindən quşun cinsini müəyyənləşdirmək çətindir. Yəqin ki, ustalar Makedoniyalı Aleksandrın sikkələrində olduğu kimi, Zevsin atributlarından biri sayılan qartalın təsvirini vermək istəmişlər. Bəzi sikkələrdə quş şanapipiyi xatırladır.

Maraqlıdır ki, sikkələrin bir qrupunda taxta əyləşmiş fiqur sağ əlində quş əvəzinə keçi tutmuşdur, fiqurun özünün başında isə bir buynuzvarı çıxıntı vardır.



downloaded from KitabYurdu.az

Sikkələrin hamısı dəyirmi olub bir üzləri çökək, digər üzləri qabarıqdır. Bu da hellinizm dövrünün bütün sikkələrinin səciyyəvi xüsusiyyətidir.

Qəbələ dəfinəsinin tədqiqi müəyyən etməyə imkan verir ki, Albaniyanın sikkə ustaları əvvəllər gətirilmə orijinalların dəqiq surətini çıxartmağa çalışırlar. Sonralar sikkə tipləri tədricən pisləşirdi. Sikkənin ümumi tipinə yeni ünsürlər artırırdılar; məsələn, sikkənin qabaq üzündə başa dəbilqə qoyur, arxa üzündə isə sxematik təsvir olunan taxta əyləşmiş Zevs əlində bəzən qartal əvəzinə naməlum quş və ya hətta keçi tutmuşdur. Xeyli korlanmış olan ən axırıncı sikkələr e.ə. I əsrin 2-ci rübünə aid edilən Xınıslı dəfinəsinin tərkibində tapılmışdır. Bu sikkələrin tipləri çox sxematik, relyefi yüksək olmadığından təsvirlər çətinliklə seçilir. Xınıslı, Qəbələ, Nüydü dəfinələri sübut edir ki, e.ə. I əsrin ortalarına yaxın yerli sikkələr xeyli korlanmış və təsvirlər təhrif edilib tanınmaz şəklə salınmışdı. Lakin bütün bunlara baxmayaraq, sikkələrin tipləri Makedoniyalı Aleksandrın sikkələrinin tipləri ilə öz genetik əlaqəsini saxlamışdır.

Bu sikkələrin yalnız Azərbaycanda aşkar edilməsi (tarixi Albaniya ərazisinin hüdudlarından kənarda hələlik ancaq Artaşatda bircə ədəd belə sikkə tapılmışdır), onların üslubi xüsusiyyətləri, tiplərin bəzi əlamətləri, habelə ümumi möhürlərlə zərb edilmiş çoxlu sikkələr bunların Albaniyanın yerli məhsulları olmasına şübhə yeri qoymur.

İndiyədək bu sikkələr hellinizm dövrü dəfinələrində və arxeoloji qazıntılar zamanı e.ə. I əsrin ortalarından əvvələ aid yaşayış yerlərinin təbəqələrində və qəbir abidələrində tapılmışdır. Bu sikkələrin tiplərinin üslubi təhlili, qazıntıların stratiqrafiyası, habelə bəzi başqa məlumatlar əsasında onların zərb edilməsinə nə vaxtdan başlandığını müəyyənləşdirmək mümkündür. Ehtimal ki, Albaniyada bu sikkələrin zərb edilməsinə Makedoniyalı Aleksandrın sikkələri bir çox ölkələrdə geniş yayıldığı dövrdə başlanılmışdı.

Makedoniyalı Aleksandrın Şərq yürüşündən sonra beynəlxalq ticarət üçün əlverişli şərait yaranmışdı; yeni-yeni ölkələr, o cümlədən Albaniya beynəlxalq ticarətə qoşulurdu. Ticarətin və pul tədavülünün intensiv inkişafı üçün çoxlu sikkə tələb olunurdu. Gətirilmə sikkələr daxili bazarın getdikcə artan ehtiyacını daha ödəyə bilmirdi və Albaniya dövləti gətirilmə nümunələr əsasında öz sikkələrini kəsməyə başladı. Makedoniyalı Aleksandrın sikkələrinin kəsilməsi onun ölümündən sonra da bir müddət davam etmişdir. Lakin artıq e.ə. III əsrin 80-ci illərindən hellinist dövlətlərin hökmdarları sikkələrini öz adlarından, seçdikləri tiplərlə zərb etdirmişlər. Bu vaxtdan da Albaniyaya xaricdən Makedoniyalı Aleksandrın sikkələrinin axını dayandı. Yerli bazar isə bu pula öyrəşmişdi. Bazarın vərdiş etdiyi bu pula ehtiyacını ödəmək üçün Albaniyada həmin sikkələrə bənzər sikkələr zərb etməyə başladılar. Beləliklə, şübhə etmədən demək olar ki, Albaniyada həmin bənzətmə sikkələrin kəsilməsinə hələ e.ə. III əsrin birinci yarısında başlanılmışdı, çünki sonralar



downloaded from KitabYurdu.az

başlansaydı, Aleksandrın sikkələrinə deyil, başqa sikkələrə, məsələn, o zaman Albaniyaya geniş bir axınla gələn Selevki sikkələrinə bənzətmələr daha təbii olardı.

Albaniyanın bu ilk sikkələri üzərində aparılan müşahidələr belə düşünməyə əsas verir ki, hamısı bir zərbxanada kəsilmişdir. Güman edilir ki, bu zərbxana antik dövrdə Albaniyanın baş şəhəri sayılan Qəbələdə olmuşdur.

Tarixi Albaniyanın ərazisində bu sikkələrin çox miqdarda iri dəfinələr şəklində aşkar edilməsi və onun hüdudlarından kənarda belə dəfinələrin olmaması güman etməyə əsas verir ki, sikkələr daxili bazar üçün nəzərdə tutulmuşdu. Onların kəsilməsinə nə vaxtdan xitam verilməsi dəqiq müəyyənləşdirilməmişdir. Ola bilsin ki, bu sikkələrin buraxılışı e.ə. I əsrin ortalarında dayandırılmışdır. Hər halda sonralara aid edilən təbəqələrdə və komplekslərdə bu cür sikkələr tapılmamışdır. Güman etmək olar ki, bu tip sikkə buraxılışının dayandırılması Pompeyin Zaqafqaziyaya yürüşü nəticəsində Zaqafqaziyanın Roma dövlətinin nüfuz dairəsinə daxil olduqdan sonra yaranmış siyasi vəziyyətlə bağlıdır.

E.ə. I əsrin ortalarından etibarən Albaniya bazarlarında gətirilmə sikkələrə Roma sikkələri də qoşulmuşdu. Roma sikkələri xüsusən Mingəçevirdə, Bərdədə, Beyləqan rayonundakı Təzəkənd xarabalığında, Gəncə şəhərinin, Şamaxının yaxınlığında və Qəbələdə tapılmışdır. Bunlar Mingəçevirdə, e.ə. I - eramızın III əsrinə aid qəbirlərdə xüsusilə çox aşkar edilmişdir. Eramızdan əvvəl I əsrin sonunda - eramızın I əsrinin başlanğıcında Avqust denariləri Zaqafqaziyada geniş yayılmışdı. Albaniya ərazisində sayca da bu sikkələr digər Roma sikkələrindən çoxdur. Avqust denarisinin tək-tək nümunələrinə Albaniyanın hər yerində rast gəlinir. Təzəkənd xarabalığında 12 ədəd Avqust denarisindən ibarət kiçik dəfinə tapılmışdır. Eramızın I əsrinin birinci yarısında Avqust sikkələri Qərbdə İspaniyadan Şərqdə Hindistana qədər çox böyük bir ərazidə geniş yayılmışdı. Avqust sikkələri çox uzun bir müddət ərzində pul tədavülündə qüvvədə qalmışdı; qonşu Gürcüstanda hətta eramızın II-III əsrlərində də həmin sikkələrin aşkar edilməsi buna sübutdur. Reversində (arxa üzündə) Qay və Lusinin təsviri verilmiş Avqust denarilərinin geniş yayılması bir çox ölkələrdə bunlara bənzədilən sikkələr kəsilməsinə səbəb olurdu. Zaqafqaziya dəfinələrinin öyrənilməsi güman etməyə imkan verir ki, bu sikkələrə bənzədilən sikkələr İberiyada da kəsilirmiş.

Avqustdan sonra hökmranlıq etmiş imperatorların kəsdirdiyi Roma sikkələrindən Albaniya ərazisində tək-tək nümunələr tapılmışdır. Lakin Roma sikkələri bütün tarixi Albaniya ərazisində yayılsalar da, Azərbaycan Respublikasının az qala bütün rayonlarında antik dövrə aid abidələrin arxeoloji qazıntıları zamanı rast gəlinsələr də, Albaniya bazarlarında işlənən gətirilmə pullar arasında say üstünlüyünə malik olmamışlar.

Eramızdan əvvəl I əsrdə və eramızın ilk əsrlərində Albaniyanın pul tədavülündə üstün rolu Parfiya sikkələri oynayırdı. Arxeoloji qazıntılar zamanı Parfiya sikkələrinə qədim Albaniya ərazisinin hər yerində rast gəlinir. Bunların arasında Parfiyanın demək olar ki, bütün çarlarının sikkələri vardır. Qotars (eramızın 41-52-ci illəri) sikkələri daha tez-tez



downloaded from KitabYurdu.az

aşkar edilir. Bunlar çox uzun bir müddət ərzində Albaniyanın pul tədavülündə qüvvədə olmuşdur. Məsələn, Əli-Bayramlı rayonunun Xersonovka kəndində tapılmış 109 Arşaki sikkəsindən ibarət dəfinə eramızın II əsrinin sonlarında basdırılmış olsa da, Qotars draxmaları bu dəfinədə böyük əksəriyyət təşkil edir. Qəbələdə aşkar edilmiş bir dəfinənin tərkibində Otonun (eramızın 69-cu ili), Vespasianın (69-79-cu illər), Trayanın (98-117-ci illər) və Hadrianın (117-138-ci illər) Roma denariləri ilə birlikdə Qotars draxması tapılmışdır. Bu dəfinə III əsrin sonlarında basdırılmışdır, çünki onun sikkələrinin böyük əksəriyyəti Sasani çarı II Varaxranın (276-293-cü illər) draxmalarından ibarətdir.

224-cü ildə Parfiya dövləti süqut etdi, lakin onun xarabalıqları üzərində Sasanilər imperiyası bərqərar olub möhkəmləndi. Beləliklə, Albaniya bazarlarına Arşaki sikkələrinin axını kəsildi. Albaniya tədricən Sasanilər imperiyasının təsiri altına düşdü. III əsrin ortalarından Albaniya bazarlarına güclü axınla gələn Sasani sikkələri Arşaki və Roma sikkələrini əvəz etdi.

**Şəhərlər və başqa məskənlər.** Antik dövr Albaniyasının ərazisi çoxsaylı məskənlərlə sıx-sıx örtülmüşdü. Qədim müəlliflərdən bizə otuzdan artıq nisbətən iri və məşhur şəhərin, habelə başqa məskənlərin adları gəlib çatmışdır.

Antik Albaniyada şəhərlərin meydana gəlməsi ölkənin çoxəsrlik sosial-iqtisadi, siyasi və mədəni inkişafının nəticəsi idi. Bu mürəkkəb proses alban cəmiyyətinin ümumi inkişafı ilə sıx bağlı idi və onun əmlak və sosial cəhətdən parçalanmasından, cəmiyyətdə gedən sinfi təbəqələşmədən, dövlət institutlarının təşəkkülündən irəli gəlirdi. Eramızdan əvvəl birinci minilliyin ikinci yarısında və eramızın ilk əsrlərində Albaniya oturaq əkinçilik-maldarlıq təsərrüfatının kifayət dərəcədə inkişaf etdiyi bir ölkə idi. Sənətkarlıq da yüksək inkişaf səviyyəsinə çatmışdı; burada artıq geniş bir əmək bölgüsü, dar ixtisaslaşma və standartlaşdırma, yəni əmtəə istehsalının əlamətləri vardı.

Qəbələdə tapılan, üstündə möhür izləri və qaytan qırıqları olan onlarla bullalar hellinizm zamanından başlayaraq Albaniyanın iqtisadi həyatının yüksək səviyyəsinə çox mühüm bir sübutdur. Qəbələdə bullalar düzəltmək üçün hazırlanmış xammalın aşkar edilməsi böyük əhəmiyyət kəsb edir.

Albaniyanın iqtisadi inkişafının arxeoloji materiallarla əsaslandırılan kifayət qədər yüksək səviyyəsi yazılı mənbələrlə də təsdiq olunur.

Bizə məlumdur ki, hellinizm dövrünün Albaniyasında azad əhali, yoxsullar və əyanlar, Kiçik Asiyanın və Ermənistanın məbəd birliklərinə çox bənzəyən məbəd vilayəti, habelə məbəd qulları və kahinləri olmuşdur. Albaniyanın öz çarları, qoşunu, zərbxanası var idi. Bütün bunlar Albaniyada şəhərlərin və şəhər həyatının meydana gəlməsinə və inkişafına səbəb olmuşdu.

Göstərilən proses üçün müqəddəm şərtlər əsrlər boyu, hələ ibtidai icma quruluşunun bətnində yaranmışdı. Şəhərlərin meydana gəlməsi isə ibtidai icma quruluşunun tamamilə parçalanması və dağılması demək idi. Şəhərlər dövlətin yaranması



downloaded from KitabYurdu.az

ilə bir vaxtda meydana gəlir. Şəhərin kənddən ayrılması barbarlıqdan sivilizasiyaya, tayfa quruluşundan dövlətə keçid ilə birlikdə başlanır. Şəhərlə birlikdə hakimiyyət orqanları, polis, vergilər və i.a. meydana gəlir. Əhalinin iki böyük sinfə bölünməsi - bilavasitə əmək bölgüsünə və istehsal alətlərinə əsaslanan bölgü özünü ilk dəfə burada göstərmişdir.

Ticarət yollarının üstündə yerləşən, sosial-iqtisadi cəhətdən inkişaf etmiş alban məskənlərinin tədricən şəhərlərə çevrilməsi prosesi eramızdan əvvəl I minilliyin ikinci yarısının əvvəlinə aid edilməlidir.

Qədim dövrün başqa şəhərləri kimi, Qafqaz Albaniyasının şəhərləri də onları əhatə edən əkinçi icmaları ilə ən sıx şəkildə bağlı idilər.

Azərbaycan və Dağıstan ərazisində arxeoloji qazıntılar zamanı antik dövrdə, mövcud olmuş şəhər tipli məskənlər aşkara çıxarılmışdır. Bunlar Qəbələ (Çuxur-Qəbələ, Çaqqallı, Seyidtala, Uzuntala), İsmayıllı (Mollaisaqlı, Şıxdərə Kəlləsi, Qalagah), Ağsu (Nüydü düzü), Qax (Torpaqqala), Qazax (Sarıtəpə), Şamaxı, Beyləqan (Təzəkənd, Qaratəpə) rayonlarında, Mingəçevir zonasında, Dağıstanda (Turpaqqala, Urseki, Tarki, Dərbənd) və başqa yerlərdə qazıntı nəticəsində aşkar edilmiş məskənlərdir.

Ptolemey antik dövr Albaniyasının şəhərlərindən və digər məskənlərindən danışarkən bildirir: "Soana çayı mənsəbinin arxasında Telayba şəhəridir; Gerr çayının mənsəbi Gelda şəhəridir: Kaysiya çayının mənsəbi Albana şəhəridir; Albana çayının mənsəbi Qaytara şəhəridir; onun ardınca Kir çayının mənsəbidir.

Qafqazdan [axıb gələn] və Kirə tökülən, - o Kirə ki, bütün İberiyadan və Albaniyadan keçərək Ermənistanı onlardan ayırdı, çay ilə İberiya arasındakı Albaniya şəhərləri və kəndləri: Taqoda, Bakxiya, Sanua, Deqlana, Niqa.

Adı çəkilən, Qafqazdan axıb gələn çayla Albana çayı arasında: Moseqa, Samunis, İobula, İuna, Embolayon, Albana, Mamexiya, Osika, Sioda, Baruka...

Albana çayı ilə Kaysi çayı arasında: Xabala, Xabota, Boziata, Misiya, Xadaka, Alam.

Kaysi çayı ilə Kerr çayı arasında: Tiauna, Tabilaka.

Gerr çayı ilə Soana çayı arasında isə: Tilbis".

Söz yox ki, yuxarıda verilən siyahıda toponimlərin yazılışında xətalar və ya hətta səhvlər olmamış deyildir. Bunların bəziləri, şübhəsiz, Ptolemey məxəzindən gəlir və ya onun əlində olan əsərdə coğrafiyaşünas tərəfindən düz oxunmamasının nəticəsidir.

Ptolemeyin siyahısında dəqiq müəyyənləşdirilmiş, şəkk-şübhə doğurmayan yeganə şəhər Xabaladır. Ptolemeydən bir neçə onillik əvvəl Böyük Plini antik ədəbiyyatda ilk dəfə olaraq özünün "Təbii tarix" əsərində onun adını çəkmiş və şəhəri Kabalaka adlandırmışdı. Görünür, Plini bu ada eramızdan əvvəl II-I əsrlərdə yaşayan Roma müəllifi Varronda rast gəlmişdi.



downloaded from KitabYurdu.az

Qəbələnin meydana gəldiyi və inkişaf etdiyi vilayət Qəbələ rayonundan Balakən rayonuna qədər uzanan ərazini, habelə Şərqi Gürcüstanın bir hissəsini əhatə edən öndağ və dağ zolağı - tarixi Albaniyanın ən maraqlı zonalarından biridir və artıq eramızdan əvvəl son əsrlərdə bu zona ölkənin siyasi, iqtisadi və mədəni cəhətdən öncül rayonuna çevrilmişdi.

Qəbirlərdən anlaşıldığına görə, eramızın hüdudunda və ilk əsrlərində Qax rayonunda ehtimal ki, bir neçə məskən olmuşdur. Lakin, təəssüf ki, burada qazıntı işləri yalnız Torpaqqalada, antik dövrün sonlarında meydana gələn məskəndə aparılmışdır.

Müasir Şəki rayonunda antik dövr məskənlərinin mövcud olduğunu güman etməyə əsas vardır. Qeyd etmək maraqsız olmaz ki, Şəki yaxınlığındakı Böyük Dəhnə kəndinin həndəvərində I-II əsrlərə aid yunan kitabəsi aşkar edilmişdir. Böyük Dəhnə kəndinin bir neçə on kilometrliyində, Qəbələ rayonunun Nic kəndi yaxınlığında da üzərində yunan yazıları olan kərpiclər tapılmışdır.

Böyük Dəhnə kitabəsində bir neçə işarə, deyəsən, sarmat işarəsidir. Üstəlik, kitabədə Evnonun adı həkk edilmişdir ki, bu da sarmat tayfası olan, Cənub ölkələri ilə ticarəti əllərində saxlayan aorsların çarının adının eynidir.

Antik dövrdə Qəbələ rayonu zonasında da məskənlər az olmamışdır. Bunlar ilk növbədə Seyidtala (Kiçik Pirelli kəndinin 5 kilometrliyində) və Uzuntala (Seyidtalanın 1,5 kilometrliyində) yaxınlığında olan məskənlərdir. Uzuntalada ağac sütun üçün daş bünövrə aşkar edilmişdir ki, bu da Qəbələdə, Təzəkənddə və başqa yerlərdə tapılmış bünövrələrin eynidir. Deməli, qədim zamanlarda bu yerlərdə monumental binalar olmuşdur. Seyidtalada aparılan arxeoloji kəşfiyyatlar nəticəsində məskənin mədəni təbəqəsində Yaloylutəpə keramik məmulatlarına çox yaxın olan xeyli keramik məmulat, monumental tikintidən xəbər verən xeyli miqdarda kirəmit aşkar edilmişdir ki, bu da kənd tipli məskən üçün səciyyəvi sayıla bilməz. Zonanın məskənlərindən biri eramızdan əvvəlki son əsrlərdə bütün ölkənin paytaxtına çevrilməyə başlamışdı. Eramızdan əvvəl I minilliyin son sülsünün, hər halda son çərəyinin başlanğıcından gec olmayaraq ölkə artıq vahid bir çarın hakimiyyəti altında birləşmişdi. Həmin məskən antik ədəbiyyatda ilk dəfə I əsrdə Böyük Plini tərəfindən Kabalaka formasında adı çəkilən Qəbələ idi. Böyük Plini yazırdı: "Bu şəhərlər birinci yerdə dururlar (ən mühüm şəhərlərdir, başqalarından üstündürlər): Albaniyada - Kabalaka...". Görünür, "birinci yerdə dururlar" (praevalent) ifadəsi burada heç olmazsa siyasi, hərbi-strateji, ola bilsin ki, həm də iqtisadi hegemonluq kimi başa düşülməlidir.

Plini Qəbələdən danışarkən "oppidum": terminini işlədir ki, bu da adətən "istehkam", "möhkəmləndirilmiş yer" kimi tərcümə edilir. Buna görə şübhə yoxdur ki, o zaman Qəbələ möhkəmləndirilmiş şəhər, möhtəşəm xarabalıqları bizim günlərə qədər gəlib çatan bir qala idi.



downloaded from KitabYurdu.az

Ehtimal ki, Qəbələ hələ eramızın ərəfəsində Romada Qafqaz Albaniyasının baş şəhəri - paytaxtı kimi məlum idi. Təsadüfi deyildir ki, Plini yalnız bu şəhərin adını çəkir və onu ən mühüm şəhər, birinci yerdə duran şəhər hesab edir. Qəbələnin xarabalıqları indiki Qəbələ rayonunda, Çuxur-Qəbələ kəndindən şərqdə, Qaraçay (Qəbələçay) ilə Courlucay (Qalaçay) arasındakı təpədə və bitişik ərazilərdə yerləşir. 50-ci illərin axırlarından Qəbələ zonasında arxeoloji ekspedisiya fəaliyyət göstərməyə başlamış və Qafqaz Albaniyasının çox böyük əhəmiyyətə malik olan bu abidəsinin ciddi surətdə öyrənilməsinin təməlini qoymuşdur. Şəhər xarabalığının öz ərazisi 25 hektardır. Şimal hissəsi Səlbir, cənub hissəsi Qala adlanır. Bəzən iki hissəsinə birlikdə "Qala-Səlbir", "Govurqala" deyirlər, bəzən isə yalnız cənub hissəsini (Qalanı) "Govurqala" adlandırırlar.

Şəhərin xarabalıqlarından 3-4 kilometr cənub-şərqdə, Gülli tala (Gülli qoruq) və ya Çaqqallı adlanan zonada qədim şəhərin daha bir hissəsi üzə çıxarılmışdır. İş əsnasında şəhərin sonradan meydana gəlmiş hissələrini də müəyyən etmək mümkün olmuşdur. Bunlar Kamaltəpə, Bayır şəhər və Sənətkarlar məhəlləsidir. Qəbələ xarabalığının yaxınlığında öz qəbiristanları ilə birlikdə Seyidtala, Uzuntala, Qafarlı, Qaratəpə kimi qədim məskənlər qeydə alınmışdır. Çox ehtimal ki, vaxtilə məhz bunlar birlikdə Qəbələ şəhəri kompleksini əmələ gətirirdi.

Möhkəm və əzəmətli divarlarla əhatə olunmuş Səlbir və Qala əraziləri şəhərin əsas hissəsini, onun içqalasını təşkil edirdi. Qalan hissələr şəhər divarlarından bayırda yerləşir.

Qəbələnin Güllitala (Çaqqallı) hissəsi şəhərin çox mühüm rayonudur. Antik dövrün eramızdan əvvəl son əsrləri və eramızın lap başlanğıcını əhatə edən mədəni layları burada tunc dövrünün üstədir (eramızdan əvvəl III minilliyin ikinci yarısı).

Çaqqallının hələ erkən təbəqəsində (eramızdan əvvəl son əsrlər) monumental tikintidən soraq verən keramit və kalipterlər aşkar edilmişdir.

Antik təbəqədə binaların bir çox qalıqları - çaydaşından tikilmiş bünövrələr, çiy kərpicdən inşa edilmiş divarların hissələri üzə çıxarılmış, habelə böyük, ola bilər ki, ictimai bir bina kompleksi aşkar edilmişdir. Elə burada sütunlar üçün daş bazalar da tapılmışdır.

Erkən təbəqədə müxtəlif gil qablar, məişətdə istifadə olunan quyular, kömürləşmiş buğda və arpa dənələri, heyvan sümüklərinin qalıqları, əmək alətləri, gətirilmə şüşə qabların sınıqları, müxtəlif bəzək şeyləri və s. qalmışdır.

Üstündə möhür şəkli olan bullalar, bunlar üçün xammal və şəhərin Çaqqallı rayonunun həyatından xəbər verən bir çox başqa əşyalar aşkar edilmişdir.

Çaqqallıda abidələrin nə vaxtdan mövcud olması və məqsədi məsələsi ətrafında iki rəy vardır. Bəziləri belə hesab edirlər ki, vaxtilə burada şəhərin məbədlər və ticarət hissəsi yerləşirmiş. Bu fərziyyəyə görə, Çaqqallıda həyat eramızdan xeyli əvvəl başlanmış və eramızın bütün birinci minilliyi ərzində davam etmişdir. İkinci rəyin tərəfdarları



downloaded from KitabYurdu.az

Çaqqallı abidəsinə eramızdan əvvəl IV əsrdə -eramızın I əsrində mövcud olmuş şəhərin qədim hissəsinin xarabalıqları kimi baxmağa meyil edirlər.

Yuxarıda deyildiyi kimi, Səlbir və Qala, görünür, Qəbələnin içqalası olmuşdur.

Səlbirdə qala, divarlarının ümumi uzunluğu 1400 metrdən çoxdur. Burada 10 Bürcün qalıqları aşkar edilmişdir.

Qalanı cənubdan əhatə edən beş yarımdairəvi bürcün və qala divarlarının yerüstü hissələri nisbətən pis qalmamışdır. Bürclərin salamat qalmış hissələrinin hündürlüyü 5-12 m, divarlarının qalınlığı 5 m, daxili diametri 5 m, yarımdairənin xarici xətti isə 27 metrdir. Qala divarları qalıqlarının hündürlüyü 3-7 metrə, qalınlığı isə 5 metrə çatır. Bürclərin və divarların özülləri yonulmuş düzbucaq formalı əhəngdaşından qoyulmuş, yuxarı hissəsi isə bişmiş kərpicdən tikilmişdir. Hörgüdə əhəng məhlulu işlədilmişdir.

Cənub hissəsi istisna edilməklə qala divarları ərazinin təbii şəraitinə uyğun surətdə tikilmişdir.

Səlbirdə aparılan qazıntılar mədəni təbəqənin aşağı horizontlarında kəsişən divarların qalıqlarını və böyük miqdarda iri damüstü kirəmit aşkara çıxarmışdır. Qəbələdə ən qədim ev olan bir yaşayış evinin divarının qalıqları tapılmışdır. Evin divarı gil məhlulla çaydaşından hörülmüşdür. Elə burada rast gələn kirəmitin ölçüləri və çəkisi göstərir ki, qədim şəhərin binaları çox əzəmətli, görkəmli və möhkəm olmuşdur. Bu, qəbələlilərin inşaatçılıq məharətinin yüksək olduğunu da göstərir.

Antik dövrün damüstü kirəmiti ilk dəfə Qəbələnin yaxınlığında - Çaqqallıda və Seyidtalada tapılmışdır və e.ə. II əsr - eramızın I əsrinə aid edilir.

Son vaxtlar Səlbirdə yaşayış binasının bünövrə qalıqlarının içərisində aşkar edilən təknə qəbir (e.ə. I əsr - eramızın I əsri) şəhərin erkən tikinti horizontunu eramızdan əvvələ aid etməyə imkan verir.

Səlbirdə tapılan və Qəbələnin qədim dövrünə aid olan arxeoloji materialın əsas qismi keramik qabların parçalarından ibarətdir. Bunlar qara, çəhrayı və qırmızı rəngli bardaqlar, təkayaq və üçayaq vazalar, südqabılar, müxtəlif başqa qablar və sairədir. Bardaqlardan birinin boğazı yunan əlifbasının bəzi hərflərini xatırladan işarələrlə örtülmüşdür.

Mədəni təbəqənin erkən alt horizontlarında Yaloylutəpə qablarının tam eyni olan böyük miqdarda qablar aşkar edilməsi e.ə. III-I əsrlərdə Qəbələdə həyatın zənginliyinə sübutdur. O zaman Qəbələni dövrələyən qala divarlarının mövcudluğu onu şəhər hesab etməyə imkan verən əsas dəlillərdən biridir.

Qalada antik dövrün mədəni təbəqəsinin aşkar edilməsi, həmin təbəqədə şərab anbarı, kübar adama məxsus böyük məqbərə, bulla tapılması, Bayır şəhərin yaxınlığında küp qəbirlərdən ibarət qəbiristanın, Çaqqallıda antik mədəni təbəqənin və qəbiristanın, Seyidtalada, Uzuntalada, Tərkəşdə, Qaratəpədə antik dövr məskənlərinin və qəbiristanlarının mövcud olması Qəbələdə və Qəbələ mahalında sosial-iqtisadi və mədəni həyat haqqında biliyimizi xeyli genişləndirmişdir.



downloaded from KitabYurdu.az

Qazıntılar zamanı tapılan dulus sobalarının qalıqları, dəmir kotanlar, dən daşı, həvənglər, meyvə tumları, taxılı, meyvə və şərab saxlamaq üçün küplər, çoxlu miqdarda müxtəlif keramik qab-qacaq, davar və qaramal sümükləri, çoxlu bəzək şeyləri, dəmir silah (ox və nizə ucluqları, bıçaqlar, xəncərlər), qədim sikkələr, bullalar, maddi mədəniyyətin digər qalıqları təsdiq edir ki, əkinçilik, heyvandarlıq, bağçılıq, sənətkarlıq və ticarət antik dövrdə Qəbələ şəhərinin təsərrüfat həyatında mühüm yer tuturdu. Qəbələdə yəqin ki, həm çiy, həm də bişmiş kərpic və xüsusilə kirəmit kəsən emalatxanalar olmuşdur. Dulusçunun və ya dulusçuluq emalatxanası sahibinin şəxsi nişanı - girdə damğa vurulmuş kirəmit bizə gəlib çatmışdır. Qonşu vilayətlərdə olduğu kimi, Albaniyada, xüsusən Qəbələdə də erkən hellinizm dövründə başlanmış kirəmit istehsalı, güman ki, şəhər sənətkarlarının mühüm sahəsi idi. Müəyyən edilmişdir ki, tikintidə daşdan və çiy kərpicdən başqa müxtəlif ölçülü bişmiş kərpic də işlədilirdi.

Antik Qəbələdə tikinti işlərinin miqyası elə idi ki, orada bazar üçün işləyən daşyonanların, dülgərlərin və başqa sənətkarların emalatxanaları olmalı idi. Dediklərimiz ilk növbədə dulusçuluq məmulatına - qab-qacağa aiddir.

Sikkə dəfinələri, bullalar, habelə Qəbələdən keçən karvan yollarının izləri göstərir ki, e.ə. III əsr - eramızın III əsri ərzində Qəbələ Qərb və Şərqin bir çox ölkələri ilə, xüsusən Roma, Parfiya və Sasani imperiyalarına daxil olan vilayətlərlə geniş ticarət əlaqələri saxlayırdı.

Qəbələnin həndəvərində aşkar edilmiş antik qəbiristanlar, xüsusilə Səlbir ərazisində aşağı mədəni təbəqənin altından tapılmış qəbirlər qədim Qəbələ əhalisinin ictimai-iqtisadi həyatını və mənəvi mədəniyyətini, xüsusən dini baxışlarını, dəfn mərasimlərini öyrənməyə imkan vermişdir.

Beləliklə, antik dövr Qəbələsi intensiv surətdə tikilib qurulan müxtəlif ictimai, inzibati binaları, emalatxanaları, bazarları, zərbxanası olan, ticarəti və pul tədavülü inkişaf etmiş iri şəhər idi. Qəbələ əhalisi qarışıq etnik tərkibə malik idi, onlar müxtəlif peşələrlə - ticarət, sənət və əkinçiliklə məşğul olurdu. Qəbələ gənc Albaniya çarlığının mühüm strateji, siyasi-inzibati, ticarət-sənət ayin-mədəniyyət mərkəzi, 26 alban tayfasını birləşdirmiş Albaniya hökmdarının paytaxtı idi.

Həmin zona Azərbaycan Respublikasının Balakən, Zaqatala, Qax, Şəki rayonlarını, qismən Oğuz və Mingəçevir rayonlarını və Gürcüstanın Laqodexi rayonunu əhatə edir. Bu, Ptolemeyin Albaniya xəritəsindəki ikinci zonaya müvafiq gəlir; qədim yunan astronomu və coğrafiyaşünası adı çəkilən xəritədə 12 yaşayış məntəqəsi yerləşdirir. Yaşayış məntəqələri təxminən belə lokallaşdırılır: Moseqa (Zaqatala yaxınlığındakı müasir Masexi), İobula (Qax yaxınlığındakı müasir Əlibəyli), İuna (Şəki yaxınlığındakı Ciuta uyğun gəlir), Albana (ehtimal ki, Əyriçay sisteminin ən şərq qolunun "dirsəyi" yaxınlığında olan müasir Əliyar//Əbliyardır), Mamexiya (çox güman ki, Mal(l)exiyadır, Oğuzdan cənubda yerləşən Malıx kəndinin adına müvafiq gəlir), Qaytara (görünür, Qaytavrdır, Mingəçevir adının ondan əmələ gəlməsi demək olar ki, şəksizdir), Sioda



downloaded from KitabYurdu.az

(müəyyənləşdirilmir), Adiabla (ola bilsin ki, Zaqataladan təqribən 15 kilometr cənubda yerləşən Əliabadın adı onun adından götürülmüşdür), Osika (müasir Şəki), Baruka (daha doğrusu, Baruda - Vartaşen - müasir Oğuz), Samunis (daha doğrusu, Samuxis, müasir Samux), Embolayya (görünür, Eblaya, müasir Yevlax).

Oğuz rayonunun şərq hissəsi və Qəbələ rayonu Ptolemey xəritəsinin üçüncü zonasına müvafiq gəlir. Burada aşağıdakılar lokallaşdırılır: Xabala, Xadaxa, Xabota (ola bilsin, Oğuz rayonunun indiki Xaçmaz kəndidir), Misiya (görünür, Niziyadır, ola bilsin indiki Nic kəndidir), Alam (ola bilsin, Göyçayın qərb qolunun sahilində yerləşən müasir Zalam kəndidir), Ablana (ola bilsin, Nic ilə Zalam arasında yerləşən müasir Ərəb kəndidir), Boziata (ol bilsin, müasir Vardanlı kəndi rayonundadır)[12].

Çox ehtimal ki, şəhərlərin və şəhər həyatının meydana gəlməsinin mühüm ocaqlarından biri Muğan olmuşdur. Eramızdan əvvəl I minilliyin çoxsaylı qəbirləri və nəhəng suvarma qurğuları bunu sübut edir.

Mil-Qarabağ zonasında aparılmış arxeoloji tədqiqatlar belə bir nəticəyə gəlməyə imkan verir ki, eramızdan əvvəl I minilliyin ikinci yarısında burada çiy kərpicdən əsaslı binalar tikilməsi ilə səciyyələnən daimi oturaq xarakterli məskənlər olmuşdur. Beyləqan rayonunda Təzəkənd yaxınlığında olan kompleks Mil düzündə son dərəcə mühüm bir abidədir və ona şəhər tipli məskənin qalıqları kimi baxmaq olar.

Örənqala (Beyləkan - Paytakaran) xarabalığının 7-8 kilometrliyində yerləşən Təzəkənd arxeoloji kompleksi bir-birindən təqribən 700 metr aralı olan, xəndəklərlə dövrələnmiş iki düzbucaqlı təpə ilə təmsil edilmişdir. Onların arasında bir neçə kiçik təpəcik vardır.

Böyük təpənin şərq küncündə küp qəbirlər zamanından qalma keramika, ətəyində isə küp qəbirin qalıqları aşkar edilmişdir. Burada gümüş sikkələrdən ibarət kiçik bir dəfinə, xüsusən imperator Avqustun denariləri və ağac sütunlar üçün üç daş baza da tapılmışdır. Bu bazaların xronoloji hüdudları eramızdan əvvəl I əsr ilə eramızın IV əsri arasındadır. Bu cür bazalar Dvində, Ulya-Noraşendə, Boyəhmədlidə (Ağdam yaxınlığında) və başqa yerlərdə aşkar edilmişdir. Sütunların daş bazaları qədim dövrdə böyük Təzəkənd təpəsində məbəd və ya saray xarakterli iri tikili olduğunu təsdiq etməyə əsas verir. Bütün kompleks isə sübut edir ki, eramızın başlanğıcında burada çox böyük bir məskən mövcud olmuşdur; həmin məskən VI əsrdə Örənqala xarabalığının indi olduğu yerə - orta əsrlərdə Beyləqan adlanan yerə köçürülmüşdü ki, bu da qədim Paytakaran ilə eyniləşdirilir.

---

[12] Məntəqələrin lokallaşdırılması və adların müəyyənləşdirilməsi S.N.Muravyov tərəfindən təklif edilmişdir.



downloaded from KitabYurdu.az

Paytakaran (Beyləqan) şəhəri ilk orta əsr qaynaqlarının da Paytakaran adlandırdığı və Arazın aşağı axarının hər iki sahilində yerləşdirdiyi vilayətdə idi. Strabona əsasən, bu rayonun əhalisi kaspilər, adı Kaspiana idi.

Örənqala xarabalığından 4 kilometr şimal-qərbdə yerləşən Qaratəpə eramızdan əvvəl I minilliyin ortalarında Mil düzündə meydana gələn və çiy kərpicdən tikilmiş iri binaları ilə səciyyələnən bir məskəndir.

Təpənin birinci mədəni təbəqəsi eramızdan əvvəl VII-VI əsrlərə aiddir və sübut edir ki, skif yürüşləri dövründə yaxud bilavasitə onlardan sonra bu ərazidə, çox güman ki, yerli əkinçi-maldar əhaliyə məxsus daimi məskənlər olmuşdur. Əşya materialı - keramika, dən daşları, nehrələr və i.a. buna sübutdur.

Qaratəpədə birinci mədəni təbəqənin birbaşa davamı olan ikinci mədəni təbəqə eramızdan əvvəl I minilliyin ikinci yarısına (V-I əsrlərə) aiddir. Birinci təbəqədə olduğu kimi, ikinci təbəqədə də tikinti qalıqları aşkar edilmişdir. Burada tikinti qalıqları birinci mədəni təbəqədəkindən xeyli çoxdur. Çiy kərpicdən hörülmüş çoxlu divarlar təmizləndikdə məlum olmuşdur ki, bunlar bir sıra düzbucaqlı binalar əmələ gətirir və binaların xeyli hissəsinin döşəməsi gil məhlulu ilə şirələnmişdir.

Binalarda ocaqlar aşkar edilmişdir. Məskənin ikinci təbəqəsinin ərazisində təsərrüfat və zibil quyuları tapılmışdır. Ümumiyyətlə, bütün təbəqə çox böyük miqdarda arxeoloji materialla zəngindir. Burada çoxlu dən daşı, nehrə və başqa kənd təsərrüfatı avadanlığı, xeyli miqdarda ev heyvanları sür-sümüyü, əsasən qoyun-keçi sümükləri, eramızdan əvvəl VI-I əsrlərə aid edilən Cəfərxan, Yaloylutəpə, Mingəçevir keramikasına bənzər çoxlu müxtəlif keramika üzə çıxarılmışdır. Keramik material arasında ən mühüm tapıntılar Əhəmənilər zamanının metal piyalələrinə bənzədilən gil piyalələrdir; bunlar sənətkarların estetik zövqləri haqqında, həm də ikinci mədəni təbəqənin erkən horizontunun nə vaxt mövcud olması haqqında mühakimə yürütməyə imkan verir.

Beyləqan rayonu ilə qonşu olan Füzuli rayonunda, Füzuli şəhərinin şimal ucqarında Quruçay ilə Köndələnçay arasında Qaraköpəktəpə abidəsi tədqiq edilmişdir. Bura böyük bir məskəndir; tapılmış tikili qalıqları, məişət və digər əşyalar vaxt etibarilə eneolitdən başlanıb orta əsrlərlə qurtaran dövrlərə aiddir. İlk orta əsrlər təbəqəsinin altında yerləşən, qalınlığı iki metrdən çox olan təbəqə bünövrəsi çaydaşından qoyulan dördkünc tikililərlə, ocaqlar, təsərrüfat küpləri və i.a. ilə səciyyələnir. Məhz bu təbəqə antik dövrə aiddir. Mədəni təbəqədə çoxlu keramika, dən daşları və i.a. aşkara çıxarılmışdır. Bu material, xüsusilə küp qəbirlər dövrü ilə bağlı olan, Mingəçevirdə və Mil-Qarabağ düzündə nümunələri tapılan açıq rəngli naxışlı keramika qəlpələri Qaraköpəktəpə məskəninin antik təbəqəsini eramızdan əvvəl V-II əsrlərə aid etməyə imkan verir. Maraqlıdır ki, məskənin yaxınlığında küp qəbirlər qəbiristanı aşkar edilmişdir.



downloaded from KitabYurdu.az

Mirzəcamal kəndi yaxınlığında üzə çıxarılmış materiallar - iri tikililərin qalıqları, çoxlu damüstü kirəmit parçaları, sütunlar üçün daş bazalar, o cümlədən üzərində Sasanilər dövrü damğa - möhürünün izləri olan baza Qaraköpəktəpədə şəhər həyatının olmasından xəbər verir.

Kiçik Qafqaz silsiləsinin şərq yamacları zonasında - Füzuli rayonundan başlanıb Qazax-Ağstafa rayonu ilə qurtaran olduqca böyük bir zolaqda antik dövr abidələri çox azdır. Burada, utilər və ya vitilər yaşayan Utiya vilayətində, Strabonun məlumatından göründüyü kimi, iki şəhər olmuşdur: "...deyirlər... aynianlar Utiyada hasarlı şəhər salmışlar, o şəhərin adı Aynianadır, deyirlər, burada yunan silahı, mis qablar və qəbirlər göstərirlər; burada Anariaka şəhəri də vardır, o şəhərdə, deyirlər, yatanların qeybdən xəbər verən məbədini göstərirlər".

Strabonun informatorlarına görə, Ayniana şəhəri hasarlarla möhkəmləndirilmişdi və hansısa qablar hazırlayan ustaları ilə məşhur idi. Bundan əlavə, şəhərdə guya hansısa sərdabələr vardı və bunlar əcnəbilərin diqqətini cəlb edirdi.

Anariaka şəhəri haqqında Strabonun məlumatı şəhərdə orakul (qeybdən xəbər verən kahin) olması ilə əlaqədar böyük maraq doğurur. Anariakanı, şübhəsiz, anariaklarla əlaqələndirmək lazımdır. Antik müəlliflərdən Polibi, Strabon və Plini anariakları tayfa kimi tanıyırlar. Strabon onların adını üç dəfə çəkir: mardlar və hirkanlılar ilə bir sırada, utilər ilə bir sırada və amardlar, kadusilər, albanlar, kaspilər və utilər ilə birlikdə.

Qazax şəhərinin yaxınlığında, Albaniyanın Qardman vilayətinin Sarıtəpədəki məskəni son dərəcə maraqlıdır. Ehtimal var ki, Albaniyanın Strabon deyən məbəd vilayəti burada yerləşirmiş. Sarıtəpədə ən erkən təbəqə eramızdan əvvəl I minilliyin ilk əsrlərinə aiddir.

Məskənin sonra gələn horizontu Əhəmənilər zamanına aiddir. Qazıntılar iki tikilinin divar qalıqlarından və bünövrəsindən ibarət çox maraqlı bir memarlıq kompleksi aşkara çıxarmışdır. Böyük binadan yeddi otağın uçuqları qalmışdır, otaqlardan biri öz ölçüsünə və sahmanına görə zalı xatırladır. Bu əzəmətli tikilini təqribən bir metr enində keçidlərlə bir-biri ilə birləşən otaqlar üç tərəfdən əhatə edirdi. Binanı əhatə edən bayır tikilidən 13 otaq qalmışdır.

Hamısı çiy kərpicdən tikilmiş, bünövrələri gil məhlulu ilə çaydaşından hörülmüşdür. Divarları samanlı gil məhlulu ilə suvanmış və sonralar üstdən gipslə ağardılmışdır.

Beləliklə, eramızdan əvvəl I minilliyin ortalarında və ikinci yarısında Sarıtəpədə şəhər tipli son dərəcə mühüm bir məskən olmuşdu; bu məskənin əhəmiyyəti xeyli dərəcədə bir də ondan irəli gəlirdi ki, qədim magistral yolların ayrıcında əlverişli mövqe tutduğuna və yaxşı kommunikasiyalara malik olduğuna görə ticarətdə də mühüm rol oynayırdı.

Azərbaycanın müasir Qazax rayonu Tovuz, Şəmkir, Xanlar rayonları ilə, habelə Gürcüstanın Siteli-Skaro, Siqnaxi, Qurjaani və Telavi rayonları ilə birlikdə Ptolemey



downloaded from KitabYurdu.az

xəritəsində birinci zona adlanan zonaya, yəni ərazisində aşağıdakı alban məskənləri olan zonaya daxildir: Bakxiya (görünür, Bakriyadır; Qurcaani-Siqnaxi yolunun üstündə yerləşən müasir Bakursixe və ya Bakir məntəqələri ilə müqayisə edilir), Sanua (görünür, Sanoradır; Siqnaxiləri bir neçə kilometr şərqdə yerləşən Snori stansiyası ilə eyniləşdirir), Deqlane (ehtimal ki, Dziqaanedir, onu müasir Çuqaani ilə, Snoridən cənub-şərqdə, demək olar, onunla yan-yana olan məntəqə ilə müqayisə etməmək çətindir), Niqa (görünür, Naqadır, yəqin ki, Snoridən və Caqaanidən cənub-şərqdə, Tibaani yaxınlığında olan [Dzveli] Anaqaya uyğun gəlir).

Mingəçevir şəhəri zonasında (ehtimal edildiyinə görə, onun adı Qaytara [lakin Qaytavra daha doğrudur] şəhərinin adında qismən əks etdirilmişdir, o, udincə (albanca) kes-İr (-İx) "daş divarlar", "Min isə ola bilsin, udincə marurn (qara) mənasını ifadə edə bilərdi) eramızdan əvvəl I minilliyin qəbiristanları aşkar olunmuşdur; bunlar burada həyatın çox intensiv cərəyan etdiyini göstərir, həmin ərazidə iri məskənlərin olması haqqında məlumat verir. Hellinizm zamanında Kaspi dənizindən gələn ticarət-tranzit yolu onun içərisindən keçib "Albaniyaya, Kir çayından və sonra gələn ərazilərdən keçib... Evksin Pontuna" (Strabon) gedirdi. Burada Kür çayında məşhur bərə vardı. Ptolemeyin adını çəkdiyi Xadaka şəhəri burada yerləşirdi; ola bilsin ki, onu Kandak və ya Kanda ticarət məntəqəsi (indiki Kandak kəndi) ilə eyniləşdirmək lazımdır.

Mingəçevir zonasında Kürün həm sağ, həm də sol sahilində yerləşən bir neçə məskən üzə çıxarılmış və öyrənilmişdir. 1 nömrəli məskənin son təbəqəsi eramızdan əvvəl VII-I əsrlərə aid olan müəyyən qədər material vermişdir. Bu məskən çox böyük bir sahəni tutur. Burada binaların, təsərrüfat quyularının, dulus kürələrinin, əmək alətlərinin qalıqları, keramika parçaları, heyvan və balıq sümükləri aşkar edilmişdir.

2 və 3 nömrəli məskənlərdə eramızın başlanğıcına aid təbəqələr vardır. Lakin yaxınlıqda yerləşən və daha erkən vaxtlara aid edilən qəbiristan göstərir ki, buralarda antik dövr qəsəbəsi olmuşdur. Onun haqqında çoxlu dulus kürələrindən əlavə, qəbir materialları əsasında da mühakimə yürütmək olar; qəbir materialları isə əmtəə istehsalının əlamətlərindən, sənət məmulatlarının kütləvi xarakterindən, sənətkarların dar ixtisaslarından, yalnız icma üçün deyil, həm də bazar üçün işləyən istehsalın standartlaşdırılmasından xəbər verir.

Maraqlıdır ki, Mingəçevirdə eramızın ilk üç-dörd əsrinə aid katakomba qəbirlərdən xeyli miqdarda gətirmə məmulat tapılmışdır. Mina ilə bəzədilmiş gözəl tunc fibulalar II-III əsrlərdə bütün Roma dünyasında və onun hüdudlarından kənarda geniş yayılmış Qalliya-Roma minalı fibulalar qrupuna aiddir.

Bunlar Mingəçevirə, görünür, Şimali Qafqazdan, oraya isə Qara dəniz sahillərindəki antik şəhərlərdən gəlib çıxmışdır.

Mingəçevirdə çoxlu Misir muncuqları, Suriya şüşə məmulatı və digər şüşə məmulatı tapılmışdır.



downloaded from KitabYurdu.az

Bu arxeoloji materiallar Mingəçevir zonası sakinlərinin şəhər həyatının səviyyəsindən, onların geniş ticarət-iqtisadiyyat əlaqələrindən xəbər verir.

Böyük Qafqaz silsiləsi cənub yamaclarının şərq hissəsi - İsmayıllı, Ağsu və Şamaxı rayonları boyunca respublikanın ərazisi antik dövr abidələri ilə çox zəngindir. Bu, ehtimal ki, Ptolemeyin Albaniya xəritəsində dördüncü və beşinci zonalarıdır. İsmayıllı rayonunun ərazisində eramızdan əvvəl son əsrlərə - eramızın ilk əsrlərinə aid olan bir neçə məskən və qəbiristan üzə çıxarılmışdır. Qəbiristanların ərazisi çox böyükdür. Mollaisaqlı, Qalagah, Şıxdərə Kəlləsi, Şəkili (Vəng), Hacıhətəmli, Gənzə Tircan, Pirəbilqasım, Talıstan və başqa kəndlərin yaxınlığında aşkar edilmiş abidələr bu baxımdan xüsusi yer tutur.

Mollaisaqlı zonasında antik dövrün zəngin abidələri çoxdur. Məsələn, kəndin qərb ucqarında antik məskənin qalıqları vardır, döşəməsi bir lay gillə örtülmüş dördkünc otaqların çaydaşından hörülmüş bünövrələri, çiy kərpiclər, içərisində hörmə çubuqlar olaq suvaq parçaları, ağac şalbanların izləri, Yaloylutəpə məmulatına yaxın olan qab-qacaq, antropomorf heykəlciklər, zoomorf fiqurlar üzə çıxarılmışdır. Təsərrüfat quyusu aşkar edilmişdir, kül layı, kömür xəkələri, heyvan sümükləri tapılmışdır. Bu məskəni eramızdan əvvəl IV əsrə - eramızın I əsrinə aid etmək olar. Məskəndən cənub-şərqdə, qəbiristanlıqda torpaq və küp qəbirlərdən başqa, təknə qəbirlər (gil sarkofaqlar) üzə çıxarılmışdır. Maraqlıdır ki, təknə qəbirlər mədəniyyətinin daşıyıcılarına aid olan bəzək şeyləri arasında gil qolbaqlar və muncuqlar tapılmışdır. Yüksək keyfiyyətli keramik məmulat, antropomorf heykəlciklər xüsusilə cazibədardır. Mollaisaqlı kəndinin 4-5 kilometrliyində, Şıxdərə Kəlləsi adlanan yerdə də maraqlı materiallar aşkar edilmişdir.

Məskənin ərazisində ən müxtəlif keramik məmulatdan ibarət çoxlu material toplanmışdır. Bunların arasında qırmızı-sarı, boz və qara rəngli ayaqlı vazalar, qapaqlı iri küplər, qab-qacaq, qövsvari çənbəri olan səhənglər üstünlük təşkil edir. Əmək alətləri - çoxlu dən daşları, dəstəciklər və s. də vardır.

Damüstü kirəmit parçaları, içərisində hörmə çubuqlar olan suvaq parçalar, keramik məmulat, təsərrüfat küpləri, dən daşlarının qırıqları, heyvan fiqurları tapılmışdır. Bəzək-düzəyi yaxşı nəzərə çarpan yəhərlənmiş at fiqurunu xüsusi qeyd etmək lazımdır. Şıxdərə Kəlləsindəki bu məskənin erkən təbəqələrini eramızdan əvvəl I əsr - eramızın I əsrinə aid etmək olar.

Mollaisaqlı kəndindən 7 kilometr şimal-şərqdə olan Qalagah kəndinin ucqarında aşkar edilmiş məskən üç tərəfdən dərin dərələrlə əhatə olunan, şimaldan isə süni xəndəklə qorunan uca yaylada yerləşir. Burada yaşayış evlərinin qalıqları, gil məmulat parçaları, dən daşları, əl dəyirmanlarının daşları, heyvan fiqurları, antropomorf heykəlciklər, təsərrüfat küpləri, şərab çəkmək prosesi ilə bağlı daş qablar qalmışdır. Yaşayış evləri tikintisində çaydaşlarından, çiy kərpicdən, ağacdan və qamışdan geniş istifadə olunmuşdur. Qalagah kəndindən 3 kilometr cənubda, böyük



downloaded from KitabYurdu.az

təbii təpələrin ətəyində, Qışlaq adlanan yerdə daha bir məskən aşkar edilmişdir. Burada gil qabların parçaları, əmək alətləri, çay daşından hörülmüş divar bünövrələrinin qalıqları, planda dördkünc olan yaşayış evlərinin salamat qalmış hissələri, çoxlu məişət qalıqları tapılmışdır.

Bu yaxınlarda İsmayıllı rayonunda daha bir neçə məskən üzə çıxarılmışdır. Bunlar Şəkili məskəni (Qalagahın 10-12 kilometrliyində, Vəng kəndi yaxınlığında), Gəncə yaxınlığında (Girdimançayın sol sahilində), Tircan yaxınlığında (Girdimançayın sağ sahilində) olan və s. məskənlərdir.

Ağsu rayonunun ərazisində də antik dövrün bir çox abidələri üzə çıxarılmışdır.

Nüydü kəndi rayonu xüsusi maraq doğurur. Kəndin qərb qurtaracağında Nüydü düzündə çoxlu qəbirdən və zəngin məişət avadalığından əlavə, antik dövr məskəninin qalıqları da aşkar edilmişdir. Məskən uca yaylada qərar tutmuş, dərin dərələrlə və sıx meşəli təpələrlə dövrələnmişdir. Burada çoxlu bulaqlar, xüsusən mineral su qaynaqları vardır. Mədəni təbəqə eramızın lap başlanğıcına aid edilə bilər. Çay daşından tikilmiş binaların bünövrələri salamat qalmışdır; bu binaların arakəsmələri hörmə çubuqlardan düzəldilib gil ilə suvanmışdır. Təsərrüfat və məişət qabları, dən daşlarının, daş və gil qabların qırıqları, əmək alətləri, silah, tunc dəbilqə, nizələr, bəzək şeyləri, metal əşyalar aşkar olunmuşdur. Bir çox zəngin qəbirlər açılmışdır.

1972-ci ildə, görünür, zəngin bir şəhərli qadına məxsus olan qəbir kəşf edilmişdir. Qəbirlərdən 30-dan artıq müxtəlif qab, çoxlu bəzək şeyləri, yerli ustalar tərəfindən zərb edilən, Makedoniyalı Aleksandrın və Selevkilərin sikkələrinə bənzədilən 36 gümüş draxmadan ibarət sikkə dəfinəsi tapılmışdır.

Qazıntı materiallarından göründüyü kimi, Nüydü yaxınlığındakı antik məskən şəhər tipli, öz zamanına görə iri ticarət-sənət və hərbi-siyasi mərkəz idi.

İsmayıllı-Ağsu zonasında əldə olunmuş arxeoloji materiallar eramızdan əvvəl I minilliyin son sülsündə və eramızın ilk əsrlərində Qafqaz Albaniyası ərazisinin bu hissəsini oturaq əkinçi-maldar təsərrüfatı, sənətkarlığı kifayət qədər inkişaf etdirmiş, qızğın ticarət edən, kənd və şəhər tipli məskənləri olan bir vilayət kimi təqdim edir. Burada sənətlərin, o cümlədən dəmirişləmə sənətinin, xüsusilə onun silahqayırma kimi bir sahəsinin yüksək inkişaf səviyyəsi gözə çarpır. Qəbiristanlarda çoxlu miqdarda müxtəlif silah növləri - qılınclar, xəncərlər, ox ucluqları, xüsusilə nizə ucluqları üzə çıxarılmışdır.

Bu zonanın ustaları tikinti keramikası da hazırlayırdılar, böyük miqdarda aşkar edilmiş damüstü kirəmit göstərir ki, bu istehsal antik Albaniyada şəhər sənətlərinin ən mühüm sahələrindən biri idi.

Bədii keramika məmulatından Mollaisaqlı və Qalagah kəndləri yaxınlığında qəbirlərdə və məskənlərdə tapılmış antropomorf və zoomorf fiqurları xüsusilə qeyd etmək lazımdır.



downloaded from KitabYurdu.az

Zərgərlik məmulatının bir hissəsi bu yerlərin özündə hazırlanırdı. Sənət məmulatlarının kütləvi xarakteri və standartlaşdırılması şəhərdə meydana gəlmiş əmtəə istehsalının göstəriciləri idi. Başqa yerlərdən gətirilən çoxlu məmulat - qızıl sırğalar, gümüş qədəhlər, Nereidanın Hippokamp belində təsviri olan məşhur gümüş dövrə və digər əşyalar əmtəə-pul münasibətlərinin nisbətən yüksək səviyyədə olduğuna dəlalət edir. Göyçay-Ağsu çaylararası ərazidə yaşayan əhalinin uzaq vilayətlərlə intensiv əlaqələri haqqında, inkişaf etmiş pul təsərrüfatı haqqında yerli sikkələrdən ibarət dəfinə əsasında da mühakimə yeritmək olar.

Beləliklə, zonanın qəbirlərindən əldə olunmuş materiallar artıq eramızdan əvvəlki son əsrlərdə alban cəmiyyətinin əmlak cəhətdən parçalanmasını və çox dərindən təbəqələşməsini sübut edir. Qəbir avadanlığının təhlili, Albaniyanın özündə sikkə kəsilməsi, eramızın başlanğıcında Albaniyada bir çarın hakimiyyətinin mövcud olması belə bir nəticəyə gəlməyə əsas verir ki, bu zonanın sakinləri yəqin ki, sinfi cəmiyyət şəraitində, kifayət qədər inkişaf etmiş sənətkarlığa, ticarətə, zəngin mədəniyyətə malik olan bir dövlətdə yaşamışlar.

Yuxarıda adları çəkilən məskənlərin yaxınlığındakı qəbiristanlar onların sakinlərinin etnik cəhətdən yekcins olmadığını göstərir. Məsələn, Mollaisaqlı və Qalagah kəndləri yaxınlığındakı qəbiristanlarda eyni dövrə aid olan bir neçə növ qəbirlərə (torpaq, küp və təknə qəbirlərə) rast gəlinir. Bu hal yalnız sənət deyil, həm də ticarət mərkəzi olan şəhərlər üçün səciyyəvidir; ticarət müxtəlif ölkələrin tacirlərini çəkib gətirirdi, bəzilərinin bəlkə də burada öz məhəllələri vardı.

Antik dövr Albaniyasının şəhərləri əsasən münbit torpaqlarda yerləşən, əlverişli strateji mövqe tutan və ticarət magistrallarının üstündə olan qədim əkinçilik məskənlərinin yerlərində meydana gəlirdi. Onların əksəriyyəti eramızdan əvvəl I minilliyin son sülsündə və ya hətta çərəyində Albaniya dövlətinin meydana gəlib təşəkkül tapdığı dövrdə yaranmışdı. O zaman Albaniya dövlətinin vilayətlərində sosial-iqtisadi, siyasi və mədəni institutların inkişafı ilə bağlı intensiv proseslər gedirdi.

Albaniya vilayətlərinin urbanizasiyası gedişində təsərrüfat həyatında və mədəni həyatda köklü təbəddülatlar əhalinin yerdəyişməsi ilə müşayiət olunurdu. Şamaxı rayonu bu baxımdan antik Albaniyanın son dərəcə maraqlı zonasıdır. Hellinizm dövrünün burada aşkar edilmiş məskənlərinin və qəbiristanlarının materialları zonada müxtəlif tayfalar yaşadığını göstərir. Kaspiyə yaxın olan bu zonanın xüsusi əhəmiyyəti ondan ibarətdir ki, lap qədimlərdən başlayaraq, cənuba, Ön Asiyaya gələn müxtəlif tayfalar üçün bu yer körpü rolunu oynayırdı.

Azərbaycanın və Dağıstanın dənizsahili zolağında da bəzi məskənlər vardı. Dağıstan arxeoloqları tərəfindən Dərbənddə, Turpaqqalada (Dərbənddən cənubda), Targilə (Tarki-Tau dənizsahili yamaclardadır) və Ursekidə (İzerbaş şəhərinin yaxınlığında) aşkar edilmiş materiallar bunu göstərir.



downloaded from KitabYurdu.az

Turpaqqala xarabalığının sahəsi 100 hektardan çoxdur. Bəzi tədqiqatçılar güman edirlər ki, Turpaqqala Ptolemeyin nişan verdiyi Albana şəhəridir, başqaları isə onu qədim Çoranın (Çolanın, Çoqanın) qalıqları sayırlar. İkinci fərziyyə həqiqətə daha yaxındır. Alban salnaməçisi Moisey Kalankatlının sözlərinə görə, Çora şəhəri Dərbəndin yaxınlığında idi. Sonralar bu şəhər Albaniyanın mühüm şəhərlərindən biri, müəyyən müddət Albaniya katolikosunun iqamətgahı olmuşdur.

Urseki xarabalığının yerində artıq eramızdan əvvəl I minilliyin başlanğıcında qeydə alınmış məskən III-II əsrlərdə şəhərə çevrilir; burada içqala, şəhristan, posad üzə çıxarılmışdır.

Strabonun sözlərinə görə, Qafqaz Albaniyasında, İberiya ilə həmsərhəd zonada "kahin torpağı", "qeybdən xəbər verənləri" olan məbəd vilayəti (müqəddəs vilayət) var idi.

Albaniyada məbəd vilayətlərinin olması ümumiyyətlə bu ölkənin sosial-iqtisadi tarixi məsələlərini və xüsusilə burada şəhərlərin meydana gəlməsi problemlərini anlamaq üçün prinsipial əhəmiyyətə malik idi.

Məbəd vilayətləri adətən münbit vadilərdə yerləşirdi. Burada əsasən əkinçilik kultları ilə bağlı hər hansı bir allahın şərəfinə ucaldılan, məskənləri öz ətrafında birləşdirən məbəd yalnız mədəniyyət mərkəzi deyil, həm də inzibati və hərbi mərkəz idi, yəni, yəqin ki, hellinist polislərinə bənzəyən bir növ şəhər-dövlət idi.

Ay allahına həsr edilən Albaniya məbəd vilayəti Kiçik Asiya məbəd vilayətlərinin nümunəsi üzrə təşkil olunmuşdu və Ermənistan və Gürcüstanın məbəd birliklərinə yaxın idi.

Qafqaz Albaniyasında şəhərlərin yaranması məhsuldar qüvvələrin ümumi inkişafından, sosial-iqtisadi münasibətlərdə baş verən köklü dəyişikliklərdən irəli gəlmişdi. Bunlar nəticə etibarı ilə sənətin əkinçilikdən ayrılmasına, ticarətin, əmtəə-pul münasibətlərinin coşqun inkişafına, siniflərin və dövlətin meydana gəlməsinə səbəb olmuşdu.

Bu proseslərin kökləri əsrlərin dərinliklərinə gedib çıxır, o vaxtlara ki, əkinçiliyin, maldarlığın və sənətin, həmçinin onlarla bağlı tayfalararası mübadilənin inkişafı sayəsində öndağ və düzənlik zolağında, zəngin əkinçilik rayonlarında və ticarət yollarının üstündə yerləşən son tunc və erkən dəmir dövrü məskənlərinin bir hissəsi yüksəlməkdə idi. Sonralar mühüm ticarət-sənətkarlıq mərkəzlərinə çevrilmiş bu cür iri əkinçilik məskənlərinin ayrılmasını eramızdan əvvəl I minilliyin ilk əsrlərinə aid etmək olar. Müəyyən edilmişdir ki, Azərbaycanda erkən dəmir dövrünün böyük sahəyə və qalın mədəni laylara malik olan bəzi məskənləri daş hasarla və torpaq sədlərlə əhatə olunmuşdu.

Eramızdan əvvəl I minilliyin birinci, xüsusilə də ikinci yarısına aid qəbirlərdən qazıntı zamanı tapılmış dəfn materialı tamamilə aydın bir şəkildə göstərir ki, təsərrüfat və mədəniyyətin inkişafı ilə yanaşı əmlak və sosial cəhətdən diferensiasiya da gedirdi.



downloaded from KitabYurdu.az

Ticarətin genişlənməsi, pul tədavülünün güclənməsi, eyni zamanda hakim sinfin tələbatının getdikcə artması strateji, hərbi-inzibati, mədəni və dini mərkəzlər olan köhnə əkinçilik məskənlərində sənətin inkişafı və nəticə etibarilə əkinçilikdən ayrılmasına təkan verirdi.

Albaniyada yerli sikkənin meydana gəlməsi pullu ticarətin genişlənməsində mühüm rol oynadı.

Beləliklə, artıq vahid bir dövlət olan antik Albaniyanın şəhərlərində məhsuldar qüvvələrin inkişafı prosesi gedirdi ki, bu da əmək alətləri, silah, keramika, toxuculuq məhsulları və incəsənət əşyaları istehsalının genişlənməsinin nəticəsi idi.

Hellinizm dövrü Albaniyasının şəhərləri artıq yalnız siyasi-inzibati və strateji mərkəzlər deyil, həm də ticarət-sənət, din-mədəniyyət mərkəzləri idi, bu şəhərlərdə bazarlar vardı, pul tədavülü olduqca yüksək bir səviyyəyə çatmışdı, sənətkar emalatxanaları işləyirdi, möhtəşəm binalar tikilmişdi, çoxlu tacirlər, sənətkarlar və başqa əhali yaşayırdı, bunlar təkcə yerlilər deyil, həm də gəlmələrdi.

**Sosial münasibətlər.** Antik müəlliflərə əsasən, Qafqaz Albaniyasının öz basilevsləri (çarları) vardı. Pompeyin yürüşləri zamanından tanınan Oroysun və otuz il sonra sərkərdə Kanidi Krass ilə çarpışan Zoberin adları bizə gəlib çatmışdır. Bəzi antik yazıçılar Albaniyada bir basilevs olduğunu deyirlər. Məsələn, Strabon bildirir ki, hazırda Albaniyada bir basilevs hamının üzərində hökmranlıq edir. Eyni fikri İosif Flavi, Dion Kassi və Appian da söyləyirlər. Plini, Avqustun Aikira kitabəsi, Fest, Evtropi və başqaları Albaniyada çarın təkhakimiyyətliyindən bəhs edirlər. Digər müəlliflər Albaniyada bir neçə basilevsin hökmranlıq etdiyini göstərirlər. Məsələn, Plutarx Kaspi sahillərində bir neçə alban basilevsi olduğu haqqında məlumat verir. Tasit də albanlarda rekslər (çarlar) olduğunu söyləyir.

Antik müəlliflər qədim Albaniyanın kübar cəmiyyətinin nümayəndələrini yunan və latın mənşəli terminlərlə adlandırırlar. Bunların hər birinin öz alban prototipinə nə dərəcədə uyğun gəldiyini söyləmək çətindir; ictimai institutlar müxtəlif olduğundan adətən terminlər mənaca üst-üstə düşmür. Latın variantında basilevs və reks həm varlı, həm də sadəcə adlı-sanlı adam deməkdir. Basilevs və reks (yəni hökmdar, hakim) həm çara, həm də çarlığa dəxli olmayan nüfuzlu şəxsə aid edilə bilərdi.

Albaniyada basilevslərdən əlavə, hegemonlar və prefektlər də qeyd edilir. Appian bildirir ki, Pompeyin təntənəli qələbə arabasının önündə iki alban hegemonunu aparırdılar.

Hegemon başlıca olaraq başçı, rəhbər, habelə sərkərdə, canişin deməkdir. Ayrı-ayrı hallarda şəhərin ərzaq təminatı rəisi, donanma komandanı, canişin, müttəfiqlərin süvari dəstəsinin komandanı prefekt adlandırıla bilərdi.

Eliana görə, hiyerevslər və "kaspilərin ən varlıları və ən adlı-sanlıları" dəvə yunundan paltar geyirdilər. Məlumatda cəmiyyətin yuxarı təbəqəsi nümayəndələri haqqında yaxşı təsəvvür yaradılır, varlılardan və hakimiyyət başında duranlardan danışılır.



downloaded from KitabYurdu.az

Söhbət rəhbərlərdən və ya sərkərdələrdən gedir, hərçənd burada, ola bilsin, ümumiyyətlə başçı və ya canişin deyil, bəlkə də var-dövlət sahibi, adlı-sanlı adam nəzərdə tutulur.

Strabon piyada qoşundan və süvarilərdən bəhs edir. Albanlarda "nizəatanlar və oxatanlar vardır; geyimləri zirehli, qalxanları [uzun, dördküncdür], başlarına heyvan [dərisindən] hazırlanmış papaq qoyurlar..." Bütün əlamətlərdən görünür ki, qoşunun tərkibində Albaniyanın sosial təbəqələri müəyyən dərəcədə öz əksini tapırdı. Piyada qoşun nisbətən ikinci dərəcəli əhəmiyyətə malik idi və əhalinin daha yoxsul təbəqələrini təmsil edirdi, süvarilər isə daha təminatlı ailələrdən toplanırdı.

Strabon məlumat verir ki, Selena ilahəsinə həsr edilmiş Alban məbədində "kahin vəzifəsini basilevsdən sonra ən böyük hörmət sahibi olan, geniş müqəddəs məbəd torpağının və hiyerodulların (müqəddəs qullar) başında duran xadim icra edir". Burada basilevsdən sonra ən böyük hörmət sahibi olan xadim - teokratik aparatın nümayəndəsi əks olunmuşdur. İbadətgahın və məbədyanı ərazinin əhalisinə gəlincə Selena ilahəsinə həsr edilmiş alban hiyeronunda baş kahin yalnız öz ibadətgahında deyil, həm də əhalisi çox olan geniş məbədyanı ərazidə hökmran idi. Strabon yaxşı məskunlaşmış hiyera xoranı və hiyerodulları ayrılıqda xatırladır. Başqa bir yerdə qeyd edilir ki, albanlarda ilahəyə insan qurbanları verilir və "qurban verilən yıxılarkən vəziyyətinə görə fal açılır və bütün icmaya elan olunur". Antik müəllif müqəddəs torpağın icmaçıları ilə hiyerodullar arasında fərq qoyur. Bununla əlaqədar olaraq Albaniyadan kənarda yerləşən ibadətgahın oxşar əhalisi ilə tanış olmaq maraqlıdır. Kappadokiya Komanasının Enio və ya Ma (yerli adı) ibadətgahı barəsində Strabon məlumat verir ki, "orada əhalinin əksəriyyəti teoforetlərdən və hiyerodullardan ibarətdir". Kiçik Asiya ibadətgahının teoforetlərini, görünür, qədim Qafqaz Albaniyasının məbədyanı ərazisinin zəhmətkeş əhalisi ilə eyniləşdirmək lazımdır. Hiyerodullar və teoforetlər məbəd ərazisinə bağlı əkinçilik icmasının üzvləri olan məbədyanı ərazinin kəndli əhalisi idilər. Beləliklə, ibadətgahda və hiyera xorada iki kateqoriya əhali qeyd edilir: məbəd icmasının üzvləri və hiyerodullar. Birinci kateqoriyaya başlıca olaraq əkinçiliklə məşğul olan əhali aid idi.

Hiyera xora əhalisinin digər kateqoriyasına hiyerodullar aid idilər. Kiçik Asiya məbədlərinin hiyerodulları haqqında xeyli məlumat qalmışdır. Məsələn, Strabon qeyd edir ki, Farnakiyada şəhər "çoxlu hiyerodulları və hiyera xorası olan Ameriya qəsəbəsinə" malik idi. Antik müəllif əlavə edir ki, burada da "albanlarda və Frikiyada olduğu kimi, Selena məbədi" vardır. Bu məlumatdan görünür ki, hələ qədim vaxtlarda Kiçik Asiya və Albaniyanın məbədlərini eyniləşdirmə cəhdi var idi. Hiyerodullar başqa ibadətgahlarda da vardı. Məbəd hiyerodullarının geniş yayılması yaxşı məlumdur. Strabon Zelada, Kappadokiya Komanasında, Morimenadakı Zevs məbədində və Pont Komanasında hiyerodullar olmasını xatırladır. Hər iki Komanada altı mindən çox hiyerodul vardı. Morimenadakı Zevs məbədində hiyerodulların sayı isə, üç minə yaxın idi [Strabon]. Kiçik Asiyanın hiyerodulları kişilərdən və qadınlardan ibarət idi.



downloaded from KitabYurdu.az

Akilisenada Anait məbədində adlı-sanlı adamlar "da öz qızlarını hələ qızlıq çağında ilahəyə həsr edirdilər" [Strabon]. Strabona əsasən, Pont Komanasının hiyerodulları arasında "öz bədəni ilə" alver edən qadınlar çox idi; "onların əksəriyyəti ilahəyə həsr edilmişdi". Strabonun yazdığına görə, alban hiyerodullarının bir hissəsi qurban verilirdi. Hiyerodulların digər hissəsi gələcəyi xəbər verən fanatiklər qrupundan ibarət idi.

Albaniya hiyerodulları vahid kütlə deyildi və cəmiyyətin məhsuldar qüvvələrinə təsir göstərə bilməzdilər. Onlar köləlik institutu ilə bağlı sosial kateqoriya deyil, ilahiyyat qulları, yəni ibadətgahın qulluqçuları idilər, buraya sıravi kahinlər də daxil idilər.

Qədim Qafqaz Albaniyasının məbəd icmalarının torpaq sahibliyi haqqında məlumat azdır. Strabona görə, Selena məbədinin Alban hiyerevsinə əhalisi çox olan geniş müqəddəs torpaq tabe idi, yəni Alban məbədlərinin ixtiyarında yunandilli müəlliflər tərəfindən "hiyera xora" adlandırılan xüsusi məbədyanı ərazilər vardı. Materialın azlığı üzündən məbəd torpaqlarının istismar edilməsi haqqında biliyimiz çox səthidir. Bu barədə yalnız qonşu hiyera xoralar haqqında Strabonun məlumatı vardır. Güman etmək olar ki, ölkədə məbədyanı torpaqlar Selena, Helios və ya Zevs allahlarına məxsus hesab edilsə də, əslində baş kahinin - hiyerevsin, ola bilsin, məbəd iyerarxiyasının ən nüfuzlu üzvlərinin ixtiyarında idi.

Beləliklə, məbəd torpaqlarında cəmləşmiş əhali ayrı-ayrı qruplara bölünmüşdü və onların arasında (1) hiyerevs və onun əhatəsi, (2) icmaçılar - teoforetlər və ya hiyera xora kəndliləri və nəhayət, alban cəmiyyətinin məhsuldar qüvvələrinə o qədər də təsir göstərməyən (3) hiyerodullar xüsusilə nəzərə çarpırdı. Albaniya basilevs və ya hegemonların qəbirləri hələ aşkar edilməmişdir. Sıravi qəbirlərə gəldikdə, Yaloylutəpə tipli torpaq qəbirlər arasında qoşa qəbirlər yoxdur. Bir çox küp qəbirlərdə ikişər skelet aşkara çıxarılmışdır. Dəfn zamanı adam öldürülməsi, iki adamın bir qəbirdə basdırılması bəlkə də ictimai münasibətlərdən irəli gəlirdi. Küp qəbirlərdə sosial-iqtisadi xüsusiyyətlər barəsində başqa məlumat da vardır. Mingəçevir qəbiristanında küp qəbirdə iki qoşqu heyvanının skeletləri və mərkəzi qəbrin yaxınlığında qəribə bir vəziyyətdə insan skeleti aşkar edilmişdir: o demək olar, küpün üzərində idi, üzüqoylu, döş qəfəsi üstündə uzanmış, qolları bükülmüşdü. Görünür, eramızdan əvvəl son əsrlərdə və eramızın ilk əsrlərində dəfn zamanı asılı adamlar və ya əsir alınmış qullar zorakılıqla öldürülürmüş. Bir yerdə çiy kərpicdən tikilmiş qoşa qəbirə rast gəlinir (bir quyuda iki qəbir). Qoşa çiy kərpic qəbirlər sosial münasibət baxımından küp qəbirlərdə olmuş mənzərəni verir. Qoşa türbələrdən əlavə, ikiadamlıq çiy kərpic qəbirlərə də təsadüf edilir (bir türbədə iki skelet). Məsələn, çiy kərpic türbələrin birində əsas skeletin ayaq tərəfində ikinci skelet də aşkar olunmuşdur. Çiy kərpic türbədə arxası üstə uzadılmış meyitin ayaq tərəfində bükülü vəziyyətdə olan ikinci skelet, ola bilsin ki, oturan yerdə öldürülmüş bir adamın skeletidir. Demək, dəfn zamanı qulu və ya kənizi qurban verirdilər. Beləliklə, alban cəmiyyətində bir qütbdə basilevs, hegemonlar, yaxud prefektlər və hiyerevslər dururdu. Hegemonlar və prefektlər yerli əyanları təmsil edirdilər. Hiyeron



downloaded from KitabYurdu.az

və hiyera xoranın başında duran hiyerevs basilevsə tabe idi. Digər qütbdə isə icmaçılar, əkinçi-maldar əhalinin əsas kütləsi və sənətkarlar təmsil edilirdi. Əsasən hiyeronların qulluqçuları olan hiyerodullar, habelə məbəd təsərrüfatı ilə bağlı olan hiyerodullar və nəhayət, qullar da əməkçi əhali kateqoriyasına daxil idilər. İcmaçı kəndlilər, sıravi maldar əhali və sənətkarlar cəmiyyətin məhsuldar qüvvələrini inkişaf etdirən özəyi təşkil edirdilər: qul əməyi üstün rol oynamırdı.

Oturaq əkinçi əhali ilə daha mütəhərrik maldar əhalinin qarşılıqlı surətdə bir-birinə nüfuz etməsi qədim Qafqaz Albaniyasının məhsuldar qüvvələrinə güclü təsir göstərirdi.

**Qoşun və hərbi iş.** Strabon yazırdı ki, albanlar "...həm piyada, həm at belində, həm yüngül silahlanmış (zirehsiz), həm də zirehlənmiş halda vuruşurdular".

Strabonun məlumatında albanların qoşun növlərindən danışılır: görünür, albanlar bu cəhətdən qonşularından heç də fərqlənmirdilər, ya da çox cüzi fərqlənirdilər. Beləliklə, qədim coğrafiyaşünasın dediyinə görə, alban qoşunu piyadalara və süvarilərə bölünürdü.

Strabonu belə də başa düşmək olar: albanlar at qoşulmuş döyüş arabasında vuruşurdular, çünki "hippos" həm at, həm də döyüş arabası deməkdir, yəni albanlar həm piyada qoşunundan, həm də süvarilərdən istifadə edirdi, həm yüngül silahlanmış döyüşçülər - psiletlər, həm də zirehli döyüşçülər - katafraktlar vardı. Zirehli atlar qədim xalqların hərb sənətində xüsusi yer tutur. Strabon yazır ki, "belə süvari qoşun həvəskarı yalnız midiyalılar və ermənilər deyil, həm də albanlardır, çünki müharibədə zirehli atlardan istifadə edirlər". Antik müəllif hücum və müdafiə silahları haqqında məlumat qoyub getmişdir. Məsələn, qeyd edilir ki, albanlarda zirehləri və uzun dördkünc qalxanları olan nizəçilər və oxatanlar vardı; albanlar iberlər kimi başlarına heyvan dərisindən hazırlanmış papaqlar qoyurdular. Plutarx romalılar ilə albanların toqquşmasını təsvir edərək bildirir ki, Albaniya basilevsinin qardaşı Kosis Pompeyə "nizə ilə zərbə" endirmişdi.

Akontistlər - nizəçilər və toksotlar - oxatanlar vardısa, deməli, nizələr və oxlar da olmalı idi. Arxeoloji material yazıçıların dediklərini təsdiq edir. Albaniya ərazisində çoxlu silah aşkar edilmişdir və bunun xeyli hissəsi küp, katakomba və taxta qəbirlər mədəniyyətinin daşıyıcılarına məxsusdur. Mingəçevir küp qəbirlərindən çıxarılmış nizə ucluqları məlumdur. Bunlar dəmirdəndir, oymaqlıdır, uzunsov üçbucaq formasındadır, bəzilərində tiyə boyunca qabarıq damar uzanır, ucluqların uzunluğu 11 santimetrdən 40 santimetrə qədərdir. Silahın hazır olması üçün həmin ucluğa ağac sap keçirmək kifayətdir. Albaniya nizəçi döyüşçüləri məhz bu cür nizələrdən istifadə edirdilər. Ölçülərini müəyyən etmək üçün başqa xalqların nizələri ilə tutuşdurmaq əsasında güman etmək olar ki, Albaniya döyüşçülərinin nizələri iki metr məsafəyə və daha uzağa çata bilərdi. O dövrdə üçpərli, saplaqlı dəmir ox ucluqları oymaqlı, çıxıntılı tunc ucluqları, habelə daha erkən dövr (eramızdan əvvəl VII-VI əsrlər) üçün səciyyəvi olan oymaqlı, üçüzlü tunc və sümük ucluqları sıxışdırıb aradan çıxartmışdı. Bununla



downloaded from KitabYurdu.az

yanaşı küp qəbirlərin birindən əvvəlki vaxtların tunc oxlarına nisbətən daha səliqəli hazırlanmış tunc ox ucluğu tapılmışdır. Mingəçevirdə e.ə. III-I əsrlər təbəqəsində bişmiş gildən olan ox ucluqları aşkar edilmişdir. Yaloylutəpə tipli torpaq qəbirlərin birində (Çuxur Qəbələ yaxınlığında) çoxlu miqdarda saplaqlı üçpərli ox ucluqları üzə çıxarılmışdır.

Görünür, Albaniya ərazisində də saplaqlı üçpərli ox ucluqları e.ə. I əsrin başlanğıcında Orta Asiya və Parfiya vasitəsilə yayılmışdır. Ucluqların bir qismi buraya sarmat tayfaları ilə gəlib çıxa bilərdi. Güman etmək olar ki, qədim albanlar qarğı oxlar da işlədirdilər. Parfiya tayfalarında skif yayı (kamanı) əsas yer tutur, sikkələrdə, ritonlarda və başqa əşyalarda təsvir olunurdu. Bu kaman uzunluğu 60-70 santimetrdən çox olmayan oxlar üçün idi. Eraların ayrıcında skif kamanı ilə yanaşı daha mürəkkəb hun kamanı tətbiq edilirdi, onun uzunluğu 120 santimetrdən 160 santimetrə qədərdi, üzərində qoyma sümüklər vardı. Daha yüngül və daha ağır ucluqların olması antik Albaniyada yüngül və ağır kamanların mövcudluğunu güman etməyə imkan verir. Bunlarla həm süvarilər, həm də piyada qoşun silahlanmışdı.

Qazıntılar antik müəlliflərin məlumatlarını təsdiq edir, həm də hücum silahına və hərbi əməliyyatla bağlı əşyalara işıq salan bir çox yeni faktlar verir. Bu sıraya Mingəçevirdən, Şamaxıdan, İsmayıllıdan, Çuxuryurddan və başqa yerlərdən tapılan dəmir qılınclar aiddir. Qılıncların tiyələri ensiz və uzun, ucları sivridir. Bəzisində ağac və ya sümük bəzəyi izləri vardır. Üzünə dəri çəkilmiş qınlar da qalmışdır. Qılıncların bir qisminin halqavari başcığı vardır. Gəncəçayın sahilində çiy kərpic qəbirdən 0,61 metr uzunluğunda qılınc aşkar edilmişdir. Görünür, bu qılınc dəri qında saxlanılırmış və yuxarı hissədə, qəbzənin yaxınlığında qına oval şəklində olan iki dəmir halqa keçirilibmiş. Qəbzə üç dəmir mıxla mıxlanmış və tunc halqa ilə bərkidilmişdir. Qılıncın halqavari başcığı vardır. Bu cür başçıqları olan qılınclar Qara dənizin şimal sahillərindən Çinə qədər çox böyük bir ərazidə yayılmışdı. Qədim Qafqaz Albaniyasına bu qılıncları, görünür, Avrasiya çöllərində köçəri həyat sürən tayfalar gətirmişdir.

Arxeoloji qazıntılar nəticəsində Azərbaycan ərazisində, yəni Mingəçevirdə, Çirçir gölündə (Ağdaş rayonunun Pirəzə kəndi), Xınıslıda (Şamaxı), Gəncəçayın sahilində və başqa yerlərdə çoxlu xəncər aşkar edilmişdir. Xəncərlərin böyük bir qismi görkəmini itirmişdir. Xəncərlərin uzunluğu təqribən 25 santimetrdən 30 santimetrə qədərdir. Məsələn, Xınıslıdan tapılmış xəncərin uzunluğu 28 santimetrə, Mingəçevirdən tapılmış xəncərlər isə 12 santimetrdən 26 santimetrə qədərdir. Albanlar bu hücum silahları ilə yanaşı, bıçaqlardan da istifadə edirdilər. Bıçaqlar Mingəçevirdə, Xınıslıda və başqa yerlərdə aşkar olunmuşdur. Arxeoloji materiallar içərisində uzunluğu 1-2,5 metrə çatan dəmir döyüş yabalarına rast gəlinir. Belə hesab edilir ki, onlardan həm müdafiə, həm də əlbəyaxa hücum döyüşlərində istifadə olunurmuş.



downloaded from KitabYurdu.az

Öyrənilən dövrün əsas müdafiə silahlarından biri də zireh idi. Strabonun qeyd etdiyinə görə, qədim Qafqaz Albaniyasının döyüşçülərində zireh - toraks da olmuşdur. Qazıntılar zamanı hələlik tam salamat qalan zireh tapılmamışdır, bu qoruyucu geyimin ancaq ayrı-ayrı qalıqlarına rast gəlinir. Məsələn, qəbirlərin birində üç mindən artıq daş muncuq aşkar edilmişdir. Güman olunduğuna görə, muncuq dənələri zireh rolunu oynayan dəri geyimə tikilirmiş. Eyni sözlər böyük miqdarda aşkar edilmiş tunc düymələrə də aiddir. Qəbirlərin birindən döyüşçünün qoruyucu metal geyiminin, o cümlədən dəmir zirehin hissələri tapılmışdır. Tapıntılarla əlaqədar olaraq, "heyvan dərisi geymiş" alban döyüşçüləri haqqında Plutarxın verdiyi məlumat yada düşür. Strabon qeyd edir ki, aşılanmamış öküz dərisindən zireh başqa xalqlarda da olmuşdur. Digər qoruyucu silah geniş yayılmış qalxan idi. Strabon alban qalxanları haqqında da aydın məlumat verir. Bu, qallarda və romalılarda skutum adlanan uzun dördkünc ("qapışəkilli") qalxandır. Qazıntılardan birində dəmir qalxana bənzər kiçik bir şey tapılmışdır. Qeyd etmək maraqlıdır ki, Plutarx Pompey ilə alban basilevsinin qardaşı Kasis arasındakı çarpışmanı təsvir edərkən göstərir ki, "döyüşdən sonra romalılar öldürülmüş barbarların üst-başlarını axtarıb qarətə başlayanda amazonka peltaları tapılmışdı". Qədim heykəltəraşlar peltanı amazonkaların kiçik müdafiə silahı kimi aypara şəklində təsvir edirdilər. Bütün bu deyilənlər təsdiq edir ki, qədim müəlliflərə görə, alban döyüşçülərində iki növ müdafiə silahı olmuşdur: Roma skutumunu xatırladan böyük qalxan və formaca peltaya yaxınlaşan kiçik qalxan.

Bizə alban döyüşçülərinin baş örtüyü haqqında gəlib çatan məlumat da diqqəti cəlb edir. Görünür, albanlar başlarına bütün Qafqazda yayılmış papaq qoyurdular. Strabon albanların baş örtüyünü heyvan dərisi ilə əlaqələndirir və alban döyüşçülərinin digər qoruyucu baş örtükləri haqqında heç bir məlumat vermir.

Yaxşı qalmış tunc dəbilqə tapılmışdır, dəbilqənin yuxarı hissəsi enlənən içiboş borucuqla qurtarır, bu borucuq, ehtimal ki, lələklər, at qılı və digər fərqlənmə nişanları taxmaq üçündür. Öyrənilən dövrdə bir çox xalqlarda dəbilqələr vardı. Lakin dəbilqə antik Albaniyanın sıravi döyüşçüləri üçün səciyyəvi deyildi.

Qoşunların miqdarı haqqında antik müəlliflərin verdiyi konkret məlumat hərbi işin öyrənilməsi məsələsində müəyyən yer tutur. Strabonun dediyinə görə albanlar "[döyüş üçün] iberlərə nisbətən daha çox qoşun düzürlər. Onlar altmış min piyada qoşun və iyirmi iki min süvari silahlandırırlar - Pompeylə döyüşə [albanlar] belə bir [qoşunla] getmişlər". Plutarx bildirir ki, Kürü keçib romalılar üzərinə həmlələr edilən zaman albanlar qırx min nəfərdən az olmamışlar. Daha sonra Plutarx romalıları qarşılayan albanların sayı haqqında bir qədər başqa məlumat verir. Qədim müəllif bildirir ki, Pompeyi "döyüşə hazır vəziyyətdə, lakin pis silahlanmış və başlıca olaraq, heyvan dərisində 60000 piyada və 12000 süvari" qarşılamışdır. Birinci halda Plutarx piyadanı süvaridən fərqləndirmir, alban qoşununun ümumi miqdarını verir: döyüşçülər 40000 nəfər idi. İkinci halda Plutarxın məlumatı Strabonun məlumatını



downloaded from KitabYurdu.az

xatırladır, lakin alban süvarilərinin sayı cəhətdən ondan fərqlənir. Deyilənlərdən görünür ki, alban süvarilərinin sayı Strabonda 22 min, Plutarxda isə 12 mindir. Appiana əsasən, albanların basilevsi Oroys və iberlərin basilevsi Artok yeddi miriad döyüşçü ilə Kür çayının yaxınlığında Pompeyi güdürdü. Appian belə müəyyən edir ki, alban və iber qoşunu 70 min döyüşçüdən ibarət idi. Əgər iber qoşununun alban qoşunundan az olması haqqında Strabonun məlumatı əsas götürülsə, deməli, albanların payına təqribən 40 min döyüşçü düşür, bu isə alban qoşununun miqdarı haqqında Plutarxın birinci məlumatı ilə düz gəlir. Beləliklə, görünür ki, alban qoşunu Strabona görə 82 min (60 min piyada və 22 min süvari), Plutarxa görə bir halda 72 min (60 min piyada və yalnız 12 min süvari), başqa bir halda 40 min, Apiana görə təqribən 40 min döyüşçüdən ibarət idi. Eramızdan əvvəl 64-cü ildə alban qoşunlarının romalılarla ilk toqquşması Plutarx və Dion Kassi tərəfindən təsvir edilmişdi. Bu toqquşma eramızın 35-ci ilində parfiyalılara qarşı yönəldilmiş hərbi əməliyyatla əlaqədar Korneli Tasit tərəfindən də xatırladılır.

Antik Albaniyanın qoşunu və hərbi işi haqqında bütün bu məlumatlar süvari və piyada döyüşçülərin çox olmasından, hücum və müdafiə silahından, habelə alban qoşununun hərbi əməliyyatlardakı strategiyasından və taktikasından danışmağa imkan verir.



downloaded from KitabYurdu.az

## XV F Ə S İ L

# ANTİK ALBANİYANIN SİYASİ HƏYATI

**Eramızdan əvvəl IV-II əsrlərdə Albaniyanın siyasi həyatı, Albaniya dövlətinin meydana gəlməsi.** Yazılı qaynaqlar göstərir ki, Əhəmənilərin hakimiyyəti Qafqaz silsiləsinə qədər uzanan bir ərazini əhatə edirdi. Lakin Zaqafqaziya, o cümlədən Şimali Azərbaycan sakinlərinin Əhəmənilərdən asılılığının demək olar yalnız adı vardı; yoxsa nə ilə izah etmək olar ki, məsələn, kadusilər, albanlar və sakasenlər Makedoniyalı Aleksandrın qoşunlarına qarşı farsların müharibəsində İran təbəələri kimi deyil, Mada satrapı Atropatın müttəfiqləri kimi çıxış etmişdilər. Bununla birlikdə Əhəmənilərin hökmranlığı alban tayfalarının siyasi həyata qoşulmasına, onlarda sinifli cəmiyyətin və dövlətin meydana gəlməsi proseslərinin intensivləşməsinə səbəb olmaya bilməzdi. Güman etmək olar ki, ilk vaxtlarda Kaspisahili tayfaların, o cümlədən albanların xeyli hissəsi ümumi bir ad -"kaspilər" adını daşımışdır. Əgər belədirsə, Hellada üzərinə gedən Kserks qoşunlarının tərkibində adları çəkilən "kaspilər" sırasında, ola bilsin, albanlar da varmış. Albanların siyasət meydanına eramızdan əvvəl IV əsrin son sülsündən gec olmayaraq çıxması şübhə doğurmur. Artıq eramızdan əvvəl III əsrin başlanğıcında Kaspi sahillərini gəzən Patrokl başqa tayfalar sırasında albanların da adını çəkmişdi - Strabonun albanlardan danışanda Patrokla istinad etməsi də bunu təsdiqləyir. Arrianın əsərindən aydın olur ki, yunanlar düşmənlə üz-üzə gələndə albanları (silah və geyimlərindən) dərhal tanımışdılar. Farslar öz tarixinin böhranlı anında albanların qoşununu Əhəmənilər ordusunun sıralarının mərkəzində, İran şahının və onun qvardiyasının yaxın əhatəsində yerləşdirmişdilər. Albanları madalılar da, farslar da tanıyırdılar.

Arxeoloji tədqiqat nəticələrindən göründüyü kimi, Albaniya əhalisinin hellinizm dünyası ölkələri ilə ticarət və mədəni əlaqələrinin yaradılması bilavasitə Makedoniyalı Aleksandrın yürüşlərinin ardınca gələn dövrə aid edilməlidir. Bunu, hər şeydən əvvəl, tapılmış sikkələr, eləcə də arxeoloji materiallardan göründüyü kimi, Albaniyada sırf yunanlara məxsus bir adətin olması - ölünün ağzına və ya başının altına sikkə qoyulması da aydın göstərir.

Qafqaz Albaniyasına müxtəlif vaxtlarda soxulan tayfalar onun siyasi həyatında və burada cərəyan edən etnik proseslərdə müəyyən rol oynamışlar. Onların arasında skiflərdən başqa saklar da vardı, saklar vaxtilə bir vilayəti işğal etmişdilər və bu vilayətin adı "onların adlarına görə Sakasena qalmışdı" [Strabon]. Saklar eramızdan əvvəl VII əsrdə Ön Asiyanın siyasi hadisələrində fəal rol oynayırdılar, onlar (sakesinlər) kadusilər və albanlar ilə birlikdə eramızdan əvvəl IV əsrin son



downloaded from KitabYurdu.az

sülsündə farsların Makedoniyalı Aleksandrın qoşunlarına qarşı müharibəsində Mada satrapı Atropatın müttəfiqləri kimi iştirak edirdilər.

Eramızdan əvvəl son iki-üç əsrdə Şimali Azərbaycan sakinləri şimaldan soxulan massaget - sarmat tayfaları ilə üz-üzə gəlməli oldular, bir qədər sonra bu tayfalar Kaspi sahil zolağının bir hissəsində Mazkut (Massaget) çarlığı yaratdılar.

Eramızdan əvvəl son əsrlərdə yuxarı aorslar deyilən sarmat-massaget mənşəli tayfalar Şimali Azərbaycan və Cənubi Dağıstanın alban tayfalarının həyatında müəyyən rol oynayırdılar.

Göstərilən dövrdə aorslar Kaspisahili şimal-qərb vilayətləri üzərində hökmranlıq edən ən güclü birlik idi. Eramızdan əvvəl son iki-üç əsrdə onlar Ön Asiyadan gələn, Albaniyadan keçərək Şimali Qafqaza və daha uzaqlara gedən ticarət yolunu əllərində saxlayırdılar. Onlar, Strabonun dediyinə görə, "Kaspi dənizi sahillərinin böyük bir hissəsinin sahibi idilər... ermənilərdən və midiyalılardan hind və Babil malları alır, dəvə karvanları ilə daşıyıb satırdılar".

Orta Dağıstan vilayətlərinin hansı yerlərindəsə, "udi tayfasından... yuxarıda" yaşayan utidorslara, görünür, udilər ilə aorsların qarışması nəticəsində əmələ gələn alban-sarmat tayfası kimi baxmaq lazımdır. Lakin ola bilər ki, "utidorslar" "uti (udi) aorsları" deməkdir, yəni udilər arasında yaşayan aorslardır (müqayisə et: lyko-syroi - "likiya suriyalıları", celto-ligures - "kelt liqurları", celto-sythae - "kelt skiflər" və başqaları).

Böyük Dəhnə kəndinin (Şəki rayonu) yaxınlığında aşkara çıxarılmış yunan kitabəsində (I-II əsrlər) Evnon adına rast gəlinir. Bu adı I əsrdə aors hökmdarlarından biri daşımışdır.

Antik dövrdə Şimali Azərbaycan vilayətlərində yaşayan tayfalarda dövlətin sosial institut kimi meydana gəlməsi məsələsi indiyədək izah edilməmiş qalır. Daha sonralara aid mənbələrdə olan cüzi məlumat belə hesab etməyə imkan verir ki, eramızdan əvvəl I əsrdə Albaniyada dövlət artıq mövcud idi. Arxeoloji materiallar antik Albaniyada sinfi bölgünün olduğunu göstərməklə bu məsələnin həllinə kömək edir, sinfi bölgü isə, məlum olduğu kimi, dövlət qurumunun meydana gəlməsi üçün zəruri ilkin şərtdir. Arxeologiya məlumatı eramızdan əvvəl I minilliyin ikinci yarısında Albaniyanı xeyli inkişaf etmiş oturaq əkinçi-maldar təsərrüfatına malik olan bir ölkə kimi təsvir edir. Albaniyada suvarma əkinçiliyi vardı və o, yalnız təbii suvarmaya deyil, həm də geniş qol-budaq atmış irriqasiya qurğularına əsaslanırdı; belə irriqasiya qurğularının olması nəzərdən keçirilən dövrdə Albaniyada əməyin məqsədyönlü təşkilindən xəbər verir. Bütün bunlar, əlbəttə, müəyyən zor aparatı olmadan mümkün deyildi.

Həmin materiallar eramızdan əvvəl son əsrlərdə və eramızın ilk əsrlərində alban cəmiyyətində nəinki çox dərin əmlak təbəqələşməsi baş verdiyini bariz şəkildə



downloaded from KitabYurdu.az

sübut edir, həm də sinfi təbəqələşmənin kifayət qədər aydın mənzərəsini yaradır. Yaloylutəpə qəbirlərinin, küp qəbirlərin avadanlığı bunu tam aydınlığı ilə göstərir.

Bununla əlaqədar olaraq, çoxsaylı qliptika abidələri - məsələn, xüsusi mülkiyyətin mövcud olmasını açıq-aşkar göstərən üzük-möhürlər xüsusi maraq kəsb edir.

Artıq eramızdan əvvəl I minilliyin ortalarında Albaniya ərazisində daş, şüşə və metal möhürlər yayılmışdı. Belə metal üzük-möhürlər eramızdan əvvəl V-IV əsrlərdə antik dünyada və Şərqdə də yaxşı məlum idi.

Bütün bunlar təqribən eramızdan əvvəl I minilliyin ortalarında və ikinci yarısının başlanğıcında antik Albaniyanın sosial-iqtisadi münasibətlərində baş verən köklü dəyişikliklərə sübutdur. Qədim Albaniya vilayətlərində sənət yüksək inkişaf səviyyəsinə çatmışdı. Lap qədimlərdən məlum olan metallurgiya və metal emalından, dulusçuluq və toxuculuqdan əlavə, burada yarımqiymətli daşlar emalı, fil dişindən məmulat hazırlanması, balıq yapışqanı, müxtəlif məlhəmlər və i.a. istehsalı kimi yeni sahələr meydana gəlir. Keramika istehsalının, zərgərliyin inkişafı davam edir. Albaniyada dəmirişləmə, xüsusilə onun bir sahəsi olan silahsazlıq son dərəcə yüksək səviyyəyə çatmışdı. Alban ustaları qılınclar, xəncərlər, oxlar, nizələr, dəbilqələr qayırırdılar.

Alban dövrünün məskənlərində müxtəlif quruluşlu bir çox dulusçuluq kürələri aşkar edilmişdir. Qazıntılar nəticəsində böyük miqdarda sabit, ənənəvi formalı qab-qacaq, xeyli bədii keramika əşyaları tapılmışdır. Keramika məhsullarının bir çoxunda ustaların nişan-damğasına rast gəlinir. Hər usta eynitipli məhsulun müəyyən bir növünü hazırlayırdı ki, bu da nəinki dulusçuluğun müstəqil bir istehsal sahəsi kimi ayrıldığını, həm də dulusçular arasında müəyyən ixtisaslaşma getdiyini göstərir.

Son illərin qazıntıları hellinizm dövrü Albaniyasında damüstü kirəmit istehsalından danışmağa imkan verir, kirəmit istehsalı isə şəhərlərdə əsaslı tikinti işləri aparıldığına dəlalət edir. Alban zərgərlərinin sənətkarlığı yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə Albaniyada nəinki sənət əkinçilikdən ayrılmışdı, həm də sənətin öz daxilində əhəmiyyətli bir şaxələnmə və dar ixtisaslaşma vardı.

Albaniya beynəlxalq ticarət yollarından və quldarlıq sivilizasiyasının ən mühüm mərkəzlərindən kənarda deyildi. Arxeoloji materiallar alban tayfalarının Zaqafqaziya, Şərqi Ön Asiya, Kiçik Asiya tayfaları və xalqları ilə, Suriya ilə, Misirlə, Egey aləmi ilə əlaqələrinin nisbətən sıx olduğunu sübut edir.

Qəbələdə bulla hazırlamaq üçün biçilmiş xammalın olması, yerli məhsul olan, möhür basılmış, qaytan izləri qalmış onlarca bulla tapılması erkən hellinizm zamanından başlayaraq Albaniyanın iqtisadi həyatının, xüsusən ticarətinin səviyyəsinə çox mühüm sübutdur. Həmin bullalar eramızdan əvvəlki son yüzilliklərdə və eramızın ilk əsrlərində Qafqaz Albaniyasının paytaxtında aparılan ixrac-idxal əməliyyatlarına bariz sübutdur.



downloaded from KitabYurdu.az

Yazılı qaynaqlar və arxeoloji materiallar aydın şəkildə göstərir ki, eramızdan əvvəlki son iki-üç yüzillikdə Albaniyada şəhərlər və şəhər həyatı nisbətən yüksək səviyyəyə çatmışdı.

Hellinizm dövrü Albaniyasının şəhərləri artıq siyasi-inzibati və strateji mərkəzlər, ticarət-sənət və mədəniyyət mərkəzləri idi. Antik Albaniyanın urbanizasiyası əsaslı sosial-iqtisadi, siyasi və mədəni təbəddülatlarla yanaşı gedirdi. Albaniya şəhərləri öz xarakterinə və quruluşuna görə qonşu vilayətlərin antik şəhərlərindən bir o qədər seçilmirdi. Artıq eramızdan əvvəl I minilliyin ortalarında sosial-iqtisadi münasibətlərdə baş vermiş böyük dəyişikliklər nəticəsində Albaniya şəhərlərində də əmlak bərabərsizliyi yaranmış, cəmiyyət sosial cəhətdən təbəqələşmişdi. Hellinizm dövrü Albaniyasında azad əhalinin, yoxsullar və əyanların mövcud olduğu məlumdur. Kaspilər arasında "ən varlılar və əyanlar (hakimiyyət başında duranlar)" vardı. Antik Albaniyada həm tacirlər, həm də kahinlər vardı, qulları olan məbəd vilayəti mövcud idi. Sosial-iqtisadi inkişafın nisbətən yüksək səviyyədə olması, sənətin əkinçilikdən ayrılması, pul tədavülünün, zərbxanaların, əyanların, tacirlərin, qulların, şəhərlərin, şəhər həyatının olması - bütün bunlar hellinizm dövrü Albaniyasında sinifli cəmiyyətin, dövlətin mövcud olduğuna parlaq sübutdur. Eramızdan əvvəl III əsrdən gec olmayaraq meydana gələn və artıq eramızın hüdudundan uzaq Romada Albaniyanın "birinci" şəhəri kimi tanınan, kifayət qədər möhkəmləndirilmiş böyük və bütün əlamətlərdən göründüyü kimi, zəngin bir şəhərin - Qəbələnin mövcud olması faktının özü ölkədə dövlətin və çar hakimiyyətinin olduğuna sübutdur. Buna görə də Strabonun albanlarda "indi (seyrəltmə bizimdir - *məsul red.)* bütün tayfaları bir çar idarə edir" sözləri ən geci eramızdan əvvəl III əsrə aid edilməlidir.

Makedoniyalı hökmdara qeyri-adi bir hədiyyə bəxş etmiş "Albaniya çarı" haqqında Yuli Solin də məlumat vermişdir. Ola bilsin ki, hələ eramızdan əvvəl IV əsrin son sülsündə albanlarda "çarlar" varmış, çünki antik müəllif açıq-aydın yazır ki, "biz bu barədə oxumuşduq", bu isə şübhəsiz, bizə gəlib çatmayan hansısa mənbəyə işarədir.

Mada-Əhəməni ənənələri erkən hellinizm zamanında Albaniyada sinifli cəmiyyətin və dövlətin meydana gəlməsinə və təşəkkül tapmasına təkan verməyə bilməzdi. Görünür, Albaniya tayfaları bir sosial institut kimi dövlətlə ilk dəfə hələ Əhəmənilərin hökmranlığı zamanı rastlaşmışdılar.

Atropat dövründə alban tayfalarının siyasi meydana çıxması Albaniyada dövlətin meydana gəlməsinə xeyli dərəcədə təkan vermişdir, o zaman atropatenalıların hökmdarı ilə albanlar arasında müttəfiqlik münasibətləri, bəlkə də, müttəfiqlik - xəracvermə münasibətləri vardı.

**Albaniya eramızın hüdudlarında** və **ilk əsrlərində. Parfiyaya və Romaya qarşı mübarizə.** Qafqaz Albaniyasının tarixi qonşu ölkələrdə baş verən siyasi



downloaded from KitabYurdu.az

hadisələrlə çulğaşırdı. Bu, eramızdan əvvəl son əsrlərə - eramızın ilk əsrlərinə, yəni Ön Şərqdə üstünlük uğrunda Roma ilə Parfiya arasında şiddətli mübarizədən xəbər verən intensiv hərbi toqquşmalar zamanına da aiddir.

II Mitridatın (e.ə. 123-87-ci illər) vəfatından sonra Parfiya çarlığı zəiflədi. II Tiqran (e.ə. 94-56-cı illər) "yetmiş vadini" geri aldı, Şimali Mesopotamiyanın və Atropatenanın üzərinə atıldı. Bu zaman artıq iki koalisiya yaranmışdı: birinin başında yeni ərazilər işğal etməyə can atan Roma dururdu, o birinə II Tiqran və Parfiya çarı III Fraat (e.ə. 69-57-ci illər) tərəfindən müdafiə olunan Pont dövləti başçılıq edirdi. Roma VI Mitridat Evpator ilə mübarizəyə Avreli Kottanı və Lisini Lukullu göndərdi. Tezliklə Kotta darmadağın edildi, Lukull isə yerli sakinlərdən və Sullanın Kiçik Asiyada qalan keçmiş döyüşçülərindən yeni legionerlər toplamağa başladı.

Romalılar hücum edərək şəhərləri bir-birinin ardınca alırdılar. II Tiqranla toqquşma labüd idi. Plutarxın dediyinə görə, II Tiqranın yanında "ermənilər və korduyenlər ellik yığma qoşun kimi cəmləşmişdilər, çarlar midiyalıları və adiabeiləri gətirib gəlmişdilər, Babildə olan dəniz tərəfdən yığma qoşun, çoxlu ərəb və Kaspi [sahillərindən] çoxlu alban və albanlarla qonşu olan iberlər gəlmişdi; çarları olmayan və Araz [sahillərində] sürü otaran bir çox tayfalar da gəlmişdilər - [bəziləri] yardım göstərmək, [başqaları isə] hədiyyə almaq məqsədilə".

Lukullun işini davam etdirmək gənc Roma sərkərdəsi Qney Pompeyin öhdəsinə düşdü. Roma sərkərdəsi Ermənistandan Sevan gölünün yanı və Dilican dərəsindən keçərək Qazax və Ağstafa tərəfə uzanan yeganə rahat ticarət yolu ilə hərəkət edirdi. Anait məbədinin yaxınlığı romalılara bir çox cəhətdən sərfəli idi. Qismən ona görə ki, müxtəlif əyləncələrlə müşayiət edilən Roma bayramları yaxınlaşırdı. Albanlar əvvəlcə Roma sərkərdəsinə yol verməyə razı oldular. Lakin dekabr ayında qeyd edilən Kron (Saturn) bayramı başlandıqda, azı qırx min alban çağırılmamış qonaqların üzərinə hücum etdi.

Albaniya çarı Oroys Metell Kelerin üzərinə yeridi. Oroys qoşununun başqa bir hissəsini Pompeyin, üçüncü bir hissəsini də Luki Flakkın üzərinə göndərdi. Müvəffəqiyyət qazanılacağı təqdirdə albanlar romalıların hər bir düşərgəsini ayrılıqda - Qney Pompeyin ordusunu hissə-hissə məhv etməli idilər. Lakin Metell Keler həmləni dəf etdi. Luki Flakkın vəziyyəti bir qədər çətin oldu; bu zaman Pompey birbaş Oroysa tərəf hərəkət etdi. Lakin romalılar üzbəüz sahilə keçmədilər, hücum dayandırıldı və Pompey albanlarla barışıq sazişi bağlamağa məcbur oldu. Albanlar ilə romalılar arasında başqa bir çarpışma Pompey Ermənistana qayıtdıqdan sonra baş verdi. Dion Kassinin yazdığına görə, "Pompey albanlar ilə sülh sazişi, sonra isə elçilər vasitəsilə Kaspi dənizinə qədər Qafqazın bəzi başqa sakinləri ilə müqavilələr bağladı".

Yadellilərə qarşı müharibədə albanlara köçərilər də kömək edirdilər, onlar Qafqaz Albaniyasının müqəddəratında böyük rol oynayırdılar.



downloaded from KitabYurdu.az

Sonrakı hadisələr göstərir ki, romalılar yalnız Kiçik Asiyada deyil, Qafqazda da öz mövqelərini bərpa etməyə yenidən cəhd göstərirdilər. Mark Antoninin yaxın silahdaşı, ağır piyada qoşun rəislərindən biri Publi Kanidi Krass həm Atropatena yürüşündə fəal iştirak edir, həm də Albaniya ərazisinə soxulan romalılara başçılıq edirdi.

Plutarxa əsasən, Kanidi iber və albanların basilevslərinə qalib gəlmişdi, hərçənd Albaniyada uzun müddətə yerləşmək romalılar üçün çətin idi. Albanlara qarşı yürüş eramızdan əvvəl 36-cı ildə Kellinin və Nervanın konsulluğu ilə bir vaxta, yəni Mark Antoninin Atropatenaya hərbi yürüşü ilinə təsadüf etmişdi.

Ankira kitabəsi eramızdan əvvəl birinci yüzilliyin son illərində Albaniyada təşəkkül tapmış siyasi vəziyyət haqqında mühakimə yürütməyə imkan verir. Bu kitabda Roma imperatoru Avqustun adından deyilir ki, digər xalqlar sırasında albanlar da romalılarla dostluq münasibətləri yaratmaq istəyirdilər,

Eramızdan əvvəl birinci əsrin başlanğıcı romalılar ilə Qafqaz xalqları arasında daha intensiv münasibətlərlə əlamətdardır. Bu dövrün mənbələrində Albaniyanın da adı çəkilir. Məsələn, devrilmiş Parfiya çarı I Vonon Ermənistana, sonra albanların və skiflərin yanına qaçmağa cəhd göstərirdi.

Zaman keçdikcə Şərqdə romalıların nüfuzu güclənir. Tasitin yazdığına görə, romalılar "Suriyadan Fərat çayına qədər (uzanan) çox böyük ərazini bütövlükdə dörd legionun köməyi ilə tabelikdə saxlayırdılar, qonşuları iber və alban reksləridir; bizim əzəmətimiz [onları] özgə hökmranlığından müdafiə edir". Korneli Tasit eramızdan əvvəl 35-ci ildə Orodun rəhbərlik etdiyi parfiyalılar ilə iberlərin, albanların və sarmatların birgə qüvvələri arasında baş vermiş hərbi əməliyyatı qeyd edir.

Antik Albaniya Romanın tərəfdarı olan qonşu İberiya ilə müttəfiqlik əlaqələri saxlayırdı. İberlər ilə albanlar arasında yaxınlaşma meyli çar Oroysun və onun qardaşı Kasisin zamanından başlanmışdı və yalnız Zober vaxtında deyil, daha sonralar da davam edirdi. İosif Flavinin sözlərinə görə, imperator Tiberi "iber və alban basilevslərini [Parfiya hökmdarı] Artaban ilə dərhal müharibəyə başlamağa razı salmaq üçün onlara hədiyyə olaraq xeyli pul göndərmişdi. Lakin (iberlər və albanlar) özləri (müharibə etməyə) razı olmadılar, Kaspi darvazasını açıb öz [torpaqlarından] skiflərə sərbəst yol verərək onları Artabanın üstünə saldılar. Beləliklə, Artaban yenə Ermənistandan məhrum oldu, Parfiya torpağı müharibə meydanı oldu, ən nüfuzlu şəxslər öldürüldü, onların hər şeyi viran edildi, döyüşlərdən birində çarın oğlu özünün bir neçə miriad qoşunu ilə birlikdə həlak oldu...".

Əldən-ələ keçən Ermənistan uğrunda Parfiya dövləti ilə Romanın hərbi toqquşmaları II Artabanı İberiya və Albaniya ilə uğursuz mübarizəyə sövq etdi. Öz azadlıqlarını qorumaq lazım gələndə iberlərin və albanların mənafeləri üst-üstə düşürdü.



downloaded from KitabYurdu.az

Sonralar başqa siyasi vəziyyət müşahidə edilir. Məsələn, iberlər ilə albanlar arasında mübarizə Tasitin belə bir məlumatında əks olunmuşdur ki, 51-ci ildə İberiya basilevsi "Farasman (öz qardaşı Mitridat ilə) müharibə etmək üçün bəhanə uydurmuşdu, bəhanə isə bu idi ki, o, alban çarı ilə müharibə zamanı romalıları köməyə çağıranda qardaşı (buna) müqavimət göstərmişdi" [12, 45].

Tasit məlumat verir ki, "Neron koqortalarını seçib qabaqcadan Kaspi darvazasına tərəf göndərmişdi, (lakin) Albaniyada hazırladığı müharibəni dayandırmış, Vindeksin üsyanını yatırmaq üçün (qoşunları) geri çağırmışdı". İmperator Neronun albanlarla müharibəyə başlamaq hədələri haqqında Plini də məlumat verir.

I Volegezdən sonra II Pakor (78-116-cı illər) Parfiyada çar oldu. Roma ilə Parfiya arasında dinc münasibət heç də o demək deyildi ki, romalılar Ön Şərqi işğal etmək fikrindən daşınmışdılar. Ələ imkan düşən kimi Roma qoşunları yad ölkələrdə peyda olurdular.

Görünür, I əsrin axırlarında alban parfiyalılara qarşı hərbi əməliyyat aparan Roma qoşunlarının rəisləri ilə ittifaq münasibətlərinə girmişdilər. Buna görə də albanlar XII Fulminata legionu qoşunlarının ayrı-ayrı hissələrini öz ərazilərinə buraxa bilərdilər. Ehtimal edildiyinə görə, romalıların Kaspi dənizi sahilində zühuru Albaniyanın siyasəti ilə bağlı idi; bu zaman Albaniya cənub istiqamətində öz torpaqlarını genişləndirə bilərdi. Romalıların Kaspi sahilində peyda olmasının, ola bilsin, həm iqtisadi, həm də siyasi səbəbi vardır. XII Fulminata legionu 70-ci illərdən başlayaraq daim Kappadokiyada olur və lazım gəldikcə ondan Kiçik Asiyada, Suriyada və Qafqazda istifadə edilirdi. Kaspi dənizi sahilində aşkar edilmiş kitabədən məlum olur ki, imperator Domisianın hakimiyyəti dövründə (81-96-cı illər) Roma dəstələrindən biri Şərqin uzaq ölkələrinə yol axtara-axtara Qafqaz Albaniyasının ərazisinə keçmişdi.

I əsrin sonu Kiçik Asiya və Qafqaz ölkələrinə siyasi, iqtisadi və mədəni təsir göstərməkdə Roma ilə yarışan Parfiya dövlətinin dağılması ilə əlamətdardır. Bitib tükənməyən sülalə çəkişmələri Parfiyanın mərkəzi hakimiyyətinin zəifləməsini göstərir, məhz bu çəkişmələr nəticəsində bir çox müstəqil kiçik ölkələr - bu və ya digər siyasi istiqaməti və istəyi ilə seçən çarlıqlar meydana gəldi. Belə ölkələrdən biri də Qafqaz Albaniyası idi.

98-ci ildə Romada Trayan imperator oldu. O, Parfiya ilə müharibəyə hazırlaşırdı, 114-cü ildə isə romalılar Arşakilərin hakimi Partamasirə qalib gəldilər. Fest məlumat verir ki, "[Trayan] albanlara reks verdi, iberləri və başqa xalqları Roma təbəəliyinə qəbul etdi". Mövcud rəyə görə, Albaniyanı çıxmaqla Qafqaz 2-3 il ərzində, yəni Trayanın vəfatınadək nominal olaraq Romaya tabe idi. Festdən gətirilən parçaya əsasən güman etmək olar ki, Roma yerli basilevslərdən birinin Albaniyanı idarə etməsinə razılıq vermişdi, yəni bu zaman kəsiyində Qafqaz Albaniyasının



downloaded from KitabYurdu.az

Romaya meyli göz qabağında idi. Hadriannın vaxtında (117-138-ci illər) romalılar Şərqdə istila edilmiş torpaqları əllərində saxlaya bilmədilər; Hadriann parfiyalılar ilə mehriban qonşuluq əlaqələri saxlayırdı, ermənilərin öz çarının olmasına icazə vermişdi, amma albanlar ilə dostluq münasibətlərində idi, albanların rekslərinə səxavətlə hədiyyələr verirdi, hərçənd onlar hüzuruna gəlməkdən boyun qaçırmışdılar.

Sonrakı hadisələr göstərdi ki, Roma Parfiya ərazisindən keçmədən Şərq ölkələri ilə daimi əlaqə saxlaya biləcəyinə ümidini itirmirdi. Yəqin ki, bu cəhət Qafqaz ölkələrinin - İberiya və Albaniyanın siyasi meylində az rol oynamırdı. Dion Kassi məlumat verir ki, təqribən 133-cü ildə "İudeya müharibəsi qurtardı. Başqa bir müharibə Farasman tərəfindən albanların torpağından başlandı... [müharibə] Midiyanı bərk sarsıtdı, Ermənistana və Kappadokiyaya da toxundu və ona görə qurtardı ki, albanlar bir tərəfdən Vologezin hədiyyələri ilə ələ alındılar, digər tərəfdən isə Kappadokiya hakimi Flavi Arriandan qorxurdular". Hadisələr məhz 130-cu illə 136-cı il arasında, Flavi Arrian Kappadokiyanın hakimi olanda cərəyan edirdi. III əsrin başlanğıcında Roma nəzərə çarpacaq dərəcədə zəifləyirdi: quldarlıq təsərrüfatları dağılır, əyalətlərin separatizmi artır, barbarlar sərhədi daha tez-tez pozurdular. İranda isə başqa hadisələr baş verir: 234-cü ildə Papakın oğlu Artaşir Parfiyanın sonuncu çarı V Artabana qalib gəlir və nəhəng çarlığın çarı olur. Albaniyanın İran və Roma ilə qarşılıqlı siyasi münasibətləri xeyli dəyişir. Bu zaman Roma imperiyası artıq Şərqi Qafqazın siyasi tarixində böyük rol oynamır; onun yerini yeni Sasanilər dövləti tutur. I Şapurun hakimiyyəti illərində (242-272) Roma ilə Sasanilər İranı arasında mübarizə qızışır. Bu zaman Ön Şərq ərazisində əhali axını müşahidə edilir. Məsələn, Movses Xorenatsı məlumat verir ki, təqribən 242-ci ildə Şimalın qoşun başçılarından olan Mamqun adlı birisi öz adamları ilə farsların tərəfinə keçmişdi. I Şapur Ermənistana qoşun başçısı göndərir. Roma ilə İran arasında mübarizə Roma imperatoru Valerianın gözlənilmədən əsir tutulması ilə qurtarır (260-cı il), Valerian İran çarını müşayiət edir, Şapur ata minmək istəyəndə onu məcbur edirlər ki, əyilib belini çarın ayağının altına versin, Yuli Kapitolin bildirir ki, albanlar da baktriyalılar, iberlər, tavroskiflər kimi Valerianın əsir tutulması münasibətilə Saporun (Şapurun) göndərdiyi məktubları qəbul etmədilər, Roma başçılarına məktub yazaraq Valerianı əsirlikdən qurtarmağa kömək edəcəklərinə söz verdilər. Digər tərəfdən, Zərdüşt dini mərkəzində Sasani çarı I Şapurun kitabəsində çarlığın digər vilayətləri ilə yanaşı, təkcə Atropatenanın deyil, Albaniyanın da adı çəkilir.

**Eramızın hüdudunda və ilk əsrlərində şimaldan Albaniyanın və bitişik vilayətlərin ərazisinə köçərilərin girməsi.** Albaniyanın və bitişik vilayətlərin ərazisinə Şimaldan köçəri ünsürlərin girməsi eramızın hüdudunda və ilk əsrlərində xüsusilə güclənirdi. Yazılı qaynaqlar və arxeoloji məlumat bu zaman Albaniya ərazisinə sarmat-massaget-alan tayfalarının soxulduğunu sübut edir.



downloaded from KitabYurdu.az

I əsrin son sülsündə Mingəçevir zonasında yeni qəbir tipləri və dəfn adətləri meydana gəlir. Burada ölüləri küplərdə dəfn etmək adəti qalmaqla bərabər, katakomba qəbirlərə, deformasiya olunmuş kəllələrə təsadüf olunur ki, bu da alanlara xas olan etnik əlamətdir. Arxeoloji abidələr eramızın ilk əsrlərində və hətta bir qədər qabaq Dağıstan ərazisinə sarmat-massaget-alan tayfalarının soxulmasını göstərir. Cənub rayonları Mazkut çarlığının tərkibinə daxil olan Dağıstanda sarmat və sarmatvari simalı bir çox maddi mədəniyyət abidələrinin olması arxeoloji materiallarda təsdiq edilir. Burada sarmat yaraq-əsləhəsi, müxtəlif növ toqqalar, muncuqlar və s. az deyildir. Ayrı-ayrı ünsürləri Azərbaycan ərazisindəki Yaloylutəpə keramikasına yaxın olan sarmat keramikasına da rast gəlinir. Dağıstan zonasında və ondan cənubda yerləşən rayonlarda alanlardan əlavə aorslar olmuşdu; aorsların izləri Tarki qəbiristanında tapılmışdır,

Görünür, aorslar özləri Aral-Sırdərya vilayətlərindəndir və massaget konfederasiyasına daxil idilər. Kaspinin şimal sahilində, daha qərbdə və cənub-qərbdə yerləşən vilayətlərə aorsların və digər Orta Asiya tayfalarının yeriməsini, yəqin ki, "toxar istilası" ilə əlaqələndirmək lazımdır.

Eramızdan əvvəl son üç əsrdə aorslar Kaspinin şimal və şimal-qərb sahillərində yerləşən vilayətlərdə hökmranlıq edən ən güclü birlik idi. Strabonun dediyinə görə, onlar "ermənilərdən və midiyalılardan mübadilə qaydası ilə hind və Babil malları alır, dəvə karvanları ilə daşıyıb satırdılar". Özlüyündə təkcə bu cəhət Dağıstan və Azərbaycanın Kaspisahili zolağında aors ünsürləri roluna və əhəmiyyətinə şəhadət verə bilər. Elə burada qeyd etmək lazımdır ki, Həştərxan sarmatlar qrupunun, yəni aorslarla tərəddüdsüz əlaqələndirilə bilən qrupun keramikası ilə Azərbaycanın Yaloylutəpə mədəniyyətində oxşar cəhətlər vardır. Azərbaycanın küp qəbirlərində olan sarmat ünsürlərini də, görünür, aorsların təsiri ilə izah etmək lazım gəlir.

Bütün bunlar belə hesab etməyə əsas verir ki, hələ eramızın hüdudunda sarmat-massaget-alan dairəsi tayfaları Dərbənd keçidi vasitəsilə Azərbaycanın Kaspiboyu zolağının ərazisinə soxulurlar.

Erməni müəlliflərinin Kaspinin qərb sahillərində məskunlaşmış tayfalar kimi xatırlatdıqları mazkutlar, şübhəsiz, massagetlərin eynidir. Massagetlərin göstərilən vilayətdə, albanların qonşuluğunda sakin olmasından antik müəlliflər də bəhs edirlər. I əsrdə Parfiya-Roma münasibətləri ilə əlaqədar olaraq xatırladılan dövlət məhz burada yaradılmışdı. Həmin dövlət Mazkutlar çarlığıdır, ərəb müəlliflərinin Maskat adlandırdıqları dövlətdir.

Bu rayonun toponimiyasında və onun tat əhalisinin dilində skif-sarmat-alan ünsürlərinin izləri vardır. Məsələn, Samur və Rubas çaylarının (Maskat ərazisində) adları osetin dilində (bu dil öz mənşəyini alan dilindən alır) müvafiq surətdə "dələ" və "tülkü" deməkdir. Abşeron yarımadasında Maştağa (Maşqata) kəndinin adı "massagetlər" kimi izah edilir. Maşkur xoronimi, müvafiq surətdə ermənicə Mazkut və ərəbcə Maskat xoronimləri də massagetlərin adından götürülmüşdür. Dərbənddən cənubda yerləşən rayonun - Çora



downloaded from KitabYurdu.az

(Çola) keçidinin adını da, görünür, skif-sarmat dil materiallarının köməyi ilə izah etmək olar.

Azərbaycanın Kaspisahili zolağı arxeoloji cəhətdən zəif tədqiq edilmiş olsa da, təsdiq etmək olar ki, bu zonada sarmat-massaget-alan mədəniyyətlərinin aşkar izləri vardır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, daş qutularda (Şamaxı zonası) dəfn edilənlər arasında qafa tası deformasiya edilmiş fərdlərə rast gəlinir. Dəfn qaydasının xüsusiyyətləri - ölünün uzanmış halda qoyulması, od mərasiminin kəskin surətdə nəzərə çarpan əlamətləri, meyitlərlə birlikdə itlərinin basdırılması və i.a. da sarmat-alan təsirindən xəbər verir.

Yuxarıda göstərilən və Azərbaycanın şimal-qərb rayonlarının avtoxton əhalisinin mədəniyyətinə yabançı olan hallar bu əraziyə yeni etnik ünsür gəldiyini tam aydınlığı ilə sübut edir.

Yazılı qaynaqlarda olan məlumat belə hesab etməyə imkan verir ki, Azərbaycanın adı çəkilən rayonlarına alanların gəlməsi I əsrə aiddir və onların Zaqafqaziya ölkələrinə və daha cənuba məlum yürüşü ilə bağlıdır; İberiya çarı ilə ittifaqda olan alanlar Daryal keçidindən addayıb "çox böyük bir kütlə ilə heç nədən şübhələnməyən midiyalılara basqın etdilər və "...hər yeri viran qoyaraq Ermənistana çatdılar".

Azərbaycanın sahil zolağının massaget-alan tayfaları, görünür, hələ uzun zaman etnik və siyasi cəhətdən real qüvvə idilər.

O ki qaldı Azərbaycanın şimal-qərb vilayətlərində olan alan ünsürünə, o, yəqin ki, VII əsrin axırlarına yaxın tarix meydanından çıxmağa başlamış və qonşu tayfa qrupları tərəfindən assimilyasiyaya uğradılmışdı. Məhz bu zaman xristianlığın təsiri altında katakombalar və onlarla bağlı mərasimlər dəfn praktikasından qeyb olmağa başlamışdı.



downloaded from KitabYurdu.az

XVI FƏSİL

# ANTİK ALBANİYANIN MƏDƏNİYYƏTİ

**Albaniyanın maddi mədəniyyət abidələri.** Azərbaycan ərazisində aparılmış arxeoloji tədqiqatlar sayəsində Albaniyanın zəngin maddi mədəniyyəti üzə çıxarılmışdır. Maddi mədəniyyət abidələri hər şeydən əvvəl yaşayış məskənləri, müxtəlif tikililər və qəbirlərdən, habelə ayrı-ayrı əşyalardan ibarətdir. Bunların tədqiqi gedişində çoxlu məişət, təsərrüfat, ibadət əşyaları və sənətkarlıq məmulatları tapılmışdır.

Alban məskənləri materialının öyrənilməsi ictimai-iqtisadi münasibətləri səciyyələndirmək üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Yaşayış məskənləri əsasən çay kənarlarında, münbit torpaqlara malik, strateji cəhətdən əlverişli və b. k. sahələrdə yerləşirdi.

Bəzi məskənlər xüsusi qazılmış dərin xəndəklərlə də qorunur (Qəbələ, Qalagah, Şortəpə), daşdan hörülən müdafiə hasarları (Qırlar), yaxud torpaq səd və ya xəndək (Şortəpə) ilə dövrələnirdi. Hasarlarda darvaza qoyulur və darvazadan təpənin ətəyinə pilləkən enirdi.

Memarlıq formalarının erkən dövrü üçün əsasən çiy kərpicdən hörülən, (36x36x14 və 42x42x12 ölçülü) dördkünc yaşayış otaqları səciyyəvidir (Qəbələ, Mil düzündə Qaratəpə). Otaqların yeri gil məhlul ilə şirələnirdi. Kiçik otaqlarla yanaşı, Şərq memarlığına məxsus formalarda tikilmiş, böyük, sütunlu salonları olan saray tipli binalar da vardı; sütunların daş bazaları qalmışdır (Sarıtəpə, Xınıslı, Qəbələ). İri binalar üçün əsas tikinti materialı çiy kərpic idi. Çox qalın divarların bünövrələri çaydaşından qoyulurdu. Məskənlərin mərkəzi binaları - qəsr və ya akropol - künclərdən kvadrat bürclərlə möhkəmləndirilirdi (Qırlartəpə). Zəlzələ təhlükəsi çox olan rayonların memarlığında daş hörgüyə arada ağac tirlər (kətil) qoyulurdu ki, bu da tikintinin davamlılığını artırırdı.

Binaların damı kirəmitlə örtülürdü (Qəbələ, Mollaisaqlı), divar və döşəmələri palçıqla suvanırdı. Arxeoloji qazıntılardan hörmə çubuq izləri ilə birlikdə suvaq qalıqları aşkar edilmişdir. Tikintidə ağacdan geniş istifadə edilirdi; kömürləşmiş ağac materialı qalığı bunu aydın göstərir.

Məskənlərin ərazisində çoxlu (məsələn, Mingəçevirdə 23-ə qədər) dulus kürəsi vardı. Mədəni təbəqələrdən metallurgiya ilə bağlı materiallar: butalar (Qalagah), tökmə üsulu ilə bəzək şeyləri hazırlamaq üçün daş qəliblər (Şortəpə) və s. tapılmışdır.

Eramızdan əvvəl III əsrin axırlarından Qəbələnin Çaqqallı, Qala və Səlbir hissəsində zəngin həyatın varlığı təsdiq edilmişdir. Qəbələ möhkəm müdafiə tikililəri ilə əhatələnmişdi. Hasarların hörgüsündə gildən, çiy kərpicdən, daşdan və bişmiş kərpicdən istifadə olunmuşdur. Çaqqallının müxtəlif yaşayış və ictimai binalarının



downloaded from KitabYurdu.az

xarabalıqları 50 hektardan çox ərazidə yerləşir. İctimai binalardan birinin divarlarının qalınlığı 2 metrə yaxın olub, bir neçə salonu vardı. Salonların sütunlarının oturacaqları zövqlə yonulmuş sal daşlardandır. Binanın üstü yüksək keyfiyyətli kirəmitlə örtülmüşdü, kirəmitə ustaların damğaları və başqa fərqləndirmə nişanları vurulmuşdu. Qafqaz Albaniyasının antik dövrü üçün səciyyəvi olan keramika, şüşə qablar, gümüş piyalələr, metal əmək alətləri, silah, antropomorf və zoomorf terrakot heykəlciklər, qızıl sırğalar, metaldan, sümükdən müxtəlif bəzək şeyləri və i.a. böyük sənətkarlıqla hazırlanmışdır. Təsərrüfatın müxtəlif sahələri, sənətkarlıq, daxili və xarici ticarət, habelə pul tədavülü intensiv inkişaf edirdi.

Anbarları, müxtəlif mallar doldurulmuş sandıqları möhürləyərkən tətbiq edilən möhürlər və ya bullalar (möhür vurulmuş gil parçaları), habelə çoxlu dən daşları, ərzaq saxlanılan iri küplər eramızdan əvvəl III-II əsrlərdən intensiv təsərrüfat və ticarət həyatının səciyyəvi əlamətlərini əks etdirir.

Azərbaycanın müxtəlif rayonlarında: Qaraköbər (Ağcabədi rayonu), Qalatəpə (Beyləqan rayonu), Əmirvan, Seyidtala (Qəbələ rayonu), Vardanlı (Oğuz rayonu), Şəkili, Kürdüvan, Talıstan, Uzunboyalar (İsmayıllı rayonu), Canaxar, Xuçbala (Quba rayonu), Çıraqlı, Dağkolanı, Bağırlı, Qalacıq (Şamaxı rayonu), Kirzan (Qazax rayonu), Torpaqqala (Qax rayonu), Urseki, Tarki, Turpaqqala (Dağıstan), habelə Fizuli, Gəncə, Şəmkir rayonlarında, Alazan çayı hövzəsində və Kür ilə Araz arasındakı ərazidə xeyli yaşayış məskənləri üzə çıxarılıb öyrənilmişdir. Qədim qəbir abidələrinin tədqiqi Albaniya əhalisinin dünyagörüşünü, dini və etnik fərqlərini əks etdirən zəngin material vermişdir. Qeyd etmək lazımdır ki, bir qəbiristanın hüdudları daxilində çox vaxt ölülər müxtəlif qaydada dəfn olunmuşdur; eyni zamanda məskənin ətrafında bir neçə qəbiristanın olması halları da məlumdur.

Ölülər dördkünc, dəyirmi, ovalşəkilli torpaq qəbirlərdə, küplərdə, taxta qutularda, saxsı təknədə, çiy kərpicdən hörülmüş qəbirdə, daş qutularda, habelə katakombalarda dəfn edilirdi. Məsələn, Nüydü, Qəbələ, Yaloylutəpə, Uzunboylar üçün torpaq qəbirlər, Qaraköbər qəbiristanı üçün küp qəbirlər, Xanlar üçün (Gəncə yaxınlığında) çiy kərpicdən hörülmüş qəbirlər, Mollaisaqlı üçün saxsı tabutlar səciyyəvi olduğu halda, Şamaxı və Mingəçevir məzarıstanlarında bir qəbiristanın hüdudları daxilində bir neçə tip qəbirlər məlumdur ki, bu da görünür, müxtəlif etnik qrupların mövcud olması ilə bağlıdır. Bu və ya digər dəfn qaydalarına görə müxtəlif arxeoloji mədəniyyətləri də bir-birindən ayırmaq mümkündür. Məsələn, ölünün bükülü vəziyyətdə qoyulduğu, özünəməxsus səciyyəvi keramikası olan torpaq qəbirlər müstəqil arxeoloji mədəniyyət kimi ayrılmış və ilkin aşkara çıxarıldığı yerə görə, "Yaloylutəpə mədəniyyəti" adını almışdır.

Bu mədəniyyətin keramikası üçün ən səciyyəvi tiplər üçqulaq, uzun novçalı, yumru gövdəli, lentvari qulplu, yaxşı bişirilmiş qara və ya qırmızı rəngli, bir və



downloaded from KitabYurdu.az

üçayaqlı qablardan ibarətdir. Sonralar bu mədəniyyətə mənsub qəbirlər və keramika Albaniyanın bütün ərazisində üzə çıxarılmışdır.

Torpaq qəbirləri antik dövrdə də Albaniya ərazisində geniş yayılmış qəbir abidələrinin ən sadə və qədim tipidir. Bunlar əsasən dördbucaq və oval formasındadır. Ölüləri qəbirə az və ya çox bükülmüş vəziyyətdə qoyurdular; oturmuş vəziyyətdə, sağ və ya sol böyrü üstə dəfn etmək hallarına da rast gəlinir. Adətən qəbrin ölçüləri dəfn edilən şəxsin ölçülərindən böyük götürülürdü; bəzən eni 2 metr və uzunu 4 metrə qədər olurdu. Qəbrə ölü ilə birlikdə müxtəlif məişət əşyaları və qurbanlıq heyvanların cəmdəkləri də qoyulurdu. Məsələn, İsmayıllı rayonunun ərazisində yerləşən Uzunboylar qəbiristanının eramızdan əvvəl III-II əsrlərə aid qəbirlərinin birindən 70 saxsı qab, altı nizə ucluğu, bir neçə oraq və bıçaq çıxmışdır. Burada 7 bütöv qoyun-keçi skeleti, bir bütöv inək skeleti və i.a. da vardı.

Torpaq qəbirlər alban dövrünün bir çox abidələrindən - Mingəçevirdə, Yaloylutəpədə, Qəbələdə (Qəbələ rayonu), Xınıslıda, Çıraqlıda (Şamaxı rayonu), Nüydüdə, Qırlartəpədə (Ağsu rayonu), Torpaqqalada (Qax rayonu), Uzunboylarda (İsmayıllı rayonu), Kişdə (Şəki), Şəmkirdə, Xuçbalada (Quba rayonu), Tarkidə Qarabudaqkənddə, Şarakunda (Dağıstan), Alazan çayının vadisində və başqa yerlərdə olan abidələrdən məlumdur. Adlarını çəkdiyimiz bütün abidələri səciyyələndirən ümumi cəhətlərlə yanaşı, bəzi məhəlli xüsusiyyətlər də vardır. Məsələn, Mingəçevirdə qəbirlərin demək olar hamısında skelet azacıq bükülü vəziyyətdə idi və başı əsasən şimal-şərqə tərəf qoyulmuşdu. Qəbirdə zəngin avadanlıq, o cümlədən keramika, dəmir silah və əmək alətləri, bəzək şeyləri, sikkələr, möhürlər və i.a. vardı. Tapıntıların təhlili göstərilən qəbirləri eramızdan əvvəl V-III əsrlərə aid etməyə imkan verir.

Ölülərin çox bükülü vəziyyətdə dəfn edildiyi torpaq qəbirlər Yaloylutəpədə, Nüydüdə, Xınıslıda üzə çıxarılmışdır və əsasən eramızdan əvvəl III-I əsrlərə aiddir. Adı çəkilən abidələr arasında Nüydü xüsusi yer tutur. Burada keramika ilə yanaşı, çoxlu nizə ucluqları və bir tunc dəbilqə də tapılmışdır. Nüydüdə zəngin bər-bəzək dəsti - qolbaqlar, üzüklər, asma bəzəklər, boyunbağılar, qadın tacları (çələngləri) aşkar edilmişdir. Qəbirlərin birindən yerli ustalar tərəfindən zərb olunan sikkə dəfinəsi tapılmışdır. Maddi mədəniyyətin qeyd edilən bütün kateqoriyaları yerli ustaların məhsuludur.

Qədim Şamaxı, Qəbələ, Bərdə və b. qəbiristanların öyrənilməsi zamanı üzə çıxarılmış gümüş və qızıl məmulatı diqqəti cəlb edir. Qırlartəpə məskəninin yaxınlığında yerləşən, içərisində keramik qablar olan torpaq qəbirdən döymə üsulu ilə hazırlanan iki gümüş piyalə tapılmışdı. Burada yerli sənətlər haqqında müəyyən təsəvvür yaradan silah və bəzək şeyləri də aşkar edilmişdir.

Albaniya ərazisində iri küplərdə dəfn etmək adəti geniş yayılmışdı. Belə qəbirlər Mil, Qarabağ və Şirvan düzlərində və dağətəyi rayonlarda, Kür çayının



downloaded from KitabYurdu.az

sahillərində qeydə alınmışdır. Ağcabədi, Ağdam, İsmayıllı, Ucar, Şamaxı, Xankəndi, Qəbələ rayonlarında, Mingəçevirdə, Qalatəpə xarabalıqlarının ətrafında, başqa rayonlarda yüzlərlə küp qəbir tədqiq edilmişdir. Küplərdə dəfn etmək adəti ən qədim əsrlərdən başlanmışdır. Bu tip qəbirlər müxtəlif vaxtlarda Ön Asiyada və Qafqazda geniş yayılmışdır. Albaniyada bu adət eramızdan əvvəl I minilliyin ikinci yarısından ta eramızın VIII əsrinədək mövcud olmuşdur.

Albaniyanın qəbir abidələrinin başqa bir tipi ölülərin gil tabutlarda dəfn edilməsidir. Bu dəfn adətinin İsmayıllı rayonunda Mollaisaqlı, Hacıhatəmli və Qalagah kəndləri ətrafında, Qəbələ rayonunda, Quşlar və Savalan kəndlərinin yaxınlığında, habelə Şamaxı rayonunda yayıldığı öyrənilmişdir. Saxsı təknə yaxud tabutlar əsasən bir-biri ilə birləşən iki hissədən ibarətdir; divarlarında bir neçə kiçik deşik vardır. Kiçik gil tabutlar böyük tabutlardan yalnız ölçüsü ilə deyil, forması ilə də fərqlənir, onların bir və ya iki tutacağı vardır, deşikləri yoxdur, uzunsovdur, oval və ya dördbucaq şəklindədir; skeletlər bükülü vəziyyətdə sol və ya sağ böyrü üstə qoyulmuşdur. İstiqamət müxtəlifdir, lakin sifət əksər hallarda şərqə tərəf yönəldilmişdir. Avadanlıq əsasən baş hissədə, mərhumun üzü qarşısında və ayaq tərəfdə qoyulmuşdur. Tabutlardan kənarda zərif düzəldilmiş saxsı qablar yerləşdirilirdi. Qəbirlərin içərisində şüşədən, pastadan, mərmərdən və i.a. hazırlanan çoxlu muncuq, habelə tunc qolbaqlar, üzüklər, müxtəlif asma bəzəklər və maral təsvirli metal lövhə aşkar edilmişdir. Gil tabutlarda dəfn etmək adəti vaxt etibarilə əsasən Yaloylutəpə mədəniyyəti dövründə, yəni eramızdan əvvəl III əsrdən eramızın I-II əsrlərinə qədər olan dövrə uyğun gəlir.

Tarixi Albaniyanın ərazisində katakomba, taxta qutu və çiy kərpic qəbirlər aşkara çıxarılmış və öyrənilmişdir. Qəbirlərin bu tipi Azərbaycan ərazisinə sarmat-massaget-alan və digər irandilli tayfalar tərəfindən gətirilmiş və yerli əhali arasında qismən yayılmışdır.

Katakombalarda olan taxta qəbirlərdə maddi mədəniyyətin yüksək inkişaf səviyyəsini əks etdirən zəngin dəfn avadanlığı vardı. Bu tip qəbirlər eramızın I-IV əsrlərinə aid edilir; bunlar yalnız Mingəçevirdən tapılmışdır. Taxta qəbirlərdə ölülər bir qayda olaraq qoşa dəfn edilir, onlar üz-üzə, bükülmüş vəziyyətdə, başları cənub-şərqə tərəf qoyulurdu. Dəfn avadanlığı taxta qəbirin həm içərisində, həm də bayırında yerləşdirilirdi; ona keramikadan əlavə, dəmir qılınclar, xəncərlər, bıçaqlar, gümüş piyalələr, qızıl və gümüş zinət şeyləri, üzük-möhürlər və i.a. daxil idi. Bu tip qəbirlər zadəgan zümrəni əks etdirir.

Albaniyanın maddi mədəniyyəti qəbir tikililərinin başqa bir tipində -Xanlar rayonunda, Mingəçevirdə, Sabirabad rayonu ərazisindəki Cəfərxan kəndinin yaxınlığında tədqiq edilmiş çiy kərpic qəbirlərdə də öz əksini tapmışdır. Ölünün tək dəfn edilməsi bu qəbirlər üçün səciyyəvidir. Burada ölü arxası üstə uzadılırdı. Bu tip



downloaded from KitabYurdu.az

qəbirlərdən əldə edilən materiallardan bəlli olur ki, onlar iki eranın ayrıcına və eramızın ilk əsrlərinə aiddir.

Ayrı-ayrı yerlərdə indiyədək qalmaqda olan metal, daş və ağac əmək alətləri Albaniyanın iqtisadiyyatını öyrənmək üçün xüsusi əhəmiyyətə malikdir. Bunlar dəmir oraqlar, çapacaqlar, bıçaqlar, qayçılar, bizlər, iynələr, dən daşları, kirkirə daşları, sürtgəclər, bülöv daşlardan ibarətdir.

Xınıslı, Nüydü, Qırlartəpə, Yaloylutəpə, Qaraköbər, Torpaqqala və Albaniyanın digər məskənlərində forması və ölçüsü müxtəlif olan əl dəyirmanları, o cümlədən qayıq şəklində çox iri dən daşları aşkar edilmişdir. Eramızın I-II əsrlərindən başlayaraq işlədilən kirkirə daşlarının tapılması dən üyüdülməsinin yeni, mütərəqqi üsullarının tətbiqi ilə bağlıdır. O dövrdə xeyli miqdarda dişli oraqların olması əkinçilik sahəsində, xüsusən biçin prosesində əmələ gələn tərəqqini arxeoloji cəhətdən təsdiq edir. Arxeoloji tədqiqatlar zamanı aşkar edilən bitki qalıqları Albaniyada əkinçiliyin inkişafı və istehsal olunan məhsulların çeşidi haqqında mühakimə yürütməyə imkan verir.

Dulusçuluq məmulatı Qafqaz Albaniyası iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdiyini göstərir. Eramızdan əvvəl I minilliyin ikinci yarısında Yaloylutəpə keramikasının yeni səciyyəvi formaları - qonşu ölkələrin keramikasından fərqlənən süddanlar, birayaqlı və üçayaqlı vazalar meydana gəlir. Yaloylutəpə keramikası Şirvan, Şəki, Zaqatala bölgəsi, Gəncə-Qazax, Mil-Qarabağ düzü, Alazan və Kür hövzəsi, habelə Dağıstan ərazisində olan abidələrdən məlumdur. Yuxarıda qeyd edilmiş rayonlar üçün səciyyəvi olan keramika kompleksinin yeknəsəqliyi vahid, səciyyəvi iqtisadiyyata, mədəniyyətə və əraziyə malik əhalinin etnik yekcinsliyinə sübutdur.

Albaniya ərazisində xeyli miqdarda dəmirçilik məmulatı üzə çıxarılmışdır; onların böyük bir qismi yerli ustaların məhsuludur, bununla birlikdə gətirilmə əşyalara, başlıca olaraq zərif qab-qacağa və bəzək şeylərinə də təsadüf edilir. Albaniyanın yerli xammala əsaslanan metallurgiyası və metalişləmə sənəti yüksək kamillik səviyyəsinə qalxmışdı.

Alban cəmiyyətinin əyanlar təbəqəsinin məişətində geniş istifadə olunan gümüş və mis qab-qacaq cəmiyyətin sosial cəhətdən yekcins olmadığını da aydın bildirir.

Metal qablarla yanaşı, şüşə məmulatı da geniş yayılmışdı. Albaniyada şüşə qab istehsalının eramızın II-III əsrlərindən meydana gəldiyi ehtimal edilir. Əvvəlki dövrdə isə bunlar bir qayda olaraq Şərq ölkələrindən gətirilirdi.

Zərgərlik də nəzərə çarpacaq dərəcədə inkişaf etmişdi. Arxeoloji tədqiqatların gedişində, xüsusilə qəbirlərdə aşkar edilmiş bəzək şeyləri öz formalarının və istifadə olunmuş materialların rəngarəngliyi ilə fərqlənir. Bunlar metaldan, şüşədən, gildən, pastadan, müxtəlif qiymətli və yarımqiymətli daşlardan hazırlanırdı. Bəzək şeylərinin



downloaded from KitabYurdu.az

tərkibinə qadın tacları (çələngləri), boyunbağılar, qolbaqlar, üzüklər, asma bəzəklər, sancaqlar, toqqalar, muncuqlar, müxtəlif tikmə, bəzəklər və i.a. daxildir. Əsasən Mingəçevir, Yaloylutəpə, Xınıslı, Qəbələ, Qaratəpə, Qalagah, Şortəpə, Qırlıtəpə və digər Albaniya abidələri qazıntılarından məlum olan, nəcib metallardan və qiymətli daşlardan hazırlanmış bəzək şeyləri müəyyən qrup təşkil edir.

Bəzək şeylərinin böyük bir qrupu antik dövrdə geniş yayılmış qolbaqlardan ibarətdir. Qolbaqlar tuncdan, gümüşdən, qızıldan, dəmirdən hazırlanırdı. Ayrı-ayrı keramik qolbaq nümunələri də məlumdur. Qolbaqların ön kəsiyi dairəvi yaxud üçbucaqvaridir, çox vaxt zoomorf başcıqlar şəklində düzəldilən ucları bəzilərində aralıdır, səthi ya saya, ya da ornamentlidir; bu qolbaqlar yalnız bəzək şeyləri deyil, həm də qədim albanların ideoloji təsəvvürlərini əks etdirən ayin əşyaları idi.

Boyunbağılar əsasən o dövrün ən erkən qəbirlərinin materiallarından tanışdır. Ucları bir qədər genişləndirilmiş, bitişdirilməmiş, batıq ornamentlə bəzədilmişdir. Alban kişi və qadın qəbirlərində tez-tez üzük və sırğalara rast gəlinir - bunlar formaca bir-birindən fərqlidir. Onlar əlvan metallardan, dəmir və sümükdən düzəldilirdi. Üzüklər tökmə və döymə üsulu ilə düzəldilir; bəzən qiymətli daşlardan və şüşələrdən qaş qoyulur, zoomorf təsvirlər, həndəsi ornamentlərlə təchiz olunurdu. Qaşlı üzüklər möhür rolunu oynayırdı və xronoloji cəhətdən, bir qayda olaraq, qaşsız üzüklərə nisbətən daha sonralara aiddir. Üzük-möhürlərin xarici nümunələri adətən Romadandır. Onlar Qafqaz Albaniyasının Roma ilə geniş əlaqələrə malik olmasını təsdiq edir.

Bəzək şeyləri arasında sırğalar xüsusi yer tutur. Qızıl sırğalar Mingəçevir, Yaloylutəpə, Xınıslı, Qalagah, Şatırlı (Bərdə) və başqa yerlərdə aşkar edilmişdir. Qeyd etmək maraqlıdır ki, Şatırlı antik məskəni yaxınlığında olan qəbiristanda qazıntı zamanı müxtəlif zərgərlik məmulatı ilə birlikdə tökmə üsulu ilə sırğalar və digər bəzək şeyləri hazırlamaq üçün işlədilən daş qəliblər tapılmışdır.

Bəndlər bəzək şeyləri arasında mühüm yer tutur. Gümüş, tunc, dəmir bəndlərə qəbirlərin əksəriyyətində təsadüf edilir. Əcnəbi bəndlər, əsasən Roma bəndləri çoxdur. Arxeoloji qazıntılar nəticəsində əsasən tuncdan olan çoxlu miqdarda müxtəlif sancaqlar üzə çıxarılmışdır. Onlardan bəzilərinin başı tunc zəncirlərlə bəzədilmişdir.

Rəngarəng toqqalar, piləklər, asma bəzəklər və xüsusilə həm yerli ustalar tərəfindən düzəldilən, həm də kənardan gətirilən müxtəlif muncuqlar da külli miqdarda tapılmışdır. Muncuqlar əsasən antik dünyanın məşhur mədəniyyət mərkəzlərindən gətirilirdi və digər gətirilmə materiallarla birlikdə bunlar sübut edir ki, eramızdan əvvəl IV-I əsrlərdə və eramızın I-II əsrlərində Qafqaz Albaniyası Qara dənizin şimal sahilində yerləşən şəhərlərlə, Parfiyanın, Romanın, Mesopotamiyanın, Misirin, Hindistanın, Suriyanın şəhərləri ilə geniş ticarət əlaqələri və mədəni əlaqələr saxlamışdır. Albaniya ərazisində ehtiyatı bol olan əlvan daşlar keyfiyyətdə ən yaxşı



downloaded from KitabYurdu.az

gətirilmə nümunələrdən geri qalmayan bəzək şeyləri və möhürləri düzəltməkdə yerli sənətkarlar üçün xammal mənbəyi idi.

Miladdan əvvəl I minilliyə və miladın ilk əsrlərinə aid olan, əsasən hellinizm dövlətlərində, Romada kəsilmiş sikkələrdən ibarət dəfinələr və ayrı-ayrı sikkələr, habelə albanların öz sikkələri aşkara çıxarılıb öyrənilmişdir. Gümüş alban sikkələri Bərdə, Xınıslı, Qəbələ, Nüydü, Qırlartəpə abidələrindən məlumdur. Aşkara çıxarılmış sikkə dəfinələrinin tədqiqi göstərir ki, həmin sikkələr eramızdan əvvəl III əsrin axırlarından etibarən Albaniyada zərb edilib yayılmışdır.

**Antik Albaniyanın incəsənəti.** Arxeoloji tədqiqatlar nəticəsində qədim zamanların çoxlu ictimai binaları və başqa memarlıq abidələri, habelə sıravi tikililəri aşkar edilmişdir. Tikinti qalıqları binaların çaydaşından qoyulmuş bünövrələrindən, qismən salamat qalmış çiy kərpic divarlardan, bir çox sütunların müxtəlif tipli daş təməllərindən ibarətdir. Bunlar yəqin ki, monumental binaların memarlıq üslubu ilə bağlı yeganə məlum ünsürdür və təkcə əməli deyil, həm də estetik əhəmiyyətə malikdir. Albaniya ərazisində divar rəsmləri, mozaika və binaların başqa bəzək-düzəkləri təəssüf ki, hələ aşkar edilməmişdir.

Azərbaycan xalqının folklor ənənəsində hifz edilib saxlanılmış məlumat binaların içərisinin naxışlı boyalarla, ipək parçalarla, xalı-xalça ilə bəzədildiyinə, bir çox musiqi alətləri olduğuna və musiqi sənətinin yüksək inkişafına dəlalət edir. Qədim yerli ənənələrə əsaslanan Albaniya incəsənəti antik dövrdə müəyyən dərəcədə tənəzzülə uğrayır, daha erkən inkişaf dövrlərini səciyyələndirən rəngkarlıq sənəti qeyb olur; keramikaya vurulan əlvan naxışlar başlıca olaraq daha bəsit xarakter daşıyır.

Bununla birlikdə Albaniya bədii keramikasının istehsalında özünü xüsusilə parlaq şəkildə büruzə verən dekorativ-tətbiqi sənətin daha da inkişaf etdiyini qeyd etmək lazımdır. Məhz antik dövrdə dulus çarxının demək olar ki, tamamilə istifadədən çıxmasına və alban keramikasının böyük bir qisminin əllə hazırlanmasına baxmayaraq, keramika öz formalarının simmetrikliyi və zərifliyi ilə fərqlənir. Keramikanın ən səciyyəvi tiplərindən biri olan "süddanlar" xüsusilə maraqlıdır. Bunlar yumru gövdəli, birqulplu, azacıq yuxarı qalxmış uzunsov novçalı qablardır, novçanın başlandığı yerdə adətən çox vaxt "süzgəc" düzəldilirdi. Bunlar bişirilməmişdən qabaq ağımtıl və ya qırmızımtıl şirə ilə örtülürdü. Qabların boğazı və qulpu bir çox hallarda batıq və ya çökək ornamentlə, gövdəsi isə simmetrik şəkildə yerləşdirilən yapışdırma düyməvari naxışlarla bəzədilirdi. Səciyyəvi novçanın hər iki tərəfinə vurulan bu cür yapışdırma naxışlar həmin qablara zoomorf görkəm verir. Kürədə bişirilən məşhur birayaqlı və üçayaqlı qırmızı və qara vazalar kimi, təsvir edilən qabların da yerli xalq ənənəsində dərin kökləri vardır və bu ənənənin ünsürləri hellinizm dövrünün alban incəsənəti üçün xüsusilə səciyyəvidir. Eyni zamanda inkar etmək olmaz ki, Yaxın Şərq və Aralıq dənizi ölkələri xalqlarının mədəniyyəti də alban



downloaded from KitabYurdu.az

mədəniyyətinə müəyyən təsir göstərmişdir. Eramızdan əvvəl IV-III əsrlərdə geniş yayılmış olan bədii keramikaya əməli əhəmiyyətini də saxlayan ən müxtəlif zoomorf və antropomorf qablar daxildir.

Ümumiyyətlə, mücərrəd ornamentlə bəzədilmiş qablara xüsusi düzəlmiş qulpların, qapaqların və digər lazımlı ünsürlərin köməyi ilə zoomorf və ya antropomorf görkəm verilir. Bir çox saxsı qablarda heyvanların, quşların, insanın yapışdırma və basma ornamentlə, boya ilə yaradılmış sxematik təsvirləri vardır ki, bunlar alban incəsənəti haqqında müəyyən təsəvvür yaradır.

Bununla əlaqədar olaraq İsmayıllı rayonunun Hacıhatəmli yaşayış yerindən tapılmış dabanlı oturacağı olan boz rəngli vazanı xüsusilə qeyd etmək lazımdır; Gövdəsi yapışdırma naxışla bəzədilmiş qabın kiçik şaquli qulpları vardır, ağzı dəyirmidir. Şaquli qulpların hər iki tərəfinə çiçək şəklində kiçik naxışlar yapışdırılmışdır; qulpun dibində də buna bənzər yapışdırma naxış vardır. Yapışdırma naxışların köməyi ilə qaşlar, gözlər, qulaqlar və üzün hər iki tərəfindən sallanan iki hörük, batıq cızıqların köməyilə kirpiklər bildirilmişdir. Qadın çöhrəsinin zəngin təxəyyülü naməlum usta tərəfindən məharətlə yaradılmış təsviri əsrləri arxada qoyaraq bizə gəlib çatmışdır. Buna oxşar antropomorf saxsı qablar qədim Şamaxı qazıntılarından məlumdur. Qabın gövdəsinin yuxarı hissəsi adam başı formasındadır; qulaqlar, burun, gözlər və bel realist görkəmdə verilmişdir. Təsvir edilmiş keramikaya bənzəyən, maral, keçi, öküz, xoruz, göyərçin, tısbağa və i.a. formasında hazırlanan, realist alban incəsənəti üçün səciyyəvi olan antropomorf saxsı qab Türkiyə ərazisində olan hett abidələrindən də məlumdur. Eramızdan əvvəl IV-III əsrlərdən başlayaraq Albaniyanın dekorativ-tətbiqi sənətində kiçik formalar plastikası, məişət süjetlərinə və mifoloji süjetlərə dair səhnələrin batıq xətlərlə təsvir edildiyi daş heykəllər xüsusi yer tutur. Albaniya terrakotları hər şeydən əvvəl qadın heykəlcikləri, az-az hallarda kişi heykəlcikləri, zoomorf fiqurlar, o cümlədən yüyənli at təsvirləri ilə təmsil olunmuşdur. Alban incəsənətinin bu abidələri olduqca çoxdur: təkcə İsmayıllı rayonunun ərazisində, Mollaisaqlı-Hacıhatəmli yaylasında 60-dan artıq heykəlcik aşkara çıxarılmışdır. Bunlar Mingəçevir, Qəbələ və Şamaxı qazıntılarından da məlumdur. Albaniyanın kiçik gil heykəlyapma (koroplastika) sənəti arxaik formaları xeyli dərəcədə hifz edib saxlamış və o, Şərq incəsənəti üçün səciyyəvi olan üslubda yaradılmışdır.

Çox ehtimal ki, terrakotlar ən qədim zamanlardan məhsuldarlıq rəmzi sayılan Ana İlahəsinin təsviri ilə bağlı olmuşdur.

Albaniya koroplastikasının müəyyən hissəsi Azərbaycanın qədim əhalisinin etiqadlarını və təsəvvürlərini əks etdirən, qonşu ölkələrin incəsənəti ilə ümumi cəhətləri olan zoomorf təsvirlərlə təmsil edilmişdir. Arxaik cizgiləri saxlayan terrakot heykəlciklər antik dövrdə Ön Asiya və Yaxın Şərq incəsənətinin lokal məktəblərindən birini təmsil edir.



downloaded from KitabYurdu.az

Albaniyanın monumental heykəltəraşlığı arxeoloji tədqiqatların gedişində əsasən Şirvanda və Qarabağda üzə çıxarılmış antropomorf daş heykəllərlə təmsil olunmuşdur. Onların böyük bir qismi əhəngdaşından hazırlanmışdır və adamı boyaboy və ya hətta daha iri ölçüdə təqdim edir. Heykəllərin başları bir qayda olaraq qopuqdur. Sağ əl sol döşə, sol əl qarın üstünə və ya sağ əldən aşağıya qoyulmuşdur. Şamaxı rayonunun Çıraqlı kəndində tapılmış daş heykəllər qrupunda üzün cizgiləri (gözlər, burun, qulaqlar) aydın təsvir olunmuş, sakitlik, müdriklik, mərdlik kimi xassələrin realistcəsinə ifadə edilməsinə cəhd göstərilmişdir.

Daş heykəllər əsasən yerli bütpərəst əhalinin səcdə etdiyi kişi bütləri idi. Bu ənənə antik dövrdən ta ilk orta əsrlərə qədər yaşamışdır.

Daşdan yalnız monumental heykəllər deyil, həm də kiçik fiqurlar yonulur və onların üzərində müxtəlif təsvirlər həkk edilirdi. Şamaxıda alban tətbiqi sənətinin maraqlı abidəsi tapılmışdır. Bu abidə ağ əhəngdaşından hazırlanan, qədəhə oxşayan zəngşəkilli bir qabdır. Onun içi boş olan gövdəsi bayır tərəfdən çökək ornamentlə örtülmüşdür. Çəpəki və sınıq xətlərlə haşiyələnmiş kompozisiyanın mərkəzində bir-birinin dalınca sıra ilə gedən beş heyvan - təkə, donuz, bəbir və aydın nəzərə çarpan iki maral fiquru yerləşdirilmişdir. Qədəhin yuxarısı üç qabarıq başcıqla - kişi, qadın və it başcıqları ilə qurtarır. İsmayıllı rayonu ərazisində Uzunboylar məskənində də üzərində zoomorf təsvirlər olan daş piyalə tapılmışdır. Həm də buradakı maral təsvirləri, ornament motivləri qədim Şamaxıda tapılmış qədəhdə olan maral təsvirlərinə və ornament motivlərinə bənzəyir. Haqqında danışılan qabların hər ikisi eyni məktəbin məhsulu olub mədəniyyət dairəsinə mənsubdur.

Demək lazımdır ki, plastik materialda, torevtika əsərlərində, qliptikada çoxsaylı maral təsvirlərinin motivi məhz alban dekorativ tətbiqi sənəti üçün səciyyəvidir.

**Din.** Strabonun məlumatına görə, albanlar yunanca Helios, Zevs və Selena adlandırılan üç allaha sitayiş edirdilər. Antik müəllifin dediyinə görə, albanlar Selenaya üstünlük verirlər. "Onun məbədi İberiyanın yaxınlığındadır. Kahin vəzifəsini basilevsdən sonra ən böyük hörmət sahibi olan, yaxşı məskunlaşmış geniş hiyera xoranın başında, onun (hiyera xoranın) və hiyerodulların başında duran kişi icra edir, hiyerodulların bir çoxu dini vəcd vəziyyətindədirlər və gələcəyi xəbər verirlər". Başqa bir məbəd vilayəti Kür çayının sahilində idi. Dion Kassinin yazdığına görə, Pompey albanlara qarşı yürüşü zamanı "qış düşərgəsini Anait vilayətində Kür sahilində salmışdı". Həm Strabon, həm də Dion Kassi Qərbi Albaniyanın məbəd vilayətlərindən danışırlar. Maraqlıdır ki, Şərqi Albaniyada Kaspi dənizinin adalarında da müqəddəs vilayətlər olmuşdur. Bu barədə Mela məlumat verir: "Kaspi dənizində Talqa (torpağa xüsusi) qulluq edilmədən də məhsuldardır; (Talqada) yerdə və ağacda bitən hər cür meyvələr çoxdur, lakin qonşu xalqlar (Talqada) hasilə gələn bəhrəyə toxunmağı yolverilməz və küfr hesab edirlər; onların inamına görə, bütün bunlar



downloaded from KitabYurdu.az

allahlar üçün hazırlanmış və allahlar üçün saxlanılmalıdır". Antik müəllif ibadətgahın özü haqqında heç nə demir, nə hiyereveslərin, nə də hiyerodulların adını çəkir. Belə bir cəhət diqqəti cəlb edir ki, Talqada meyvələr çoxdur, lakin onlara toxunmaq "yolverilməz və küfr sayılır", çünki burada hər şey allahlar üçündür. Mela müqəddəs ağacları olan müqəddəs ərazilərdən bəhs edir, bu isə Albaniyanın şərqində, məsələn, Selena ibadətgahının hiyera xorasında işlərin nisbətən bir qədər başqa cür olduğunu göstərir. Çox ola bilər ki, Kaspi Talqasında daha primitiv xarakterli bir ibadətgah və ya bir növ qədim pir varmış. Məlumat kasadlığı ölkənin baş ibadətgahını xarakterizə etməyə imkan vermir, lakin güman etmək olar ki, məhz geniş əraziyə və çoxsaylı əhaliyə malik olan Selena məbədi ictimai və dini həyatda mühüm rol oynamışdır. Bu, xüsusilə ona görə düzgündür ki, Kiçik Asiyanın bəzi ibadətgahlarında olduğu kimi, bu məbəddə də hiyerevs basilevsden sonra ikinci şəxs olmuşdur.

Qədim Albaniya panteonunun bir allahının Strabon tərəfindən antik dünyanın məşhur baş allahı Zevslə eyniləşdirilməsi ilə əlaqədar olaraq iri daş bütlər maraq doğurur. Bunların ən səciyyəvi olanları Xınıslıda, Dağkolanıda və Çıraqlıda aşkara çıxarılmışdır. Bütlər yerli məsaməli daşdan yonulmuşdur. Çoxunun əl-ayağı və ya başı yoxdur. Bütlərin böyük bir qisminin boyu adam boyuna çatır. Bunlar xronoloji cəhətdən eramızdan əvvəl son əsrlərə - eramızın ilk əsrlərinə aiddir. Bütün bu bütlər yonulma texnikasına görə nisbətən aşağı səviyyədə durur, qədim Yunanıstan və Roma heykəltəraşlarının heykəlləri ilə müqayisəyə gəlmir.

Maraqlıdır ki, mərhumla birlikdə qəbrə qoyulmuş keramika məmulatının və başqa əşyaların bir qismi ayparanı təsvir edən ornamentlə örtülmüşdür. Ay ilahəsinin rəmzləri bununla məhdudlaşmır. Rəmzlər sırasına ilahə təsvirinin digər şərti işarələri də aiddir. İlahəyə sitayiş maddi mədəniyyət abidələrində tez-tez şəkli verilən müqəddəs ağacla bağlıdır. Müqəddəs ağaclara (dağdağan, saqqız ağacı, dəmirağacı, çinar, qarağac və s.) sitayişin izləri bizim günlərdə də qalmışdır. Ay rəmzlərindən biri də görünür, ilan təsviridir. Ornamentdə ilan təsviri Qafqaza məxsus bir rəmz sayılır. Bir çox qəbirlərdən xeyli bilərzik tapılmışdır ki, onların bir qisminin başı ilan şəklindədir. İlan şəkli bir sıra qablar üstündə də vardır. Sırğalara, üzüklərə və digər bəzək şeylərinə geydirilən rəngbərəng qaş-daş da, ehtimal ki, Ayın həyat bəxş edən qüvvəsi ilə bağlıdır. Bir çox hallarda "üç", "yeddi", "on bir" miqdar nisbətini ifadə edən ornamentlə bəzədilmiş xeyli miqdarda keramika məmulatının mövcud olması güman etməyə əsas verir ki, Albaniyanın qədim əhalisi qəməri təqviminin güclü təsiri altında imiş. "Üç" ədədi ehtimal ki, təzə ay fazasının yunanlarda Selena adlanan ilk üç günü ilə bağlı idi. Ay altıncı gün Artemida, on birinci gün hekata olur. Başqa bir rəvayətə görə, Ay Yerin üzərində olanda Selena, Yerin daxilində olanda Artemida, əks tərəfdə olanda isə hekatadır. Beləliklə, "üç" ədədi ayın dəyişilmə fazalarının və onlardan asılı olan qüvvələrin rəmzidir. Ay albanların dini təsəvvürlərində fövqəladə rol oynayırdı, güman ki, məbəd hiyerodullarının vəcd və ya divanəliyi allahın vergisi



downloaded from KitabYurdu.az

sayılırdı, yəni Selena ilahəsinə sitayiş ilə bağlı idi. Selenaya sitayişin müxtəlif formaları sonralar da yaşamaqda davam edirdi.

Yaxın vaxtlarda Azərbaycanda və Şərqi Gürcüstanda qədim etiqadların ünsürləri tapılmışdır. Mollaisaqlıda, Mingəçevirdə, Xınıslıda aşkar edilmiş terrakot heykəlciklər bu baxımdan maraqlıdır. Heykəlciklər kiçikdir (20 santimetrə qədər), bəzi fiqurlarda boyunbağıların və bilərziklərin qabarıq təsvirləri, həmçinin geyimin sxematik cizgiləri gözə dəyir, bir çox hallarda baş və əl-ayaq qopuqdur. Ola bilsin ki, bu, dəfn adəti ilə əlaqədardır. Terrakot heykəlciklər eramızdan əvvəl son əsrlərə - eramızın ilk əsrlərinə aid edilir. Qədim alban heykəlciklərini Qobustan qaya rəsmləri ilə tutuşduraraq belə bir fərziyyə söyləyirlər: qadın heykəlcikləri də, qadın rəsmləri də mənşə etibarı ilə Bərəkət ilahəsinin obrazından götürülmüşdür. İosif Flaviyə görə, parfiyalı bir qadın ərinin vəfatından sonra zorla yəhudi Anileyin evinə aparılmış, lakin oraya "özünün də, ərinin də sitayiş etdikləri allahların təsvirlərini gətirmişdir. Bu yerlərin sakinlərində bir adət vardı: evdə bütlər saxlayır, səyahətə çıxanda yanlarında aparırdılar; buna görə də o qadın öz ölkəsinin adəti üzrə bütləri özü ilə gətirmişdi. İlk vaxtlar onlara gizlində ibadət edirdi. Bütlərə birinci ərinin evində necə sitayiş etmişdisə, Anileyin arvadı olandan sonra da eləcə sitayiş eləməyə başlamışdı". Sitatdan göründüyü kimi, bütlər çoxlu və portativ idilər. Burada parfiyalıların evdə büt saxlamaq adəti xatırladılır, bu adət bir çox səbəblərə görə albanlara da aid ola bilərdi. Gətirilən parçada söhbət, görünür, məhz Azərbaycanda aşkar edilən fiqurlara bənzər terrakot heykəlciklərdən gedir. Qədim alban terrakot heykəlcikləri Selena ilahəsini, digər müxtəlif allahları təmsil edə bilərdi. Helios, Zevs və Selena allahlarının adları qədim dövrün başqa xalqlarında da çəkilir. Məsələn, Strabon Parfiya dövrü haqqında belə bir məlumat verir ki, "farslar heykəllər və ya qurbangahlar ucaltmırlar, Zevsə səcdə edirmiş kimi səmaya səcdə edərək hündür bir yerdə qurban kəsirlər. Onlar Heliosu Mitra adlandıraraq ona, habelə Selenaya və Afroditaya səcdə edirlər; sonra od, torpaq, külək və suya sitayiş edirlər, boynuna çələng keçirilmiş qurbanlıq heyvanı müəyyən qaydada pak edilmiş yerə gətirərək ibadətdən sonra qurban kəsirlər. Müqəddəs mərasimi icra edən kahin qurbanlıq əti doğrayır, dindarlar paylarını götürüb gedirlər, allahlara heç nə saxlamırlar; onların dediklərinə görə allaha qurbanın ruhundan savayı heç nə lazım deyildir. Lakin bəzilərinin dediklərinə görə, onlar piyliyin kiçik bir tikəsini oda atırlar". Gətirilən parça göstərir ki, Zevs, Helios və Selena farsların və albanların eyni allahları sayılır. Helios ilə Mitranın, Strabon dediyi kimi, eyni allah olması diqqəti cəlb edir. Yunanlar və romalılar məbədlərdə qurbangahlardan istifadə etdikləri halda, farslar istifadə etmirdilər. Qurbanvermə mərasimi məbədin yaxınlığında məxsusi ayrılan "pak edilmiş" yerdə icra olunurdu. Qurbankəsmə və ətpaylama adəti Azərbaycanın hər yerində əhali arasında indi də yayılmışdır.



downloaded from KitabYurdu.az

Dəfn adəti din ilə bağlıdır. Strabon yazır ki, "albanlar yalnız valideynlərinin deyil, başqa [adamların] da qocalığına hədsiz hörmət bəsləyirlər. Nə ölənlər haqqında fikirləşmək, nə də onları xatırlamaq lazım bilinmir. Lakin (onlar) ölənlərlə birlikdə var-dövləti də basdırırlar. Buna görə də albanlar kasıb dolanırlar, atadanqalma heç nələri olmur". Sonralar aparılan və albanların dəfn adətlərini bütün rəngarəngliyi ilə aşkara çıxaran arxeoloji qazıntılar Strabonun bu təsvirini tamamlayır. Nisbətən kiçik ərazidə başlıca olaraq həm torpaq qəbirlər, həm də üfüqi vəziyyətdə qoyulan küplərdən ibarət qəbirlər vardı. O dövrün digər qəbir növləri katakomba qəbirləri, taxta qəbirlər, təknə və çiy kərpic qəbirlərdir. Əksər hallarda mərhumu geyimdə, bəzək şeyləri ilə birlikdə dəfn edirdilər. Qazıntılar zamanı kauri çanaqları, üstündə dairəcik şəkilləri və sxematik göz təsviri olan cürbəcür muncuqlar, paltarın altından taxılan bir sıra bəzək şeyləri tapılmışdır. Belə bəzək şeyləri qonşu Gürcüstanın, Ermənistanın və Dağıstanın antik dövr təbəqələrində də çoxlu miqdarda aşkar edilmişdir. Bu həmaillərin köməyi ilə uşaqlardan və böyüklərdən azar-bezar, dərd-bəla guya uzaqlaşdırılır, həmçinin onları sehr-cadudan hifz edirdilər. Bədnəzərdən qorunmaq üçün gözmuncuğu və ya həmaillər taxmaq ənənəsi Azərbaycanda və onun hüdudlarından uzaqlarda indi də vardır. Qəbirə mərhumla birlikdə əmək alətləri və bəzən silah qoyurdular. Ayrı-ayrı qəbirlərdə qırxılıqlar aşkar edilmişdir. Demək olar ki, həmişə qəbirə heyvan və quş əti ilə, həmçinin meyvə, süd və məstedici içki ilə dolu gil qablar qoyulurdu. Yaşlılar basdırılanda ənənəvi dəfn adətləri gözlənilirdi; *uşaqlar basdırılanda* ənənə pozulurdu. Təsəvvürlərə görə, *mərhum axirətdə həyatını davam etdirir, işıqlı dünyadakı həyatını xatırladan bir həyat sürürdü. Ehtimal ki, buna görə mərhumun paltara, ərzağa ehtiyacı vardı, axirətdə ona sikkələr də lazım ola bilərdi.* Güman etmək olar ki, dəfn məqamında küplərdə açılan kiçik deşiklər mərhumun ruhunun qəbirdən sərbəst çıxmasına imkan yaratmaq üçün imiş.

Qəbirdə ölünün başının hansı tərəfə qoyulması dini xüsusiyyətlər məsələsinin həllində müəyyən əhəmiyyət kəsb edir. Məlumdur ki, torpaq qəbirlər mədəniyyətinin daşıyıcıları qadınları sol, kişiləri sağ böyürləri üstdə dəfn edirdilər, qadınların başlarını qərbə, ayaqlarını şərqə tərəf, kişilərin başlarını cənub-şərqə, ayaqlarını şimal-qərbə tərəf qoyurdular, həm də bütün hallarda ölünün üzünü günəşin ən gur işıq saldığı səmtə çevirirdilər. Ölünün əsasən baş tərəfində çoxlu gil qablar olması mərasimin mürəkkəbliyini göstərir. Yarıbayarı doldurulmuş quyuda çox vaxt tonqal qalayır, qurbanlıq heyvanın şaqqalanmış ətini və kəsilmiş başını oraya atırdılar. Beləliklə, bəzi əlamətlər sübut edir ki, torpaq qəbirlər mədəniyyətinin daşıyıcıları günəşə ibadət edir, oda tapınırdılar. Başqa bir böyük mədəniyyətin nümayəndələri ölüləri iri gil küplərdə dəfn edir, mərhumu küpə sağ və ya sol böyrü üstə, bükülü vəziyyətdə qoyurdular. Bəzən belə izah edirlər ki, skeletin bükülü halda qoyulması mərhuma ana bətnindəki vəziyyəti vermək arzusundan irəli gəlmişdir. Əgər küp qəbirlərdə ayaqları uzadılmış skeletlərə rast gəlinməsəydi, bu yozum inandırıcı olardı. Görünür, ənənə ölənin şəxsi



downloaded from KitabYurdu.az

əşyalarından faydalanmağı yasaq edirdi: qəbirdə mərhumun geyimi əynində qalırdı. İri dəfn küpünün ətrafında çox vaxt qida və içki ilə dolu kiçik keramik qablar düzülürdü. İnanırdılar ki, ruh kip bağlanmış küpün içindən çıxa bilməz. Buna görə də böyrü üstə qoyulmuş dəfn küpünün yuxarı tərəfində kiçik deşik açır və onu keramika qəlpəsi ilə qapayırdılar. Kömür və kül qalıqlarından göründüyü kimi, tonqal adətən dəfn küplərinin ağzına yaxın yerdə qalanırdı. Çiy kərpic qəbirlər məhəlli səciyyəli din haqqında müəyyən məlumat verir. Meyiti torpaqdan seçmək üçün çox vaxt qəbirin yerinə ağ əhəng çəkilir, habelə çiy kərpic və ya taxta döşənirdi. Mərhumun geyimi əynində qalırdı; qabların sayı lap azaldılmışdı; qablar demək olar həmişə mərhumun ayaq tərəfinə qoyulurdu. Bunlar əksər hallarda səhəng və cam idi. Biz hər dəfə qədim əhalinin səcdəgahlarından danışanda səmtin müəyyən edilməsində sistemsizliklə üz-üzə gəlirik, lakin bəzən sabitlik də görmək olur. Məsələn, Mingəçevir və Torpaqqala qəbirlərinin istiqaməti qədim alban ibadətgahının yeri haqqında fərziyyə söyləməyə imkan vermişdir. Çiy kərpic türbələrin istiqaməti qərbdən şərqədir (başı şərqə tərəfdir). Bu, sübut edir ki, səmt Şərqə götürülürmüş. Güman etmək olar ki, həmin sabit səmt gündoğan tərəfdir.

Dinin parlaq əlamətlərindən biri ornamentdir. Torpaq qəbirlərdən tapılmış keramik əşyalar üçün çökək, qismən də qabarıq ornament səciyyəvidir, bu ornament paralel üfüqi və ya şaquli çökək xətlərdən, bir sıra kərtiklərdən, qabarıq düymələrdən və ya ayabənzər təsvirlərdən ibarətdir. Demək olar bütün hallarda qabın yuxarı hissəsi paralel xətlərlə, həmçinin sağa və ya sola meylli kərtiklərlə haşiyələnir, üçdən on birə qədər çökək xətlərə toxunan paralel qanovcuqlar halqa əmələ gətirir. Torpaq qəbirdən tapılmış qabın gövdəsində düz və dalğavari xətdən əlavə, çökək çevrələrdən və onların ətrafında, yaxud içərisində yerləşdirilən çökək nöqtələrdən ibarət ornament vurulmuşdur. Nöqtələrin sayı əsasən ya yeddi, ya da doqquzdur. Nöqtələrdən ibarət batıq ornamenti olan dairəciklər üç-üç yerləşdirilir və on birə qədər kompozisiya ünsürü əmələ gətirir; ornament bir çox hallarda əhalinin dünyagörüşünü kifayət qədər dəqiq əks etdirir. Məsələn, qablarda ay ayininin mövcudluğunu təsdiqləyən ayabənzər qabarıq təsvirə rast gəlinir. Qabların qulpunda və ağzında çəkilmiş xətlər aydın sübut edir ki, "üç" və "yeddi" ədədləri kimi, "on bir" ədədinin də xüsusi dini mənası varmış. Ornamentin tədqiqi göstərir ki, torpaq qəbirlərdən çıxarılmış qablarda qırmızı boyalı rəsmlər yoxdur. Torpaq qəbirlər mədəniyyətinə Kürdən şimaldakı ərazilərdə (buraya küp qəbirləri mədəniyyətinin nüfuz etməsinə qədər) yayılmış ornament elementləri xasdır. Küp qəbirlər mədəniyyəti üçün həm çökək və qabarıq ornament, həm də qabın üst yarısını tutan qırmızı boyalı rəsmlər səciyyəvidir. Hər rəsm bir neçə paralel xətdən, rənglənmiş və rənglənməmiş üçbucaqlardan, sınıq, dalğavarı xətlərdən ibarət olan ayrı-ayrı ünsürlərə parçalanır. Məsələn, gil ağızlı və iki qulplu (cizgilər bir qulpda doqquz, o biri qulpda yeddidir) qabın üzərində üç cərgə qırmızı boyalı ornament vardır: əvvəlcə bir cərgə çəpəki cizgilər, sonra üçbucaq mötərizələr düzülmüşdür - bunlar



downloaded from KitabYurdu.az

səkkiz tağı saxlayır. Qabın ağzına yoğun bir dairə çəkilmişdir. Gen ağızlı digər iki qulplu qabın üzərində açıq qırmızı boya ilə işlənmiş dördlaylı kompozisiya öz semantikası ilə diqqəti cəlb edir. Birinci cərgə qabın ağız hissəsinin dövrəsinə çəkilmiş xətlərdən və şaquli kərtiklərdən, ikinci cərgə şaquli sınıq xətlərdən ibarətdir. Əsas semantik yük üçüncü cərgəyə düşür: təsvirin mərkəzində parlaq səma cismi və ətrafa saçılan on bir şüa görünür, sağda bir budaq, solda iki budaq gözə dəyir. Bütün bunlar üç sütuna söykənir. Ağcabədidən tapılmış ikiqulplu bir qaba üç cərgə qəhvəyi ornament vurulmuşdur. Üst və alt cərgələr tağlardır. Onların arasında meandrı xatırladan təsvir verilmişdir. Qabın hər qulpunda yeddi çökək cızıq vardır. K.V.Treverin fikrincə, qabda daha qədim qabların formaları və naxışları yeni tərzdə təkrar olunur. Birqulplu qabların birinə qırmızı boya ilə üçcərgəli ornament çəkilmişdir: birinci cərgə çəpəki cızıqlardan, ikinci cərgə şaquli sınıq xətlərdən ibarətdir. Üçüncü cərgədə tağlar təsvir edilmişdir. Qabın qulpunda qırmızı boya ilə on çəpəki cızıq (lüləsinin ucunda qırmızı boya ilə dairəcik) çəkilmişdir. Lüləsi və bir qulpu olan başqa qaba dörd cərgə ornament vurulmuşdur. Alt və üst ornament tağların şəklini təkrar edir (hər cərgədə on tağ). İki orta cərgəni şaquli sınıq xətlər (təqribən qırx dəfə) ornamenti nöqtələrlə işlənmiş zəncir təsviri tutur. Qabın ağzı qırmızı boya ilə rənglənmiş lüləsində üç xətt, qulpunda xaç işarələrindən ibarət ornament vardır. Maraqlıdır ki, Mil düzünün küp qəbirlərindəki qablarda da torpaq qəbirlərdən tapılmış qablardakı "üç", "yeddi" və "on bir" ədədi semantikası bu və ya digər formada təkrar olunur. Mil düzündə aşkar edilmiş keramikanın ornamenti Albaniyanın qalan hissəsində tapılmış qabların rəsmlərindən öz zənginliyi ilə fərqlənir. Mingəçevir keramikasının çökək və qabarıq rəsmləri öz spesifik xüsusiyyətlərinə malik olmaqla bərabər, bəzən Yaloylutəpə tipli torpaq qəbirlərdən tapılmış gil qabların ornamentinə bənzəyir. Mingəçevir qablarında olan ornamentin bir nümunəsi maraqlı ritondur: ritonun bütün gövdəsi boyunca şaquli çökək xəttlər sınıq xətlərlə növbələşir. Belə sadə ornament eyni biçimli, lakin maral barelyefi olmayan başqa bir qabda da vardır. Yük heyvanları ilə daşınan böyük və yanda gəzdirilən kiçik mehtərələrin çökək, bəzi hallarda qabarıq ornamenti Mingəçevir üçün səciyyəvidir. Rəsmlərin xeyli hissəsi ya ideologiyanı əks etdirir, ya da keramika rəssamın təxəyyülünün bəhrəsidir. Eyni sözlər birqulplu və lüləli qabların çökək və qabarıq ornamentinə də aiddir. Mehtərələrin və birqulplu qabların ornamentində ədədi semantika mühüm rol oynayır. Mingəçevir üçün zəngin boyalı keramika səciyyəvidir. Boyanın keyfiyyəti Mil düzündən tapılmış qablara vurulan boyanın keyfiyyəti kimidir, lakin rəngi bir qədər açıqdır. Birqulplu səhənglərin birində dimdiklərini sərv ağacına tərəf tutmuş quşlar və ağacdan yuxarıda qabarıq yarımdairə təsvir edilmişdir. Quşlar ilə ağacın arasında, bir tərəfdən, şüasaçan cisim və rənglənmiş üçbucaq, o biri tərəfdən, eynilə o cür səma cismi vardır. Quşların arxasında ağacların sxematik təsvirləri və üçbucaqlar görünür. Güman ki, rəsm nəqli-mifoloji əhəmiyyətə malikdir. Birqulplu, novçalı başqa bir səhəngdə fauna və flora daha canlı bir şəkildə əks



downloaded from KitabYurdu.az

etdirilmişdir. Rəsmdə yenə də qarşı-qarşıya dayanmış müqəddəs quşlar təsvir olunmuşdur, onların arasında həyat ağacı yoxdur, lakin bir tərəfdən, rənglənmiş üçbucaqlar, dama-dama üçbucaqlar, şaxələnmiş buynuzları olan maral və şüasaçan göy cismi, onların arxasında yenə maral və rənglənmiş üçbucaq, digər tərəfdən isə rənglənmiş üçbucaq, qollu-budaqlı ağac və şüasaçan səma cismi vardır. İki şaquli qulpu olan enliboğaz keramik qab maraq doğurur. Bir qabda qırmızı boya ilə bizə əvvəlki rəsmlərdən tanış olan üçbucaqlar çəkilmiş və onların üzəri ilə yeriyən iki quş təsvir edilmişdir. Başqa qablarda da eyni üçbucaqlar və müqəddəs quşlar rəsm olunmuşdur. Rəsmlər güman ki, rəmzi məna daşıyır. Qabların birində deşiyi iki tərəfə çıxan iki qabarıq məməcik vardır. Sərv təsvirli səhəngi xatırladan başqa bir qulplu keramik qabda qarşı-qarşıya hərəkət edən quşlar və bəzisi rənglənmiş üçbucaqlar nəzərə çarpır. Quşların arasında budaqlı ağac görünür. Çiy kərpic türbələrdə aşkar edilmiş keramikada qırmızı boyalı rəsmə bir dəfə rast gəlinir; çökək xətlərə vurulan ornament simmetrik deyildir, o, qabın qıraqlarına çəkilmiş üç qeyri-paralel xətdən, sağa və sola meyil edən bir neçə cərgə çökək cızıqlardan ibarətdir. Ornament bəsitdir. Strabonun yunan adları ilə adlandırdığı eyni allahlara sitayiş olunması, görünür, onu sübut edir ki, farsların, madalıların, ermənilərin və albanların oxşar panteonu varmış, lakin hər bir ayrıca halda üstünlük allahlardan birinə verilirdi. Bir tərəfdən, farsların, madalıların və ermənilərin, digər tərəfdən, qədim Qafqaz albanlarının panteonları arasında müqayisəni davam etdirsək, o nəticəyə gələrik ki, Strabonun yunanca adlandırdığı alban allahları Helios, Zevs və Selena İran allahları Mitraya, Ahura-Mazdaya və Anahitaya tamamilə və ya qismən uyğun gələ bilər. Arşakilər dövrünün sonu qədim dini təsəvvürlərin tənəzzülə uğraması, sonra isə xristianlığın yayılması ilə səciyyəvi idi. Yeni təlimin qələbəsi heç də köhnə, xristianlıqdan əvvəlki dini baxışların məhv olub getməsi demək deyildi. Qədim ayinlərin qalıqları geniş xalq kütlələri arasında yaşamaqda davam edirdi. Moisey Kalankatlı məlumat verir ki, çar Vaçaqan qədim ayinin nümayəndələrini "ya suda batırır, ya da qovurdu; başqa bir qismini qul edirdi". Onun yazdığına görə, Qambeçdə və Alvankda "sərt tədbirlər görülürdü". Repressiyalar üzündən təriqətlər xəlvətə çəkilir, xristianlığa müqavimət göstərirdilər. Yeni tədbirlər həyata keçirmək lazım idi. Orta əsrlər Albaniyasının tarixçisi danışır ki, Vaçaqan "əmr verdi ki, cadugərlərin, sehrbazların, kahinlərin, barmaqkəsənlərin və türkəçarəçilərin övladlarını yığıb məktəbə versinlər, ilahi elmə yiyələndirsinlər və səriştəli etsinlər...". Xristianlıq ideyaları yayıldığı kimi, hakim yuxarı təbəqənin iqtisadi və siyasi hökmranlığı da yayılırdı. Xristianlıq tez-tez ciddi məğlubiyyətlərə düçar olurdu. Məsələn, Kalankatlıya görə, "Alban katolikosu Qriqorisin ölümündən sonra barbar Şərq xalqları yenə bütpərəstliyə qurşandılar və çoxlu atəşgahlar quraraq xristianlığa qarşı təqiblərə başladılar". Antik dövrün və orta əsrlərin yazıçıları tərəfindən xatırladılan etiqadlar Albaniyada hələ uzun müddət yaşadı.



downloaded from KitabYurdu.az

## XRONOLOJİ CƏDVƏL

**1 milyon 500 min-1 milyon 200 min il qabaq** – Azərbaycan ərazisində insanın ilk izləri.

**1 milyon 200 min-1 milyon il qabaq** – Azıx mağarasında insan həyatının başlanması.

**400 min-350 min il qabaq** – Azıx mağarasında azıxantropun çənə fraqmenti.

**100 min-35 min il qabaq** – Orta paleolit.

**40-35 min il qabaq** – Yuxarı paleolitin başlanması. Müasir insanın meydana gəlməsi.

**Eramızdan əvvəl XIII-VI minilliklər** – Mezolit və Neolit. İstehsaledici təsərrüfatın təşəkkülünün başlanması.

**Eramızdan əvvəl VI-IV minilliklər** – Eneolit. Şomutəpə mədəniyyəti.

**Eramızdan əvvəl IV-III minilliyin sonu** – İlk tunc dövrü. Kür-Araz mədəniyyəti.

**Eramızdan əvvəl III minilliyin son sülsü** – Azərbaycan ərazisində ilk tayfa ittifaqları. Kutilər, lullubilər və hürrilər haqqında Şumer-Akkad mənbələrinin məlumatı.

**Eramızdan əvvəl III minillliyin sonu-II minilliyin birinci yarısı** – Orta tunc dövrü.

**Eramızdan əvvəl II minillik** – Naxçıvan mədəniyyəti.

**Eramızdan əvvəl II minilliyin birinci yarısı** – Ön Asiyaya gələn ari tayfaları Urmiyasahili rayonunda hürrilərlə təmasda olmuşlar.

**Eramızdan əvvəl II minilliyin ikinci yarısı-I minilliyin başlanğıcı** – Son tunc və ilkin dəmir dövrü. Sosial və əmlak cəhətdən parçalanmanın dərinləşməsi. Xarici əlaqələrin güclənməsi. Xocalı-Gədəbəy, Qayakənd-Xoroçoy və Talış-Muğan mədəniyyətləri.

**Eramızdan əvvəl II minilliyin sonu** – Azərbaycanın ən inkişaf etmiş rayonlarında ibtidai icma quruluşunun süqutu və dağılması.

**Eramızdan əvvəl II minilliyin sonu-I minillliyin başlanğıcı** – Azərbaycan ərazisinə İrandilli tayfaların soxulması.

**Eramızdan əvvəl I minilliyin başlanğıcı** – Azərbaycan ərazisində ilk iri siyasi qurumların meydana gəlməsi. Zamua.

**Eramızdan əvvəl IX əsrin birinci yarısı** – Cənubi Azərbaycana və qonşu ölkələrə Aşşur dövlətinin müdaxiləsinin başlanğıc dövrü.

**Eramızdan əvvəl IX əsrin başlanğıcı** – Urmiyasahili rayonda Manna, Gilzan, Karalla, Allabria və başqa "çarlıq"ların ilk dəfə xatırladılması.

**Eramızdan əvvəl IX əsrin ikinci yarısı** – Urmiyasahili rayonda Manna çarlığı təşəkkül tapır.



downloaded from KitabYurdu.az

**Eramızdan əvvəl IX əsrin 30 illəri** - Madalıların ilk dəfə xatırladılması.

**Eramızdan əvvəl VIII əsr** – Manna dövlətinin güclənməsi və genişlənməsi. Aşşurlular və urartulular ilə mübarizə.

**Eramızdan əvvəl VIII əsrin ortaları** – Aşşur müdaxiləsinin ikinci mərhələsinin başlanması. Cənubi Azərbaycan və bitişik vilayətlərin ərazisində ilk Aşşur vilayətlərinin yaranması.

**Eramızdan əvvəl 714-cü il** – II Sarqonun Urartuya qarşı yürüşü.

**Eramızdan əvvəl VIII-VII əsrlərin sonu** – Kimmerlərin, skiflərin və sakların Qafqaza və Ön Asiyaya soxulması.

**Eramızdan əvvəl VII əsrin 70 ci illəri** - Azərbaycan ərazisinin bir hissəsində Skif çarlığının meydana gəlməsi.

**Eramızdan əvvəl VII əsrin 70-ci illəri** – Mada çarlığının meydana gəlməsi.

**Eramızdan əvvəl 660-cı ilə yaxın** – Mannada çar Ahşeriyə qarşı üsyanlar.

**Eramızdan əvvəl VII əsrin III çərəyi** – Mada istilalarının başlanması.

**Eramızdan əvvəl 625-585-ci illər** – Kiaksarın hökmranlığı.

**Eramızdan əvvəl 615-ci il** – Madalıların Aşşur ilə müharibəsinin başlanması.

**Eramızdan əvvəl 612-ci il** – Neynəvanın Madalılar və babillilər tərəfindən işğal edilməsi.

**Eramızdan əvvəl 612-605-ci illər** – Aşşur dövlətinin süqutu, onun Mada ilə Yeni Babil çarlığı arasında bölünməsi.

**Eramızdan əvvəl VII əsrin sonu-VI əsrin başlanğıcı** – Mannanın, Skif çarlığının və Urartunun madalılar tərəfindən işğal edilməsi.

**Eramızdan əvvəl 550-ci il** – Mada dövlətinin süqutu. Farsların Əhəmənilər dövlətinin meydana gəlməsi.

**Eramızdan əvvəl 522-ci il** – Qaumatanın çevrilişi.

**Eramızdan əvvəl 521-ci il** – Fravartişin başçılığı ilə madalıların üsyanı.

**Eramızdan əvvəl V əsrin sonu** – Fars çarlarının kadusilərə qarşı yürüşləri.

**Eramızdan əvvəl IV əsr-eramızın III əsri** – Yaloylutəpə mədəniyyəti.

**334-331-ci illər** – Makedoniyalı Aleksandrın istilaları və Əhəmənilər dövlətinin süqutu.

**Eramızdan əvvəl I minilliyin son sülsü-eramızın VII əsri** – Küp qəbirlər mədəniyyəti.

**Eramızdan əvvəl 331-ci il** – Qavqamela yaxınlığındakı döyüşdə madalıların, kadusilərin, sakasinlərin və albanların iştirak etməsi.

**Eramızdan əvvəl IV əsrin son sülsü** - Atropatena dövlətinin meydana gəlməsi. Atropatenanın ilk çarı Atropat.

**Eramızdan əvvəl IV əsrin son çərəyi** – Hellinizmin başlanması.

**Eramızdan əvvəl III əsr** – Albaniya dövlətinin meydana gəlməsi.



downloaded from KitabYurdu.az

**Eramızdan əvvəl 285-280-ci illər** – Kaspi dənizini öyrənmək üçün Heraklidin və Patroklun ekspedisiyaları.

**Eramızdan əvvəl III əsrin son sülsü** – Atropatenanın güclənməsi. Çar Artabazan.

**Eramızdan əvvəl III əsrin 20-ci illərinin sonu** – Artabazan Selevki çarı III Antioxun ali hakimiyyətini tanıyır.

**Eramızdan əvvəl III əsr** – Albaniyada sikkə kəsilməsi.

**Eramızdan əvvəl II əsrin 60-cı ili** – Atropatena yenidən müstəqil siyasət yeridir.

**Eramızdan əvvəl I əsr** – Atropatenada parfiyalıların və Zərdüştiliyin mövqelərinin möhkəmlənməsi.

